A.H.QƏHRƏMANZADƏ



# ŞƏRİFLİ SÜLALƏSİNDƏN BİRİ

*Şirvanımım barı nardır,*
*O Ğöyçayda Bığırdadır.*
*Hər dənəsi sanki qandır,*
*Min bir dərdə dərmandir.*

## TƏŞƏKKÜR VƏ MİNNƏTDARLIQLAR

Əgər insanın hər işi, əməyi, zəhməti xeyirxahlıqdırsa, hesab edirəm ki, o iş şərəfli və uğurludur, çünki həyatda pis peşə və sənət yoxdur, yalnız pis mütəxəssislər ola bilər.

Allaha və Göyçay şəhərinin doğma 3 saylı rus orta məktəbinin bütün müəllimlərinə əsas bilik sahələrinə geniş qapılar üzümə açdıqlarına görə dərindən minnətdaram, topladığım biliklərdən mən həyatım boyu istifadə etdim, o cümlədən bu kitabın yazılmasında.

Mən əvvəllər tələbəsi olduğum (*1965-1971-ci illər*), sonra 25 il (*1978-2002-ci illər*) Dosent işlədiyim Azərbaycan Texniki Universitetinin kollektivinə xüsusi minnətdarlığımı bildirirəm.

Sankt-Peterburq Dövlət Elektrotexnika Universitetinin *"Avtomatik elektrorabitə" – indiki "Kommutasiya sistemləri və informasiyanın paylanması"* kafedrasının kollektivinə hələ indidə də heyranam, mən burada (*1974-77-ci illərdə*) professor Boris Samoyloviç Livşisin rəhbərliyi altında aspiranturada oxumuşam.

İngiltərədən olan elmi rəhbərim – Birminhemdə Aston Universitetinin professoru Con Flada da (*John Edward Flood*) minnətdaram, o 1981-82-ci illərdə İngiltərədə keçdiyim elmi məzuniyyət zamanı telekommunikasiya sahəsində dünyagörüşümün genişlənməsində onun böyük əməyi olmuşdur.

1985/86-cı illərdə Əfqanıstanın (Project AFG-83/001), 1992/93-cü illərdə Liviyanın (Project LIB-88/007) və 1993-cü ildə Pakistanın (Project PAK-88/002) telekommunikasiyalarının inkişafı layihələrində BMT-nin baş ekperti qismində üç missiyamı həyata keçirərkən dəyərli materialların komplektləşdirilməsində göstərdiyi köməyə görə Beynəlxalq Telekommunikasiya İttifaqına (*International Telecommunications Union* - ITU) səmimi minnətdarlığımı bildirirəm.

Bu kitabda uşaqlıq, gənclik və aşağıda şəcərəsi göstərilən ailənin (*mənim ailəm*) – Şərifli sülaləsinin üzvləri ilə bağlı olan sonrakı illərimin xatirələrini yazmışam:




Və, nəhayət, həyatda bütün müvəffəqiyyətlərimi böyük Allahdan, axırıncı 40 il isə həm də mənə arxa olan ailəmdə görürəm.

**Abdul Qəhrəmanzadə**

## ÖN SÖZ

Abdul Qəhrəmanzadənin "*Şərifli sülaləsindən biri*" adlı kitabı qarşınızdadır. Onu yazan elə bir insandır ki, haqqında - "*Self-made man*"- hər şeyini özünə borclu, özü cəmiyyətə çıxan, öz qüvvəsi ilə müvəffəqiyyət qazanan adamdır, söyləmək olar.

Bu kitab çox səmimi və nədəsə sadədildir, bəzi yerlərdə isə çoxdankı illərin bəzi tarixi hadisələrinin təsvirində hardasa qeyri-dəqiqdir, lakin ilk və son sətrinə qədər çox düzgündür və Vətən sevgisi ilə doludur.

Tale ona on adama yetəcək qədər hadisələr bəxş etdi. Bəli, onun eniş-yoxuşları, müvəffəqiyyətləri və uğursuzluqları oldu, amma o, inanın, ani mənfəət üçün özünü dəyişmədi və vicdanı ilə oyuna girmədi...

İşinə, seçdiyi peşəyə sədaqəti ilə bir çox tələbələrinə nümunə göstərdi, Azərbaycan Texniki Universitetində 25 ildən artıq faydalı çalışdı.

Heç bir tələbəsi qiymətləndirmədə onlara qarşı qeyri-obyektiv olduğunu söyləyə bilməz...

Hələ də o, dünyada Beynəlxalq Telekommunikasiya İttifaqı xətti ilə BMT-nin eksperti qismində üç ITU layihələrində Azərbaycanı təmsil edən yeganə azərbaycanlıdır.

Telekommunikasiya sahəsində çoxsaylı əsərlərin müəllifidir, gənc nəslə peşəyə yiyələnməyə, seçdiyi sahənin mütəxəssisi olmağa kömək edir.

Bəli, o daha çox şeyə qadirdir, məsələn, Azərbaycanın Rabitə naziri vəzifəsində, lakin ona imkan vermədilər ki, işləsin, gənc rabitəçiləri cəlb etməklə, güclü komanda yaratmaqla bu sahədə yenidənqurmanı axıradək tamamlaya bilmədi...

Hesab edirəm ki, onun həyat təcrübəsindən istənilən oxucu – mən də qoyduğum məqsədə çata bilərəm! – deyə bilər.

ABŞ prezidenti Con Kennedinin nitqindəki sözlərini başqa cür desək, görünür ki, onun hüququ var söyləməyə: "Soruşmayın ki, sizin üçün Azərbaycan nə edə bilər, soruşun ki, siz Azərbaycan üçün nə edə bilərsiniz..."

. **Subi Qəhrəmanzadə**

## MÜƏLLİF HAQQINDA



Ph.D. Qəhrəmanzadə Abdul Həmidulla oğlu 5 aprel 1946-cı ildə Göyçay şəhərində qulluqçu ailəsində anadan olub.

Abdul müəllim həmişə fəxr edir ki, o, Azərbaycanın Göyçay rayonunun Bığır kəndinin ən böyük sülalələrindən olan Şəriflidəndir.

1965-ci ildə Göyçay şəhərinin 3 saylı rus orta məktəbini gümüş medalla bitirib, Azərbaycan Politexnik İnstitutuna (*AzPİ*), indiki Azərbaycan Texniki Universiteti (*AzTU*), qəbul olur.

Əmək fəaliyyətinə Qəhrəmanzadə A.H. 10 yanvar 1966-ci il tarixində Bakı Poçtamtının nəzdində Azərbaycan Rabitə Nazirliyinin İstehsalat Laboratoriyasında texnik-çertyojçu, baş texnik, sonra da baş mühəndis-elektromexanik kimi başlamışdır.

1969-cu ilin oktyabrında peşəsinə yiyələnmək üçün o Rabitə Nazirliyinin Oktyabr (*indiki Yasamal*) telefon qovşağına baş mühəndis-elektromexanik vəzifəsindən elektromontyor vəzifəsinə, sonrs isə bütün pillələri keçərək, elektromexanik, ATS-2-də baş elektromexanik, 1970-ci ilin oktyabrında ATS-7-in mühəndisi oldu.

1972-ci ilin noyabrından Qəhrəmanzadə A.H. yenidən Azərbaycan Rabitə Nazirliyi sisteminə Layihə-Araşdırma Kontorunun (*LAK*) elmi-texniki informasiya mühəndisi kimi qəbul olundu, sonra Rabitə Nazirliyinin aparatının Texniki şöbəsində baş mühəndis vəzifəsinə keçirildi.

1973-cü ilin avqust ayında Abdul Qəhrəmanzadə Azərbaycan Respublikası Rabitə Nazirliyinin Şəhər telefonları şəbəkəsi şöbəsinin rəisi və Şəhər və Kənd Telefonları Rabitəsi İdarəsinin (ŞKTRİ) rəis müavini təyin edildi.

1974-1977-ci illərdə Leninqradda (*indiki Sankt-Peterburq*) Leninqrad Elektrotexniki Rabitə İnstitutunun (LERİ) "*Avtomatik elektrik rabitə*" kafedrasının məqsədli əyani aspiranturasında təhsil

alıb. Elmi rəhbəri məşhur alim, SSRİ-də teletrafik sahəsində görkəmli mütəxəssis, t.e.d., professor Boris Samoyloviç Livşis idi.

Aspiranturanı bitirdikdə Bakı Rabitə Elektrotexnikumunun "*Avtomatik elektrorabitə*" şöbəsinə rəhbərlik etdi. 1978-ci ilin noyabrından o – Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun (*AzPİ*), indiki *AzTU*, "*Elektrik rabitə*" kafedrasının assistenti oldu.

1980-cı ilin iyun ayında Abdul Həmidulla oğlu Qəhrəmanzadə Leninqradda texniki elmlər namizədi (*t.e.n.*) elmi dərəcəsi üçün "*Şəhər telefonları şəbəkəsinin layihələndirilməsi üçün telefon yüklənməsi göstəricilərinin təyini metodlarının araşdırılması və işlənib hazırlanması*" adlı dissertasiyanı müdafiə etdi, texniki elmlər namizədi elmi dərəcəsini (*diplom TH № 043038, 11 mart 1981-ci il*) sahib oldu.

1981-ci ilin sentyabr ayından 1982-ci ilin iyun ayınadək SSRİ-nin Təhsil Nazirliyi xətti ilə Birminhemin (*İngiltərə*) Aston Universitetində müasir telekommunikasiya şəbəkələrinin layihələndirilməsi üzrə birillik elmi təcrübə keçdi.

Böyük Britaniyada keçdiyi təcrübədən sonrakı illərdə Abdul müəllim kommutasiyanın rəqəmsal sistemləri texnologiyalarının öyrənilməsinin başlanğıcında dayanmışdı və İttifaqda ilk dəfə o, 1989-1991-ci illərdə rəqəmli kommutasiya sistemi - "System-X" *(İngiltərə)* və "*DMS*" (*ABŞ*) üzrə tədris vəsaitləri dərc etdi.

1983-cü ilin aprelində Abdul müəllim AzPİ-nin "*Elektrik rabitə*" kafedrasının dosenti seçildi, yayda isə (*iyulda*) Sovet Hökumətinin bir sıra prosedurlarını keçərək, Beynəlxalq Telekommunikasiya İttifaqı (*ITU*) xətti ilə Birləşmiş Millətlər Təşkilatının (*BMT*) ilk azərbaycanlı eksperti oldu.

1984-cü ilin oktyabr ayında Abdul müəllim Azərbaycan Politexnik İnstitutunun (*indiki AzTU*) Həmkarlar İttifaqı Komitəsinin sədri seçilərək, AzPİ-nin 1200 müəllim heyətinin üçüncü şəxs oldu.

1984-cü ilin noyabrında Sovet İttifaqının Ali Attestasiya Komissiyası (AAK) Qəhrəmanzadə A.H. "*Elektrik rabitə*" kafedrasının dosenti elmi dərəcəsini (*diplom ДЦ № 076989*) verir.

1985-1986-cı illərdə Abdul Qəhrəmanzadə Birləşmiş Millətlər Təşkilatının (*BMT*) Beynəlxalq Telekommunikasiya

İttifaqının baş eksperti qismində sahə sınaqından keçir və Əfqanıstanın Telekommunikasiyasının inkişafı layihəsində (*Project AFG-83/001*) iştirak edir.

Əfqanıstandan qayıtdıqdan sonra (1986-1991-ci illər) kafedrasında yeni "*Kommutasiyanın rəqəmsal sistemləri və elektrorabitə şəbəkələri*" kursu üzərində çalışmağa başlayır və Bakı və Moskva şəhərlərində kvazielektron və elektron ATS üzrə bir sıra metodiki və tədris vəsaitləri dərc edir.

1992-ci ilin iyun ayında "*Azadlıq*" qəzetindəki müsahibədən sonra Müstəqil Azərbaycanın ikinci Prezidenti Elçibəyin komandasının diqqətini cəlb etdi. Onun 30 may 1992-ci il tarixli müsaibəsində rabitə sahəsinin inkişaf konsepsiyasını bu strateji sahəyə gənc mütəxəssislərin cəlb edilməsi və onda struktur yerdəyişmələri və yenidənqurmaları aparılmasını şərh etdi. Tezliklə, Azərbaycan Respublikası Prezidentinin 15 iyul 1992-ci ilin 844 saylı Fərmanı ilə Azərbaycan Respublikasının Rabitə naziri təyin olundu.

Qeydetvək lazımdır ki, Qəhrəmanzadə A.H. respublikada yeni müstəqil Azərbaycanın telekommunikasiya infrastrukturunun inkişafı üçün ən yeni rəqəmsal (*yüksək*) texnologiyalara əsaslanan müasir rabitə vasitələrinin zəruriliyini anlayanlardan birincisi idi.

Abdul müəllim hesab edirdi ki, bunun üçün həm veriliş və kommutasiya sistemləri tezliklə rəqəmsal olmalıdır, və sahənin işçilərinin yenidən öyrədilməsi zəruridir və bu barədə o, təyinindən dərhal sonra Rabitə Nazirliyində respublikanın rabitə sahəsinin gənc və aparıcı mütəxəssislərinin yığıncağında fikrini söyləmişdi.

Bunun üçün ilk addım olaraq, Azərbaycan Texniki Universitetinin və Bakı Rabitə Kollecinin beş rabitə kafedraları bazası əsasında Azərbaycan Telekommunikasiya Universitetinin yaradılmasını planlaşdırırdı və bu haqda o, 1992-ci ilin iyununda AzTU-nun kafedralarının müdirləri və fakültələrinin dekanları ilə keçirilən görüşündə demişdi.

Lakin bir aydan sonra "*nahar fasiləsində*" AR Prezidentinin 17.07.92-ci il tarixli 52 nömrəli Fərmanı ilə "*başqa işə keçirilməsi ilə əlaqədar*" tutduğu vəzifəsindən azad edildi.

Deyirlər ki, “*Öz ölkəsindən peyğəmbər çıxmır*”, belə ki, tezliklə Cenevrədən (*İsveçrə*) Beynəlxalq Telekommunikasiya İttifaqı (*ITU*) ştabından ona Liviyanın Telekommunikasiyasının inkişafı layihəsində (*Project LIB-88/007*) iştirak etmək üçün dəvət gəlir, və o 1992-ci ilin avqustundan 1993-cü ilin martınadək işləyir.

Liviyada layihə başa çatdıqdan dərhal sonra Qəhrəmanzadə A.Q. yeni, üçüncü dəvətini alır – Pakistan üçün olan layihədə (*Project PAK-88/002*) Beynəlxalq Telekommunikasiya İttifaqının eksperti kimi iştirak etdi və 1993-cü ilin aprelindən sentyabrınadək İslamabadda işlədi.

Bakıya qayıtdıqdan sonra 1994-1995-ci illərdə Abdul müəllim ixtisası üzrə doğma azərbaycan dilində “*Maarif*” nəşriyyatı tərəfindən dərc olunan *“Rəqəmli kommutasiya sistemləri”* (“*Цифровые системы коммутации”*) adlı dərslik üzərində çalışdı.

1998-ci ilin martından dekabrınadək Qəhrəmanzadə A.H. AzTU-nun rektoru, t.e.d., professor Rafiq Mehdiyevin xahişi ilə universitetin nəzdində Azərbaycan Telekommunikasiya Təhsil Mərkəzinin (*AzTTM*) yaradılması layihəsinin (*Project-TNAZ-9601*) elmi rəhbəri oldu. AzTTM-nin yaradılmasının əsası Avropa Cəmiyyətinin himayəsində TASİS proqramının TNAZ 9601 nömrəli Layihəsi və AzTU-nun rektoru prof. R.İ.Mehdiyevin 10 mart 1998-ci il tarixli 43-mux nömrəli Əmri oldu. AzTTM-nin məqsədi Azərbaycanın rabitəsinin inkişafda olan rəqəmsal şəbəkələri üçün zəruri mütəxəssislərə Rabitə Nazirliyinin ehtiyacını təmin etmək idi.

Layihə başa çatdıqdan sonra AzTTM-nin ilk direktoru AzTU-nun “*Rabitə qovşağı və kommutasiya sistemləri*” kafedrasının dosenti, texniki elmlər namizədi Abdul Qəhrəmanzadə təyin olundu.

Layihə (*Project-TNAZ-9601*) TASİS (*Avropa Cəmiyyətinin*) proqramı üzrə aparılırdı. AzTTM-nin ilk direktoru Abdul müəllim burada 20 sentyabr 2000-ci il tarixinədək çalışdı.

2002-ci ildə A.Qəhrəmanzadəni ***NICTS*** - “*Azərbaycanın informasiya-kommunikasiya texnologiyalarının inkişaf strategiyası*” beynəlxalq layihəsinin (*Project-AZE/01/003*) reallaşdırılması üçün milli ekspert qismində dəvət etdilər.

Sonra, 2002-ci ilin sentyabrından 2007-ci ilin iyununa qədər Abdul müəllim Azərbaycan Milli Elmlər Akademiyasının (*AMEA*) Kibernetika İnstitutunun aparıcı elmi işçisi kimi çalışdı.

2003-2005-ci illərdə Abdul Qəhrəmanzadə ABŞ Dövlət Departamenti ilə İndiana (*Bluminqton şəhəri*) Universiteti və Azərbaycanın elmi-tədqiqat və təhsil şəbəkələri Assosiasiyası (*AzRENA*) arasında Əməkdaşlıq Proqramı üzrə Azərbaycanda ilk Distant Təhsil Layihəsinin (*Layihə - IU/AzRENA*) təşəbbüskarı və meneceri oldu.

2002-ci ildən Abdul Qəhrəmanzadə kütləvi informasiya vasitələrində (*KİV*) Azərbaycanın telekommunikasiyası üzrə ilk müstəqil eksperti kimi çıxış edir.

2007-ci ilin iyunundan 2009-ci ilin iyununadək Qəhrəmanzadə A.Q. Azərbaycan Nazirlər Kabineti yanında "*İçərişəhər*" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin "İnformasiya texnologiyaları və elmi tədqiqatlar" şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Qəhrəmanzadə A.H. 250 nəşrin, onlardan 150-i elmi əsərlər, o cümlədən, 10-u monoqrafiya və 100-dən çoxu kütləvi informasiya vasitələrində (*KİV*) analitik məqalələr müəllifidir http://www.anl.az/el_Z_ru.php.

BMT-nin ekspertinin söylədiyi fikirlərin doğruluğu və uzaqgörənliyi onunla izah olunur ki, Abdul müəllim mütəxəssis kimi rabitəçilər içərisində böyüyüb (1966-cı ildə elektromexanikdən 1992-ci ildə Azərbaycan Respublikasının Rabitə nazirinə qədər olan yolu keçərək). O, ölkənin yaşlı nəsil rabitəçiləri ilə sıx əməkdaşlıq edirdi və 25 il dərs dediyi gənc rabitəçilərin fikrinə qulaq asırdı.

Bu gün müstəqil ekspert Abdul Qəhrəmanzadənin arxasında 40 ilə yaxın istehsalat, pedaqoji və elmi fəaliyyət, 3 beynəlxalq layihə (Beynəlxalq Telekommunikasiya İttifaqı xətti ilə BMT-nin eksperti qismində) və o qədər də respublikada Beynəlxalq layihələr (*1998-2002-2005-ci illər*) var.

**İmamverdiyev Q.M.** t.e.d., AzTU-nun professoru

*"Аллах зовет в обитель мира,*
*и тех ведет прямым путем,*
*кого сочтет своим желанием",*
**Surə-10, Ayət-25, Quran**

# GİRİŞ

Bu gün, ümidvaram, çoxları bir faktla razılaşar ki, məhz dünyada kommunikasiya vasitələrinin geniş şəbəkəsinin mövcudluğundan sivil və demokratik cəmiyyəti idarə etmək tolerant və şəffaf olmuşdur.

Dünyamız beynəlxalq informasiya infrastrukturunun qloballaşması ilə səciyyələnir, burada iqtisadiyyat əsas baza vahididir və ölkənin bütün infrastrukturunu birləşdirir ki, bunun üzərində də müasir dövlət qurulur [1-260].

İddia etməyə ehtiyac yoxdur ki, iqtisadiyyat hər bir ölkənin inkişafında ən qədim sahələrdən biridir, həmçinin erkən sivilizasiya dövründə də.

Bu gün Azərbaycan – ölkənin iqtisadi, idarəetmə və müdafiə inkişafı məqsədilə müxtəlif informasiyanın müntəzəm qəbulu və ötürülməsi üçün dövlət orqanizminin özünəməxsus neyro-informasiya sistemidir. Buna görə də müstəqil Azərbaycan tarixinin tərkib hissəsi kimi Azərbaycan oğuz-türklərinin inkişaf tarixi bu sahədə böyük elmi maraq doğuran tədqiqatlar, ölkəmizin müxtəlif inkişaf mərhələsində məlumatların toplanması və təhlilini tələb edir.

Gələcək nəslə vətəninin inkişaf tarixinin mərhələlərini bilmək, bütün türk dünyasının inkişafında uğurlu iştirakı üçün kömək məqsədilə Şərifli sülaləsi ilə yanaşı, həmçinin Azərbaycanın bir sıra inkişaf mərhələlərinin, Şirvanşahların minillik tarixinin tədqiqatı bu kitabın əsas məqsədidir.

Güman edirəm ki, iddia və sübut tələb olunmur, gələcəkdə müstəqil Azərbaycanın uğurlu inkişafı üçün kreativ düşüncəyə ilkin təkan vermək, gənc vətəndaşlarımızı beş minillik tariximiz, keçmiş nəslin tarixi haqqında biliklərə yiyələnməsinə yönəltmək lazımdır.

Axı demokratik dövlət ölkənin inkişaf etmiş tolerant siyasəti ilə birgə açıq cəmiyyətdə inkişaf edir, burada cəmiyyətin

məlumatlandırılması sistemli və məqsədyönlü olan ictimai intellektin və sosial iradənin faktorudur [1-260].

Ona görə də dünyanın inkişaf etmiş ölkələrindən biri kimi Azərbaycan üçün – şəffaflıq üçün zəruri olan, dünyanın inkişaf qanunlarına əsaslanan, ümumiyyətlə türkçülük haqqında mövcud, yeni kəşf və tədqiq edilən biliklər əsasında ölkənin inkişaf konsepsiyası olmalıdır.

Dünyanın Avropa və digər inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, müasir zamanda ölkənin uğurlu inkişafı yalnız onun ayrılmaz tərkib hissəsi haqqında real informasiyanın olması ilə mümkündür. Bu, operativ idarəetmə şərtilə ölkənin inkişafının keçmiş cərəyanını və Azərbaycanımızın sonrakı inkişafını nəzərə almaqla, ölkənin birləşdirilməsinin yeni texnologiyalarının mənimsənilməsinə yönəldilməlidir.

Şübhəsiz, bəzən 50, hətta 100 il və bu hələ tarix deyil, tarix, bir qayda olaraq, yüzilliklərdən ibarətdir.

Bu gün Azərbaycan iqtisadiyyatının inkişaf tempi bizə imkan verir ki, yeni (*yüksək*) texnologiyaların hazırlanması ilə məşğul olmasaq da (*yalnız niyə də yox*), həm ölkənin daxili funksiyalarının saxlanılmasına, həm də bütün ölkənin qlobal menecment məsələlərinin həllinə yönəldilmiş zəruri texniki sistemlərin mükəmməl tətbiqi ilə məşğul olaq.

Və, təsadüfi deyildir ki, bu gün dünya ictimaiyyəti əslində bütün Şərqi Avropa, o cümlədən MDB ölkələrinin sosial, iqtisadi, informasiya və siyasi sahələrdə tam şəffaflığını tələb edərək, hamı üçün açıq olmağa məcbur edir. Bəlkə də bu, əslində bəzi inkişaf etmiş dünya ölkələrində korrupsiya, qanunsuzluq və repressiyalara qarşı açıq mübarizədir [98]. Görünür, bu iki problemin həlli tələb olunur:

- Ölkəmizin iqtisadiyyatının inkişaf prosesini davam etdirən zəruri tələbləri tərtib etmək.
- Azərbaycanın bütün iqtisadiyyatının inkişaf prosesinin şəffaf modelini qurmaq.

Ölkədə əsas səylərin yeni texnologiyaların tətbiqində texnoloji risklərin azalmasına və iqtisadi hallərdə tətbiq edilən davamlılığı, uyğunluğu təmin etməyə yönəldilməsini güman edirəm [4-161].

Həmçinin, ölkədə prioritet məsələlərə aiddir:

- Ölkənin mərhələli inkişafının Master-planının yaradılması;
- Ölkədə bütün həllərin ekspertizası və texniki auditi;
- Azərbaycan təsərrüfatının inventarlaşdırılması...

Verilənlərin analizi mərkəzinin və əlavə xidmətlərin yaradılması tələb olunacaq ki, onların da əsas istiqamətləri və fəaliyyətləri məlumatların işlənilməsi, Azərbaycanın müxtəlif sahələrinin xüsusi verilənlər bazalarının yaradılması olacaq.

Məsələn: müxtəlif sahələr üzrə Texnoparklar (*TP*) yaradarkən bütün təklif edilən variantların və texnologiyaların öncədən modelləşdirilməsi və sınağı (*dünyada geniş yayılmış*) tələb olunur. TP təchiz olunmalıdır:

- bütün zəruri tətbiqlər üçün ən yeni avadanlıq əsasında model iqtisadiyyatla;
- ölkənin bütün sahələrində yeni layihələrin tətbiqi və inteqrasiyası üzrə mərkəzlə və s.

Real Texnoparkların olması yeni (*yüksək*) texnologiyaların tətbiqində təklif edilən texniki həllərin perspektivlərinin qiymətləndirilməsini asanlaşdırır.

Həm işsizliyin aradan qaldırılması üçün texniki şərtlərin hazırlanması, mal və xidmətlərin ucuzlaşdırılması üçün zəruri olan iqtisadi rəqabət mühitinin yaradılması, həm də Azərbaycanda orta yaşayış səviyyəsinin durğunluğu ölkənin vacib məsələlərinə aiddir.

Yaranmış vəziyyətdən çıxış aşağıdakı beş əsas istiqamət nəzərə alınmaqla, ölkənin real iqtisadi inkişaf konsepsiyasının işlənib hazırlanmasındadır [67, 69, 81-98, 112, 148, 162]:

- texniki siyasət (*planlaşdırma, layihələndirmə, tenderlər, tikinti və istismar*);
- maliyyələşdirilmə (*planlar, idarəetmə, məsləhətlər, fondlar*);
- menecment (*struktur, tənzimlənmə, idarəetmə*);
- kommersiya (*marketinq, xidmətlərin satışı və s.*);
- kadrlar (*texsiyasət, maliyyə, menecment və kommersiya*).

Azərbaycanın milli iqtisadiyyatının keyfiyyətcə yeni səviyyəsinin yaradılmasına yönəlmək üçün bütün sahələrin keçmişdə fəaliyyətini və ölkənin iqtisadi inkişaf tarixindəki nöqsanları bilmək lazımdır:

- sahələrin asılı olmayan tənzimləyicilərinin yaradılması;

- ölkənin açıq informasiya mühitinin təşkili;
- ixtisaslaşdırılmış iqtisadi strukturların mövcudluğu və d.

Sadalanan məsələlərin həlli üçün zəruridir:

- bütün sahələrin texniki siyasətinin işlənib hazırlanması;
- ölkədə müxtəlif sektorların prioritetlərinin təyini;
- sahələrdə kadr resurslarının real inkişafı və s.

Buna görə mövcud və yeni kəşf olunan, tədqiq və tətbiq edilən texnologiyalar əsasında ölkənin uzunmüddətli iqtisadi inkişaf konsepsiyası şəffaflıq, Azərbaycanın hər bir sahəsinin inkişaf qanunlarına əsaslanması üçün lazımdır [4-151].

Şərqi Avropa ölkələrinin inkişaf təcrübəsi göstərir ki, ən vacib problemlər aşağıdakılardır:

- ölkənin milli iqtisadiyyatının açıqlığı;
- təklif edilən həllərin iqtisadi səmərəliliyi;
- milli iqtisadiyyatın asılı olmayan tənzimlənməsi;
- bu siyasətin reallaşdırılması üçün ölkənin tolerantlığı.

Buna görə də müasir Azərbaycanın milli siyasətinin əsas islahatları aşağıdakılara gətirir:

- müstəqil Azərbaycanın maraqlarını nəzərə almaqla, insan hüquqları haqqında yeni qanunların qəbuluna;
- ölkənin iqtisadiyyatı haqqında informasiyanın şəffaflığına;
- milli və xarici kapitalın iştirakı ilə bütün özəlləşdirmə prosesinin şəffaflığına;
- yeni müəssisələrin lisenziyalaşdırılmasına və s.

Nəzərə almaq lazımdır ki, hələ də bütün sadalanan məsələlər yalnız Azərbaycan deyil, həmçinin digər inkişafda olan dünya ölkələri, ən əvvəl Müstəqil Dövlətlər Birliyi (*MDB*) ölkələri üçün də problemdir [4-260].

Məsələn, Azərbaycanın müəssisələrinin çoxsaylı kollektivinin maraqlarına toxunan ölkə sahələrindəki özəlləşdirmə kimi taleyüklü qərar ölkədə bu məsələnin açıq müzakirəsi olmadan keçirilə bilməz.

Ona görə də sahələrin ədalətli özəlləşdirilməsi ani hərəkət deyil, təşkilati-hazırlıq və metodiki işlərin bir sıra şəffaf mərhələlərindən ibarət mürəkkəb və ardıcıl prosesdir.

Misal üçün, rabitə sahəsinin özəlləşdirilməsi liberallaşdırılmış rabitə bazarının şəffaflığı ilə müşayiət olunmalı və bazarda potensial alıcıya özəlləşdirilmiş təşkilatın tam çeşidli xidmətlərini nümayiş etdirməlidir, liberallaşdırılma və özəlləşdirmə prosesləri isə paralel inkişaf etməlidir. Məncə, sahələrdə "*asılı olmayan tənzimləyicinin*", ən əsası isə ciddi "*özəlləşdirmə alqoritminin*" olmaması özəlləşdirmənin əsas problemidir [67,148]:

- Özəlləşdirmənin (*gizli özəlləşdirmə yox*) başlanğıc və son müddətləri haqqında Hökumətin qərarları (*təminatçısı kimi*);
- "*Sifarişlə*" deyil, hər bir sahənin milli təhlükəsizliyini və maraqlarını nəzərə alaraq fəaliyyət göstərən özəlləşdirmə üzrə sektor komissiyalarının yaradılması;
- Maliyyə məsləhətçilərinin köməyi və xarici ekspertlərin cəlb edilməsi ilə strateji investorlar arasında açıq konkursun keçirilməsi.

Alqoritmdən görünür ki, özəlləşdirmə bunları tələb edir:

- Müəyyən bir müddət ərzində (*məsələn, 18 ay*) müəssisə üçün özəlləşdirmənin başlanğıcının təyininə və bütün yaranan hüquqi məsələlərin həllinə;
- Bütün maraqlı tərəflərin (*İqtisadi İnkişaf, Maliyyə, Müdafiə, Təhlükəsizlik Nazirliklərinin, RİTN və d.*) cəlb edilməsi ilə komissiyanın yaradılması üçün müddətin (*məsələn, 6 ay*) təyininə;
- Beynəlxalq təcrübə nəzərə alınmaqla, maliyyə məsləhətçiləri – ekspertlər heyətinin müəyyən edilməsinə (*məsələn, 6 ayadək*).

Əlbəttə, bu gün yeni texnologiyaların dünya liderləri – istehsalçıları ilə ayaqlaşmaq çətindir, lakin bir sıra istehsalın "*mexaniki yığıcısı və ya istifadəçisi*" deyil, heç olmasa iştirakçısı ola bilərdik. "Azərbaycanın ayrı-ayrı nazirliklərinin müəssisələrinin özəlləşdirilməsi üzrə dövlət proqramı" və respublikada bu müəssisələrin səhmdarlaşdırılması və özəlləşdirilməsi üzrə sektor proqramları ölkəmiz üçün özəlləşdirmə probleminin ən yaxşı həlli ola bilərdi.

Qanunvericilik və normativ bazaların yaradılması ilə paralel olaraq, nazirliklərin xaricində sahələrin asılı olmayan komponent tənzimləyiciləri də yaradılmalıdır ki, rabitə sahəsində aşağıdakılara qadir olsun [62-151, 161-260]:

- sahələrdə tariflərə nəzarəti təmin etmək;
- yeni operatorları bazarda dayaq nöqtələri ilə təmin etmək;
- qarşılıqlı əlaqə və qarşılıqlı hesablaşma üzrə razılaşma;
- xidmətləri lisenziyalaşma və hüquqlarla təmin etmək və s.

Təcrübə göstərir ki, MDB ölkələrində (*o cümlədən Azərbaycanda da*) bir çox sahələrdə maraqların toqquşması ilə dövlət monopoliyası dövlət tənzimlənməsinin ciddi problemi olaraq qalır.

Bu gün demək olar ki, beynəlxalq tənzimlənmənin bütün normaları dövlət tərəfindən nəzarət və koordinasiya olunmalıdır, bu da, görünür, iqtisadiyyatı yönəltmir. Ola bilsin ki, köhnə sovet infrastrukturu əsasında təqdim oluna bilməyən yeni xidmətlər və təkliflər zamanı gəlib çatmışdır, yeni dünyanın bütün tərkibini birləşdirən innovasiya texnologiyaları tələb olunur.

Beləliklə, sahələrin iqtisadiyyatının idarə edilməsinin yeni metodlarına diqqət ayrılır ki, bu da mahiyyətcə, müasir ölkələr arasında texnoloji sərhədləri uçurdur.

Ölkədə əsas məsələ bütün iqtisadiyyatın ucuzlaşması, *Avropa* boşluğunun aradan qaldırılması üçün yeni texniki şərtlərin hazırlanması, Azərbaycanın sahələrinin dinamik inkişafı üçün yeni vasitələrin təyin edilməsi üçün zəruri olan iqtisadi rəqabət mühitinin yaradılmasıdır.

Beləliklə, Azərbaycanın bütün istehsalçılarının və istehlakçılarının hüquqlarının və qanuni maraqlarının qorunmasının, zəmanətinin təminatı üçün sahələrin asılı olmayan tənzimləyicisinin yaradılması ilə, tənzimlənmənin, menecmentin və əməyin qorunmasının bütün aspektlərinin mədəni prinsiplərlə həlli ilə ölkənin sahələrinin menecmentinin real struktur dəyişikliyi vacibdir.

Məhz buna görə yeniliklərin tətbiqi bütün sahələrdən yüksək kompetensiya tələb edir ki, istənilən sektoru milyonlarla $ sərf olunan və tezliklə unudulan "*düşünülməmiş (başdansovma) və kağız üzərində*" layihələrdən azad etsin.

Yəqin ki, Azərbaycanda güclü bazar iqtisadiyyatı olduğu halda nazirliklərin – həm bütün sahələrin dövlət-inhisar təşkilatları, həm bu sektorun qanunvericilik bazası və bununla birlikdə texniki və tarif siyasətinin dövlət bələdçisi olması normal deyil.

Bəli, Azərbaycanda AR Prezidentinin Fərmanı ilə bir sıra sahələrdə bəzi dəyişikliklər baş verir, lakin, görünür, bu, dünyanın inkişaf etmiş ölkələri arasında olmaq üçün kifayət deyil.

Məhz buna görə sahə ekspertinin vəzifəsi jurnalistdən fərqli olaraq, yalnız sahənin mövcud problemlərini açmaq və şahidlik etmək deyil, həm də yaranmış vəziyyəti qiymətləndirmək və alternativ çıxış yollarını təklif etməkdən ibarətdir.

Bəli, bir çox layihələr çərçivəsində çox yaxşı məqsədlər səslənmişdir, yalnız onların nəticələrini necə izləmək olar?

Texniki-iqtisadi əsassız layihələrlə ehtiyatlı olmaq lazımdır və yaxşı olardı ki, milyonlar 20% işğal olunmuş torpaqların infrastrukturunun bərpası üçün saxlanılsın...

Bu işin yaranmasına Sara xanım Aşurbəylinin "*Şirvanşahlar dövləti (VI-XVI ə.)*" kitabı, həmçinin bir sıra müəlliflərin əsərləri, harada ki, qeyd olunur: "*1124-cü ilin avqustunda IV David Şirvanı zəbt etmək üçün sonuncu dəfə hücum etdi, Şamaxını, Biqurd qalasını (Qalei Buqur) və ətraf rayonları işğal etdi*" [1, 3 , 152, 156, 163, 164], təkan verdi.

Sülaləm haqqında ilk məlumat mənbəyim mənim babam – Azərbaycanın Göyçay rayonunun Bığır kəndində 115 il yaşamış və nəslimizin bütün tarixini bilavasitə bilən Sədi Şərifli olmuşdur.

Sülaləmizin ilk tarixçi-alimi Azərbaycan Elmlər Akademiyasının Tarix institutunun sabiq direktoru, "*IX – XI ə. ikinci yarısında Azərbaycanın feodal dövlətləri*", Bakı, Elm, 344 s. [156] monoqrafiyasının müəllifi, t.e.d., professor Məmmədəli Xəlil oğlu Şərifli olmuşdur.

Sülaləm barədə materialların toplanmasına prof. Məmmədəli Şəriflinin kiçik qardaşı ilə görüş təkan verdi. O, *Şərif müəllim Şərifli* – bizim Bığır kənd məktəbinin sabiq direktoru – 1981-ci ildə İngiltərəyə elmi təcrübəyə getməmişdən əvvəl məni evinə dəvət etdi və böyük qardaşının – Azərbaycanın tarixçi alimin arzusunu söylədi. Amma nəzərə almaq lazımdır ki, mən tarixçi deyiləm, bu səbəbdən kitab mütləq dəqiqliyə iddialı deyil.

*“Möcüzələr yalnız uşaqlıqda baş verir”*
Vladislav Qjeqorçik

# I. UŞAQLIQ ƏYLƏNCƏDİR XATIRLADIQDA.

## 1.1. Biz hamımız Yaradanın qarşısında bərabərik.

Şübhəsiz ki, mən özümü təbiətin və həyatın qanunlarına yiyələnməmiş insanların öz uşaqlarını əqli, mənəvi və fiziki tərbiyə edə bilməyəcəyini hesab edən valideynlər nəslinə aid edirəm.

Əsasən də, bu gün, artıq 25 ildir, demək olar ki, alışdığımız 70 illik ümumi sosializmin sovet mədəniyyətindən ayrıldığımız bir dövrdə bu daha aktualdır. Hətta bura bir neçə minillik yaşadığımız milli türk soy-kökümüzdən və feodal quruluşunun köhnə özülündən ayıran 100-150 ili də əlavə etmək olar.

Onda belə çıxır ki, biz “*İnkarı inkar qanunu*” və daimi “*Necə olmaq və nə etmək?*” sualları ilə yaşayırıq.

Çox güman ki, uşaqlarımızın tərbiyə prosesinin bütün bəlaları, analarımızın və tərbiyəçilərimizin şəxsi təcrübələrinin və bu unikal həyati proses biliklərinin qüsursuz saydıqlarından irəli gəlir.

İnsanın doğulandan qocalanadək keçdiyi inkişaf dövrləri, əlbəttə, çoxşaxəlidir, dövrlərin zaman çərçivəsi isə individual və məhduddur. Məsələn, uşaqlığın yuxarı yaş həddi 11-13 yaşdırsa (*yəni yetkinlik çağınadək*), bu insan həyatının təqribən onda bir hissəsidir. Məlumdur ki, körpəlikdə çağanın davranışı özəldir. Sonra mühit uşağa davranış qaydalarını seçmək hüququ verir ki, onlardan diqqətini “*qazananları*” o özü seçir. Ona görə də böyüyən uşağın xarakterinə görə müəyyən etmək olur ki, o böyüdükdən sonra necə olacaq. Və uşağın xarakterinin formalaşdığı bu dövrdə valideynlərin və tərbiyəçilərin davranışlarının şəxsi nümunələrində qurulan tərbiyə metodları həlledici rol oynayır. Uşaq təbii ki, böyüklərə bənzəmək istəyir və tərbiyəçilərin onun öz, hələ formalaşmamış Mən-inə (mənliyinə) cavab verən davranış faktları və ya söylədikləri, onların yaddaşına “*daxil olur*” [153].

Bu gün uşaqlarımız (qızım Leyla və oğlum Həmid), Allaha şükürlər olsun ki, onların da öz ailələri var, uşaqlıq illərindən bizə elə təfərrüatlar danışırlar ki, yoldaşım Subixanımı heyrətə salır.

Əlbəttə ki, Allah qarşısında diz hamımız bərabərik, lakin uşaqların yetkinlik dövrünə çatması və keçməsi özəldir, və onların tərbiyələnmə yolları heç də eyni deyil.

Tez-tez balalarımızın uşaqlıq və məktəb illərindən müxtəlif epizodları xatırlayanda, əsasəndə, qızım Leyla və kürəkənimiz Teymurun oğlu – 2011-ci il təvəllüdlü, ilk nəvəmiz Rüstəm, oğlum Həmid və Yuliyanin ilki – 2013-cü il təvəllüdlü Cavad la muqaisə edirik. Doğulduqları ilk aylardan böyük maraq və diqqətlə onların inkişafını izləyirik, qeyri-ixtiyari olaraq uşaqlarımızın və hətta özümün erkən uşaqlıq illərilə ortaq olanları tapmaq istəyirəm. Lakin, nə qədər çalışsam da əhəmiyyətli bir şey xatırlamıram.

Məhz indi məlumatların yetərsizliyindən uşaqlıq xatirələrimdə xəyallara qərq olmaq istəmirəm, çünki reallıqda mən doğma anamla çox gec – 35 yaşımda, Sovet İttifaqının Təhsil Nazirliyi xətti ilə Böyük Britaniyaya elmi təcrübəyə getməmişdən əvvəl, tanış olmuşam [31].

Adətən, ailə üzvlərimlə həyatda baş verən proseslər barədə müzakirələr zamanı həyatımızın üç fundamental fəlsəfi əsaslarına istinad edirəm: zaman – məkan – şəraid, baxmayaraq ki, axırıncı 70 illik Sovet tarixi bizi daha çox cəmiyyətin inkişafının marksizm-leninizm prinsipləri ilə bağlayırdı.

Məhz SSRİ (Sovet) zamanı şəxsi təcrübəmizi və məhdud və qərəzli mentalitetimizi hər bir elmi təcrübədən, əsasən də xaricilərdən, uca tuturduq, real bilikləri isə işlənilmiş anlayışlarla, əgər belə deyə bilsək, şəxsi fikir və vəsaitlərimizlə dəyişdirirdik.

Sovet elmi haqqında bütün iddialı çıxışların və hətta ölkədə hazırlanmış atom bombasının olduğu zamanı, Qərbdən texnoloji tərəqqinin bir çox aspektləri və insan haqlarına riayət edilməsinə görə xeyli geri qalırdıq. Şəxsi təcrübəmə görə, xarici məktəbəqədər müəssisələrdə insan qəlbinin öyrənilməsi və uşaq psixologiyasının müşahidəsi artıq erkən yaşlarda uşaqda kreativ təfəkkürü inkişaf

etdirir. Axı uşaq yaradıcılığı – bəşəriyyətin müdrikliyinin, sənətkarlığının və incəsənətinin əsasıdır, və şübhəsiz uşağı əhatə edən insanların əməyi ilə yaradılmış xoşbəxtlikdir.

Lakin məktəbəqədər müəssisələrimizin (*ölkədə son 20 ildə onların sayı xeyli azalıb*) necə olmasından asılı olmayaraq, məhz valideynlər (*ana və ata*) uşaqlarının memarıdır. Məhz valideyn dərrakəsi, şərəf və vicdanı, uşaqdan əsl insan yaradır.

Bəlkədə bu çox yüksək səslənir, amma heç bir kitab, heç bir həkim, heç bir dayə uşaq üçün ana, ata və əsasən də nənə və baba sevgisini əvəz edə bilməz. Ona görə də yaşımızın çox olan çağında bizim (*Subi və mənim*) fəxr etməyə səbəbimiz var. Çünki, ailə büdcəmizin kiçikliyinə baxmayaraq, Subi 8 ilə qədər işsiz qaldı, uşaqlarımıza (*Leyla və Həmid*) mənəvi sağlamlıqlarına yaxşı təsir edən daha çox vacib olan diqqət və məhəbbət verdi.

Mənə gəldikdə isə, məktəbə qədər demək olar ki, ailəmdən kənar, daha çox qonşu ailəsində (*Zəhra ananın evində*) valideyn məhəbbəti və sevgisini bilmədən yaşayırdım, ona görə də uzaq uşaqlıq illərimdən çox şeyi xatırlamıram.

Bu gün ailə albomundakı şəkillərdə özümə, 6 aylıq uşağa baxarkən, necə sağ qaldığıma təəccüblənirəm, və yalnız böyük yaradana (Allaha) görə həyatımın davam etdiyinə şübhə etmirəm.

Uşaqlıq – şəxsiyyətin formalaşdığı çağdır, onu əhatə edən hər bir kəs, ilk öncə böyüklər (*valideynlər, yaxın qohumlar, qonşular və əsasən məktəbəqədər və məktəb müəllimləri*) kiçik şəxsiyyətin formalaşmasına kömək edir, və bu gün, İnternet əsrində verbal və distant təhsilin reallıqlarını da mütləq nəzərə almaq lazımdır.

Altı aylığımda atam anamı boşayarkən mən doğma anamdan ayırı düşdüm. Atam öz xalası qızı ilə evləndikdən sonra, nəticədə mənim iki qardaşım və beş bacım oldu, halbu ki, ömrümün ilk yeddi ilin çox hissəsini atamın ailəsindən uzaqda keçirdim.

Görünür, uşaqlığımın o dövrünün ən böyük uğuru hələ bir yaşım tamam olmamış atamın məni qonşu Zəhra-ananın qayğısına verməsi idi. Zəhra-bibi sonsuz mehriban və çalışqan xanım idi, və məni hər gün baş aşpaz işlədiyi uşaq bağçasına düz 7 il aparırdı.




Bu Göyçay konyak zavodunun nəzdində olan “*Loza*” adlı uşaq bağçası idi. Səkkiz yaşınadək əvvəlcə Zəhra-ananın qollarında, sonra isə əllərindən tutaraq hər gün səhər saat səkkiz üçün uşaq bağçasına gedir və axşam saat altıda evə qayıdırdım. Mən “*Loza*”nı evim bilirdim, bura həmişə izdihamlı, şən, rahat və isti idi.

Müəllimlərimiz yalnız azərbaycanca danışsa da uşaq bağçamız heyyəti (*bunu gec anladım*) beynəlmiləl idi.

Bizə – uşaqlara müxtəlif ədviyyatlarla və kompotlarla (*qışda adətən quru almalardan, armudlardan, gavalılardan və s.*) verilən keyfiyyətli qidanı xüsusi qeyd etmək istərdim.

Gündəlik səhər yeməklərini xatırladıqda mən indi də kakao və holland pendirinin dadını hiss edirəm! Mübaliğəsiz söyləyim ki, Hollandiya kimi ölkə haqqında heç nə bilmədən, uşaq bağçamızın bütün uşaqları holland pendirinin xüsusi dadını bəyənirdilər.

Düzünü deyim ki, uşaq bağçasından sonra mən yalnız 1981-1982-ci illərdə İngiltərədə, daha dəqiq, Birminhemdə Aston Universitetində illik elmi təcrübə keçərkən bu cür pendirin dadına baxdım. Hətta bu gün, ailə yubileylərində, baxmayaraq ki, Bakıda hər şey, quş südü belə almaq olur, uşaqlığımda daddığım pendiri hələdə görməmişəm.

Amma məni heyrətləndirən məktəb həyatı başlamazdan əvvəl köçdüyüm atamın ailəsində nə 1948-ci il təvəllüdlü bacım Nailənin, nə 1951-ci il təvəllüdlü qardaşım Tofiqin mənim qədər bu uşaq bağçasına getməməkləri oldu (*Nailə bir neçə ay, Tofiq ondan da az*).

Görünür atam məni Zəhra-anadan alıb ikinci ailəsinə vermək üçün, və mənim ailə uşaqları ilə uyğunlaşması üçün məktəbdən əvvəl üçümüzün də uşaq bağçasına getməyimizi qərarlaşdırıbmış.

Uşaqlığımdan növbəti xatırladığım Göyçaydan 35 km aralıda, hər il Azərbaycanın İsmayıllı rayonunun "*İvanovka*" kəndində yay düşərgəsində iki aylıq istirahət, və həmçinin orada Mişa əminin evində böyük qızları Nura və Nastya ilə bir neçə ay yaşadığım ilədir.

Ədalət naminə qeyd etmək istəyirəm ki, ata evimdə mənə qarşı hər şey qaydasında idi, anam Türfə (*qardaşlarımın və bacılarımın anası*) atamın xalası qızı idi və mənə qarşı yaxşı davranırdı. Ancaq onun anası, mənim nənəm –Yaxşı (*həm də atamın doğma xalası*) mənə xüsusi sevgi göstərirdi.

Molla-hacılı kəndinə nənəm Yaxşının yanına gedəndə bütün nənə evi ətrafımda dolanırdı, mən də başa düşmürdüm ki, niyə. Bir dəfə mən hətta Yaxşı-nənəmdən soruşdum: "*Nə üçün bu cür mənim qayğıma qalırsız?*", o isə cavabında "*Sən bizim ilkimizsən, sevimlimizsən*" dedi.

Sonralar, 1981-ci ilin yayındakı hadisələrdən sonra, 35 yaşımda təsadüfən (*DTK-nin dosyesindən*) doğumum haqqında bütün həqiqəti öyrəndim, o uşaqlıq illərimdə heç bir zaman özümü

yetim və sıxılmış hiss etmədiyim üçün əlindən gələni əsirgəməyən Türfə mamama və Yaxşı nənəmə ağlım və qəlbimlə heyran oldum.

Hətta Türfə mamamın qardaşları (*mən həmişə onu anam hesab edəcəyəm, çünki o məni böyüdüb*) – Abdul-Hüseyn dayı və Allahverdi dayı, həmçinin xalalarım – Əsli xala və Narınc xala həmişə mənə xüsusi mehribanlıqla yanaşırdılar.

Lakin, məktəbəqədər və məktəb illərində küçəyə çıxmağ mənə qadağa qoyulmasını müəmmalı sayırdım. Küçəyə çıxmaq, kiminləsə ilə küçədə danışmaq, oynamaq və hətta evə kimisə gətirmək mənə qəti qadağan idi.

Evimizə yeganə buraxılan adam qonşumuzdakı oğlan – məşhur vəkil Zaman kişinin və hər görüşdə məni qucaqlayıb öpən çox mehriban Sura-xalanın oğlu, 1945-ci il təvəllüdlü Çingiz idi. Sonralar aydın oldu ki, Sura-xala hətta bəzən mənim süd anam olub, çünki onun qızı, rəhmətlik Nərminə mənimlə həmyaşıd idi.

Bu gün mənim 70 yaşım var və mən güman edirəm ki, atam bütün qonşularımız içərisində yalnız Zaman kişinin ailəsinə inanırdı, ona görə onlarla görüşlərə icazə verirdi. Küçəyə çıxmağıma qadağa isə heç kimin mənə ögey anamla və atam tərəfdən doğma bacı və qardaşlarımla yaşadığımı xəbər verməməyi ilə əlaqədar idi.

Xüsusən qeyd etmək istərdim ki, həqiqətən, bütün bu illər ərzində heç kim bilavasitə mənə, üzümə bu barədə heç bir şey söyləməyib. Görünür, ikinci dünya müharibəsi iştirakçısı, ikinci dərəcəli əlil, 1915-ci il təvəllüdlü atam Həmidullaya – bütün qonşular səmimi hörmət edirdi, və onun təkidini həyata keçirirdi.

Bəli, hərdən qəribə hallar da olurdu. Məsələn, bir dəfə babam – Sədi Hacı Qəhrəman oğlu Şəriflinin evindən çıxıb Bığır kəndinin anlaşılmaz tərzdə -Şuka adlandırılan avtobus dayanacağına gedərkən mənim tanımadığım uzaq qohumumla raslaşmağımızdır.

Anamı, məni, bacı və qardaşlarımı görüb salamlaşan xanım, anamla öpüşərkən bərkdən soruşdu: "*Bu kimdir – Məleykənin oğludur?*".

Yazıq anamın (*Türfə*) rəngi qaçdı, özünü itirdi və bilmədi ki, nə cavab versin. Mən isə, 12 yaşlı uşaq, bu sözlərin mənasını başa

düşmədən təəccüblə ətrafıma baxırdım ki, bu qadının kimdən danışdığını anlayım. Anam (*Türfə*) mənə dedi: "*Abdul, Tofiqin əlindən tut və yavaş-yavaş gedin, mən tezliklə sizə çataram*", özü isə demək olar ki, infarkt qabağı vəziyyətdə idi.

Bu görüşdən xatırladığım tək bir şey, yazıq anamın ağzını əli ilə tutaraq o qadına nəyisə sakitcə anlatması idi. Lakin mən onlardan çox uzaqda idim, və nədən söhbət getdiyini eşidib, başa düşmədim.

Ona görə də, əgər uşaqlıq illərimi təhlil etsəm, ətrafımda sirlər xaosu yeganə çatışmazlıq sayırdım.

Axı anam Türfə və atam məni sevirdilər, amma hərəsi özünə məxsus. Nənəm Yaxşı mənim rahatlığım üçün hər şeyini verərdi. Babam Sədi nadir hallarda gülsə də həmişə məni görəndə sevinirdi.

Yaxşı ki, onların hamısı mənim üçün bu cür müxtəlif idilər!

Burada keçmiş Sovet İttifaqının məşhur pedaqoqu V.A.Suxomlinskinin inandırıcı fikirləri yadıma düşür: "*İnsan – bütün insani mənəvi qüvvələrin ali məxluqu və gərginliyidir. Bu həm həyati hikmət, həm sənətkarlıq, həm də incəsənətdir. Uşaqlar – insan əməyi ilə yaradılmış xoşbəxtlikdir. Bunu hamı yadda saxlamalıdır: sevgilisi ilə görüş saatını nəfəsini tutaraq gözləyən gənc, ailə həyatının sevinc və qayğıları ilə müdrikləşən uşaqların atası və nəvələrinin babası*" [153]. Əminəm bu gözəl sözlərdir!

Bununla belə, ana və ata, nənə və baba, əmilər və xalalar, geniş mənada – ailə uşaqlarda misilsiz insan xoşbəxtliyini tapırdı (*bunu uşaqlara necə başa salasan*).

Bəli, onlarla, yüzlərlə sənət, peşə, fəaliyyət növləri tanıyırıq: bəziləri yol çəkir, bəziləri körpülər və yaşayış binaları ucaldır, digərləri çörək və meyvə yetişdirir, o biriləri insanları müalicə və əməliyyat edir, bəziləri isə paltar tikir və modelləşdirir və s. və i.

Əminəm, hər bir ailə üçün ən nadir, ən mürəkkəb və nəcib şey, hamımız üçün yeganə və eyni zamanda təkrarsız olan iş – insanın yaradılmasıdır (*tərbiyəsidir*).

Əlbəttə, insanın davamı onun uşaqları, şagirdləri və bir ömür yaşayaraq silinməz iz qoymaq üçündür o, digər insanlara xeyir gətirən, Vətən qarşısında öz vətəndaşlıq borcunu məmnuniyyətlə və

şərəflə yerinə yetirən, gələcəyin yaxşı valideynləri olan mehriban və vicdanlı insanlar böyütməlidir. Sənətindən asılı olmayaraq, tərbiyəli insan tarixin yaradıcısıdır, bütün yeniliyin yaradıcısı, kəşf edənidir və əcdadların ənənələrini yaşadandır.

Burada Quranın Surəsinə – 93 (Səhər) istinad etməyi uyğun hesab edirəm, burada, Allah Məhəmməd peyğəmbərə deyir: "*Sən anadan olduğun ğündən, Biz sənə yardımçı, xeyirxaq və köməkçi olmuşuq. Sən yetim olmusan, Biz Səni tərbiyyə etdik. Sən yol bilmirdin, Biz sənə onu ğöstərdik, Sən tək və imkansız idin, Biz sənə kömək etdik və səni varlaşdırdıq. Bu o deməkdir ki, ilk gündən sənə diqqət etmişik. Onağörədə Sən sakit olmalısan. Sən tənha deyilsən-həyatının çətin dəqiqəsində belə Biz Sənə kömə etmişik. Odur ki Sən allah bəndəsi ilə ürəkli, rəhimli və alicənab olmalısan*".

Şəxsən mən bu surəni cinsindən, irqindən, dinindən və əqidəsindən asılı olmayaraq, bütün bəşəriyyətə müraciət kimi qəbul edirm. Axı biz Yaradıcının (*Allahın*) qarşısında bərabər və eyniyik.

İslamımız – Yaxın Şərq səhralarında yaranan üç ən böyük dinlərdən biridir. Bu gün bütün dünyada təxminən bir milyard yarım insan islama inanır. İslam ərəbcə "*Salam*" sözündəndir, mənası "sülh" deməkdir. Bu dinin tam adı "*Mütləq sülh insanın həyatı Allaha tabe olduqdadır*" mənasındadır [2].

İslamı yəhudi və xristian dinlərinə "*qardaş*" saymaq olar. Şübhəsiz, dini kitablarımız: yəhudilər üçün – Tora, xristianlar üçün – İncil, müsəlmanlar üçünsə - Quran tək böyük Allahdandır.

Allahın elçisi – Məhəmməd, rəvayətlərə görə, İbrahim (Abraham), Musa (Moisey) və İsa (İsa Məsih) peyğəmbərləri tərəfindən qabaqcadan deyilmişdi.

“*Şübhə –müdrikliyin mənbəyidir*”
Rene Dekart (1596-1650)

## 1.2. Biz böyüyən zaman uşaqlıq keçir.

Sovet tarixinin “şanlı tarixi” olmayan 1956-cı ildəki Budapeşt hadisələrinin 56 ilini mən 2012-ci ildə yada saldım, halbu ki, bu gün bu hadisələri xatırlayan azdır.

1957-ci ilin əvvəlləri idi, Göyçay şəhərinin 3 saylı rus orta məktəbində oxuyurdum, 11 yaşım var idi. Elə məktəbdən təzə qayıtmışdım, gördüm atam evdədir *(o cavanlıqda yalnız şəhərdə nahar etməyi sevirdi*) – şəndir, anam isə nədənsə əksinə, şən deyil.

Nə baş verdiyi anlamırdım, anamdan soruşdum: “*Nəsə olub?*”. Anam narazı cavab verdi:“*Yenə atanın hesabına içəcəklər*”.

Birdən Zəhra-ananın böyük oğlu – Masrul bizim evə gəldi, çox gözəl soldat formasında, lampaslarla və tanınmayacaq qədər işıq saçırdı. Doğma qardaşım kimi onun üzərinə atladım və qışqırdım: “*Masrul, sən ordudan qayıtdın?*”. O mehribancasına məni qucaqladı və dedi: “*Bəli, qardaşım, - və əsası da odur ki sağ-salamat*”.

Axşama bizdə böyük qonaqlıq idi, anam və Zəhra-bibim (*Masrulun anası*) plov hazırladılar, masada (stolda) hər şey var idi və həmişəki kimi ancaq kişilər idi, əsl yeyib-içmək.

Həmişə bizdə qonaqlar olanda mən fəal olurdum (*Abdul bunu gətir, onu apar və s.*), ona görə hələ də unuda bilmədiyim, çünki söhbətin istəmədən şahidi oldum.

Atam soruşdu: “*Ay Masrul, de görüm sən harada xidmət edirdin, sonuncu məktubların Kazandan (Tatarıstan) gəlirdi*”. O cavab verdi: “*Macarıstanda, Budapeşt ətrafında, tank alayında*”. Söhbətin xidmət təfərrüatlarına necə gəldiyini xatırlamıram, yalnız atam etiraz etdi: “*Bəs sən bizə yazırdın ki, alayında aşpazsan?*”. “Bəli – deyə Masrul cavab verdi – o hadisələrdə elə bu məni xilas etdi. Bizim hissələr noyabrın 4-ü səhər tezdən həyəcan siqnalı ilə ayağa qaldırıldı və Budapeştdəki “*bu qiyamın*” yatırılması üçün göndərildi. Həmidulla əmi, Allahın bizə, 12 nəfərdən ibarət bütün mətbəx heyətinə, yazığı gəldi.

Biz də, hərbə uyğun olaraq, həyəcanla ayağa qalxıb, səhər və gündüz yeməyi üçün bütün lazımi hazırlıqlara başladıq, bir saatdan sonra isə biz atlı mətbəx dəstəmizlə Budapeştə yola düşdük. Bizimlə yalnız ərzaq vzvodundan bir zabiti və 11 nəfər mətbəx heyətimiz var idı. Yırğalanaraq gedirdik və zabit zaman-zaman xəritəyə diqqətlə baxırdı ki, təyinat məntəqəsinə vaxtında çataq. İşıqlı idi, payız "*əlini qışa uzadırdı*" və biz heç bir şeydən şübhələnmədən atlarımızı tələsdirərək, marşrut üzrə yolumuzu davam edirdik.

Qabaqdakı hazır yemək qazanı ilə olan araba birdən dayandı. Baş leytenant ona görə qəzəblə qışqırırdı ki, hələ sağa 200 metr getməli idik. Mənim köməkçim, özbək isə qışqıraraq dedi ki, burada insanların cəsədləri var və deyəsən, bizimkilərindir. Leytenantla ikinci qazan yerləşən arabadan (*bu soyuq noyabr səhəri araba daha çox soba-velosipedə oxşayırdı*) tullanıb birinci arabaya yaxınlaşdıq.

Demək olar ki, Budapeştin mərkəzində dayanmışdıq, ətrafda artilleriya atəşindən sonra yalnız küllük qalmışdı, heç bir ağac, bina və ya tikili yox idi. Elə bil hər tərəf artilleriya və pulemyot ilə darmadağın edilmişdi, küçə boyu cəsədlər, həm də öldürülmüş əsgərlərimiz yerli camaatdan az deyildi, hər yan qan içərisində idi".

Masrul sakitcə ağlamağa başladı, hamımız susmuşduq. "Bilirsiniz, - deyə Masrul davam etdi – birdən kolluqdan içindən, tank komandirlərindən biri çıxdı, cavan leytenant, əlində tapançayla.

Biz onu tanıdıq, o MİnskdƏn idi, kürən – Volodya idi. O saat qalanlarımız haqda olduğunu ondan soruşduq, o isə göz yaşlarını silərək, cavab verdi ki, fərqinə varmadan hamısını öldürdülər. Baş leytenantın bütün bu evləri kim dağıtdı, viranə etdi və yandırdı suallarına o, – yəqin ki, komandirin əmri ilə biz – deyə cavab verdi.

O bütün toz içərisində, başı da ağappaq idi, elə bil una bulaşmışdı, bu haqda Volodyadan mən yersiz soruşmsq istədim. Lakin leytenant sualımı kəsib, dostcasına Volodyadan indiki vəziyyəti barədə soruşdu. O günahkar və açıqcasına cavab verdi ki, necə dəli olmadığını başa düşmür, hər şey elə bil duman içərisində idi. Və yalnız onda biz anladıq ki, qarşımızda başı ağarmış titrək əlləri ilə 20 yaşlı oğlan dayanıb".

Masrulun söylədiklərindən belə başa düşdüm ki, izdihamlı camaat əl-ələ tutaraq sovet tankları kolonnaları keçən Budapeştin bütün mərkəzi küçələrini kəsmişdi. İnsanlar silahsız idi və susaraq, ölümlə üz-üzə dayanmışdılar, baxmayaraq ki, bizimkilər onların evlərini dağıtmağını əmr etmişdilər. İkinci dünya müharibəsi (*1941-1945-ci illər*) əlili kimi atama hər şey aydın və maraqlı idi və təfərrüatı ilə bilmək üçün Masrulu suallara tutdu.

Beləliklə ilk dəfə ədalətli və məğlubedilməz sovet ordusu haqqında məktəbdə aldığım o biliklərə zidd olanları öyrəndim...

Mən burada Babam Sədi Şəriflinin sözlərinə ilə, atam Həmidulla Sədi oğlu Qəhrəmanov (Şərifli) haqda bir neçə kəlmə demək istəyirəm. Atam Həmidulla Göyçay rayonunun Bığır kəndində 1915-ci ilin Aprel ayının əvvəlində anadan olmuşdur.

Beş qardaşın dördüncüsüydü, qalanlarından fərqlənirdi – daha sərbəst, düşünən və fəal idi. Hələ gənc yaşlarından Müsavat "*bərabərlik*" təşkilatına can atırdı və artıq 15 yaşında ikən ata evindən (*Bığırdan*) köçüb Göyçay şəhərində yaşamağa getmişdi, o müxtəlif pedaqoji dərnəklərə işdirak edirdi.

Pedaqoji kursları bitirdikdən sonra o, Mususli kəndinin ibtidai kənd məktəbində müəllim oldu, və özündən böyük qardaşı Baloğlanı da yanına riyaziyyat müəllimi işləməyə çağırdı.

Baloğlan əminin söylədiklərinə görə, atam çox fəal insan idi, bir yerdə otura bilmirdi, həmişə at çapırdı.

Yadımdadır, Baloğlan əmi danışırdı: "*Atan atın belində elə hoqqalar göstərirdi ki, hətta sirkdə ona qibtə edərdilər*".

Böyük Vətən müharibəsi başlayarkən – 22 iyun 1941-ci ildə bütün Azərbaycan sarsılmışdı. O zamanlar atam məktəb direktoru idi, əmim isə riyaziyyat müəllimi. Çox çətin və dəyişkən zaman idi.

1942-ci ilin fevral ayının ortalarında, Baloğlan əminin danışdıqlarına görə, gecə kimsə bu kənd məktəbini yandırmışdı, XDİK (*Xalq Daxili İşlər Komissarlığı*) aydınlaşdırmaq üçün bizi – iki qardaşı Göyçayda həbsxanaya saldı.

Növbəti gün atam Həmidulla haradansa öyrənmişdi ki, Azərbaycanın Ucar şəhərində piyada diviziya qərargahı formalaşır.

Baloğlan əminin söylədiklərinə görə, atam ağıllı adam idi, başa düşürdü ki, o illərdə bütün ölkədə baş verdiyi kimi, belə qarışıqlıqda onları təhrikçilikdə ittiham edib, məhkəməsiz, istintaqsız güllələyə bilərlər.

Müstəntiq hər ikimizi otağına çağıranda atam ona macal vermədən dedi: "*Baş verənlərin təhrikçilərin işi olduğunu başa düşürük, amma indi – müharibə gedərkən, könüllü cəbhəyə getmək və Vətəni müdafiə etmək istəyirdik*".

Gənc zabitin bu xoşuna gəldi və görünür, qardaşlar Göyçaydan cəbhəyə gedən ilk könüllülərdən idilər.

Bir həftədən sonra məlum oldı ki, Zaqafqaziya hərbi dairəsinin ordu komandanın Əmri ilə 22 fevral 1942 ildə, 416 Atıcı diviziyası ştabı Azərbaycanın Uçar şəhərində formalaşdırmaga başlandı, və Ağdamda 1054 və 1374 hərbi polku, Göyçayda 1373-çü polk, və Smqaitdə 1368 polklar yaradıldı. Həftə keçməmiş hər iki qardaş 416-cı piyada diviziyasının tərkibinə daxil edildi...

Baloğlan əmidən fərqli olaraq, sağ ayağının bir hissəsini itirən və ona qədər qəlpəni bədənində məzara aparan Böyük Vətən müharibəsi (*BVM*) əlili – atam müharibənin ağırlığından danışmağı sevməzdi. Biz – müharibə iştirakçıları döyüş meydanında istənilən an ölə bilərdik, ona görə müharibədən sonra Tanrının bizə verdiyi ömrü hər gün sonuncu imiş kimi yaşamalıyıq, deyə təkrarlayırdı.

Onun bəziləri kimi müharibədən nəsə danışdığını görmədim. Amma müharibənin sonu haqda qətiyyətlə deyirdi ki, Stalinin intizamı olmadan müharibəni udmaq mümkün deyildi. O Stalini Atatürklə müqayisə edirdi və təkrarlayırdı: "*Sən yaşa, min yaşa Mustafa Kamal paşa*".

Buna görə atamın Budapeşt hadisələrinə marağı aşkar və aydın idi. Atamın axşamlar radioqəbuledici ilə "*Amerikanın səsi*" radiostansiyasına verlişin ötürülməsini batırılsa da qulaq asırdı. DTK işçiləri şəhəri xüsusi maşınlarda dolanaraq, radioqəbuledicilər pelenqləyirdilər, dinləyiciləri isə özlərinə "*dəvət edirdilər*".

Bu hadisələrdən beş il sonra məktəbdə tarix müəlliməmiz Tahirə Həbib qızı Əliyeva o Budapeşt hadisələri haqda nəsə başa salmağa çalışırdı (*lakin deyilənlər həqiqətdən uzaq idi*).

Əslində isə Macarıstanın paytaxtı Budapeştdə 23 oktyabr 1956-cı ildə antikommunist üsyanı başlamışdı.

Sovet qoşunları dərhal buna qarışdı, lakin üsyan bir neçə günə Moskva əlaltılarının siyasi səhnəsindən təhlükəsizləşdirildi. Yerlərdə hakimiyyət kortəbii yaranmış inqilabi və milli komitələrə, müəssisələrdə – fəhlə sovetinə keçdi və oktyabrın axırlarına Macarıstanda faktiki olaraq demokratik inqilab qələbə çaldı.

Yenidənqurma illərində haradasa oxumuşdum ki, "*Qasırğa*" şərti adı altında hərbi əməliyyat 4 noyabr 1956-cı ildə Moskva vaxtı ilə 6.15-də başlanmışdı, və 16 Sovet diviziyasına ümumi komandanlığı Macarıstana xüsusi gələn şöhrətli marşal İvan Konev həyata keçirirdi. Budapeşti ələ keçirmək əmrini alan Xüsusi korpusun gücləndirilmiş əlavə (*tank, desant və artilleriya*) hissələri ilə yanaşı, 8-ci mexanikləşdirilmiş qvardiya, Karpatdan 38-ci ordu cəlb olunmuşdu.

Deyilənlərə görə, SSRİ-nin Macarıstandakı o vaxtkı səfiri hadisələrin ən sərt ssenari üzrə inkişafına xeyli töhfə verib. İndi, yarım əsr sonra, mənə elə gəlir ki, macar hakimiyyətinə kömək təşəbbüsü məhz Y.V.Andropovdan gəlirdi.

Y.Andropovun xidmətləri Kremldə yüksək qiymətləndirildi, macar "*qiyam*"ının müvəffəqiyyətlə yatırılması isə onun siyasi karyerasına tramplin oldu. 1957-ci ilin martında o artıq Sov.İKP MK-nın "*sosialist düşərgəsi*"ndə nizam-intizama baxan əsas şöbələrindən birinə başçılıq edirdi. Y.V.Andropovun partiya olimpinin zirvəsinə yolu məhz 1956-cı ildə Budapeştdə başladı (**http://www.vokrugsveta.ru/vs/article/2903/**).

Əlbəttə mən o uşaqlıq illərimdə çox şeyi anlamırdım, lakin 1990-cı il yanvarın 20-də Bakıda baş verən qanlı hadisələr mənə və bütün zərərçəkən Azərbaycan xalqına Budapeşt qırğınını anlatdı.

Uşaqlıq illərimdə, oktyabrda hətta bizim balaca rayon mərkəzində – Göyçayda həmişəlik yaddaşıma həkk olunan hadisə baş verirdi. Yadımdadır, necə məktəbimizin oktyabryatlar və pionerlər adlanan bütün şagirdlər dərsdən sonra qarşısında İosif

Vissarionoviç Stalinin büstü dayanan Göyçay Rayon Partiya Komitəsinin yanından keçirdilər.



Məhz büst qarşısında məcburi mərasim keçirilirdi: şagirdlər sağ əlin birləşmiş beş barmağını alnın ortasına qoyaraq ucadan and içirdilər: "*Həmişə hazır*". Sonra evlərinə ğetməyə davam edirdilər.

Bir dəfə biz (*altı nəfər*) adəti üzrə mərasimə hazırlaşırdıq, lakin İ.V.Stalinin büstünü görmədik, o sadəcə yox idi. Əlimiz qalxmış və ağzı açıq yerimizdə "*donub qalmışdıq*" və bilmirdik nə baş verir, büst haradadır, başlıcası isə, sonra nə edəcəyik.

Bütün bunları Göyçay Rayon Partiya Komitəsinin qarşısında dayanan insanlar görürdülər, amma bizə heç nə demədilər. Və yalnız əlində süpürgə ilə işləyən qoca kişi bizi görüb, yaxınlaşdı və başını yelləyərək, dedi: "*Uşaqlar, evinizə gedin, bütün bunlar sizə ait deyil*" və əlavə etdi: "*Hə, onun da vaxtı keçdi, siz isə beləcə daha nələr görəcəksiniz!*".

Görünür, müdrik Solomon çarının üzüyündəki yazını bilirdi: "*Hər şey keçir, bu da keçəcək*".

Biz ancaq qocanın sözlərindən sonra "*ayıldıq*", sakitcə, susaraq, heç bir şey anlamadan, evlərimizə dağıldıq.

Lakin gördüklərimiz dəhşətli sarsıntı idi, qorxudan hətta evdə bir şey soruşmağa cəsarət etmədim. Həmin gün mən düz bir il böyüdüm.

İllər keçirdi, postament əvvəlki yerində dururdu, zaman-zaman üzərinə SSRİ-nin müxtəlif şəxsiyyətlərinin və liderlərinin yeni büstləri qoyulurdu, və sonra da yoxa çıxırdı.

Hətta bu gün, Azərbaycanın müstəqilliyinin bərpasından 25 il ötdükdən sonra belə Bakıda və rayonlarda da birilərinin büstü və heykəli bu cür gizlicə götürülür, və sonra yeniləri qoyulur.

Bütün bunlara baxdıqda, istəmədən o uşaqlıq illərimi xatırlayıram və ən əsası süpürgçi qocanın sözlərini yada salıram: "*Hə, onun da vaxtı keçdi, siz isə beləcə daha nələr görəcəksiniz!*".

Qoy uca Allah məni bağışlasın, amma bütün bunlara baxdıqda, dünyanın bir çox ölkə və şəhərlərini görən adam kimi özümdən soruşuram: "*Niyə bu buddist ibadət rəmzləri insana belə lazımdır, həm də tək bizdə deyil, bütün dünyada?*".

Axı biz azərbaycanlılar – türklər islama etiqad edirik, islam isə Allahdan başqa nəyəsə və ya kiməsə sitayişə yol vermir, heykəl və büstlərə də o cümlədən.

Doğrudur, müasir dünyada bizim sivilizasiyamızin səviyyəsi müxtəlif mədəniyyətlərin qarışılıqına yol verdi və mən də güman edirəm, büst və heykəllər xalqların mədəniyyəti və tarixi ola bilər, lakin sitayiş obyekti deyil.

Ona görə şadam ki, sovet illərində heykəllərdəki surətlərə şərəf verdiyimiz kimi nəvələrimizi də məcbur etmirlər və "*ayaqda alqışlara keçən uzun alqışlardan*" azaddırlar.

İngiltərədə tam 1981-82-ci tədris ilini yaşayan bir adam kimi mənə inanın, necə qəşəng geyinsək də, hansı markalı saatları taxsaq da, nə qədər görkəmli yerisək də dünya bizim haqqımızda öz fikrini dəyişmir.

Bu gün, İnternet əsrində, bütün dünyanın televiziya və kütləvi informasiya vasitələrinə əlçatımlılıq dövründə dünyanın həqiqətlərini heç nə ilə gizlədmək mümkün deyil. İndi rəqəmsal telekommunikasiya, kompüterlər və kütləvi informasiya vasitələri o qədər vahiləşib ki, dünyanın istənilən nöqtəsində istənilən hadisə təfsilatı ilə bütün dünyanın mülkiyyətinə çevrilir.

Beləliklə, beynəlxalq informasiya infrastrukturunun real qloballaşması başladı ki, burada telekommunikasiya özünün əlverişlilik fəlsəfəsi ilə sivilizasiyamızın əlaqələndirən və birləşdirən amil hissəsiə çevirilmişdir.

"*Ğünəş məktəbdən dogur*"
Seyid Əzim Şirvani (1835-1888)

### 1.3. Məktəb – həyatımızın ən parlaq hissəsidir.

Məktəb tamamilə yad və gənc adamları birləşdirərək, demək olar ki, onları qohum edəndir. Məhz məktəb illərində ilk dəfə olaraq cəmiyyəti dərk edirik, real biliklərə yiyələnirik, ilk dostlarımızı tapırıq və, nəhayət, ilk müqəddəs hiss – məhəbbəti anlayırıq.

Bu gün mən – Şərifli sülaləsindən Abdul Həmidulla oğlu Qəhrəmanzadə, telekommunikasiya üzrə müstəqil ekspert, 250-dən artıq nəşrin müəllifi – Göyçay şəhərinin 3 saylı sevimli məktəbimi düşündükdə əsl mənada həyan çəkirirəm.

Etiraf edirəm ki, rus məktəbində oxumaq mənim üçün çox çətin idi, çünki rusca bir kəlmə də başa düşmürdüm. Yaxşı ki,

dərsarası tənəffüsdə, bəzən də sinifdə dərs zamanı bir-birimizə doğma azərbaycan dilində müraciət edirdik (*buna görə bizi cəzalandırır və küncə qoyurdular*).

Bundan əlavə, dördüncü sinifdə rus dilindən aldığım ikiyə görə sinifdə ikinci ilə qaldığım üçün atam yayda mənə repetitor tutmağa qərar verdi – rus dili müəlliməsi İnna Petrovnanı, Göyçay rayon partiyasının ikinci katibinin şoferinin böyük qızı idi, ailəsi də Göyçay şəhərinin on rus ailəsindən biri idi.

Mən çəkinmədən institutda, aspiranturada dostlarıma, daha sonralar evdəkilərə uşaqlıqda rus dilindəki biliklərimin səviyyəsindən, həmçinin, Göyçayda rus dilindən İnna Petrovna ilə ay ərzindəki məşğələlərimdən danışırdım.

Əlbəttə, həmin ay İnna Petrovna məndən çox əziyyət çəkirdi, yazıq bilmirdi hansı tərəfdən yanaşsın ki, rus dilini mənimsəməkdə mənə ilkin təkan versin.

Bir dəfə o, kitabın üzündə çəkilmiş üç rus pəhləvanının (Alyoşa Popoviç, Dobrınya Nikitiç və İlya Muromec) şəklini mənə göstərərək, soruşdu – "*Abdul, pəhləvan (boqatır) kimdir?*".

Mən gözümü qırpmadan cavab verdim ki: "*Varlı adamdı da, şifoneri, xalçaları, var-dövləti var...* ".

O (*İnna Petrovna*), başından tutaraq, az qala ağlasın.

Mən isə heç nə başa düşmədən soruşdum: "*Nədir, düz deyil?*". Və, ola bilsin onda İnna Petrovnanın ağlına gəldi, mənə balaca hekayə (*müəllifi dəqiq yadımda deyil*) verdi və dedi: "*Səhərə qədər oxu, sabah mənə danışacaqsan*".

Sonra o məni məktəbimizin kitabxanasına yazdırdı və kitabxanaçıdan xahiş etdi ki, mənə siyahı üzrə müxtəlif hekayə kitabları versin, kitabı qaytardıqda isə kitabxanaçıya bu kitabların bütün məndəricatını danışım.

O vaxtdan kitabxanaya müntəzəm olaraq getməyə və oxuduğum kitabların öz sözlərimlə danışmağa başladım.

Beləliklə, yavaş, lakin planla rus dilini anlamağa başladım.

Yaddaqalan hadisələrdən biri 8-ci sinifdə baş verdi. Bu – mənim kimyadan ilk beşim idi, biologiya və kimya müəlliməsi Vinoqradova Tamara Viktorovna vermişdi.

Bir dəfə tarix dərsində 10-cu sinif şagirdi Musayev Rasim sinfə gəldi, o həm əlaçı həm də idmançı idı, sonralar Azərbaycan Tibb İnstitutunu bitirdi və respublikamızda çox savadlı və məşhur cərrah-travmatoloqlardan biri oldu.

O, sinfimizdəki çox çalışqan Musayeva Məlahətin qardaşı idi. Sinfə girərkən üzr istəyərək dedi ki, Abdulu kimya otağına Vinoqradova Tamara Viktorovna çağırır. Tahirə Həbibovna onunla çıxmağıma izn verdi.

Heç bir şeydən şübhə etmədən Rasimlə çıxdım və kimya otağına getdim. Yolda Rasim mənə dedi: "*Səndən nə soruşsa, cavab ver ki, bilmirsən, başa düşdün!*". Heç bir şey başa düşmədən onunla otağa daxil oldum və gördüm ki, buraxılış sinfinin yarısı ayaq üstədir, digər yarısı isə əyləşib.

Tamara Viktorovna ilə salamlaşdım və dedim ki, onu dinləməyə hazıram. O, otaqda axırıncı partanın yanında dayanmışdı və dedi: "*Abdul, lövhəyə dön, yazdığım tənliklərə bax və de, sən bu kimyəvi tənlikləri həll edə bilərsənmi?*".

Lövhəyə diqqətlə baxdım, başa düşdüm ki, biz bu cür tənliklər həll etmişik və cavab verdim ki, bəli edə bilərəm.

Bu zaman küçəmizdəki qonşum Yaşar əllə işarə edib, pıçıldadı ki, mən həll etməyim. Heç bir şey başa düşmədən lövhəyə çevrildim, tabaşiri götürüb sakitcə orada yazılmış hər iki tənliyi həll etdim. Sonra qeyri-adi bir şey baş verdi. Tamara Viktorovna müəllim masasına yaxınlaşdı, vazadakı gülləri şagirdlərə atdı və bərkdən dedi: "*Hər birinizə ayıb olsun! 8-ci sinif şagirdi bu tənlikləri həll etdi, sizdən heç biriniz onları həll edə bilmədiniz!*".

Onda Rasimin dəhlizdə dediyi və qonşu Yaşarın sözlərinin mənasını başa düşdüm, amma artıq gec idi. Sonra o mənə tərəf döndü və nəzakətlə dedi: "*Abdül, çox sağ ol, dərsinə dönə bilərsən. Mənim üçün Tahirə Həbibovnadan üzr istə*". Üzrü söyləməyi vəd edərək, çıxdım. Kədərli idim və o uşaqlar qarşısında bir az da xəcalətli, amma, necə deyərlər, doğru hər şeydən üstündür.

Rus dilini mənimsəməyimdə dönüş nöqtəsi 8-ci sinifdə rus dili və ədəbiyyat müəllimərmiz Senkina Antonina Sergeyevna olanda baş verdi. O, MDU-nin (*M.V.Lomonosov adına Moskva Dövlət Universiteti*) məzunu idi. Biz onun ilk şagirdləri idik. Onun sözlərindən, böyük Nizami Gəncəviyə, Molla Pənah Vaqifə və

Azərbaycan mədəniyyətinin digər klassiklərinə məhəbbətindən özü təyinatını ölkəmizə almışdı. O, Göyçay şəhərinin 3 saylı rus məktəbimizdə rus mədəniyyəti və ədəbiyyatının əvəzolunmaz daşıyıcısı oldu.

Onun dünyagörüşü bizi heyrətləndirirdi. A.S.Puşkinin, M.Y.Lermontovun, F.İ.Tütçevin, İ.A.Krılovun, A.A.Blokun, S.Yeseninin və digərlərinin bir çox şerlərini əzbər bilirdi. Danışıq tərzi bizi valeh edirdi: elə bil danışmırdı, bülbül kimi oxuyurdu.

Sinif yoldaşlarım üçün deyil, amma özüm üçün and içərəm ki, rus dilini sevdim və (*bunu etiraf etməkdə utanıram*) rus dili ilə də öz doğma azərbaycan dilimi. 10-cu sinifdən şer yazmağa başladım və bunda, şübhəsiz, Antonina Sergeyevnanın xidməti böyükdür.

Məhz bizim Antonina Sergeyevnaya görə, 11-ci buraxılış sinfində attestat imtahanlarını verərkən, rus dili və ədəbiyyatdan 5/4 qiymətini aldım, yəni məzmuna görə - 5 (*əla*), qrammatikaya görə - 4 (*yaxşı*).

O həmişə mənə deyirdi: "*Bilmirəm, kim olacaqsan, lakin səni əmin edirəm ki, sən nədən yazsan, hər şey alınacaq. Təkrarolunmaz koloritin, məzmuna özünəməxsus yanaşman var, amma həyatının qalan hissəsində belə rus dilinin qrammatikasına görə əziyyət çəkəcəksən*".

Bu doğrudur, hətta yarım – həyat yoldaşım Subini nitq və yazı səhvlərim bəzən əsəbiləşdirir.

Amma qayıdım gənclik illərimə, 7-ci sinif şagirdiyəm. Yadımdadır, bir dəfə valideyn iclasından sonra ilk dəfə cəsarət edib atamdan soruşdum: "*Ata, məni niyə rus məktəbinə qoydun? Axı dil baxımından mənə çox çətindir. Və mən böyük çətinliklə öhdəsindən gəlirəm*". İnanmazsınız, atam, şikəst ayağı ilə döşəməyə vuraraq, anamı çağırdı: "*Xala qızı, çay gətir bizə, oğlumla söhbət etmək istəyirəm*".

İlk dəfə atamla demək olar ki, bərabər danışacağıq deyə, məni "*tər basdı*". Anam bizə mürəbbə ilə armudu stəkanda çay gətirəndə atam dedi: "*Xala qızı, Yulyanın şəklini mənə ver*". Anam şifoneri açdı və pasporta yapışdırılmaq üçün olan balaca şəkli masanın üstünə qoydu.

Atam amiranə səslə şəklə diqqətlə baxmağımı buyurdu. İtaətlə şəkli qaldırdım və mənimlə təxminən həmyaşıd, hörüklərlə rus qızının üzünü görəndə heyrətləndim.

Qeyri-ixtiyari bu qızın kim oldugunu atamdan soruşdum. Atam bütün ciddiyyəti ilə cavab verdi: Bu odur, Yulya, səni rus məktəbində oxutduğuma görə o "*günahkardır*", baxmayaraq ki, nə mən, nə anan, nə qohumlarımızdan və hətta küçəmizdəki qonşularımızdan heç kim rus dilini bilmirik. Bu 14 yaşlı belorus qızı məni – atanı meşə bataqlığından çıxararaq, xilas etdi. Ağlayaraq və gücünün çatması üçün Tanrıya yalvararaq, şoseyə qədər məni sürüklədi.

Bir həftədən sonra bizim 416-cı Taqanroq Diviziyasının tibb hissəsində özümə gəldim. Burada bizim cərrahdan – Azərbaycanın Quba rayonunun yəhudisi idi – öyrəndim ki, bu qız məni bir neçə saat şoseyə qədər sürükləyərək, ölümdən qurtarıb.

Bu incə məxluqu görəndə hətta xilas olduğum üçün minnətdarlığımı bildirə bilmədim. Bir aydan sonra isə ilk dəfə protezimlə ayağa qalxanda çarpayımın yanındakı dolabçanın üstündə gücü çatmayan yükün (*çəkim onunkundan 3 dəfə ağırdır*) öhdəsindən gələn və həyatımı xilas edən qızın bu şəklini gördüm.

Cərrah şəkli görüb dedi ki, o qızı Belorus cəbhəsinə göndərdilər, xahiş etdi bu şəkli mənə versinlər.

Bax oğlum, məhz onda and içdim ki, əgər evə, vətənimə sağ-salamat çatsam, oğlumu mütləq Göyçayın 1916-cı ildə açılan rus məktəbinə verəcəyəm. Sonra əlavə etdi: "*Abdul, qarşında günahkaram, bütün bu illərdə sən çox əziyyət çəkdin, ətrafımızdən heç kim, hətta mən də sənə kömək edə bilmədik. Lakin mən türkəm, söz vermişəm və baxmayaraq ki, bundan ancaq sən – oğlum əziyyət çəkdin, onu yerinə yetirməməyə haqqım yoxdur.*

*Bu gün, 7-ci sinfin nəticələrinə görə, sənin dərs cədvəlində ilk dəfə beş və dördləri görəndə çox sevindim. Çox sağ ol, qoy bu qıza, əgər sağdırsa, əbədi sülh və xoşbəxtlik nəsib olsun, çünki sənin kitablarına görə hətta mən də rus dilində başa düşməyə və yazmağa başladım.*

*İndi yadında saxla, təhsil üçün sənə nə lazım olsa, hətta bizim Göyçayın mağazalarında olmasa belə, mənə de, sənə onları yerin altında belə olsa, taparam. Yalnız sən "yaxşı" və "əla" oxu!*".

8-ci sinfin başlanğıcında Azərbaycanın çox yaxşı müəllimlərindən biri, riyaziyyatçı, istedadlı və yaxşı insan Abdullayev Ramiz Abdullayeviç Şəki şəhərindən bizə – Göyçayın 3 saylı məktəbinə keçdi.

O ağır və ədalətli idi. Bütün sinfə 5-6 sual verdikdən və onlara cavab almadıqdan sonra elan etdi ki, 7-ci sinif üzrə riyaziyyatdan aldığımız qiymətlərlə tanış olub və xahiş etdi ki, heç kim ondan inciməsin, belə ki, bu sorğu onu əlaçılarımızın biliklərindən şübhələndirdi.

"*Məndən beşi ancaq onuncu tərə qədər çalışanlar ala bilər. Ona görə mən evə 5-6 çalışma və məsələ tapşıranda siz gərək əlavə 10-unu, daha yaxşısı, 15-20-sini yerinə yetirəsiniz. Deyilənlərdən nəticə çıxararaq, güman edirəm ki, birinci tədris rübündə cəhd və səyləriniz olmadan riyaziyyatdan beş ala bilməyəcəksiniz*" – dedi.

Yaxşı yadımdadır, bu dərsdən sonra idman dərsi idi. Adəti üzrə soyunma otağında paltarlarımızı idman formasına dəyişirdik.

Sinfimizin 25 şagirdi arasında ən güclü və həqiqətən çox bacarıqlı olan Mişa Vasyukov fikrini söylədi ki, şagirdlərə yeni riyaziyyatçı ilə asan olmayacaq. Baxmayaraq ki, çox ədalətli müəllimə oxşayır, lakin ondan 5 almaq çətin olacaq.

Onunla Vaqif Mehdiyev də razılaşdı, Mişadan sonra ikinci əlaçı idi, qalan əlaçılarımız qızlar idi. Və birdən söhbətə qarışdım, dedim ki, onu ədalətli pedaqoq və zərərsiz adam hesab edirəm, beşi də almaq olar.

Mişa və Vaqif təəccüblə mənə baxdılar, heç nə demədilər, lakin bizim ortabablar – qalan uşaqlar güldülər. Özümü bir az narahat hiss etdim. Lakin əminliyim Ramiz Abdullayeviçin materialı izahetmə metodundan irəli gəlirdi. O çox anlaşılan dildə danışırdı (*sonralar aydın oldu ki, o məktəbi də, Pedaqoji institutu da doğma azərbaycan dilində bitirib*).

Növbəti dərsdə Ramiz Abdullayeviç cümə gününə tapşırıq verdi, ancaq bütün qrafikləri loqarifmik kağızda yerinə yetirməyi tapşırdı. Bu dərsdən sonra uşaqlar millimetrlik kağızı necə tapacaqlarını bərkdən müzakirə etməyə başladılar.

Düzünü desəm, heç başa düşmürdüm bu nə cür kağızdır, birdən Mişa rəsm və rəsmxət müəlliməmiz Susanna Qlebovnanın yanına getməyi təklif etdi. Haradasa altı uşaq (*qalanları evə getmişdi*) ikinci mərtəbəyə rəsmxət otağına qalxdıq. Mişa başlayaraq, Susanna Qlebovnaya riyaziyyatdan tapşırıqların həlli üçün loqarifmik kağızın əldə edilməsinin vacibliyini izah etdi.

Susanna Qlebovna diqqətlə bizə qulaq asaraq, məktəb ləvazimatları olan mağazaları gəzməyimizi məsləhət gördü, lakin Göyçayın mağazalarında millimetrlik kağızın olacağına şübhə etdiyini dedi, çünki, keçən yay onu Bakıdan almışdı. Sonra loqarifmik kağızın kiçik bir parçasını çıxararaq bizə göstərdi.

Çox diqqətlə bu adi kağıza baxdım. Kərpic rəngli fonda kağızın bütün sahəsinin qeyri-mütənasib oblastlara nazik xətlərlə cızılması heyrətləndirdi.

Hamımız məktəbdən çaşmış halda getdik evə. Loqarifmik kağızın əldə olunması istəyindən özümə yer tapa bilmirdim. Və atamın bu ilin yayında mənə verdiyi sözünü xatırladım: "*sənə nə lazım olsa, mənə de, sənə onları yerin altında belə olsa, taparam*".

Atamın işinə zəng etdim. Amma ona nə istədiyimi aydın başa sala bilmədim. Atam onun kontoruna gəlməyimi təklif etdi. Beş dəqiqədən sonra onun yanında idim və dərs üçün mənə nə lazım olduğunu ətraflı izah etdim. Atam dedi: "*Bilirsən oğlum, biz heç vaxt nə loqarifmik, nə də millimetrlik kağız sifariş etməmişik. Ancaq onlar Bakıda bizim Azticarət bazamızda var. İndi əmtəəçiyə tapşıraram ki, gələn həftədən Göyçaya bu maldan gətirsin*".

Amma mən dedim ki, əgər bu millimetrlik kağızlardan cümə gününə olmazsa, riyaziyyatdan iki alacam. Onda atam əmtəəçini çağırdı və göstəriş verdi ki, o təcili bu gün Bakıya getsin, Göyçay mağazaları üçün millimetrlik və loqarifmik kağızlardan, mənim üçün isə ayrıca hər birindən bir paçka gətirsin.

Ertəsi gün məktəbdən evə qayıdanda anam dedi ki, atam mənə nəsə göndərib. Bağlamanı açdım və iki paçka gördüm: birində millimetrlik, o birində loqarifmik kağızlar. Sevinc hissi məni

bürüdü. Dərhal riyaziyyatdan tapşırıqların həllinə başladım, amma ilk dəfə millimetrlik kağızlarla işlədiyimdən bir neçəsini korladım.

Bu iki gün ərzində Ramiz Abdullayeviçin tapşırıqlarını tuş və reysfederlə yerinə yetirə bildim və cümə günü riyaziyyat dərsində parta arxasında yerinə yetirilmiş məsələ ilə əyləşmişdim.

Dərs başladıqda Ramiz müəllim hamımızın partanın üstünə ev tapşırığını qoymağı xahiş etdi. Mən onda riyaziyyatdan ortabab kimi hərdənbir dörd alırdım və axırıncı sırada oturudum.

Ramiz Abdullayeviç böyük qırmızı qələm götürdü (*şəxsən mən birinci dəfə idi ki, bu cür uzun qələm görürdüm*) və hamının dəftərini yoxlamağa və ev tapşırıqlarını qiymətləndirməyə başladı. Yalnız Mişa üç aldı (*məlum oldu ki, o bu qrafiki əllə çəkməyə çalışmışdı*), qalanlar isə, beş əlaçı da daxil olmaqla, iki aldı. Bütün şagirdlər tapşırığın yerinə yetirilmədiyini satışda millimetrlik kağızın olmaması ilə izah etdilər.

Nəhayət, sonuncu sıraya yaxınlaşaraq, mənim millimetrlik kağızda cızdığım qrafiki gördü. Qrafiki götürdü, diqqətlə ona baxdı və dedi: "*Şadam ki, yanılmışam, bu gün ilk beşi Abdul alacaq. Ümid edirəm, sinfinizdə yeni əlaçı oldu*". O, beşi jurnala və dəftərə yazdı, qrafikə isə beşi qalın qırmızı karandaşla yazdı.

Sinifdə hamı şok halında idi. Ramiz Abdullayeviç dedi: "*Hamı danışır ki, bəs şəhərimizdə millimetrlik kağız yoxdur. Abdul, sən haradan tapdın?*"

Cavab verdim ki, həqiqətən şəhərimizdə millimetrlik kağız yoxdur, lakin bazar ertəsindən bizim mağazalarımızda da olacaq, mənə isə atamın xahişi ilə Bakıdan onun tanışı gətirib. Ramiz müəllim gülümsəyərək, dedi ki, bu yaxşı xəbərdir və maraqlandı ki, mən haradan bilirəm.

Cavab verdim ki, atam Azticarətin (Aztorqın) müfəttişidir, şəhərimiz üçün millimetrlik kağızları o sifariş etdi, ona görə bazar ertəsi satışda olacaq. Həqiqətən, bazar ertəsindən sinifdə hər kəsin millimetrlik kağızı vardı, lakin hamı tapşırığı yerinə yetirməmişdi.

Məni bizim riyaziyyatçı Ramiz Abdullayeviç ilə yaxınlaşdıran sonrakı maraqlı hadisə məktəbin bufetində baş verdi.

Biologiya dərsində sinif rəhbərimiz Vinoqradova Tamara Viktorovna elan etdi ki, bu gündən sinif rəhbərimiz Ramiz müəllim

olacaq. O məndən xahiş etdi ki, bufetə gedib Ramiz Abdullayeviçi biologiya otağına dəvət edim.

"*Yaxşı*" deyib, qalxdım və biologiya otağından çıxdım. Lakin bufetə girərkən yerimdə donub qaldım, həmişə qoğal aldığımız bufetçi qadın bunu görüb bərkdən dedi: "*Abdul, sənə nə lazımdır?*".

Amma mən müəllimimiz Ramiz Abdullayeviçin yemək yediyini gördüyümdən özümə gələ bilmirdim. O da bütün şagirdlər kimi tənəffüsdə qoğal yeyib çay içirdi.

Bufetçi qadının səsinə Ramiz Abdullayeviç də döndü, gözlərimdəki təəccübü görüb, soruşdu: "*Nədir, birinci dəfədir müəllimi nahar edən görürsən?*".

Başımı silkələmək üçün ancaq özümdə güc tapdım (*yəni müəllim də yemək yeyir!*) və Tamara Viktorovnanın xahişini ona çatdırdım.

Ramiz Abdullayeviç mənim otağa qayıtmağımı, özünün isə bir azdan gələcəyini söylədi. Bir neçə dəqiqədən sonra o gəldi, hamımız ayağa qalxdıq, o, salamlaşdı və dedi: "*Siz yəqin ki, hər şeydən xəbərdarsınız. Mən sizin sinif rəhbərinizəm, xahiş edirəm, sevin və hörmət edin. Nəzərə alsaq ki, sizinlə həftədə 4 dəfə görüşəcəyik, həmişə bütün hadisələrdən xəbərdar olacam. 2-3 həftədən sonra sizi yaxından tanıdığımda yeni sinif nümayəndəsini seçəcəyik və əlbəttə ki, əlaçılar sırasından*".

Həqiqətən, üç həftədən sonra sinif iclasında keçmiş sinif rəhbərimiz Vinoqradova Tamara Viktorovnanın tövsiyəsi ilə o, Vasyukov Mişanın sinif nümayəndəsi seçilməsini təklif etdi.

Daha bir həftədən sonra valideyn iclası keçirildi, atam da iştirak edirdi. İclasda Ramiz müəllim sinfi təriflədi, dedi ki, riyaziyyatdan bu rübdə heç kimə beş qoymayacaqdım, lakin şagirdlərin birinin valideyninə görə bütün sinfin millimetrlik kağızı oldu və indi sinifdə dörd nəfərin beşi var.

Şəhərimizi millimetrlik kağızla təmin edən Abdulun atası ilə tanış olmaq istərdim. İclasdan sonra atam Ramiz Abdullayeviçə yaxınlaşdı və özünü təqdim etdi. Bilmirəm nədən və nə qədər danışdılar, amma bir gün sonra Ramiz müəllim dərsdən sonra qalmağımı və riyaziyyat otağına gəlməyimi xahiş etdi.

İkinin yarısında otağa girdim. Ramiz müəllim masasından qalxdı, məni qucaqladı (*Tamara Viktorovnadan sonra ikinci müəllim idi ki, mənə belə istiqanlı yanaşırdı*) və dedi: "*Abdul, bil ki, sən əsl kişinin oğlusan. Təsəvvür edə bilməzsən, atan ailəmiz üçün kimdir. O olmasaydı, nə mən, nə balaca qardaşım, nə anam bu günə qədər qalmazdıq. Atan bizim evdə kirənişin qalanda demək olar ki, ailəmizi yedizdirib, geyindirirdi. Allah böyükdür, şadam ki, yenidən görüşdük. Bilməyini istəyirəm ki, bugünkü əlaçılardan sən ən zəifisən. Görünür sənin nöqsanların olub. Ona görə də həftədə iki dəfə bura saat ikinin yarısında gələcəksən və əlavə məşğul olacağıq. Sən ancaq 7-ci sinfə qədər keçdiyin materialları tamamlamalı və təkrarlamalısan. Əminəm, bir neçə aydan sonra bu əlavə dərslərə ehtiyac qalmayacaq. Lakin yadda saxla – bu söhbətdən heç kimin xəbəri olmayacaq. Əgər kimsə səni burada görsə və səbəbini soruşsa, sakitcə cavab ver ki, məsləhət üçün gəlmisən*".

Həqiqətən, iki aydan sonra tezləşdirilmiş təlim kursuna görə, artıq riyaziyyatdan onlarla misal və məsələ həll edirdim.

Ramiz Abdullayeviçin sevimli atalar sözü isə *"Biliklərə qibtə etmək həyatdakı qibtələrin ən yaxşısıdır"*.

"*Övladımız məshəbini danmasın*
*Hər içi boş sözlərə inanmasın*"
Məhəmməd Şəhriyar (1906-1988)

## **1.4. Biz isə Şərifli sülaləsindənik**.

1961-ci ilin mart ayının sonunda babam Sədi-baba Şəriflinin düz 115 yaşı oldu. Yadımdadır, Novruz bayramı günləri idi, atam elan etdi ki, bazar gününə Sədi baba bütün qohumlarını (*5 oğlunu, qızını, bütün nəvə və nəticələrini*) Bığır kəndinə dəvət edir.

Doğrusunu desəm, Bığır kəndini çox sevirdim və hələ də sevirəm. Həmin illərdə burada babamdan başqa atamın üç qardaşı (*əmilərim*) və bacısı (*bibim*) yaşayırdı.

Onların ən böyüyü və dövlətlisi əmim Qəhrəman idi, 6 uşağı vardı, 4-ü oğlan (*Feyruz, Təhmasib, Firutdin və Hakim*).

İkinci oğlu – əmim Ziyəddin Ucar dəmiryolunun Bərgüşad deposunun sadə fəhləsi idi. Onu bütün nəslimiz çox sevirdi, altı uşağı vardı, ailəsi isə həmişə yoxsulluq içərisində yaşayırdı. İki oğlu vardı – Sədrəddin və Nəsrəddin.

Və, nəhayət, kiçik qardaş – Məhəmməd əmi. 12 uşağından hamısı *sağ* qalmamışdı. Ailəsi çox böyük ehtiyac içərisində yaşayırdı, evi kiçik bir torpaq sahəsi ilə *daxmanı* xatırladırdı. Bu əmimin partlayıcı və səbirsiz xarakteri vardı.

Kənddəki orta məktəbin yaxınlığında bibim (*atamın bacısı*), Sadi Şəriflinin qızı – Ağca-ana yaşayırdı, bir oğlu vardı – Xanlar.

Dördüncü əmim – Baloğlan 1959-cu ilə qədər Qarayazı kəndində yaşayırdı, yerli ibtidai məktəbdə hesab müəllimi işləyirdi. 1959-cu ildə atam onun Göyçaya köçməsinə yardım etdi (*şəhərin şimal hissəsinə, Su İdarəsi deyilən yerə*). Atam həmçinin ona 20 sot torpaq sahəsi almağa, sonra isə ikimərtəbəli ev tikməyə kömək etmişdi. Baloğlan əminin 4 uşağı vardı: iki oğlu (*Dünyamı və Süleyman*) və iki qızı (*Göyçək və Rəna*).

Babamın Şərifli sülaləsindən yaxın və uzaq qohumlarından başqa bu tədbirdə bir çox qonaqlar iştirak edirdi. Sədi babanın tapşırığı ilə qonaqları şəxsən mən saydım. Qonaqların bir hissəsi evdə və həyətdə qarma-qarışıq, o biri hissəsi isə Ziyəddin əminin həyətində olduğundan bir neçə dəfə saymalı oldum. 148 nəfər idi, yarısı 16 yaşınadək uşaqlar idi.

Yadımdadır, tədbirin sonunda bilindi ki, yaş yarımlıq buğa (170 kq) və hər birisi 20-25 kilo olan 6 dənə illik quzu kəsilmişdi.

İndiki kimi yadımdadır, rəhmətlik babamdan iki dəfə soruşdular ki, bu ziyafət nəyin şərəfinədir. Hər dəfə cavab verdi ki, qonaqlığın sonunda deyəcək. O sözünü tutdu və ziyafəti çox qısa nitqlə tamamladı:

"*Balalarım, hamınız iki dəfə Həcc və Məkkə ziyarətçisi – atam hacı Qəhrəman Şəriflinin nəvə və nəticələrisiniz. Babamın, atamın atası Süleymanın nəvə, nəticə və kötücələrisiniz. 250 ildən*

*çox əvvəl, XVIII əsrin əvvəllərində Bığır kəndində Şərifli sülaləsinin banisi babamın babası Şərif Qəhrəman oğlunun nəticə və kötücələrisiniz. İstəyirəm, burada iştirak edən hər kəs bilsin, biz Oğuz türkləriyik, sülaləmiz əzəldən bu günə qədər Şamaxı və Quba şəhərləri arasındakı dağlarda yerləşən "BUQUR" qalasında yaşayıb və ən əsası bu torpaqda üç minillikdən çox yaşayan türklərik*".

Fasilə edərək, Sədi baba Şərifli əlavə etdi ki, atası hacı Qəhrəman tez-tez təkrarlayardı ki, bu günahkar yer üzündə "*xeyrat*" verməsi üçün kişinin iki yolu vardır.

Birinci yol – ən məşhur və görünür, ən doğrusu – hər il həyatində Qurban qismində qoyun kəsməkdir (*nəinki İsmayıl qurbanı, həm də öz arzusu ilə*).

İkinci yol – heç olmazsa ömrünün axırında mənim bu gün verdiyim kimi heç kimin ondan gözləmədiyi "*tək xeyrat*" vermək lazımdır. Bəli, Sovet hakimiyyəti illik ayinlərimizi (*qurban, orucluq, novruz*) yerinə yetirməyə imkan vermirdi və onlara riayət edən bir çox insanlar XDİK-dən (KQB) əzab çəkirdilər.

Lakin bu gün mənim 115 yaşım var və qərara gəldim ki, xeyratımı sağlığımda verim və Allaha şükür ki, mən bunu etdim.

Və birdən o, ucadan dedi: "*Hanı mənim 30 atlım Nuri paşanı ğörəndə?*". Sonra əlavə etdi ki, "*Mənə 3 türk zabiti ver, mən bu Bığırlılarla istədiyin alınmaz qalanı tutum".*

Bu zaman Ağca-bibi (*atamın bacısı*) ucadan dedi – can ay dədə, bu dünyada ən böyük paşa sən özünsən.

Biz – burada iştirak edən gənclər və uşaqlar heç nə anlamırdıq, bir-birimizə, valideynlərimizə, qohumlarımıza və yaxınlarımıza baxırdıq.

Fikir verdim ki, bütün qadınlar başlarını yelləyərək, sakitcə ağlayırdılar, atalarımız isə göz yaşlarını gizləyərək, üzlərini tuturdular. Atama baxdım, gözləri yaşarmışdı, amma sual dolu nəzərlərimi görüncə dodaqlarına şəhadət barmağını qoydu. Ucadan artıq suallar verməməyim üçün bu mənə kifayət idi.

Lakin bu gün 68 yaşımda mən bütün bunları demək olar ki, rəngli şəkildə xatırlayıram.

Azərbaycanın müstəqilliyinin bərpasından 20 il ötdükdən sonra nəvə və nəticələrinə siqnal, özünəməxsus tövsiyə verdiyi üçün babam Sədi Şərifli ilə fəxr edirəm, axı biz onda nə Nuri paşa, nə də Azərbaycanımızın gerçəkləri haqqında hecnə bilmirdik, oxumurduq.

Bütün bunlara tabu (*qadağa*) qoyulmuşdu.

Allaha şükür ki, bu zamanlar keçdi. Bu gün Bakı – Göyçay yolundan keçərkən, Bığır kəndinə aparan yolun ayrıcında türk şəhidlərinin xatirəsinə memorial ucalır ki, burada erməni daşnakları və onların sahiblərindən müdafiəçilərimiz basdırılmışdır.

Həmişə buradan keçərkən Qurandan Surə oxuyuram, sonra deyirəm – Allah sənə rəhmət eləsin, ay Sədi baba Şərifli – və onu təkrarlayıram- "*Hanı mənim 30 atlım Nuri paşanı görəndə?*".

Bu ziyafətdən bir il əvvəl, cümə günlərindən birində Sədi baba Göyçaya məscidə cümə namazını qılmağa atı ilə çaparaq gedəndə atam ilk dəfə onun fotoşəkilini çəkmişdi. Sonralar atam bu fotoşəkili çoxaltmışdı...

Əlbəttə, həyat qəribədir, bu ziyafətdən düz üç ay sonra bizim Sədi baba Şərifli vəfat etdi.

Atam başda olmaqla, onun oğulları bütün yas mərasimini layiqincə keçirdilər. Mərasimdə (*ehsan*) adamlar sayı keçən ilin o mart aylarından üç dəfə çox idi.

Regionun (Şirvanın) bütün yerlərindən (*əsasən kəndindən*) və Şamaxıdan mənə və qohumlarımıza tanış olmayan adamlar bu köhnə sakinə son borclarını ödəməyə gəldilər.

Mən, bütün əmi oğlanları və qızları yeddi gün dalbadal axşam gec saatlarına qədər Sədi babamızın evinin həyətində işləyirdik. Baş sağlıqlarını bildirmək üçün bütün gələnlərə xidmət edirdik. Camaat bitməyən axınla gəlirdi.

Qeyd edim ki, babamın Bığır kəndinin mərkəzində yerləşən evindən 2 km aralıdakı qəbiristanlığa qədər biz – onun nəsli və Bığır kəndinin sakinləri onu – Sədi Şərifli çiyinlərimizdə son mənzilə yola saldıq.




O günlər babamın həyatində ilk dəfə bütün Şərifli sülaləsini tam tərkibi ilə bilavasitə gördüm. Sülalənin bir çox nümayəndələrini birinci dəfə idi ki, görürdüm və onlarla tanış deyildim, lakin bu boşluğu atamın köməyi ilə doldurdum. Qohumluq dərəcəsini qısaca verərək, atam bizi bir-birimizə təqdim edirdi.

Tanışlığın sonunda qohumumuzun evinə səmimi dəvətini və gəlişi ilə evdəkiləri şadlandıracağına əmin edərək, atamın ona cavab olaraq evimizə israrlı dəvətini eşitdim.

Həqiqətən, babam Sədinin vəfatından sonra tez-tez bizə Göyçaya qohumlarımız, əminəvələri, dayınəvələri, xalanəvələri, bibinəvələri qonaq gəlməyə başladılar. Sədi babanın vəfatı Şərifli sülaləsini daha çox yaxınlaşdırdı.

İndiki kimi yadımdadır, xeyratdan və Quran oxunduqdan sonra böyük əmimiz Qəhrəman qonaqlar gedəndən sonra yığılıb danışmaq üçün atama müraciət etdi.

Axşam hava qaralanda və həyətdə yalnız bizimkilər qalanda beş qardaş masa arxasında əyləşdi, biz – Sədi babanın nəvələri onlara çay və meyvə verirdik. Mən və bir neçə əmi oğlanları həmçinin atalarımızla yanaşı oturduq və sakitcə qulaq asdıq.

Böyüklüyünə görə Qəhrəman əmi sözü aldı. O dedi: "Allaha şükür! Hər şeydən əvvəl qardaşımız Həmidullanın maliyyə dəstəyi ilə mərhum atamız üçün bütün müsəlman ayinləri (*basdırılandan bu günə qədər, qırx gün*) yüksək səviyyədə yerinə yetirilmişdir. Demək olar ki, Həmidulla heç birimizin xərc çəkməyinə imkan vermədi. Böyük qardaş kimi ona təşəkkürümüzü bildirirəm, Allah ona kömək olsun. Amma bir məsələ var ki, onu müzakirə etməyimiz lazımdır – bu atamızın evinin və təxminən bir hektarlıq torpaq sahəsi olan həyətinin məsələsidir.

Böyük qardaş kimi hələ qırx il bundan əvvəl atamdan təxminən bir hektar torpaq sahəsi aldım. Həmçinin, ikinci qardaş Ziyəddin (20 sot) və kiçik qardaş Məhəmməd (20 sot) də torpaq aldılar. Ona görə güman edirəm, əgər bu evi və torpaq sahəsini qardaşlarımız Baloğlan və Həmidulla aralarında bölüşdürsələr ədalətli olar. Axı onlar atamızdan bir qarış torpaq da almayıblar. Əgər Bığır kəndində yaşayan üç qardaş etiraz etmirsə, ata evini və torpağını Baloğlan və Həmidullaya verək".

Sükutu Baloğlan əmi pozdu: "*Hesab edirəm, qardaşımız Qəhrəman ədalətli təklif etdi, lakin, bildiyiniz kimi, qardaşımız Həmidulla mənə Göyçayda 20 sot torpaq almağa və orada ikimərtəbəli ev tikməyə kömək etdi. Bunu nəzərə alaraq, təklif edirəm evi torpaqla birgə qardaşım Həmidullaya verək, həm mərhum atamız üçün ayinlərin icrası ilə bağlı bütün xərcləri, həm də atamızı saxlamaq üçün ötən 15 il ərzindəki xərcləri həmişə o öz üzərinə götürüb*".

Bu dəfə qardaşlar yekdilliklə razılaşdılar ki, ev və torpaq sahəsi atam (*Həmidullanın*) adına rəsmiləşdirilsin və hamı maraqla onun reaksiyasını gözləyirdi.

Atam ayağa qalxaraq, kostyumunu düzəldərək, dörd qardaşa baxıb dedikləri bu günə qədər sözbəsöz yadımdadır: "*Əziz qardaşlarım çox sağ olun, diqqətinizə görə çox sağ olun. Nəzərə alaraq qərarınızı yekdilliklə vermisiniz, istəyirəm öz fikirlərimi söyləyim. Mən də Baloğlan kimi şəhərdə yaşayıram, ona görə də kənddə yaşaya, üstəlik, torpağa baxa bilməyəcəm. Başqa təklifim var: gəlin evi də, torpağı da 10 uşaq atası, nisbətən kasıb olan kiçik qardaşımız Məhəmmədə verək. Axı onun yalnız 20 sot torpağı var, evi isə demək olar ki, qazmadır. Lakin, nəzərə alsaq ki, qardaşımız Ziyəddinin 20 sot yeri və 2 oğlu var, təklif edirəm, Məhəmmədin indiki torpağını (20 sot) Ziyəddinə verək, ata evinin və həyətinin sahibi isə ən kiçik qardaşımız Məhəmməd olsun*".

Hamı bir ağızla – Allah sənə cansağlığı versin, Həmidulla, hər iki qardaş üçün xeyir iş gördün.

Atam Məhəmməd əmiyə müraciət edərək, dedi ki, rəsmiləşdirmə işi ilə iki qardaş məşğul olsun, lakin hər şey ədalətli olmalıdır. Ondan dərhal sonra kiçik əmimiz Məhəmməd qalxdı, xoşbəxtlikdən gözləri yaşarmışdı.

Atama tərəf döndü və mənə elə gəlir, çox səmimi dedi: "*Çox sağ ol Lələ (yəni böyüyümüz). Yaxşılığınızı heç vaxt unutmayacam. Sabah özüm bütün sənədlərin rəsmiləşdirilməsinə başlayacam. Bir də çox sağ ol!* ".

Lakin hər şey elə də asan olmadı. Üç həftədən sonra Ziyəddin əmi evimizə, Göyçaya gözlərinin altı göyərmiş halda gəldi. Məlum oldu ki, kiçik əmim qardaşların şifahi razılaşmada şərt kəsdikləri o 20 sot torpağı ona - Ziyəddin əmi qaytarmaq istəmir.

Anam bu haqda eşidəndə güman etdi ki, atam bizə (*övladlarına*) kəndə yalnız zəruri hallarda, o da bir neçə günlüyünə və ancaq Ziyəddin əmi gilə getməyə icazə verəcək.

Və həqiqətən də o gündən atam kəndlərinə heç getmədi, tənbehləyici bir kəlmə belə işlətmədi, amma dörd qardaş yanında verdiyi sözü tutmadığına görə kiçik qardaşından incidi.

Ziyəddin əminin gəldiyi gün atam fasilədə evə gəldi və birlikdə nahar etdilər, sonra onlara "*armudu*" stəkanda çay gətirdim

və onlarla birlikdə oturdum. Onda atam dedi: "*Ziyəddin, ikiniz də qardaşımsınız, amma biriniz normal davranmadı. Yadında saxla, qardaşlıq var-dövlətlə, fiziki güclə, gözəllik və ya boy-buxunla ölçülmür. İnsanın qohumluğu verdiyi sözün, özü də qohumlarına və qardaşlarına verdiyi sözün dəqiq tutulması ilə təyin olunur*".

Bilirsiniz, 1993-cü ilin sentyabrında Liviya və Pakistandan Birləşmiş Millətlər Təşkilatının (BMT) Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) xətti ilə ekspert qismində birillik missiyadan qayıtdıqdan sonra Göyçayda mənə dedilər ki, Məhəmməd əminin sağlamlığı və maddi vəziyyəti pisləşib.

Həyat yoldaşımla və iki övladımla bərabər 1961-ci ildən sonra ilk dəfə oraya – babamın həyətinə Volqa maşınımızla – "*Motyada*" gəlmişdik. Bütün bu illərdən sonra məni gördüyündə mat qaldı. Onun əməlinə münasibətimi bildirməyimi yersiz saydım. Ona dollarla müəyyən məbləğ verib, və ailəmlə Bakıya qayıtdım.

Axı heç kim özü ilə bu dünyadan heç nə aparmır. Ən yaxşı halda, müsəlman kimi ağ kətan materiala (*kəfənə*) bürüyüb, həcmi **1,5 x 2,5 x 1,5** kub metr, üzü Kəbəyə, Məkkəyə olan qəbirdə basdırırlar.

Görünür, ölümə hər an hazır olmaq lazımdır: gecə və ya gündüz, yuxuda və ya oyaq olanda, yatmamışdan və istənilən işə başlamazdan əvvəl isə Quranın əsas surələrini oxumaq lazımdır.

Bəli, təəssüf ki, mənim Şərifli sülaləsinə aid hətta 6 sotluq yerim də yoxdur, lakin ənənəyə sadiq qalaraq, heç olmasa ildə bir dəfə, hər hansı bir bəhanə ilə bu kənddə 300 illik tarixi olan əcdadlarımın yerlərini ziyarət edirəm.

Onların yaşadığı, işlədiyi, evlərin tikintisində damların örtülməsi üçün lazım olan məşhur türk "*Abirşim*" ağaclarını əkib, becərdikləri bu torpaqda gəzirəm.

Və, nəhayət, nar ağacları yalnız Azərbaycanda bitmir, lakin Azərbaycan narının təkrarolunmaz dadı dünya şöhrəti tapdı, belə ki, Avropa oyunlarının – Bakı – 2015 rəmzi oldu.

Nara dad və müalicəvi xüsusiyyətlər verən isə Bığırın torpağı – Azərbaycanda bir neçə minilliklər yaşayan, oğuz türklərindən olan Şərifli sülaləsinin torpağıdır.

Etiraf etmək lazımdır ki, Rusiyada türk millətlərinin inkişafı çox ləng gedirdi. İmperiya Rusiyanın müsəlman sərhəd bölgələrinin ruslaşdırılması üçün inkişaf ssenarisini (*süni maneələr və çətinliklər yaradaq*) nəzarət altında saxlayırdı.

Rusiya onun 3 coğrafi istiqamətində (*şimal, şərq və cənub*) çoxluq təşkil edən türk tayfa və millətlərindən qorxurdu, bir daha türk sözünü söyləmirdi, hamısını tatar adlandırırdı (*Volqa, Sibir, Qafqaz və s.*).

Fərqli düşüncələrə və daha çox türk (*tatar*) millətlərinin yeni cərəyanlarına təzyiqin ən yaxşı nümunəsi imperiyanın məmurlarının bu xalqları təqib etməsi idi.

Görünür bu, XIX əsrdə Rusiya imperiyasının milli siyasətinin ən xarakterik xüsusiyyəti idi, milli təhsil sisteminin doğma azərbaycan (*türk*) dilində yaradılmasına yol verməmək idi.

Bir qayda olaraq, bu məktəblərdə (*indiki Azərbaycan Respublikasının ərazisində*), bir neçə məktəb istisna olmaqla, tədris rus dilində aparılırdı, məsələn, azərbaycan dilini ayrıca dərs kimi tədris edən "*rus-tatar*" adlandırılan məktəblərdə.

Bu illərdə və Göyçayda 1916-cı ildə yaradılmış rus-tatar məktəbini (*hərçənd ki, o zaman Zaqafqaziyada 500-dən artıq erməni məktəbi var idi*) deyilənlərə misal göstərmək olar.

Belə çıxır ki, Zaqafqaziyanın müsəlman xalqlarına münasibətdə müstəmləkə siyasətinin əsl mahiyyəti, şübhəsiz, hələ də onların doğma dillərinin inkişafı ilə bağlı milli tərəqqisinə imkan verməmək idi.

İmperiyanın hüdudlarında yaşayan novator-müsəlmanların (*türklərin*) mübarizəsi, görünür, Rusiya Daxili İşlər Nazirliyinin polis departamenti tərəfindən gizli izlənilirdi və imperiyanın ucqarlarının rəhbərləri tərəfindən qadağan olunmuş, yanlış düşünən ucqarların (*tatar*) qiyamı və özbaşınalığı kimi başa düşülürdü.

"Zerkalo" qəzetində 10.09.2011-ci ildə dərc olunmuş M.Məmmədovanın məqaləsi (**http://www.zerkalo.az/2011-09-10/history/22851**) deyilənlərə parlaq nümunədir.

Bu məqalədə Şirvanım, doğma Göyçayım, ən əsası Göyçay şəhərinin Bığır kəndinin Şərifli sülaləsindən bilavasitə, sənədlərlə və tarixi nöqteyi-nəzərindən söhbət açıldığına görə maraq kəsb edir: "Yeni 1901-ci ilin əvvəlində Bakı qubernatoru Dmitriy Aleksandroviç Odincova Rusiya imperiyasının Daxili İşlər Nazirliyinin polis departamentindən onun direktoru, senatoru, gizli müşaviri Sergey Zvolyanskiy tərəfindən imzalanmış məktub daxil oldu. O xəbər verirdi ki, polis departamentində olan "*məlumatlardan bəllidir ki, son zamanlar tatar ədəbiyyatında rus dövlətinin 14 milyonluq müsəlman əhalisinin bütün çoxəsrlik yaşayış tərzini sarsıtmaqla hədələyən və bu əhalinin həyatında ciddi dönüşün hazırlandığını güman etməyə imkan verən tamamilə yeni cərəyanlar müşahidə olunur*".

"*Əvvəlcə bu cərəyanlar, görünür, tədrisin yeni metodlarının tamamilə qəbahətsiz sahələrində ortaya çıxmışdı və tatar uşaqlarının tatar və ərəb hərflərinin mənimsənilməsini xeyli asanlaşdıran Avropa səs sistemi üzrə tərtib edilmiş Krım murzəsi* ***İsmayıl Qasprinskinin*** *1884-cü ildə dərc olunmuş tatar dərsliyinin meydana çıxması ilə yaranmışdı*".

Daha sonra S.Zvolenskiy izah edir: "*Yeni cərəyanların tərəfdarları öz yazılarında Rusiyanın tatar əhalisini təhsilə, sənətkarlıq və sənaye sahələrində praktiki biliklərin əldə olunmasına, həm də mədəni və zəngin olduğu üçün xarici dillərin öyrənilməsinə çağırırdılar.*

*Bu zaman novatorlar öz dindaşlarını vahid təhsil sisteminə, yəni rus gimnaziyaları və ali təhsil ocaqlarına deyil, Avropa elminin Quranla uyğunlaşacağı və tatar dilində tədris olunacağı ali müdrikliyin xüsusi tatar ocaqlarına təyin edirdilər.*

*Onlar öz dinini dərk etmək, onu xurafatdan və cahil mollaların şərhlərindən təmizləmək və ədəbiyyat, elm və dini sahələrdə ana dilinin tətbiqini genişləndirərək, milliliyini gücləndirmək zəruriyyətini göstərir və ümumiyyətlə, islam və türk xalqlarının tərəqqisi üçün çalışırlar*".

Polis departamentinin direktoru göstərir ki, yeni cərəyanlar son zamanlaradək bütün tatar (*türk*) əhalisinin tədrisini əllərində cəmləşdirən ruhanilərin qarşıdurması ilə toqquşurlar.

Onun sözlərinə görə, müsəlman aləmində iki cərəyanın mübarizəsi – "*bir tərəfdən köhnə ənənələri müdafiə edən, digər tərəfdən isə tərəqqi və mədəniyyətin yeni ideyalarını rus tatarlarının həyatına aşılayandır*".

S.Zvolyanskiy sonra milli, ictimai və mədəni xarakter alan bu iki cərəyanın tərəfdaşları arasında mübahisənin güclü kəskinləşməsini göstərir: "*Müsəlmanlığın cahilləri, əksəriyyəti də mollalar, köhnə ənənələri elə qızğın müdafiə edirdilər ki, bunu da əvvəlki nüfuzlarını almaqla qorxudan yeni hərəkat qarşısında hiss etdikləri vahimə və xəcalət ilə izah etmək olar*".

Novatorlarla mübarizədə, deyə polis departamentinin direktoru davam edir, "*cahillər*" administrasiyanı öz tərəflərinə cəlb etmək istəyirlər.

Peterburqdakı mərkəzi hakimiyyəti bir sual düşündürür: "*tərəqqipərvərlər öz səylərində göstərilmiş məqsədlərlə məhdudlaşacaqlar, yoxsa köhnə ənənələrin tərəfdarlarına üstün gəlib davam edəcəklər? İndiki zamanda güman etmək mümkün deyil, necə ki, iki partiyadan hansının qalib olacağını, rus dövlətçiliyinin maraqları nöqteyi-nəzərindən qələbənin nəticələrinin necə olacağını qabaqcadan bilmək mümkün olmadığı kimi*" – deyə, polis departamentinin direktoru qeyd edir.

Eyni zamanda o, hər iki partiyanın etibarsızlığını qeyd edirdi, çünki ruhanilər də, tərəqqipərvərlər də "*Rusiyadan uzaqlaşmağa*" meyllidirlər. Zvolyanskiy müsəlman aləmində hərəkata ehtiyatlı və sayıq münasibətin zəruriliyini, belə hərəkatlarla öncədən və tam tanışlığın vacibliyini qeyd edir.

DİN-nin polis departamentinin direktorunun məktubundan göründüyü kimi, yeni cərəyanlar Peterburqda yüksək dairələrin, hansılar ki, heç vaxt qeyri-rus xalqlarına imperiyanın bərabərhüquqlu vətəndaşları kimi baxmamışdı, ciddi narahatçılığına səbəb olmuşdu...

Ətraflı məlumat olmadığından polis departamenti Bakı quberniyasının müsəlman cəmiyyətinin mütərəqqi ziyalılarının son məqsədləri haqqında mühakimə yeridə bilməz.

Buna görə S.Zvolyanskiy Bakı qubernatorundan xahiş edir, aydınlaşdırsın – ona həvalə edilmiş regionda novator uydurmaların müəllifləri qismində kim çıxış edir, onların şəxsiyyəti, ictimai və əmlak vəziyyəti, müsəlman aləmindəki əlaqələri, təhsili harada aldıqları barədə məlumatları toplasın.

Polis departamentinin rəisini həmçinin "*yeni hərəkatın tərəfdarlarının türk gənclərlə əlaqələri və Türkiyədən yaxud digər xarici müsəlman mərkəzlərindən yardım aldıqları*" haqqında məsələlər də maraqlandırır. S.Zvolyanskiy qubernatordan ona həvalə edilmiş regionda yeni metodlarla tədris olunan müsəlman məktəblərinin harada və kim tərəfindən əsası qoyulduğu, kimin orada müəllimlik etdiyi və belə məktəblərin kimin idarəçiliyi və nəzarətində olduğu haqqında məlumatlandırmasını xahiş edir.

Axırda o xəbərdarlıq edir ki, alınmış məlumatlar Daxili İşlər nazirinə təqdim olunacaq.

Bununla əlaqədar olaraq, 20 yanvar 1901-ci ildə Qafqazda mülki hissənin ali komandanlığının dəftərxanasının müdiri Bakı qubernatoruna bildirir ki, imperiyanın Daxili İşlər nazirinin müavini knyaz Svyatopolk-Mirskiy də ali komandanlığı "*müsəlman aləmində yeni cərəyanlar*" haqqında xəbərdar etmişdi.

Dəftərxananın müdiri qubernatordan xahiş edir ki, Peterburqla eyni zamanda mülki hissənin ali komandanlığına da canişinə məruzə etmək üçün zəruri məlumatları çatdırsın.

Ya məsələ qəza rəisləri üçün çox çətin idi, ya da hansısa maneələr çıxırdı, lakin martın 31-də Bakı qubernatorunun dəftərxanası tabelikdə olan strukturlara müsəlman aləmində yeni cərəyanlar barədə "*təxirəsalınmaz münasibətin icrası haqqında*" xatırlatmalı olur.

Apreldən Bakı qubernatoruna cavablar gəlməyə başlayır. Qəza rəisləri yazır ki, onlara həvalə olunmuş ərazilərdə "*yeni cərəyanlar*" qeydə alınmayıb. Bakı üzrə məlumat istisna olmaqla.

Toplanmış faktlar əsasında Bakı qubernatoru DİN-nin polis departamentinə xəbər verir ki, "...mənə həvalə edilmiş quberniyada yerli müsəlman əhalisinin böyük əksəriyyətinin əsasən cahilliyi nəticəsində yaranan cərəyanlar özünü heç göstərmir.

Quberniyanın əhalisinin təxminən **70%**-i müsəlmanlardır, onların çox hissəsi şiə, qalanları sünnidir, belə ki, hər cür təbliğata həssas olanlar məhz sünnilərdir və əhali arasında, əsasən də Quba qəzasındakı, Türkiyəyə köçürdülməyə cəhdlər müşahidə olunur. Daha cahilləri – şiələr isə tamamilə ruhanilərin təsiri altındadır və hansısa "*yeni cərəyanlar*"dan uzaqdırlar".

D.A.Odincov əmindir ki, Bakı quberniyası müsəlmanlarının "*cahil və qaranlıq aləmi*" təhsilin və əqli inkişafın geniş tərəqqisi üçün əsas ola bilməz. Eyni zamanda o, "*tatar ədəbiyyatında novator əsərlərin müəllifləri qismində çıxış edənlərdən bir neçəsinin Bakıda yaşayan müsəlmanların olması xəbərini çatdırmaqla şərəf duyur*".

Bu şəxslərə, Bakı qubernatorunun nəticəsinə görə, "Bakı şəhərində dərc olunan "**Kaspiy**" gündəlik rus qəzetinin redaktoru, hüquq fakültəsi üzrə universitet kursunu bitirmiş, vəkil **Əlimərdan bəy Topçubaşov**; həmin qəzetin əməkdaşı, Tiflis real məktəbində təhsil kursunu başa çatdırıb, sonra təhsilini Parisdə davam edən **Əhməd Bəy Ağayev**; həmin qəzetin əməkdaşı, **Həsən bəy Məlikov (*Zərdabi*)** – universitet təhsili almış keçmiş müəllim; **Nəriman Nərimanov** – müəllim institutunda (Qoridə Zaqafqaziya Müəllimlər Seminariyası nəzərdə tutulur) təhsil almış, İmperator III Aleksandr adına Bakı gimnaziyasının sinif rəhbərinin köməkçisi; **Məcid Qəniyev** – yuxarıda adıçəkilən institutda təhsil almış, Bakı şəhərində Rus-tatar məktəbinin nəzarətçisi; **Həbib bəy Mahmudbəyov** – vəzifəsi M.Qəniyevin tutduğu vəzifədəndir".

D.A.Odincov yeni hərəkatın tərəfdarları və türk gəncləri arasında əlaqələr, onların Türkiyədən və ya digər xarici müsəlman mərkəzindən ilhamlanması haqqında suallara cavab verərək, yazır ki, bu barədə "*heç bir müəyyən bilik və məlumat əldə edilməyib*".

Sonra qubernator xəbər verir ki, Bakı quberniyasında Göyçayda yalnız bir özəl müsəlman məktəbi var ki, orada yeni sistem üzrə tatar savadı tədris olunur:

“*Göyçay qəzasının Bığır kəndinin sakini Hacı İbrahim Əfəndi Hacı İbrahim oğlu tərəfindən yaradılıb, şəxsən özü ona rəhbərlik edir və heç kimin nəzarətində deyil. Bundan başqa, quberniyanın xalq məktəblərinin müdirliyində olan bütün rus-tatar məktəblərində eyni yeni sistem üzrə dərs keçirilir*”, - D.A.Odincov izah edir. Ona görə o – bu hakimiyyət – müsəlman aləmində “***yeni cərəyanlar***”dan yanğından qorxan kimi qorxurdu. Nəinki onların fəaliyyətindən, “***yeni cərəyanlar***” söz birləşməsinin özündən belə qorxurdu.

Heç də təsadüfi deyil ki, pulsuz 4-cü şəhər xəstəxanasının müdiri doktor Həsən bəy Ağayev 1907-ci ildə Bakıda “*sadə, rus dilində*” “***Yeni cərəyanlar***” adı altında qəzet açmaq xahişi ilə Bakı şəhər bələdiyyəsinin sədri general-mayor Konevskiyə müraciət etdikdə rədd cavabı almışdı...

Bir az zaman keçəcək və mütərəqqi xadimlərin başladıqları hərəkat görünən nəticələr verəcək – Müstəqil Azərbaycan Demokratik Respublikası yaranacaq”.

Burada əlavə etmək istəyirəm ki, bu məktəbi şəxsən yaradan və rəhbəri olan Hacı İbrahim Əfəndi Şərifli sülaləsindən idi (babam Sədi Qəhrəman oğlu Şəriflinin əmisi oğlu idi).

Və bundan savayı, Bakı quberniyasının Göyçay qəzasının Bığır kəndindəki bu türk məktəbini 1886-cı ildə Şamaxıdan Azərbaycanın böyük şairi və maarifçisi Seyid Əzim Şirvani özü təntənəli surətdə açmışdı...

“*Təhsil yaxşı vərdişlərin mənimsənilməsidir*”
Platon – qədim yunan filosofu

## 1.5. Bizim axırıncı üç məktəb illəri.

Bu paraqrafı 1974-1977-ci illərdə aspiranturasında təhsil aldığım M.A.Bonç-Bruyeviç adına Leninqrad Elektrotexniki Rabitə İnstitutunun “*Avtomatik Elektrik Rabitəsi*” kafedrasının dosenti, ən yaxşı leninqradlı (*Sankt-Peterburq*) dostum Tatyana Quana minnətdarlıq sözləri ilə başlamaq istəyirəm.

Geniş bilik sahibi kimi, həmişə öz fikirlərini elə sadə və əlverişli ifadə edirdi ki, onu anlamaq çətin deyildi. Təəssüf ki, SSRİ-nin dağılması, ardınca da adi sağ qalma çətin dövrü məni bu gözəl insandan, böyük hərflə gözəl insandan ayırdı.

Onunla hər bir görüş – qəlbimin bayramı idi, lüzumsuzdan azad olmaq və yeni bir şey əldə etmək.

Həmişə onu bacı və ya Tanyuşa deyə çağırırdım və doğma bacım kimi yanaşırdım və məncə o da bunu qiymətləndirirdi.

Qeyri-adi taleyi var idi. Anası rus idi (*çar generalının qızı idi*), atası isə çinli, anası ilə görüşəndə Daşkənddə Çinin SSRİ-də konsulu idi, sonradan onu Çin lideri Mao Cze Dun güllələmişdi.

Tatyana Quan bir neçə xarici dil bilirdi: *ingilis, fransız, alman,* həmçinin *çin və yapon.*

Onunla Leninqradda dostlaşdıq, ancaq 1979-cu ilin payızında mən, Tatyana və onun əri Volodya Moskva elektrotexniki rabitə institutunun *FPK* fakültəsində (*bu haqda kitabın digər fəsillərində ətraflı yazacam*) ixtisasartırma zamanı daha yaxın olduq.

O deyirdi ki, insanın tərbiyəsi düz sözləri (*hətta bəzən ucadan, pafosla*) söyləməsi ilə deyil, ünsiyyət zamanı həmsöhbətinin səviyyəsini hiss etdirmədən, onun səviyyəsinə düşmək bacarığı ilə qiymətləndirilir.

Tanyuşa təvazökar xanım kimi əmin idi ki, yaxşı tərbiyə olunmuş insan yaxşı cəhətlərini göstərmək arzusu ilə yox, başqalarına qürurlarına toxunmadan kömək bacarığı ilə özünə rəğbət qazandırır.

İndi başa düşürəm ki, Göyçay şəhərinin 3 saylı məktəbimizin bütün müəllim heyəti tərbiyənin bu prinsiplərini rəhbər tuturdu (*və əsasən də axırıncı üç ildə*) və həm də mənə fundamental biliklər verən bu kollektiv tərəfindən tərbiyə edildiyim üçün özümü xoşbəxt sayıram. Bütün bunlar mənə və ailəmə Azərbaycanın müstəqilliyinin ilk iyirmi ilində həyatın çətinliklərinin öhdəsindən ləyaqətlə gəlməyə kömək etdi.

Bir vətəndaş, gələcəyin bir mütəxəssisi kimi aldığım biliklərlə böyüdüyüm üçün özümü məktəbimizin bütün kollektivinə borclu hesab edirəm.

Məktəbin direktoru Həsənov Kamal Davudovuçdən başlayım. O pedaqoji elmlər namizədi olaraq, coğrafiyanı tədris edirdi. Sonralar Göyçay şəhərinin RXTŞ-nin müdiri oldu.

Ciddi tədris hissə müdirimiz vardı – Abdullayeva Vera Qriqoryevna.

Xüsusi minnətdarlığımı Senkina Antonina Sergeyevnaya – M.Lomonosov ad. Moskva Dövlət Universitetinin məzunu, rus dili və ədəbiyyat müəlliməsinə ünvanlayıram.

Biologiya və kimyanı Vinoqradova Tamara Viktorovna tədris edirdi; ideyaların katalizatoru riyaziyyat müəllimi Abdullayev Ramiz Abdullayeviç idi; tarixə "*bələdçimiz*" fənninə həvəskar Əliyeva Tahirə Həbibovna idi; kimyaya marağımızı artıran, yorulmaz entuziast – Mehdiyev İsa Məmmədoviç; doğma azərbaycan dili Abdullayev Əlövsət müəllimin dilindən rəngarəng səslənirdi; bədən tərbiyəsi müəllimi Zərbəliyev Fikrət fiziki hazırlığımızın, yəni yetişən nəslin sağlamlığının qayğısına qalırdı, 2012-ci ilin noyabr ayının başlanğıcında vəfat etmişdir.

Məhz bu müəllimlərin sayəsində 1964/1965-ci buraxılış tədris ilində sinfimizdə üç medalçı vardı – Vasyukov Mixail və Mehdiyev Vaqif – qızıl medalçılar və mən, Abdul Qəhrəmanzadə – gümüş medalçı.

Bəli, valideynlərin tələbkarlığı, onların ailəsinə hörmətlə yanaşmağı, övladının hər bir addımına nəzarəti – islamda təlimin

şübhəsiz ilk, bəlkə də əsas metod idi. Lakin bu yalnız yeganə və doğrudurmu?

Axı həyatın reallıqları belədir ki, uşaqlar tez və ya gec zamanın müxtəlif problemləri ilə, ğobud və ziyankar insanlarla və hadisələrlə üzləşəcək.

Ona görə də məktəblilərdə onları ayırd etmək, onlarla mübarizə aparmaq və sağ qalmaq bacarığı yetişdirmək tələb olunur.

Məktəb isə uşaqların istixana tərbiyəsindən qurtuluşu, həyatın xoşagəlməz reallıqları ilə mübarizəyə hazırlığı üçün ən yaxşı yerlərdən biridir. Məhz məktəbdə uşaqlar böyüməyə, valideynlərinin harada işlədiyi, hansı statusda olduğu (*ictimai vəziyyəti*) və ictimaiyyət qarşısında xidmətləri ilə maraqlanmağa, valideynləri və nəsilləri ilə fəxr etməyə başlayırlar.

Mən bütün yayı, 9-cu sinfin başlanğıcına qədər "Salyantikinti" müəssisəsinin kinoteatr klubunda əmim qızı Göyçəyin (*Baloğlan əminin qızı*) əri, kinomexanik Fərmanın yanında iki növbədə işlədim.

İki ay ərzində gündə iki dəfə, yani yüzə qədər rus dilində bədii və sənədli filmlərə baxdım. Məhz onların köməyi ilə rus danışıq nitqində söz ehtiyatını xeyli genişləndirdim.

Bundan savayı, yay ərzində qarşıdan gələn 9-cu sinif üzrə riyaziyyatdan 500-ə qədər misal və məsələləri sərbəst həll etdim və rus ədəbiyyatından müxtəlif əsərlər oxudum, o cümlədən dördcildlik L.N.Tolstoyun – "*Müharibə və Sülh*" əsərini.

Məndə, necə deyərlər, təhsilə iştaha və yanğı artmışdı və bunun üçün, hər şeydən əvvəl, müəllimlərimə borclu idim.

Belə ki, bir dəfə pedaqoji ensiklopedik lüğətdə vətənpərvərlik sözünün geniş tərifini tapdım.

Orada deyilirdi: "*Vətənpərvərlik – vətəninə, doğma torpağına, mədəni irsinə sevgidir. Təbii hiss olan vətənpərvərliyin bu təbii əsasları ilə borc və ləyaqət kimi mənəvi dəyərlər birləşir. Vətənə qarşı borcların aydın dərk edilməsi və sədaqətlə yerinə yetirilməsi vətənpərvərlik ləyaqətini yaradır...*".

Hesab edirəm, məktəbimiz vətənpərvərlik məktəbi idi!

Məktəb bizə çox şey verdi, və mən bunu qiymətləndirirəm.

Burada qeyri-ixtiyari Nikol Makiavellinin (*italyan mütəfəkkiri, filosof, yazıçı və siyasi xadim*) sözləri yadıma düşdü: "*Vərdişlərlə birləşməzsə, nə təbiətin gücünə, nə də natiqliyin gücünə etibar etmək olmaz*".

Həqiqətən də məktəbdə təhsilimin axırıncı üç ili ərzində müəllimlərin tələbi artmışdı, bu da məndə qeyri-ixtiyari üzərimdə müstəqil çalışmaq vərdişini yaratdı. Görünür, ingilis atalar sözündə əbəs yerə deyilmir: "*Custom is the second nature*" və tərcümədə: "*Vərdiş – ikinci xasiyyətdir*".

Mənim 2016 ildə inşallah 70 yaşım tamam olacaq, mən isə hələ də heç olmasa bir neçə saat kompüter arxasında işləməsəm, günümü itirilmiş hesab edirəm.

Başlanğıcını xarakterin formalaşdığı və vərdişlərin yarandığı gənclik illərindən götürən vərdiş həmişə möhkəm olur.

Məhz bu üç il ərzində bizdə – gənc oğlan və qızların mənəvi həyatında, intellektual potensialının artmasında, hər birimizin davranışında və sinif yoldaşlarımızla qarşılıqlı münasibətlərdə dəyişikliklər baş verdi. Ən əsası isə sinif yoldaşlarımın emosional, estetik və mənəvi səviyyəsi qalxdı.

9-cu sinifdən yadımda qalan ilk şey – Bakıda M.Əzizbəyov adına Neft və kimya institutunda (AzNKİ) keçirilən kimya üzrə respublika olimpiadasıdır.

Kimyaçımız Mehdiyev İsa Məmmədoviç dərsdə elan etdi ki, məktəbin müəllimlər şurasının qərarı ilə məhz mən Abdul kimya üzrə respublika olimpiadasında iştirak edəcəyəm. Yeri gəlmişkən, onun oğlu qardaşım Aydınla bu ğünə qədər dostluq edir.

Gözlənilməz bu xəbər həm də ona görə xoş həyəcanlandırdı ki, yalnız uşaqlıqda olduğum paytaxtımız Bakını görəcəkdim.

Hesab edirəm, axırıncı üç ildə kimyadan əlaçı olduğum üçün məktəbin şərəfini qorumaq hüququ mənə verildi. Nəzəri hazır idim, lakin obyektiv səbəblərdən (*təhsil müddətində kimyəvi preparatlarla zəif təchiz edildiyimizdən bir neçə laboratoriya işini müstəqil yerinə yetirmişdik*) praktiki hazırlığımdan şübhələnirdim.

Beləliklə, məni kimya müəllimimlə və qonşu azərbaycan məktəbinin iki şagirdi ilə səhər tezdən (*saat 7 radələrində*) avtobusla Bakıya yola saldılar.

Düz saat 1-də kimya üzrə respublika olimpiadasının bütün iştirakçılarını AzNKİ-nun böyük auditoriyasına gətirib oturtdular və təsadüfi sorğular verdilər.

Olimpiadanın aparılma metodunun təfərrüatlarına varmadan qeyd edim ki, uşaqların əksəriyyəti praktik laboratoriya işinin yerinə yetirilməsində çətinlik çəkirdi. Şəxsən mən nəzəri sualları tərəddüd etmədən cavablandırdım, lakin laboratoriya işinin öhdəsindən gələ bilmədim.

Düz 2 saatdan sonra olimpiada başa çatdı və bizi avtobusla evə, Göyçaya apardılar. Axşam saat 10 radələrində məktəbə çatdıq, oradan da evimizə getdik.

Mənə və bütün iştirakçılara 1963-cü ildə Bakıda Neft və kimya institutunda (AzNKİ) keçirilmiş kimya üzrə Respublika olimpiadasında iştirakımız haqqında şəhadətnamə verildi.

Bakıdakı olimpiadanın qalibləri siyahısında olmamağıma baxmayaraq, düzünü deyim ki, mənim üçün həmin gün ali təhsil ocaqlarına açılmış qapı idi.

Axı bu vaxta qədər ali təhsil ocağı görməmişdim, bu cür iri auditoriyaları və laboratoriya otaqlarını heç təsəvvürümə də gətirməzdim. Belə ki, gördüyü hər şey rayon uşağını çox təsirləndirmişdi.

Kolxozlarda pambıq yığımında dayanmaq istəyirəm.

Bir qayda olaraq, hər ilin oktyabr-noyabr aylarında məktəbimizin bütün yuxarı sinif şagirdləri səhər saat 8-dən axşam saat 5-ə qədər Göyçayın kolxoz tarlalarından pambıq yığırdı.

Bəli, çox əylənirdik, amma var-gücümüzlə işləyirdik. Tez-tez məşhur "*Bolqarıstan*" kolxozunun tarlalarında işləyirdik, sədri ordenlə təltif edilmiş, SSRİ Ali Sovetinin deputatı, məşhur Qafur Qasımov idi. Şayiələrə görə Sov.İKP-nın baş katibi Nikita Sergeyeviç Xruşovun dostu idi.

Bir dəfə məhz "*Bolqarıstan*" kolxozunda qəribə hadisə baş verdi. Həmin illərdə sosialist ölkələrinin kolxoz və əmək kollektivlərinin arasında təcrübə mübadiləsi məşhur idi.

1963-cü ildə qabaqcıl kolxozumuza Bolqarıstandan nümayəndə heyəti gəldi. Görüş, həmçinin onunla əlaqədar yığıncağı da keçiriləcək yenicə tikilmiş büllur çilçıraqlı gözəl sarayda baş tutdu. Allahverdi əmimin arvadı Gülçöhrə bibimin söylədiklərinə görə, hər şey çox gözəl təşkil olunmuşdu, saray parıldayırdı, əhatəsində əkilmiş qızılgüllər də onu bəzəyirdi. Qarşılayanlar qəşəng geyinmişdilər, musiqi çalırdı, muğam oxuyurdular, məşhur aşıq Pənah dəvət olunmuşdu.

İki iri avtobusda (*İkaruslarda*) bolqar heyəti gəldi və Azərbaycanımızda adəti üzrə, bizimkilər onları musiqi və mahnılarla qarşıladı, böyük ziyafət oldu, qonaqlar bu cür qarşılanmadan çox razı qaldılar. Qonaqları kolxozçuların ən yaxşı evlərinə bölüşdürdülər, axşama isə "*Bolqarıstan*" kolxozunun klubunda rəsmi görüşə yığışdılar. Azərbaycan və Bolqarıstanın dostluğuna həsr edilmiş bu yığıncaqda Moskvadan, Bakıdan və Göyçay rayonunun yerli rəhbərliyindən nümayəndələr də iştirak edirdi.

Yığıncağı açıq elan etdilər və birdən Bolqarıstan heyəti öz himnini oxumağa başladı. Ssenaristlər bu etiketi gözdən qaçırdıqlarından, yəni təntənəli yığıncağı başlamazdan əvvəl ölkəsinin Himni səslənməlidir, burda qarışıqlıq başladı.

Göyçay rayon partiya komitəsinin (*RPK*) təlimatçıları sıra ilə hamını xəbərdar etdilər ki, bolqarlardan sonra iştirakçılar Azərbaycanın himnini oxusunlar. Demək olar ki, iştirakçıların heç biri ölkənin himninin sözlərini bilmədiklərindən iş çətinləşdi.

Bolqarlar himnlərini oxuyub bitirdikdən sonra bütün zal qonaqlara əl çaldı. Azərbaycanın himni oxunmalı idi. Lakin zala tam sükut çökmüşdü, hamı sakitcə dayanmışdı, heç kim himnin sözlərini bilmədiyindən oxumurdu. Respublikanın və Göyçayın bütün rəhbər heyəti simada dəyişdi (*kimisə qızardı, kimisə ağardı, kimisə bozardı*). Kulminasiya anı gəldi, biabırçılıq idi.

Ancaq kolxozçu qadınlardan birinin gülməli hərəkəti bu biabırçılıqı qurtardı. O, birdən böyük Azərbaycan bəstəkarı Qəmbər Hüseynlinin o zaman çox məşhur və populyar uşaq mahnısını – "*Cücələrim*"i yüksəkdən oxudu.

Onun bacarıqlı təşəbbüsünü hamı, kolxozun, Göyçayın rəhbərləri və Bakıdan qonaqlar da daxil olmaqla, məmnuniyyətlə dəstəklədilər. Kortəbii təşkil olunmuş xor bu mahnını elə ürəkdən oxudu ki, hələ yığıncaqdan sonra da bütün bolqar heyəti Azərbaycanın himninin melodikliyinə valeh olduğunu və mətninin qeyri-adi ahəngdarlığını qeyd edirdi...

Beləcə hər kəsin sevimli bəstəkarı Qəmbər Hüseynlinin məşhur "*Cücələrim*" uşaq mahnısı bütün "*Bolqarıstan*" kolxozçularını biabırçılıqdan qurtardı.

Bu gülməli hadisə Göyçay rayonunun salnaməsinə əlavə olundu, mənim nəslim və yaşlı sakinlər yaxşı yadda saxlayacaq və unutmayacaq. Biz məktəblilər yaşımıza xas yumorla, həzlə baş verəni tanışlarımıza danışırdıq və pambıq yığarkən "*Cücələrim*"i – kolxoz himnini oxuyurduq.

Bu gün uşaqların pambıq yığmasını uşaq əməyinin istismarı adlandırılardı, lakin bu əmək bütün sinfimizi birləşdirdi, məhz onda basketbol komandamız yarandı: Dövlətov Hacıbala, Mehdiyev Vaqif, Salahov Abbas, Çuşkin Valeriy, Kalujnikov İvan və mən, Abdul – bu xatirələrin müəllifi.

Yarım il ərzində saydığım beş nəfərdən Göyçayın basketbol komandası formalaşdı və hamıya birinci kişi (*uşaq deyil*) idmançı dərəcəsi verilmişdi.

Əlbəttə, bunda bədən tərbiyəsi müəllimi və baş məşqçi Zərbəliyev Fikrət müəllimin xidmətləri xüsusidir.

Pambıq yığımının tədris aylarımızdan aldığını nəzərə alaraq, müəllimlərimiz təhsil prosesinə kreativ yanaşdılar.

Məsələn, coğrafiya müəllimi, məktəbin direktoru Həsənov Kamal Davudoviç bizə əlavə tapşırıq vermək və əgər iş vicdanla yerinə yetirilibsə, yüksək qiymət vermək qərarına gəldi.

Bir dəfə o, elan etdi: "*Uşaqlar, sizə əlavə ev tapşırığı verirəm. Kim qəzet və ya radiodan Azərbaycanın və bilavasitə Göyçayın iqtisadiyyatı haqqında dəyərli məlumat tapsa, dərs başlayanda bütün sinfə danışsın, mən isə söz verirəm ki, onun işinin layiqincə qiymətləndirəcəyəm*".

Bəli, şübhəsiz, bu yaxşı düşünülmüş motivasiya idi: məktəbliləri qəzet, jurnal oxumağa, radiodan xəbərləri dinləməyə alışdırmaq və həvəsləndirmək. Tənəffüs vaxtı bütün uşaqlar razılaşdılar ki, bu yaxşı ideyadır və bununla ciddi məşğul olmaq qərarına gəldilər.

Mənim üçün asan oldu, belə ki, hər səhər altıya on dəqiqə qalmış oyanırdım. Səhər prosedurаlarından və idmandan sonra düz səhər saat 6-da radioda Azərbaycan SSR-nin himninə və səhər xəbərlərinə qulaq asmağa vərdiş etmişdim.

Lakin bu gündən sonra xəbərlərə kağız və qələmlə "yaraqlanaraq" qulaq asmaq qərarına gəldim. Sabahı gün düz saat 6-da bu xəbəri eşitdim: "*Bu gün Bakıda Azərbaycanın Qırmızı bayraqlı Xəzər Flotiliyası "Göyçay" yeni yük tankerini qəbul etdi. 566-cı layihənin tankerləri – "çay-dəniz" sinfindən olan iri göyərtəli maye daşıyan gəmilərdir, maşın şöbəsi və dal tərəfində üstqurumu var, xam neft və neft məhsullarının, həmçinin quru malların daşınması üçün nəzərdə tutulub*". Sonra tankerin yükqaldırması, uzunluğu və s. haqqında informasiya verildi.

Həmin gün birinci dərsdə adları çağırıb yoxladıqdan sonra Həsənov Kamal Davudoviç soruşdu: "*Kim xəbərləri verər?*"

Həmişəki kimi, əlaçımız Mişa Vasyukov birinci əlini qaldırdı və respublikada pambıq yığımı haqqında danışdı. Kamal Davudoviç onu sakitcə dinlədi və sinfə müraciət edərək, sualını təkrarladı. Hamı susurdu. Sinfə göz gəzdirdi və dedi – tapşırığı yerinə yetirməməyiniz pis oldu. Onda əlimi qaldırdım və xəbəri çatdırmaq üçün izn aldım. İcazə alandan sonra əzbərdən "*Göyçay*" tankeri haqqındakı xəbəri "*yağdırdım*".

İnanın ki, Kamal Davudoviçin reaksiyası heyrətləndirici idi, o, uşaq kimi sevindi və demək olar ki, qışqıraraq: "*Bax bu xəbərdir,*

*bu əsl xəbərdir*" dedi. Sakitləşməyərək, lövhəyə yaxınlaşmağımı və bir də bu xəbəri söyləməyimi xahiş etdi ki, mən də yerinə yetirdim.

- "*Bax, bu cür xəbərləri sizdən eşitmək istəyirəm uşaqlar, çoxlu oxumaq, qulaq asmaq lazımdır və onda siz məlumatlanmış olarsınız*". Sonra gündəliyə və sinif jurnalına beş qiymətini yazdı.

Bu mənim mövzu ilə əlaqədar ilk beşim idi və bundan sonra beşdən başqa qiymət almadım. Beləcə, addım-addım, mövzu-mövzu, müəllimlərimizin mənəvi dəstəyi sayəsində nəinki sinfimizin, həm də məktəbin əlaçıları sırasına keçdim. Bu hadisədən 20 il keçdi və 1983-cü ilin dekabr ayında "*Araz*" radiostansiyasından eşitdim ki, 566-cı layihənin "*Göyçay*" tankeri Bektaş-Maxaçkala (*indiki Qaraboğaz*) keçidində batıb. Bunu eşidərkən çox üzüldüm.

Bilirsiniz, o məktəb illərindən indi demək olar ki, 50 il ötüb, amma bu günə qədər qəzet məqalələri ilə tanış olmaq vərdişim itməyib. Hər gün televiziyadan əsas xəbərləri dinləyirəm, son 10 ildə isə gündə bir neçə dəfə kompüter arxasında otururam, məlumatlanmaq üçün İnternetdən müxtəlif qəzet və jurnal saytlarına baxıram. Məhz belə müəllimlərə görə, xəyal etməyə, planlar qurmağa, onların icrasını tənzimləməyə və həyata keçirilməsində bütün səyləri göstərməyə başladım.

Bütün həyatım boyunca Harvi Makkeyin ideyalarına yaxın olmağa çalışdım (*ABŞ-ın istedadlı yazıçısı, biznesmen, natiq və jurnalist*), o deyirdi: "*Arzu – sadəcə arzudur. Məqsəd isə planlı və onun icrasının konkret müddətləri olan arzudur*".

Bütün əhatəm yaxşı bilir ki, hər yeni il mənim üçün birillik həftəliyin alınması ilə başlanır, burada bir illik fəaliyyətimi konkret olaraq planlaşdırıram və məqsədlərimin icrasının nəzərdə tutulmuş qrafikindən kənara çıxmamağa çalışıram.

Məhz bu planlarıma görə bir çox arzularım gerçəkləşib ki, buna dostum Məlikov İlyas müəllim, 15 ildir bulvarda səhərlər birgə gəzişirik, zarafatla deyir: "*Sən, Abdul müəllim, bikarçılıqdan yaxşı dərman tapmısan, kompüter arxasında oturub, yavaş-yavaş yazırsan*". Bəli, beləcə artıq on bir monoqrafiyam var.

*"Məhəbbət və zəhmət – varlığımızın təməl daşlarıdır"*
Ziqmund Freyd (1856-1939)

## 1.6. Buraxılış on birinci sinfimiz.

Hər kəs özünəməxsus, Allahın ona verdiyi tale ilə yaşayır. Bu gün, məktəb illərini yada salarkən, qəti hesab edirəm ki, alim-pedaqoq (*pedaqoji elmlər namizədi*), coğrafiya müəllimi Kamal Davudoviç Həsənovun paytaxtdan kənarda yerləşən Göyçay rayon mərkəzindəki məktəbimizin direktoru olması xoşbəxtlik idi.

Bəli, o bizə çox şey verdi!

Onun vətənə məhəbbəti bizə – Göyçay şəhərinin 3 nömrəli rus orta məktəbinin yüzlərcə məzununa çox şey öyrətdi. Kamal Davudoviç tarix müəllimimizi əvəz edərkən (*hərdən bir*), Göyçayımızın tarixindən coşğunluqla danışırdı.

Göyçayımızın və Şirvanın 60-cı illərdəki tarixindən, coğrafiyasından və iqtisadiyyatından danışdıqları yaxşı yadımdadır.

Göyçay rayonu (*əgər ölkənin xəritəsinə baxsaq*) Azərbaycan Respublikasının mərkəzində, Şirvan düzənliyinin şimalında, Böyük Qafqaz sıra dağlarının ətəyində yerləşir.

Göyçay şimaldan cənuba 25 km, şərqdən qərbə isə 40 km uzanaraq, 736 kvadrat kilometr sahəni tutur. Rayon 2 geoloji hissəyə bölünür – dağlıq və aran. Dağlıq hissəyə Bozdağ Qaraməryəm sıra dağlarını, arana isə qalan ərazini aid etmək olar.

Rayonumuzun ərazisinin üst qatını 10-15 sm qalınlığında gil, gilli torpaqlar (*hələ 1964-cü ildə Göyçayda kərpic zavodu vardı*), qumlar örtür.

Göyçayın iqlimi quru mülayim-isti yarımsəhra və quru subtropikə aiddir. Bu iqlim zəif rütubətlə, mülayim qışla və quru, isti yayla xarakterizə olunur. İldə düşən yağıntının orta illik norması 400-600 mm-dir. Rayonun ərazisindən Göyçay çayından başqa, bu gün həm də Yuxarı Şirvan kanalı da keçir [160].

Bitkilər arasında çəmənlik formaları geniş yer tutur. Rayonun dağlıq ərazisində kolluqlar var. Lakin Göyçayın heyvan aləmi zəngin deyil.

Göyçay Azərbaycanın Göyçay rayonunun şəhəri və inzibati mərkəzidir. Göyçay çayının sağ kənarında (*çayın axını istiqamətində*), Ucar dəmiryolu stansiyasından hardasa 18 km şimal-şərqdə yerləşir [160].

Bu gün Göyçayın ərazisində 41 bələdiyyə yerləşir ki, onlardan biri şəhər, 40-ı kənd bələdiyyəsidir.

Göyçayın azərbaycanca tərcüməsi "*göy çay*" deməkdir, Bakı-Qazax maşın yolunun 220 km-liyində, 4 maşın yolu (*Dörd yol*) ayrıcında yerləşir.

Şəhərin şimalında Ahal-Mahal dağı, şərqində isə inqilaba qədər Bakıda indi axan Şollar suyundan da təmiz olan Göyçay çayı yerləşir.

Lakin 1918-ci ilin yayında İsmayıllı rayonunda (*Qalacıq kəndindən aşağıda*) baş verən sel nəticəsində çayımız digəri ilə – Qaraçayla qarışdı və bundan sonra belə qara və bulanıq oldu.

Təəccüblüdür, təqribən yüz il keçib, amma hələ də heç kim bu iki çayı ayırıb, bir əsr əvvəl olduğu kimi, bütün Göyçayı təmiz içməli su ilə təmin etmək haqqında fikirləşmir.

Yadımdadır, 1965-ci ildə Göyçayda cəmi 100-ə qədər küçə vardı. Bu gün isə (*2012-ci ildə*) onların sayı təqribən 2 dəfə artıb və Göyçay böyüklüyünə görə Azərbaycanın şəhərlərinin ilk onluğuna daxildir.

Göyçayın bir neçə yaşayış məntəqəsi rayonun ən qədim yerləri hesab olunur: Alpout, Qaraman, Bığır, Mırtı, Cəirli, Ərəbli və s. Məhz bura III-V əsrlərdə Şirvanın şimalından bəylərbəylik üsuli-idarəsini seçən oğuz türklərinin nümayəndələri gəlib.

Hesab olunur ki, rayonumuz XIX əsrin ortalarında, Şirvanın paytaxtı Şamaxıda 1859-cu ildə baş verən zəlzələdən zərərçəkənlərin buraya köçürülməsi ilə genişlənib.

Kamal Davudoviçin (*məktəbimizin direktoru*) söylədiyinə görə, 1867-ci ildən Göyçay Bakı quberniyasının Göyçay qəzasının

mərkəzi oldu, 1916-cı ildə rus-tatar məktəbi açıldı, 1930-cu ildə isə Göyçay rayon mərkəzi – şəhər statusunu aldı.

Görünür, qəza mərkəzi olan Göyçayın nisbətən isti iqlimi burada Rus çarının atlı diviziyasının, yaşayış məntəqəsinin özündə isə unikal şəhərsalma arxitekturasının yaradılmasına səbəb oldu.

XX əsrin başlanğıcında Göyçay şəhər kimi özünün geniş və düz küçələri, o vaxt üçün normal olan infrastrukru (*iki hamam, bir neçə Karvansaray, tatar (azərbaycan) və rus-tatar məktəbləri, atçılıq zavodu, uşaq bağçaları və olduqca düz küçələr*) ilə seçilirdi. Hələ o illərdə Göyçayın çay daşlarından döşənmiş yolları, küçələri və geniş ticarət şəbəkəsi onu bütün aşağı Şirvanın tranzit zonasına çevirmişdi.

Ticarətin idarə olunması və atlı diviziyanın qoşunlarının yeyinti məhsulları ilə təchiz edilməsi yerli əhaliyə – azərbaycanlılara deyil, gəlmə erməni tacirlərinə – Markos ağaya, sonra isə Sandro bəyə həvalə olunmuşdu...

Yeri gəlmişkən, 1918-ci ildə A.İ.Mikoyanın və Stepan Şaumyanın başçılığı ilə Sovet Ordusu pərdəsi altında ermənilər tərəfindən törədilmiş qırğından sonra "*böyük menecer*" – erməni Sandro bəy Göyçaydan izsiz-soraqsız yoxa çıxdı.

Göyçayın ağsaqqalları danısırdılar ki (*bir qayda olaraq, dəfn mərasimlərində*), A.İ.Mikoyanın başçılığı ilə daşnaq ordusu, yolunun üstündə hər şeyi yandıraraq, Qaraməryəmə çatanda qabağına Sandro bəyin rotasını göndərdilər, guya bizi səviyyəmizdə qarşılayın.

Sandro bəy də əlindən gələni əsirgəmirdi, deyirlər, qonaqlarını qarşılamaq üçün yüz qoyundan kabab və plov hazırlatmışdı.

Lakin Allah böyükdür, üç günlük selə görə ermənilər köhnə "*qırmızı körpü"*nü keçə bilmədilər və bütün azuqə çaya atılmışdı.

Bəli, tanrı böyükdür (*Allahu Əkbər!*), ermənilər köhnə "*qırmızı körpü"*nü keçə bilmədilər, özlərinin "*mübariz kommunistlərini*" gözləyərkən, "*qardaşlarının*" qarşılanması üçün səylə hazırlanmış ziyafəti qaçırdılar.

Seli görüb, ermənilər 1918-ci il iyunun 30-da Bozdağ dağının təpəsindən Göyçayın dinc əhalisini topdan atəşə tutdular. Yeri gəlmişkən, mərmidən biri onda hələ nisbətən cavan çinar ağacına düşmüşdü, amma onu xeyli yaralasa da məhv edə bilməmişdi.

İndu bu ağacın yanında daha dörd çinar böyüyüb və orada həmin günləri xatırladan lövhə asılıb.

Dedi-qoduçular danışırdılar ki, Nuru Paşa hücum çəkib Göyçayı alanda, çox ayıb ki, şəhər sakinləri (*əlbəttə, bugünkü göyçaylılar deyil*) bu Sandro bəydən qorxduğu üçün camaat xilaskar orduya hətta içməli su belə verməyə cürət etmədi...

Nuru Paşa isə özünün ilk düşərgəsini Göyçayın yol ayrıcında – Bığırda (*Göyçaydan 15 km aralıda*) saldı, burada onu 30-40 atlıdan ibarət bığırlılar təntənəli qarşıladı və indi burada Göyçayı daşnaqlardan azad edərkən həlak olmuş 27 qardaş-türklərə xatirə abidəsi ucaldılıb.

Bədnam Sandro bəy isə qorxaq kimi Azərbaycandan Livana (*İrandan*) Andronik cəlladının atlıları ilə birgə birinci qaçdı, danışılana görə, hələ qızlarını da Göyçaydan 3 km aralıdakı tacir kəndində ərə verərək.

Əlbəttə, mən tarixçi deyiləm, amma görünür, Markos ağa və Sandro bəy kimi əlaltılar Rusiya İmperiyasının razılığı ilə bizim Şirvanın və həm də bütövlükdə Azərbaycanın var-dövlətini talayırdı.

Danışırlar ki, Göyçayda mənzillərə yerləşdirilmiş Rusiya atlı diviziyası Markosun, sonra da Sandronun rəhbərliyi altında bütün ərzaqla təmin edilirdi. Bu hər şeydən əvvəl: Şamaxı buğdası (*çörək*), Göyçay çayının o zamankı təmiz suyu, Göyçayın, Kürdəmirin və Ağsuyun qoyun və mal əti, Padar kəndinin soğanı, İsmayıllı rayonunun İvanovka kəndinin donuzu və kartofu, bütün Şirvanımızdan gözəl meyvələr (*nar, alma, heyva, üzüm*) ilə.

Diviziyanın zabit heyəti üçün Göyçayın mərkəzində şərab-konyak zavodu tikilmişdi ki, buraya bütün Şirvanın üzüm bağlarından məhsul axırdı.

Yeri gəlmişkən, bu zavod hələ çox uzun müddət "*LOZA*" (*üzüm tənəyi*) adlanırdı.

Göyçayda Bakı kommunasının rəhbər heyətinin bu köməkçiləri Sovet hakimiyyətinin S.Q.Şaumyan, K.Q.Korqanyan, S.Q.Osepyanc, B.A.Avakyan, A.M.Amiryan, A.M.Kostandyan, A.İ.Mikoyan və s. kimi erməni "*mübarizlərindən*" bəhrələnirdi.

Bakı kommunasının silahlı qüvvələrinin ali komandanı Akop Baqratuni idi, Qırmızı Ordunun hərbi hissəsinin 70%-indən çoxu ermənilər idi.

Məhz onlar – daşnaqlar 1918-ci ildə Stepan Şaumyanın rəhbərliyi ilə bütün Azərbaycanda və əsasən də Şirvanda Qırmızı Ordunun bayrağı altında azərbaycanlıları qırırdılar.

Həqiqətən də Allah böyükdür, sel dayanan gün şanlı general Nuru Paşa atlıları və artilleriyası ilə Göyçaya yaxınlaşdı.

Göyçayı alarkən Nuru Paşa 30-dan çox igidini itirdi, onların demək olar ki, hamısı Göyçay rayonunun Bığır kəndinin yol ayrıcında (*Bığır başı*) basdırılıb.

Məhz Bığırdan Nuru Paşanın zərbəçi süvari dəstəsi çaparaq Aşağı Qaraməryəm və İnçə kəndlərinin ərazisinə girdilər və erməni cəlladlarını doğradılar.

İndi bu yerlər belə də adlanır "*Erməni batan yer*" və burada bizimkilər ermənilərə qələbə çaldılar.

Burada söylədiklərimin hamısını, görünür, Azərbaycan xalqının şifahi tarixinə aid etmək olar, hansına ki, Sovet hakimiyyəti dövründə böyük qadağa qoyulmuşdu.

Lakin ağsaqqallar qorxmadan bu haqda regionun dəfn, toy və başqa mərasimlərində açıq danışırdılar.

Bu gün Göyçayın iqtisadiyyatı sadə və müxtəlifdir. Şəhərdə konyak, konserv, avtomobil təmiri, yağ-pendir istehsalı, kərpic, asfaltbeton zavodları, həmçinin toxuculuq fabriki var.

Həmçinin şəhərdə sənayeni nar, heyva, gavalı şirələri buraxan məşhur AzGranate şirə zavodu; süd məhsullarının istehsalı zavodu təmsil edir... Zamanında Göyçayda yük maşınlarının təmiri

zavodu vardı, burada 3 nömrəli orta məktəbimizin uşaqları maşın çilingəri kurslarını keçirdilər...

Şirvan Zaqafqaziyada böyük tarixi vilayət və dövlətdir, Xəzər dənizinin qərb sahilində yerləşib, şimalda Dərbənddən cənubda Kür çayının deltasına, indiki Sabirabada və şərqdə Xaçmazdan qərbdə Şəkiyə və Zaqatalaya qədər uzanır.

Şirvanın əsas şəhərləri aşağıdakılardır: Şamaxı, Dərbənd, Bakı, Qəbələ, Oğuz, Şəki, Zaqatala, Göyçay, Ağdaş, İsmayıllı, Ağsu, Kürdəmir, Şabran, Quba, Qusar...

Bizim Kamal Davudoviç Həsənovun söylədiklərinə görə, Şirvandan ticarət yolu keçirdi (*o cümlədən, Böyük ipək yolu*). Bu region əsrlər boyu yadellilərin çoxsaylı hücumlarına məruz qalırdı və müxtəlif dövlətlərin tərkibinə daxil olurdu, bu da əhalinin qafqaz, alban və türk elementlərini özündə birləşdirən olduqca qarışıq etnik tərkibini müəyyən edir.

Belə hesab olunur ki, eramızdan əvvəl II ə. axırlarından Şirvanın ərazisi eramızın VI ə.-dək əsas şəhəri Qəbələ olan Qafqaz Albaniyasını da əhatə edirdi. Yalnız Qafqaz Albaniyasının əhalisi əzəldən müxtəlif dillərdə, o cümlədən türk dillərində danışan 26 tayfadan ibarət idi.

Sonralar Qafqaz Albaniyası Sasanilər dövlətinin nüfuzuna keçdi. Məhz Sasanilərin tərkibində ilk dəfə "*Şirvan*" adı əmələ gəlir. Bu dövrdə vilayət Zaqafqaziyaya Dərbənd keçidindən soxulan köçəri tayfaların şimaldan müntəzəm basqınlarına məruz qalırdı. 552-ci ildə buradakı yerli türklərə – oğuzlara sabirlər, xəzərlər və digər türk tayfaları qoşuldular. Bundan sonra Xosroy şah (531-579-cu illər) torpaqlarını köçərilərin yeni dalğasından qorumaq üçün Dərbənd rayonunda möhtəşəm istehkamlar inşaatını genişləndirdi. 562-567-ci illərdə inşa olunmuş məşhur Dərbənd istehkamları (*Azərbaycan tarixində ən qədimləri*) Xəzər dənizi və Qafqaz sıra dağları arasındakı ensiz keçidi tutsa da basqınlardan çarə olmadı. 626-cı ildə türk-xəzər qoşunları min il bundan əvvəl olduğu kimi Dərbənd və onun ərazisini tamamilə idarə edirdi.

Bəli, 654-cü ildən Şirvan türk və ərəblər tərəfindən tutulmuşdu, sonralar isə ərəb canişinlərinin irsi torpaqlarına çevrildi. Lakin ərəb canişinlərinin dövründə də vilayətdə türk etnik elementlərinin güclənməsi gedirdi. Buraya hərbi xidmətin keçirilməsi üçün Xəlifətdən türk qvardiyaçıları yerləşdirilirdi.

Tezliklə, səlcuq türklərinin gəlişi ilə Şirvanın və bütün Azərbaycanın türkləşdirilməsində yeni dövrü başlayır.

531-ci ildən 1538-ci ilə qədər Şirvanda Şirvan şahlarının bir neçə sülaləsi hökmranlıq edirdi. Məhz onların dövründə Kürdən Dərbəndə qədər bütün torpaqlar Şirvanın ərazisi idi.

Şirvanın paytaxtı ilk növbədə Şamaxı idi, lakin Şirvana həm də Qəbələ, Dərbənd, Şəki, Bakı daxil idi.

XIII ə. əvvəllərində Şirvana Dərbənddən Cəbənin başçılığı ilə Çingizxanın hərbi dəstələri soxulur...

XV ə. ortalarında Şirvan əkinçiliyin, ipək və parça istehsalının mərkəzi idi və beynəlxalq ticarətdə əsas rol oynayırdı (*neftin daşınması, pambıq və s.*).

Şirvan şahlarının rəhbərliyi altında ədəbiyyat inkişaf edirdi. XII əsrdə burada doğulan məşhur şair Xaqani Şirvani; türk dilində yazan Nəsimi və digərləri yaşayıb yaradırdı. Səfəvilər dövlətinin güclənməsi ilə Şirvan onun tabeliyinə keçir və 1538-ci ildən paytaxtı Təbriz olan əyalətinə çevrilir. 1748-ci ildə Şirvanın ərazisində müstəqil Şirvan xanlıqları (*Dərbənd, Quba, Qəbələ, Şəki, Bakı*) yarandı.

Şirvan termininin dəqiq etimologiyası və yaranması, görünür, hələ də naməlum olaraq qalır, amma əsas versiyaya görə, Şirvan termininin mənası şirlər ölkəsi deməkdir.

Bizim Kamal Davudoviç iddia edirdi ki, Azərbaycan tarixinin çox hissəsində (*3 minillikdən artıq*) nəinki müstəqil, həm də möhtəşəm, qüdrətli türk dövləti idi.

Bu gün bir çox rusdilli mənbələr Azərbaycanı İranın hissəsi kimi qələmə verirlər. Amma Kamal Davudoviçin dediyi kimi, Azərbaycan İranın koloniyası olmayıb, İran özü minilliklər boyunca (*X əsrdən XX əsrin əvvəllərinədək*) cənubi Azərbaycanın Təbriz,

Ərdəbil, İsfahan və s. şəhərlərindən idarə olunan böyük türk imperiyalarının hökmranlığı altında idi.

Hesab olunur ki, Şirvan sarayı Azərbaycanın dahi şair və alimlərinə himayədarlıq edirdi: Xaqani Şirvani, Nizami Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani və b. Şirvan şahları dövlətində nəinki Azərbaycanın, həm də bütün türk dünyasının fəxri, dahi türk şairlərindən biri, Şərqin filosofu və sufisi – azərbaycanlı İmadəddin Nəsimi (*XIV ə.*) yaşayıb yaratmışdır. Əhalinin və sarayın işlətdiyi dil – türk dili idi...

Kamal Davudoviç Şirvan hökmdarlarının adlarını əzbərdən diktə edirdi:

- Şirvan şah Şəhriyar (642-ci illər);
- Şirvan şah Xayesam Ben Xalid (861-ci illər);
- Şirvan şah Fəribuz İbn Sallar (1063-cü illər);
- Atabəy Qızıl Aslan Eldəniz (1186—1191-ci illər);
- Qara Yusif Qaraqoyunlu (1408—1420-ci illər);
- Uzunhəsən Ağqoyunlu (1453—1478-ci illər);
- Şah İsmayıl I Səfəvi (1502—1524-ci illər) və s.

Tarix müəlliməmiz Tahirə Həbibovna Əliyeva bizə tariximizdən fundamental biliklər verirdi.

Misal gətirim. Politexnik institutunda təhsilimin I kursunda Sov.İKP-nın tarixini bizə ciddiliyi ilə məşhur olan professor-xanım İştoyan keçirdi.

1966-cı ilin yanvar ayının ortalarında sessiya zamanı əsas korpusun üçüncü mərtəbəsində tarixdən imtahan verirdik.

1715 nömrəli qrupumuzun nümayəndəsi artıq böyük yaşlı Məmmədov Vaqif respublikamızın Rabitə Nazirliyinin aparatının işçisi idi.

Hamımız iri auditoriyanın girişində dayanmışdıq, ancaq heç kim Sov.İKP-nın tarixindən imtahan vermək üçün içəri girməyə cürət etmirdi.

Bunu görüb, bərkdən imtahan vermək üçün auditoriyaya girmək istədiyimi dedim, lakin Vaqif Məmmədov İştoyan gedənə qədər gözləməyimi məsləhət gördü.

Bu məni təəccübləndirdi, amma məsləhətə əhəmiyyət vermədim.

Auditoriyaya daxil oldum, bilet götürdüm, sualları oxudum, elan etdim ki, cavaba hazıram.

Müəllimlərin hamısı, o cümlədən bir qoca qadın (*demə elə o İştoyanın özü imiş*) bir komanda kimi mənə təəccüblə baxdılar.

Bir suyuşirin müəllim nəzakətlə mənə əyləşib, diqqətlə sualları fikirləşib, çağırılmağımı gözləməyimi təklif etdi.

Amma buna dərhal o qoca qadın münasibətini bildirdi və həmin suyuşirin müəllimə dönərək, bərkdən dedi: "*Dosent Qarayev, bu cavan oğlana deyin, yanıma gəlsin*".

Heç bir şübhəm olmadan onun qarşısında oturdum. Biletimi götürdü, diqqətlə baxdı və dedi – Sizi dinləyirəm. Heç bir şey olmamış kimi, hər üç suala cavab verməyə başladım.

Bitirdikdən sonra o mənə əlavə sual verdi, sonra ikincisini, üçüncüsünü, dördüncüsünü,... Görünür, bütün əlavə suallara mükəmməl cavablar aldıqdan sonra hansı məktəbi bitirdiyimi soruşdu. Dərhal 3 nömrəli məktəb – deyə cavab verdim.

Fikrə getdi və soruşdu ki, tarix müəllimim kim olub. Sakitcə: Əliyeva Tahirə Həbibovna dedim.

Belə müəllim tanımadığına təəccübləndi. Etiraz etdim ki, onu Göyçayda hamı tanıyır. Professor-xanım heyrətindən dərindən nəfəs aldı və təəccüblə soruşdu – demək istəyirsiniz ki, siz Göyçay rayonundansınız?

Buna fəxrlə cavab verdim – bəli, Göyçaydanam.

- Cavan oğlan, siz gərək bura yox, bizim Bakı Universitetinin tarix fakültəsinə qəbul olardınız. Sonra bərkdən dedi: "*Salman müəllim, bu cavan oğlana beş qoyun, qoy bilsinlər ki, mən ədalətliyəm*".

Auditoriyadan əlimdə zaçotla çıxanda bizim qrup nümayəndəmiz Vaqif onu əlimdən alıb baxdı və təəccüblə dedi – Abdul, adətən ondan yalnız iki alırlar, sən isə beş aldın.

Bu epizodla ancaq onu demək istəyirəm ki, məktəbimizin həqiqətən çox güclü müəllimləri vardı.

Ümumiyyətlə, məktəbdə axırıncı təhsil ilimiz – 1965-ci il sanki bir ay kimi ötüb keçdi, sentyabrda başlamağa imkan tapmamış, mayda sonuncu zəng çaldı.

Hətta məktəbimizin direktorunun sayəsində son 20 ildə ilk dəfə bizi – axırıncı sinif şagirdlərini 1965-ci ilin sentyabrından noyabrına qədər pambıq yığımından azad etdilər.

Riyaziyyatçımız, sinif rəhbərimiz Ramiz Abdullayeviç Abdullayev isə məktəbimizin iki buraxılış sinfi arasında sağlam rəqabət atmosferi yaratmışdı.

Yorulmadan təkrarlayırdı: "*Həyatda ən yaxşı qibtə – biliklərə həsəd aparmaqdır*".

Göyçay şəhərinin 3 nömrəli doğma məktəbimizin ən yaxşı müəllimlərinə hədsiz minnətdarıq: direktor – Həsənov Kamal Davudoviç, riyaziyyatçı Abdullayev Ramiz Abdullayeviç, tarixçi – Əliyeva Tahirə Həbibovna, kimyaçı – Mehdiyev İsa Məmmədoviç, rus dili və ədəbiyyat müəllimi – Senkina Antonina Sergeyevna (*Lomonosov ad. MDU-nun məzunu*), azərbaycan dili müəllimi – Abdullayev Əlövsət müəllim, bədən tərbiyəsi müəllimi – Zərbəliyev Fikrət müəllim...

Orta məktəbi bitirmək haqqında attestatı bizə təqdim edərkən məktəbin direktoru Kamal Davudoviç Həsənovun çıxışı yaxşı yadımdadır.

Bütün məzunları və müəllimləri təbrik edərək, o dedi: "*20 ildən artıqdır ki, bu məktəbdə işləyirəm, onlardan sonuncu 10 ili direktor vəzifəsindəyəm. Məni təəccübləndirmək artıq çox çətindir, amma bu gün etiraf edim ki, məzunlarımızdan biri məni həqiqətən təəccübləndirdi və heyrətləndirdi. Bu bizim Abduldur. Mən onu hələ birinci sinifdən yaxşı xatırlayıram. Nə deyə bilərəm, həyatda hər şey çətinliklə əldə olunur və Abdul adi iki alan şagirddən əlaçıya çevrildi, bu gün o artıq gümüş medalçıdır. Bütün bunlar onun möhtəşəm əməyinin və məktəbimizin bütün pedaqoji kollektivinin zəhmətinin nəticəsidir.*" O birinci əl çaldı və məktəbin həyətində dayananlar ona qoşuldu. Necə deyərlər, gurultulu alqışlar səsləndi.

Bu zaman atamı gözlərindən sevinc yaşlarını silən gördüm. İkinci dəfə (*babam Sədi Qəhrəman oğlu Şəriflinin vəfatından sonra*) idi ki, atamı ağlayan görürdüm.

Sonra Kamal Davudoviç dedi, - gəlin, sözü ona verək. Abdul qabağa çıx.

- *"Əziz uşaqlar, əziz müəllimlərimiz, əziz məktəb – deyərək, başladım. Əlbəttə, mən hədsiz xoşbəxtəm, burada, sizin qarşınızda çıxış etmək, həqiqətən xoşbəxt gündür. Mən, 11-B sinfinin 25 şagirdindən biri kimi, Göyçayın 3 nömrəli Məktəbimizin müəllimlərinin istisnasız olaraq hamısına minnətdarlığımı bildirirəm.*

*İnanırıq ki, Sizin bizim üzərimizdə əvəzolunmaz əməyiniz, əziz müəllimlərimiz, itirilməyəcək. Bilmirəm, kim olacaq, amma sizi əmin edirəm, harada və kim olamağımızdan asılı olmayaraq, doğma məktəbimizin adını yüksəklərə qaldıracağıq. İndi isə çox qısa, ancaq ürəkdən yazdığım və sonuncu məktəb zənginə həsr etdiyim şeirimi oxuyacağam"* və şeiri oxudum...

İrəli gedərək, qeyd etmək istəyirəm ki, məktəbin ən yaxşı şagirdlərindən olmaq, gələcək həyatımda mənə kömək edən biliklərə yiyələnmək üçün güclü səy göstərməyim, ilk növbədə, evdəki kiçik bacı və qardaşlarıma təsir göstərdi, onlar da ali və orta ixtisas təhsili aldılar...

Əlbəttə, atam tərəfdən də güclü səbəblər oldu – o, həmişə deyirdi ki, bizi təhsilli görmək istəyir... Atamızın istəyini yerinə yetirdik: bacım Nailə tibb məktəbini bitirərək, Göyçayda ən məşhur böyük əməliyyat tibb bacılarından biri oldu, qardaşım Tofiq Pedaqoji institutu qurtarıb, riyaziyyat müəllimi oldu, bacım Ellada Xalq Təsərrüfatı İnstitutunu bitirib, Göyçayda iqtisadiyyaçtı işlədi, bacılarım Nigar və Xalidə mənim yolumdan getdilər – biri rabitə kollecini, digəri isə Politexnik institutunu qurtarıb, rabitəçi oldular, bacım Esmira isə Bakı dövlət universitetinin fizika fakültəsini bitirib, fizika müəllimi oldu, ən kiçik qardaşım Aydın Politexnik institutunun avtomobil fakültəsini qurtarıb, öz ixtisası üzrə orduda mayora qədər xidmət etdi...

Axşam şam edərkən atam məni qonaq otağına çağırdı və qəti surətdə bildirdi ki, bir həftədən sonra Bakıya gedəcəyik, sənədlərimi Tibb universitetinin stomatologiya fakültəsinə verməliyəm. Bütün həftəni özümdə deyildim, lakin atam məni elə tərbiyə etmişdi ki, onun üzünə qayıda, etiraz edə bilməzdim (*çox güclü hörməti vardı*), anama, əmilərimə, məktəb müəllimlərimə şikayətlənirdim, çünki həkim olmaq istəmirdim, amma hər şey əbəs yerə idi...

Qeyd etmək istərdim ki, məktəbi bitirdikdən sonra biz – 1965-ci ilin məzunları bir neçə il dalbadal (*hardasa 5 il*) yanvar ayının sonunda məktəbdə məzunların ənənəvi gecəsində görüşürdük.

Təəssüf ki, illərlə ənənəvi görüşlər həyatın qayğıları ilə sıxışdırılıb çıxarıldı, ancaq Göyçayın 3 nömrəli məktəbinə məhəbbət qaldı və hələ də hamımız üçün yaşayır, bu barədə biz hər bir təsadüfi görüşümüzdə danışırıq.

Müəllimlərimiz haqqında daha nə demək olar? Güman edirəm, onlar yaranışdan (anadan olma) müəllimlər idilər.

Məsələn, Tahirə Həbibovna bizə Macarıstanda SSRİ-nin rəhbərləri tərəfindən təşkil edilmiş çevriliş cəhdləri haqqında danışarkən, sadəcə İttifaqın diktaturası barədə deyil, çevrilişin səbəslərini açıqladı, macarların öz müstəqilliyi uğrunda mübarizədə buraxdığı səhvlər, ölkənin insan itkisi haqda danışdı.

Bu fəsli yekunlaşdıraraq, qeyd etmək istəyirəm ki, hamımız – məktəbin şagirdləri tamamilə müxtəlif idik, lakin siniflərdəki, məktəbdəki abu-hava, müəllimlərin və rəhbərliyin bir-birinə və bizə, öz yetirmələrinə xeyirxahlığı hamını yaxınlaşdırırdı və vahid sağlam məktəb ailəsinə çevirirdi.

Bizə (*hər halda mənə*) məktəbdə çox maraqlı idi (*əsasən, 7-ci sinifdən*), bütün müəllimlərimizin peşəkarlığı, onların fənni izah etmə metodu, tərbiyəçi bacarığı şagirddə biliklərə və vətəndaşlıq keyfiyyətlərinə yiyələnmək, onlara oxşamaq kimi təbii istək yaradırdı. Şəxsən mən təhsilimin axırıncı 4 ilində hər gün bütün fənlərə maraqla və öhdəliklə hazırlaşırdım. Bu mənə özümdə xüsusi intizam yaratmağa, zamanı düzgün bölməyə kömək etdi.

Səhər saat altıya on dəqiqə qalmış dururdum, günorta dərsdən sonra düz bir saat yatırdım, sonra gecə saat 11-ə, bəzən də 12-ə qədər oxuyurdum və tamamilə xöşbəxt idim. Daha artıq söyləyim, tezliklə 70 yaşım olacaq, amma mən yenə də həmin vaxtda (*səhər saat altıda*) oyanıram, mütləq gündüz minimum bir saat dincəlirəm (*yatıram*) və 23.00-dan gec olmayaraq yatıram. Belə ki, ingilis atalar sözü düz buyrur: "*Vərdiş – ikinci xasiyyətdir*".

Göyçayın 3 nömrəli Məktəbinin 1964/65-ci illərdəki sinif yoldaşlarım: Mehdiyev Vaqif (*qızıl medalçı*), Vasyukov Mixail (*qızıl medalçı*), Cəfərova Gülçöhrə, Məmmədova Nailə, Salahov Abbas (*idmançı*), Çuşkin Valeriy, Kalujnikov İvan (*Bakıda onunla dostluq edirdim*), Musayeva Məlahət (*bəstəkar Rauf Hacıyevin baçısı qızı*), Qavrilova Nina, Dövlətov Hacıbala (*çempion-idmançı*), Tağıyeva Lətifə (*AzTV-də redaktor*), İsmayılov Alik (*məktəb dostlarından yeganə rəssam idi*), Heydərova Gulya, Həsənova Bella (*qızlardan ən zərifi*), Maqsudova Yelena və digərləri.

Bu gün də, o illərdə olduğu kimi, qəti əminəm:

- Tək Allaha inanıram! (*Bu insanları birləşdirir*);
- Vətənə məhəbbət və ehtiram! (*Həyatın katalizatorudur*);
- Ailəsinin nəslini bilmək! (*Bizi zənginləşdirir*);
- Seçdiyi ixtisasa məhəbbət! (*Yaradıcılı yolu*);
- Möhkəm ailə qurmaq! (*Gündəlik qayğı*).

Qeyd etmək istəyirəm ki, 1995-ci ildən bütün dərsliklərimi, metodiki vəsaitlərimi və 10 (on) monoqrafiyalarımı ardıcıl olaraq, mütləq Göyçayın 3 nömrəli Məktəbimizin kitabxanasına aparıb, hədiyyə edirdim.

Bundan əlavə, bu gün də doğma məktəbimin yanından keçərkən, ürəyim tez-tez döyünür və mən uşaq kimi həyəcanlanıram. Və bilirsiniz, bu hissləri keçirərkən xoşbəxt oluram, onlar mənə çox əzizdir!

*"Nizam-intizam – göylərin birinci qanunudur"*
Aleksandr Pop (1688- 1744)

# II. TƏLƏBƏLİK İLLƏRİM

## 2.1. Tibb kimə lazımdır?

Şübhəsiz, tələbəlik illəri gənclərin həyatında ən yaxşı və yadda qalan illərdir, tale gələcəyin dostlarını, məsləkdaşlarını, həmfikirlərini yenidən birləşdirir.

Romantik hisslər, səs-küylü əyləncə gecələri, məzəli hadisələr, kinoteatra getmək üçün buraxılmış ikisaatlıqlar və s. yaddaşda silinməz iz saxlayır. Lakin, bir qayda olaraq, qayğısız tələbəlik illərindən danışarkən, nədənsə hər bir tələbənin oxuduğu dövrü – sessiyanı unudurlar.

Amma mən bu dövrün gözəlliklərini bu cür kəskin hiss etmədim, belə ki, axşam şöbəsində oxuyurdum, gündə 8-10 saat işləyirdim, sonra isə suyu sıxılmış limon kimi instituta gedib, elmin əsaslarını öyrənirdim. Amma yenə də mən bu çətin illəri həmişə fərəhlə xatırlayan adamlardanam.

Əlbəttə, İnternetə görə müasir tələbələrə təhsilin çətinliklərinin öhdəsindən gəlmək asandır, istənilən kurs və ya diplom layihələri üçün materialı problemsiz tapmaq və vaxtın çox hissəsini kitabxanalara sərf etməmək mümkündür.

Lakin bugünkü tələbələrin əksəriyyəti başqa cür edir: yoxlama və diplom işlərini, referatları ixtisaslaşmış şirkətlərə şifariş edirlər ki, burada da onlar üçün uyğun sahədə dərəcəsi olan alimlər yazır. Beləliklə, tələbələr demək olar ki, heç bir səy göstərmədən keyfiyyətlə yerinə yetirilmiş işlər alır, bu da onlara sessiyanın hər hansı digər aspektlərinə diqqət yetirməyə imkan verir. Ancaq, necə deyərlər, hər şey yavaş-yavaş. Əvvəlcə instituta qəbul haqqında və qəbul imtahanları təfsilatı ilə.

Bakıya gələn kimi atam Mirzə Fətəli Axundov küçəsində, Azərbaycan Dram Teatrının arxasında, Abdul-Hüseyn dayının

evinin yanında mənzil tutdu, eyni zamanda Abdul-Hüseyn dayının qızı Naidə də Tibb institutuna qəbul imtahanlarına hazırlaşırdı.

Kirəkeş otağım Bakının köhnə birmərtəbəli evlərinə xas pəncərəsiz idi, tavanda kiçik pəncərə-nəfəslik vardı.

Bütün həftəni bacım Nailə mənə qulluq edirdi, atam onu Bakıya gətirmişdi, mənə yemək hazırlayırdı.

Kitablarla bu bağlı otaqda tam mənası ilə boğulurduq və tez-tez, hər yarım saatdan bir milliyyətcə türk olan evin sahibi *Abdul-kişinin* balaca daxili həyətinə çıxırdıq (*Nailə daha tez-tez*).

*Abdul-kişi* köhnə Univermağın yanında yerləşən mebel mağazasında fəhlə işləyirdi, işi və təhsilli üç övlad yetişdirə bildiyinə görə fəxr edirdi: böyüyü- iqtisadiyyatçı; ortancıl oğlu Məmməd- Dəmiryol xəstəxanasının cərrahı; kiçiyi Fatimə isə ingilis dili müəlliməsi idi. Evin sahibinin oğlu Məmməd biləndə ki, sənədlərimi Tibb institutuna vermişəm, təəccüblə məndən soruşdu, - Bəs niyə stomotologiya fakültəsinə, ailənizdə stomotoloq var? Lazım idi cərrahiyyəyə vermək, uşaqlar ora verir.

Ancaq mən susurdum və bu məsələni müzakirə etməməyə çalışırdım. Abdul-kişinin ailəsi sadə, əməksevər idi və belə gözəl insanların yanında mənzil tutmağımıza şad idim. Sonrakı 5-6 ildə onlara baş çəkirdim, əlaqə saxlayırdım.

İmtahana bir həftə qalmış atam gəldi və sevinə-sevinə məni əmin edirdi ki, narahat olmayım, hər şey yaxşı olacaq.

Mən isə çox şeyi başa düşmədən fikirləşirdim ki, atam məni qarşıdan gələn imtahanlara səylə hazırlaşmağım üçün ürəkləndirir.

İmtahanların başlamasına bir gün qalmış atam yenə gəldi, amma rəngi qaşmışdı, hirsli idi, deyərdim hətta pis vəziyyətdə idi.

Sakitcə soruşdum – Ata, nə olub?

O isə cavabında, - De görüm, fizika imtahanına hazırsan?

Qətiyyətlə cavab verdim, - Bəli, ata, həkim olmaq istəməsəm də çalışacam birinci imtahandan beş alım ki, dərhal instituta medalçı kimi qəbul edilim. O, əndişə ilə cavab verdi, - Bəli, yaxşı olardı.

Birinci imtahan qabağı atam yanıma M.F.Axundov küçəsinə gəldi və başını yelləyərək dedi ki, fizika imtahanım barədə sözləşdiyi adam vəfat edib. O atama söz veribmiş ki, mənə beş

verəcəklər və onda avtomatik olaraq Tibb institutuna gümüş medalçı kimi qəbul olacam. Məlum oldu ki, Basin (*indiki Füzuli küçəsi*) küçəsindəki 4-cü xəstəxanada yatan o rəhmətliyə min rubl veribmiş.

Sonrakı gün mən, atam və əmim oğlu Dünyamı Semaşko xəstəxanasının yanındakı Tibb institutuna getdik.

Birinci imtahan fizikadan idi və əgər onu əla verə bilsəm, o dəqiqə medalçı kimi qəbul olaram. Atamın halını gördüm, əsəbiləşmişdi və özündə deyildi. Bizi partaları amfiteatr kimi düzülən və eyni zamanda 200-ə qədər abituriyent yerləşdirilən iri dairəvi zala gətirdilər.

Yaxınlaşdım, bilet götürdüm və yerimə əyləşənə qədər hər üç sualı oxuyub çatdırdım:

1. Cisimlərin sərbəst düşməsi;
2. Rentgen şuası;
3. Dördtaktlı mühərrik.

Yerimə əyləşib, ürəyimdə Allaha üz tutdum və öz-özümə fikirləşdim: yəni stomotoloq olacam, axı bu mənlik deyil. Amma, əgər bu baş versə, deməli qismət belədir.

Bütün abituriyentlərə möhürlü kağızlar paylandı, cavabları ora yazmalı idik. Beş dəqiqəyə cavabları yazdım, bir daha yoxladım və razı qalaraq, göz gəzdirdim ki, 10-12 imtahançıdan kimə cavab verməliyəm. Gördüm, imtahançılardan biri, arıq, hündür, əlli yaşlarında, mənim tərəfə baxır və gülümsəyir. O, mənə mehriban adam kimi görsəndi və onun yanında oturdum.

Bir saniyədən sonra başa düşdüm ki, nəsə düzəlməz bir şey baş verib. İş ondadır ki, bu "*mehriban*" imtahançının üzü əyildi, o məndən yan baxırdı. Elə bu zaman sağ tərəfdən ikiqat qapı açıldı və 5-6 adam içəri girdi, çox güman ki, hansısa rektor komissiyası idi.

İmtahançı mənim arxamda dayanan abituriyentə müraciət edərək, cəld digər imtahançının qarşısında oturmağını əmr etdi və yanındakı "*Balaca*" kök kişini göstərdi. Abituriyenti tanıdım, yerlim Tofiq idi, keçən il Göyçayda bizim 3 nömrəli rus məktəbini qurtarmışdı.

Təəccüblə soruşdum, - Tofiq, sən niyə burda dayanmısan?

Tofiq "*kök və Balaca*" müəllimin qarşısında oturdu, o onun imtahan vərəqlərini götürdü və qeydiyyat apardı.

Gələn komissiya yavaş-yavaş bizə yaxınlaşırdı. Bunu görüb imtahançım tez məni qeydiyyata almağa başladı və əmr etdi: "*Birinci sualı danışın*". Əngələ düşdüyümü artıq anlayaraq, cavablar olan vərəqləri stolun üzərinə qoyub, birinci sualın cavabına keçdim.

"*Kök və Balaca*" imtahançı da Tofiqə təklif etdi ki, cavablar olan vərəqləri təqdim etsin və birinci sualın cavabına başlasın, lakin boş vərəqləri görüb soruşdu:

- Cavan oğlan, siz heç hazır deyilsiniz?

Bu zaman komissiya yanımızdan keçirdi və imtahançılara müraciət edərək soruşdu: - Sizdə nəsə problem var?

İmtahançım qalxdı və yaltaq səslə məlumat verdi, - xeyr, yoldaş rektor, hər şey qaydasındadır. Komissiya yolunu davam etdi.

Bu andan sonra baş vertrənlər hələ də aydın yadımdadır. O (*imtahançım*) əntərə çevrildi, mənə qəzəblə baxırdı, vərəqlərimi dodaqaltı nəsə donquldanaraq, stolun üstündən tulladı.

İndi açıq-aydın başa düşdüm ki, o mənə deyil, Tofiqə gülümsəyirdi və başısoyuqluq edib onun qarşısında oturmuşam, lakin artıq gec idi, ikimiz də qeydiyyata alınmışdıq.

Özümü elə aparırdım ki, guya heç bir şey başa düşmürəm, birinci suala sakitcə cavab verməyə davam edirdim, amma görürdüm ki, imtahançım yalnız mənim yerlim Tofiqi düşünür.

Bir dəqiqədən sonra hər şey aydın oldu. İmtahançım kök qonşusuna çevrilib izah etməyə başladı ki, guya Tofiq onun qohumudur və ona imtahan verməli idi, bu arıq və hündür oğlan (*yəni mən*) isə onun yerinə oturub və Tofiqə beş qoymaq lazımdır.

Həmin imtahançı etiraz edərək, dedi ki, o heç bir suala cavab yazmayıb və verilən sualların heç birini cavablandırmayıb, yəni fizikadan ümumiyyətlə heç nə bilmir. İmtahançım məni unudaraq, Tofiqə heç olmasa dörd qoysun deyə, həmkarına yalvarırdı.

Bu zaman birinci sualı cavablandırıb bitirdim və imtahançımdan ikincisinə keçmək üçün icazə aldım. Onun acıqlı razılığından sonra ikinci sualı cavablandırmağa başladım.

Lakin imtahançım ümumiyyətlə məni dinləmirdi. O qonşusuna “*Kök və balacaya*” dönüb, onunla alver etməyə başladı.

Görünür, imtahançımın həmkarı cavablarımı eşidirdi, ona görə o dedi: “*Yəqin sənin abituriyentin əlaçıdır və mən məmnuniyyətlə ona beş yazardım*”.

Bu zaman ikinci sualı da bitirərək, üçüncü suala keçmək üçün sakitcə icazə istədım.

Bax bu anda imtahançım partladı. Hiddətli gözlərlə söylədi: “*Nə zəhləmi aparırsan? Birinci, ikinci, üçüncü sual! Sən mənə heç bir cavab vermədin, çıx, iki*”.

Mən qəzəblənmədən sakitcə durub auditoriyadan çıxdım. Atam və əmim oğlu səbirsizliklə məni gözləyirdilər. On metrlik məsafədən qiymətim haqqında soruşdular.

Nədənsə beş barmağımın beşini də qaldırıb “*beş*” söylədim.

Yalnız Tibb İnstitutundan yüz metr uzaqlaşdıqdan sonra, artıq Semaşko xəstəxanasının qarşısında atam Göyçaya getmək üçün taksi götürmək istəyərkən onu dayandırıb dedim ki, iki almışam. Atamın halı pisləşdi, üzünü çevirib, taksiyə oturdu və harasa getdi. Mən isə əmim oğluna çevrilərək, dedim – Məgər sən imtahan vərəqəsiz çıxdığımı görmürsən? (*sonrakı imtahana buraxılış sənədi*)

Sonra əmim oğlundan xahiş etdim ki, Tibb İnstitutundan sənədləri götürüb, istənilən texniki ali məktəbin axşam şöbəsinə vermək üçün sabah səhər yanıma gəlsin.

Növbəti gün əmim oğlu Dünyamı hara vermək istədiyimi soruşdu. Başa saldım ki, AzNKİ-nun (*onun üçüncü kurs tələbəsi olduğu*) “*Kimyəvi-texniki proseslərin avtomatlaşdırılması və kompleks mexanikləşdirilməsi*” ixtisasına vermək istəyirəm.

Dünyamı həmin ixtisasın axşam bölməsinə qəbulun olmasına şübhələndi. Odur ki AzNKİ-nun (*indiki Neft Akademiyası*) qəbul komissiyasının qarşısındakı elana baxmaq üçün dəmir yolu vağzalına getdik və o haqlı çıxdı, axşam bölməsinə qəbul yox idi.

Onda Dünyamı Politexnik institutuna getməyi təklif etdi, belə ki, orada yeni ixtisaslar çoxdur, əsasən də “*Avtomatika və Telemexanika*” fakültəsində.

İndiki kimi yadımdamır, 58 nömrəli avtobusa minib 25 dəqiqəyə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun (*indiki Azərbaycan Texniki Universiteti*) qarşısındaydıq, burada isə hər şey öz-özünə həll olundu və mən sənədlərimi APİ-na verdim.

Əmim oğlu soruşdu – Abdul, niyə belə şadsan, elə bil artıq qəbul olmusan? Mən isə əsası Tibb institutundan canım qurtardı.

Və həqiqətən, iki həftədən sonra axşam bölməsinə qəbul imtahanları başladı, onları verəndən sonra bütün həyatım birdən-birə dəyişdi.

Sonrakı iki həftə iki gün kimi tez keçdi, nəinki fizika və kimyanı, hətta riyaziyyatı da dərindən təkrarladım.

İndi tək qalmışdım. Atam məndən incimişdi, fikirləşirdi ki, mən ikini özümdən uydurdum, çünki Tibb institutunda oxumaq istəmirdim və mənimlə maraqlanmırdı.

Politexnik institutunun üçüncü kursunda oxuyarkən atam Gəncədən şəhərlərarası telefonla mənə zəng etdi və dedi:

- Məni Gəncəyə kompleks yoxlamaya dəvət ediblər. Bilirsən haradan zəng edirəm?

- Gəncədə qohumlarımız yoxdur, deməli mehmanxanadan.

- Yox, tapmadın, cəbhə dostumun (*416-cı Taqanroq diviziyası*) mənzilindən zəng edirəm. İndi o Həsən bəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun fizika kafedrasının dosentidir. O sənə Tibb institutunda fizikadan iki qoymuşdu və ona görə bu üç il ərzində yazıq əzab çəkib. Birdən həmin imtahançımın səsini eşitdim.

- Abdul, sən Allah məni bağışla, Allahın cəzasına layiqəm, çünki mən bunu demək olar ki, öz oğluma etdim, axı biz sənin atanla müharibədə bir şinellə üstümüzü örtürdük.

- Narahat olmayın, mən sizə acıqlı deyiləm, hər şey qaydasındadı, bu qismətdir! Axı mən Tibb institutunda oxumaq istəmirdim – deyə, cavab verdim. Bəli, həyat misilsiz qeyri-adidir.

Özüm tibbdən qaçırdım, qızım Leyla isə həkim olmaq istədi. Mən və yarım Subi xanım etiraz etmədik və onu Azərbaycan Tibb Universitetinə gətirdik. O Müalicə fakültəsini bitirdi və həkim-kardioloq oldu. Buna həm də ona görə sevinirdim ki, atamın arzusu həyata keçdi – nəslimizdə ilk həkim oldu.

Bəli, bilirəm ki, Sovet quruluşunda qızımın tibbə düşməsi yüzdən bir idi.

Bundan başqa, Azərbaycan Politexnik institutunun sabiq üçüncü şəxsi (*Həmkarlar İttifaqının Azad edilmiş Sədri*) kimi Azərbaycanın Ali Təhsil Müəssisələrində (ATM) qəbul komissiyalarının işini içəridən bilirdim. "*Tapşlar*" (sözləşmələr) və rüşvətlər üzrə əvvəlcədən ATM-in nüfuzlu ixtisaslarına ümumi qəbulun 90%-i götürülürdü. Ona görə 10%-ə ümid etmək çətin idi.

Allah böyükdür! Görünür, 1985-ci ildə Azərbaycanın Təhsil naziri Əliyev Qurban Həsənoviçin (*məni 26 Bakı Komissarları adına rayonun RPK-dəki işimdən tanıyırdı*) köməyi ilə Azərbaycan Politexnik institutunun (*AzPİ*) Qəbul Komissiyasının Apellyasiya qrupuna rəhbərlikdən əbəs yerə uzaqlaşdırılmadım.

Onda həyatımı təhlükəyə salaraq, Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə BMT-nin eksperti qismində Əfqanıstana (*orada hərbi əməliyyatlar keçirilirdi*) getdim, lakin AzPİ-nin Qəbul Komissiyasının "*piroquna*" payçı olmadım.

AzPİ-nin rektoru (*rəhmətlik*) Bağırov Mirzə Ayyuboviç – əlbəttə ki, o sovet dövrünün aşkar məhsulu – ilə söhbətimiz yaxşı yadımdadır. Rektor kimi o indiki Azərbaycan Texniki Universitetinin tarixində ən yaxşılarından idi. Onda o açıq-aydın söylədi: "*Yayı Apellyasiya komissiyasına rəhbərlik etmək üçün qal və sentyabra 100 min rublun olacaq və ailə-məişət məsələlərinin həlli üçün Əfqanıstanda həyatını təhlükəyə atmaq lazım deyil*".

Buna sadəcə cavab verdim ki, məişət problemlərimin həllindən ötrü Allah qarşısında günaha bata bilmərəm və o susdu.

İndi isə, Allaha şükür, həm sevimli qızım Leyla və həm də onun əri Teymur həkimdirlər və həm də kürəkənim tibb elmləri namizədidir (Ph.D) və Londonda tibbdə idarəetmə sahəsi üzrə təhsil alır.

Allah böyükdür və görünür, həyatda hər kəsin qoyduğu məqsədlərə çatması üçün ona öz yolunu verir.

"*Qələm qılıncdan güclüdür*"
Bulver-Litton Robert
(1831-1891)

## 2.2. Politexnik institutuna necə qəbul oldum.

Politexnik institutuna (*AzPİ*) qəbul imtahanları qanunla yazılmayan, lakin ssenari üzrə həyata keçirilən bir çox şeylərə gözlərimi açdı.

Görünür, ancaq keçmiş Sovet İttifaqında abituriyentin düz üzünə: "*Siz axşam bölməsinə qəbul olursunuz, deməli 5 almağa layiq deyilsiniz*" kimi hallar mümkün idi.

Bütün imtahan qiymətlərimlə bu cür istisnasız olaraq davrandılar, amma ədalət naminə qeyd etmək istəyirəm ki, kimya imtahanında bir imtahançı – hündür, boylu-buxunlu, çox cazibəli, ən əsası, sonradan məlum olduğu kimi ağıllı qadın, həkim kimi ağ xalatda – yazılmamış qanunlara qarşı çıxdı.

Artıq əvvəlki imtahanlardan olan təcrübəmə görə axşam bölməsinin abituriyentlərinin qiymətlərinin mexaniki aşağı salınmasına hiddətlənmirdim. Bu missiyanı həmin imtahançı öz üzərinə götürdü.

Hər üç suala düzgün cavab verdikdən sonra digər imtahançı imtahan vərəqəmə baxaraq, soruşdu – Siz bütün fənnlərdən belə dürüst cavab vermisiz? Mən təsdiqlədim. "*Amma beş almamasız?*" – deyə davam etdi. Razılıq əlaməti olaraq, yenə də başımı endirdim.

Onda o lövhəyə yaxınlaşdı və əlavə suallar verməyə başladı. Əvvəlcə birini, sonra o birisini... Görünür, məqsədi məni yanlış cavablarda tutmaq idi, lakin buna nail olmayaraq, üçüncü imtahançıya təklif etdi ki, mənə bir neçə sual versin. O, istəmədən daha 5 sual verdi.

On dəqiqədən sonra bütün imtahançılar məni dövrəyə aldı, hər biri bir sual verirdi. Bütün sualları layiqincə cavablandırdım.

Ondan çox abituriyent və yeddi imtahançı olan auditoriyaya tam sakitlik çökdü.

İmtahançılar müəllimlərdən birinə müraciət etdilər, - Gulya xanım, axı onsuz da ona beş qoymağa bizə icazə verməyəcəklər.

“*Baxarıq!*” – deyə cavab verdi.

İmtahançılardan birini çağırdı və sakitcə ona nəsə söylədi. O tez auditoriyadan çıxdı.

Bu arada *Gulya xanım Məmmədova* mənə yaxınlaşdı və hansı məktəbi bitirdiyim haqda maraqlandı. Mən – Göyçay şəhərinin 3 nömrəli orta məktəbini – dedim. O daha da hiddətləndi, - Bu oğlan hələ üstəlik rayonludur. Bizə bu cür hərəkət etmək ayıbdır.

Bu zaman auditoriyaya balacaboy, girdə, həmçinin ağ xalatda bir kişi daxil oldu. Gülümsəyərək, uzaqdan soruşdu, - Nə olub, Gulya xanım? O, hörmətlə ona yaxınlaşdı və əli ilə imtahançıları göstərərək, nəsə başa salmağa başladı.

O isə bərkdən: “*Gulya xanım, mən institutun rəhbərliyinin, şifahi də olsa, göstərişini poza bilmərəm. Bağışlayın, amma mən ona dörd yazacam*”. Və dərhal da yazdı.

Gulya xanım mənə yaxınlaşdı və söz verdi ki, məni nəzərdə saxlayacaq və müdafiə edəcək. Bundan sonra çıxdım.

Kimyadan ilk mühazirəm yadımdadır. Bizim potok 4 qrupdan ibarət idi. Gulya xanım daxil oldu, hamı qalxdı, o salamlaşdı, hər dörd jurnala baxdı, imzaladı və dərsə başladı.

O mühazirəni çox anlaşıqlı dedi və bütün potoka söylədikləri üzrə suallar verdi. İri auditoriya susurdu və o sualı yenə təkrarladı. Potok yenə də susurdu.

Birdən bizim 1715p qrupunun jurnalını açdı və şəxsən mənə ad və soyadımla müraciət edərək, soruşdu ki, niyə suala cavab vermirəm. Utanaraq əyaqa durdum. O isə məni lövhəyə çağırdı.

Təsəvvür edin, tələbəliyimin ilk dərsində, hələ nə qrup, nə də potok bir-biri ilə tanış olmağa macal tapmamış, müəllimə (*Gulya xanım Məmmədova*) suala cavab verəcək əminliyi ilə ad və soyadla tələbəyə müraciət edir.

Lövhəyə çıxdım, suala cavab verdim. Potok səslənməyə başladı.

O isə gülümsəyərək, bütün potoka müraciət etdi: “*Artıq 3 ildir ki, mən dalbadal Politexnik institutunda kimya üzrə imtahan komissiyasının üzvüyəm. Lakin bu cür hazırlıqlı gənclə, özü də rayondan, ilk dəfədir ki, qarşılaşıram. Abdul, sənə qəbulda ədalətsiz*

*dörd qoydular, mən isə potok qarşısında sənə birinci beşi yazıram.*”

Beləcə qrupumuzun jurnalında ilk beş yazıldı.

Bütün qrupla ikinci dərsə gedəndə bir-birimizlə tanış olmağa başladıq. Uşaqlar əmin idilər ki, Gulya xanım mənim qohumumdur, yoxsa necə o qədər abituriyent içərisində məni soyadımla yadında saxlaya bilmişdi.

Ancaq sonralar, biz artıq yuxarı kurslarda oxuyarkən və onunla təsadüfən qarşılaşarkən, qrupumuz inandı ki, Gulya xanım hamını istisnasız olaraq, ad və soyadı və bütün təfsilatı ilə yadında saxlamışdı. Bax bu cür dosentlər o 1965-1971-ci illərdə Politexnik institutunun axşam bölməsində bizə dərs deyirdilər!

Onda mən hələ bilmirdim ki, bu qadın Politexnik institutunun dosenti və institutun ilk rektorlarından birinin qızıdır.

Məmmədova Gulya xanım bütün altı illik təhsilim boyunca mənə təmənnasız ana qayğısı göstərdi. İrəli gedərək, deyim ki, onun ümidlərini doğrultdum, namizədlik dissertasiyasını müdafiə etdim, dosent adını aldım və 25 il onunla birgə Politexnik institutunun (*indiki Azərbaycan Texniki Universiteti*) kollektivində işləmək xoşbəxtliyinə müvəffəq oldum.

1984-cü ildə Politexnik institutunun Həmkarlar İttifaqının azad olunmuş sədri seçildim. Gulya xanım Məmmədova birinci məni əlində qızılgül dəstəsilə təbrik etdi.

Əminəm ki, o anadan ğəlmə ədalətli idi. Onun vicdanlılığı və cəsarəti incidilənlərin problemlərinə laqeyd qalmağa yol vermirdi.

Tez-tez bizə - “*Elektrik rabitə*” kafedrasına, Elektrotexniki fakültənin sevimlisi Abdullayeva Sara xanımın yanına gəlirdi və onunla ünsiyyət xoşbəxtliyini bağışlayırdı.

Allah Gulya xanıma rəhmət etsin, o həqiqətən əsl alim, müəllimə, ən əsası xeyirxah və xoşqəlbli insan idi.

Gulya xanım kimi insanlardan həyatda çox olsun!

İllər keçdi və 1985-ci ildə Politexnik institutunun rektoru professor Bağırov Mirzə müəllimin əmri ilə həmin ilin yayına qəbul komissiyasının Apellyasiya qrupunun rəhbəri təyin olundum.

Tibb institutuna və AzPİ-a qəbul imtahanları yaddaşımda mənfi təəssüratlarla qalmışdı. Bu fakt məni vadar etdi ki, Beynəlxalq

Telekommunikasiya İttifaqının (*BTİ*) xətti ilə Birləşmiş Millətlər Təşkilatının eksperti qismində Əfqanıstana rəsmi səfərimin bəhanə tdib və komsomol əlaqələrimdən istifadə edib komissiyadan çıxım.

Mənim yanımda Azərbaycan SSR Təhsil naziri Əliyev Qurban Həsənoviçin rektorumuz Bağırov Mirzə Ayyuboviçə birbaşa hökumət telefonu ilə etdiyi zəng yadımdadır:

- Mirzə, sən yaya kimi Apellyasiya komissiyasının rəhbəri təyin etmisən?

- Qurban Həsənoviç, gənc, düzgün alim, institutumuzun həmkarlar ittifaqının sədri Qəhrəmanov Abdul Həmidulla oğlunu. O bir il Böyük Britaniyada Ali Təhsil Müəssisələrinin Nazirliyi xətti ilə təcrübə keçmişdir.

- Mirzə, sən məni bizim Qəhrəmanla tanış edirsən. Onun buna ehtiyacı yoxdur, o onlardan deyil. Mənim qərarım belədir: qoy cavan oğlan Əfqanıstana səfər qabağı dincəlsin.

- Əlbəttə, Qurban Həsənoviç, sizin sözünüz qanundur.

Bir saatdan sonra AzPİ-nin resktorunun qarşısında idim, o özünü itirmiş halda maraqlanırdi ki, Qurban Həsənoviçi haradan tanıyıram və Əfqanıstana təhlükəli səfər mənim nəyimə lazımdı.

Nəzakətlə cavab verdim ki, iki uşağım var, bir otaqlı mənzildə yaşayıram, ailə məsələlərimi həll etməliyəm.

- Bu beş ay ərzində Kabulda nə qədər qazanacaqsan?

- Fikirləşirəm ki, maksimum 30 min dollar, onu da Moskvada hansısa "*Dünya Fondu*"nun xeyrinə tutub alacaqlar, mənə isə yəqin o qədər də çeklə verəcəklər.

- Sən niyə hansısa 30 min dollara görə Əfqanıstanda güllə qarşısına keçirsən? Apellyasiya komissiyasında qal, sentyabrda sənə 100 min rubl verim, özünə dörd otaqlı mənzil al.

- *Mirzə müəllim, ailə problemlərimi həll etmək istəyirəm, lakin Allah qarşısında özümə problem yaratmaq istəmirəm.*

Qısa aradan sonra resktor dedi – Yaxşı, azadsan.

Tələbəlik illərindən danışırdım, mövzudan uzaqlaşdım!

Tale mənə güldü, Elektrotexniki fakültənin dekanı İsmayılov Hidayət müəllim və "*Elektrik rabitəsi*" kafedrasının baş müəllimi,

Elektrotexniki fakültənin Pfrtqrupu, istefada olan mayor Rzayev İslam müəllim (*ən mehriban Şirvanlı*) ilə bir araya gətirdi.

Politexnik institutuna qəbul məni oxumağa, yeni biliklər almağa, yəni əvvəlki həyatıma yenilik verirdi və bu məni şadlandırırdı. Amma axşam bölməsində təhsil yalnız o halda mümkün idi ki, bir neçə həftədən sonra iş yerindən arayış təqdim edilsin, əks halda çıxarılırdın. 17 yaşlı gənc oğlan müstəqil, heç kimin köməyi olmadan, yad (*hələlik*) şəhərdə iş tapmalıyı. Bakıda işə düzəlmək kimi vacib həyati məsələ başımın üzərindən Damokl qılıncı kimi sallanmışdı.

Oktyabrın ortasında qrupun nümayəndəsi xəbər verdi ki, məni dekan gözləyir (*dekanlıq üçüncü mərtəbə yerləşirdi*).

Hələ instituta çox da bələd olmamış, dekanlığa yaxınlaşdım və dedim ki, dekan çağırıb.

Çox xoşxasiyyət və nəzakətli qadın (*dekanın katibəsi idi*) soruşdu, - sən Abdulsan?

Təsdiqlədim və əlavə etdim ki, 1715p qrupundanam. O gülümsədi və dedi, - İçəri keçin. Hidayət müəllim yerindədi.

Otağa keçdim və çox xoşxasiyyət, amma bir az xəstə görünən kişi ilə qarşılaşdım. Salamlaşdım və özümü təqdim etdim. Buna gülümsəyərək, dedi:

- Abdul, sən yeni daxil olan tələbələr içərisində yeganəsən ki, nəzəriyyə və praktikadan ay ərzində bir neçə əla qiymətlərin var. Amma problem var, sən tezliklə Bakıda işə düzəlməlisən və dekanlığa iş yerindən arayış təqdim etməlisən. İş orasındadır ki, mən səni uzun müddət ört-basdır edə bilmərəm, buna görə institutdan çıxarıla bilərəm. Düzünü desəm, bu cür çalışqan tələbəni itirmək istəmirəm.

Sadəlövh və açıq-aydın soruşdum, - Bəs işə necə düzəlmək olar?

Hidayət müəllim mənim verdiyim sualla hər şeyi başa düşdü və dedi:

- Yaxşı, mən bir adamdam xahiş edəcəm və bu məsələnin həlli yollarını sənə deyərlər. İndi isə məşğələlərinə qayıt.

Sonrakı gün qrupumuzdan Əhmədov soyadlı oğlan mənə yaxınlaşdı və dedi:

- Mənim qardaşım "*Telefon Tikinti İttifaqı*" trestinə zəng edib. Bu da ünvanı, sabah səhər saat on birdə səni kadrlar şöbəsində (KŞ) gözləyəcəklər. Ancaq özünlə bütün sənədlərini götür, ən əsası, işə götürülmə haqqında əmrin surətini sənə verəndə xahiş et ki, sənə Politexnik institutuna təqdim etmək üçün arayış da versinlər.

Ona köməyə görə ürəkdən təşəkkür etdim və xoşbəxt idim ki, bu əsas problemdən sabah canım qurtaracaq.

Ertəsi gün verilən ünvana getdim. Beləliklə, 1715p qrupundakı oğlanın (A.A.Əhmədovun) köməyilə "*Telefon Tikinti İttifaqı*" tikinti-montaj idarəsində qazmaçı düzəldim. Məni Suraxanı qəsəbəsi yaxınlığında Bakı-Mərdəkan istiqamətində stansiyalararası kabellərin çəkilməsi üçün kabel səngərlərini qazan briqadalardan birinə təyin etdilər.

Kadrlar şöbəsindən çoxdan gözlənilən arayışı alıb, elə həmin gün axşam Çingiz İldırım adına AzPİ-nin elektrotexnika dekanlığına təqdim etdim.

Kurs yoldaşım A.A.Əhmədova minnətdarlığım sonsuz idi və onunla dost olmağı özümə xoşbəxtlik sayırdım. Amma, çox təəssüf, bir ildən sonra o hansısa Rusiya institutuna keçdi və mən dostumla ayrıldım. Onunla ayrılığın acısı qardaşı Əhmədov Azad Allahyar oğlu, Oktyabr rayonu Telefon qovşağının sabiq baş mühəndisi ilə tanışlıq və dostluqla kompensasiya olundu. Sonralar Azad uzun müddət Bakı ŞTS-nın Tikilən ATS-nin Müdiriyyətinin rəisi işləmişdi.

İşləmək haqqında arayış məsələsini həll etdikdən sonra ilk imtahan sessiyasını vermək problemi ilə üzləşdim.

Uşaqlar deyirdi ki, adətən artıq fevralda qrupdan 5-6 tələbə yoxa çıxırdı.

Bunların hamısını biləndən sonra başa düşdüm ki, əgər institutda qalmaq istəyirəmsə, bu cür zülm işdən çıxmalıyam, çünki işdən sonra (*baxmayaraq ki, məşğələləri buraxmırdım*) nə mühazirədən, nə də praktiki məşğələlərdən bir şey başa düşməyə fiziki gücüm çatmırdı. Odurki mən artıq işə getmirdim.

Noyabr bayramlarına Göyçaya evə getdim. Evdəkilər məni çox arıqlamış görüb, ağır olmayan işə düzəltməyə qərar verdilər.

Atam evdə olduğum bütün günləri mənim üçün nə isə tapmağa cəhd göstərdi. Mən Bakıya qayıdarkən atam dedi ki, Bakıda işə düzəlməyim üçün kimin yanına gedim və dekabrın ortasında o gələcək və Allahın köməyilə hər şeyi həll edəcək.

Yanvarın əvvəlində atam Bakıya gəldi, mənə ünvan göstərdi: Bakı-mərkəz, Şaumyan küç., 33 (*indiki Z.Əliyeva, 79*), Baş Poçt şöbəsi, rəis Bayramov İsfəndiyar Hüseynoviç və soruşdu,

- Sən bu ünvanı tanıyırsan? Deyəsən, orada şəhərlərarası danışıq məntəqəsi də var. Hə, "*Cənub*" mehmanxanasının yanındadı.

Ertəsi gün saat 11-də ikimiz Bakı şəhər Baş Poçt Şöbəsinin rəisinin qəbulunda idik. Birinci atam keçdi içəri. Qısa müddətdən sonra gördüm ki, katibə balaca məcməyiyə iki stəkan çay, konfet, şəkər qoydu və kabinetə girdi. Bir neçə dəqiqədən sonra çıxdı və təcili kiməsə zəng vurdu. Yeganə anladığım, kiməsə təcili İsfəndiyar Hüseynoviçin yanına gəlməsini xahiş etdi.

Atamın kabinetdə olduğu təqribən bir saat ərzində katibənin rəisin məşğul olduğunu, boşalan kimi onlara zəng edəcəyini deyib, rəhbərin yanına heç kimi buraxmaması məni təəccübləndirdi.

On dəqiqədən sonra yaşlı (*yaşı altmışdan çox*) kişi əlində qovluqla içəri daxil oldu və hərbi məruzə etdi, - Gəldim. Katibə onu kabinetə buraxdı. Fikirləşdim ki, indi atam çıxacaq, lakin beş dəqiqədən sonra həmin kişi qovluqla çıxdı və getdi. Narahat olmağa başladım. Zəng çaldı, katibə dəstəyi qaldırdı və qısaca cavab verdi, - İndi. Sonra qalxdı və mənə dedi, - Gəlin, sizi gözləyirlər.

Özümü itirmiş halda qalxdım, qapıya yaxınlaşdım, açdım, amma bir dənə də qapı gördüm (*ilk dəfə ikiqat qapıları məhz burada - Bakı Poçt Şöbəsində gördüm*), onu da açdım və daxil oldum.

Əvvəlcə atamı bir stəkan çayla və sonra 50 yaşlarında qısaboylu, xoş təbəssümlü bir kişini gördüm. O kreslodan durdu, əlini mənə uzatdı, salamlaşdı və oturmağımı təklif etdi.

Əyləşəndə təhsilimdən, nailiyyətlərimdən soruşdu. Onun diqqətindən utanaraq, bütün suallara qısa cavab verirdim.

Elə həmin gün (*yəni 10 yanvar 1966-cı ildə*) Azərbaycan SSR Rabitə Nazirliyinin Bakı Poçt Şöbəsinin yanında İstehsal-Texniki Laboratoriyasına işə götürüldüm.

Atamla kabinetdən çıxarkən, İsfəndiyar Hüseynoviç bizi Baş Poçt Şöbəsinin binasının çıxışına qədər özü yola saldı.

Sağollaşaraq, dedi, - İndi siz heç nədən narahat olmayın, Abdul bizim nəzarətimiz altında olacaq, hər şey yaxşı olacaq.

Taksiyə oturduq və İsmayıllı rayonundan olan bir oğlanla otaq icarəyə götürdüyümüz Sovet küçəsinə getdik.

Atam mənə üzərində - Qaqarin körpüsü, 25 nömrəli rabitənin poçt şöbəsi, laboratoriya yazılmış kağız verdi.

Beləcə, atama görə əla yaradıcı kollektiv arasına düşdüm, indi deyildiyi kimi, iş və təhsil üçün ideal yer. Sonra məni nailiyyət gözləyirdi. Sessiya kimyadan imtahanla başladı və qrupda yeganə mən beş aldım. İkinci imtahan – riyaziyyat idi, güclə dörd aldım; üçüncü imtahandan – Sov.İKP tarixindən asanlıqla beş aldım; dördüncü fənnin müəllimi iki beş və bir dörd görüb, dörd yazdı.

Beləcə institutda təhsilimə davam etmək üçün hər iki şərt həll olundu: müvəffəqiyyətli qış imtahan sessiyası və işə düzəlmə. Mən Azərbaycan SSR Rabitə Nazirliyinin Bakı Baş Poçt Şöbəsinin yanında İstehsal-Texniki Laboratoriyasının (İTL) texnik-çertyojçu vəzifəsində çalışırdım.

Bu paraqrafın axırıncı sətrlərini 2012-ci ilin martın 14-də yazıram. Düz 10 gün bundan əvvəl Bayramov İsfəndiyar Hüseynoviçin ölümünün 40-cı günündə idim. Orada İsfəndiyar Hüseynoviçin həyat yoldaşı Fatimə xanımı gördüm. Məni çox isti qarşıladı və dedi: "*Abdul, düz 47 il İsfəndiyar Hüseynoviçi tanımısan və bütün bu illər ərzində həmişə bayramlarda zəng edib, onu təbrik etmisən. Sənin onuncu "Azərbaycanın telekommunikasiyasının inkişaf mərhələləri" monoqrafiyanı iki dəfə oxumuşam: əvvəl özüm üçün, sonra isə İsfəndiyar Hüseynoviç üçün. Bilirsən, necə sevinirdi!*

*Abdul, çox sağ ol ki, rabitəçilərdən heç kimi unutmamısan, çoxlarını xatırlayırsan. Bilirsən, azərbaycanlı qadın kimi bütün həyatımı ərimə və ailəmə həsr etmişəm. Amma sənə afərin ki, bu böyük zəhmətdə diqqətə layiq bütün rabitəçiləri xatırlamısan*".

*"Əgər bir şeyi öyrəndinsə, bu xoşbəxtlikdur"*
Molyer (1622-1673)

## 2.3. Rəsmi iş fəaliyyətim.

İki həftədən sonra Bakı Baş Poçtun kadrlar şöbəsindən İTL-ya zəng edib, dedilər ki, dördüncü gün bütün sənədlərimlə səhər Şaumyan küçəsi 33-ə (*indiki Zərifə Əliyeva 77*) gəlim.

Ona görə Musayev Tofiqə yaxınlaşdım, çünki böyük texnik-texnoloq idi, mən isə onun əvvəlki vəzifəsinə - texnik-çertyojnik təyin olundum.

O həvəslə başa saldı hansı sənədləri götürməliyəm və səhər təyin olunmuş vaxtda Bakı Baş Poçtunun kadrlar şöbəsində (KŞ) idim, və qəribə təsadüf nəticəsində 1977-ci ildə aspiranturadan sonra bu ünvanda bir otaqlı mənzil aldım.

Orada bəzi formal prosedurlardan keçməli oldum: pasporta, hərbi çağırış kartoçkasına, təhsil aldığım yerdən (AzPİ) arayışa baxdılar ki, birinci kurs tələbəsiyəm. Sonra məni tanış etdilər: KŞ rəisi, çox mehriban qadınla; Baş Poçt şöbəsinin baş mühəndisi Z.K.Zeynalovla; Bakı Baş Poçt Şöbəsinin komsomol Komitəsinin katibi Nadejda Luqovskaya ilə. Rabitənin poliklinikasında tibbi müayinədən keçdim və nahara qədər, necə deyərlər, İTL-ın tam ştatlı işçisi oldum. Baş

Baş Poçt Şöbəsindən qayıdan kimi laboratoriyamızın əməkdaşları: Abdulrzakov Məmməd müəllim – rəis, Hüseynov Rauf Ağasi oğlu – baş mühəndis, Xasməmmədov Davud – mühəndis-mexanik, Musayev Tofiq – böyük texnik-texnoloq və digərləri məndən işə düzəlməyimə görə çaya şirniyyat istədilər.

Yaxşı ki, məhz bu gün ilk maaşımı almışdım, yoxsa biabır olardım (*çünki çətin maliyyə vəziyyətində yaşayırdım*). Pulları alıb, Tofiqlə yaxınlıqdakı qastronoma getdik, tort və çay içmək üçün bütün zəruri şeyləri aldıq. İTL-ın bütün kollektivi ilə mənim təyinatımı çox isti və şən qeyd etdik.

İşdə ilk məni heyrətləndirən hər gün İTL-ın baş mühəndisi Hüseynov Rauf Ağasi oğlunun Sov.İKP MK-nın, müxtəlif rəsmi

şəxslərin ünvanına teleqramın mətnini Tofiqə diktə etməsi oldu. Raufun atası teleqramın müəllifi olaraq göstərilirdi, onun ailəsinə növbədənkənar mənzilin verilməsini istəyirdi. Əslən Naxçıvan ASSR-dən idi və heç nədən çəkinmirdi. Və bilirsiniz, 6 ay gündəlik teleqram göndərdikdən sonra çoxdan gözlənilən gün gəlib çatdı. Rauf çox gec işə gəldi, amma gülümsəyərək, Tofiqə 25 rubl verdi və dedi ki, atası mənzili aldı və bu hadisəni bu gün qeyd etmək lazımdır. Naharda hamı Raufu mənzil münasibətilə təbrik edirdi.

Onda bildim ki, Naxçıvanlılar nədənsə anonimçilərdir.

Lakin bu gün, mənim bulvar dostlarımın qeyd etdiyi kimi, heç kim Azərbaycanda anonim yazmır, hətta kimsə əlavə etdi ki, niyə yazsınlar ki, artıq hakimiyyətin bütün yuxarı eşelonu onlar özləridir və daha ehtiyac yoxdur.

İlk səkkiz ay rəis və əsasən də İTL-ın baş mühəndisi Hüseynov Rauf institutda rəsmxətt, təsviri həndəsə və s. keçdiyim üçün məni işlə yükləyirdilər.

Yaxşı ki, Xasməmmədov Davud (*Qəbələdən*) vardı, çox savadlı mühəndis idi, AzXTİ-nu bitirmişdi. Çox şeyi o mənə deyirdi, əsasən çətin çertyojlarda, heç bir sualımı cavabsız qoymurdu.

Tezliklə çox savadlı mühəndis-energetik Baxşəliyev Kamili işə götürdülər, nəinki çertyojlardan yaxşı başı çıxırdı, həm də əla mühəndis-elektromexanik idi (*nəticədə on illərlə İnşaatçılar prospektində yerləşən Bakı Energetika Texnikumunda dərs deyirdi*).

Hər gün işə marağım artırdı. Həmçinin məni komsomol işinə cəlb etməyə başladılar. Bakı Baş Poçt şöbəsinin komsomol komitəsinin fəallarından oldum. Tezliklə, həmin ilin oktyabrında ümumi komsomol iclasında məni rəsmi Bakı Baş Poçt şöbəsinin komsomol komitəsinin katibinin müavini seçdilər, Nadejda Luqovskaya azad edilmiş katib idi.

İctimai iş məni Baş Poçt şöbəsinin yığıncaq və tədbirlərində iştirak etməyə məcbur edirdi. Nadejda Luqovskaya ilə Baş Poçt şöbəsinin ayrı-ayrı qovşaqları üçün müxtəlif komsomol dərnək və yığıncaqlarını təşkil etməli olurduq.

Tezliklə vəzifədə də yüksəldim - 02.06.1967-ci ildən 85 rubl maaşla İTL-nın böyük texnik-texnoloqu oldum.

Qeyd etmək üçün yenə də səbəb oldu. Bundan sonra maliyyə vəziyyətim asanlaşdı. Tutduğum mənzilə, üç dəfə yeməyə və nəqliyyata çatırdı.

Tezliklə Nadejda Luqovskaya müavini qismində məni 26 Bakı Komissarları adına rayonun GLKİ-nın ikinci katibi Oleq Vaşaninə – çox istiqanlı adama – təqdim etməyi qərara aldı.

İndi heç olmasa ayda bir dəfə raykomda olmalı, Oleq Vaşanin ilə görüşməli idim.

Yadımdadır biz necə Nadejda Luqovskaya ilə sentyabrın 20-də 26 Bakı Komissarlarının güllələnməsinə həsr olunmuş rəsmi təntənəli tədbirlərdə iştirak edirdik.

Bu gün bütün bunları xatırlayarkən, Aleksandr İsayeviç Soljenicınla tamamilə razılaşıram, o kitabına epiqrafla yazırdı: "*Sovet hakimiyyəti yalan üzərində qurulmuşdur*".

Həqiqətən, sovet təbliğatı güclü idi. Bilirsiniz, görünür sadəlövhlüyümdən təbliğ olunan hər şeyi qəbul edirdim.

Lakin ədalət naminə demək istəyirəm ki, ixtiyari yaxud ixtiyarsız komsomol gənclərin ağlında və qəlbində idi.

Yeni 1968-ci il mənim üçün böyük sarsıntı ilə başladı.

O zaman (*qış imtahan sessiyası başladı*) "*Kommunist*" nəşriyyatı ilə üzbəüz beşmərtəbəli "*xruşovka*"da kirənişin qalırdım və imtahanlara hazırlaşırdım.

Sessiya vaxtı anam ev işlərinə köməyə və mənəvi dayaq üçün yanıma gəldi. Evdə ərzaq yox idi və anam məni mağazaya gedib həftəlik bazarlıq etməyimi rica etdi.

Səhər doqquz radələrində Nəriman Nərimanov prospektində Politexnik institutu ilə üzbəüzdə yerləşən qastronomun girişində idim və sol tərəfə (*orada çörək mağazası var idi*) dönmək istəyirdim ki, sağ tərəfdən məni burada təxminən on il işləyən, Yasamaldan olan tatar, cazibəli kassir qadın çağırdı. O məni birinci kursdan tanıyırdı, belə ki, məşğələlərdən qabaq burada bulka ilə kakao içməli olurdum.

Yaxınlaşdım, salamlaşdım və o cavabında, - Yaxşı şit yağı və təzə ət gəlib. Sənin üçün götürüm?

Onun kassa budkası sütunun yanında, bizim AzPİ-nin kitabxanasına baxan vitrində dayanırdı.

Birdən gurultu səsi eşidildi, vitrinin şüşələri güllə kimi uçdu, kassa budkası öz yerindən 3-4 metr sürüşdü, işıq söndü və qara, qatı tüstü aləmi bürüdü, heç nə görünmürdü. Məhz bundan sonra dəhşətli qışqırıq səsləri eşidildi.

İlk ağlıma gələn – müharibə başlandı idi.

Artıq mövcud olmayan vitrindən sıçrayaraq, kinoteatr və bazar tərəfə, sola döndüm. Lakin bu tərəfdə hamı dəhşətlə sağa, çörək mağazası və avtobus dayanacağına baxırdı.

Mən də nə baş verdiyini bilmək üçün sağa döndüm. Hələ bir neçə dəqiqə N.Nərimanov prospekti görünmürdü, tüstü dağılmağa başlayanda fövqəladə və qorxunc bir şəkil aldı.

Dayanacaqda dayanan adamların yarısı uzanmışdı. Partlayış dalğası vitrinin şüşələrini elə sürətlə dağıtmışdı ki, uzanmış adamların bədənində şüşə qırıntıları dik qalmışdı. Qalanlarda – dayananların bədənləri və üzləri şüşə qırıntıları ilə kəsilmişdi. Çörək bölməsindən alov şölələnib yanırdı.

Hamı son dərəcə çaşqın və aciz idi. Mən də bir çox başqaları kimi nəsə etməyə çalışırdım. Adamlar dayanacağa gələn avtobusları dayandırırdı, oradan sərnişinləri düşürdüb, artıq boş avtobuslara zərərçəkənləri aparırdı, xəstəxanalara göndərirdi. Mən də fəallıq göstərirdim. Birdən başım fırlandı, halım pisləşdi.

Görünür bu nəzərə çarpan idi. Yoldan keçənlərdən biri əlimdən tutdu, məni əks tərəfə keçirdi, soruşdu ki, harada yaşayıram və dedi, - Sizin özünüzə kömək lazımdır, evə gedin.

Güclə evə gəlib çatdım, qapını çalanda ev sahibi məni qarşıladı, - Abdul, sənə nə olub? Ağappağ ağarmısan. Anam gəldi, tez məni yuyunmağa apardı, bir az yüngülləşəndən sonra şahidi olduğum partlayış haqqında suallar yağdırmağa başladılar.

Bu faciəli hadisədən yadımda qalanları bir neçə dəfə və çox ətraflı danışmalı oldum.

Hamı eşitdiklərindən sarsılmışdı, bütün ayı şəhər bu hadisə haqqında uğuldayırdı, lakin partlayışın səbəbi rəsmi elan edilmədi.

Aldığım sarsıntı mənə imkan vermədi ki, fikrimi toplayıb bu qış sessiyasını layiqincə verim.

İlk (*və axırıncı*) dəfə iki fəndən qeyri-kafi aldım, ən əsası isə, təxminən üç ay əsəbi və acıqlı idim. Ancaq yaya yüngülləşdim, imtahanların hamısını verdim.

Bəlkə buna yay tətili, komsomol təşkilatında iş kömək etdi, kim bilir?

Bakı Baş Poçtunun komsomol təşkilatı əsas fəallığı yayda götərirdi, məhz onda müəssisəmizin həmkarlar ittifaqı ilə birgə Azərbaycanımızın müxtəlif görməli yerlərinə, əsasən da məşhur Göygöl gölünə və sahilboyu Nabran rayonuna 2-3 günlük səfərlər təşkil edirdi.

Yuxarıdan buraxılmış ssenarilər üzrə demək olar ki, bütün dövlət bayramlarına yerli komsomol komitələri müxtəlif görüşlər, yığıncaqlar və şənliklər təşkil edirdi, bu da əlbəttə ki, Bakı Baş Poçt şöbəsinin bütün gənclərini birləşdirirdi.

Tezliklə GLKİ-nın ikinci katibi Oleq Vaşanin onunla təlimatçı vəzifəsində işləməyi təklif etdi. GLKİ-nın rayon şöbəsinin aparatına işə keçməyə artıq razılıq vermişdim. Həmçinin Oleq mənə Sov.İKP üzvləri sırasına daxil olmağı təkidlə tövsiyə etdi.

Sov.İKP üzvləri sırasına daxil olmaq, məlum olduğu kimi, iki mərhələdə həyata keçirdi. Birinci mərhələdə Sov.İKP üzvlüyünə namizəd qəbul edirdilər və məhz bir ildən sonra Sov.İKP üzvləri sırasına daxil edirdilər. Raykomda komissiyadan müvəffəqiyyətlə keçdim, burada adətən çoxlu sual verirdilər, əsasən Sov.İKP tarixindən. Komissiyanın üzvləri nizamnamə və tarixdən biliklərimə təəccübləndilər və birdən onlardan biri, medal və hərbi nişanlarla olan, soruşdu, - Siz institutda oxuyursunuz?

Dəqiqləşdirdim ki, AzPİ-nun axşam bölməsində.

Bir gündən sonra – 12.11.1968-ci il məni İstehsal-Texniki Laboratoriyanın (*İTL*) mühəndisi vəzifəsini icra etmək üçün poçt rabitəsi kuratoru, Azərbaycanın Rabitə nazirinin müavini Yusifov Sabir Məmmədoviçin yanına çağırdılar, maaşı 125 rubl idi, amma bir şərtlə ki, Azərbaycanın Rabitə nazirliyinin aparatında Poçt rabitəsi idarəsində oturmalı idim. Yarımsaatlıq söhbətdən sonra

namizədiyim təsdiqləndi və təcili Azərbaycan SSR Rabitə nazirliyinin partiya qeydiyyatına qəbul edilməyim haqqında əmrin rəsmiləşdirilməsi komandası verildi.

İki həftədən sonra məni raykoma ikinci katib Tamara İvanovna Zavyalovanın yanına Sov.İKP üzvlüyünə namizədlik vəsiqəsini vermək üçün çağırdılar.

Hardasa səkkiz namizəd idik, 26 Bakı Komissarları adına rayonun birinci katibinin kabinetində düz xətt üzrə dayanmışdıq, burada ikinci katib namizədlik vəsiqəsini siyahı üzrə, təntənəli şəkildə "*Fəhlə sinfinin və Sov.İKP-nın bayrağını uca tut!*" deyərək, bizə təqdim edirdi.

Mənim növbəm gələndə o yenə əlimi möhkəm, kişi kimi sıxdı və təkrarladı: "*Sov.İKP-nın bayrağını uca tut!*". Amma birdən siyahıya baxıb, vəzifəmdə (*Rabitə nazirliyinin böyük mühəndisi*) dəyişiklik görəndə o, soruşdu, - Necə yəni nazirliyin böyük mühəndisi? Cavab verdim, - Bəli. Onda Tamara İvanovna hələ də əlimi tutaraq, amma artıq göz vuraraq, dedi: "*Hə cavan oğlan, yaxşı dayın var?*".

Onun sualı mənə toxunsa da cəsarətlə cavab verdim:

- İTL-də poçt mexanizasiyası üzrə böyük texnik-texnoloq idim və faktiki olaraq böyük mühəndisin işini yerinə yetirirdim. İndi Rabitə nazirliyinin Poçt idarəsində vakansiya yarandı. Rəhbərlik iş təcrübəmi nəzərə alaraq, böyük mühəndis vəzifəsini mənə təklif etdi. Burada axı nə var? O susdu.

Tamara İvanovna Zavyalovanın, sonra da 26 Bakı Komissarları adına rayonun partiya raykomundan haqsız olaraq rüsvay edilmiş şəkildə çıxdım, baş verənlərdən halım pisləşmişdi. Məni isə Oleq Vaşanin gözləyirdi və bu cür məyus halda onun yanına gəldim. Halımı görüb, Vaşanin səbəbi ilə maraqlandı. Hələ də fərəhləndiyim ekspromt addım atdım. Təqribən belə dedim: "*Etibarınız və komsomol raykomuna dəvətiniz üçün Sizə minnətdaram, amma mən elm dalınca getməyə və komsomol işini buraxmağa qərar verdim*". Bə bununla mən həmeşəlik partiya namtnklatur xətdindən aralandım.

Və həqiqətən də bu gündən qarşıma məqsəd qoydum ki, Rabitə nazirliyinin Poçt idarəsindən Bakı Şəhər Telefon Şəbəkəsinə "*Avtomatik Telefon Stansiyası (ATS)*" ixtisası üzrə işə keçim.

Azərbaycanın Rabitə nazirliyinin Poçt idarəsinin aparatına keçid və nəqliyyat və poçt mexanizasiyası şöbəsinin bilavasitə rəhbəri Mişin Nikolay Stepanoviç ilə iş gələcək karyeram üçün mənə çox şey verdi. Baxmayaraq ki, təbiətcə işə yarayanam, praktiki olaraq, idarəetmə yaxud indi deyildiyi kimi, menecment bacarığım yox idi.

İstefada mayor Nikolay Stepanoviç son dərəcə dəqiq adam idi. Kənardan mənə elə gəlirdi ki, o heç vaxt tələsmir, amma həmişə hər şeyi çatdırırdı, özü də vaxtında. Ona oxşamağa çalışırdım. Amma insanpərvər münasibətdə ən yaxşı respublikanın Rabitə nazirliyinin poçt rabitəsi üzrə birinci şəxsi, poçt rabitəsi üzrə kurator, Azərbaycanın Rabitə nazirinin müavini Sabir Mamedoviç Yusifov idi.

Davam edək. Stolumun qarşısında Azərbaycanın poçt rabitəsinin mogikanlarından biri Şerbinin Viktor Timofeyeviç otururdu, amma o nəsə əldən düşmüş idi, həmişə tələsirdi, şöbə və sektorlarının rəhbərlərindən daim narazı idi. Onun əksinə Mişin Nikolay Stepanoviç daim razı görünürdü, təmkinli və çox xoşxasiyyət idi. O zamanlar müxtəlif nazirliklərin və müəssisələrin aparatlarında işləyənlər yaxşı bilirlər ki, burada işin 80 faizi kağız sənədlərlədir (*məktublar, arayışlar, hesabatlar, təqdimatlar və s.*). Belə ki, Nikolay Stepanoviç bürokratiya üzrə müəllimim idi, başlanğıcdan öyrədirdi, amma bu azdır, bir dəfə müdirimiz Şerbin Viktor Timofeyeviç ilə münaqişəsi zamanı yaxşı menecment dərsi aldım. İş orasındadır ki, Viktor Timofeyeviç şöbə müdirlərini yanına çağıranda Nikolay Stepanoviç müdirlərin dörd nəfərindən biri idi ki, bloknotla gəlirdi. Hər dəfə müdir Mişin N.S. tapşırıq verəndə bloknota yazıb bitirməmiş ayağa qalxmazdı. Və bir dəfə rəhbərimiz Viktor Timofeyeviçin kefi pis idi və elə öz yerindən bərkdən dedi:

- Nikolay Stepanoviç, belə olmaz, siz respublikanın rabitə qovşaqları üzrə benzinin paylaşdırılması siyahısını kecikdirirsiniz.

İdarəyə sükut çükdü.

Nikolay Stepanoviç təəccüblə rəhbərə baxdı, bloknotunu götürdü, danışıqlar üçün onun qarşısında oturdu, sakitcə gündəliyini açdı, hansısa vərəqi açdı, qələmlə nəyinsə altını cızdı, sonra çevirib Viktor Timofeyeviçə göstərdi. Hamı rəhbərə – Viktor Timofeyeviçə baxdı. Sükut dəqiqəsi keçdi, rəhbər qızardı, dili dolaşdı, ancaq yenə də üzr istədi, buna Nikolay Stepanoviç gülümsəyərək, dedi:

- Viktor Timofeyeviç, hələ on il bundan əvvəl sizə məsləhət görmüşdüm ki, gündəliyiniz olsun.

Sonra durdu və öz yerinə qayıtdı. Amma sonra məni lap təəccübləndirən daha bir şey baş verdi: mənə tərəf döndü və sakitcə onunla bir dəqiqəlik çıxmağı rica etdi. Nazirliyimizin çox geniş və hündür dəhlizinə çıxdıq. O ürəyini tutdu və tez ona su gətirməyimi istədi. Xatırladım ki, birinci şöbənin rəisi Məmmədova Zara Abbasovnada həmişə qrafində su olur. Nikolay Stepanoviçdən aralananda gördüm ki, dilinin altına nəsə qoydu. Bir dəqiqədən sonra bir stəkan su ilə onun qarşısında dayanmışdım, buna o, özünəməxsus gülümsəmə ilə dedi:

- Operativsən, səninlə kəşfiyyata getmək olar.

Cibindən hansısa dərmanı çıxardı və su ilə içdi. Bu zaman Zara Abbasovna yaxınlaşdı,

- Su sizə lazım idi? Abdul gəldi, üzr istədi, su tökdü və qaçdı, mən də fikirləşirəm görəsən nə olub? Nikolay Stepanoviç axı siz infarkt keçirmisiniz, sizə əsəbiləşmək olmaz.

Buna o gülümsəyərək, dedi:

- Sağlamlıq olsa, uzun yaşayarıq.

Axşam, adətən düz altıda tez stolumun üstünü yığışdırıb, nazirlikdən instituta dərsə gedirdim.

Amma bu gün baş verənlərdən sonra Nikolay Stepanoviçi işdə tək buraxmaq istəmədim. O, birdən mənə sarı döndü və ciddi dedi:

- Nədi, dərsdən qalmaq qərarına gəlmisən?

Bilmirdim ona necə izah edim, o isə davam etdi:

- Sən fikirləşmə, mənimlə hər şey qaydasındadı, çantanı götür və dərsə get.

Ertəsi gün fasilədən – 26 Bakı Komissarları adına bağda (*Üzeyir Hacıbəyov küçəsi*) gəzintidən qayıdandan sonra mənə tərəf döndü və dedi: - Sənə bütün həyatın boyu yadda qalacaq hədiyyə etmək istəyirəm.

Onun masasının üstündəki bloknotun eynisindən gördüm.

- Abdul, bu bloknot gündəlik adlanır. Bax, burada bu ilin – 1968-ci ilin bütün həftələrinin günləri var, unutqanlıqdan çox rahat silah və əla müdafiə, iş həftəsinin, ayının və ilinin əla bələdçisidir. Buraya sənə yaxın adamların ad günlərini, qısamüddətli və uzunmüddətli planları yazmaq olar. Lakin hər kəs gündəliyə öyrəşə bilmir, bunda mən sənə kömək edərəm. Yadda saxla, hər dəfə mən səni çağıranda gündəliyini götür, yaxınlaş və bütün tapşırıqlarımı yazmayınca səni buraxmayacam.

Bilirsiniz, 1968-ci ildən başlayaraq, bu günə qədər (*hətta axırıncı illər, pensiyada olarkən*) həmişə yanımda, adətən diplomatımda ilin gündəliyi var. Gündəliklər Leninqradda aspirantura illərində, Böyük Britaniyada illik elmi ezamiyyətdə, BMT-də (*Əfqanıstanda, Liviyada və Pakistanda*) ekspert qismində missiyam zamanı və iki dəfə ABŞ-da ezamiyyətdə olarkən distant təhsil üzrə layihə ilə bağlı mənimlə olub.

Bundan sonra həmişə yanımda gündəlik olurdu ki, bu da, şübhəsiz, hər bir idarəedicinin yaxud indi deyildiyi kimi, menecerin ən yaxşı köməkçisidir. Hətta artıq mobil telefonlarda, Ipad-da və ya kompüterdə qoşma şəklində elektron gündəliklər var.

Qeyd edim ki, Yusifov Sabir Mamedoviç və Şerbinin Viktor Timofeyeviç Azərbaycanın poçt rabitəsində ilk gələnlərin içərisində ən savadlıları idi.

V.T.Şerbinin Azərbaycanın ən təcrübəli poçt işçisi (почтови kimi Bakının poçt rabitəsinin bütün iyerarxiya pillələrindən keçib. 1946-cı ildən Rabitə Nazirliyinin Azərbaycan Respublikası üzrə müvəkkili şöbəsinin rəisi (*demək olar ki, rabitə naziri*) işləyib. 1953-1955-ci illərdə Rabitə Nazirliyinin Azərbaycan SSR üzrə müvəkkilinin müavini (*mahiyyətcə respublika rabitə nazirinin müavini*) olmuşdur.

“*Vətənpərvər olmaq üçün hər şeydən əvvəl vətəndaş olmaq lazımdır*”
Şıxəli Qurbanov (1925-1967)

## 2.4. Öyrədən varsa, gənclik kamilləşir.

Hər bir adamın həyatında onun şəxsiyyət kimi formalaşdığı, böyüdüyü, ictimaiyyətin, xalqının, millətinin bir hissəsi kimi hiss etdiyi an gəlib çatır. Vətəninin layiqli vətəndaşı olmağa o kəs kömək edir ki, o, xalqının işıqlanması naminə örnək göstərərək (*hətta özünü qurban edərək*), milli əqidənin katalizatoru olur.

60-cı illərin bu cür təkraredilməz istedadı Azərbaycan Kompartiyasının MK-nin təbliğat və təşviqat şöbəsinin müdiri, respublikanın aparıcı milli ideoloqlarından biri Şıxəli Qurbanov idi.

O öyrətmirdi, öyrənmək üçün onun yanına gəlirdilər, özü də havayı. Məhz bu illərdə (*50-ci illərin axırında və sonrakı onillikdə*) biz azərbaycanlılar özümüzü ilk dəfə tam rəqabətqabiliyyətli millət kimi bəyan etdik, həm də həyatın bütün sahələrində.

Azərbaycanlı ziyalılarımız industriyanın, texnika və iqtisadiyyatın qurulan sahələrində möhkəmlənirdi. Dövlət müəssisələrində, elm, mədəniyyət və incəsənətin bütün sahələrində müəyyən mövqelər tuturduq.

Bu o zaman idi ki, yüksək hakimiyyət dairələrində S.A.Vəzirovun, E.N.Əlixanovun, N.K.Baybakovun, A.D.Əmirovun, S.Orucovun adları dövlət idarəçiliyi üzrə azərbaycan məktəbinin nümayəndələri kimi xüsusi hörmətlə çəkilirdi.

Məhz bu zaman Şıxəli Qurbanov respublika alimlərinin iclasında, harada ki, əsas fonda “*böyük qardaşlar*” (*Moskvadan nümayəndələr*) idi, 30-cu illərin “*ümumxalq*” hökmü metodu üzrə təşkil edilən təzyiqi dayandıra bildi.

Mərkəzin (*və onun yerli yaltaqlarının*) nümayəndələrinin əsas nəticəsi ona gətirirdi ki, inqilabçı Bakının tarixi guya təhrif olunmuş şəkildə verilib...

Bax onda Şıxəli Qurbanovun müdafiə nitqi səsləndi, bir saatdan sonra onu respublikanın bütün alim dünyası, bütün Azərbaycan ziyalıları demək olar ki, əzbər bilirdi.

Ancaq o gələn "*böyük qardaşlara*" bərkdən nə ondan əvvəl, nə ondan sonra heç kimin söyləməyəcəyi: "*Hörmətli moskvalı yoldaşlar, icazə verin öz tariximizi özümüz yazaq*" deyə bilirdi və buna baxmayaraq, 1966-cı ilin fevralında onu ideologiya üzrə Azərbaycan KP MK-nin katibi seçdilər.

Görünür, Şıxəli Qurbanov hiss edirdi ki, ideologiya üzrə Azərbaycan KP MK-nin katibinin bu qüdrətli vəzifəsi ona çox qısa müddətə verilib.

O, Azərbaycanı üçün nəsə əhəmiyyətli və vacib bir şey etməyə tələsirdi. Məhz onun göstərdiyi təşəbbüsə görə Azərbaycanda milli bayramımız olan Novruz bayramını (*baxmayaraq ki, çox uzun sürmədi*) rəsmi olaraq geniş qeyd etməyə başladılar. Beynəlmiləlçi olaraq o, gəncləri, xalqını, Azərbaycanı hədsiz sevirdi.

Şıxəli Qurbanovun ədəbi istedadını, onun şerlərini, hekayələrini, novellalarını, librettolarını, pyeslərini xüsusi qeyd etmək lazımdır...

Amma Şıxəli Qurbanovun son əsəri 1967-ci ildə səhnələşdirilmiş "*Sənsiz*" dramı oldu. Dramda Stalin represiyyalarının (*onun taleyi ilə toqquşan*) qurbanı olmuş insanların taleyindən söz açılırdı.

Görünür bu məzmunda keçmiş SSRİ ərazisində qoyulmuş ilk pyes idi.

Lakin, çox təəssüf ki, Şıxəli Qurbanova labüd adlı "*Sənsiz*" pyesinin premyerasında iştirak etmək qismət deyilmiş. 24 may 1967-ci ildə Şıxəli Qurbanov faciəli şəkildə qaranlıq qalmış halda vəfat etdi. Mənasız ölüm (*bəlkə də ssenari üzrə*) idi.

Onu teatrda gözləyirdilər, "*Sənsiz*" teatrının müəllifi olmadan başlamaq istəmirdilər, sevən tamaşaçılar həyəcanlanırdı. Stomatoloq həkimin bir iynəsindən olan ani ölümdən heç kim şübhələnmirdi!..

Görünür Şıxəli Qurbanovun taleyində ilk dönüş nöqtəsi onun 1941-ci ildə 17 yaşında müharibəyə könüllü gedib, sağ-salamat qayıtması idi. O, gəncləri yuxudan oyatdı.

Onun ölümündən sonra pyes Böyük Oktyabrın 50 illiyinə həsr olunmuş respublika müsabiqəsinin birinci mükafatına layiq görülmüşdü. 1967-ci ildən Bakıda Musiqili komediya teatrı, paytaxtın mərkəzi küçələrindən biri və Azərbaycanın (*və yalnız*) müxtəlif şəhər və rayonlarının bir sıra müəssisə və küçələri Şıxəli Qurbanovun adını daşıyır.

Və mənə, 20 yaşlı gəncə, 1967-ci ilin may ayının bu son günlərində bir sual əziyyət verirdi (*hesab edirəm, bütün nəslə də*) ki, ona da açıq cavab yox idi: o gün biz nə ilə üzləşdik; təsadüf yoxsa 37-nin davamı?

Cavab yox idi, bir neçə ildən sonra isə hər şey unuduldu.

Bu gün, Şıxəli Qurbanovun ölümündən 45 il ötdükdən sonra artıq cavan olmayan adam kimi etiraf etməliyəm ki, bu mənim daxili ədəbi yaradıcılığıma təkan (*özünəməxsus yönəltmə*) oldu.

Əgər yaşıdlarım arasında sorğu keçirsələr, əminəm ki, 80%-dən çoxu Şıxəli Qurbanovun onların taleyinə müsbət təsiri haqqında danışardı.

Yaxın illərdə haradasa oxumuşdum ki, şirvanlılara şerlərini oxumaqdan başqa isbata ehtiyac yoxdur.

Şəxsən mən, əsl şirvanlı kimi vətənpərvərlik şerlərimi yazmağa başladım (*həmin 1968-69-cu illərdə həm doğma azərbaycan, həm də rus dillərində*):

## MƏN ALOVLAR MƏSKƏNİYƏM!

Mən dünyanın qızıl taclı,
Dik Qavqazlı, düz yamaclı,
Qara saçlı gözəl qızlı,
Şahinlər tək mərd oqullı,
Yer üzünün bir gülüyəm,
Mən alovlar məskəniyəm!

Tarixlərə şe'r səpən,
Babək kimi xalqın sevən,
Nəsimi tək zülmə dözən,
Koroqlı tək qılınc çəkən,
Yer üzünün bir güciyəm,
Mən alovlar məskəniyəm!

Nizami tək əsər yazan,
Fizuli tək sevgi qanan,
Vidadi tək yurdun sanan,
Vaqif kimi zövqü olan,
Yer üzünün bir sirriyəm,
Mən alovlar məskəniyəm!

Təbriz kimi şair yurtlu,
Gəncəm kimi dan ulduzlu,
Dəli Kür tək səsi ğurlu,
Göy xəzəri neftlə dolu,
Yer üzünün sərvətiyəm,
Mən alovlar məskəniyəm!

Mən türkliyin hissəsiyəm,
Mən xalqımın şöhrətiyəm,
Mən Şirvanam həm də Miləm,
Həm Arazam həmdə Kürəm,
Qarabaq tək nağməliyəm,
Mən alovlar məskəniyəm!

## СТИХИ ЛЮБЛЮ

А я люблю, люблю стихи и прозу,
Люблю слова, гремящие как грозы.
И те, что беспокоят, как заноза
Люблю строку, цветущую как роза.

Я стих люблю, который возбуждает,
Своею чистотой гнилое все сжигает.
Строку хочу, которая сияет,
Людей вокруг себя объединяет.

Строку люблю горящую как пламя,
Зовущую вперед, как наша знамя.
Стихи хочу, чтоб нынешнее племя
На их прочтенье не жалело время.

Я стих люблю, звучащий так сурово,
Чтоб смог я наказать врага любого.
И те стихи, что удалью шальной
Лекарством будут для любой больной

А я люблю, люблю стихи и прозу,
Что быт наш украшают, словно розы,
И дарят людям радостные слезы.
Реальными хочу, чтоб были грезы...

## "ÇİNARIN SÖHBƏTİ"

Mən çinaram adı səsli,
Uça boylu, yaşça əhli,
İnsanlarçün həm kölgəli,
Həmdə tarixi görkəmli.

Boy atınca mən burada,
Nələr gördüm bu dünyada,
Min cür insana rast gəldim,
Onlardan çox şey öyrəndim.

Mən burada yurd salanda,
Təzə-təzə boy atanda,
Burda kiçik bir kənd vardı,
Göy çaylar onu yuyardı.

Kəndin yol üsdə olması.
Həm də xalqın oyanması,
Onu çevirdi mərkəzə,
Yarandı bir şəhər təzə.

Mən böyüdüm cavanlaşdım,
Şəhər tək qol-qanad atdım,
Yarandı yeni qaydalar,
Salındı gözəl baxçalar.

Mən ucaldım göyə qalxdım,
Gözəl Göyçaya nur saçdım,
Bürüdüm onu hər yandan,
İndi ayrılmazam ondan.

## VƏSİYYƏT

Qələmi əlimə çox gec alsamda,
Mənimlə saxlayın onu yasımda.
Bir bükün mənimlə onu kəfənə,
Xeyratı bol verin gəlib gedənə.

Xalqımın dəbiylə götürün məni,
Göy çaylar üstündən keçirin məni.
Göyçaydan uzaqda yurd salsamda mən,
Doğma şəhərimdə bastırın məni.

Götürün siz məni ata mülkündə,
Ordaca ağlayın məni görəndə.
Tökməyin göz yaşı tabut dalınca,
Səbr kifayətdir tək bastırınca.

Sonrada siz məni götürüb gedin,
Göyçaydan son dəfə məni keçirdin.
Keçdiyim yolları çinar bəzəsin,
Onun kölgəsiylə ruhum dincəlsin.

Qaldırın siz məni hündür yamaca,
Qoyun Göyçayıma baxım doyunça.
Səslənsin çayımın ilhamlı səsi,
Gəlsin vətənimin ılıq nəfəsi.

Əbədi sinəmi torpaq örtüncə,
Kəfəni bürüyün yarpagla incə.
Sonrada üstümü torpaqla örtün,
Yanqım yatsın deyə soyuq su tökün.

Mərhumun dini tanınsın deyə,
Qoyun baş ağacı baxsın qibləyə.
Aydın bilmək üçün sevmişəm nəyi,
Ağaca hək edin kağız qələmi.

*“Möcüzələrə inanmayan hər kəs realist deyil”*
Billi Uaylder (1906-2002)

## 2.5. Moskvaya Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə səfər.

Yadımdadır, bu 1968-ci ilin noyabrında olmuşdu, Azərbaycanın Rabitə naziri Hüseynov Teymur Quliyeviç bizi – Azərbaycanın hələ çox gənc rabitəçi-səmərələşdiricilərini Moskvaya Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə (*XTNS*) göndərmişdi.

Necə cəsarətsiz idik, 15 İttifaq respublikalardan gələn bir çox rabitəçi-səmərələşdiricilər, xüsusən də mənim – bu memuarların müəllifi üçün Moskvaya ilk ezamiyyət idi.

Laboratoriyamızda ezamiyyətə hamıdan çox iki nəfər gedirdi: İTL-nın rəisi – Abdulrzakov Mamed müəllim və İTL-nın baş mühəndisi – Hüseynov Rauf Ağasi oğlu. Buna görə də Hüseynov Rauf bizi XTNS-ə necə getmək barədə təlimatlandırdı. İzah etdi ki, problem deyil, aeroportdan çıxıb, Moskvanın mərkəzinə gedən avtobusa, oradan da metroya minib, XTNS stansiyasında çıxmaq lazımdır.

Nəzərə alsaq ki, Bakıda artıq metropoliten fəaliyyət göstərir, çətin heç bir şey yox idi.

Məlum oldu ki, əsas qonaqları, yəni 15 İttifaq respublikalardan gələn nümayəndələri “*Sputnik*” mehmanxanasına yerləşdiriblər.

Bizi – Sovet İttifaqının gənc səmərələşdiricilərini SSRİ-nin Rabitə nazirinin müavini Lebedev Viktor Nikolayeviç qəbul etdi, salamlayaraq, bir neçə sual verdi, “*Sputnik*” mehmanxanasında necə yerləşdiyimizi soruşdu və SSRİ-nin Rabitə naziri Psurcev Nikolay Demyanoviçə təqdim ediləcəyimiz barədə xəbərdarlıq etdi.

Yanımızda dəstəyi götürdü və birbaşa telefonla ona zəng vurdu. Salamlaşaraq, məlumat verdi ki, “*Bütün İttifaqdan gənclər yanımdadır, yanınıza gəlmək istəyirik, olar?*”.

Əlbəttə biz nazirin cavabını eşitmədik, amma V.N.Lebedev xoş gülümsədi. Heç iki dəqiqə keçməmiş Lebedevin kabinetinə Sovet İttifaqının Rabitə naziri, istefada ordu generalı, çox hündür olmayan, lakin möhkəm adamlı – Psurcev Nikolay Demyanoviçin özü girdi.

V.N.Lebedevin kabinetə girərək, Psurcev Nikolay Demyanoviç bütün iştirakçılarla çox nəzakətlə salamlaşdı.

Sonra müavinindən bizim necə yerləşməyimiz barədə soruşdu və birdən hiss etdik ki, bu ekspromtdur, V.N.Lebedevə dönərək, dedi: "*Viktor Nikolayeviç, qoy gələcək nəslin rabitəçiləri bizim Ostankino qülləsini görsünlər. Getmək qrafikini qurun və qoy gənc səmərələşdiricilər qülləyə qalxsın*" və gülümsəyərək, əlavə etdi: "*Onlar üçün bütün həyatı boyu xatırlayacaqları ekskursiyanı təşkil edin*".

Ertəsi gün bütün İttifaqdan olan gənc rabitəçiləri iki avtobusla Ostankinoya apardılar, burada təhlükəsizlik qaydaları ilə tanış olduqdan sonra 6-8 nəfərlik qrupla sürətli liftlərlə yuxarı qalxmağa icazə verdilər.

Daha 15 dəqiqədən sonra hamımız ah çəkdik, Moskvanı həqiqətən çox hündürdən görürdük.

Hələ belə gənc uşaqlar, göyün yeddinci qatında idik.

Bu gün 540 metr hündürlüklü Ostankino qülləsi unikallığı ilə dünyada 5-ci yeri tutur.

Lakin 1967-ci ildə onu "*SSRİ-nin 50 illiyi ad. Ümumittifaq radioteleviziya yayımlama stansiyası*" kimi tanıyırdıq.

Ekskursiya rəhbərinin bizə danışdığı kimi, buranın tikilməsi haqqında qərar 1957-ci ildə verilmişdi, tikinti işləri isə 1963-67-ci illərdə aparılmışdır və həmin dövrdə də dünyada ən yüksək tikili olmuşdur.

Qüllənin layihəsi V.N.Nikitin tərəfindən bir gecəyə düşünülmüşdür, deyilənlərə görə, möhkəm ləçəkli və qalın gövdəli gül – çevrilmiş zanbaq proobrazı olmuşdur, davamlılığı üçün isə 10 dayaq tikilmişdir.

Teleqüllənin baxış meydançasına və "*Yeddinci qat*" restoranına 1967-ci ildən başlayaraq, 10 mln.-dan çox turist gəlmişdir.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi biz gənclərə ikinci xüsusi təsiri bağışladı.

O ilk illərdə kompleksə gələnlərin sayı ildə 10 mln.-a yaxın sovet adamı idi, onların yarısından çoxunu SSRİ-nin bütün müəssisə və sahələrindən olan mütəxəssislər, ixtiraçılar və səmərələşdiricilər təşkil edirdi.

Bu gün bu ərazi Ümumrusiya Sərgi Mərkəzi (*ÜSM*) kimi tanınır və müxtəlif memarlıq abidələri ilə zəngindir ki, onlardan çoxusu bütün dünyada məşhurdur.

Bizi A.S.Popov ad. Radiotexnika, elektronika və rabitə üzrə ümumittifaq elmi-texniki cəmiyyətə apardılar.

Bu cəmiyyət 1918-ci ildə yaradılmışdı, onun varisi isə 1945-ci ildə yaradılan A.S.Popov adına Radiotexnika və elektrorabitə üzrə ümumittifaq elmi-texniki cəmiyyət (*A.S.Popov ad. REÜETC*) oldu.

Cəmiyyətin yaradılmasının ilk təşəbbüskarları və prezidentləri: rabitənin Xalq komissarının müavini A.D.Fortuşenko, SSRİ EA-nın akademikləri A.İ.Berq, V.A.Kotelnikov və SSRİ EA-nın müxbir üzvü V.İ.Siforov idi.

Qeyd etmək istərdim ki, sovet dövründə bu təşkilat yeni radioelektronika və kompüter texnologiyalarının tam məxfiləşdirilmiş sahələrində çalışan sovet mühəndislərinin güclü intellektual potensialı üçün əsl təsəlli idi. Hesab olunur ki, cəmiyyət tərəfindən 1945-ci ildə "*dəmir pərdə*" şəraitində keçirilən illik may elmi sessiyaları (*7 may – radio günü*) yeni rabitə texnologiyaları sahəsində çalışan sovet alimlərinin rabitə, kibernetika, sistem təhlili və s. üzrə sahələrdə çalışan xarici həmkarları ilə unikal əlaqə yaratmaq yeri idi.

Xüsusilə qeyd etmək istəyirəm ki, bu cəmiyyətin bizim azərbaycan bölməsi A.S.Popov ad. Radiotexnika və elektrorabitə üzrə ümumittifaq elmi-texniki cəmiyyətinin tərkib hissəsi olaraq,

respublika üçün böyük işlər görürdü ki, bu proseslərdə layiqincə iştirak etsin. Cəmiyyətin Azərbaycanda 2 gözəl nümayəndəsini şəxsən tanıyıram: İbrahimova Leyla xanım və İsmayılova Elmira xanım.

Bu vətənpərvər-rabitəçi qadınlar cəmiyyətin vəsait və imkanlarını Azərbaycanın onlarla gənc istedad və gələcək alim-rabitəçilərinin respublika və ümumittifaq miqyasda keçirilən elmi-texniki konfranslarda iştirakı üçün əsirgəmirdilər.

Azərbaycanın ən məşhur rabitəçi qadınlarından biri şübhəsiz ki, İbrahimova Leyla Məmməd qızıdır.

Nə qədər gənc alim rabitəçilərə o kömək edib!

Bu sahəyə Azərbaycanın Yusupov Sabir Mamed oğlu ad. Radiotexnika və Elekrtroəlaqə üzrə Elmi-Texniki Cəmiyyətinin İdarə Heyətinin Katibi İsmayılova Elmira Mahmudovnanın da payı az olmayıb.

Cəmiyyətin vəsaitlərinin çox az olmasına baxmayaraq, həmin cəmiyyətin səyləri nəticəsində Azərbaycanın rabitəçiləri üçün onlarla vacib tədbir və konfranslar keçirilirdi.

Əfsuslar olsun ki, bizim günlərdə (*XXI əsrin 10-cu illərində*) rəhbərlik tərəfindən bu sahəyə lazımi diqqət ayrılmır, baxmayaraq ki, Rabitə naziri AMEA-nın akademikidir.

Axı sahədə fəal iştirak və yalnız bir dənə illik elmi-texniki konfrans Azərbaycan rabitəçilərinin böyüyən nəslinə çox şey verə bilər!

Məlumdur ki, Azərbaycanın telekommunikasiya sahəsi ölkənin iqtisadiyyatında əsas rol oynayır, belə ki, onun vacib funksiyası informasiyanın ötürülməsində cəmiyyətin tələbatlarının təmin edilməsidir [4-151, 161-26].

*"Anlamaq – hiss etməkdir"*
Stanislavskiy (1863- 1938)

## 2.6. Böyümək və həyatda dəyişikliklər vaxtıdır.

Rabitə nazirliyinin Poçt idarəsində işləmək şərəfli idi, amma texniki planda mənə az bir şeylər verdi.

Yeri gəlmişkən, Rabitə nazirliyinin Poçt idarəsində növbətçilik zamanı (*bayram günlərində*), Şerbin Viktor Timofeyeviçlə işləyərkən buna əmin oldum. Bir dəfə çay içərkən o poçtalyonların, qəzet və məktub çeşidləyicilərinin əməyinin, iş həcminin son dərəcə ağırlığından danışdı. Poçt rabitəsində texnikanın olmamasından gileylənirdi, hətta mənə sual verdi – Əgər öz istisasın üzrə keçməsən, kim ola bilərsən? Özü də cavab verdi: - Maksimum Dəmiryol Poçt Şöbəsinin baş mühəndisi. Amma sənin oxydyqun telekommunikasiya ixtisası isə daha çox perspektivlidir.

Uşaqlıqda olduğu kimi, cavanlıqda da böyükləri dinləməyi və onlara inanmağı sevirdim və bu söhbət həmişəlik yadımda qaldı.

Rabitə nazirliyində avtoritetlərdən nazir müavini Əli-zadə Əli-saleh Qurban-Əli oğlu və poçt rabitəsinin kuratoru, nazir müavini Yusufov Sabir Mamedoviç, sözsüz, rabitə sahələrinin kuratorları idi [148].

Ə.Q.Əli-zadədən başlayım, 1906-cı il təvəllüdlüdür. O Azərbaycanın ikinci milli rabitəçisidir ki, 1935-ci ildə Moskva Elektrotexniki İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə əvvəlcə Bakıda, sonra Gəncədə telefon stansiyasında (*ATS*) mühəndisliklə başlamışdır. Müharibə başlayarkən, 1941-ci ildə 35 yaşlı Əli-zadə Əli-saleh Qurban-Əli oğlu Bakı Şəhər Telefon qovşağına (*BŞTQ*) rəhbərlik etdi.

İxtisasına mükəmməl yiyələnməsi və rus dilini əla bilməsi ona imkan verdi ki, artıq 36 yaşında Azərbaycanın Rabitə nazirinin müavini olsun və o, zənnimcə, yeganə müavindir ki, Azərbaycanın telekommunikasiyasının inkişafı naminə həyatının 30 ilindən çoxunu (*1944-cü ildən 1975-ci ilədək*) verib.

Həyatının axırıncı on ilini, 1965-ci ildən 1975-ci ilədək o, Azərbaycanda rabitə sahələrinin qurulması və inkişafına şəxsən rəhbərlik edirdi (*Azərbaycanın Rabitə nazirinin tikinti üzrə müavini kimi*).

Ə.Q.Əli-zadə kadrların hazırlanması məsələlərinə əsas diqqət ayırırdı, uzun illər Azərbaycan Politexnik İnstitutunun (*AzPİ*) "*Avtomatik elektrik rabitəsi*" ixtisası üzrə Dövlət imtahan komissiyasının (*DİK*) sədri olmuşdur, respublikanın gənc rabitəçilərinə kömək edirdi, faydalı məsləhətlər verirdi.

O dövrün Rabitə nazirinin üç müavinindən o, ən sadəsi, ünsiyyətli və çox şən idi.

Burada şahidi olduğum bir hadisəni xatırlamaq istərdim. Beləliklə, 1969-cu ilin başlanğıcında, Rabitə nazirliyinin Poçt idarəsində işləyərkən, o, növbəti dəfə ezamiyyətdən (*Moskva*) qayıdarkən, katibəsi vasitəsilə məni çağırdı.

Kabinetə daxil olarkən gördüm ki, poçt rabitəsi üzrə nazir müavini, mənim bilavasitə kuratorum Yusufov Sabir Mamed oğlu orada əyləşib.

Mənimlə nəvazişlə salamlaşaraq və məktubu (*Baş Poçt Şöbəsi üçün bizə poçt transportyorlarının ayrılması haqqında*) uzadaraq, əmr etdi: "*Abdul, əyləş və dinlə*".

Mən, 22 yaşlı Rabitə nazirliyinin Poçt idarəsinin poçt mexanizasiyası üzrə böyük mühəndisi məmuniyyətlə əyləşdim.

Əli-zadə Ə.Q. ona məxsus xüsusi gülüşü ilə başladı: "*Bilirsən, Sabir Mamedoviç, üç gün bundan əvvəl Moskvada ezamiyyətdə olarkən, SSRİ Rabitə nazirinin müavini Lebedev Viktor Nikolayeviçin qəbul otağına getdim, salamlaşdım və katibəyə dedim ki, Lebedev məni gözləyir, Azərbaycandan Əli-zadəyəm.*

*O sakitcə başını yellətdi, bir neçə dəqiqədən sonra, V.N.Lebedevin yanından nazirliyin kadrlar şöbəsinin işçisi M.A.Rıjov çıxandan sonra nəzakətlə vərəqəyə baxıb, görünür, mənim haqqımda əvvəlcədən yazılmışdı, sakitcə oxuyur: "Əli-zadə Əli-saleh Qurban-Əli oğlu", sonra çaşqınlıqla deyir: "Yoldaşlar bir-bir keçin".*

Biz (*Sabir Mamedoviçlə və mən*) ürəkdən güldük. O isə daha çox gülərək, davam edir, - *Biz də V.N.Lebedevlə yarımsaat onun kabinetində bunu bir neçə dəfə danışaraq, gülmüşük.*

Sonra o, S.M.Yusufova göz vuraraq, dedi, - *Görürsən, nə baş verir, biz artıq 150 ildir ki, onlarla bir qoşqudayıq, onlar isə soyad, ad və atamızın adını düz oxuya bilmirlər, Hitlerin və Rebentropun adını isə - buyur.*

Qeyd etmək istəyirəm ki, sonralar bu hadisəni Yusufov Sabir Mamed oğlunun ifasında Ə.Q.Əli-zadə ilə baş verən lətifə kimi bir neçə dəfə eşitmişəm.

Deməliyəm ki, Azərbaycanın Rabitə nazirliyinin planlaşdırma, iqtisadi, texniki, poçt və tikinti siyasətinin bütün ağırlığının öhdəsindən, mübaliğəsiz, dahi menecerlər – üç əvəzolunmaz nazir müavinləri, respubikanın Rabitə nazirliyinin ən yaxşı kadrları bacarıqla gəlirdi [148]:

- Əli-zadə Əli-saleh Qurban-Əli oğlu;
- Axundov Bahadur Məmməd oğlu;
- Yusufov Sabir Məmməd oğlu.

Bir ildən sonra, daha dəqiq 20.08.1969-cı ildə Rabitə nazirliyinin Poçt İdarəsinin rəisi Paşayev Əliheydər Sədullayeviç olanda məni yenə vəzifədə yeksəltdilər və İTL-nın 135 rubl maaşla böyük mühəndis-elektromexanik v.i.e. oldum.

Maliyyə baxımından bu tam asılı olmamaqdı, Pedaqoji institutun riyaziyyat fakültəsində oxuyan qardaşım Tofiqlə mənzildə yaşayırdıq və ailəm puldan korluq çəkmirdi.

Lakin Azərbaycanın Rabitə nazirliyində böyük dəyişikliklər başlandı. Belə ki, 1969-cu ilin payızında Azərbaycan SSR Rabitə nazirliyinin yeni naziri Nəsrullayev Nəsrulla İdayətoviç Hüseynov Teymur Hüseynoviçin yerinə təyin edildi [148].

Azərbaycanın rabitə və əsasən də teleradio üzrə milli kadrlarından ümumiyyətlə danışsaq, istəyirəm ki, hər şeydən əvvəl, bu sahəyə ən sadiq olan böyük hərflə mütəxəssis – 1955-1969-cu illərdə Azərbaycanın Rabitə naziri Hüseynov Teymur Qulu oğlunun adını çəkim [148].

Zənnimcə o, təyin olunmuş Rabitə nazirlərinin içərisində siyasi dəvət edilməmiş, bu vəzifədə təxminən 15 il işləmiş yeganə adam idi.

Ondan sonra N.İ.Nəsrullayevi, Q.D.Rəsulbəyovu, B.M.Axundovu, Ş.Musayevi və hətta məni də siyasi məqsədlər üçün istifadə etmək istədilər, əsasən də məndən sonra, yuxarıdan sərəncamla Sirus Abbasov, N.A.Əhmədov və A.M.Abbasov təyin olunduqda.

1938-1944-cü illərdə Hüseynov Teymur Qulu oğlu Türkmənistan SSR-də rabitə orqanlarında rəhbər vəzifələrdə çalışmışdır. 1945-ci ildə Bakıya köçərək, Radioötürücü və Radioəlaqə Bakı Komitəsinin Direksiyasına rəhbərlik etmişdir.

1952-ci ildə Azərbaycan SSR-nin SSRİ Rabitə Nazirliyində nümayəndəsinin müavini, sonra isə nümayəndəsi olmuşdur. 1955-1969-cu illərdə ilk nazir kimi Azərbaycanın Rabitə nazirliyinə layiqli rəhbərlik etmişdir [148].

1969-cu ildə Hüseynov Teymur Quliyeviçin Azərbaycan SSR-nin Rabitə naziri vəzifəsindən getdiyi gün yadımdadır.

Hardasa səhər saat 11 radələrində Poçt rabitəsi İdarəsinin rəisi Paşayev Əliheydər Sədullayeviç məni yanına çağırdı və dedi: "*Abdul, kadrlar şöbəsinin müdiri Şahməmmədov Bəxtiyar Ələkbəroviçin yanına get, apparatın bütün gənc çalışanlarını nazirin, Hüseynov Teymur Quliyeviçin yanına aparacaq*".

Düzünü düsəm, o səhər nazirliyin bütün apparatında arı vızıltısı kimi dedi-qodu gəzirdi ki, guya bu gün nazir Hüseynov Teymur respubliknın hardasa ikinci şəxslə əvəz edəcəkkər.

Nazirliyimizin məşhür katibəsi Amaliya Arsenovna Atayancın (*respublika Rabitə nazirliyinin ən məlumatlı işçisi*) qəbulunda apparatın 80 nəfər işçisindən 8 nəfər gənci yığışmışdı.

Düz saat 11-də nazirliyin kadrlar şöbəsinin müdiri Şahməmmədov Bəxtiyar Ələkbəroviç əmr verdi: "*Nazirin kabinetinə daxil olun!*".

Hüseynov Teymur Quliyeviç gülümsəyərək bizi qəbul etdi, hər birimizin əlini sıxdı və dedi: "*Bu gün vəzifəmdən və bu kabinetdən gedirəm, amma getməmişdən öncə sizə – Azərbaycanın gənc rabitəçilərinə balaca hədiyyə etmək istəyirəm. Ora baxın!*" – və kabinetin giriş qapısından Üzeyir Hacıbəyov küçəsinə baxan

işıqlı pəncərələrə qədər uzanan gözəl şüşəli kitab şkafını göstərdi – "*Uşaqlar, bu gün bu şəxsi kitablarımı mən Rabitə nazirliyinin kitabxanasına verəcəm. Amma ona qədər çox istəyirəm ki, sizdən hər biriniz – Azərbaycanın gənc rabitəçiləri yaxınlaşsın və oradan bəyəndiyiniz bir kitabı məndən yadigar olaraq götürsün. Kitabı götürün, yanıma, masama yaxınlaşın*". Sonra Teymur Quliyeviç Poçt İdarəmizin ikinci işçisi Svetlanaya dönərək, dedi, - "*gəlin xanımdan başlayaq*".

Hər kəs ürəyincə kitab seçdi, o deyəndə ki, "*Abdul, sənin növbəndi*", mənə elə gəldi ki, bu çoxsaylı müxtəlif cür kitablardan heç ayrıla bilmərəm.

Kitab şkafında olanlara baxdım və "*Simli və poçt rabitəsi üzrə ingilis-rus lüğəti*"ni gördüm. Gözlərim parıldadı, tərəddüd etmədən bu kitabı götürdüm.

Hər birimiz bir kitab seçəndən sonra nazir bizi iri düzbucaqlı stol arxasına dəvət etdi.

Sonra çox sakit səslə dedi: "*Uşaqlar, fikrimdə tutmuşdum ki, sizin hansı kitabı seçdiyinizdən asılı olaraq, öz gələcəyinizi seçirsiniz*".

Mənə sarı dönərək, dedi, "*Abdul, yadında saxla, bu lüğət, Böyük Pyotr demişkən, sənə Avropaya pəncərə açacaq və mən ümid edirəm ki, Azərbaycanın alim-rabitəçisi qismində*".

O vaxtlar Azərbaycan Politexnik İnstitutunun (*AzPİ*) "*Avtomatik elektrorabitə*" ixtisası üzrə dördüncü kursda oxuyurdum və yadımdadır ki, artıq bu hadisələrdən bir həftə ötəndən sonra özüm üçün qətiyyətlə aşağıdakıları qərarlaşdırdım:

1. Rabitə nazirliyinin apparatından Oktyabr rayonu telefon qovşağına ixtisas üzrə keçmək;
2. Aspiranturaya qəbul olmaq (*AzPİ-də təhsili bitirdikdən sonra*) və yaxşı olardı ki, Leninqradda;
3. İngilis dili ilə ciddi məşğul olmaq, hətta xüsusi kurslara getməklə.

Bu "*Simli və poçt rabitəsi üzrə ingilis-rus lüğəti*" mənimlə bir çox ölkələri gəzib:

- 1974-1977-ci illərdə M.A.Bonç-Bruyeviç ad. Leninqrad Rabitə institutunun məqsədli aspiranturasında;

- 4 sentyabr 1981-ci idən 27 iyun 1982-ci ilə qədər Aston Universitetində (*İngiltərə*) professor Con Fladın yanında elmi təcrübə keçərkən;
- Mənimlə üç sınaqdan keçdi: 1985/1986-cı illərdə Əfqanıstanda, 1992/1993-cü illərdə Liviyada və 1993-cü ildə Pakistanda BMT-nin eksperti qismində;
- İkinci dəfə bu lüğət mənimlə İngiltərədə, sonra İrlandiyada 1998-ci ildə Avropa Cəmiyyətinin Azərbaycan Texniki Universiteti nəzdində Azərbaycanın Telekommunikasiya təhsil mərkəzinin yaradılması üzrə TASİS (Project-TNAZ-9601) layihəsində;

İndi isə əsaslı sual: "*Məgər Azərbaycanın bu cür Rabitə nazirini, bu cür rəhbəri unutmaq mümkündür? Məncə heç vaxt!*".

Köhnə nazirin gedişi elə bil apparatın işçilərini daha da yaxınlaşdırdı və əsasən də Əli-zadə Əli Qurbanoviç və Yusufov Sabir Məmmədoviç ilə.

Şəxsən mən özümdə bunları hiss etdim.

"*Tərbiyə zatən mənşədən vacibdir*"
Yapon atalar sözü

## 2.7. Öz xahişim ilə keçirmə.

20.08.1969-cı ildə Rabitə nazirliyinin İTL-nın böyük mühəndis-elektromexanik v.i.e. vəzifəsinə təyinatım məni BŞTŞ-da elektrorabitə mühəndisi ixtisasına yiyələnməyə daha çox vadar etdi.

Bir dəfə Rabitə nazirliyinin elektrorabitə üzrə kuratoru Axundov Bahadur Məmmədoviç yanına oldum. Leninqradda "*Qirmizi Şəfəq*" zavodunda ATS-in yeni texnologiyalarına yiyələnmək və eyni zamanda prof. M.A.Bonç-Bruyeviç ad. Leninqrad Rabitə institutunun axşam bölməsindəki təhsilimi bitirmək üçün oraya köçmək arzumu ona söylədim.

Bilirdim ki, bu çox ağır yükdür, amma respublikama hazır mütəxəssis kimi qayıtmaq istəyirdim. Təəssüf ki, Bahadur Məmmədoviç mənim arzumu təbəssümlə qarşıladı, əlavə etdi ki, nə vaxt Moskva Bakıda bu koordinat stansiyalarını tikməyə başlasa, onda onlar bizi öyrədərlər.

Anladım ki, bu kuratordan kömək olmayacaq.

Onda öz kuratorum – Azərbaycan SSR Rabitə nazirinin poçt rabitəsi üzrə müavini Yusufov Sabir Məmmədoviçin yanına getməyi qərara aldım.

Sabir Məmmədoviçə Rabitə nazirliyinin Poçt İdarəsindən getmək istədiyim barədə ətraflı danışdım. B.M.Axundovla öncədən görüşüm və Bakı Şəhəri Telefon Şəbəkəsinə (*BŞTŞ*) keçmək istədiyim barədə danışdım.

Politexnik institutuna yaxın olduğu üçün Oktyabr rayonu Telefon qovşağına (*özü də sıravi mexanik*) keçmək istədiyimi bildirdim, axşam işdən sonra təhsil aldığım yerə tez çatmaq mümkün olsun deyə...

S.M.Yusufov bu cür zərurət üçün təəssüfləndiyini bildirdi və əlavə etdi ki, keçirmə haqqında ərizəyə həm poçt rabitəsi, həm də elektrorabitə üzrə kuratorlar imza atmalıdır.

Dərhal Əli Qurbanoviç Əlizadəyə zəng edib, məni dinləməsini xahiş etdi, mənə isə dedi:

- Abdul, təki istək olsun, problemləri həmişə həll etmək olar.

Bir dəqiqədən sonra artıq Əlizadə Əli Qurbanoviçin yanında idim, o, ona xas gülümsəmə ilə məni qəbul etdi və hər şeyi bir-bir danışmağı təklif etdi. Hər şeyi danışandan sonra o BŞTŞ-nin baş mühəndisi Boris Nikolayeviç Boqdanoviçə zəng etdi və onunla hamısını həll etdilər.

Telefon danışığından sonra Əli Qurbanoviç dedi:

- Hər şey asandır. Oktyabr rayonu Telefon qovşağı rəisinin adına ərizə yazırsan. Sabir Məmmədoviç sənin kuratorun kimi və mən imza atırıq ki, etiraz etmirik. Sonra bu ərizəni Şahməmmədov Bəxtiyar Ələkbəroviçə - Rabitə nazirliyinin kadrlar şöbəsinin müdirinə verirsən və sən bu ərizə ilə Oktyabr rayonu Telefon qovşağının baş mühəndisi Böyükağa Vəlibəyovun yanına gedirsən, o isə işi tamamlayır.

Bir neçə gündən sonra, daha dəqiq 16.10.1969-cu ildə Rabitə nazirliyinin Bakı Poçt İdarəsinin İTL-nın 135 rubl maaşla böyük mühəndisi vəzifəsindən BŞTŞ-nin Oktyabr rayonu Telefon qovşağının ATS-2 stansiyalı sexin 65 rubl maaşla 3-cü dərəcəli rabitə montyoru vəzifəsinə keçməyim haqqında əmr imzalandı.

Nazirliyin apparatında hamı şokda idi, ancaq üç nəfər – Əlizadə Əli Qurbanoviç, Yusufov Sabir Məmmədoviç və Mişin Nikolay Stepanoviç buna sevinirdi, gənclər isə, əsasən də Azərbaycan SSR Rabitə nazirliyinin Şəhər və kənd rabitəsi idarəsində (*ŞKRİ*) hesab edirdilər ki, bu aşağı salınmadır, və yəqin ki, mənin nədəsə qəbahətim olub...

Bəli, bu addımı atdım, hətta baxmayaraq ki, atam maliyyəmə zərər baxımından narazı idi, amma atama söz verdim ki, il ərzində əldən buraxdığımın əvəzini çıxaracam.

ATS-2-yə keçərək, maddi durumum çətinləşdi, lakin bilirdim ki, bundan da keçmək lazımdır. Əsasən gecə növbəsində ağır idi, amma həmişə olduğu kimi Allah kömək etdi, növbəmin böyüyü Şennikova Valya xala çox xeyirxah və anlayışlı qadın idi.

O mənə izah etdi ki, BŞTŞ-də hər üç ayda stansiya işçilərinin dərəcəsinin artırılması üçün imtahan verirlər və ATS-2-nin mühəndisindən xahiş etdi ki, birinci imtahana məni daxil etsin.

Beləliklə nəinki üç növbədə işləməli, axşamları institutda oxumalı, həm də eyni zamanda ixtisasartırma imtahanlarını vermək üçün hazırlaşmalı oldum.

Beləcə addım-addım hər üç ayda ixtisasartırma imtahanlarını verirdim və Valya xala kimi ATS-2-nin baş texniki və növbə böyüyü oldum. Daha bir aydan sonra isə məni ATS-2-nin mühəndisinin köməkçisi vəzifəsinə keçirtdilər.

Sonra mühəndis bütün stansiyanı mənim məsuliyyətim altında qoyub, onun dediyi kimi, ilk dəfə məzuniyyətinə rahat getdi. Məzuniyyətdən qayıdanda onun kefinin pis olduğunu gördüm. Məlum oldu ki, o, mənim BŞTŞ Oktyabr rayonu Telefon qovşağının ATS-7-nin mühəndisi vəzifəsinə keçdiyimi öyrənmişdi [148].

Ertəsi gün BŞTŞ-nin baş mühəndisi Boris Nikolayeviç Boqdanoviç məni yanına çağırdı və dərhal:

- İşlərin necədir?

- Çox sağ olun, yaxşı.

- Denən görüm, bu il neçə dəfə ixtisasartırma imtahanı vermisən?

- Dörd dəfə.

- Yaxşı (*nəyisə imzalayır*).

- Nə olub, Boris Nikolayeviç?

- Heç nə. Sabah səhər ATS-7-ni qəbul edərsən, Metlickidən qurtulmaq lazımdır. Əla mütəxəssisdir, amma içkidən başı açılmır, orada intizam da axsayır. Sabah B.Vəlibəyov səni ATS-7-ə aparacaq, təhvil-təslimə. İntizamdan yapış, qalanlarını isə özün bilirsən. Biz sənə hər şeydə kömək edəcəyik.

Səhərisi gün saat doqquza mən və Böyükağa Vəlibəyov ATS-7-ə getdik, Metlickinin otağına daxil olduq.

Metlickiy yüksək ixtisaslı mütəxəssis, Rostovdan (*Telefon-tikinti ittifaqı*) gələn inşaatçı idi, ATS-7-nin bir ilidi ki, mühəndisi işləyirdi, amma bilmirdi intizam nədir, başlıcası isə səhərdən axşamadək içirdi.

İnsan kimi yumşaq, nəzakətli və sakit idi. Üçümüz mühəndisin stolu arxasına keçdik, B.Vəlibəyov mənim ATS-7-nin mühəndisi təyin olunmağım haqqında B.N.Boqdanoviç tərəfindən imzalanmış əmrin surətini ona verdi və soruşdu ki, onun təhvil-təslim aktının yoxlanılmasında iştirakı lazımdırmı? Metlickiy ilə razılaşdıq ki, özümüz aktı yazarıq, Vəlibəyovun adını daxil edərik və elə bu gün axşam akt Oktyabr rayonu Telefon qovşağının baş mühəndisi Böyükağa Vəlibəyovun masasında olacaq.

Deməliyəm ki, təhvil-təslim aktı ilə problem olmadı. Aktı B.Vəlibəyov da daxil olmaqla, beş nəfər imzaladı.

Artıq səhərisi gün hardasa 60-a yaxın işçisi olan ATS-7-ə mən rəhbərlik edirdim.

Amma elə ilk beş dəqiqədə mənə aydın oldu ki, niyə B.N.Boqdanoviç mənə intizam barədə xəbərdarlıq etmişdi.

Bax elə burda, ATS-2-də etdiyim kimi, öz intizamlılığım, gündəliyim və səhərlər (*saat səkkizdə*) gecə növbəsinin təhvil-təslimində şəxsi iştirakım mənə kömək oldu.

Və ilk çəkişmələr başlandı, intizama öyrəşməyən baş növbələr tərslik etməyə başladılar. Xəbərdarlıq etdim ki, kim növbəsini təhvil vermədən getsə, iş növbəsi saymayacam. Yaşlı növbələr geri addım atacağımı fikirləşərək, növbənin təhvil-təslimini səhər saat ona qədər uzatmağa başladılar. Lakin möhkəm dayanmışdım, qəbul edən tərəfin hər şeyi düzgün etdiyinə əmin olana qədər növbəni evə buraxmırdım. Bundan əlavə, növbəti növbədən, yəni bir həftədən sonra yalnız özüm tanıdığım nəzarətçilər qoyurdum.

Elə burda da çox şey açıldı, məlum oldu ki, gecə növbədə (*ATS-2-dən fərqli olaraq, harada ki, baş növbələr səhərədək yatmırdı və mühəndisin bütün zədə və nəzarətini araşdırırdı*), necə deyərlər, tam xaltura edilirdi.

Və başlandı: əvvəlcə təhvil-təslim jurnalına daxil edilməklə, şifahi, sonra isə yazılı (*Oktyabr r. Telefon qovşağına məlumat*) xəbərdarlıq etdim, növbəni aylıq mükafatdan məhrum etdim, sonra baş mühəndisə ATS-7-də yaşlı növbənin ixtisasdan məhrum edilmə məsələsinə baxılması haqqında məlumat yazdım və s.

Bir aydan sonra ATS-7-nin dörd baş növbəsindən ikisi işdən çıxanda böyük kimi məcbur oldum ki, gecə növbəsinə çıxım və gecə növbəsinin avadanlığının profilaktik yoxlanışını yerinə yetirim. Lakin ruhdan düşmədim, nəinki növbə briqadalarında, həm də tənzimedici sexlərdə, sənaye avadanlıqlarında, krossda, qidada, xətt montyorlarında və s. intizamı sərtləşdirdim.

ATS-7 stansiyası dağılmağa başladı, iş daha da çətinləşirdi, mənə yeni, köhnə rejimlə korlanmamış adamlar lazım idi və onları dəvət etməyə başladım.

İlk növbədə ATS-3-ün (*mərkəzi stansiya*) avtoriteti, krossun böyüyü Baxtiyev Saşa dayıya müraciət etdim.

Saşa dayı seçdiyi ixtisasa sədaqətdə etalon idi, yorulmaz zəhmətkeş və BŞTŞ-nin orta texniki dəstəsinin çox çalışqan, həm də hamının sevdiyi işçisi idi [148].

Saşa dayı (*Baxtiyev Abdul Mubidoviç*) 1920-ci ildə anadan olub. Əmək fəaliyyətinə 1939-cu ilin iyun ayında BŞTŞ-nin ATS-3-də montyor olaraq başlamış və bütün ömrü boyu burada işləmişdir.

Məhz buna görə, 1970-ci ildə ATS-7-ə (*sonra ATS-37*) baş mühəndis təyin olunduqdan sonra məsləhət üçün müraciət etdiyim ilk adam Saşa dayı idi.

O sakitcə məni dinlədi və dedi: "*Abdul narahat olma, əgər lazımdırsa, sənə köməyə ən yaxşı işçimizi göndərəcəm*".

Tezliklə həqiqətən sözünü yerinə yetirdi, ATS-3-dən ən yaxşı növbətçi, Saşa dayı kimi sadiq və yorulmaz böyük elektromexanik Xanbutayeva Mayanı ATS-7-ə keçirdi.

Söyləməliyəm ki, bu vaxtında kömək idi, demək olar ki, təkcə boğulurdum, ən əsası fiziki gücüm çatmırdı. Növbəti əhəmiyyətli addım stansiyanın statistikinin qovulması və onun yerinə bütün uçotu düzgün aparan qadının təyinatı oldu.

Üç aydan sonra məni BŞTŞ-ə çağırdılar, burada B.N.Boqdanoviç hamının qarşısında elan etdi:

- Bizə yeni mühəndis gəlib, nəinki savadlıdır, həm də yaxşı rəhbərdir, misal üçün, ATS-7-ə nə qədər kontrol zənglər etsəm, hər dəfə axır ki, düzgün cavab alıram: "*ATS-7, 8-ci, sizi eşidirəm*". Təşəkkür edirəm sənə, Abdul, bilirsən, ilk gündən Böyükağa Vəlibəyov sənə inanmışdı, iddia edirdi ki, sənə 3-4 ay lazımdır ki, ATS-7-ni qaydasına salasan. Sənə kömək lazımdır?

- Bəli, istəyirəm ki, BŞTŞ laboratoriyasının nəzarət qrupunu stansiyamızı yoxlamaq üçün göndərəsiniz.

İclas zalında oturanların hamı güldü. Heç nə anlamayıb, B.N.Boqdanoviçə baxdım. O isə gülümsəyərək:

- Abdul, bu o deməkdir ki, sənin qorxun yoxdur. Burada istənilən mühəndis nəzarət qrupundan söz düşəndə qorxuya düşür, sən isə onları dəvət edirsən. Amma mən başa düşürəm nə üçün bu lazımdır. Afərin, sənin qərarını təqdir edirəm.

Və dərhal Zeynalova Valentinaya göstəriş verdi ki, mənim ATS-7 stansiyamda həftəlik yoxlamanı təşkil etsin.

Stansiyada nəzarət qrupunun apardığı iş nəticəsində müəyyən olundu: köhnə tikinti səhvi (*3 qrupda*); sənaye avadanlıqlarında qüsurlar, krossda zəiflik. Yoxlama nəticəsində ilk dəfə ATS-7-nin bütün kollektivinin ümumi iclasını təşkil etdim. Keçmiş komsomol başçısı kimi, gəncləri həvəsləndirməyə başladım və onların çoxlarını ATS-7-nin komsomol-gənc Təmir Bürosunun yaradılması ideyasına yönəlttim.

İdeya, necə deyərlər, aşağılardan gəlirdi. ATS-7-nin kollektivinin ümumi iclasının qərarı stansiyanın komsomolçularının təşəbbüsünə tərəfdar çıxmaq idi.

Rəhbərliyi bu haqda xəbərdar etmək istədim, ona görə məlumatla birlikdə ATS-7-nin kollektivinin ümumi iclasının protokolunu Oktyabr rayonu Telefon qovşağının baş mühəndisi Böyükağa Vəlibəyova göndərdim.

O dərhal məni "*xalçaya*" çağırdı: Nə məsələdir? Sizdə orada nə baş verir?

Axşam Politexnik institutunun bir yerdə oxuduğumuz 1715r qrupunda tənəffüs zamanı təşəbbüsün mahiyyətini ətraflı izah etdim, yəni iş gənclərindir və pulsuzdur, yalnız şənbə və bazar günləridir.

Beləliklə şənbə və bazar günlərində **7-12-12** telefon nömrəsinə zənglərə **ATS-7**-nin Komsomol-Gənc Təmir Bürosunun növbətçiləri cavab verməyə başladı.

Amma, görünür, mən də bu qarışıqlıqda nəyisə qaçırtmışdım (*komsomolda iş təcrübəmə baxmayaraq*).

Və günlərin birində, şənbə günü stansiyamıza "*Azərbaycan gəncləri*" qəzetindən gəldilər.

Məlum oldu ki, onlar yeni təşəbbüs haqqında vətəndaşlardan eşidib, özləri zəng edib, sifariş veriblər, ATS-7-nin Komsomol-Gənc Təmir Bürosunun işini səliqəli yerinə yetirdiyindən əmin olublar. Dərhal B.Vəlibəyova zəng etdim ki, qonaqlarımız var. O könülsüz məsləhət gördü ki, ehtiyatlı olum.

Gəncləri otağıma yığdım və bu təşəbbüs barədə danışmalarına imkan verdim. Sonda əlavə etdim ki, təşəbbüs müvəqqətidir və gənclər abonentlərə çatışmazlıqların aradan qaldırılmasında kömək etmək istəyir.

Sonra jurnalistlər tənzimləyici sexə keçdilər, ən fəal qızımız Jana Kiselyovanın (*indi "Tahir" ərzaq dükanının satıcısıdır*) şəklini çəkdilər, suallar verdilər, stansiyada şəkillər çəkdilər və getdilər.

Bir həftədən sonra "*Azərbaycan gəncləri*" qəzetinin bir səhifəsində ATS-7-nin komsomolçularının təşəbbüsü və onun haqqında geniş məqalə dərc olunmuşdu (*2 aprel 1971-ci il*).

Bununla əlaqədar olaraq, məni axşam saat səkkizdə Azərbaycan SSR Rabitə nazirliyinə, birinci müavin Axundov Bahadur Mamedoviçin yanına çağırdılar.

Soruşdu ku, işlər necədir, bütün bunlar necə baş verdi, niyə nazirlik əvvəlcədən işdən xəbərdar deyil və s.

Sakitcə başa saldım ki, təşəbbüskarlar gənclərdir, məqsəd istirahət günləri abonentlərə onların şikayətlərinin təmin edilməsində müvəqqəti kömək göstərməkdir, gənclər növbəyə könüllü çıxır, ATS-7-nin ümumi iclasının qərarının surəti ilə birgə məlumatı Oktyabr rayonu Telefon qovşağına göndərərək, təşəbbüs barədə onları xəbərdar etmişdim. Qəzet isə, ona görə "*Azərbaycan gəncləri*" qəzetidir ki, orada gənclərdən yazsınlar.

Bir az söhbət edib, Bahadur Mamedoviç dedi: - Bəli, hamısını yaxşı izah etdin, amma yadında saxla, gələn dəfə nazirliyin xəbəri olmadan belə işlər görmə.

Mən isə sakitcə cavab verdim: - Gələn dəfə olmayacaq.

Amma sonra məlum oldu ki, bütün bizimkiləri Azərbaycan LKİGÜ MK-nə çağırıb, təşəbbüsə görə tərifləyiblər. Orada bu təşəbbüsü inkişaf etdirməyi və sonra bu cür Komsomol-Gənc Təmir Bürosundan Bakı Şəhər Telefon Şəbəkəsinin (*BŞTŞ*) digər telefon stansiyalarında da yaradılmasını təklif ediblər.

Bunların hamısını kuratorum, BŞTŞ-nin Oktyabr rayonu Telefon Qovşağının baş mühəndisi Böyükağa Vəlibəyov mənə danışdı, hansı ki, çox keçmədən Azərbaycan SSR Daxili işlər Nazirliyinin rabitə idarəsinə keçdi.

## ТЕЛЕФОННЫЙ АППАРАТ
(*1 февраля 1970 г.Баку*)

На столике высоком, чем обычный,
Лежит наш телефонный аппарат.
Но многие к нему так равнодушны,
Что забывают - ведь это автомат.

Порой мы просто его не замечаем,
Хотя проходим мимо много раз.
И хладнокровно те звонки встречаем,
Что назначают встречу в поздний час.

Но вдруг внезапно, кого-то вспоминая,
Бросаемся к нему, как старый друг
И нежно трубку его приподнимая,
Озираемся внимательно вокруг.

Пока мы в мыслях вспомним тот номер,
Что соединит здесь нас двоих.
Мы в трубке слышем тот зуммер,
Что разрешает набрать друзей своих.

А диск готов исполнить все желанья,
Крутиться так, как «*скажет*» память наш.
Он, нужных импульсов потоки разгоняя,
Поможет с другом совершит реванш.

И вот наш друг, как будто перед нами,
Спокойным тоном с нами говорит.
А так ведь не днями, а годами
И все равно наш телефон звонит!

Bilmirəm, “*bəzi yoldaşlar*” mənimlə nə edərdilər, lakin təşəbbüs duyulmuşdu, ən əsası, qəzetdəki məqalə kollektivimizi birləşdirdi, deməli güclü etdi.

İnsanlarda özlərinə inam yarandı, onlar əməklərinə qiymət verməyə başladılar, bir-birilərinə nöqsanlar baş verdikdə onların aradan qaldırılmasında fəal kömək etməyə başladılar.

Ən başlıcası isə axşam növbələrinin təhvil-təslimi artıq 15-20 dəqiqə ərzində gedirdi və artıq mənim deyil, avtozalın baş texniki tərəfindən qoyulan bütün nəzarətlər vaxtında üzə çıxırdı. ATS-7-də stansiyanın avtozalının dörd növbəsi arasında sağlam rəqabət yaranmışdı, tənzimləyicinin işçiləri təkrar zədələrə özləri cavab verməyə başladılar.

1971-ci ilin yayında diplom Layihəni müdafiə etdim və Oktyabr rayonu Telefon Qovşağının kadrlar şöbəsi Ç.İldırım ad. Azərbaycan Politexnik İnstitutunu bitirməyimlə əlaqədar, mənim ATS-37-nin artıq tamhüquqlu mühəndisi təyin edilməyim haqqında 26.10.1971-ci ildə əmr verdi. Bax beləcə, 2 natamam il ərzində, Allahın köməyilə, sıravi montyordan ATS-37-nin mühəndisinə qədər böyüyə bildim.

*"Təhsil biliklərin faydalı tətbiqinə yiyələnmək bacarığıdır"*
Alfred Nort Uaytxed (1861-1947)

## 2.8. Ali təhsil – yalnız yolun başlanğıcıdır.

Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun Elektrotexniki fakultəsində 1965-1971-ci təhsil illəri beləcə hiss edilmədən keçib getdi.

Bu illər mənim üçün nə ilə qiymətli idi? Məncə, məşğulluqla. Hətta, necə deyərlər, başımı qaşımağa vaxtım yox idi. Çox maraqlı idi, ən çox ayaqüstü oxumalı olurdum, necə deyərlər, qaçaraq.

Axşam şöbəsinin 1715-r nömrəli qrupumuz yaxşı qrup idi və 25 nəfər tələbədən ibarət idi ki, 20 nəfəri məktəbi bitirərkən tələbə olmuşdu.

Qrupda iki çox çalışqan qızlar vardı, böyük həvəslə oxuyurdular: Dərbənddən İsmayılova Sonya və Bakıdan Ağarzayeva Gülçöhrə (*həm də rəfiqə idilər*).

Qrupda məndən əl çəkməyən, Mərdəkandan Bagiryan Petya vardı, amma çox danışırdı. Həmişə məndən köçürdürdü, imtahanlarda ona kömək etməyimi istəyirdi, kurs işlərinin müdafiəsinə birlikdə getməyimiz üçün yalvarırdı və s. Təhsilin sonunda, institutu bitirdikdən sonra vinyetkanı (*bütün qrupun birlikdə şəkli*) təşkil edib, hamıya paylayanda Bagiryan Petya elə bil ürəkdən dedi: "*Bilirsən Abdul, sən həqiqətən əla oğlansan, amma heyf ki, türksən!*"

Oğlanlardan ən mədəni və mərifətlisi Zamçinskiy Borya idi, Azərbaycan Televiziyasının operatoru oldu, sonra Kiyevə köçdü (*Ukraynaya*).

Özündən ən razı (*üçü ancaq alırdı*) Saruxonyanc Artur idi. Hamıya nifrət edirdi. Yadımdadır, bir dəfə Bagiryandan soruşdum ki, o niyə belə pisdir, Petya cavab vermişdi ki, axı o əla sort ermənidir, soyadının axırına bax – yanc.

Qrupumuzda yaşca ən böyük Kolesnikov Nikolay idi – Bakı Teleqrafının qida şöbəsində mühəndis idi (*nədənsə məhz o demişdi*

*ki, Azərbaycanın Rabitə naziri olacam*), həmin 1991-ci illərdə Qazaxstana (*Alma-ata*) köçdü.

Qrupda qızlardan ən mehribanı Əzizova Rəna idi (*sonralar Bakı rabitə elektrotexnikumunda müəllimə oldu*).

Mamedov Vaqif çox yaxşı oğlan idi, xoşxasiyyət, zəhmətsevən, həmişə işlə məşgul idi, amma tez-tez dərslərdən qalırdı və təəssüf ki, AzPİ-də təhsilini bitirə bilmədi.

Məhz onun təklifi ilə ikinci kursda 1715-r qrupunun sinif nümayəndəsi oldum (*təhsili bitirənədək*), lakin onun AzPİ-dən kənarlaşdırılmasına mane ola bilmədim. Yarım illədək onun proqullarını ört-basdır etdim, imtahanlarını verməsində kömək etdim, müəllimlərdən xahiş edirdim ki, ona qovulmaması üçün üç qoysunlar, lakin onun başı işinə qarışmışdı, və işin öhdəsindən yaxşı gəlirdi, buna görə də karyerasında irəliləyirdi.

Bizim ixtisaslaşdırılmış kafedramızdakı müəllimlərdən, əlbəttə ki, "*Elektrik rabitə*" kafedrasının müdiri Rəhimov Qurban müəllimi qeyd etməliyəm. Təbiətcə çox zəkalı, intellektual adam idi, amma həyatını boşa xərcləyirdi. Akademik ola bilərdi, lakin hirsliliyi və kobudluğu çoxlarını ondan uzaqlaşdırırdı.

Ən hörmətli, sakit, xoşxasiyyət, müdrik və xət qurğuları üzrə ən yaxşı mütəxəssis Rzayev İslam müəllim (*istefada mayo*r) idi. Bununla yanaşı, kafedranın və fakültənin partiya komitəsinin katibi idi və ümumilikdə bütün "*Elektrik rabitə*" kafedrasının sevimlisi idi.

Onun kafedramızın bütün müəllim və tələbə heyəti ilə yaxşı münasibəti vardı. Kafedranın müəllimi olanda onun xatirəsi üçün oğlu Vaqif və qızı Laləyə (*Bakı teleqraf*) kömək etmək üçün əlimdən gələni əsirgəmirdim.

Kafedranın ən sevimlisi Svejenceva Svetlana idi – baş müəllimə, amma bütün kafedramızın ürəyi, tədris ustası – Abdullayeva Sara xanım olaraq qalırdı.

6 iyun 1971-ci ildə "*Şirvanım*" adlı şeri yazdım.

İnstitutu bitirəndən sonra çox yorğun idim və Oktyabr Telefon Qovşağının rəhbərliyindən xahiş etdim ki, məzuniyyətə çıxmağıma icazə versinlər, hətta mən axırıncı iki il ərzində təhsil məzuniyyətindən belə istifadə etmirdim.

**Abdul Şərifli**

## ŞİRVANIM

Deginən ey dostum bahar fəslində,
Şirvanın tacına cən baxmısanmı.
Onun gül ətirli çəmənligində,
Uzanıb xəyala heç dalmısanmı.

Söylə sən ağaçlar çiçək açarkən,
Onların ətrini sən duymusanmı.
Arı çiçəklərdən şirə çəkərkən,
Şirin söhbətindən məst olmusanmı.

Deginən səhərlər günəş doganda,
Göyçay sahilində sən gəzmisənmi.
Gözünü o mavi suya tikəndə,
Özünü gağayı hiss etmisənmi.

Danış sən burada günəş coşanda,
Onun şuasından sən yanmısanmı.
Bu yerdə aramsız isti qopanda,
Çinar kölgəsində dincəlmisənmi.

Söylə sən Şirvanda sümbül dəyməmiş,
Onları saç kimi hörümüsənmi.
Sonrada onları tam bişirməmiş,
Bu sütlü ləzzətdən sən doymusanmı.

Deginən Şirvanın nar çiçəyini,
Al rəngli laləyə oxşatmısanmı.
Ondan dəyirman düzəltdiyini
Sonralar yadına heç salmısanmı.

Bilginən ey dostum əgər heç zaman,
Bu həyat anını duymamısansa.
Eyb etməz qonaq gəl gözəl məkana,
Şivanda hər möhsüm ğəzib doyarsan.

1971-ci ilin sentyabrında çoxdan gözlədiyim məzuniyyətimi aldım, M.A.Bonç-Bruyeviç adına Leninqrad Elektrotexniki Rabitə İnstitutu (*LERİ*) ilə tanış olmaq üçün Leninqrada uçmağa qərar verdim. Səfərin məqsədi – yeni arzuma çatmaq üçün – aspiranturaya qəbul olmaq üçün elmi rəhbər tampaq idi.

Özüm bu məqsədi qarşıma qoymuşdum və ailəmdə heç kimin aspiranturaya qəbul planlarımdan xəbəri yox idi. Hətta tədqiqatlarımın mövzusunu əvvəlcədən bilirdim: "*Telefon yüklənmələri (trafikin) parametrlərinin tədqiq edilməsi ilə müasir şəhər telefonları şəbəkəsinin layihələndirilməsi*".

Aspiranturanın gündüz şöbəsinə qəbul olmağı arzulayırdım, çünki Bakıda qayğısız tələbəlik həyatı yaşamadım, ona görə də Leninqradda bunu hiss etmək istəyirdim (*doğrudur, daha yüksək, aspirantura səviyyəsində*).

Bakı-Leninqrad-Bakı təyyarəsinə bilet aldım və Leninqrad ŞTŞ-dən olan qonağımızın (*Əliyeva Lili xanım*) köməyilə bir həftəlik qalmağa yer tapdım.

Əlbəttə, Leninqrad məni ilk dəqiqədən heyran etdi və bu gün əminliklə deyə bilərəm ki, əgər bu həftəlik ezamiyyət olmasaydı, LERİ-nin aspiranturasına qəbul olmaqa nə gücüm nə də istəyim çatmazdı.

Ertəsi gün artıq LERİ-nin iqtisadiyyat kafedrasında idim, İqtisadiyyat kafedrasının müdiri M.Kozlov ilə tanış oldum, onunla yarımsaatlıq söhbət zamanı işləmək istədiyim elmi istiqaməti ətraflı izah etdim, o dedi:

- Bilirsiniz, Abdul, sizin mövzunuz iqtisadiyyatla texnikanın birləşdiyi yerdədir. Bu cür mövzu üzrə üç il bundan əvvəl kafedramıza Sterlin Elza İzrailevnanı götürmüşük. Texniki elmlər namizədi, dosentdir, ŞTŞ-də itkilər məsələsi ilə məşğul olur, ən əsası, Leninqrad Rabitə Elmi Tədqiqat İnstitutunun (*LRETİ*) elm üzrə müdir müavini məşhur Boris Samoyloviç Livşicin şagirdidir.

Telefon dəstəyini götürdü, onun evinə zəng vurdu və sabah gündüz saat birdə kafedrada görüşməyimiz barədə sözləşdi.

Növbəti gün düz saat birdə İqtisadiyyat kafedrasının qarşısında dayanmışdım və bu xanımı gözləyirdim.

Elza İzrailevna düz birdə gəldi, salamlaşdı, uzunboğaz çəkmələrini tuflilərə dəyişdi və çəkinmədən ac olduğunu dedi və bufetə gedib nəsə yeməyi təklif etdi (*elə bil çoxdan tanışıq*).

Mən məmnuniyyətlə razılaşdım, axı onsuz da hələlik mənə tanış olmayan du şəhərdə bunu etməli idim. Dördüncü mərtəbədən ikinciyə endik və Leninqradda qəbul olunduğu kimi, növbə tutub, istəyimizlə birinci yeməyin yarısını və qulyaş götürdük.

Yarım saatdan sonra iqtisadiyyat kafedrasına qayıtdıq və çox uzun, təxminən dörd saat ərzində iki məsələni müzakirə etdik – qarşıdakı işin mövzusunu necə xülasə etmək və aspiranturaya qəbul yerinə necə nail olmaq.

Birincisi, Elza İzrailevna o dəqiqə Bakıdan Həsənov Alşanı tanıdığımı soruşdu. Duruxdum və elə də yox, dedim.

İkincisi, əvvəlcə qiyabi aspiranturaya qəbul olmağı, sonra əyani şöbəyə keçməyi məsləhət gördü. Azərbaycan Rabitə nazirliyi ilə əlaqə saxlayıb, oradan LERİ-də özüm üçün yer ayrılması haqqında İttifaqın Rabitə Nazirliyinin Kadrlar İdarəsinə mənim adıma məktub göndərilməsini təşkil etməyi tövsiyə etdi.

Üçüncüsü, Bakıda fəlsəfədən namizədlik minimumunun qabaqcadan verilməsinin vacibliyini ətraflı izah etdi. Əmin etdi ki, bununla demək olar ki, bir illik təhsildə qabağa düşərəm və güc və əsəblərimi qoruyaram.

Sonra biləndə ki, tarixi sevirəm və onu burada, LERİ-də sakitcə verə bilərəm, dedi ki, bu qəbul imtahanları üçün yaxşı başlanğıcdır, çünki birinci imtahan məhz SSRİ tarixindəndir və komissiya tərəfindən nəzərə alınır.

Axırda Həsənov Alşan vasitəsilə Boris Samoyloviç Livşicə çıxmağı məsləhət gördü, çünki belə yüksək səviyyəli alimin dissertasiyaya elmi rəhbərliyi vaxtında və müvəffəqiyyətli müdafiəni təmin edəcək.

"*Abdul yadında saxla,* - o dedi*, əgər indi sənə yalandan – elmi rəhbərin olaram – desəm, onda illərlə həmin B.S.Livşicdən xahiş etməliyəm ki, sənin müdafiəni təmin etsin. Sən mənim xoşuma*

*gəlirsən və səninlə düzgün olacam, səni Alşan vasitəsilə hərəkət etmək üçün istiqamətləndirirəm, o zaman lazım olan rəhbərə çıxacaqsan və bütün məsələlərin özün heç kimsiz həll olacaq*".

Elza İzrailevna ilə mehriban dostlar kimi ayrıldıq və aspiranturada təhsil illərində bayramlarda bu kafedraya mütləq gedirdim ki, ona təşəkkürümü bildirim.

Lakin Leninqraddan dönərkən, Bakıda ilk öyrəndiyim – institutun axşam şöbəsinin keçmiş tələbəsi kimi məni Sovet Ordusu sıralarına çağırıldığım oldu.

Bir il xidmət etməyi qərara aldım ki, sonra məni belə cavan və sağlam ikən vətənə xidmət etməməkdə qınamasınlar. Baxmayaraq ki, Rabitə nazirliyinin bronundan istifadə edərək, orduda xidmətdən azad ola bilərdim, bunu alçaqlıq hesab etdim, həm də Şixəli Qurbanovu unutmurdum.

Orduya çağırılmamışdan əvvəl dayım Allahverdini xalası qızı Şükufə xala ilə birlikdə Yessentukiyə müalicəyə yola salmalı oldum. Qayıdandan bir gün sonra orduya göndərilmək üçün Biləcəri qəsəbəsinə getdim.

Azərbaycanın Hərbi Komissarlığında xidmət keçmək üçün general-mayor Quliyev məni Bakıda saxlamağa dair söz vermişdi, lakin adətən olduğu kimi, məhz bu gün o xəstələndi və Biləcəridə bölgü məntəqəsinə gəlmədi.

Beləliklə, məni Nasosnı qəsəbəsinə, oradan da qatarla Radiotexniki Batareyanın (*RTB*) Naxçıvan alayına göndərdilər.

Orada bizi ayrıca vzvoda topladılar. Vzvodun starşinası (*çox ədəbli cavan oğlan*) məni yaşlı görüb, yaxınlaşdı və dedi: "*Artıq yaşlısınız, 25 yaşınız var, sizə komandirlik etmək mənim üçün ayıbdır, əziyyət olmasın deyə, gəlin bütün bu ayı növbətçi olun*". O həmdə əlavə etdi ki, o Sov.İKP-nin sıralarına daxil olmaq istəyir, münkünsə mən ona partiyadənın nizamnaməsini öyrədim.

Lakin bir dəfə o vzvodun bütün uşaqlarını özü ilə götürüb apararkən, mən peçin yanında tək oturmuşdum. Bu vaöt, digər vzvoddan bir nəfər bura soxulub, boynumun ardından yapışıb məni o biri qonşu otağa sürüklədi.

Mən əvvəlcə müqavimət göstərmədim ki, dalaşmayaq, lakin onunla otağa girəndə diz çöküb ağlayan bir oğlan uşağını gördüm.

Onda başa düşdüm ki, bu dembellərin mərasimidir, beləliklə çağırışçıların üzərində onlara fiziki işkəncə verərək, "əylənirdilər".

Bunu başa düşüb, birdən döndüm ki, otaqdan çıxım, amma yuxarı koykada uzanan uşaqlardan biri üzərimə tullanıb iki barmağımı sıxdı.

İkinci dəfə dartındım və avtomatik olaraq, qoburdan vzvodumuzun starşinasının mənə verdiyi süngü-bıçağı çıxardım və elə çəkdim ki, ülgücü çarpayıya dəyərək, qırmızı qığılcım çıxardı, o dembel isə anlaşılmaz şəkildə geriyə çəkildi ki yaralanmasın.

Nə baş verdiyini axıra qədər başa düşmədim, növbətçi yerinə döndüm və yalnız onda gördüm ki, çeçələ barmağımın yanındakı dördüncü baarmağım digərlərinə perpendikulyar dayanıb.

Bu zaman bizim qayıdan çağırışçıların səsini eşitdim.

Başa düşdüm ki, barmağım çıxıb, bütün gücümü toplayıb, barmağımı yerinə saldım və deyəsən buna görə huşumu itirdim.

Bir dəqiqədən sonra starşinanın səsini eşitdim, çox həyəcanlı məndən baş verənləri təfərrüatı ilə soruşurdu.

Starşinaya baş verənləri ətraflı danışdım. O otaqdan çıxdı. Beş dəqiqədən sonra həmin uşaqları çağırıb nəsə dedi, lakin sonra nə edəcəyini bilməyərək, geri döndü.

Başa düşdüm ki, həqiqət vaxtı gəlib çatıb. İndi ya da heç vaxt və xahiş etdim ki, starşina alayın siyasi işlər üzrə müavinin kabinetini mənə göstərsin. O məni hissənin siyasi müavini hansısa mayor yazılan qapıya qədər apardı, starşinadan vzvoda getməyini xahiş etdim.

Özümü topladım, partiya biletimi sağ əlimə, SSRİ-nin nizamnaməsini sol əlimə götürüb, qapını döydüm, "*gəlin*" – eşitdim, iri otağa girdim.

Mayor uzun masanın sonunda oturmuşdu və görünür, məni axıradək görməmiş, bütün gücümlə ona bağırdım.

"*Siz, sizin ananızı, burda oturmusunuz, şalvarınızı sürtüb yırtırsınız, hansısa nadan, savadsız alkaş isə Sovet ordusunun hərbi hissəsində sərxoş olub, Kommunist Partiyasını, bizim Sov.İKP-ni*

*təhqir edərək, özünü zorba sayıb, Sov.İKP-nin üzvünü diz çökdürərək, əlini və barmaqlarını sındırır.*

*İndi Aleksey Alekseyeviç Yepişevə teleqram göndərəcəm ki, bu hərbi hissədə nələr baş verir, hissənin komandiri hardadır, niyə bütün alayda siyasi iş getmir və ümumiyyətlə, siz burada nə ilə məşğul olursunuz, sizin ananızı!*".

Qısa, lakin çox emosional nitqimi bitirərək, sağ əlimlə partiya biletimi masaya elə atdım ki, düz mayorun yanına düşdü.

O hələ özünə gəlməmiş, sol əlimlə partiyanın nizamnaməsini qaldırdım və daha çox bağıraraq: "*Məgər Sov.İKP-nin Nizamnaməsi sizə bunları öyrədir, yoldaş mayor, düşünürəm ki, əgər siz yox, onda yoldaş Yepişev A.A. bütün bunları ayırd edər*".

Və birdən çevrilib, siyasi işlər üzrə müavinin kabinetindən cəld girdiyim kimi cəld də çıxdım.

O yazıq heç ağzını aça bilmədi və əlində partiya biletimlə kabinetində qaldı.

Mən Yepişev Aleksey Alekseyeviç haqqında hələ Bakının Oktyabr rayonu çağırış məntəqəsində oxumuşam. Yadımdadır ki, 1962-ci ilin yazında A.A.Yepişevi Sovet Ordusunun və Hərbi-Dəniz Donanmasının Baş siyasi idarəsinin rəisi vəzifəsinə təyin ediblər.

Hesab edilir ki, onun Silahlı Qüvvələrin Sov.İKP rəhbərlərinin maraqlarına tamamilə tabe olmasında müstəsna rolu olmuşdur. Orduda tam hakimiyyəti vardı, belə ki, hətta SSRİ-nin Müdafiə nazirinə də tabe deyildi (*Qızıl Ordunun Baş Siyasi İdarəsi eyni zamanda həm də Sov.İKP MK-nın şöbəsi idi və burada bütün təyinatlar yalnız Sov.İKP MK xətti ilə həyata keçirilirdi*).

Artıq yarım dəqiqədən sonra çarpayımda uzanmışdım.

Starşina rəngi qaçmış halda bilmirdi ki, nə desin və ümumiyyətlə, nə etsin. Ona dönərək, dedim:

- Əgər sizdən nəsə soruşsalar, olduğu kimi deyin. Gördüm ki, yaşlıdır, partiyalıdır, yazığım gəldi və onu növbətçi saxladım.

Starşina başını endirdi və dedi ki, bu həqiqətən belədir.

Beş dəqiqədən sonra alayda hamı tərpəndi.

Əvvəlcə bizim cavan starşınanı çağırdılar, sonra alaya həyəcan siqnalı verdilər və hamını istisnasız olaraq, meydana çıxardılar.

Hissəmizin siyasi müavini komanda edirdi. Hamısını başa düşmürdüm, amma sonradan mən olanları sanki vətən müharibəsi filmlərimizdən kadrları yada salırdı.

Siyasi müavin alayın rotalar, vzvodlar, manqalar və s. üzrə düzlənməsini ucadan əmr etdi.

Bu zaman alayın komandiri gəldi, o siyasi müavindən cavan, amma bizim ukraynalı starşina kimi möhkəm və hündür idi.

Siyasi müavin, - Alay, farağat! Ortaya düzlən!

Möhkəm addımlarla alayın komandirinə yaxınlaşdı, ucadan və aydın dedi:

- Yoldaş polkovnik, alayımız baş verən fövqəladə hala görə tam düzlənmişdir, hissənin siyasi müavini, mayor .....!

Alayın komandiri raportu qəbul etdi və qışqırdı – Azad!

Bax bundan sonra heç bir filmdə heç vaxt görmədiyim şeylər baş verdi.

İki dəqiqə ərzində o susməz bütün alaya göydəki qartal kimi göz gəzdirdi. Birdən qışqırdı:

- Sizin ananızı, nəyə gəlib çıxıb, hansısa burnufırtıqlı uşaqlar özlərini adam hesab edir. Özlərini ağa hesab edirlər, qabiliyyətsizlər, kimə əl qaldırırsınız, əclaflar, partiyaya, ali texniki savadlı adama, iri müəssisə rəhbərinə, yüksək səviyyəli mütəxəssisə.....!

Mənə elə gəldi ki, həddimi keçmişəm və buna görə bir təhər oldum. O isə ucadan çağırışçıya bağırdı:

- Sənin ananı, çağırışçı hələ and içməyib, özü də kommunistdir, ona isə əl qaldırılır!

Sonra hansı sa kapitanın, baş leytenantın və starşinanın adlarını çəkdi, alayın bayrağını meydana çıxarmağı əmr etdi. Bu üç nəfər sıralarından çıxıb, möhkəm addımlarla alayın digər binasına getdilər.

Bir neçə dəqiqədən sonra onlar alayın bayrağı ilə gəldilər və komandir onlara əmr verdi: - Alay, bayrağın gətirilməsinə farağat!

Sonra alayın komandiri daha bərkdən bağırdı:

- Baş leytenant ..., starşina ..., baş serjant ..., Sovet Ordusunun bu qanun pozanlarının (*sizin ananızı, - əlavə etdi*) hər üçünü intizam batalyonuna! Silaha düzlən!

Bu üç nəfər sıra ilə çıxdılar və bir neçə dəqiqədən sonra belində Makarov pistoleti ilə zabit, digər ikisi isə əlində Kalaşnikovla marşla polkovnikə yaxınlaşdılar.

Nəhayət, müavin əlində siyahı ilə əmr etdi:

- Yefreytor filankəs (*sizin ananınızı*), kiçik serjant filankəs (*sizin ananınızı*), serjant filankəs (*sizin ananınızı*) sıradan çıxın!

O üç nəfər, hansılar ki, bir neçə saat əvvəl özlərini ağa sayırdılar (*döyülmüş itlər kimi*) dəqiq addımlarla meydanın ortasına addımladılar. Bax onda (*bədii filmlərdə olduğu kimi*) siyasi müavin daha çox söyərək, hər üçünün çiyinlərindən paqonlarını çıxarmağa başladı.

Meydana sükut çökmüşdü. Uşaqlara yazığım gəldi.

Yenidən əmr:

- Baş leytenant ..., götürün, hər üçünü Naxçıvan hərbi dairəsinin intizam batalyonuna təslim edin və qayıdın!

Uşaqların hər üçünü hissədən çıxardılar. Elə gəlirdi ki, bununla bitdi, ancaq yox. Birdən siyasi müavin ucadan əmr etdi:

- Çağırışçı, Qəhrəmanov Abdul, sıradan çıx!

İstəmədən, amma sakit addımlarla meydanın ortasına çıxdım.

- *Yoldaş kommunist Qəhrəmanov, alayımızın rəhbərliyi və hamıdan əvvəl şəxsən mən, hissənin siyasi müavini kimi baş verən hadisəyə görə üzr istəyirəm. Sizi əmin etmək istəyirəm ki, hissəmizdə baş verən hadisə bizim şanlı Sovet Ordusu üçün xarakterik deyil və bu fərsizlər öz cəzalarını layiqincə alacaqlar. Bağışlayın və zəhmət olmasa, sıraya durun! Alay, azad, dağılın!*

Hamı sakitcə, dəfndəki kimi, baraklarına dağılışdı. Məncə, ən sakit bizin vzvod idi. Starşina elə bil dəfn mərasimində idi. Hardasa on dəqiqə keçdi, baş leytenantımız gəldi, mənə sakitcə dedi ki, alayın komandiri hər ikimizi yanına çağırır.

Qalxdım, hərbi formamı düzəltdim və birlikdə alayın komandirinin yanına getdik ki, orada ondan başqa siyasi müavin də

vardı. Onlar yoldaşcasına mənə yaxınlaşdılar, əl verdilər, ordan-burdan danışmağa, prinsipiallığa və s. görə təriflməyə başladılar. İyirmi dəqiqədən sonra dağılışdıq.

Üç gün keçdi, indi starşına bir addım belə məndən uzaqlaşmırdı, ancaq çağırışçıları hissədən harasa işləməyə göndərəndə məni barakda növbətçi saxlayırdı. Və bir dəfə, dekabrın ortasında günəşli isti gün idi, təxminən səhər saat onda, gördüm iki zabit aralarında danışaraq və gülərək, düz mənə tərəf gəlirlər.

Başa düşdüm ki, onlardan biri alayımızın komandiri, ikincisi boyca balaca, mayor rütbəsində idi, siyasi müavinə oxşamırdı.

Bu ikisinin diqqətini cəlb etməmək üçün barakımızın girişi önündən müxtəlif yarpaqları süpürməyə başladım.

Birdən mayor əlini gözlərinə qaldırdı (*görünür günəş onun mənim tərəfə baxmağına mane olurdu*), ciddiləşdi və təəccüblə səsləndi, - *Abdul, bu sənsən?*

Səsi tanış gəldi və mən də günəşdən gözlərimi əlimlə qorudum ki, mayoru görüm. O isə ucadan:

- Bu sənsən Abdul!

Tanıdım, bu Volodya Məliksətov idi, bizim potokda, AzPİ-nin 2725-r nömrəli paralel qrupunda oxuyurdu.

O bir neçə addım edib, məni qucaqladı və dedi: - Qulaq as, bəs general Quliyev deyirdi ki, səni Bakı Təmir-Texniki Bazasına təyin edib, bəs Salyan kazarmalarındasan.

Sonra hissəmizin komandirinə dönüb, dedi:

- Biz Abdulla bir potokda oxumuşuq, əlaçı və qrupunun sinif nümayəndəsi idi. Bax a, səndədi.

Alayın komandirinin halı pisləşdi, belə ki, V.Məliksətov 4-cü Ordunun nəzarətçi inspektoru funksiyalarını yerinə yetirirdi.

Məliksətov isə görünür, başa düşdü ki, burada yanlış bir şey var və alayın komandirindən soruşdu: - Nəsə baş verib, nə işdir?

Alayın komandiri bilmədi nə cavab versin, qızardı, düşündüm ki, onu qurtarım və dedim:

- Volodya, həmişəki kimi hamıya təzyiq edirsən. Axı nə baş verə bilər? Hər şey qaydasındadır.

Gördüm yazıq komandir yüngülləşdi.

Volodya məni qolunun altına alıb, kənara çəkdi, polkovnikə isə dedi: - Sən qayıt, mən Abdulla söhbət edəcəm.

Məlum oldu ki, o həmin üç nəfərə görə təcili gəlib və hələ bilmirdi ki, bunların hamısı mənimlə baş verib, biləndə isə qəzəblə dedi: - Mən onları basdıracam! ...

Mən onu dayandırdım, bu barədə unutmağını, hissənin komandirinə rəhm etməsini və məni Bakıya keçməyimə kömək etməyini rica etdim.

- Abdul, yəni doğrudan da sən onları bağışlayacaqsan?

- Əlbəttə, sən isə məni tez keçirt Salyan kazarmalarına, getməmişdən əvvəl onların əfvi haqqında xahişimi öz əlimlə yazacam. Onsuz da artıqlaması ilə cəzalandılar və mənə elə gəlir ki, bu hissədə hələ on il belə şey təkrarlanmaz. Bu isə ən vacibdir.

- Qulaq as, əslində sən hissənin komandirini qurtardın. Axı o da cəzasını almalıdı, belə isə, gözlərimi yumacam və hamı üçün yaxşı olacaq. Sonra əlini əlinə sürtərək, söz atdı:

- Qulaq as, bunu qeyd etmək lazımdır!

Və o an təəssüflə xatırladı ki, mən içən deyiləm.

Beləliklə Salyan kazarmalarına Bakı Təmir-Texniki Bazasına (*TTB*) keçdim. Mənə daha sonralar dedilər ki, uşaqları hissədən hamıdan sonra təxris etdilər ki, qalanlarına dərs olsun.

Orduda xidmət digər hadisə ilə də yadımda qaldı.

Sentyabrda, ordudan buraxılmamışdan iki ay əvvəl Bakı yaxınlığında Bakı-Şamaxı yolunda yerləşən “*Üç təpə*” rayonunda keçirilən 4-cü Ordunun hərbi təlimlərində oldum.

Həyəcan üzrə kolonna ilə çıxdıq, bütün bizim TTB hardasa saatda 30-40 km sürətlə marş edərək çıxdı və axşama Ordunun ştabı yaxınlığında təlimin başlamasını gözləmək üçün yerləşdik.

Bir saat keçmədi hava elə pozuldu ki, “*Üç təpə*” rayonu Sibirə çevrildi: qar yağdı, çovğun başladı və tezliklə ekstremal şəraitdə qaldıq. Bu pis şəraitdə hərbi təlimlər başladı. Təfsilatına varmaq istəmirəm, amma demək olar ki, bir saatdan sonra hər şey müharibədəki kimi görünürdü. Hərbi təlimlərə nəinki bizim TTB hissəsi, həm də 4-cü Ordunun bir çox hissələri cəlb olunmuşdu.

Bu Ordunun təlimlərinin həmişə burada keçirilməsi, rabitənin bütün infrastrukturunun praktiki olaraq etibarlı və stabil olması təsəlli oldu. Yeganə onu etməli oldum ki, Ordunun komanda məntəqəsindən bizim TTB komandirinə, podpolkovnik Volodya Arşinova rabitə naqili uzatdım.

Təxminən üç saatdan sonra təlimlər dayandırıldı və biz kecələmək üçün yer axtarmağa başladıq. Bizi başa saldılar ki, çoxlu stol və stulları olan qonşu qazmada yerləşə bilərik.

Bir otağa girdik (*düzdür işıqsız idi*), əlimizlə axtara-axtara bir böyük stol tapdıq və şinellərimizə sarılıb, yorğunluqdan yatdıq.

Ancaq səhər tezdən soyuqdan oyandıqda gördük ki, iri bir stolda yatmışıq, stol da dəmirdəndir və bu səbəbdən də güclü soyuqlamışdıq. Küçəyə çıxaraq, qarla yuyunduq və Ordunun komanda məntəqəsinə getmək istəyirdik ki, gördük bizə sarı QAZ-69-da hissəmizin komandiri V.Arşinov gəlir.

O xizəkli-tırtıllı avtomobildən düşüb, bizə yaxınlaşdı, salamlaşdı və mənə dedi:

- Abdul, sizin evdə nəsə baş verib. Görünür, sənin anan ölüm ayağındadı, Göyçaydan sizin hərbi komissarlığın möhürü ilə təsdiqlənmiş teleqram aldım. Bu barədə 4-cü Ordunun Komandanlığına məlumat verdim, mənim maşınıma otur, səni Bakıya bizim hissəmizə aparacam və sənə növbədən kənar 5 günlük məzuniyyət yazacam.

İki saatdan sonra Arşinov mənə 5 günlük məzuniyyət yazdı, və bir neçə saatdan sonra isə mən Göyçaya avtobusla gedirdim.

Bütün yolu soyuqdan və aclıqdan titrəyirdim (*demək olar ki, iki gündür yemirdim*) və fikirləşirdim ki, sağlam anama nə olub?

Göyçaya Karl Marks küçəsi, № 7-də yerləşən evimə daxil olarkən, həyətdəki səssizliyə təəccübləndim, evə qalxdım, orada isə anam pilətədə yemək bişirirdi. Təəccüblə ondan soruşdum:

- Ana, nə olub?

- Bilirsən Abdul, sənin Zəhra anan (*yəni bütün uşaqlıq illərimdə məni böyüdən bibim*) ölüm ayağındadı, atan ona görə bu teleqramı göndərdi, üç gündür ki, o bu dünyadan getmir, elə səni çağırır. Gəl nəsə ye və birlikdə onun yanına gedək.

Yeməkdən imtina etdim, ikimiz küçəyə çıxdıq və elə Zəhra ananın yaşadığı bu küçədəki qonşu evə, № 3, daxil olduq.

Həyət izdihamlı idi, hamı çox pis halda idi. Mən və anam ikinci mərtəbəyə qalxdıq və eyvandan Zəhra ananın yatdığı otağa keçdim. Qeyri-ixtiyari, uşaqlıq illərindəki kimi onun üstünə atıldım, qucaqladım və öpdüm, o gözlərini açdı, arıq əli ilə məni qucaqladı və dedi:

- Hə, balamı gördüm.

Ağladım, o isə:

- Ağlama, hər şey yaxşıdı, əsas odur ki, görüşə bildik.

Adət üzrə soruşdum:

- Necəsiz Zəhra ana? Zəifləmisiz.

O isə gülümsəyərək:

- İndi hər şey yaxşıdır, ancaq xahiş edirəm, eyvana çıx.

O uşaqlıq illərindəki kimi etiraz etmədən, sözsüz qalxdım, dikəldim və otaqdan çıxmaq üçün bir neçə addım atdım. Amma çıxmağa imkan tapmamış, arxamca anamın və Zəhra ananın ətrafında oturan qadınların çığırtısı eşidildi. Ağlamaq səsləri bürüdü.

Zəhra ananın başı yanında oturan və dayanmadan Quran oxuyan yaşlı qadın (*Mömünə xala*) ucadan dedi:

- Necə xoşbəxtdir, deməli, bütün bu üç gün ərzində Abdulu gözləyirmiş. Allah ona Rəhmət etsin!

Çevrildim və utanmadan ucadan ağladım. Zəhra ananın qızı Mahiyə bibi olan otağa Zəhra ananın oğlu Oqtay da yüyürüb gəldi. Hamı acı-acı ağlayırdı. Qonşumuz Sura xala mənə yaxınlaşdı, qucaqladı və dedi:

- Hə, oğlum, səni çox sevirdi və bütün bu üç günü səni gözləyirdi, məhəbbətə bax. Allah Zəhrəya rəhbət etsin, sənjn tərbiyəndə onun böyük əməyi olub. Məni bütün camaatın Zəhra anam üçün aqlayaraq dayandığı eyvana çıxartdılar.

Zəhra ananın istəyi ilə onu 1957-ci ilin Macarıstan hadisələrində iştirak edən, Göyçayda evində meningitdən vəfat edən oğlu Məsrulun yanında basdırdılar.

Bəli, biz bu həyatda qonağıq və nə vaxt gələcəyik, nə vaxt gedəcəyik – böyük sirrdir.

Özünün üç uşağından başqa məni də böyütməyə güc və məhəbbət tapan bu çox yaxşı qadın qoy əbədi rahat yatsın. Allah Zəhra anaya Rəhmət etsin!

Orduda axırıncı iki ay Marksizm-Leninizm Universitetinin Fəlsəfə bölməsində təhsilimin birinci ilində imtahanları vermək (*həftədə iki dəfə*) çətinlikləri ilə yadda qaldı. Məhz Bakıda TTB-də orduya xidmətə görə, Marksizm-Leninizm Universitetində rahat oxuya bilirdim, bu da namizədlik minimumlarını vermək üçün yaxşı kömək idi. Bir ildən sonra, 1972-ci ilin noyabr ayının sonunda ordudan buraxıldım. Lakin qarşıda yeni məqsədlər dayanırdı: işə düzəlməli idim, sonra əsas məsələni – LERİ-də aspiranturaya necə daxil olmağı həll etməliydim.

Lakin necə deyərlər, biz yaradanımızın idarə etdiyi adi insanlarıq və necə oldusa, mən 26 Bakı komissarları adına bağın yanından keçərkən, təsədüfən Azərbaycan SSR Rabitə nazirliyinin texniki şöbəsinin işçisi İsmayılova (*Rəsulova*) Elmira Mahmudovna ilə rastlaşdım.

İş burasındadır ki, o da AzPİ ETF-nin axşam şöbəsini məndən bir il əvvəl bitirib və məni rəfiqələri Ağarzayev bacılarına görə yaxşı tanıyırdı. O mənə məsləhət gördü ki, Azərbaycan SSR Rabitə nazirliyinin texniki şöbəsinin müdiri, çox savadlı və ünsiyyətli Hacıyev Yuriy Nuğayeviçlə söhbət edim.

Elmira xanım iş telefonunu verdi ki, ona bir gün sonra zəng edim, bu günlərdə isə o məni öz müdirinə təqdim etməli idi.

Bir gün sonra, iş günü başlayarkən, Elmira Mahmudovnaya zəng etdim və o dedi ki, nahara qədər Rabitə nazirliyinə texniki şöbənin müdiri ilə görüşmək üçün buraya gəlim.

Bir saat söhbətdən və nazir müavini Axundov Bahadur Məmmədoviç ilə görüşdən sonra ikinci dəfə Rabitə nazirliyinin aparatına, baxmayaraq ki, adım ştatda "*Azərrabitəlayihə*" – layihə bürosunda gedirdi, mən texniki şöbənin işə götürüldüm.

*"İnsan sevdiyi işi daha yaxşı edər"*
Yapon atalar sözü

## 2.9. Telekommunikasiyanı niyə sevdim.

Görünür Tanrının hikməti ondadır ki, insanı yaradarkən onun mənəvi qidasını da unutmayıb, və informasiya bəşəriyyətin inkişaf səviyyəsindən (*həmçinin sosial formasiyadan*) asılı olaraq, müxtəlif cür verilir və qəbul edilir [4-24,117,139,143,150,157-260].

Ona görə də telekommunikasiyanın XXI əsrin başlanğıcındakı nailiyyətlərini "*fantastika*" hesab etməliyik [4-260].

Bu gün telekommunikasiya sivilizasiyamızın "*texnosfer*" lərindən biri kimi, müasir elmin həyatımıza daxil olan üç əsas komponentini özündə birləşdirir: telekommunikasiya, telemetriya və kompüter texnologiyaları [120,144].

Bəs telekommunikasiyanın məqsədi nədir? Cavab verirəm, – insanın inzibati, təşkilati, kommersiya, elmi, təhsil və səhiyyə fəaliyyətlərində vaxt və əməyin qənaətidir.

Ekspertlər hesab edirlər ki, məhz telekommunikasiya XX əsrin sonlarında Sovet İttifaqı adlanan ən böyük imperiyanın dağılmasına səbəb oldu [98-102,107,120,131,194].

Sovet İttifaqın dağılmasından nə qədər vaxt ötüb, analitiklər isə (siyasi, iqtisadi, "*texnokratlar*", sosioloqlar) hələ də bu "*yenilməz*" ölkənin dağılması səbəblərini tapa bilmirlər.

Bütün təfərrüatlarına varmadan, mən yalnız "*texnokratlar*"a məxsus versiyada dayanmq istəyirəm.

Əlbəttə ki, Sovet İttifaqın dağılması qabaqcadan həll olunmuşdu, həm ölkənin daxili siyasətinin zəifliyindən, həm də dünyada siyasi müxalifətçi formasiyanın cəhdlərindən. Lakin dağılmanın açarı yönəldilmiş hərəkətin informasiya mənbəyi və təbliğat silahı olan telekommunikasiya idi.

Demək olar ki, 40 illik əmək stajı, onlardan 30 ildən artıq rabitə şəbəkələrinin layihələndirilməsi məsələləri ilə məşğul olan bir rabitəçi kimi mənə İttifaqın dağılması keçmiş SSRİ-də 1980-ci ilə

qədər mövcud olan informasiya blokadasının ləğv edildiyi vaxtdan aydın idi [4-151,161-260].

Axı keçmiş İttifaqın rabitə şəbəkələrində avtomatlaşdırmanın olduğu halda (*müəssisə və şəhərlərarası*), ölkənin beynəlxalq şəbəkəsi müti, demək olar ki, tamamilə nəzarət altında idi.

Yəqin ki, Ronald Reyqanın "*Mən SSRİ-ni informasiya texnologiyaları vasitəsilə diz çökdürəcəm...*" fərz edilən andı təsadüfi deyildi, çünki məhz məlumatların açıqlığı insanlara öz ölkəsinin reallıqlarını digərləri ilə müqayisə etməkdə kömək oldu.

Yeri gəlmişkən, ABŞ-ın və Avropanın siyasi dairələrində Ronald Reyqanı "*Böyük kommunikator*" adlandırırdılar...

Bəli, biz 60-70-ci illərdə kapitalizmin bolluğundan çox nadir, bəzən qırıq-qırıq inanılmaz məlumatlar alırdıq ki, harada ki, "*insan insana - canavardır*" hesab olunurdu və bu barədə insanlar hətta öz yaxın dostları ilə belə danışmağa qorxurdular.

SSRİ-yə bu informasiyanın daxil olması, hər şeydən əvvəl, hələ N.S.Xruşşovun vaxtında əmələ gəlmiş dissident hərəkətlərlə əlaqədardır. Xaricdən informasiyanın daxil olmasında əsas rolu on illərlə, arası kəsilmədən informasiyanın çoxalmasına səbəb olan "*Samizdat*" oynayırdı.

Lakin ən yeni informasiyanın həcmində, keyfiyyətində, ən əsası isə vaxtında daxil olmasında sıçrayış məs 1980-ci ilin Olimpiadasına hazırlaşarkən, Moskvada beynəlxalq rabitə mərkəzinin açılması ilə başladı. Rabitə sahəsinin yuxarı dairələrində deyirdilər ki, İttifaqın Olimpiya komitəsi oyunların Moskvada keçirilməsini udanda belə Komitə istəyinin həyata keçdiyinə özü də inanmırdı.

İş burasındadır ki, 1980-ci ilin Olimpiada oyunlarının keçirilməsi şərtlərindən biri də Moskvada İttifaqın idman stadionlarından oyunların birbaşa yayımlanması üçün zəruri olan beynəlxalq avtomatik telefon stansiyalarının tikilməsi idi. Olimpiya komitəsi Olimpiada – 1980-ın idmançı-iştirakçıları və qonaqları üçün Moskvanın dünyanın bütün ölkələri ilə avtomatik əlaqə qurmasını tələb edirdi.

Hələ olimpiadadan sonrakı o illərdə Rabitə nazirliyinin yuxarı dairələrində lətifə kimi danışırdılar ki, nazirliyin və İdman üzrə Dövlət Komitəsinin rəhbərləri Baş katib L.İ.Brejnevə Moskvada Beynəlxalq Avtomatik ATS-in tikilməsinin vacibliyini bildirəndə o, təəccüblə soruşmuşdu: "*Məgər biz nömrələri avtomatik yığmırıq?*".

Görünür Baş katibin ağlına gəlmirdi ki, 1980-ci ildə demək olar ki, İttifaqın bütün nöqtələri arasında – Brestdən Vladivostoka, Bakıdan Arxangenlskə qədər tam avtomatlaşdırılmış telefon rabitəsinin olması – SSRİ-nin istənilən vətəndaşının məsələn, İngiltərə ilə əlaqə saxlaması yalnız sifarişlə birləşdirilə bilərdi. Adi vətəndaşlar üçün danışıqlara sifarişlər şəhərin, dairənin və respublikanın yerindən asılı olaraq, qabaqcadan, 3-5 gün ərzində qəbul edilirdi [98, 107,120,131,148,194].

Bu zaman qeyd etmək lazımdır ki, sifariş yalnız abonentin şəxsiyyətinin, bu zəngin səbəblərinin, zəngə zəruriyyətinin (*DTK müəyyən etdiyi*), və ən əsası, icazənin alınmasının araşdırılmasından sonra bu zəng baş tuturdu.

Hətta xaricdə işləyən diplomatların ailələrinin öz doğma və yaxınlarının səsini eşitmək imkanları olmurdu. Onlar bir daha DTK-nın siyahısına düşməkdən qorxurdular.

Ona görə də bütün "*sovet*" illərində xaricdə işləyən minlərlə diplomat ordusu üçün həmişə yazılı poçt korrespondensiyası yeganə informasiya mənbəyi idi ki, bir çox hallarda İttifaqın bu və ya digər ölkədəki səfirliklərinə verilirdi və diplomatik kuryerlər vasitəsilə Moskvaya gətirilirdi, sonra isə (*qabaqcadan DTK baxdıqdan sonra*) təyin olunmuş məntəqələrə göndərilirdi [148].

Görünür buna görə DTK, həmçinin Rabitə nazirliyi üçün İttifaqın telekommunikasiyanın açıqlığı məsələsi Dünya Olimpiya Komitəsinin mahiyyətcə gözlənilməz şərti oldu.

Çoxlarını təəccübləndirərək, L.İ.Brejnev İttifaqın xarici ölkələrlə birbaşa və avtomatik əlaqəsinin açılmasına razılaşaraq, dünya ictimaiyyətinə heç bir çətinlik olmadan telekommunikasiya qapısını açdı [98,120,148].

Beləliklə, ilk dəfə İttifaqda dünyanın 120 ölkəsi ilə beynəlxalq avtomatik əlaqə təşkil olundu. Bu, İttifaqın rabitə sahəsinin əsl qələbəsi idi və qeyd etmək lazımdır ki, bütün Olimpiada boyunca rabitə əla işləyirdi.

İdmançılardan və turistlərdən, həmçinin dünya ölkələrinin rəsmi nümayəndələrindən başqa, praktiki olaraq, Moskva və Leninqradın bütün abunəçiləri beynəlxalq rabitənin xidmətlərindən sərbəst istifadə edirdi.

Dünyanın mədəni ictimaiyyəti heç təxmin etmirdi ki, Olimpiada başa çatdıqdan sonra informasiyanın ötürülməsini təmin edən kanalların sayı demək olar ki, bir neçə dəfə azaldılacaq və yalnız illər ötdükdən sonra Moskvada xarici diplomatiya və ilk növbədə jurnalistlər İttifaqı sayəsində dünyanın bütün ölkələri üçün avtomatik açıqlığa gətirəcək.

Ona görə də 80-ci illərin ortalarında Rabitə nazirliyi müxtəlif mətbuat konfranslarında qərəzsiz suala cavab verməli olurdu: "*nə üçün dünyanın İttifaq kimi inkişaf etmiş ölkəsinin açıq beynəlxalq əlaqəsi yoxdur?"*

Burada texnikada baş vermiş inkişaf barədə təfərrüatı ilə nə danışmayacağam, nə də üzərində dayanmayacağam, lakin siyasi ölçülərlə bu, Sovet ölkələrindən infomasiya axınının tam açıqlığına gətirdi və M.S.Qorbaçovun vaxtında "*Yenidənqurma*" adlandırılan prosesi dönülməz etdi.

Bu ona gətirdi ki, mahiyyətcə tam qapalı "*Sovet imperiyası*", harada ki, həyatın reallıqlarından yalnız "*mətbəxdə pıçıldayaraq*" danışmaq olardı, ovucun içindəki kimi tamamilə şəffaf oldu. Və bu ilk növbədə xarici mütəxəssislərin telekommunikasiya sahəsindəki səyləri nəticəsində oldu.

Bütün söylənənlər ona gətirib çıxardı ki, əgər əvvəllər hər hansı bir informasiya xaricə göndərilib, neçə aylar ötdükdən sonra açıqlanırdısa, bu gün göndərilən informasiya demək olar ki, eyni anda lazımi ünvan sahibinə, bu informasiyanın istifadəçisinə çatır.

Beləliklə, cəmiyyətin və bütövlükdə ölkənin xarici ölkələrlə telekommunikasiya əlaqələri üçün açıq olmasını keçmiş İttifaqın dağılması səbəblərindən biri hesab etmək olar [98].

Mahiyyətcə bu, dünyanın bir sıra və əsasən də inkişaf etməmiş ölkələrində korrupsiyaya, qanunsuzluğa və repressiyalara qarşı mübarizə üçün sivil dünyaya bir vəd idi.

Dünya iqtisadi və maliyyə strukturlarının, həmçinin Beynəlxalq Telekommunikasiya İttifaqının (*ITU*) yönəldiyi qlobal informasiya cəmiyyətinin əsas məqsədi informasiya mübadiləsi üçün əlverişli, etibarlı, açıq və şəffaf mühitin yaradılmasıdır.

Bu gün rəqəmsal telekommunikasiya texnologiyaları, kompüterlər və kütləvi informasiya vasitələri elə vzhid birləşib ki, dünyanın istənilən nöqtəsində hər hansı hadisə bütün təfərrüatları ilə onun mülkiyyətinə çevrilir.

Dünyanın istənilən yerində hazırlanan hər bir yeni "*rəqəmsal*" texnologiya qısa müddət ərzində inkişaf səviyyəsindən asılı olmayaraq, istənilən ölkənin mülkiyyətinə çevrilir.

Beləliklə, indi dünyada beynəlxalq informasiya infrastrukturunun real qloballaşması baş verir ki, burada informasiya kommunikasiya texnologiyaları (*İKT*) bizim sivilizasiyamızın əlaqələndirən və birləşdirən həlqəsinə çevrilir [4-260].

Buna görə də Azərbaycanda haqqında ən çox danışılan (*17 fevral 2003-cü ildən*) İKT Layihəsi respublikanın bir çox strukturlarını oyatmalıdır. Onlar ölkənin Rabitə və informasiya texnologiyaları Nazirliyinin (*RİTN*) bu sahədə daha əmin struktur dəyişikliyi, qlobal şəbəkəyə sərbəst girişi təmin edən rabitə və informasiya texnologiyalarının açıq strukturunun yaradılması üçün əl-qolunu açmalıdır.

Azərbaycanda telekommunikasiyanın inkişafı rabitə xidmətlərindən istifadə tələbatının təminatı, investisiya resurslarının cəlb edilməsi və "*rəqəmsal yarığın*" aradan qaldırılması üçün yeni texnologiyaların mənimsənilməsi ilə qiymətləndirilməlidir.

"*Rəqəmsal yarıq*" (*Digital divide*) dedikdə vətəndaşların müasir rəqəmsal telekommunikasiya texnologiyalarına və xidmətlərinə, bu xidmətlərin (*İnternet, interaktiv rəqəmsal yayımlanma, verilənlər, multimedia və s.*) göstərilməsinə əlçatımlılıqda uyğunsuzluq başa düşülür [98-151, 161-260].

Görünür bu gün rabitə sahəsinin bu salahiyyətlərini – telekommunikasiya xidmətlərini (*operatorun funksiyası*) sahədə qarşılıqlı əlaqədən (*tənzimləyici funksiyası*) ayıraraq iki müstəqil hissəyə bölmək vaxtıdır, bu isə artıq kommunist olmayan ölkəmizin bazar iqtisadiyyatına uyğun olardı.

Zənn edirəm ki, Azərbaycanda fəaliyyət göstərən operator və provayderlərin zəmanət, hüquqlarının qorunması və qanuni maraqlarının təmin edilməsi üçün müstəqil tənzimləyici qurumun yaradmaqla, sahənin menecmentinin real yenidənqurulması vacibdir.

Bəli, AR Prezidentinin Rabitə və informasiya texnologiyaları Nazirliyinin (*RİTN*) yaradılması haqqında 20.02.2004-cü il tarixli Fərmanı bu sahədəki dəyişikliklər üçün bir cəhd idi. Lakin təsbit edilmiş telefonların inkişafı, rəqəmsal şəbəkə infrastrukturunun tətbiqi, yeni nəsil şəbəkəsi – NGN-ə, rabitə xidmətləri və İnternet istifadəçilərinin "*müntəzəm xidmət*" sisteminə tam keçidi və s. məsələlərin həlli tələb olunur.

Beləliklə, hər şeydən əvvəl telekommunikasiya, məşğuliyyətindən və sənətindən, yaşından və cinsindən, yaşayış yerindən və ölkənin paytaxtına qədər məsafədən asılı olmayaraq, ölkənin hər bir vətəndaşına (*istənilən azərbaycanlıya*) lazımdır.

İstənilən dövlətdə ölkənin hər bir sahəsi özünün, necə deyərlər, cəmiyyət üçün səciyyəvi məsələlərini həll edir [21,67].

Mübaliğəsiz söyləmək olar ki, telekommunikasiya ölkənin bütün sahələri üçün xüsusi, əlaqələndirən məna daşıyır.

Bu sahənin əsas məsələsi – informasiyanı daşımaqdır, yəni onsuz heç bir digər sahə, heç bir istehsal, heç bir müəssisə və hətta, mübaliğəsiz, heç bir şəxs keçinə bilməz.

Bu gün telekommunikasiya – maddi istehsal sahəsidir, onun məhsulu tələb olunan texniki vəsaitlərin – telekommunikasiya sistemlərinin köməyi ilə məlumatların ötürülməsi və qəbulu şəklində fəaliyyətin faydalı təsiridir.

Telekommunikasiyanın əsas məqsədi – ölkədə və bütövlükdə cəmiyyətdə baş verən bütün istehsal, bölüşdürmə və istehlak proseslərinin operativ idarə edilməsi üçün dövləti informasiya ilə təmin etməkdir [67-157,161-260].

Telekommunikasiya xüsusiyyətlərinə görə istənilən ölkənin və cəmiyyətin bütün fəaliyyət sahələrini əhatə edir: sənaye, kənd təsərrüfatı, mədəni, elmi, müdafiə və s. Bu gün telekommunikasiya vasitələrinin vəziyyəti və inkişaf səviyyəsi – bütövlükdə cəmiyyətin ümumi inkişaf səviyyəsinin əsas göstəricisidir.

Sahənin iqtisadi səmərəliliyi baxımından qeyd etmək lazımdır ki, telekommunikasiya iki hissədən ibarət daimi, yaşayış və böyük gəlirlərin mənbəyidir:

- sahənin rabitə xidmətlərinə görə əhalidən əldə etdiyi birbaşa (*daha sadə*) gəlir,
- digər sahələrdə rabitə vasitələrinin effektivliyindən əldə edilən dolayı (*çox mürəkkəb*) gəlir.

Telekommunikasiya infrastrukturunun xarakteristikası – sahənin əsas effektivliyinin məhz onun uyğun sahələrin hüdudlarında fəaliyyətində və istifadəsində (*təxminən 90÷95%)* və yalnız 5÷10% – bilavasitə xidmətlərin istehsalçısı üçün müəssisələrin gəlirləri şəklində özünü biruzə verməsindən ibarətdir.

Telekommunikasiya iqtisadiyyatın vacib sahəsidir.

Telekommunikasiyanın əsas sosial mənası onun bəzi növlərinin (*radio, televiziya, İnternet*) kütləvi informasiya vasitələri olması ilə müəyyən edilir.

Telekommunikasiya istənilən ölkənin silahlı qüvvələrinin bütün sahələrində dövlət təhlükəsizliyinin və qarşılıqlı əlaqənin təminatında müstəsna rol oynayır [67-151].

Bu gün telekommunikasiya istənilən dövlətin mərkəzi informasiya sinir sistemidir, yəni ölkənin həyat fəaliyyəti üçün vacibdir [92 -151, 161-260].

Telekommunikasiya ixtiyari cəmiyyətin informasiya infrastrukturu sistemini yaradaraq, yüksək sivil cəmiyyətin (*elmdə, təhsildə, iqtisadiyyatda, sənayedə, mədəniyyətdə, tikintidə, nəqliyyatda və s.*) formalaşmasında əsas rol oynayır.

Belə ki, Sovet ölkəsinin Sov.İKP-nın XXVII qurultayının təsdiq etdiyi beşillikdə (*1986-1990-cı illər*) və 2000-ci ilə qədərki dövrdə ali məqsədi (*hansı ki, həyata keçirilə bilmədi*), istehsal

infrastrukturunun, həmçinin SSRİ-nin Vahid Avtomatlaşdırılmış Rabitə Sistemini yaratmaqla rabitə sahəsinin sürətli inkişafı idi.

İnfrastruktur dedikdə ölkənin istehsal və qeyri-istehsal sahələrinə xidmət göstərən sahələr kompleksi başa düşülür.

- İstehsal infrastrukturunu nəqliyyat, rabitə, anbar, maddi-texniki təchizat təşkil edir;
- Qeyri-istehsal infrastruktur insanların həyat fəaliyyətində aşağıdakı xidmətlər sahəsini birləşdirir: təhsil, səhiyyə, turizm və s.

Məlumdur ki, istənilən ölkənin ümumi istifadə rabitəsi şəbəkəsi bütün ölkənin istifadəçilərinə birgə rabitə xidmətlərinin göstərilməsini təmin edən müxtəlif operatorların iri qarşılıqlı rabitə şəbəkələri kompleksidir.

Ona görə də Azərbaycanın rabitə sahəsinin etibarlılığını və qarşılıqlı əlaqəsini təmin etmək üçün qarşılıqlı əlaqə, qarşılıqlı hesablaşma və qarşılıqlı qoşulmalar üzrə ciddi qaydalara və normalara əməl edilməsi vacibdir, əməl edilmədikdə isə göstərilən xidmətlərin keyfiyyətinin itməsindən ölkədə rabitənin təşkilinin tamamilə mümkünsüzlüyunədək gəlib çıxır [98-151,161-260].

Telekommunikasiya şəbəkələrinin əsas üstünlüyü – ümumi əlçatımlılıqdır (*bu şəbəkələrin açıqlığıdır*) – ölkənin telekommunikasiya şəbəkəsinin qarşılıqlı əlaqəsinin tərkib hissəsidir, bütün abunəçilərin istifadəsi üçün açıqdır və onlara xidmət göstərilməsindən imtina edilə bilməz. Bu cür şəbəkəni *ümumi istifadənin telekommunikasiya şəbəkəsi (ÜİTŞ)* adlandırırlar.

Abunəçi isə – abunəçi nömrəsi verilməklə, rabitə xidmətlərinin göstərilməsi barədə müqavilə bağlanan hüquqi və ya fiziki şəxsdir.

Sivilizasiyanın müasir şəraitində və dünyada sosial problemlərin həlli miqyasında həyat fəaliyyətinin müxtəlif sahələrində telekommunikasiyanın rolu daha da artır.

Bu zaman telekommunikasiya və onun daşıdığı informasiya vacib milli resursa çevrilir və resursların bütün digər növlərinin səmərəli istifadəsinə, onların qorunmasına və yenilərinin yaranmasına səbəb olur.

Axı elmi-texniki tərəqqinin yeni mərhələsinin xüsusiyyətlərindən biri də müxtəlif növ informasiyanın sürətlə artmasıdır. Bu isə istehsalın miqyasının, ixtisaslaşmasının və trans-əməkdaşlığının genişlənməsindən, planlaşdırma, proqnozlaşdırma, idarəetmə və menecment funksiyalarının genişlənməsindən, innovativ tədqiqatların inkişafından və s. irəli gəlir.

Həmçinin məlumdur ki, "*müasir cəmiyyətin yaratdığı informasiyanın həcmi hər 5-10 il iki dəfə artır və istənilən ölkənin sənaye potensialının artım kvadratına proporsional olaraq çoxalır*" [14, 44, 148,161-260].

Bax ona görə də dövlət resursunun təkmilləşdirilməsi, əhalinin maddi rifahının və mədəni səviyyəsinin yüksəldilməsi istənilən ölkənin telekommunikasiya vasitələrinin artan intensivliyi ilə möhkəm bağlıdır. Və nəzərə alsaq ki, məlumatlar informasiya xaraktelidir, ona görə də rabitə informasiya ötürür deyirlər.

Göstərilən məqsədlərin səmərəli həllinə hərtərəfli statistik verilənlərə, proqnozlaşdırma adlandırılan yeni formalaşan elmi istiqamətin tətbiqi ilə zəruri riyazi aparata əsaslanan telekommunikasiya vasitələrinin dəqiq planlaşdırılması, layihələndirilməsi və inkişaf etdirilməsi ilə çatmaq olar [28-151].

Rabitə sahəsində gələcəyi görmək (*proqnozlaşdırma*) imkan verir ki, vaxtında, mərhələli və mümkün müsbət və mənfi nəticənin qiymətləndirilməsi ilə telekommunikasiya şəbəkəsinin inkişaf tendensiyası nəzərə alınsın və lazım olduqda inkişafın gedişinə müdaxilə edilərək, ona nəzarət edilsin. Bu gün qəbul edilən qərarlar mütləq gələcək inkişafın qiymətləndirilməsinə əsaslanmalıdır.

İstənilən ölkənin telekommunikasiya şəbəkələrinin orta inkişaf tempinin ümumdaxili məhsulun (*ÜDM*) artım tempindən sistematik iki dəfə yüksək olan müasir iqtisadiyyatın dinamik sektorlarından biri – müasir rabitə şəbəkələrinin ciddi ardıcıl, texniki reallaşdırılan, riyazi əsaslanan layihələndirmə metodlarının olması zəruriləşir [31-151,161-260].

Müasir cəmiyyətin inkişaf tendensiyası ötürülən informasiyanın həcminin əhəmiyyətli dərəcədə artması ilə müşayiət olunur və telekommunikasiyanın keyfiyyətinə tələblər, hər şeydən

əvvəl, informasiya paylanmasının qabaqcıl sistemləri əsasında iqtisadi şəbəkələrin layihələndirilməsi və yaradılmasında təzahür olunur.

Beləliklə, telekommunikasiya mürəkkəb texniki sistemlərin xüsusiyyətlərinə malik olaraq, ölkənin uzunmüddətli inkişafı məsələlərinin həllinə sistemli yanaşma tələb edir.

Bu məsələlər əsasən aşağıdakıları özündə birləşdirir:

- real telekommunikasiya şəbəkələrinin layihələndirilməsi məsələlərinə ilkin yanaşmanın müəyyən edilməsi;
- ölkə miqyasında telekommunikasiya şəbəkələrinin inkişafı Master-planının yaradılması;
- vahid rəqəmsal əlaqə sistemli rabitələr şəbəkəsinin proqnozlaşdırılması və layihələndirilməsi üzrə ümumi bazanın yaradılması və s.

Telekommunikasiya şəbəkəsinin növündən asılı olaraq, telefon, teleqraf, verilənlərin ötürülməsi, səs yayımı, televiziya yayımı və s. tanınır.

Bir çox hallarda telekommunikasiya şəbəkələri ümumi istifadə şəbəkələridir, hər kəs müxtəlif məlimatların qəbulu və ötürülməsi və ya yalnız qəbulu üçün istifadə edə bilər.

Misal üçün, telefon şəbəkəsi ölkə ərazisində və xaricdə yerləşən milyonlarla telefon aparatlarını, on min kilometrlərlə rabitə xətlərini, çoxlu sayda kanal və kommutasiya texnikasını (*şəbəkə məntəqələri qovşağını*) və bir çox xüsusi avadanlığı birləşdirir.

Telefon rabitəsinin ötürülməsi yollarının yaradılması üçün elektrik sxemlərinin birləşdirilməsi şəbəkə məntəqələri qovşağının əsas funksiyasıdır [25-151].

Tarixən, telekommunikasiyanın müxtəlif növləri uzun müddət bir-birindən asılı olmayaraq inkişaf etmişdir və ona görə də hər növ öz inkişafında özünün kanallarının, sistemlərinin və hətta şəbəkəsinin yaradılmasına yönəlirdi. Bu şəbəkələrin strukturu müəyyən rabitə növünə xas olan məlumatlar axınının paylanması xüsusiyyətlərini nəzərə alaraq seçilirdi.

Nəticədə ölkələrdə (*o cümlədən Azərbaycanda*) bir neçə müstəqil şəbəkələr formalaşdı. Şəbəkələri yaradan rabitə vasitələri isə pərakəndə olurdu.

Lakin ötürülən məlumatların həcmi dayanmadan artır, bu isə həmin şəbəkələrin yüksək inkişaf tempini tələb edir. Nəticədə bu şəbəkələrin (*ilk növbədə telefon*) ötürmə qabiliyyətində çatışmazlıqlar hiss olunur.

Yaranan vəziyyəti nəzərə alaraq, dünyanın bir çox ölkələrinin bəzi sahələrində tələbatlarını təmin etmək məqsədilə öz şəbəkələri yaradılırdı. Nəticədə bir-birindən tədric olunmuş, avadanlığı və texniki heyəti olan kiçik şəbəkələr yaranırdı, məsələn, energetik, dəmiryolçu, metallurq, neftçi, ordu, təhlükəsizlik orqanları, DİN və s. üçün.

Adama elə gəlirdi ki, bu cür şəbəkələrin yaradılması üçün əlavə vəsaitlər ayırarkən, hər bir müəssisə öz problemlərini həll etməyə çalışır. Lakin əslində rabitə sahəsindəki bu cür siyasət ölkədə daha da texniki vasitələrin əlaqəsizliyinə, sahənin səmərəliyinin azalmasına gətirib çıxardı.

Beləliklə, keçmiş İttifaqda hələ 60-cı illərdə aydın idi ki, telekommunikasiyanın inkişafının perspektivli istiqaməti, Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) da tövsiyə etdiyi kimi, şəbəkələrin birləşməsidir.

Əvvəlcə hər bir telekommunikasiya növünün daxilində eyni şəbəkələri birləşdirmək və yalnız sonra ayrı-ayrı telekommunikasiya növləri şəbəkələrini tədric etmək tələb olunurdu.

Bunun üçün aşağıdakı ilkin şərtlər vardı:

- kənar qurğuların funksiyalarının oxşarlığı istifadəçilər üçün bu dəyişikliklərin unifikasiyasını tələb edirdi;
- ayrı-ayrı ötürülmə sistemlərinin uyğun istiqamətlərdə vahid ötürülmə sisteminə birləşdirilməsi;
- göndərəndən alıcıya məlumatların çatdırılması üçün müxtəlif sistemlərin yerinə yetirdiyi funksiyaların oxşarlığı.

Bütün bunlar dünyanı gələcəkdə yeni rəqəmsal (*yüksək*) ötürülmə və kommutasiyalar sisteminin yaradılması sahəsində

texniki tərəqqini nəzərə almaqla, vahid telekommunikasiya şəbəkəsinin zəruri olduğunu vadar etdi [50-65, 140-151].

Bu şərtlər altında, hələ 60-cı illərdə SSRİ-də ölkənin hansı müəssisəyə aidiyyətindən asılı olmayaraq, bütün telekommunikasiyalar şəbəkəsini birləşdirən Vahid avtomatlaşdırılmış rabitə şəbəkəsinin (*VARŞ*) yaradılması haqqında vacib qərar qəbul edildi [67, 69]. Həqiqətən, artıq XX əsrin 80-cı illərindən dünyanın və Avropanın inkişaf etmiş ölkələrində telekommunikasıyada rəqəmsallaşma başlandı, bu da həmin sahənin texnoloji inkişafının keyfiyyətcə yeni mərhələsi idi və dünyanı informasiyalaşdırma və bütün növ şəbəkələrin (*informasiya, idarəetmə və s.*) birləşməsi əsrinə hazırladı.

Lakin 1991-ci ildə Sovet İttifaqının dağılması keçmiş on beş ittifaq respublikalarından telekommunikasiyada yeni müstəqil idarəetmə üsulunun yaradılmasını tələb edirdi. İttifaqın Vahid avtomatlaşdırılmış rabitə şəbəkəsinin (*VARŞ*) yaradılması xülyasının yerinə özünün milli telekommunikasiyalar şəbəkəsinin yaradılması tələb olunurdu [67-148].

On beş ittifaq respublikalarının, o cümlədən Azərbaycanın yeni ictimai-siyasi sistemi (*milli müstəqilliyi bərpa edən*) və bu ölkələrin iqtisadiyyatının bazar iqtisadiyyatına keçidi artıq 20 ildir telekommunikasiya sahəsi sisteminin kökündən struktur yenidənqurulması ilə bağlı olan siyasi həll tələb edir [148].

Dövlətdə telekommunikasiyanın rolu həm onun istehsal gücünün inkişaf səviyyəsindən, həm də ölkənin ümumdaxili məhsulunun (*ÜDM*) nisbətindən asılı olaraq artır. Hesab olunur ki, ÜDM-in formalaşmasında telekommunikasiyanın mənfəəti onun inkişafına olan xərcləri qısa müddətdə ödəyir, telekommunikasiyaya qoyulan 1$ isə təqribən 3 ÷ 4 $ gəlir gətirə bilər [86-260].

Telekommunikasiya ölkənin bütün təbəqələrdə və bütün sahələrdə idarəetməsinə müsbət təsir görstərir. Bu gün informasiyanın yüksək keyfiyyətli ötürülməsi optimal həllərin qəbulunda onun çevikliyini, etibarlığını və manevr etməsini təmin edərək, istənilən idarəetmə sistemi üçün dəyərinin saxlanılmasına təsir göstərir.

Telekommunikasiya nəinki istehsalı əhatə edir, həmçinin avtomatlaşdırılmış texnoloji proseslərin quraşdırılmış tənzimlənmə sistemlərinin vacib elementidir.

Telekommunikasiya istehsal texnologiyasının effektiv struktur quruluşunu təmin edir, bütün növ resursların qorunmasına təsir göstərir, əmək şəraitini yaxşılaşdırır, fiziki və psixoloji gərginliyi azaldır. Bu gün telekommunikasiya yüksək texnologiya kimi manipulyatorlar, robotlar və mikroprosessor texnologiyası əsasında istehsalın keyfiyyətli yenidənqurulması üçün əsasdır.

Qeyri-istehsal sahələrində də telekommunikasiyanın rolu artır, belə ki, zəruri informasiyanı tez əldə etmək və ona uyğun adekvat qərar almaq imkanını verən elmi-texniki tərəqqinin son nailiyyətlərinin, hesablama texnikasının insan fəaliyyətinə tətbiqini tələb edir. Bu gün müxtəlif fəaliyyət sahələrində rabitə vasitələrinin effektivliyinin qiymətləndirilməsi üzrə müxtəlif metodlar var [21].

Belə ki, telekommunikasiya 20-25% ezamiyyətləri azaldır və kənd təsərrüfatında nəqliyyatın gücünü 1,5÷2 dəfə artırır, maşın və mexanizmlərin istifadə effektivliyini *25%* qaldırır və iş vaxtı itkisini *20÷40%* azaldır.

Tikintidə yaxşı təşkil edilmiş rabitə məhsuldarlığı artırmağa və obyektlərin istismara verilmə vaxtını 15% azaltmağa imkan verir.

Beləliklə, yüksək keyfiyyətli telekommunikasiya bazar infrastrukturunun səmərəliliyi üçün şərtdir, bazar münasibətlərinin katalizatorudur və kommersiya nəaliyyətinin təminatıdır [57-151].

BTİ (*ITU*) verilənlərinə görə, 2010-cı ilin başlanğıcında dünyada 3,7 mlrd.-a qədər telefonlardan üçdə biri qeyd edilmiş, qalanları isə mobildir (*dünyada orta telefon sıxlığı – 46,4*), Asiyada – 27,9, Amerikada – 69,9, Avropada isə 91,8.

Yeri gəlmişkən, hələ 1986-cı ildə Rabitənin Mərkəzi Elmi Tədqiqat İnstitutunun araşdırmaları SSRİ əhalisi üçün rabitə xidmətləri həcminin artırılmasının zəruriliyini göstərirdi.

Beləliklə, telekommunikasiya sahəsinə bu və digər ölkənin iqtisadi inkişafının əsas faktoru, bütövlükdə millətin rifah rəmzi kimi baxmaq lazımdır.

Bundan əlavə, müasir intellektual dünyanın inkişafında əsas məlumat bazası kimi telekommunikasiya, yüksək texnologiya daşıyıcısı kimi, tezliklə öyrəşdiyimiz köhnə akademik biliklərlə dolu dünyamızı elmin yeni innovasiyalı sahəsinə çevirəcək.

Artıq 2025-ci ilə son mil (*fərdi və periferiy qurğular üçün naqillər və kabellər*) telekommunikasiyanın ən konservativ hissəsi keçmişdə qalacaq və İnternetə naqilsiz giriş imkanı Yer kürəsi səthinin təxminən 80%-i əhatə edəcək, İnternetin keçiricilik xüsusiyyəti isə indikindən yüz milyon dəfə çox olacaq. Bu dövrdə istehsal olunan fərdi kompüterlər (*PC*) hesablama mərkəzlərinin (*insan beyni ilə müqayisədə*) gücünə çatacaq, yüksək texnoloji inkişaf isə bizim dünyamızı demək olar ki, nəhəng bir kompüterə çevirəcək.

Görünür artıq 2050-ci ilə günəş enerjisi o qədər ucuz və adi olacaq ki, bəşəriyyətin bütün enerji ehtiyaclarını təmin edəcək, fərdi robot (*sərbəst mürəkkəb hərəkətli*) isə paltaryuyan maşın və kondisioner kimi adi bir şey olacaq.

İnsan beynini təfərrüatları ilə skan edərək, onun işini anlamağa icazə verən nanotexnologiya və robotlar tibbi məqsədlər üçün istifadə ediləcək. İnsanın istifadə etdiyi süni intellekt adiləşəcək. Çoxlu sayda robotlar hesabına insan bədəni istənilən formanı alacaq, daxili orqanlar isə yüksək keyfiyyətli kibernetik qurğularla əvəz ediləcək.

XXI əsrin ikinci yarısında qeyri-bioloji intellekt biolojidən milyard dəfə dərrakəli olacaq və əlavə intellektli yüksək texnologiyaların trans-insani məhsulu – robotlaşmış insanlar əmələ gələcək. Görünür bu illərdə nanomaşınlar beynimizə implantasiya olunacaq və beyin hüceyrələrindən ixtiyari giriş və çıxış siqnallarını həyata keçirəcək ki, bu da heç bir əlavə rabitə qurğusu olmadan virtual reallığa gətirib çıxaracaq.

Yəqin ki, bu gün bu cür proqnozlara inanmaq çətindir, lakin, əgər insan həyatında yüksək texnologiyaların böyük inkişaf tempini nəzərə alsaq, onda aydındır ki, yaxın gələcəkdə bu da mümkündür.

*"Könlüm elmlərdən qalmadı mərhum,*
*Sonda bildim heç nə deyilmiş məlum"*
Nəsrəddin Tusi (1201-1274)

# III. MƏNİM ASPİRANT İLLƏRİM

## 3.1. Elmə doğru ilk addımlar.

Rabitə nazirliyinin Layihə-Tədqiqat Kontorunun (*LTK*) rəisi Trostinskiy Ustin Yefimoviçin əmri ilə 16.11.1972-ci il tarixindən Azərbaycan SSR Rabitə nazirliyinin aparatına elmi-texniki informasiyanın mühəndisi yerinə işə götürüldüm.

Əvvəlcə mənimlə Azərbaycanın Rabitə nazirliyinin aparatının texniki şöbəsinin müdiri Hacıyev Yuriy Nuğayeviç söhbət apardı. O dedi ki, iş yenidir, hələ tədqiq edilməyib, amma ümid edir ki, istehsalatda və Rabitə nazirliyinin aparatında iş təcrübəsi olan bir mütəxəssis kimi – mən bu çətinlikləri dəf edə biləcəyəm.

Aparatın nomenklaturasına uyğun olaraq, lakin istehsalatda (LTK-də) olunduğum üçün Azərbaycanın Rabitə nazirinin birinci müavini Axundov Bahadur Mamtdoviç ilə iki dəfə görüşməli oldum, və o da həmçinin mənə xeyir-dualı məsləhətlərini verdi.

Anladım ki, özümdən başqa mənə heç bir kəs kömək etməyəcək.

Əsas ümidim SSRİ-nin Rabitə nazirliyində Elmi-Texniki İnformasiya (ETİ) şöbəsi idi, oraya Azərbaycan SSR Rabitə nazirliyinin texniki şöbəsinin müdiri Hacıyev Yuriy Nuğayeviçin adından sorqu məktubunu yazdım.

Bu sahə üzrə bütün direktiv sənədləri göndərmələrini və ETİ üzrə nəzərdə tutulan konfranslara məni də dəvət etmələrini xahiş etdik. Bir neçə həftədən sonra direktiv və məlumat vərəqələri ilə dolu böyük zərf, həmçinin bir aydan sonra Lipetskdə keçiriləcək ETİ üzrə Ümumittifaq Konfransına dəvət aldım.

İndi mən anladım ki nədən işə başlamalıyam, amma mən həm də respublika təşkilatlarına çıxmağa qərar verdim – Azərbaycan Elmi-Texniki İnformasiya üzrə Elmi-Tədqiqat İnstitutuna (*AzETİETİ*).

Yarım il keçdi, respublikanın Rabitə Nazirliyinin mənə həvalə edilən sektoru – ETİ üzrə iş planını, sonra isə növbəti iki ilə ETİ üzrə işlərin perspektiv planını təqdim etməli idim. Bu, mahiyyətcə mənim elmdə ilk addımlarım idi.
Həmçinin M.A.Bonç-Bruyeviç adına Leninqrad Elektrotexnik Rabitə İnstitunun (LERİ) aspiranturasında yer almaq üçün səy göstərirdim, bunun üçün Azərbaycanın Rabitə Nazirliyinin kadrlar şöbəsindən SSRİ-nin Rabitə Nazirliyinə müraciət etdim və onlardan rəsmi cavab gözləyirdim.

Amma işdə aspirantura haqda heç kimlə danışmırdım.

Lipetsk şəhərində keçirilən ETİ üzrə Ümumittifaq Konfransı ETİ üzrə bütün işlərin dərk edilməsində mənə çox böyük köməklik etdi. Üçgünlük konfrans mənə çox şeyi aydın etdi, ən əsası isə İttifaqın Rabitə Nazirliyinin bir sıra işçiləri ilə tanış oldum.

Lipetsk – Rusiyanın metallurgiya mərkəzidir (*1703-cü ildən*). Burada nəzəriyyəçi və marksist təbliğatçı, filosof, rus və beynəlxalq sosialist hərəkatının görkəmli xadimi dahi Plexanov Georgiy Valentinoviç (*1856-1918*) anadan olmuşdur.

Lipetskdən sonra SSRİ-nin Rabitə nazirliyinin tövsiyəsi ilə Azərbaycanın Rabitə Nazirliyinin bütün iri müəssisələrində və təşkilatlarında ETİ üzrə iş yerləri yaratmağa başladım.

Respublikanın rabitə sahəsinin səmərələşdiricilərini və ixtiraçılarını bu işə cəlb etməyə, SSRİ-nin Rabitə nazirliyinin məlumat vərəqələrinin nüsxələrini bu müəssisələrə göndərməyə başladım. Həmçinin Azərbaycanın Rabitə Nazirliyinin ETİ üzrə iş təcrübəsi haqqında birinci məqaləmi yazdım, burada ETİ-nin məqsəd və məsələlərini elmi-texniki informasiya üzrə mühəndislərə mahiyyətcə izah etdim [4].

Bu zaman artıq Azərbaycanın Rabitə Nazirliyinin aparatında texniki şöbənin ştatda olan işçisi idim. Bakı ŞTŞ-nın inkişafının xüsusiyyətləri barədə ilk elmi məqaləni dərc etdirərək, necə deyərlər, iki cəbhəyə işləyirdim [5].

1973-cü ilin birinci yarısı 1971-1973-cü illərdə təhsilimi başa vurduğum Marksizm-Leninizm Universitetinin Fəlsəfə bölməsində verdiyim imtahanların çətinliyi ilə yadda qaldı.

1973-cü ilin yay ayları Bakıda bir ay kimi tez keçdi, ən əsası isə Azərbaycan Sovet İKP MK yanında Marksizm-Leninizm Universitetinin direktoru Bədəlova Şəfiqə xanımın bizim buraxılışımız üçün təşkil etdiyi fəlsəfə üzrə namizədlik minimumunu vermək üçün hazırlaşırdım.

Namizədlik minimumunun verilməsində Azərbaycan Dövlət Universitetinin məşhur professoru, filosof Fuad Qasımov da iştirak edirdi. Bundan əlavə, Bədəlova Şəfiqə xanımın tövsiyəsi ilə Partiya-təsərrüfat fəalları Fakültəsinin "*Təsərrüfatçılar*" bölməsinə daxil oldum.

Eyni zamanda SSRİ-nin Rabitə nazirliyi mənə Azərbaycandan nəzərdə tutulan istiqamət üzrə LERİ-nin aspiranturasına qəbul olmaq uçun yer ayırdı.

Buna görə 1973-cü ilin iyul ayında mən və o zaman AzPİ-də assistent olan Həsənov Alşan (*onun gediş haqqını mən ödədim*) gələcək elmi rəhbərim Livşic Boris Samoyloviç ilə görüşmək və qarşıdakı elmi işin mövzusunu razılaşdırmaq üçün Leninqrada üçduq. Bundan əlavə, B.S.Livşic bizə LONİİS-dən Bakı ŞTŞ (*BŞTŞ*) trafikinin tədqiqi üzrə mövzunun ayrılmasına söz verdi.

1973-cü ilin avqust ayında (*daha dəqiq 30.08.1973*) texniki şöbədən Azərbaycan Rabitə nazirliyinin ŞTS şöbəsinin müdiri və şəhər və kənd telefon qovşağı idarəsinin (*ŞKTQİ*) müdir müavini vəzifəsinə təyin olundum.

Bu zaman BŞTŞ-a daxil olan rabitə qovşağının prinsipləri haqqında daha iki məqalə AzETETİİ-dan çapa göndərilmişdi [6,7].

1973-cü ilin sentyabr ayında M.A.Bonç-Bruyeviç adına LERİ-nin aspirantura şöbəsinə sənədlərimin və fəlsəfə üzrə namizədlik minimum-un verməsi barədə şəhadətnamə qəbul edildi.

Ayrılmış yeri tutmaq üçün Sovet İKP-nin tarixi və ixtisas üzrə qəbul imtahanlarını müvəffəqiyyətlə verdim.

1973-cü ilin oktyabr ayında M.A.Bonç-Bruyeviç adına Leninqrad Elektrotexnika Rabitə İnstitutunun (*LERİ*) Avtomatik Elektrik Rabitəsi (AER) kafedrasına qiyabi aspiranturaya daxil oldum.

Sevincimdən "*göyün yeddinci qatında*" idim, amma iş yoldaşlarımla paylaşa bilmirdim, çünki onlardan heç bir yaxşı şey gözləmirdim.

1973-cü ilin dekabr ayının əvvəllərində ŞvəKRŞİ müdirim mənim rəisim Lozinskiy Naum Borisoviç infarkt vəziyyətində Müalicə Komissiyasına yatırıldı. Beləcə, 27 yaşında mən respublikanın Rabitə nazirliyinin ən iri İdarəsinin rəisi vəzifələrini icra etməli oldum.

Güman edirəm, bu yükü təsəvvür etmək mümkündür.

Hər ğün səhər saat səkkizdə (*baxmayaraq ki, Rabitə Nazirliyinin aparatında iş saat doqquzda başlayırdı*) işə gəlirdim və ən yaxşı halda axşam saat 11-rdə işdən gedirdim (*baxmayaraq ki, Rabitə Nazirliyinin aparatında iş saat altıda qurtarırdı*).

Belə çıxırdı ki, avtobusla gediş müddətini də nəzərə alaraq, istirahətim (*daha doğrusu, yuxumu almaq*) üçün yalnız altı saat qalırdı. Qeyd edim ki, mən fiziki çox da möhkəm deyildim, ona görə başa düşürdüm ki, bu iş tempinə bir ildən artıq tab gətirə bilmərəm.

Rabitə nazirliyinin rəhbərliyi: nazir – Nəsrullayev Nəsrulla Hidayətoviç və onun birinci müavini – Axundov Bahadur Mamedoviç özümü işə verməyimdən çox razı idilər.

ŞvəKRŞİ-dən keçən bütün məlumatları "*lupa*" ilə yoxlayırdım ki, bir şey baş verməsin.

Bundan əlavə, məhz bu aylarda Axundov Bahadur Mamedoviç ilə birlikdə 1975-1990-cı illər üçün Bakı ŞTŞ-nın layihələndirilməsi və inkişafının məxfi xəritəsi üzərində işləməyə başladıq.

Məxfilik şərtlərinə əsasən və Rabitə Nazirliyinin Birinci Şöbəsinin müdiri Məmmədova Zara Abbasovnanın razılığı ilə biz bununla B.M.Axundovun otağında axşam saat doqquzdan sonra, ikimizdən başqa nazirlikdə heç kim qalmadıqda, məşğul olurduq.

İlin əvvəlində Azərbaycanın Rabitə Nazirliyinin hər bir şöbəsi tabeliyində olan bütün qurumların sosial öhdəliklərini toplayıb, nəşr üçün dövlət və partiya mətbuat orqanlarına vermək məqsədilə nazirlikdən vahid sosial öhdəliklərin hazırlanması üçün əməyin və əmək haqqının təşkili şöbəsinə təqdim edirdi.

Amma nədənsə bizim şöbədə uğursuzluq baş verdi.

Adəti üzrə səhər saat səkkizdə mən iş yerimdə idim.

B.M.Axundovla görüşmək üçün axşam çox gec saatlarında proqnozlaşdırılan yeni stansiyaların (ATC-38/39, ATC-71-72-73, ATC-74-75-76, ATC-68-69 və s.) yerləşdirilməsi üzrə ilkin eskizləri bitirdim.

Birdən birbaşa telefonla B.M.Axundov mənə zəng etdi, kobudcasına "*gəl*" dedi və dəstəyi tulladı. Adətən hər şeyi qeydə aldığım gündəliyi götürdüm və onun yanına getdim.

İçəri daxil oldum, salamlaşdım. O qəzəbli və qızarmış idi. Onun Arxasında Nazirin köməkçisi Nikulin dayanmışdı. O:

- ŞTRŞİ-də ŞTŞ üzrə nə qədər sosial öhdəlikləri qəbul edilib?

Gündəliyi açıb oxudum: - Cəmi 300 nömrə.

O bağırdı: – Sən qəzet oxumursan? Burada 3000 aparat yazılıb – və bu zaman qızardı, kobudca söydü.

Bunu eşidib, dedim:

- Bahadur Məmmədoviç, qəzetdəki məlumatı biz vermirik, əməyin və əmək haqqının təşkili şöbəsi (*ƏƏvəƏHTŞ*), bu məsələni onlarla aydınlaşdırmalısınız.

Mən özüdən 20 yaş böyük adama kobud cavab verməmək üçün sadəcə olaraq dönüb, qapını çırpıb, otağı tərk etdim.

Görünür B.M.Axundov məndən bunu gözləmirdi.

Bir saatdan sonra ŞTRŞİ-nin iqtisadçısı gəldi, ondan ƏƏvəƏHTŞ-ə təqdim etmək üçün imzaladığım məlumatları gətirməsini xahiş etdim.

Məlumatlarımız düz çıxdı. Sonradan aydın oldu ki, nəşrə 300 əvəzinə 3000 telefon gedib, və məhz ƏƏvəƏHTŞ səhv edib.

Təcili məktubların olmasına baxmayaraq, bütün günü B.M.Axundovun yanına getmədim, başqa işlərlə məşğul oldum və onunla prinsipial olaraq əlaqə saxlamadım.

Düz axşam saat onda nazirlikdə heç kəs olmayanda birbaşa telefonla B.M.Axundov zəng edib, yumşaq səslə dedi: - Zəhmət olmasa, yanıma gəl.

İmza üçün vacib olan bütün sənədləri götürüb, yanına getdim və salamlaşdım.

Əvvəlcə yoxladı və bütün məktubları imzaladı, sonra birinci şöbənin məxfi xəritəsində ATS-in binalarını Bakı şəhərinin müxtəlif mikrorayonlarında yerləşdirməyə başladıq. Bitirdikdən sonra soruşdum: - Sizin yenə tapşırığınız var? Cavab verdi ki, "*yoxdur*".

Masadan bütün kağızları qucağıma yığdım, məxfi xəritəni qatlayıb, şəxsən özünə verdim, saata baxdım (*gecə saat birə on beş dəqiqə işləyirdi*) və dedim: "*Bax indi, Bahadur Məmmədoviç, evə gedib, bütün qəzetləri oxuyacağam*".

Heç bir cavab vermədi, lakin bundan sonra istənilən toplantı və iclaslarda söyüş söymək istədikdə mənə çıxmağımı təklif edirdi və hələ onun otağından çıxmağa macal tapmamış, ona xas söyüşləri eşidirdim.

Amma onun çətin xarakterinə baxmayaraq, düzgün adam idi, bacardığı qədər rüşvətə (*artıq o illərdə də bizim sahədə vardı*) qarşı mübarizə aparırdı və həmişə öz ixtisasını artırmaq üzərində çalışırdı.

Lakin bu xoşagəlməz hiss, görünür, onda hələ uzun müddət qalmışdı, belə ki, bir neçə aydan sonra ŞTRŞİ-də çalışmağımın ili tamam olan kimi məni nahardan sonra otağına çağırdı və soruşdu: "*Sən aspiranturaya qəbul olmusan?*". Cavab verdim – *Bəli, artıq bir ildir*. Mənə baxdı və tam ciddiyyəti ilə dedi: "*Deməli belə, şəxsən mən sənin işindən razıyam*". Bir dəqiqə susaraq, əlavə etdi: "*Bir problemi həll etməlisən: ya aspirantura, ya da Rabitə Nazirliyində vəzifə*".

Bu barədə artıq əvvəlki fəsildə qeyd etmişdim, ona görə də təkrarlamaq istəmirəm, amma başa düşdüm ki, o mənə işləməyə macal verməyəcək.

Bir neçə gündən sonra, axşam saat altıdan sonra poçt rabitəsi üzrə nazir müavini Yusifov Sabir Məmmədoviçin yanına getdim və baş verənlər barədə danışaraq, ondan LERİ-nin əyani aspirantura şöbəsinə keçməyimə kömək etməyini xahiş etdim.

Başını yellədərək, müdrik Sabir Məmmədoviç dedi:

- Zərər yoxdur, Abdul, yadında saxla, sən hələ Azərbaycanın Rabitə Naziri olacaqsan, bax onda onu özünə köməkçi etməyi unutma, axı o yaxşı mütəxəssisdir, amma nə edək – insan amilidir!

O Moskvaya, SSRİ-nin Rabitə Nazirliyinin kadrlar şöbəsinə zəng edib, Kadrlar idarəsinin müavini Rıjov Mixail Alekseyeviç ilə danışdı. Nəzakətlə salamlaşaraq, soruşdu:

- *Mixail Alekseyeviç, burada bizim oğlan LERİ-nin qiyabi aspiranturasında professor B.S.Livşicin yanında oxuyur. Deyə bilərsiniz, biz ona əyani şöbəyə keçməkdə kömək edə bilərikmi, axı onun 27 yaşı var, qoy müdafiə etsin, sonra onu Respublikanın Rabitə Nazirliyinə geri götürərik.*

Selektorla cavabı eşitdim:

- *Sizin imzaladığınız məktub və onun ərizəsi ilə gələn həftə birlikdə gəlin. Amma qoy o öz elmi rəhbərinə də zəng edib, onun təsdiqini alsın. Güman edirəm, problem olmayacaq. Beləliklə, sizi bir həftədən sonra gözləyirəm.*

Bir həftədən sonra Sabir Məmmədoviç Yusifovla birlikdə SSRİ-nin Rabitə Nazirliyinin kadrlar idarəsində idik, bir gün sonra isə LERİ-nin rektoruna, Azərbaycanın Rabitə Naziri Nəsrullayev Nəsrulla Hidayətoviçə ünvanlanan məktubların surəti və SSRİ-nin Rabitə nazirinin imzası ilə əyani aspirantura şöbəsinə keçməyim haqqında məktubun surəti əlimdə idi.

Qoy, Allah Sabir Məmmədoviça rəhmət etsin, rəhmətlik çox xeyirxah və əvəzolunmaz rəhbərlərdən biri idi. Yaxşılıq etməyi sevirdi. Ona müraciət edən hər bir kəsə kömək edirdi.

Və mən 16.11.1974-cü il tarixində, növbəti məzuniyyətim zamanı, İttifaqın Rabitə nazirliyinin məktubu əsasında Azərbaycanın Rabitə nazirinin əmri ilə M.A.Bonç-Bruyeviç ad. Leninqrad Elektrotexniki Rabitə İnstitutunun əyani aspiranturaya keçdim.

Yenə, beş il əvvəl olduğu kimi, ildırım sürəti ilə Azərbaycanın Rabitə Nazirliyindən getdim. Bu dəfə sonuncu, ali təhsil dərəcəsi almaq və dissertasiya müdafiə etmək üçün.

Nazirlikdə bəziləri mənim addımlarıma çaşıb qalmışdı, bunu lazımsız hesab edirdi, digərləri isə nailiyyətlərimə sevinir və gələcəyimə inanırdı.

Amma hamıdan çox mən özüm sevinirdim:

- Birincisi, hörmət etdiyim Azərbaycanın Rabitə Nazirinin birinci müavini ilə qarşıdurmadan getdim;
- İkincisi, Bakıda tələbəlik həyatını bilmədiyim üxün, LERİ-nu mən xoşbəxt aspirantura həyatından həzzini ğözləyirdim;
- Üçüncüsü, mənə ayrılmış müddətdə dissertasiyanı müdafiə edə biləcəyimə inanırdım.

Hər şey planlaşdırdığım kimi gedirdi və yalnız öz üzərimdə səylə çalışmalı, seçdiyim mövzunu tədqiq etməli, məqalələri nəşr etdirməli və elm qranitini "*gəmirməli*" idim.

Amma ən əsası LERİ-nin Avtomatik elektrorabitə (AER) kafedrasının gözəl kollektivi arasına düşməyim idi.

Allah, necə yaxşı və səmimi insanlar çalışırdı AER kafedrasında: gənc aspirantlar, assistentlər, baş müəllimlər, dosentlər və nəhayət, layiqli professorlar!

Başa düşürəm ki, hər kəsin qəlbinə girmək mümkün deyil, amma inanın, burada insanlar, mənə görə, çox gözəl idilər, mənə qarşı, belə desəm, əyalətdən gələn oğlana necə münasibət, necə səmimi dostluq duyğuları bəsləyirdilər!

İlk dəfə bunu söyləyirəm, ancaq Azərbaycan ziyalılarının nümayəndəsi kimi doğma Azərbaycanın müstəqilliyinin bərpasını mən ən böyük xoşbəxtlik hesab edirəm, lakin LERİ-də doğma kafedramla əlaqənin kəsilməsinə görə İttifaqın dağılmasına da heyfsilənirəm.

1989-1995-ci illərdə bütün postsovet məkanında bizi yaxalayan o zalım yoxsulluq, çarəsizlik və əsasən də Ermənistanın Azərbaycan torpaqlarına olan iddiaları və 20% qədim torpaqlarımızın işğalı şəxsən mənə çox toxundu.

Mən, mahiyyətcə, ən yaxşı dostlarımı itirdim, hansıları ki, doğulduğum Göyçayda, yaşadığım Bakıda deyil, hələ də darıxdığım Leninqradda – Neva ətrafındakı şəhərdə tapmışdım [148].

Məndə kafedramızın o 1973-cü ilin fotosu (*yaxşı ki, LERİ-nin saytında da qoyulub*) vardı və onu xatirələrimdə canlandırdığıma görə xoşbəxtəm.



Yuxarı sırada dayananlar: Yeqorova Q.N., Lobaxina A.S., Yakovlev S.D., Balabayeva N.V., Sonderis A.Y., Safronov V.D., Rivina A.Q., Çaqayev N.S., Quan T.N., Popov V., İsayev V.İ., İvanova T.İ.

Aşağı sırada oturanlar: Smelova V.A., Livşic B.S., Sobolev O.A., Mamontova N.P., Avakov R.A., Pokrovskiy N.B., Podvidz M.M.

1974-1977-ci illərdə M.A.Bonç-Bruyeviç ad. Leninqrad rabitə institutunun aspiranturasında təhsilim zamanı necə gözəl kollektiv, necə yaxşı insanlar məni əhatə edirdi.

Anlayıram, tarixi geri qaytarmaq olmaz, lakin LERİ-nin doğma AER kafedrası ilə bağlı olduğum həmin 1973-1990-cı illər yaradıcı artım və inkişaf etdiyim ən gözəl illərim idi.

Bacım Tatyana Quanı, həmişə mehriban və əziz Nataşa Balabayevanı, daim ciddi və səmimi Volodya İsayevi, həmçinin mənə qarşı xeyirxah və qayğıkeş N.P.Mamontovu, Q.N.Yeqorovanı, A.S.Lobaxini, A.Y.Sonderisi necə unutmaq olar?

Həmişə gülərüz V.A.Smelovu, istedadlı alim B.S.Livşici, O.A.Sobolevi, R.A.Avakovu, N.B.Pokrovskiyi, M.M.Podvidzi və digərlərini necə xatırlamamaq olar?

Həyat bizə yalnız bir dəfə verilir, ancaq axirət dünyası haqqında müasir fantastik filmlərdən sonra həmin insanlarla görüşüb, Sovet quruluşunda, mənə elə gəlir ki, az söylədiyimiz daha çox yaxşı sözləri və arzuları söyləməliyik.

Bu gün, demək olar ki, 70 yaşımda elmi rəhbərim və mənə əziz insan, LERİ-nin professoru, Boris Samoyloviç Livşicdən böyük görünürəm, amma inanın ki, qəlbimdə eyni səmimiyyətlə, eyni şən, eyni bu insanları sevən – Azərbaycandan olan Abdulam.

Hamımız bu dünyaya vədlərimiz və çağırışlarımızla gəlirik, zənn etdiyimiz kimi, bizə ayrılmış missiyanı yerinə yetirməyi çatdırmağa çalışırıq.

Ona görə də mən, Qəhrəmanzadə Abdul Həmidulla oğlu, texniki elmlər namizədi, dosent, indi isə müstəqil ekspert, 250 nəşrin müəllifi, onlardan 150-i elmi əsərlər (*10 monoqrafiya daxil olmaqla*) və 100-ü kütləvi informasiya vasitələrində analitik məqalələrdir, doğma kafedrama minnətdaram.

Sıravi texnikdən Azərbaycanın Rabitə Nazirinə, Beynəlxalq Telekommunikasiya İttifaqı – ITU (*Əfqanıstan –Project-AFG-83/001-1985/86 illər; Liviya – Project-LIB-88/007-1992/93 illər və Pakistan – Project-PAK-88/002-1993 il*) xətti ilə Birləşmiş Millətlər Təşkilatının (*BMT*) ekspertinə qədər yolum məhz bu isti kollektivə görə mümkün oldu.

Məhz burada alim kimi yetişdim, kafedranın təlim prosesində iştirak etdim, öz ixtisasım üzrə məqalələr, elmi hesabatlar, sonra isə dərs vəsaitləri və monoqrafiyalar yazmağı öyrəndim.

Bu gün bu kafedra "Kommutasiya sistemləri və informasiyanın paylanması (KSvəİP)" adlanır və demək olar ki, Leninqrad mühəndislər institutu (*LERİ və SPTDU-nin tarixi sələfi*) yarandığından təşkil olunan dörd xüsusi kafedralardan biridir.

*"Eşqinlə atəşə dön, nifrətinlə buza dön,*
*Elm yolunda günə dön, aya dön, ulduza dön!"*
Nizami Gəncəvi (1141-1209)

## 3.2. Əyani məqsədli aspiranturam.

Leninqradın Vasilyevsk adasında Orta Prospektdəki yataqxanada ilk gün müəmmalı idi.

Yaşlı qadına ğörə (*allah mələyi*), mən Orta Prospektdəki bizim LERİ-nin yataqxanasının (*aspirantlar üçün olsa da 95%-i tələbə idi*) qarşısındakı avtobus dayanacağından yataqxanaya geri qayıtmalı oldum.

Görün nə baş verdi. Yataqxanadan başı açıq çıxdım, avtobus dayanacağına gəldim. Yox, əlbəttə, bir az soyuq hiss etdim, amma -20 dərəcə şaxtanın nə olduğunu bilmirdim...

Dayanmışdım və birdən kimsə belimə vurdu. Çevrilib, yaşlı qadın gördüm, əlləri əsirdi və həyəcanla dedi: "*Cavan oğlan, zəhmət olmasa, əllərinizi tərpətməyin və heç nəyə toxunmayın. Yəqin dayanacağın yaxınlığında yaşayırsınız?*"

Tərpənmədən başımla avtobus dayanacağının qarşısındakı yataqxanamızı göstərdim. Gülümsədi və dedi: - *Elə də başa düşdüm, gəlməsiniz və görünür bizim şaxtalardan anlayışınız yoxdur. Belə, cavan oğlan, heç bir halda özünüzə toxunmadan tez otağınıza dönüb, ayna qarşısında on dəqiqə dayanın və görəndə ki, burnunuz və qulaqlarınız normal rəng alıb, çay qoyub, heç olmasa bir stəkan için. Və yalnız yarım saatdan sonra qulaqlarınıza və burnunuza toxuna bilərsiniz. Sizin ağlınıza ümid edirəm, tanrı sizinlə olsun.*

Və təsadüfən kimi: "*Burnunuzu itirə bilərdiniz!*"

Qafqaz mentalitetimə (*böyüklərin məsləhətlərinə hörmət*) görə, bu xeyirxah yaşlı xanımın məsləhətini yerinə yetirdim. Hətta dərk edəndə ki, mənə nə ola bilərdi, qanım elə qaraldı ki, həmin gün ümumiyyətlə kafedraya getmədim.

Avtobus dayanacağındakı o yaşlı xanım, şübhəsiz, məni kəskin şaxtanın nəticələrindən xilas etdi. Bundan sonra bütün qış aylarında çantamda qulaqlı papaq olurdu.

Ertəsi gün Bakı Marksizm-Leninizm Universitetinin verdiyi sənədləri götürüb, LERİ-yə qonşu binaya getdim, Sov.İKP Leninqrad şəhəri Komitəsinin Marksizm-Leninizm Universitetində Partiya-təsərrüfat fakültəsinin Təsərrüfatçı Rəhbərlər bölməsinə qəbul oldum və 1974-1975-ci illərdə burada oxudum.

Həmçinin LERİ-də partiyaya qeydiyyata dayandım, burada məni xəbərdar etdilər ki, bir həftədən sonra institutda bütün institutun hesabat-seçki Partiya Konfransı keçiriləcək.

Başa düşdüm ki, ən yaxşısı kafedra müdirinə yaxınlaşıb, ondan ətraflı öyrənmək lazımdır. Onunla ilk görüşüm göstərdi ki, texniki elmlər doktoru olmasa da LERİ-nin istənilən alimindən ağıllı və çəlddir. Məsləhət üçün yaxınlaşmağım onun xoşuna gəldi. Gülümsəyərək, dedi:

- *Abdul, bilirsən, akt zalına girəndə prezidiumdan uzaqda elə əyləş ki, oranı yaxşı görəsən. LERİ-nin partiya komitəsinin üzvüyəm, bəzən mənə baxmağa çalış, lakin öz istəyinlə. Görəndə ki, əlimi qaldırdım, sən də qaldıra bilərsən. Əsasən, sakit otur və diqqətlə qulaq as. Yaşamağın əsl məktəbidir, əgər diqqətli olsan, çox şeyi başa düşərsən.*

Partiya Konfransı səhər saat on birdə başladı və fikirləşdim ki, nə yaxşı, fasiləyə qədər bitəcək.

Akt zalı ağzına qədər dolu idi. Yaxşı ki, həmişə bütün tədbirlərə tez gedirəm.

Konfrans xüsusi heç bir şey bildirmirdi, amma belə mən düşünürdüm. Öncədən söyləyim ki, LERİ-nin Partiya Konfransı düz gecə saat on ikiyə on beş dəqiqə qalmış başa çatdı.

Yemək üçün iki dəfə (*səsvermə istisna olmaqla*) yarım saatlıq fasilə elan olundu.

Həyatımda heç vaxt gedişatı dağıdılan və hər dəqiqə dəyişdirilən konfransda iştirak etməmişdim.

Kafedra müdirimə davranışım üçün dəqiq təlimatına görə minnətdar idim. Amma, hətta belə olduğu halda baş verənlərə şübhə ilə baxırdım.

Günəş altındakı yer üçün mübarizə aparan qrupların sayı onlarla idi. Təkcə bir epizodu deyim.

Hansısa B.S.İvanova söz verildi, ağzı köpüklü hansısa S.A.Petrovun irəli sürülməsinin yanlışlığını izah etdi və LERİ-nin bütün partiya üzvlərinə qarşı diqqətli olmağı təklif etdi.

Hansısa M.M.Sidorova söz verildi, sakitcə, inandırıcı və dəqiq sözlərlə B.S.İvanovun namizədliyini rədd etdi.

Baş verənlərin məğzini başa salmaq üçün bir çıxışı çox ətraflı təkrarlamağa çalışacağam:

"*Yoldaş kommunistlər, dostlar, məndən əvvəl yoldaş S.A.Petrov çıxış etdi (Solomon Aronoviç, sizdən bəhs edirəm – deyə əlavə etdi)*" (gülüş səsləri). "*İndi baxın, Partiya Komitəsinə o yoldaş İvanovu təklif etdi (Boris Solomonoviç, sizi deyirəm)*" (gülüş səsləri). "*Yoldaş S.A.Petrov bəs kimi təklif edir?*

*Gəlin əvvəlcə ayırd edək. Bəli, 20 il bundan əvvəl siz, yoldaş İvanov B.S. mənimlə LERİ-də bir qrupda oxuyurdunuz. Onda sizin familiyanız Cukerman B.S. idi. Bir ildən sonra Leninqrad vilayətində kartof yığımından sonra Saxareviç B.S. oldunuz, daha bir neçə ildən sonra, VEF Riqa zavodunda praktikadan qayıtdıqdan sonra familiyanız Saxarov B.S. oldu, aspiranturaya daxil olduqdan sonra isə İvanov B.S. oldunuz.*

*Mənim bir sualım var, - Kimə səs verməyi təklif edirsiniz: Cukerman B.S.; Saxareviç B.S.; Saxarov B.S. yoxsa İvanov B.S.-ə?*"

Bütün zal gülməyə başladı.

İş orasındadır ki, məhz bu 1974-77-ci illərdə həm LERİ-də, həm də ümumiyyətlə bütün Rusiyada yəhudilərin təqibinə başlanılmışdı.

Əlbəttə Azərbaycan, Bakı istisnadır.

Bu partiya konfransından sonra çox şeyi başa düşdüm, hər zaman alınmasa da az danışmağa çalışırdım.

Yeni 1975-ci il münasibətilə aspirant yığıncağımız xüsusi keçdi. Yataqxanamızın beşinci mərtəbəsində yığışdıq, uşaqlar mənə də müraciət etdilər ki, yeni il gecəsi üçün 5 rubldan yığırlar.

Keçmiş komsomol lideri kimi mən də dərhal pulu verdim və dedim ki, gecəmizə bir şüşə Azərbaycan konyakından gətirəcəyəm.

Şən keçdi. Stolda o zamankı Sovet İttifaqı anlayışlarına görə hər şey vardı (*qaynadılmış kartof, kolbasa, müxtəlif pendirlər, qazlı su və əlbəttə ki, çoxlu araq*).

Əsasən stol arxasında yeni qəbul olmuş aspirantlar əyləşmişdi: Daşkənddən, Novosibirskdən, Litvadan, Samaradan, Odessadan, Bolqarıstandan, Vyetnamdan və mən Bakıdan.

Gecə yaxşı keçirdi, hamı dincəlməyə və şənlənməyə çalışırdı. Bir neçə saatdan sonra araq qurtardı. Bu görəndə öz otağıma keçib, Azərbaycan konyakını gətirdim.

Stol arxasında hamı şad oldu, konyakdan da içməyə başladılar.

Amma yarım saatdan sonra Teleqrafiya (PDİ) kafedrasının aspirantlarından biri mənimlə öcəşməyə başladı:

- Baxıram, içmirsən, nədir, sənə layiq deyilik, nədir, bizə hörmət etmirsən və s.

Başa saldım ki, ümumiyyətlə içmirəm və üzr istəyirəm, bu uşaqlıqdan belədir və s.

Amma artıq sərxoş olan oğlan ədəbsizlik və kobudluq etməyə başladı:

- Ağacdan indi düşüblər, bu meymunlara hələ yazıb-oxumağı, ədəbiyyat və incəsənəti öyrətməliyik və s.

Bu sərxoşa kobudluq etmək istəmədim, ona görə də yumşaltmağa çalışdım. Bizim Yura Bıkov araya girdi, dedi:

- İlk dəfə toplaşmışıq, bu o deməkdir ki, bir-birimizi tanımırıq, ona görə də kobudluq etmək yaxşı deyil. İkincisi, sən Volodya, xatırladığım qədər, biz 5 rubl yığanda dedin ki, yoxundur, Abdul isə beş rubl verdi, hələ üstəlik, indi içdiyimiz Azərbaycan konyakını da gətirdi. Belə ki, sən Abdulun hesabına içirsən, hələ ona kobudluq da edirsən. Bu insanlıqdan deyil.

Stola sükut çökdü.

Yuraya çevrilib dedim ki, bu gün elə bir gündür ki, onu bağışlamaq olar.

Elə bil münaqişə həll olunmuşdu, amma yox, beş dəqiqədən sonra bu cavan daha taraşlanmış yarım stəkan konyakdan içib ayağa qalxdı, mənə yaxınlaşdı, yanımda dayanıb ədəbsizlik etməyə

başladı. Başa düşdüm ki, onu yerinə oturtmaq lazımdır və bunu burada, hər kəsin yanında, hələ aspirantlar dağılışmamış etmək lazımdır. Ona tərəf çevrilib soruşdum:

- Volodya, söylə, ikimizdən hansımız meymunuq: sən, doyunca yeyib, adi ədəb qaydalarını unudan, yoxsa mən, sənin ədəbsizliyini yumşaltmağa çalışan? Sonra ədəbiyyat və incəsənətlə öyünürsən. Sənin ədəbiyyatının heç min yaşı yoxdur, mənim millətim isə zərdüştilikdən gəlir, yəni eramızdan bir neçə min il bundan əvvəl. Hələ Musa, İsa Məsih və Məhəmməd də yox idi. Sonra, dahi rus yazıçısı və şairlərindən hansını sən əlçatmaz sayırsan?

- Puşkini – tərəddüd etmədən cavab verdi.

- Yaxşı. Birincisi, Puşkin Hannibalın nəvəsidir, yəni ərəbin. O rus deyil. İkincisi, A.S.Puşkinin ən böyük əsəri – poeması "Yevgeniy Onegin"dir, 1830-cu ildə tamamlanmışdır, düzdür?

- Hə (*demək olar ki, özünü itirmiş Volodya cavab verdi*).

- Mənim dahi milli şairim və elm xadimim – Nizami Gəncəvi isə (*İlyas Yusif oğlu*), 1141-1209-cu illərdə yaşamış, XIII əsrin əvvəllərində beş belə əsər yazıb. Mən həm Puşkini, həm də Nizamini bilirəm, sən isə yalnız Puşkini. Onda söylə Volodya, bizdən hansımız bisavad, hansımız isə savadlıdır?

Sükut çökdü. Heç bir söz tapmadan Volodya qalxdı və mənə yumruq atdı.

Bu zaman ayı boyda iri cavan oğlan onu yıxdı və az qala altında əzdi.

Səən saakitləəşş – açıq-aydın baltikyanı tələffüzlə dedi. – Gücə güc həmişə tapılar. Tanış olaq, mən Robertos Şertvitesəm, Litvadan, Kaunasdanam, mən də az içdim. Abdul və Yura düz deyirlər. Sən ədəbsizsən və bunu sənə gözlərinə baxaraq deyirəm. Şovinistsən, bilmirəm Sov.İKP tarixindən necə hazırlaşıb imtahan vermisən, amma əgər istəyirsən, sənin qabiliyyətsizliyindən, ən əsası, ümumiyyətlə tarixi bilməməyindən LERİ-nin rektoruna rəsmi yaza bilərəm. Əgər özünü sevirsənsə və hörmət edirsənsə, ətrafındakılara da hörmət etməlisən, yoxsa, Abdul deyil, mən səni öyrədəcəyəm.

Volodyanın rəngi qaçdı, dili dolaşmağa başladı, bilmədi nə cavab versin və bu cür təzyiqə davam gətirməyib otaqdan çıxdı.

Yenə sükut çökdü, onu Robertos Şertvites pozdu, qısaca dedi: "*Tarix dərsinə görə Abdul çox sağ ol. Utanıram ki, ümumiyyətlə azərbaycanlıları tanımıram. Bu mənim nöqsanımdır, indi bilirəm ki, kitabxanada dissertasiyadan başqa Nizami Gəncəvinin əsərlərini də axtarmalıyam. Burada oturanlardan xahiş edirəm ki, qədəhimizi Azərbaycana və azərbaycanlılara qaldıraq*".

O qalxdı və ilk dəfə qədəhini axıradək içdi. Tutuldum, lakin bütün uşaqlar qədəhlərini axıradək içdi.

Bundan sonra uşaqlar daha rahat oldular, artıq heç bir gərginlik yox idi, hamı gülümsəyirdi və məmnun idi.

Sonra məlum oldu ki, baş verilənlər barədə sonrakı həftədə LERİ-nin Aspirantura şöbəsinə məlumat veriblər.

Yeni il gecəsindən sonra məni Aspirantura şöbəsinə çağırdılar. Baş verənlər barədə sorğu-sual etdilər, prinsipiallığımı qeyd etdilər və Sov.İKP-nin üzvü kimi mənə AER fakültəsinin Könüllü Xalq Dəstəsinin (*KXD*) sədri vəzifəsini təklif etdilər. Nevskiy Prospektinin sonunda Moskva vağzalının yaxınlığında yerləşən Leninqradın Kuybışev rayonu üzrə patrul keşiyi çəkmək lazım idi.

İki ayda bir dəfə dəstəmiz Leninqradın Kuybışev rayonunun ən ədəbsiz yerində – həmişə əxlaqsız qızların yığışdığı yerdə növbə çəkirdi. Ancaq Leninqrad şəhərinin Kuybışev rayonunun HNN-in rəis müavini mayor N.P.Popovun məlumatı mənin üçün şok oldu.

O məlumat verdi ki, Kuybışev rayonu üzrə ananın oğlu, atanın qızı, atalığın isə arvadının 16 yaşına çatmamış qızı ilə yaşadığı və s. onlarla hallar qeydə alınmışdır.

Bunları kənara qoyaq, axı mənim əsas məsələm elmi rəhbərim, t.e.d., professor Boris Samoyloviç Livşic ilə etibarlılıq münasibətlərinin qaydaya salınması idi. Ünsiyyətcil adam kimi qısa müddət ərzində onunla yaxınlaşmaq üçün bir neçə addım atdım.

Bundan əlavə, dosent Mamontova Nina Petrovna (*kafedra müəllimi və B.S.-in yetirməsi*) sayəsində Boris Samoyloviçin faciəvi şəkildə ölən qızı Sofiyanın dəfn edildiyi qəbiristanlıqda oldum.

Bizim Azərbaycanda deyildiyi kimi, hətta düşmənimə də arzulamıram. Orada Sofiyanın həyat yoldaşı Mixail ilə tanış oldum, həmişə nəvazişlə Mişenka deyə onu çağırırdım və o da incimirdi.

Boris Samoyloviçin həyat yoldaşı Matilda Samoylovna ilk görüşdən məni öz oğlu kimi qəbul etdi, gözəl qəlbi vardı, hərtərəfli, bilikli, nəzakətli və çox ağıllı idi mənim leninqradlı anam.

Matilda Samoylovna ilə tanış olanda başa düşdüm ki, bu cür düşüncə nəhəngi Boris Samoyloviç Livşicin məhz belə ağıllı həyat yoldaşı olmalıdır. Boris Samoyloviç, necə deyərlər, onunla Məsihin qoynundakı kimi yaşayırdı.

Boris Samoyloviç Livşic SSRİ-də telekommunikasiya sahəsində ən məhsuldar alimlərdən biri idi – özünün Leninqradda LERİ-nin AER kafedrasının məzunları ilə dolu olan teletrafik məktəbi vardı, professor Rafael Antonoviç Avakov rəhbərlik edirdi.

LERİ-nin bu avtoritetinin yaratdığı yaradıcı mühit Leninqrad TRETİ (*Telefon Rabitəsi Elmi-Tədqiqat institutu*) bölməsinə telekommunikasiya məsələlərində tanınmış liderlərdən olmağa kömək etdi. B.S.Livşicin bütün yetirmələri üçün istiqamət olan yüksək hədd onlar tərəfindən müəyyən edilmişdi.

Şadam ki, hal-hazırda prof. M.A.Bonç-Bruyeviç ad. SPTDU-nin İnformasiyanın paylanması kommutasiyası sistemləri kafedrasının saytı mövcuddur, burada böyük elm fədaisinin başladığı infokommunikasiya ixtisasları üzrə bakalavrların, magistrlərin, mühəndislərin, aspirantların, doktorantların yetişdirilməsi məsələləri öz əksini tapır.

Boris Samoyloviç həmişə yorulmaz peşəkar olub və bütün yetirmələrini də bu cür yetişdirib. Şəxsən məni Boris Samoyloviç elm fədaisi edib. Xoşbəxtəm ki, Boris Samoyloviç Livşic kimi bu cür elmi rəhbərim olub. Allah ona rəhmət eləsin!

LERİ-nin aspiranturasında təhsil illərində (1974-1977) tez-tez Sankt-Peterburqun Nevskiy prospektində yerləşən ən yaxşı kitabxanalarına gedirdim. Bəzən xarici dildə məqalələr sifariş edirdim, sonra həftələrlə onları tərcümə edirdim, çalışırdım dissertasiyama yaxın nəsə tapım.

Məhz onda qiyabi olaraq Böyük Britaniyalı məşhur rabitəçi alim Con Fladın əsərləri ilə tanış oldum.

*John Flood, O.B.E., D.Sc. C.Eng., F.I.E.E., Professor of Aston University in Birmingham. Former chairman of both the British Standards Committee for Telecommunications and the IEE Professional Group on Telecommunications Networks and Systems* – yazılan məqaləni tapdım.

Nəticədə, daha doğrusu 1981-1982-ci illərdə Con Flad Böyük Britaniyada Birmingemin Aston Universitetində elmi rəhbərim oldu. Və bu Tanrıdan bir işarə idi. Lakin Leninqradda məhz bir dəfə təxminən bütün ay ərzində texniki ədəbiyyatla deyil, tanımadığım, ancaq sevdiyim və çox hörmət etdiyim sahənin dilçiliyi ilə məşğul oldum.

Zaqafqaziya respublikaları və Rusiyanın iki paytaxt şəhəri Moskva və Leninqrad (*Sankt-Peterburq*) danışıqları arasındakı müddət fərqini başa düşmək üçün çox şeyi qaldırmalı oldum.

İş orasındadır ki, İttifaqın Rabitə Nazirliyinin təsdiq etdiyi şəhər telefon şəbəkələrinin (*ŞTŞ*) Texnoloji Layihələndirmə Normalarına (*TLN*) görə mənzil sektoru üçün orta danışıq müddəti 140 saniyədən artıq deyil, xidmət sektoru üçün isə 90 saniyə ərzində nəzərdə tutulub.

Yalnız göstərilən parametrin Zaqafqaziyanın üç paytaxtında apardığım minlərlə ölçüsü bu parametrin təsdiq edilmiş Texnoloji Layihələndirmə Normalarından (*TLN*) əhəmiyyətli fərqini verirdi.

Elmi rəhbərim Boris Samoyloviç təkid edirdi ki, bu fərqlər yalnız statistik deyil, həm də dilçilik baxımından sübut edilsin.

Bax onda bir xanımla tanış oldum (*Leninqradın oxu zallarında isə onların sayı az deyildi və onlar, bir qayda olaraq, zəngin xarici aspirantlardan qazanırdılar*). Səksənə yaxın yaşı olardı, dəbdəbəli idi, unikal krujevalı paltarlar geyinirdi və lələkli şlyapalar taxırdı. Aydın oldu ki, bu qadınların bəziləri 5-6 xarici dil bilirdi, hərtərəfli, savadlı, yüksək intellektli idilər və bundan əlavə, onlar arasında Peterburqun qədim rus zadəganlarından idilər.

Beləliklə, bir dəfə bu xanımlardan biri mənə yaxınlaşıb, qarışdığına görə üzr istəyib, dedi: "*Siz, cavan oğlan, yəqin xarici*

*deyilsiniz, amma ədalarınız, əsasən də çalışqanlığınız mənə bir şeylər deyir. Sual olunur, niyə özünüzü artıq üçüncü həftədir ki, belə incidirsiniz?*" Düzünü desəm, özümü bir qədər itirdim (*artıq 3 həftədir buraya gəldiyimi haradan bilirdi?*), lakin özümü ələ alıb, bu çağırılmamış qonağa Apraksin Dvora (*kitabxanaya*) gəlmə səbəbimi izah etməyə çalışdım. O gülümsəyərək və olduqca məmnun söylədi:

"*Mən, cavan oğlan, güman edirəm ki, siz A.S.Puşkinlə qohumsunuz, amma, yəqin ki, ərəb dilini bilmirsiniz. Probleminizi iki kəlmə ilə mənə izah edin*".

Bax beləcə qrafinya Zinaida Petrovna (*familiyasını büruzə etmədi ki, etmədi*) ilə tanış olduq, yarım saatlıq söhbətdən sonra isə yenə gülümsəyərək: "*Siz, cavan oğlan, ərəb deyil, daha çox türksünüz*". Vidalaşaraq dedi ki, sabah məni düz saat on birdə elə bu stolun arxasında gözləyəcək. Ertəsi gün təyin olunmuş vaxtda o, gülümsəyərək, məşhur leninqradlı dilçinin əsərinin nüsxəsini mənə uzatdı və məni özünün məşhur yetirməsi, Leninqrad Universitetinin professoru ilə tanış etməyi təklif etdi. Mən karıxdım və dedim:

- Niyə məndən ötrü kserokopiyaya xərc etmişsiniz?

Cibimdən pul kisəsini çıxarmağa cəhd etdim, amma o özünəməxsus gülümsəməsi ilə mənə əl yelləyib getdi.

Bu əvəzolunmaz əsərlə tək qalıb, fasiləsiz üç saat oxudum və Zinaida Petrovnanın necə də "*hədəfi düz nişan aldığına*" məəttəl qaldım, ən əsası isə bu məqaləyə görə problem öz həllini tapdı.

Artıq dilçilik baxımından təsdiqlənən mülahizəni tərtib edib, SSRİ-nin ümumittifaq elmi-texniki jurnalında nəşr etdirmək üçün ilk məqaləmi hazırladım. Elmi rəhbərim B.S.Livşiclə cilaladıqdan sonra məqalə "*Elektrikrabitəsi*" (*№ 5, 1977-ci il*) jurnalında nəşr edildi.

1976-cı ilin fevralında məqaləni Moskva şəhərinə göndərdikdən yalnız bir il sonra (*həmin il martın 5-də atam vəfat etdi*), 1977-ci il martın 7-də gül dəstəsi ilə kitabxanaya getdim. Saat 11-ə qrafinyanı görmək ümidi ilə oxu zalında idim, amma düzünü desəm, bu gün onun orada olacağından şübhə edirdim.

Lakin məni sürpriz gözləyirdi: oxu zalının girişində bantlı hündür xanım yolumu kəsib dedi: "*Bizim oxu zalımız botanika bağı deyil, burada camaat işləyir, siz isə onların allergiyasına səbəb ola*

*bilərsiniz*". Özümü itirdim, nəyisə izah etməyə çalışdım, daha doğrusu, bir neçə dəqiqəliyə icazə almaq istədim, amma xanım yaxamı buraxmadı, gülləri qarderoba verməyimi təkid etdi.

Birdən mehriban və tanış səs eşitdim: "*Nina Petrovna, mənim kavalerimi qapıda niyə saxlamısınız*". Çevrildim və sevimli qrafinyamı gördüm, sevinərək gül dəstəsini ona verdim. O isə sakitcə güldü və məmnun, məmnun.

Yaxamdan yapışan xanım isə üzr istəyərək, dedi:

- Oy, Zinaida Petrovna bu Sizədir, xahiş edirəm, bağışlayın.

Sonra qrafinya əlimdən tutdu və bizim masaya keçdik. Sevgilə gülləri qoydu, samur şərfini çiynindən atdı və artıq ciddi söylədi: - Çox sağ ol, Abdul.

Təxminən yarım saat çox ciddi söhbət etdik. O dəqiqə məndəki dəyişiklikləri hiss etdi, ehtiyatla soruşdu: - Arıqlamısınız və başınız ağarıb? Bir il bundan əvvəl atamı itirdiyimi qısaca söyləməli oldum. Bacım Nailənin teleqramından, atamın beyin qanamasından, həmin gecə necə uçub çatdığımdan, həmçinin beyin qanamasından sonra atamın vəfatından danışdım.

O anlayışla başını yellətdi və əlavə etdi:

- *Siz müsəlmanlarda böyüklərə hörmət və ailəyə sevgi gözəldir. Dininizin və ümumiyyətlə bütün türklərin bu xüsusiyyəti yaxşıdır. Bizim ana Rusiyamız təxminən min il bundan əvvəl xristianlığı qəbul edib (xaçlanaraq davam etdi). Bizim kişilərimiz Rusiya tarixində dəfələrlə səhvə yol veriblər, ancaq ən böyük səhvləri, icazənizlə söyləyim, min il bundan əvvəl müsəlmanlığı rədd edib (alkoqola görə), xristianlığı qəbul etmək olub.*

Mən, yumşaq söyləsəm, çaşdım, o isə bunu hiss edərək, əlavə etdi: "*Axı yeganə dini seçməzdən əvvəl kişilərimiz veçe – knyaz və boyarları toplamağı qərara aldılar, böyük yığıncaq keçirdilər və bütün bunları çox ciddi müzakirə etdilər. Burada çoxlu sayda sadə camaat da iştirak edirdi, çarın özü isə əyanları ilə rəhbərlik edirdi, hansılar ki, bütpərəstliyə vərdiş etdiklərindən ona hamıdan çox tərəfdar idilər. Tarix göstərir ki, demək olar ki, hamı bir səslə Rusiyanın bütün türk şərqini nəzərə alaraq (Sibir, Orta Asiya və*

*Qafqaz), gələcək Rusiya imperiyası üçün yeganə düzgün qərarda – müsəlmanlıqda dayandı.*

*Əlbəttə, yunan filosofları və ruhaniləri, indi isə həm də erməniçilik hakimiyyətin yuxarı eşelonuna əsas təzyiqi göstərib və hələ də göstərir. Lakin tarixin reallığı var ki, knyaz Vladimirin xaç suyuna salınmasından əvvəl "inamı sınanmışdı" və knyaz Vladimirə Volqa Bolqarlarından islamı qəbul etmək təklifi olmuşdu.*

*Lakin yekdilliklə islamı təqdir etdikdən sonra birdən kimsə (ağsaqqallardan biri) yerindən qalxaraq, elan edir:*

*- Güman edirəm, bütün iştirak edənlər müsəlmançılığı seçməkdə haqlıdır, bu bizi bütün əsrlərdə çox böyük, vahid və məğlubedilməz edər. Yalnız, inkar olunmaz bir məsələ var – Qurana görə müsəlmanlara içmək qadağandır.*

*Bəli, cavan oğlan, bu arqument bütün iştirakçıları susdurdu – "Rusiya içkisiz – mümkün deyil" və Vladimir Rusiyanı Bizans dövlətləri dairəsinə daxil etdi.*

*Bilirsiniz, mənim babam 15 iyul 1888-ci ildə Moskvada Rusiyanın xaçlanmasının 900 illiyinin qeyd edilməsində iştirak edib, bax belə işlər. Lakin Rusiyanın ən yaxşı mütəfəkkirləri və xüsusilə də A.S.Puşkin, L.N.Tolstoy və əlbəttə ki, F.M.Dostoyevskiy islamla idilər və şəxsən deyim ki, buna görə onlar rəsmi orqanlardan zərər çəkdilər.* Sonra isə hiyləgər gözləri ilə mənə baxıb, əlavə etdi: - *Siz isə cənab, güman edirəm ki, A.S.Puşkinin Qurana həsr etdiyi yeddi şer haqqında xəbərdarsınız, onlar belə də adlanır – "Qurana təqlidlər" şerlər silsiləsi.*

Amma mənim təəccübümü görüb, tez kağız üzərində cızdı: A.S.Puşkinin əsərlərinin tam külliyyatı 10 cilddə. SSRİ EA-nın nəşriyyatı, 1956-cı il, 2-ci cild, mötərizədə isə əlavə etdi (*1820-1826-cı illərin şerləri*).

*"Bütün gözəl və nəcib şeylər -*
*dərrakə və niyyətin məhsuludur"*
Şarl Bodler (1821-1867)

### 3.3. Piter (*Leninqrad*) – dünyanın ən yaxşı şəhəridir.

Leninqradda məni təəccübləndirən ilk şey, demək olar ki, bütün kafedramız, LERİ-nin (*indiki prof. M.A.Bonç-Bruyeviç adına Sankt-Peterburq Dövlət Telekommunikasiya Universiteti*) tələbələri və hətta biz – SSRİ-nin müxtəlif şəhərlərindən məqsədli aspiranturaya oxumağa gələnlər Neva ətrafındakı şəhəri tək bir adla, lakin qürurla – Piter çağırırdıq. Hər hansı süfrənin: ad günləri, bayram tədbirləri yaxud dissertasiyanın müdafiəsi münasibətilə banketlərin Neva sahilindəki şəhərin mahnısı ilə bitərdi.

SSRİ dövründə anadan olub, orta rus məktəbində oxuyanlar bilirlər ki, Leninqrad (*6 sentyabr 1991-ci ilə qədər*), indiki Sankt-Peterburq 16 may 1703-cü ildə Çar Pyotr tərəfindən yaradılıb, 1712-ci ildən 1918-ci ilə qədər Rusiya imperiyasının paytaxtı olub. Hal-hazırda Sankt-Peterburq Şimal-Qərb Federal dairəsinin inzibati mərkəzidir, burada Rusiyanın Konstitusiya Məhkəməsi, MDB-nin Parlamentlərarası Assambleyası və s. yerləşir. Piter Şimali Avropada, Rusiya Federasiyasının şimal-qərbində, Baltik dənizinin Fin körfəzi sahillərində, Neva çayının ağzında yerləşir.

Hələ SSRİ tarixindən biz, aspirantlar yaxşı bilirik ki, Sankt-Peterburqda üç inqilab baş verib: 1905-1907-ci illərdə, 1917-ci ilin Fevral İnqilabı və 1917-ci ildə Oktyabr Sosialist İnqilabı. Sonralar, 1941-1945-ci illərin Böyük Vətən müharibəsində şəhər 900 gün düşmən blokadasında qalıb, və nəticədə 600000-dən insan ölüb.

Bilirdik ki, Leninqrad 1965-ci ildən Qəhrəman-şəhər adını daşıyır və Piter Rusiyanın vacib iqtisadi, elmi və mədəni mərkəzidir, iri nəqliyyat qovşağıdır. Piter özünün Ermitajı, teatrları (*Kiçik və Mariinskiy*), zəngin kitabxanaları, muzeyləri, Petropavlov qalası, İsakovskiy kilsəsi və s. ilə tanınır.

O Sovet illərində yazıldığı kimi, Sankt-Peterburq ərazisində bütün su axınının ümumi uzunluğu 282 km, onların səthi isə şəhərin

təxminən 10% sahəsini təşkil edirdi. Sankt-Peterburqun əsas su magistralı – Baltik dənizinin Fin körfəzinə tökülən Neva çayı idi.

Neva çayı deltasında əsas adalar: Vasilyevsk (*buradakı yataqxanada düz üç il qalmışam*), Petroqradskiy, Krestovskiy, Dekabristlər və s. Sankt-Peterburqun sularından 800-dək körpü keçir (*sənaye ərazisindəkiləri saymasaq*), o cümlədən 218 piyada.

Sankt-Peterburqun ən uzun körpüsü – Nevadan keçən Böyük Obuxovskiydir (*uzunluğu – 2824 m*), ən enli körpü isə Moyka çayındadır, 100 m-ə qədər. Amma Sankt-Peterburqun iqlimi rütubətlidir (*bir çox aspirantlar üçün çox da yaxşı deyil*), mülayimdir, mülayim-kontinentaldan mülayim-dənizə keçəndir.

Hesab olunur ki, günəş radiasiyasının ümumi axını burada Ukraynanın cənubundan 1,5 dəfə az və Orta Asiyadan iki dəfə azdır, Leninqradda günəşli günlərin sayı ildə 60-a qədərdir.

Şəxsən məni Leninqrad (*Sankt-Peterburq*) ilin ən çox günlərində buludlu, tutqun və gündüz seyrək işıqla sıxırdı. Leninqrad bəyaz gecələri ilə tanınır, bu mayın axırında başlayır, günəş tam aşağı enmir, toranlıqda isə demək olar ki, sübhlə birləşir.

Adətən gözəl bəyaz gecələr 16-17 iyulda bitir.



Leninqrad onlarla ali təhsil müəssisələri ilə tanınır ki, onlardan biri də prof. M.A.Bonç-Bruyeviç adına Sankt-Peterburq Dövlət Telekommunikasiya Universitetidir (*keçmiş prof. M.A.Bonç-Bruyeviç ad. Leninqrad Elektrotexniki rabitə institutu (LERİ)*).

Həmin illərdə Leninqrad (*indiki Sankt-Peterburq*) SSRİ-nin elm və təhsil mərkəzlərindən ən böyüyü idi ki, ölkənin elmi potensialının 10%-dən çoxu burada yerləşirdi. Şəhərin əhalisindən elm və təhsil sahəsi ilə məşğul olanların sayına görə Leninqrad Sovet İttifaqında ikinci yeri tuturdu.

Amma Neva ətrafındakı şəhər, hər şeydən əvvəl, dünya əhəmiyyətli mədəni mərkəzdir və hətta həmin illərdə onu tez-tez "*Mədəniyyət paytaxtı*" adlandırırdılar. Şəhərdə doqquz minə qədər mədəni irs obyektləri (*tarixi və mədəni abidələr*), o cümlədən 4 mindən çox federal əhəmiyyətli mədəni irs obyektləri yerləşir, bu da Rusiya ərazisində dövlət tərəfindən qorunan abidələrin təxminən 10%-i təşkil edir.

Şəxsən mən Peterqof, Carskoye Selo, Pavlovsk, A.S.Puşkinin muzeyi, Leninqradın müdafiəsi və blokadası muzeyində və digərlərində, ən əsası da mənim Subimlə olmuşam.

Biz, qərib tələbə və aspirantlar Leninqradda Rusiyanın bu böyük mədəni irsi arasında yaşayırdıq və bunun bizə, SSRİ-nin digər respublikalarının gələcək mühəndis və alimlərinə necə müsbət təsir etdiyini təsəvvür etmək çətin deyil.

Bəli, dünyada bütün ölkələrə Çin, Monqolustan, Hindistan, Ərəb ölkələri, Yunanıstan, Roma imperiyası, Böyük Britaniya, Türkiyə və Rusiya kimi imperiya olmaq qismət deyilmiş. Lakin sadalanan imperiyaların tarixini və mədəniyyətini öyrəndikdə bu qüdrətli ölkələrin əsarəti altında nə qədər mədəni irsin yox olmasını anlamaq çətin deyil.

Bəlkə Karl Marks iddiasında haqlı idi ki, "... *kiçik millətlərin aqibəti – istəsələr də, istəməsələr də böyük millətlərin onları udmasıdır*". İndi, bu nəzəriyyəyə əsasən, bizim yırtıcı dünyamızın nə qədər öyrənilməmiş, bizə gəlib çatmamış və tanınmamış mədəniyyətlər və sivilizasiyalar itirdiyini təsəvvür etmək çətin deyil.

Bu gün bərpa olunmuş Azərbaycan Demokratik Respublikası zirvəsindən təsəvvür etmək olar ki, biz o yetmiş Sovet illərində Azərbaycanın nə qədər dahi və görkəmli vətənpərvərlərini ümumiyyətlə tanımırdıq. Yaxud əksinə, SSRİ dövründə nə qədər yalançı milli qəhrəmanları əzizləyirdik, neçəsinə heykəl qoyulurdu, meydanlar, küçələr, prospektlər, institutlar, universitetlər, şəhərlər, kənd və qəsəbələr onların adı ilə adlandırılırdı və iyirmi ildir ki, onlardan qurtulmaq istəyirik və nə qədərindən hələ qurtulmalıyıq.

Mən 70 yaşımın zirvəsindən əminliklə deyə bilərəm ki, bu 70 ildə Azərbaycanın başına gələnlər (*və nəinki azərbaycanlıların*) ona görə mümkün oldu ki, biz tək Allahdan uzaq düşmişik.

Görünür, yalan və bəşəriyyətə nifrət içindəydik, vəzifə, pul, var-dövlət və cah-calala satılmışdıq. Yəqin ki, partiyanın atributu, ölüb gedən bəşəriyyətin simvolu olmuşduq. Ona görə də, əgər nə vaxtsa "*dünyanın sonu*" gəlsə, bunun səbəbi tanrıdan uzaqlaşmaqdır.

Şəxsən mən (*çox gec olsa da*) 1993-cü ilin aprelindən məsciddə dua etməyə başladım və Quranda xüsusilə xoşladığım Allahın fikirləri var ki, onlara xüsusən riayət edirəm:

1. İnsanlar arasında doğrunun vəsiyyəti;
2. Allahın ilk adlarından biri – səbrdir;
3. Dində məcburiyyət yoxdur və s.

Bu dünyada tək Allahdan başqa heç kim insana hökmranlıq edə bilməz, əgər bəşəriyyətin ümumi dini lideri seçilsəydim, bütün dünyada yalnız Böyük Yaradana heykəl (*görünür ki, Buddistlərin etdiyi kimi*) qoyardım... Axı bəşəriyyət zorakılıq və bir sistemin, bir millətin, bir insanın digərləri tərəfindən istismarı üçün yaradılmayıb. Bəlkə "*dönməzlik nöqtəsinə*" hələ çatmamışıq, bəlkə günahlarımızı etiraf edib, zorakılıqdan uzaqlaşaq!

Axı başqa cür nəinki bəşəriyyətin özü, həm də müqəddəs planetimiz sağ qalmaz. Bəlkə dinlər və ölkələr arasındakı qarşıdurma kifayətdir, bəlkə xeyirxahlıq və ədalətin mənbəyi olmaq vaxtıdır, bəlkə ayılmaq vaxtıdır! Axı hamımız insanıq, əslində bu dünyada elə zəif və həssasıq, heç birimiz nə günahlardan, nə Allahın qəzəbindən, nə də ölümdən sığortalanmamışıq.

Onda niyə təbiətimizi fəlakətə sürükləyirik!

Mən, mədəni bir insan, ölkəsinin vətənpərvəri kimi heç bir halda bəşəriyyəti keşişlərə və mollalara itaət etməyə səsləmirəm, biz bunları necə deyərlər, çoxdan keçmişik.

Yalnız nizam-intizama, yaxşılığa, namus və vicdana çağırıram, qoy insanların səviyyəsi tamahkarlıqla deyil, xeyirxahlıq və vicdanlılıqla ölçülsün. Daha təvazökar olmaq lazımdır. Uşaqlarının digərlərindən ağıllı və bacarıqlı, fikirlərinin digərlərinkindən əsas, işlərinin digərlərinkindən ağır olduğunu zənn etmək olmaz... Tez-tez Piterdəki aspirantura illərim yadıma düşür, burada azsaylı millətlərin nümayəndələri elə həyat dərsi verirdilər ki, mən onu heç Böyük Britaniyada da görməmişəm.

Kaunasdan olan Robertos Şertvitesə çox yaxşı münasibət bəsləyirdim. Həmişə məşğul, təvazökar və xeyirxah idi.

Bir dəfə bayram masasında oturarkən mən ondan soruşdum:

- Robertes, sənin kasıb olduğunu hiss etmirəm, amma sadə geyinirsən, deyərdim ki, lap vikinq kimi. O, gülümsəyərək, dedi:

- Mən elə vikinqəm də. Sualların nədi, Abdul, çəkinmə de.

- Müasir oğlansan, lakin cır-cındırda, nəsə toxunma şeylərdə gəzirsən, çox sadədir, üzərində nə ingilis kostyumu, nə italyan ayaqqabısı və s. görmədim.

- Hə, səni çaşdıran mənim paltarım, mənim görkəmimdir. Amma bilirsən, Abdul, biz litvalılar hər şeydən əvvəl yaxşı tərzi tərbiyəlilik və vətənpərvərlilik sayırıq. Məsələn, mən burada, Leninqradda bir rubl da xərcləmirəm, bütün bunları çalışıram Kaunasda edim. Hər şeyi özümüzdən alıram, hətta bir çox ərzağı oradan gətirirəm. Cümə günü Kaunasa gedirəm, bazar ertəsi isə Piterə dördgünlük ərzaq ehtiyatı ilə dönürəm. Sözün qısası, pulun hamısını Kaunasda xərcləyirəm ki, Litvanın büdcəsini doldurum, Leninqradın deyil. Biz, litvalılar həmişə öz məhsulumuzu, öz əşyalarımızı alırıq və bununla da büdcəmizi saxlayırıq. Bizə öz iş yerlərimiz, öz zavod və fabriklərimiz, öz müəssisələrimiz və öz alimlərimiz lazımdır. Biz özümüzlə kifayətlənirik, bizə fransız ətirləri yaxud Avstriyanın qalstukları lazım deyil. Öz xalqımız üçün istehsala ehtiyacımız var, böyük qardaşın nə dediyi bizə maraqlı deyil, bizim öz qardaşlarımız var.

Niyə mən bütün bunları sənə deyirəm, çünki sən türksən, dünyanın ən böyük və tolerant millətinin nümayəndəsisən. Bildiyim qədər, türklər həm müsəlman, həm xristian, həm buddist, həm də atəşpərəstdirlər və sizə həmişə inanmaq olar.

Bu söhbət 1975-ci ildə olmuşdu. O vaxt Azərbaycanda hər yerdə L.İ.Brejnevin sözləri ilə plakatlar asılmışdı – "*Azərbaycan geniş addımlayır*" və biz kommunizm qururduq. İtirirdik (*millətin Şıxəli Qurbanov kimi nəhənglərini*) biz isə hey aşağı enirdik.

Axı XX əsrin 20-ci - 50-ci illərinədək Azərbaycandakı repressiyalara və əksinqilabda, casusluqda, millətçilikdə və qiyamda ittihamlara görə haradasa 1 milyon 344 min 923 nəfər məhkum edilmiş, 681 min 692 nəfər güllələnmişdir (http://minval.az/author/331).

"*Dostluq bərabərlikdir*"
Pifaqor – qədim yunan filosofu

### 3.4. Başqalarına kömək et ki, sənə də kömək etsinlər.

Leninqrad aspiranturasında təhsil illərimdə Bakıdakından tez-tez uca Tanrının məni qoruduğunu hiss edirdim. İnsanların problemlərini elə eşidən kimi avtomatik olaraq, onlara xeyirxahlıq göstərməyə çalışırdım.

İlk dəfə bu 1973-cü ildə baş vermişdi. Mən, qiyabiçi-aspirant Vasilyevsk adasının Orta Prospektində yerləşən LERİ-nin yataqxanasına gəldim. 426-cı otaqda öyrəndim ki, bəs gecəni 502-ci otaqda LERİ-nin *Diskret İnformasiyanın Ötürülməsi* (DİÖ) kafedrasının aspirantı azərbaycanlı Qəzənfər İmamverdiyevlə birlikdə keçirəcəyəm. Onun rəhbəri Oleq Çuqreyev idi.

Gec, haradasa saat on birə Qəzənfər müəllimlə onun üç yataq yeri olan 502-ci otağına getdik.

Anladığım qədər o orada tək yaşayırdı. Çaydanı qoyub, çay dəmlədik və həyat haqqında danışmağa başladıq. O mənim Azərbaycan SSR Rabitə nazirliyində işlədiyimi artıq bilirdi və söhbət əsnasında mənimlə öz problemləri barədə çox ehtiyatla

dərdləşməyə başladı. Belə başa düşdüm ki, o üç uşağı və həyat yoldaşı (*Fatimə xanım*) ilə Bakı şəhərində, Alatavada onun aspirant təqaüdünə - 86 manat 50 qəpiyə kirayə mənzildə yaşayırdılar.

Ali təhsilli həyat yoldaşının işləmədiyinə (*görünür dalbadal üç uşaq olduğundan*) təəccübləndim və onların, yazıqların bu cüzi pulla necə yaşadıqlarına heyrətləndim.

Gec yatdıq və hələ yataqda ikən uzun söhbət etdik və özümü saxlaya bilməyib ondan soruşdum ki, uşaqlarının vəziyyətini bilərək, burada necə belə yaşayır. Onda əlavə etdi ki, DİÖ kafedrasında elm üzrə də 58 rubl alaraq işləyir və onu Bakıya ailəsinə göndərir.

Səhərədək yata bilmədim, eşitdiklərimdən özümü pis hiss edirdim, səhər duranda və səhər yeməyini yeyəndə ona dedim: “*Deməli belə, Qəzənfər, dörd gündən sonra Bakıya uçacam. Həyat yoldaşına zəng et, ona mənim Rabitə nazirliyindəki koordinatlarımı ver, qoy diplomu və pasportu ilə gəlsin, onu işə düzəldəcəm*”.

Qəzənfər az qala sevincindən ağlayacaqdı:

- Abdul, biz ümumiyyətlə tanış deyilik. Sənə necə təşəkkür edim? Məni və bütün ailəmi qurtararsan. Allah sənə can sağlığı versin! və s. Piterdən yola düşməmişdən əvvəl Qəzənfərə ünvanımı, şəxsi telefonumu verdim və xəbərdar etdim ki, həyat yoldaşı Rabitə nazirliyinin keşikçisinə desin ki, qardaşı Abdulun yanına gəlib.

Bakıya gəlib, işə çıxanda Azərbaycan SSR Rabitə nazirliyinin layihə-araşdırma kontorunun (*LAK*) rəisi, olduqca təmiz rabitəçi Əmircanov Fərrux Musa oğluna zəng etdim. Sonra günorta fasiləsində yanına getdim, Qəzənfərin bütün hekayəsini olduğu kimi ona danışdım və xahiş etdim ki, Fatimə xanımı (*mənim bacım kimi adlanan*) LAK-a işə düzəltsin.

O isə əsl kişi kimi – gəncəli, qalxdı, məni qucaqladı və dedi:
- Abdul, bəs biz burada nə üçünük? Narahat olma!

LAK kadrlar şöbəsinin müdirinə zəng etdi və dedi:

- Birisi gün səhər saat on birdə Rabitə nazirliyinin ŞKTRİ-dən Abdul müəllim bacısı ilə birlikdə gələcəklər. Onu işə düzəltmək lazımdır, bax, hansı şöbəyə mühəndis... Cavabı dinləyib, dəstəyi asdı və dedi ki, onu kənd telefon rabitəsi şöbəsinə düzəldəcək.

Heyrətə gəldim, qalxdım, onu qucaqladım və ürəkdən təşəkkürümü bildirdim. Buna o:

- Abdul, bu cür qayğıya görə sənə çox sağ ol. Anladığım qədər, heç tanımadığın bir ailəyə kömək edirsən. Sən Allah adamısan və yadında qalsın – bunun əvəzi sənə artıqlaması ilə veriləcək. Qoy qoruyucu mələklər səni qorusun, əhsən sənə! Həmin gün Fatimə xanım mənə zəng vurdu. Salamlaşıb, özünü təqdim etdi və mən ona dedim ki, bu gündən o mənim bacımdır, ona görə də onunla idarəyə gedəndə özünü bacım kimi aparsın.

İnanın, o gündən bəri, əgər hansısa səbəbdən Qəzənfərin evinə zəng etdikdə və Fatimə xanım cavab verdisə, o mənə qardaş deyərək çağırırdı və ailəm barədə ətraflı soruşurdu.

Ertəsi gün təyin olunmuş vaxtda Fərrux Musayeviç Əmircanovun otağında idim, o operativ şəkildə Fatimə xanımı həmin gündən işə götürdü və ona dedi:

- Fatimə xanım, nə qədər ki, buradayam (*bu LAK-da*), yadınızda saxlayın, heç kim sizə bir söz deyə bilməz, başa düşdünüz? İndi evə gedin, sabah isə saat doqquzda sizin iş gününüz başlayacaq.

İrəli gedib, qeyd edim ki, Fatimə xanım heç vaxt işləmədiyindən onun müəyyən çətinlikləri olmuşdu və əgər səhv etmirəmsə, bir dəfə hətta ixtisara düşürdü, lakin Fərrux Musayeviç Əmircanov onu müdafiə etdi.

Sonra Qəzənfərə LERİ-nin DİÖ kafedrasında namizədlik dissertasiyasının müdafiəsinə hazırlaşarkən köməklik göstərdim. İş burasındadır ki, rus dilini pis bildiyindən Qəzənfər İmamverdiyevin rəhbəri dosent Çuqreyev Oleq ona, yumşaq desək, pis münasibət bəsləyirdi. Ondan savayı, buna həm də yerlimiz Famil Məmmədov tərəfindən daxili rəqabət də təsir göstərirdi, o da Qəzənfər kimi Çuqreyevin aspirantı idi...

Oleqin isə yay ərzində bu iki bakılı ilə məşğul olmaqdan boyun qaçırması Çuqreyevi bizim Qəzənfər üçün az qala düşmən etmişdi. Mayın əvvəlində otağıma gəlib, baş verən fəlakət haqqında bütün doğruları danışdı, belə ki, O.Çuqreyev namizədlik dissertasiyasının təxirə salıb onu Bakıya göndərmək istəyirdi.

O.Çuqreyev Qəzənfəri aspiranturanı bitirməsi haqqında LERİ-nin kafedrasının qərarını təşkil etmək və onu dissertasiyasının Azərbaycanda müdafiəsi üçün Azərbaycan Politexnik İnstitutuna göndərmək istəyirdi. Yazıq Qəzənfər ağlayırdı, pis halda idi və O.Çuqreyevin iki gün bundan əvvəl öz sevimlisi, "*bizim yerlimiz*" ilə birlikdə polisin ayıltmaxanaya düşdüklərini və bunda da məhz onu, Qəzənfəri günahlandırdığını söylədi.

Hə, iş dolaşıq idi, digər yerlimlə qarşıdurmaya girmək istəmirdim, amma Qəzənfəri də "*basdırmaq*" olmazdı. Onu sakitləşdirdim, dedim ki, bir şey etməyə çalışacağam. Özüm isə fikirləşirdim ki, axı mən nə edə bilərəm, özü də DİÖ kafedrasında? Qəzənfər öz otağına getdi, mən isə onun barədə fikirlərlə qalıb, üzülürdüm. Bu zaman Alayev İrqaş yanıma gəldi, bizim kafedranın Daşkənddən olan aspirantı idi, ağıllı və çox inadkar idi. Təngnəfəs söylədi ki, artıq iki dəfədir yanıma gəlib, ancaq məni tapmayıb. Kafedramızın müdirinin ev telefonunun nömrəsini verib xahiş etdi ki, ona zəng vurum. Aşağı düşüb, küçəyə çıxdım ki, kafedra müdirimizə zəng vurum.

Rafael Antonoviç Avakov özü dəstəyi qaldırdı. Səsimi eşidib, dedi:

- Abdul, mən artıq ümid etmirdim ki, sən zəng edəcəksən. De görüm, məni yataqxananızın altındakı poçt şöbəsinin girişində gözləyə bilərsən?

- Mən elə oradan sizinlə danışıram.

- Görürsən nə yaxşı oldu, orada gözlə, on dəqiqədən sonra gələcəyəm.

- Əlbəttə.

- Deməli, danışdıq. Məni telefon kabinəsinin yanında gözlə.

Həqiqətən, o on dəqiqədən sonra gəldi, salamlaşdı və dedi:

- Abdul, Bakıdan bacım Zoyadan məktub almışam. İstəyir ki, evinə telefon çəkilsin, ona isə, telefon qovşağında izah ediblər ki, texniki imkanları yoxdur. Bilmirəm nə edim.

- Mən ona, axı siz bilirsiniz ki, Bakı ŞTŞ-də telefon trafikin parametrlərini ölçmək üçün bir aydan sonra mən Bakıya uçacağam. Əgər gec olmayacaqsa, elə həmin vaxt bu problemi həll edərəm.

O çox sevindi.

- Bilirsən, axı mən Bakıdan 1932-ci ildə çıxmışam və düzünü desəm, tanışlarımla heç bir əlaqəm yoxdur. Əgər mənə kömək etsən, onda bir bakılı kimi sənə minnətdar olaram (*güldüm*).

Sonra o mənə baxaraq dedi, bəs sənin nə problemin var?

- Yəqin indi deyil, sonra. Bəs siz indi hara gedirsiniz?

- Poçta bacıma teleqram göndərməyə.

Poçtun teleqraf bölməsinə girdik, o blank götürdü, Bakı şəhərinin vağzal ətrafı rayonunda yerləşən hansısa bir ünvana yazdı, lakin teleqramın məzmununu korladı. Təmiz blank götürdü, korlanmışı isə mənə verdi və dedi, Zoyanın ünvanı budur.

Göndərilən teleqramın mətni belə idi: "*Zoya bir aydan sonra aspirantımız Abdul yanına gələcək, o sənin problemini həll edəcək. Öpürəm, Rafiq*".

Teleqramın pulunu ödədi, bir neçə qəpik etdi və birlikdə Vasilyevsk adasının Orta prospektinə çıxdıq. Qolumdan tutdu və yavaş-yavaş prospektlə Kirovsk DK istiqamətində yola düşdük, axıradək gedib sağa döndük, üçmərtəbəli evin qarşısında dayandıq.

Yuxarı qalxıb, çay içib, məni narahat edən şey barədə danışmağı təklif etdi. Yaşca atamdan böyük olan adama etiraz edə bilmədim. Onun evinə qalxdıq, bizi çox arıq və mehriban xanım qarşıladı, onun otağına keçdik və bir neçə dəqiqədən sonra qarşımızda fincanlarda çaylar dururdu.

Qəzənfər haqqında həqiqəti ona danışmalı oldum.

Axıradək məni dinlədi və gülümsəyərək, dedi:

- Bilirsən, Abdul, qardaşım Andro həmişə deyirdi ki, azərbaycanlılar elə sadəlövh və mehribandılar, lakin onların bir düşmanı var – o da onların özüdür (*Bu səmimiyətdən özümü pis hiss etdim*). Bu gün qardaşım Andronun səhv etdiyinə şadam, Azərbaycanda sənin kimi uşaqlar var. Qəzənfərə hələ heç bir söz vermə, de ki, təcili dissertasiyasının avtoreferatını hazırlasın. Sonra, zəhmət olmasa, şəxsən sən yoxla, iki gün ərzində bu avtoreferat hazır olsun, yaxşı çap edən təcrübəli makinaçı taparaq yardımçı ol və O.Çuqreyev ondan istəyənədək qoy özündə hazır saxlasın. Ən əsası heç bir təşəbbüs göstərməsin. Yaxşı?

“*Yaxşı*” – deyə cavab verdim və ürəkdən ona təşəkkür etdim.

Hardasa on ikiyə on beş dəqiqə qalmış yataqxanada idim.

Elə paltarımı dəyişmişdim ki, qapı döyüldü. Açdım, Qəzənfər. Bizdə Azərbaycanda deyildiyi kimi, çırtma vursan qanı çıxar. Dəhşətli halda idi...

Ona stul verdim, qapını örtdüm, qarşısında əyləşdim və hər şeyi ətraflı danışdım. Gözləri işıqlandı, günəş kimi parladı, bilmədi necə olsun. Mən isə ona ciddi:

- Belə əhval-ruhiyyə ilə şən hər şeyi itirə bilərsən. Yadında saxla, səndə hər şey pisdi, dəhşətli haldasan və səni heç nə şənləndirmir, başa düşdün! İndi isə bu gecəni yatmırsan, avtoreferatı bitirirsən, düzəlişlər üçün mənə gətirirsən, mən isə onu son çap üçün aparıram. Ən əsası, bu barədə heç nə və heç kimə demirsən (*və bərkdən*), BAŞA DÜŞDÜN!

O yazıq isə uşaq kimi bilmirdi sevinsin yoxsa ağlasın.

- Oy, Abdul, çox sağ ol, sən məni o dünyadan qaytardın!

Yenə onu dayandırdım:

- Hələ sənə heç bir şey eləməmişəm. Hələlik O.Çuqreyev səni yanına çağırmayıb, hazır avtoreferat istəməyib... İndi isə get və bu iki günü yatma... Avtoreferatı gətirərsən, çalışaram tez düzəliş edim və makinaçım Olqa Vladimirovnaya aparıb, növbədənkənar çap etməsini xahiş edim. Lazımdır ki, həmişə portfelində hazır olsun və bu barədə heç kim bilməsin. Üçüncü şəxs bilsə, əşyalarını yığışdırıb, dissertasiyanı müdafiə etməmiş evinə gedəcəksən! Lakin bu halda sən ancaq özünü günahkarlandır!

Ertəsi gün axşam saat beş radələrində qapım döyüldü. Açdım, Qəzənfər idi, gözləri qızarmışdı və əlində avtoreferatının əlyazması vardı.

Hətta oturmasını təklif etməyib, vərəqləri əlindən aldım, demək olar ki, bərkdən oxumağa başladım, yeri gəldikcə nəinki materialdakı səhvlərlə, həm də mənə məlum olmayan müəyyən termin və terminologiya ilə bağlı suallar verdim. Bir saatdan sonra, bu işi bitirən sonra tez geyindim, əlyazmasını portfelimə qoydum.

Düz bir saata "*Gənclik*" kinoteatrının yanına tramvayla ğetdim, makinaçı o tərəfdə yaşayırdı. Onunla iki gün əvvəl iş haqqında artıq danışmışdıq.

Ancaq Olqa Vladimirovna kimi çox savadlı xanım gecə saat birə kimi avtoreferatın çapını bitirə bilərdi...

Bu cür təcili işə görə minnətdarlığımı bildirib, gecə saat ikiyə Qəzənfər müəllimin qapısının qarşısındaydım. Qapını bərkdən döyəndə və onu səsələyəndə qapını açıb gülümsədi.

Bir saat birlikdə olduq, danışdı ki, onun qapısını istəkli "*dostu*" döyüb, o isə açmayıb, onda o deyib ki,

- Başa düşürəm, evdəsən. Lakin bu gün O.Çuqreyev səni soruşurdu və dedi ki, sabah səhər saat ona onun yanında olasan (*və əlavə etdi*), adətən Oleq belə tezdən kafedrada olmur, ona sərxoşluqdan özünə gəlmək üçün səhər vaxt lazımdır.

Qəzənfər fərz etdi ki, "*dostu*" onu ələ salır. Lakin ona tövsiyə etdim ki, düz səhər saat ona portfeli ilə DİÖ kafedrasında olsun və əgər O.Çuqreyev avtoreferatı soruşsa, hazırdır deyib, çıxardıb ona nüsxəsini göstərsin.

- Ən əsası, mübahisəyə girmə, sən mənim kimi heç nə bilmirsən. Bizim üçün müdafiə etməyin vacibdir.

Ertəsi gün günorta Qəzənfərin şən səsini eşitdim, elə qapını açmışdım ki, arxasınca bağlayıb, məni qucaqladı və dedi ki, həyat yoldaşı Fatiməyə görə mənə borclanmışdı, indi isə həyatı boyunca minnətdar olacaq, çünki oni biabırçılıqdan qurtardım.

Məlum oldu ki, Çuqreyev gələn kimi, heç salamlaşmamış avtoreferatı soruşub və Qəzənfər heç bir şey demədən ona verib. O isə əvvəldən axıra kimi oxuyub və soruşub:

- Bəs düzəlişləri kim edib?

- Yerlim, Abdul.

- Bəs çapını nə vaxt çatdırmısan?

- Bunu o çap edib, özünün Çexiya istehsallı çap maşını var.

- Yaxşı, indi bir az düzəliş edərəm, sən isə iki gün ərzində Krasnoselsk mətbəəsində onu buklet kimi çap etdirməlisən. Əgər bazar ertəsi səhər avtoreferat məndə olmasa, incimə, sənin üçün cavabdeh deyiləm.

Qəzənfərdən soruşdum ki, Krasnoselsk mətbəəsində olub? Cavab verdi ki, olmayıb. Başa düşdüm ki, hər şeyi özüm təşkil etməliyəm. Ona çay süzdüm və dedim ki, çıxacam və beş dəqiqədən sonra gələcəm. Orta prospektə çıxdım və iki zəng etdim:

- aspirantura şöbəsinə, Svetaya, bu mətbəəni o yaxşı tanıyırdı;
- makinaçı Olqa Vladimirovnaya. Avtorefetanın son variantını yenidən çap edə bilərmi?

Hər ikisindən müsbət cavab alıb, qayıtdım, artıq mətbəənin ünvanını və kimə müraciət etməyi bilirdim.

Qəzənfərdə olan pulu götürdüm (*özümdən də əlavə etdim*) və LERİ-nin aspirantura şöbəsinə, Svetanın yanına getdim, mətbəənin müdirinin adına məktub artıq hazır idi.

Sonra makinaçının yanına avtoreferatın sonuncu dəfə çapı üçün getdim. Hazır materialı əldə edib, yataqxanaya qayıtdım ki, Qəzənfərin imzasını alım və oradan taksi ilə mətbəəyə getdim. Orada isə gecə növbəsində məni bir sərt xanım gözləyirdi. Narazılıqla dedi ki, ancaq Svetanın xətrinə bunu edir, lakin material, təcililik və artıq iş üçün pul verilməlidir və miqdarını söylədi.

Çıxarıb söylənilən miqdarı verdim, o isə bir az yumşalaraq, söz verdi ki, özü qalacaq və artıq səhər (*şənbə günü*) saat ona hazır işi təhvil ala bilərəm. İstəmirdi işi bazar ertəsinə saxlasın, müdiriyyətdən gizlədirdi. Təşəkkür etdim, soruşdum ki, avtobusla şəhərə necə gedim, o isə gülümsəyərək, - "*nədi, sizə taksi pulu belə saxlamadım?...*". Cavabında gülümsəyib, çıxdım.

Şənbə günü səhər saat onda artıq avtobusla mətbəəyə gəldim, hazır işi gözdən keçirdim, diqqətlə oxudum. İşin mənim olmadığını başa düşüb, maraqlandı ki, kimin üçün belə çalışıram. Cavab verdim ki, yoldaşımın işidir.

Günortaya qayıdıb, səhər yeməyini yedim, sonra Qəzənfərin yanına düşdüm, avtoreferatı ona verdim və ciddi xəbərdarlıq etdim ki, bazar ertəsi gecikmədən Oleq Çuqreyevin yanında olsun və bu barədə heç kimə heç nə deməsin.

Bazar ertəsi saat iki radələrində Qəzənfər qapını döydü və sevinərək, xəbər verdi ki, Çuqreyev qol çəkdi və birlikdə N.B.Zeliqerin yanına getdilər, ona avtoreferatı göstərib dedi ki,

Qəzənfər 100% hazırdır, onun işini kafedrada müzakirəyə buraxmaq olar. Bu zaman onun "*dostu*" da yaxınlaşıb. Oleqdən öyrənəndə ki, Qəzənfərin avtoreferatı hazırdır, kobudcasına deyib:

- Səndən yaxşı kəşfiyyatçı çıxar. Nə vaxt hər şeyi çatdırmısan? Nədi, yenə həyat yoldaşının qardaşı kömək edib?

Və Oleqlə çıxıblar.

Qəzənfərin müdafiəsindən sonra banket zamanı kafedra müdirimiz Avakov Rafael Antonoviç bir kəlmə ilə Oleq Çuqreyevin Qəzənfərə razılıq verməsinə necə məcbur etdiyini ona ətraflı danışıb: "*ya bu yerlilərin hər ikisi bu yay müdafiə edirlər, ya da heç kim müdafiə etməyəcək*". Buna görə Oleq söz verib ki, əlindən gələn hər şeyi edəcək.

Amma bu mənim Qəzənfərə sonuncu köməyim deyildi. Sonralar, Azərbaycan Politexnik institutunun Həmkarlar Komitəsinin sədri olanda kafedranın bölünməsində və onun "*Elektrikrabitəsi*" kafedrasının müdiri seçilməsində köməklik göstərmişdim.

On üç ildən artıq tanıdığın bir adama inanmaq üçün daha nə lazımdır – deyə düşünürsən, lakin çoxları yaxşılığı xatırlamır. Məndən ancaq yaxşılıq görən bu adam oğlum Həmidin məsələsində məni şoka salmışdı. İş orasındadır ki, Həmid Qəzənfərin rəhbərlik etdiyi kafedrada bakalavr dərəcəsini əlaçı (*qırmızı diplomla*) olaraq bitirmişdi və elə həmin kafedrada ("*Elektrik rabitə*") magistraturanı davam etdirmək istəyirdi. Əlaçı kimi sənədlərini verdi.

Bu zaman təsadüfən ABŞ-dan Layihə direktoru, İndiana Universitetinin professoru Dr. Thomas M. Duffy ilə birlikdə indiki Azərbaycan Texniki Universitetinin (*AzTU*) rektoru Xavər Məmmədovun yanında idim.

AzTU-da 25 il çalışmış alim kimi istəmirdim ki, mənim köhnə universitetim Azərbaycanın Distant Təhsil (*DT*) üzrə Layihədən kənarda qalsın. Layihəni 2003-cü ildə başladım. Layihə ABŞ-ın İndiana Universiteti (*IU*) və Azərbaycanın Elm və Təhsil Şəbəkələri Assosiasiyası arasında ABŞ Dövlət Departamentinin Əməkdaşlıq Proqramı çərçivəsində imzalanmışdı. Bu əməkdaşlıq

ABŞ Dövlət Departamenti tərəfindən qeydə alınmışdı, Qrant № S-ECAAS-03-GR-219(CS).

Xavər Məmmədov görəndə ki, keçmişə görə ona kin saxlamıram, sevindi. Axı mən onun iradəsizliyi üzündən AMEA-nın Kibernetika İnstitutuna keçməli oldum. Amma o Distant Təhsil layihəsinin reallığını başa düşüb, dedi: - Bağışla ki, onda elə alındı, özün başa düşürsən də kim bu işdə günahkardır. Bilirəm, oğlun bakalavrı qırmızı diplomla bitirib. İstəyirsən, onun magistraturaya qəbul edilməsi məsələsinə baxım?

Elə mənim yanımda indicə AzTu-nun distant təhsilinə məsuliyyətli şəxs kimi təyin etdiyi dosentə (*Mənafəddin Namazov*) üzünü tutub, oğlumun işlərinə şəxsən nəzarət etməsini tapşırdı.

Bir gün sonra oğlum Həmid sənədlərini verdi, ona Mənafəddin Namazov kömək etdi. İki gündən sonra həmin M.Namazov məni çağırdı və izah etdi ki, Qəzənfər müəllim Məmmədov Familin, "*Leninqraddan olan həmin dostunun*", o zamanlar prorektor vəzifəsində idi, yanına qaçıb, ona xəbər verib ki, Abdul müəllimin oğlu Həmid sənədlərini magistraturaya verib.

Aydın oldu ki (*"qaraçı poçtu" vasitəsilə*), qəbul imtahanının təşkilatçıları məndən düz 500 $ məbləğində rüşvət umurdular.

Bunu biləndə Həmidin yanında Mənafəddin Namazova dedim ki, bu universitetdə 25 illik tədris zamanı, Allaha şükür, bir tələbədən bir qəpik də almamışam. İndi isə oğlum üçün pul verməliyəm, özü də universiteti əla bitirib?! Oğlumu sənədlərini geri götürmək üçün M.Namazovla göndərdim və ona dedim ki, atasının 25 il vicdanla işlədiyi bu yerdə o rüşvətlə oxumamalıdır.

Onlar sənədlərlə geri dönəndə M.Namazov məndən soruşdu ki, onun ABŞ-da Layihə xətti ilə ezamiyyəsi qaldı. Rəhmətlik atamın sözləri ilə cavab verdim: Mənafəddin müəllim, insanın mərdliyi onun daxili atributları, vəzifəsi ilə ölçülmür, narahat olmayın, iki ildən sonra mənimlə ABŞ-da İndiana Universitetində olacaqsınız. 2005-ci ildə mənim layihəm üzrə ABŞ-a uçdu və bizim açıq söhbətlərimiz çox oldu, həmçinin Qəzənfər haqqında da danışdım. O heyrətlənərək, öz fikrini söylədi ki, mən gərək ABŞ-da ya Avropada, ya da Türkiyədə anadan olardım, amma Azərbaycanda

deyil. Sonra dedi ki, ABŞ-a uçmamışdan əvvəl doğmalarına "*bu işgüzarların*" oğlumla etdiklərini danışanda hamısı tüpürürdü.

Onun fikrincə, mənim seçdiyim yol – yaxşılıq və ədalət yoludur və Allah həmişə mənə kömək edəcək.

Nəticədə isə oğlum mənim yaxşılığımdan ziyan çəkdi.

Belə insanlardan tamamilə incimirəm. Və xasiyyətimi dəyişmərəm – insanlara əlimdən gələn köməyi edəcəyəm.

Məndən sonra və mənimlə eyni zamanda Leninqradda aspiranturada təhsil alan bizimkilərin bir çoxuna kömək etmişəm: Həsənov Əflatuna (*həm Leninqradda, həm də Bakıda*), Əhmədov Məmişə Leninqradda, əsasən (*atasının xahişi ilə*) Atayev Eldara (*həm Leninqradda, həm də Bakıda*), LERİ-nin alimlərindən biri Vasiliy Sokolovla əlaqələrini quraraq, və s.

Artıq müdafiə etmiş Eldar Atayevi isə bizim kafedraya işə ümumiyyətlə götürmək istəmirdilər, amma Politexnik institutunun Həmkarlar Komitəsinin sədri kimi rektor Mirzə müəllim Bağırovdan şəxsən xahiş etdim. Bu normaldır – insanlara həmişə kömək etmək lazımdır. Hesab edirəm ki, imkanlarla paylaşaraq, insan yalnız udur. Başqalarına kömək edərək, gələcəyimizə kömək edirik. Bunu tez-tez evdə təkrar edirəm - əgər Allah sənə bu imkanı veribsə, həmişə ərtafındakılara kömək etməlisən.

Tam əminəm ki, bu gün malik olduğum hər bir şey, övladlarımın əldə etdikləri – başqalarına etdiyim köməklərin nəticəsidir. Allah hər şeyi görür, yaxşı əməllərini qıraqda qoymur.

Ona görə də həmişə yaxınlarıma və övladlarıma deyirəm ki, yaxşılıq edin, yaxşılığı unutmayın, yaxşılığın nəticəsini gözləməyin, ancaq Allah bilir ki, həmin adam buna layiqdir yoxsa yox... Biz hakim deyilik. Allah bilir. Lakin unutmurdum ki, hələ iyirminci əsrin əvvəllərində ateizm gündəmdə idi və əsasən də SSRİ-də.

Elm və texnologiyanın nailiyyətləri insanlara sərbəstlik və müstəqillik ruhu aşılayır, nəticədə kimsə elan etdi ki, heç Allahdan da asılı deyil (*əsasən də kommunistlərimiz*).

Məhz bu ərəfədə Sovet İttifaqında Lüdviq Feyerbaxın, Karl Marksın, Çarlz Darvinin, Fridrix Nicşe və Ziqmund Freydin nəzəriyyələri Allahın heç yeri də olmadığı yeni fəlsəfi və elmi

həqiqətlər kimi dərk edilirdi. Əsrlər boyu xristian Qərbin (*Rusiyanın da*) inandığı Allah ideyası SSRİ-də faciəvi şəkildə geridə qalmışdı. Dərrakə dövrü uzun əsrlərin xurafatına və fanatizminə tamamilə qalib gəlmiş kimi görünürdü.

Amma normal insanlar özlərinə sual verirdilər: həqiqətən belə olub? Sovet İttifaqı dünya təşəbbüsünü bütünlüklə ələ keçirmişdi və onun aktiv fəaliyyəti yəhudi və müsəlmanlar üçün deyil, məcburən əvvəlki baxışlarını təkrar nəzərdən keçirmiş və əslində ateist olmuş bütün provaslav Rusiya üçün fəlakət oldu.

"*Gəldi, gördü, qələbə çaldı*"
Sezar (100-44 e.ə.)

### 3.5. Dissertasiya müdafiəsi və Tatyana Quanın fala baxması.

Atamın 5 mart 1976-cı ildə ölümü məni dünyaya başqa cür baxmağa vadar etdi, həyat fəlsəfəm dəyişdi, artıq tam otuz yaşımda öz ailəmi qurmaq istəyirdim.

Ümumiyyətlə həmin il həyatımda dönüş oldu, atamın vəfatı əvvəllər dumanlı və qeyri-müəyyən olan həyat reallıqlarına yenidən baxmağa vadar etdi. Güman edirəm, həyatıma istəyərək, ən əsası, əminliklə daxil olan gələcək nişanlımla, ikinci yarımla rastlaşmağım buna müsbət təsir göstərdi.

Hər şey 1976-cı ilin yayında, Subi Leninqrada mənim yanıma qonaq gələndə həll olundu. Axı Sovetin o uzaq illərində insanları ən az paltar və bahalı zərgərlik əşyaları maraqlandırırdı. Mənəvi qidaya üstünlük verilirdi: dram və musiqili teatrlara, təsviri incəsənət sərgilərinə, yaxşı filmlərə (*əsasən Kirov parkında retro*) gedilirdi. Kilsələr, bağçalar və bağlar, bir sözlə, Neva sahilindəki şəhərin bütün görməli yerləri mənəvi zənginləşdirirdi.

Adi aspiranta isə lazım olan elə bu idi.

Yəqin ki, Leninqradda Subi ilə keçirdiyim bu üç həftə bütün həyatım boyu ən uzun sürən istirahət idi. Göstərilən bütün yerlərə əvvəlcədən aldığım biletlər bizə onlardan həzz almağa kömək etdi.

Subinin gəlişindən istifadə edərək, Leninqradın ən gözəl güzələrində olduq və ancaq axşam saat on birə yataqxanaya qayıdırdıq. Belə gəzintilərdən sonra ancaq bir stəkan çay içə bilirdik və o mənim otağımda yatırdı, mən isə bütün bu üç həftə ərzində Əhmədov Məmişin otağında gecələyirdim, LERİ-nin İqtisadiyyat kafedrasının iqtisadi elmlər doktoru, professor Firsova Sofiya Mixaylovnanın aspirantı idi. O bundan narahat olmurdu, çünki tək qalsa da otağı iki nəfərlik idi.

Gündüzləri Subi ilə Leninqradı gəzməyə çıxırdıq.

Sonuncu yarımillik yaradıcılıq planında çox məhsuldar oldu. Məhz bu dövrdə aşağıdakı məqalələr dərc edildi:

1. Каграманзаде А.Г. Организация работ по учету телефонной нагрузки на Бакинской ГТС. АзНИИНТИ, «Связь” №1, Баку, 1976. с.1-4.
2. Каграманзаде А.Г. О методах измерения длительности разговора на ГТС. Труды Учебных Институтов Связи (ТУИС), № 77, Л.,1976, с. 114 -117.
3. Каграманзаде А.Г. Методика определения межстанционной нагрузки на ГТС Закавказья. За технический прогресс (ЗТП) № 7, Баку. 1976, с. 63-66.
4. Каграманзаде А.Г. Об определении потока повторных вызовов на действующих ГТС (*Тезисы доклада*). Сборник ЦНИИС, М. 1976, с. 47.
5. Каграманзаде А.Г. Мамонтова Н.П. и др. Проектирование межстанционных потоков на ГТС (*Отчет*). ЛЭИС, Инв. № Б 576617, Л.1976. 307с.
6. Каграманзаде А.Г. Влияние специфических особенностей разговора на его длительность. “*Электросвязь*”, № 5, М, 1977. с. 62-64.
7. Каграманзаде А.Г. Гасанов А.Н. Анализ удельных абонентских нагрузок на ГТС Закавказья. “*Ученые записки АзПИ*” № 1, Баку, 1977. с. 67-69.

Bu imkan verdi ki, 1977-ci ilin başlanğıcında dissertasiyam üçün materialın sistemləşdirilməsinə və texniki elmlər namizədi elmi dərəcəsi üçün avtoreferatın tərtibinə başlayım.

1976-cı ilin iyul və avqust aylarında Zaqafqaziyanın üç paytaxtında telefon yüklənmələri parametrlərinin ölçülməsi üzrə intensiv işi davam etdirdim. Ölçülər bu verilənlərlə Moskva və Leninqradın verilənləri arasındakı əhəmiyyətli fərqi göstərdi. Alınan nəticələr təsdiq etdi ki, regional şəbəkələrin layihələndirilməsi və istismarı bir qayda olaraq, köhnəlmiş metodlarla aparılır ki, bu da onların sistemə daxili zamanı əsassız xərclərə gətirir və şəhər telefon şəbəkələrinin işləmə keyfiyyətinə mənfi təsir göstərir.

Aspiranturada təhsil prosesinin ən mühüm hissəsi məzunların geriyə, onları oxumağa göndərən əsas təşkilatlara paylaşdırılması idi. Axı Leninqradda üç illik təhsillim məqsəd qoyurdu ki, Azərbaycanın Rabitə nazirliyini ən yüksək səviyyədə mütəxəssislə - texniki elmlər namizədi ilə təmin etsin.

Ona görə də müdafiədən altı ay əvvəl məni LERİ-nin aspirantura şöbəsinə çağırıb, iş yerinin ayrılması üçün Azərbaycanın Rabitə nazirliyinə təyinat məktubu verdilər.

Təyinat Azərbaycan SSR Rabitə naziri Rəsulbəyov Hüseyn Cümşüdoviçə ünvanlanmışdı. Bir nüsxəsi LERİ-də, digəri isə məndə qaldı. Əlimdə rəsmi məktubla Bakıya uçdum və Azərbaycanın Rabitə nazirliyinin kadrlar şöbəsinin (*KŞ*) müdiri Şahməmmədov Bəxtiyar Ələkbəroviçlə görüşdüm. Məktubun nüsxəsinə baxıb dedi ki, yeni nazir məni tanımadığından məni ona təqdim etməlidir.

Elə həmin gün, gündüz saat üç radələrində ikimiz Respublikanın Rabitə naziri Rəsulbəyov Hüseyn Cümşüdoviçin yanına getdik və KŞ müdiri mənim haqqımda qısa məlumat verdi.

Keçmiş general kimi o mənə təkəbbürlə baxdı və iyhamla bildirdi ki, işə düzəlmək məsələmə mən Leninqraddan qayıdandan sonra baxacaq. Burada mən müdaxilə etdim:

- Bağışlayın, amma məsələni indi həll etmək lazımdır, yoxsa niyə SSRİ Rabitə nazirinin müavini sizə nüsxələri LERİ-də və şəxsən məndə olan məktubu yazsın.

- (*Rəsulbəyov H.C. acıqla qaşlarını qaldırdı*) Nədi, indi sizi harasa təyin edim?

- Hüseyn Cümşüdoviç, birincisi, harasa deyil, əsasnaməyə görə əvvəlki yerimə, bu КЗОТ-da yazılıb. İkincisi, axı mən

aspiranturaya oxumağa məqsədyönlü getmişəm, yəni Azərbaycanın Rabitə Nazirliyinin müvafiq öhdəliyi var və o yerinə yetilməlidir.

- (*Daha artıq hiddətlənərək*) Mən öhdəlik götürməmişəm!

- Sizə belə öhdəliklər vermək heç lazım da deyil. Siz hökumət deyilsiniz. Əgər sabah mən bu qoltuqda otursam, uyğun olaraq, mən də bu qanuna riayət etməliyəm. O hiddətlə, sən hər şeyi bilirsən?!

- Əlbəttə hər şeyi deyil, amma artıq 12 ildir mən Rabitə Nazirliyindəyəm və burada ikinci bir şəxs tapılmaz ki, aspiranturadan sonra yanınıza yerləşdirilmək üçün gəlsin. Bəxtiyar Ələkbəroviç təsdiqləyər, hələlik belə təyinatla Azərbaycanın Rabitə nazirliyinə gələn birinci adamam...

Ədalət naminə, B.A.Şahməmmədov dedi ki, bu həqiqətdir, Abdul bizim birinci aspirantımızdır.

H.C.Rəsulbəyov başa düşdü ki, dəmir qayaya rast gəlib və qəti bildirdi: "*Müavinlərimlə məsləhətləşməliyəm*".

Bildirdim ki, Bakıya əsasən bu məsələnin həlli üçün uçmuşam və ezamiyyətim bir həftə sürəcək, soruşdum ki, cavab üçün nə vaxt gəlim. Nazir B.A.Şahməmmədova baxıb birigünə təyin etdi.

Birigün səhər tezdən H.C.Rəsulbəyovun qəbuluna gələndə KŞ müdiri B.A.Şahməmmədov dedi:

- B.M.Axundov məni çağırdı və sənin haqqında soruşdu. Məlumat verdim ki, КЗОТ-da dəqiq yazılıb: "*məqsədçi əvvəlki yerinə və ya ondan yuxarı yerə qayıtmalıdır*". Cavabımdan narazı qaldı, nazirlə onun görüşündən isə xəbərim yoxdur.

Vaxtım varkən, Azərbaycanın Rabitə nazirinin poçt əlaqələri üzrə müavini Sabir Məmmədoviç Yusifovla da görüşdüm. Həmişə olduğu kimi məni mehribanlıqla qarşıladı və ona nazir Rəsulbəyovla görüşümüzdən ətraflı danışdım. Sabir Məmmədoviç dinləyib dedi:

- Abdul, gözümüzün önündə böyümüsən. Respublikanın Rabitə Nazirliyinin bütün işçiləri səni yaxşı tanıyır, amma nazir H.C.Rəsulbəyov rabitəçi deyil, keçmiş generaldır, o yalnız əmr edir və tez-tez haqsız olur. Onunla ehtiyatlı olmalısan. Düşünürəm ki, səni başa düşməlidir, axı bir həftə əvvəl onun qızı namizədlik işini müdafiə edib, dissertasiya müdafiəsinin nə olduğunu bilir. Ona görə də heç nədən qorxma, amma haqqını da tələb et. Təəssüf edirəm ki, bu mövzuda mənimlə hələ danışmayıb, ancaq başa düşürsən də, mən

həmişə sənin tərəfindəyəm. Sən çıxan kimi KŞ müdirini çağıracağam və ondan hər şeyi soruşacağam, Bakıdan uçmazdan əvvəl yanıma gələrsən. Sabir Məmmədoviçə təşəkkür edib, çıxdım.

Bir saatdan sonra B.A.Şahməmmədovla yenidən görüşdük, 20 dəqiqədən sonra isə nazirin otağına getdik. Yenə də saymamazlıqla mənə baxıb, qısaca dedi:

- Siz yola düşün. Heç nədən narahat qalmayın. Əlbəttə, qayıdacaqsınız deyə kimisə işdən çıxarıb, sizi əvvəlki yerinizə təyin etməyəcəyəm, lakin bir alternativ, özü də yaxşı maaşla söz verirəm.

Başa düşdüm ki, qanuna riayət etməyib, dolayısı yolla bu problemi həll etmək istəyir. Cavabında:

- Lakin məktubda nəzərdə tutulan vəzifənin əvvəlcədən verilməsi göstərilmişdir. Yenidən fınxırmağa başladı:

- Mən SSRİ Rabitə nazirliyinə cavab yazaram. Yəqin ki, sizi Bakı rabitə texnikumunun AES şöbəsinin 220 ribl əmək haqqı ilə müdiri təyin edəcəyik. Bu Rabitə nazirliyindəki maaşınızdan çoxdur.

Anladım ki, o məni başa düşmədi, ona görə də söylədim ki:

- *Hüseyn Cümşüdoviç, mənimlə haqsız davranırsınız, məhz respublikamızın Rabitə nazirliyində çalışmaq istəyirəm. Ümid edirəm, burada uyğun vəzifə boşalanda məni yaddan çıxarmayacaqsınız. Və sonuncu, Sizin qızınız on gün bundan əvvəl dissertasiyasını müdafiə edib. Deyin, zəhmətə olmasa, ona bu cür haqsız təyinat versəydilər razı qalardınız?*

Nazirin rəngi qaçdı, bir qədər yerindən qalxdı, bilmədi nə etsin və sualımdan karıxdı. Sonra kreslosuna oturdu və ancaq əli ilə KŞ müdirinə kabinetdən çıxmaq işarəsini verdi. Bax belə, "*tapşırıq*", yuxarıdan zəng olmadığına görə (*həmişə bizdə olub və hələ də var*) heç məsələnin məğzinə varmaq belə iştəmədi.

Amma həyat qəribə şeydir, həyatda hər şey dönür, qayıdır. Yarım il qabağa qaçıb, 1978-ci ilin sentyabr ayının əvvəlində baş verənlər barədə danışım. Mən, digər üç şöbə müdiri kimi bizim Bakı rabitə elektrotexnikumunun, necə deyərlər, üçüncü şəxsi idim.

Tam 1977/78 tədris ili ərzində işdə, necə deyərlər, özümü öldürürdüm ki, AES şöbəmi (*609 nəfərin təhsil aldığı*) qaydaya salım, yəni SSRİ-nin digər rabitə texnikumlarının qaydalarına uyğun

olsun, əsasən də Leninqrad Rabitə elektrotexnikumunun, buradan evimə xahişimlə bütün normativ sənədlər göndərilmişdi.

Komsomoldakı iş və gənclərlə ünsiyyət təcrübəmdən istifadə edərək, AES şöbəsinin gözəl kollektivini yaratmışdım, olduqca yaxşı tələbələri şöbənin komsomol və AES həmkarlar təşkilatlarının katibi qismində tövsiyə edirdim.

Yataqxanada qalan tələbələrin güzəranına diqqət ayıraraq, texnikumda demək olar ki, keçirilməyən müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsini planlaşdırırdım. Bundan əlavə, imtahanlar sessiyası zamanı müəllimlərə nəzərət daha aktiv həyata keçirilirdi.

Nəticədə elektrotexnika müəlliminin əlaçının üç rubl məbləğində rüşvət vermədiyinə görə ona iki qoymasının üstü açıldı.

Dərhal müdaxilə etdim: auditoriyaya girdim, tələbələrin hamısı qalxdı, onlardan bütün kağızlarını masada qoyub, beş dəqiqəlik auditoriyanı tərk etmələrini xahiş etdim. Hamı çıxdı. Müəllimə müraciət edib, həmin əlaçının ərizəsini göstərdim və dedim:

- İndi mən çıxacağam, siz isə onlardan yığdığınız bütün pulları qaytaracaqsınız, söz verirəm ki, Prokurorluğa məlumat verməyəcəyəm. Fikrimi söylədim və çıxdım. Bütün uşaqlara auditoriyaya qayıtmalarını əmr etdim, əlaçıya isə imtahançının qarşısındakı stol arxasında oturmağı.

Beşinci mərtəbəyə, öz otağıma qalxdım, nəticəni gözləyirdim. Çox gözləməli olmadım, beş dəqiqədən sonra həmin əlaçı qəldi və sevinərək dedi ki, müəllim cədvəli dəyişdi, əlavə soruşmadan hamıya doğru qiymətlər qoydu və xahiş etdi ki, imtahan cədvəlini sizə verim.

Cədvələ diqqətlə baxdım, orada bir dənə də iki yox idi və elmi rəhbərim Boris Samoyloviç Livşicin sözləri yadıma düşdü: "*Kim tələbəyə iki qoyursa, elə özünə iki qoyur*". Gülümsədim, tələbəyə təşəkkür etdim və baş verən hadisə barədə texnikumda heç kimə danışmadım.

Və 1978-ci ilin sentyabr ayının əvvəlində məni Respublikanın Rabitə nazirliyinə saat on birə Rabitə Naziri Hüseyn Cümşüdoviç Rəsulbəyovun yanına çağırırlar. On birə on dəqiqə qalmış Rabitə nazirliyinin ən məlumatlı xanımı, katibə Amaliya Arsenovna

Atoyansın otağında idim. Maraqlandı ki, N.B.Lozinskinin çıxarılmasından xəbərdaram? Bilmirdim. Onda o davam etdi:

- Fikirləşdim, səni N.B.Lozinskinin yerinə dəvət ediblər. Amma dünən axşam sənin texnikum direktorun Əsədullayev burda idi. Tez çay dəmlədim və onların yanına girəndə direktorunun səndən nəsə şikayət etdiyini eşitdim. Ehtiyatlı ol, onlar rabitəçi deyil, səni başa düşməzlər.

Beş dəqiqədən sonra məni nazirin otağına dəvət etdilər.

Daxil oldum, salamlaşdım, əyləşməyimi təklif etdi. Oturdum, bütün diqqətimlə söhbətin başlamısını gözləyirdim. O isə, əksinə, məndən öyrənmək üçün baxırdı. Dözmədi və söhbəti sualla başladı:

- Hə, texnikumda nə var, nə yox?

- (*Sakitcə*) Hər şey qaydasındadır, işləyirik. Nədir ki?

- Mənə deyəsi sözün var?

- Mənə elə gəldi ki, siz məni çağırmısınız.

- (*Qaşlarını qaldırdı*) Necə fikirləşirsən, səni niyə nazirliyə çağırmışam?

- (*heç fikirləşmədən*) Hüseyn Cümşüdoviç, siz məni Rabitə texnikumuna göndərəndə narazı idim və əgər yadınızdadırsa, sizdən yeri düşdükdə məni Rabitə nazirliyinə keçirməyinizi xahiş etmişdim. Bəlkə N.B.Lozinski getdiyindən onun vəzifəsini mənə təklif etmək qərarına gəlmisiniz?

Nazir yerindən durub, susaraq, lakin çox diqqətlə mənə baxdı.

- Sən doğrudan belə fikirləşirsən?

- Niyə də yox. Məni texnikumda heç nə saxlamır. Rabitə texnikumundan çıxıb getməyə məmnuniyyətlə razı olardım.

Nazir ağzı açıq mənə baxırdı. Mən isə susurdum.

Kreslosuna oturdu, masasının alt çekməcəsini açdı, bir neçə vərəq götürüb, mənə uzatdı:

- Budur, oxu! Səni anonimkadan ötrü çağırmışam.

Vərəqləri götürdüm, SSRİ Rabitə nazirliyinin kadrlar üzrə müavini Viktor Nikolayeviç Lebedevin adına gözəl xəttlə yazılmış ərizəni gördüm. Oxuyuram:

"*Hörmətli Viktor Nikolayeviç, sizi Moskva Elektrotexnika institutundan yaxşı tanıyaraq, təəccüb edirəm, sizin işçilər orada nə ilə məşğuldurlar. Aspiranturanı bitirmiş və texniki elmlər*

*namizədliyini müdafiə etmiş yüksək səviyyəli mütəxəssislə necə belə davranmaq olar. Onu bizim texnikuma AES şöbəsinin müdiri, elektrorabitədən bir kəlmə bilməyən kimyaçını isə Bakı Rabitə elektrotexnikumuna (BRET) direktor təyin edirsiniz. Ayıb deyil?!*"

Aşağıda isə imza: Bakı Rabitə elektrotexnikumunun müəllimi – Şamil Qurbanov. Hər iki səhifəni oxuyub, nazirə dedim:

- Birincisi, bu ərizədir, anonimka deyil;
- İkincisi, bu o müəllimin fikridir;
- Üçüncüsü isə burada mənlik nə var?

Nazir qızardı və davam etdi:

- Sən bunların hamısını təşkil etmisən, orada camaatı direktora qarşı qaldırırsan və ümumiyyətlə, biri səni tərifləyir, digəri yox. Anlamıram kimsən sən?

- Hüseyn Cümşüdoviç, əgər hesab edirsinizsə, 30 yaşlı mən 65 yaşlı əməkdar müəllimə (*və əlavə edirəm: yeri gəlmişkən, o MREİ-da Lebedev Viktor Nikolayeviç ilə oxuyub*) təsir göstərirəm, onda Azərbaycan Rabitə nazirliyinin aparatına N.B.Lozinskinin yerinə keçirin və mən kiməm, özünüz əmin olun.

- Doğrudan fikirləşirsən ki, səni N.B.Lozinskinin yeri boşaldığına görə dəvət etmişəm?

- (*Sakitcə*) Əlbəttə, bir il bundan əvvəl bunu sizdən mən xahiş etmişdim. Fikirləşdim ki, verdiyiniz söz yadınızdadır... Amma indi, Hüseyn Cümşüdoviç, sizin mənə dediklərinizdən sonra fikirləşirəm ki, sonuna qədər ardıcıl hərəkət etməlisiniz. Mən Azərbaycan Politexnik institutuna keçməyim haqqında ərizə ilə Azərbaycanın Təhsil naziri Qurban Həsənoviç Əliyevin yanına gedəcəyəm, orada qalmaq istəmirəm. Qurban Həsənoviçdən viza alanda ərizəni sizə gətirəcəyəm. Ümid edirəm ki, imzalayıb, mənim Rabitə texnikumundan getməyimə izn vermək sizə zəhmət olmaz. Onda inanarsınız ki, məni BRET-da heç nə saxlamır!

**Bu o deməkdir ki, güclə sevgi yoxdur! 12 il bu sahədə çalışasan, montyordan Rabitə nazirliyinin şöbə müdirinə qədər yol keçəsən, əyani aspiranturanı bitirəsən və azərbaycan rabitəçilərini az tanıyan hərbiçinin, nazirin yalnız şəxsi qərəzliyi üzündən tam 25 illik müəllimlik edəsən!**

Yeri gəlmişkən, bu sahəni o axıra qədər dərindən bilmədi.

Düz iki həftədən sonra, daha doğrusu 26.11.1978-ci ildə artıq Azərbaycan Politexnik institutunda işləyirdim.

Bəli, deyəsən, dissertasiyamın müdafiəsindən danışdım.

Layihələndirilən ŞTŞ-in xüsusiyyətlərinin nəzərə alınması ilə ilkin verilənlərin (*yüklənmə parametrlərinin və onların istiqamətlər üzrə paylanmasının*) alınması metodlarının işlənib hazırlanması üzrə xüsusi iş aparılırdı.

Əlbəttə, aspiranturada təhsilin axırıncı altı ayının (*1977-ci ilin yanvar-iyun ayları*) gərginliyini, məncə, heç nə ilə müqayisə etmək olmaz. İş dissertasiyanın 140 əsas səhifəsində deyildi, Zaqafqaziyanın ŞTŞ (şəhər telefon şəbəkələrinin) üçün münasib olan telefon yüklənmələrinin parametrlərinin araşdırma metodlarını izah edən əlavənin daha 60 səhifəsini bitirmək lazım idi.

Məni sevindirən – LERİ-nin "*Avtomatik elektroəlaqə*" kafedrasındakı abu-hava idi. Yəqin bir aspirant xaric, kafedrada hamı dissertasiyamın müvəffəqiyyətlə başa çatmasını istəyirdi.

1977-ci ilin aprel ayının sonuna təyin olunmuş ilkin müdafiə, sonra isə iyunda son müdafiə zamanı, demək olar ki, hamı öz köməyini təklif edirdi. Müdafiə "*05.12.14 – Şəbəkələr, rabitə kanalları və informasiyanın paylanması*" istiqaməti üzrə nəzərdə tutulmuşdu. Aprelin sonuna qədər avtoreferat İttifaqın bütün rabitə üzrə təhsil müəssisələrinə, Hiproəlaqə layihə institutlarına (*o cümlədən, Hiproəlaqə-6, Tiflis*), SSRİ EA-nın "İnformasiyanın ötürülməsi problemləri institutu" aparıcı müəssisəsinə (*A.D.Xarkeviçin laboratoriyasına*), Azərbaycan Politexnik institutuna və s. göndərilmişdi.

Söyləmək kifayətdir ki, müxtəlif nəşriyyatlarda: yerli (*Azərbaycanda*), Leninqradda, Moskvada və Ümumittifaq konfranslarında dərc olunan məqalələrimin 16-dan yalnız 7-i elmi rəhbərim t.e.d., professor Boris Samoyloviç Livşicin tövsiyəsi ilə Avtoreferata, özü də şərikli müəllifsiz, daxil edilmişdi.

Ümumiyyətlə burada Boris Samoyloviçin prinsipiallığında dayanmalıyam, heç bir halda adını şərikli müəllif kimi daxil etməyə icazə vermirdi. Amma Azərbaycan Politexnik İnstitutuna ilk gəlişimdə məni təəccübləndirən – kafedra müdirimiz Əlşan

Həsənovun ekspertiza üçün yaxınlaşdığım istənilən işə *(məqalələr, metodiki göstərişlər yaxud dərs vəsaitləri*) adını əlavə etməsi idi.

Lakin 1980-ci ildən başlayaraq, buna da son verdim.

Hələ Leninqradda elmi rəhbərim Boris Samoyloviç Livşic həmişə deyirdi ki, ətrafında müftəxorlar olmamalıdır.

O, məqalə üzərində iş zamanı elmi rəhbər kimi səylə öyrədir və kömək edirdi, lakin heç vaxt şərikli müəllif kimi daxil edilmək istəmirdi. Boris Samoyloviçdən mənimsədiyim çox dəyərli bir şey – imtahanlar, kurs layihələri və fərqlənmə zaçotları zamanı tələbələrin əməyinin qiymətləndirilməsi idi.

O deyirdi ki, əgər müəllim tələbəyə iki qoyursa, deməli özünə qoyur, çünki o tələbəyə həmin dərsi öyrədə bilməyib. Qrupun yarısında iki və üç qiymətlərinin olmasını başa düşmürdü (*Bakıda isə bu hər yanda belə idi*). Ona görə də avtoreferata daxil edilən bütün məqalələr yalnız mənim adımı daşıyırdı.

Əlbəttə, LERİ-nin AER kafedrasında rəsmi opponentlər: Leninqrad Rabitə elmi-tədqiqat institutu bölməsindən (*LRETİB*) t.e.d., professor B.R.Sergiyevskiy və Odessa Rabitə institutunun AER kafedrasının dosenti O.S.Şilov olan ilkin müdafiəmdə Boris Samoyloviçin çox böyük rolu olmuşdu.

Mahiyyətcə bunların hamısı Leninqrad, D-65, Moyka çayının sahili, ev 61 ünvanında yerləşən prof. M.A.Bonç-Bruyeviç adına Leninqrad Elektrotexniki rabitə institutunun K-310/2 ixtisaslaşdırılmış Şurasında əsas müdafiəmin sınağı idi.

İyunun ortasında LERİ-nin kiçik akt zalında müdafiəm baş tutdu. Müdafiə normal keçdi, komissiyanın 14 üzvündən on dördü də yekdilliklə "bəli" dedilər. Bir həftə Elmi Şuranın katibi Svetlana ilə birlikdə aspirantura şöbəsindən çıxmırdım. Stenoqramı, sual və cavabları, həmçinin bütün protokolları tam hazırladıq və Moskvaya, AAK-a göndərdik. İnanmaq olmurdu ki, hər şey geridə qalıb. İş yerinə yetirilmişdir!

Bu üç il ərzində toplanan bütün artıq pullara – əmimoğlu Süleymanın (*Leninqrada gəlmişdi*), bacım Nailənin, qardaşım Tofiqin verdikləri pullara banket etmək qərarına gəldim. Çox sadə idi, amma istisnasız olaraq, hamını, M.A.Bonç-Bruyeviç adına LERİ AER kafedrasının bütün işçilərini çağırmışdım. Banketdə iştirak

edirdilər: AER kafedrasının müdiri, professor R.A.Avakov; elmi rəhbərim, t.e.d., professor B.S.Livşic; kafedranın t.e.d., professoru N.B.Pokrovskiy; dosentlər: N.P.Mamontov, O.A.Sobolev, V.İ.İsayev, T.N. Quan; baş müəllimlər: V.A.Smelova, N.V.Balabayeva, A.S.Lobaxina, Q.N.Yeqorova, A.Q.Rivina, S.D.Yakovlev, E.P.Lisovskiy; assistentlər: A.Y.Sonderis, V.D.Safronov, N.S.Çaqayev, V.Popov, T.İ.İvanov; dostlarım: Sokolov Vasya həyat yoldaşı ilə, İvanova Olqa Vladimirovna, Əhmədov Məmiş, Həsənov Əflatun və kafedrasının aspirantları.

Amma bu azlıq etdi, ertəsi gün kafedrada Nataşa Balabayeva yanına çağırıb deyir: "*Kafedramızın bütün cavanları səni yola salmaq üçün yığışmaq istəyir. Hər şeyi özümüz təşkil edəcəyik, səndən ancaq iştirak etmək tələb olunur. Biz yalnız sənə göstərmək istəyirik ki, həmişə səni sevmişik və sevəcəyik. Bizə gələn aspirantlardan çox fərqlənirsən, sən o dəqiqə kollektivimizə daxil oldun. Alla Lobaxinanın mənzilində yığışmağı qərarlaşdırmışıq. Bütün kollektivimiz həyat yoldaşları ilə birgə orada olacaqlar. İstəyirik hamımız sənin üçün şadlanaq*".

Bir həftədən sonra, şənbə axşamı A.S.Lobaxinagildə toplaşdıq. Çox idik, əli böş gəlməmişdim: əmim oğlu Süleymanın gətirdiyi 10 butulka azərbaycan konyakı gətimişdim. Stolda kürüyədək hər şey var idi, bunu Nataşa Balabayevdən həyat yoldaşının yanında soruşdum: - Nataşa, kürü sənin işindir? O isə yoldaşını göstərib, cavab verdi: - "*Təkcə mənim deyil*".

Heç bilmədik dörd saat necə keçdi, birdən bacım Tatyana Quan elan etdi ki, bu gün fala baxacaq, ancaq Abdul üçün.

Mən isə Tanyuşanın bunu bacardığını heç bilmirdim, amma fikir verdim ki, hamımızın şadlandığı zala sükut çökdü.

Təəccüblə Tatyanaya baxdım, o isə mehribancasına – Abdulçik, bacına yaxınlaş, yanımda əyləş, ən əsası isə diqqətlə qulaq as və yadda saxla, çünki mən həyatımda heç kimə təkrar fala baxmamışam. Bütün oturanlar bir ağızdan dedilər – "*hə, doğrudur*".

Mən sözə qulaq asan uşaq kimi onun yanında, həyat yoldaşı Volodyanın yerində oturdum, o çox gözəl insan və mütəxəssisi idi.

Evdə sükut daha da artdı. Hamı Tanyuşaya tilsimlənmiş kimi baxırdı. Çantasını açdı, oradan qeyri-adi uzunsov kart dəstini götürdü və dedi:

- Abdul, bu İmperator II Nikolayın kartlarıdır. Bu gün sənin üçün baxacaqlarım nə mənim arzuladıqlarım, nə də Allah eləməmiş, qarğışlarım deyil. Mən söyləyib bitirməmiş və masadan kartları götürməmiş, xahiş edirəm, çalış bir şey demə, ancaq qulaq as.

Bu qeyri-adi kartları qarışdırdı, sonra sağ əlimi onların üzərinə qoymağımı təklif etdi. Mən də qoydum.

Çox yavaş-yavaş və ardıcıl olaraq, kartlarını stolumuzun təmiz yerinə paylamağa başladı. Bir neçə dəqiqədən sonra hamısını paylayıb qurtardı. Xalça kimi sərilmiş kartlara diqqətlə baxdı, sonra çantasından balaca kitabça götürdü və asta-asta, çox aydın mənim taleyimi oxumağa başladı:

"*Abdul, bir aya işə düzələcəksən və sənin iki toyun olacaq, yəqin, əvvəlcə kişi, iki həftədən sonra qadın. Sevgi ilə evlənəcəksən, amma bəzi çətinliklərin də olacaq. Evləndikdən bir gün sonra xəbər alacaqsan ki, sənə mənzil ayrılıb. Məhz həmin gün sizdə, ata evində qalmaqal olacaq və sən illərlə doğmalarını görməyəcəksən, oraya getməyəcəksən. Yarım ildən sonra isə hökumət işində elmlə bağlı böyük problemlərin olacaq, rədd cavabı alacaqsan*".

Dayandı, əlini alnına çəkdi və davam etdi: "*Abdul, bir ildən sonra vəzifəndən gedəcəksən, görünür instituta, əvvəlkindən iki dəfə az maaşla. Lakin tezliklə, instituta keçəndən sonra sizin ilk uşağınız, deyəsən, qızınız olacaq. Hardasa, iyun ayının ortalarında. Bu zaman, təxminən üç il dalbadal sənin maddi çətinliklərin olacaq. Sonra sənin elmdə ikinci dəfə sıçrayışını və dövlət işində təsdiqini görürəm*".

Birdən o, kartlara diqqətlə baxıb sevinərək, davam etdi: "*Oy, Abdul, sənin üçün xaricə yol açılır. Kart göstərir ki, sənin üçün həmişə məhz xaricdə yaxşı olacaq. Sən orada elə bil suda balıq kimisən. Görürəm: bir, iki, üç, dörd, beş və s. ölkələr, hansılardakı sən olacaqsan*". Dayandı və sevincək davam etdi: "*Oy, sənin üçün necə sevinirəm. Bütün bir ili Avropada olacaqsan, sənin böyük uğurların olacaq. Oy, bu nədi? Xaricə yola düşməmişdən əvvəl doğma ananı tapacaqsan*".

Otaqda hamı diqqətlə mənə baxdı. Mən susurdum, Tanya isə davam edirdi: "*Xaricdən gələndən bir il sonra oğlun olacaq. Sonra, səni nəsə bir ictimai işə seçəcəklər, özü də böyük bir yerə, amma on aydan sonra istefa verəcəksən və yenə də xaricə uçacaqsan, harada ki, müharibə gedəcək. Ancaq səninlə hər şey yaxşı olacaq. Oradan çox razı qayıdacaqsan. Sonra, Abdul, düz altı il sənin kafedrada sakit və gündəlik işin olacaq. Səninlə manipulyasiya edib, müxtəlif tərəflərə çəkmək istəyəcəklər. Bax Abdul, səni ən böyük hökumət işində gözləyirlər, vətənində. Bax ha, aydın görürəm, səni ən böyük vəzifəyə təyin edirlər, nazirdi deyəsən. Ah (birdən ah çəkdi), düz bir aydan sonra bu vəzifədən gedəcəksən və daha iki həftədən sonra isə yenə xaricdən sənə zəng gələcək və işə dəvət olunacaqsan, özü də bir neçə ölkəyə*".

Sonra xalçasındakı fiqurlara diqqətlə baxıb, davam etdi: "*Abdul, sən orada çox yaxşı pul qazanacaqsan, özü də vicdanla, onların hesabına vətənində təxminən 15 il qayğısız yaşayacaqsan. Xaricdə olarkən, Allaha dua etməyə başlayacaqsan və dua etmək üçün Allahın evinə gedəcəksən. Sonra, yenə də təxminən on ilin vurnuxaraq keçəcək, səni aldadacaqlar, lakin ziyan vura bilməyəcəklər. Həmişə qoruyucu-mələyin səni qoruyacaq, bütün ömrün boyu səninlə olacaq. Yeni əsrin əvvəlində yenidən iki dəfə dalbadal uzağa uçacaqsan, lakin ikinci səfərdən sonra səni yenə aldatmaq istəyəcəklər*".

Dayandı, diqqətlə mənə baxdı və dedi: - Bilirsən, üzündə elə bir sadəlik var ki, hələ çoxları səni aldatmağa çalışacaq. Amma yadında saxla, sənə kim pislik etməyə çalışsa, Allah onu cəzalandıracaq. Qoruyucu-mələyin həmişə səninlə olacaq! Sonra o dayandı, mənə baxdı, başımı sığalladı və dedi: "*Abdulçik, sənin üçün hər şey yaxşı olacaq. Uzun yaşa!*" və davam etdi:

"Sən, turan ellərinin nümayəndəsi kimi – avrasiyalısan və hesab edirlər ki, biz, ruslar bu mədəniyyətə tarixən yaxınıq.

Avrasiyalılar rus mədəniyyətindəki türk elementini sevirlər. Asiyalılara (*tatar və monqollara*) yaxınlığımızı hiss edirsiniz. Hətta sizin Çingiz Xan tatar çarlığı kimi Moskva çarlığına üstünlük verirdi, Moskva çarı isə özünü slavyan-tatar xanı kimi hiss edirdi,

Rusiyanın avtoritetləri rus dövlətçiliyinin əsasında həm də türklərin orda ənənələrinin dayandığını iddia edərkən, yanılmırdılar.

Başqa cür desək, rus dövləti türk-bizans matrisasının əsasında qurulmuşdu və avrasiya ruhlu türk-bizans ənənəsinin daşıyıcısı idi”.

Bunu söyləyib, Tanya tez kartları yığışdırdı və çantasına qoyub, dedi: “*Bu günlük bu qədər, evə getmək olar*”...

Qeyd edim ki, onun söylədiklərinin hamısı həyata keçdi...

“*Ailə xoşbəxtliyin açarıdır*”
Azərbaycan atalar sözü

### 3.6. Toy və Rabitə Nazirliyindən mənzilin alınması.

Bakıya gəlişim sovet dövlət sisteminin zəifliyini göstərdi, on iki illik davamlı işi mənzillə təmin etmirlər, yaşamağa isə yer yoxdur. Dilemma qarşısında dayanmışdım: ya indi, ya da Allah bilir nə vaxt evlənməliydim. Geri çəkilməyə də səbəbim yox idi: heç bir maddi sıxıntım, məsləhətləhəşməyə kimsəm yox idi.

Bu məsələnin həllini gecikdirməməyi qərarlaşdırdım, bacım Nailədən bir az borc pul istədim, Mollahacılı kəndindən ilyarımlıq sağlam öküz, dörd dənə yaxşı qoyun, plov və s. üçün bütün lazım olanları götürdüm və 9 iyul 1977-ci ildə atamın həyətində 200 nəfərlik kişi toyu etdim. Toy musiqisiz keçdi, çünki üç ay bundan əvvəl rəhmətlik atamın ilini vermişdik.

Nəticədə “*Bazarlıq*” və Subi üçün qadın toyu xərclərini çıxaran qədər pul qaldı. Qadın toyu düz iki həftədən sonra, yəni 23 iyul 1977-ci ildə Bakı ş., Dmitrov küç., ev № 21-də baş tutdu.

Dissertasiyanın müdafiəsi zamanı olduğu kimi, toy tədarüklərində də ən fəal əmimoğlu Süleyman idi.

Ertəsi gün səhər saat doqquz radələrində gəlin (*Subi*), bəy (*Mən*) və dəvət olunanlar, Azərbaycanda adətə görə, bir neçə

avtomobildə Göyçaya, ərin ata evinə (*yəni Göyçayda mənim ata evimə*) getdik.

Günorta saat birə bizi Bığır yolunda (*bütün Şərifli sülaləmizin yaşadığı kənd*) saxladılar. Beş avtomobildən onlarla qohum-əqraba çıxdı, milli musiqi çalındı, hamı rəqs etməyə başladı (*ən fəal kiçik bacım Xalidə idi*).

Yarım saatdan sonra hamımız maşınlara oturduq və musiqi ilə Göyçaya, Karl Marks küçəsi, ev № 7 ünvanında yerləşən ata evinə yollandıq.

Bütün qonşular küçədə gözləyirdilər, musiqi yenidən çalındı və gəlini həyətimizə apardılar. Subinin böyük sürpriz gözləyirdi.

O həyətə girən kimi, dedilər ki, boşqabı ayağı ilə sındırsın, sonra isə "*ayağının altında*" cavan qoyun kəsdilər və gözlərindəki qorxuya baxmayaraq, o bu sınaqdan keçə bildi.

Bütün yaxın qohumlar həyətdə idilər, hamı sevinirdi, şən idi.

Növbəti gün – 25 iyul, səhər saat onda Subi Riqa istehsallı təzə ağ rəngdə telefon aparatı çıxarıb (*əlaçı tələbə-praktikant kimi VEF zavodundan ona hədiyyə*), xahiş etdi ki, onu eyvanda dayanan köhnə, qara telefonun yerinə qoşum. Beş dəqiqədən sonra iş tamamlandı və işləməsindən əmin olmaq üçün harasa zəng etmək istəyirdik. Birdən təzə, indicə qoşulmuş ağ telefon zəng çaldı və yanında dayanan Subi dəstəyi qaldırdı.

- Allo! Bəli, Abdulun mənzilidir. Kimdir danışan? (*Subi əsəbi təkrarladı*) Kim? Rabitə nazirliyindən Miroçka?

Üzünü mənə tutdu, narazı halda dəstəyi mənə verdi və dedi:
- Al, danış, bu Rabitə nazirliyindən sənin Miroçkandır.

Subinin reaksiyası məni güldürdü, dəstəyi götürdüm, salamlaşdım və artıq 12 ildir ki, tanıdığım Rabitə nazirliyinin ümumi şöbəsinin işçisi Ağayeva Mira Mirhəmid qızını səsindən tanıdım.

- Miroçka, nə yaxşı ki, zəng etdin. Orda nə var, nə yox, hər şey yaxşıdır?

Mira isə cavabında: - Abdul, şöbə müdirimiz İbrahim müəllimin tapşırığı ilə zəng etmişəm. Səni təbrik edirik, sənə Baş Poçt İdarəsinin həyətində, Şaumyan küç., ev № 33 ünvanında bir

otaqlı mənzil ayrılıb. Təcili gəl və mənzilin orderini al... Sənin üçün şadıq və təbrik edirik.

- Oy, Miroçka, Allah sizə can sağlığı versin. Çox sağ ol, nə yaxşı xəbərdir, çalışacam ki, səhər tezdən nazirlikdə olum.

Dəstəyi yerinə qoydum, Subi isə inciyib, o biri otağa keçdi.

Onu çağırdım və dedim: - Bir soruş, nə olub?

Gəldi və fınxırdı:

- Nədi, Miroçkaya istədin?

- (*Gülərək*) Ağılsız, bu Miroçka anandan yaşlıdır, 25 ildən artıqdır ki, nazirliyin ümumi şöbəsində işləyir və yaxşı bir xəbər verdi.

Evdə olanların hamısı maraqlandı və xəbərin söylənməsini istədilər. Sevincimi gizlətmədən, təmtəraqla söylədim: "*Subi ilə bizə şəhərin mərkəzində, Baş Poçt İdarəsinin həyatində, əvvəllər Omar Hüseynovun yaşadığı evdə, üçüncü mərtəbədə bir otaqlı mənzil ayırıblar!*".

Evdəkilər sevindilər və bizdə Azərbaycanda söyləməyi sevirlər: - Nə yaxşı, Abdulun arvadının ayağı yüngül oldu. İndi sizdə hər şey yaxşı olacaq, Allaha şükür, sizin də öz küncünüz və başınızın üstündə damınız var.

Subi heyrətindən o dəqiqə inanmadı, fikirləşdi ki, ona oyun oynayıram. Lakin onun şübhələrini dağıtdım və əmin etdim ki, mənzil aldıq, özü də şəhərin mərkəzində. Əsl şənlik idi, sevinirdik.

Subidən soruşdum ki, əgər etiraz etmirsə, elə indi Bakıya gedim ki, səhər tezdən Rabitə nazirliyində olum.

O razılaşdı və xahiş etdi ki, onun anasının yanına gedim.

Yarım saatdan sonra ata evimizdən təxminən bir neçə kilometr aralıda, dörd yolun kəsişməsində (*Bakı-Gəncə-Göyçay-Ucar*) yerləşən Göyçay şəhərinin rayonlararası maşın dayanacağında oldum. Orada Bakı istiqamətində ilk avtobusa minib (*deyəsən, Şəki-Bakı avtobusu idi*), artıq beş saatdan sonra Bakıda, Şamaxinkada, mərkəzi rayonlararası avtovağzalda idim. Oradan isə avtobusla Azdramın qarşısındakı Beşmərtəbəyə gəldim.

Axşam altının yarısı qaynanamgildə idim. O döşəməni yuyurdu. Məni görüb, rəngi qaçdı, ürəyini tutdu və güclə nəfəs alaraq, soruşdu ki, nə olub. Onu sakitləşdirdim ki:

- Cənnət xanım, hər şey yaxşıdı, Rabitə nazirliyi mənə Baş Poçt İdarəsinin həyətində bir otaqlı mənzil ayırıb. Təcili sənədləşdirmək üçün gəlmişəm.

Yazıq, qızardı, güldü və dedi:

- Mən isə sabah sizin üçün kirayə tutmağ üçün mənzil axtaracaqdım. Ay Allah, nə yaxşı oldu, mənziliniz var. Bu əladır!

Səhərisi gün, saat on radələrində əlimdə konfetlə Azərbaycan SSR Rabitə Nazirliyinin ümumi şöbəsində idim.

Rabitə Nazirliyinin MKX sədri - Azərbaycanın Rabitə Nazirliyinin Ümumi şöbəsinin müdiri, istefada mayor, çox düzgün və vicdanlı adam – İbrahim İbrahimovla görüşdüm. Məni mənzilin ayrılması münasibətilə təbrik etdi, xoşbəxtlik və uğurlar arzuladı.

Xahiş etdim ki, bütün bunların necə baş verdiyini ətraflı danışsın. O gülümsəyərək, təfərrüatı ilə söylədi.

- Bilirsən, Abdul, bu işdə ilk notu Sabir Məmmədoviç Yusifov vurdu. Mən və Rauf Hüseynov da iştirak edirdik, lakin bütün zərbəni üzərinə götürən məhz Sabir Məmmədoviç oldu. İş orasındadır ki, gündəmdəki məsələ Azərrabitətikintinin rəisi Ömər Hüseynova 4 otaqlı mənzilin ayrılması idi. Növbəyə və qaydaya baxıb, yekdilliklə mənzilin ona ayrılmasına səs verdik. Bu zaman nazir H.C.Rəsulbəyov dedi ki, məsələ yerinə yetirilib, dağılışmaq olar. Lakin mən onun sözünü kəsdim və Ömər Hüseynovun boşaltdığı bir otaqlı mənzilin növbədə gözləyən digərinə verilməsini təklif etdim. Hüseyn Cümşüdoviç yenidən kreslosuna əyləşib, məruzə etməyimi təklif etdi. Növbə haqqında bütün sənədləri qaldırdım və oxudum ki, bir otaqlı mənzilə növbədə Abdul Həmidulla oğlu Qəhrəmanov dayanıb. Bu zaman nazir müavinlərindən biri, Axundov Bahadır Məmmədoviç dedi: "*Biz onu Bakı rabitə elektrotexnikumuna (BRET) göndərmişik, qoy orada bu barədə narahat olsunlar*".

Buna nazir müavini Sabir Məmmədoviç Yusifov sərt reaksiya verdi, qalxıb, Axundova çevrildi və sakitcə dedi:

- Bahadır Məmmədoviç, burada iştirak edən komissiya üzvlərindən Abdulu tanımayan yalnız nazirimiz Hüseyn Cümşüdoviçdir. Lakin siz ki, Abdulu bir rabitəçi kimi yaxşı tanıyırsınız. Bu necə ola bilər? Rabitə sistemində mənim, sizin rəhbərliyimizlə təxminən 12 il işləmiş Azərbaycanın Rabitə nazirliyinin tarixində tərəfimizdən aspiranturaya göndərilən və namizədlik dissertasiyasını vaxtından əvvəl müdafiə edən yeganə rabitəçini nə üçün nəzərə almırsınız, sizi nə ilə yarıtmadı? Hesab edirəm, BRET-ə istəyi olmadan göndərməklə, onsuz da onunla ədalətsiz davrandıq, indi isə özümüz deyirik ki, qoy texnikum ona mənzil ayırsın. Güman edirəm, bu səviyyədə gənc mütəxəssislərlə belə davranmaq – israfçılıqdır.

Sabir Məmmədoviçə Rabitə işçiləri həmkarlar ittifaqının respublika komitəsinin sədri Rauf Hüseynov da qoşuldu. O nazirə müraciət etdi:

- Bilirsiniz, Abdul Rabitə nazirliyinin Bakı Poçt idarəsi nəzdindəki laboratoriyasında ilk iş günündə çalışqanlığı ilə fərqlənib, və mən buna şahidəm. O poçt rabitəsində bütün inkişaf mərhələlərini keçib və öz istəyi ilə ixtisası üzrə Oktyabr rayon telefon qovşağında elektromontyor vəzifəsinə keçib və inanmazsınız, bir ildən sonra yenidən mühəndis olub, lakin artıq poçt işçisi deyil, telefonçu kimi!

AzPİ-ni bitirdikdən sonra Sovet Ordusunda xidmət etmək üçün getdi, qayıtdıqdan sonra məhz siz, Bahadır Məmmədoviç, onu Rabitə nazirliyinin texniki şöbəsinə götürdünüz. Bundan əlavə, siz, Bahadır Məmmədoviç, onu 27 yaşında Azərbaycan Rabitə nazirliyinin ən böyük idarəsinə - ŞKTRİ-ə müavini tövsiyə etdiniz.

Məhz burada çalışaraq, aspiranturaya daxil oldu, oradan isə dissertasiyanı müdafiə edib qayıtdı, özü də istehsalatda yeganə olaraq. Bəs niyə onu indi kəsib, doğrayırsınız, onsuz da rabitə texnikumuna göndərərək onu incitmişik. Hesab edirəm, mənzili ona verməliyik. Anlaşılmaz sükut çökdü. Nazir səs verməyi təklif etdi: kim mənzilin A.H.Qəhrəmanova verilməsinin lehinədir, xahiş edirəm, əlini qaldırsın.

Komissiyanın beş üzvündən üçü – S.M.Yusifov, R.A.Hüseynov və mən, MKT katibi kimi, əllərimizi qaldırdıq. Nazir B.M.Axundova müraciət edərək, dedi ki, hətta o əleyhinə səs versə də mənzil səs çoxluğu ilə A.H.Qəhrəmanova verilir. Mənə isə nazir əmr etdi ki, mənzili sənin adına rəsmiləşdirim.

Bax belə, Abdul, sən bir otaqlı mənzili aldın.

İbrahim İbrahimova ürəkdən təşəkkür edib, Azərbaycanın Rabitə nazirinin müavini Sabir Məmmədoviç Yusifovun yanına getdim və ona köməyinə görə səmimi minnətdarlığımı bildirdim. O isə mənim yerləşməyim məsələsinə müdaxilə edə bilmədiyinə görə üzr istədi və əlavə etdi:

- Amma inan, necə sən vaxtında Rabitə nazirliyindən getdin və üç ildən sonra geri döndün, eləcə də nə vaxtsa mütləq bu nazirliyə qayıdacaqsan və inan, ən yüksək vəzifəyə. Mənim sözlərimi yadında saxla, elə də olacaq!

Əlbəttə, çox xoş idi ki, bu cür rabitəçilərə görə, mənə qanunla düşən mənzili ala bildim. Bir neçə həftədən sonra 26 Bakı Komissarları Rayon icra komitəsi mənə bir otaqlı mənzilə order verdi, bir neçə gündən sonra isə gənc ailəmiz artıq Bakının mərkəzində, Şaumyan küç., ev № 33, mənzil 4 ünvanında yaşayırdı.

İndi 2015-ci ildir və artıq 37 ildir ki, bu mənzildə yaşayıram, hansı ki, əvvəlcə bir otaqlı idi, sonra üç otaqlıya genişləndi, yanmış eyvanın əsaslı təmirindən sonra isə beş otaqlı oldu. 1977-ci ilin o gözəl iyul günlərini sevinclə xatırlayıram, biz Subi ilə bu xeyirxah və düzgün insanlara görə mənzil aldıq.

**Mənim üçün, ədalət üçün mübarizə aparan bu insanların üçü də artıq həyatda deyil, lakin mən və bütün ailəm, uşaqlarım və əminəm ki, nəvələrim də Azərbaycanın bu üç layiqli rabitəçisini minnətdarlıqla xatırlayacağıq.**

Allah yaxşılıq edən bütün insanlara kömək olsun!

Allah bü cür vicdanlı insanların dünyada sayını artırsın!

Hər şeyi görən Allahdır, bütün gənclərə Allah kömək olsun!

Bir dəfə rəhmətlik qaynanam, Cənnət xanım dedi ki, onun qohumları ilə tanış olmalıyam. Xüsusilə, ata tərəfdən əmisi oğlu

Teymur Hüseynoviç Salamovla, Yasamalda Zərgərlik zavodunun yanında yerləşən "*Azərmebel*" Birliyinin direktoru işləyirdi.

Odur ki mən, texnikumdan çıxanda Çörək zavodunun arxasında yerləşən həmin "*Azərmebel*" Birliyinə yollandım.

Kabinetə yaxınlaşanda məni Teymur Salamov qarşıladı, hündür, ağbəniz, 50 yaşında idi. Salam verib, özümü təqdim etdim:

- Bu günlərdə Leninqradda dissertasiya müdafiə etmişəm, əminiz qızı Cənnətin (*Ağanın qızı*) böyük qızı ilə evlənmişəm və indi yaşca kiçik olduğum üçün tanışlığa ilk addımı özüm atdım.

Mənim təvazökarlığıma baxıb, heç bir maraq göstərmədən, yalnız Cənnət xanım barədə soruşdu.

Dedim ki, yaxşı yaşayır, dəmiryol vağzalının yaxınlığındakı Dəmiryol xəstəxanasının camaşırxanasında müdir işləyir.

Neçə uşağı var? – istəmədən soruşdu.

Üç uşağı var. Böyük qızı – həyat yoldaşımdır, Politexnik institutunu bitirib və indi mənimlə Bakı Rabitə elektrotexnikumunda işləyir. Kiçik qızı sizin yanınızdakı Zərgərlik zavodunun anbarında işləyir, ən kiciyi – oğlu İsmayıl məktəbdə oxuyur.

Yaxşı, onlara salam deyərsən – darıxdırıcı söylədi. Vidalaşarkən əlini uzatdı. Vidalaşıb, otaqdan çıxdım.

Lakin təsəvvür edə bilməzdim ki, 15 ildən sonra həmin bu otağa, onun – Salamov Teymurun yanına müstəqil Azərbaycan Respublikasının Rabitə naziri kimi daxil olacağam.

Və qaynanam Cənnət xanımın öz qaynatası, həyat yoldaşının atası, gəmi kapitanı Məmmədqulu Əliyev haqqında danışdığı hekayə yadıma düşdü. Kremldən İ.V.Stalin Mircəfər Bağırova zəng edir:

- *Mircəfər, bizim gəmi kapitanımız Məmmədqulu necədir?*

Bağırov gərgin cavab verir: - *Hər şey qaydasında olmalıdır, yoldaş Stalin! Əgər etiraz etmirsinizsə, yenidən sizə zəng edib, ətraflı məlumat verərəm.*

*"Yaxşı"* – deyib, Stalin dəstəyi tullayır.

Mircəfər Bağırov köməkçisinə səslənir: - *Kimdir bu Məmmədqulu, gəmi kapitanı, niyə mən onu tanımıram? Təcili onun haqqında hər şeyi öyrənin, tapın və yanıma gətirin.*

Bağırov dosyeni oxuyur və əmr edir ki, onu kabinetə gətirsinlər. Köməkçisi içəri girir, yanında isə hündür, yumrusifət zabit, amma artıq yaşlı, əlində bağlama ilə.

Bağırov ona oturmağa imkan verməmiş soruşur: - *Yoldaş Stalinə Bayıl həbsxanasından qaçmağa sən kömək etmisən?*

O isə rəngi qaçmış halda cavab verir: - *Bunu Məmmədəmin Rəsulzadə idi mənim gəmimlə təşkil etmişdi.*

Bağırov hökumət telefonunun qaldırıb, onu yoldaş Stalinlə birləşdirsinə xahiş etdi: - *Yoldaş Stalin, Məmmədqulu burdadır, mənim kabinetimdə, hündür, qəşəng, ordenlidir, Azərbaycanın Ali Sovetinin deputatıdır, bu yaxınlarda Bakının mərkəzində ona gözəl üç otaqlı mənzil ayırmışıq. Göstərişləriniz nədir?*

Yazıq Məmmədqulu Əliyev gərginlikdən bir təhər olmuşdu. Qorxudan bağlaması torbadakı dovşan kimi əsməyə başladı.

- *Çox sağ ol Mircəfər və məndən ona salam de* – Stalin söyləyib, dəstəyi asdı.

Bükülmüş M.Bağırov dikəldi, kapitana baxdı və soruşdu:

- *Əlindəki nədi?*

Məmmədqulu bütün tər içində cavab verdi: - *Fikirləşdim ki, yəqin Sibirə göndəriləcəm, bunlar yun şeylərdir.*

M.Bağırov birdən köməkçisinə müraciət edib: - *Hər şey yoldaş Stalinə məlumat verdiyim kimi təşkil olunsun, aydındır?!*

Beləcə Məmmədqulu Əliyev həm deputat oldu, həm də Lenin ordeni ilə təltif olundu və Monolitin yanında, Hüsi Hacıyev küçəsində (*indiki Azərbaycan prospekti*), harada ki, həyat yoldaşım Subi nənəsi və bibisi Kübra (*atasının bacısı*) ilə ətrafdakı bağlarda gəzərək uşaqlığını keçirmişdi, üç otaqlı evə sahib oldu.

Xalqların başçısının istəyi ilə işlər bax beləcə tez həll olunurdu. Burada iki kəlmə ilə həyatımda ən taleyüklü görüş – Subi ilə görüşməyim haqqında danışmaq istərdim...

Ona görə ki, o həyatımdakı ən mühüm insanlardan biridir, həyatımızın bütün sevinc və əzab-əziyyətlərini yarı bölürük... Aspiranturada əyani təhsilimin birinci ili idi, payızın əvvəli idi, Bakıya dissertasiyam üçün statistik məlumat toplamağa gəlmişdim və Politexnik institutunun "*Elektrik rabitəsi*" kafedrasına gəldim,

Boris Samoyloviç Livşicin tələbəsi, t.e.n., dosent Həsənov Əlşan burada müəllim (*assistent*) işləyirdi.

Orada iki tələbə qız gördüm, biri balacaboy, kök, qırmızı yanaqlı idi, görünür, əyalətdən idi və o birisi arıq, hündür idi, ağıllı baxışları, üzünün düz cizgiləri və çox gözəl, sonradan bəlli oldu, təbəssümü vardı.

Bəlli oldu ki, onlar bizim elektrotexniki fakültənin beşinci kurs tələbələridir və onların trafik üzrə diplom layihələrinin rəhbəri olduğu üçün Əlşan müəllimin yanına konsultasiyaya gəliblər, yəni B.S.Livşicin yanında Əlşanla mənim yazdığımız dissertasiyanın mövzusu üzrə.

Elə bil məndə nəsə yerindən oynadı, onlara yaxınlaşıb dedim: "*Sizə məsləhət vermək istərdim, qızlar, əsl rabitəçi olmaq üçün əvvəlcə aşağılardan başlayın, texnik işləyin, sonra mühəndis olun...*". Mənə şübhə ilə baxıb çıxdılar. Əlşandan hündür qız barədə soruşdum. Dedi ki, adı Subi Əliyevadır, bakılıdır, fakültənin ən güclü tələbələrindən biridir.

Bu belə idi, iyunda diplomunu "*əla*" müdafiə etdi...

Sonra isə iki il Bakıdan Leninqrada və əksinə bir-birimizə məktub da yazırdıq, telefonla da danışırdıq...

Sonra evləndik...

Yeri gəlmişkən, sonralar o mənə danışdı ki, o zaman, ilk görüşümüzdə ona elə də təsir bağışlamamışdım. Onda Bolnisidən (*Gürcüstan*) olan rəfiqəsi Luiza Qurbanovaya demişdi ki, fu, necə lovğayam və çox qəşəngəm və belələri onun xoşuna gəlmir...

Görünür bu normaldır, insanın sevgi və dostluqda əsl idealı axtarması ucları olan ağaca oxşayır. Yəqin bu bizə yaxınlarımızdan sui-istifadə etməmək üçün gözəl imkan verir. Dostluq da sevgi kimi simpatiya və dayağı tələb edir və görünür tez-tez bizi seçim qarşısında da qoyur. Axı dostluq əlaqələri qarşılıqlı münasibətlərin müsbət bacarıq və vərdişlərinin inkişafını və tətbiqini tələb edir: bacarıqlar xüsusi yanaşma tələb edən düzgünlüyə, başqasının dərdinə şərik olmağa, halına acımağa, dinləmək bacarığına və ünsiyyətə bölünür. Yəqin ki, rəfiqəsi və dostları ilə çətinliyi olan hər

bir insanın ən vacib münasibətlərdə – ailə münasibətlərində də çətinliyi ola bilər.

Lakin bu zaman biz özümüzə qapılmamalıyıq. Axı ailə məhəbbəti sadəcə iki insan arasında alışan ehtiras deyil, həm də sonsuz – əsl həyat sevgisidir. Daha doğrusu, bu ailə olmanın formasıdır: eşqdən çox – özünü qurban vermək, özü də bir adama deyil, ailəyə və bütövlükdə dünyaya...

Tezliklə ailə qurmağımızın 38 illiyini qeyd edəcəyik və qeyd etmək lazımdır ki, Subi ilə nəinki iki gözəl uşaq yetişdirdik – qızımız Leylanı – kardioloq-həkim və oğlumuz Həmidi – IT-mütəxəssisi, iri mobil rabitə operatorun aparıcı menecerlərindən biridir, həm də o özü peşəkar oldu –telekommunikasıya sahəsində bir mütəxəssis kimi ölkənin aparıcı telekommunikasiya kompaniyalarından birində Marketinq tədqiqatlar və analitika departamentinin müdiri vəzifəsindən qazandığı istirahətə çıxdı.

*"Başa çatdırılmış işlər xoşdur"*
Homer (e.ə.VIII ə.)

## 3.7. Dissertasiyamın ikinci dəfə müdafiəsi.

Yuxarıda deyildiyi kimi, 1978-ci ilin noyabrında BRET-dən (*220 rubl maaşla AER şöbəsinin müdiri vəzifəsindən*) Azərbaycan Politexnik İnstitutuna 125 rubl maaşla ER kafedrasının assistenti vəzifəsinə keçdim.

Görünür bu, 1969-cu ildəki hekayələrimin təkrarı idi, Rabitə nazirliyinin 135 rubl maaşla baş mühəndisi vəzifəsindən 65 rubl maaşla ATR-2-nin elektromontyor vəzifəsinə keçmişdim.

Özü də 6 aydan sonra Subi analıq məzuniyyətinə çıxdı və ilkimiz Leylanın gəlişini gözləyirdik.

Bundan əlavə, məhz ailəm üçün çətin olan bu günlərdə SSRİ-nin Ali Attestasiya Komissiyasından (*AAK*) dəvət məktubu aldım— hansı tarixdə və saatda Moskvada olmalıydım – yazılmışdı.

Məhz həmin gün ilk dəfə Leninqraddan elmi rəhbərim Boris Samoyloviç Livşic mənə zəng etmişdi.

Salamlaşıb, dedi:

- Məni diqqətlə dinlə. AAK-dakı hadisələr sənin problemin deyil, bu mənə qarşı müharibədir. Sən İttifaqın dörd şəhərinin ŞTS-də böyük nəzəri, ən əsası isə praktiki iş görmüsən, əsasən bu statistik materialın yığılması və təhlilinə aiddir. Ona görə də müsahibədən keçərkən, sadəcə bildir ki, ərizə yazıb, axıra çatdırmaq və vaxtı gələndə yenidən müdafiə etmək üçün işini götürmək istəyirsən.

Abdul, telefonda hər şeyi izah edə bilmirəm, amma ümid edirəm, məni anladın. Yaşa dolmuş elmi rəhbərimin səsində narahatlıq hiss edib, razılaşdım.

Amma onda hələ bilmirdim ki, ona qarşı təqib başlayıb, onu iki böyük vəzifədən, və İnstitutun elm üzrə müdir müavini və ən əsası, on illərlə yaratdığı laboratoriyanın müdiri vəzifələrindən azad ediblər. Bilmirdim ki, o illərdə baş verənlərin hamısı SSRİ-də yəhudilərə qarşı gizli mübarizənin tərkib hissəsi idi.

O zaman AAK-da oturub növbəmi gözləyəndə, birdən Livşic Boris Samoyloviçin keçmiş aspirantı, "*Elektrik rabitəsi*" kafedramızın dosenti Həsənov Əlşan mənə yaxınlaşdı. Onun gəlişinə çox təəccübləndim, ancaq o dedi ki, bu barədə (*hardan*) eşidən kimi, buraya gəlmək istəyib.

Azərbaycanda deyildiyi kimi, "*Babalı öz boynuna*".

Amma bu hadisədən və əsasən də Boris Samoyloviç AAK-a göndərilən anonimdən mənə danışandan sonra, hansındakı xətt və üslub onun tələbəsini göstərirdi, bunun kimin etdiyi mənə hələ də müəmmalıdır. Yarım saat oturandan sonra Əlşan getdi.

Bu zaman bir tip mənə yaxınlaşıb, soruşdu haradanam, sonra dedi ki, onun Bakıda çoxlu dostları var, kiminsə adını çəkdi və əlavə etdi ki, əgər mənə kömək lazım olsa, çəkinmədən ona müraciət edə bilərəm, hər şeyi təşkil edə bilər. Başa düşdüm ki, bu, çox güman, hələ Leninqradda bəzi aspirantların öz aralarında bəhs etdiyi həmin vasitəçidir. Sonra məni başa saldılar ki, AAK-da müəyyən haqqa bütün problemləri həll edən belə adamlar var.

Elə bu tip gedəndən sonra məni çağırdılar.

Dissrtasiyamı vərəqləyən və nəsə tapmağa çalışan orta yaşlarında bir kişinin qarşısında oturdum. Sakitcə gözləyirdim.

Nəhayət, o mənə müraciət edib, soruşdu ki, bu dissertasiya mənimdirmi? Cavab verdim ki, bəli. Və birdən o, dəli kimi, səhifələri tez-tez vərəqləyərək, məndən yazılanlara aydınlıq gətirməyimi istədi və cavabımı eşitmək üçün ara da vermədi. Suallar pulemyot kimi yağmağa başladı, cavabım onun sualına yetişmirdi, görünür ona elə bu lazım idi...

Bu zaman dəhlizdə zəhləmi tökən həmin tip yanımızdan keçdi, gülümsəyərək, mənə əl yellədi. Bunu mənə sualları verən adam da gördü. Soruşdu ki, onunla tanışam. Cavab verdim ki, xeyr.

On – on iki sualdan sonra qərəzlə özünə nəyisə isbat etməyə çalışan bu adam mənə dedi:

- Görürəm pis adam deyilsiniz və görünür, həyat sizi hələ korlamayıb. Sizə bir məsləhət vermək istəyirəm: ərizə yazın və işinizi işləyib qurtarmaq üçün götürün. Bir neçə ildən sonra yenidən müdafiə edərsiniz. Niyə belə bir yaxşı işiniz batsın? Baxın, nə qədər nəşr edilmiş əsərləriniz var. Ərizəni yazmaqla, siz yalnız vaxt itirəcəksiniz, yazmasanız – bütün işi itirəcəksiniz. Aydındır?

Burada elmi rəhbərim B.S.Livşicin xahişini xatırladım və razılaşdım. O mənə təmiz kağız vərəqi verdi və hətta ərizənin mətnini diktə etməyə başladı.

Sonra ərizəni məndən alıb, otağın axırına apardı, görünür, razılaşmaq üçün öz rəhbərinə. Yanıma qayıdıb dedi ki, əmindir ki, ən çoxu üç ildən sonra mən rahat müdafiə edib, təsdiqimi alacağam.

Vidalaşıb çıxdım, şəhərlərarası avtomat telefondan elmi rəhbərim Boris Samoyloviçə zəng edib, hər şeyi ona danışdım.

Boris Samoyloviç xahiş etdi ki, ikinci müdafiə üzrə strategiyanın və işdə gözlənilən dəyişikliklərin hazırlanması üçün ay ərzində Leninqrada uçum. Bir aydan sonra kafedranın iqtisadi müqaviləsi ilə, vən layihənin əsas icraçısı idim, Leninqrada uçdum.

Boris Samoyloviçi görəndə başa düşdüm ki, o insult keçirib, yazığın, rəhmətlik atamın 1976-cı ildə olduğu kimi, ağzı bir az əyilmişdi. Matilda Samoylovna başını yelləyib, dedi:

- Görürsən Abdul, sənin Boris Samoyloviçinlə nə ediblər. (*Mənim halımı görüb, dedi*) Tanrı bu yaramazları cəzalandıracaq, bu dünyada heç bir şey cəzasız qalmır.

Üç gün ərzində Boris Samoyloviçlə dörd dəfə görüşdük və təkrar müdafiə üçün vacib olan bütün dəyişiklikləri və ixtisarları müzakirə etdik.

Amma məni başqa şey kədərləndirdi, AER kafedramızda olarkən, kafedra müdiri gizli dedi:

- Abdul, bəlkə rəhbərinin adını dəyişəsən. Bilirsən də o gözdən düşüb. Niyə ikinci dəfə risk edəsən?

Düzünü desəm, belə gözləmirdim, cavab verdim ki: - *Bilirsiniz, ən yaxşısı, texniki elmlər namizədi olmaram, nəinki çətin dövründə ona xain çıxaram. Boris Samoyloviç Livşicin adını dissertasiyamdan çıxartmayacağam. Mənim tərəfimdən bu onun bütün əməyinə xəyanət olardı. Buna, bağışlayın, getmərəm.*

Kafedra müdiri qətiyyətliliyimi görüb, geri çəkildi və bir də bu mövzu heç zaman qalxmadı.

İllər keçdi, dissertasiyanın iki fəslini qısaldıb, birləşdirməli oldum, sonra trafikin proqnozlaşdırılması ilə bağlı tamamilə yeni fəsil yazmağa başladım. Bunun üçün "*Erikson*" firmasının bir neçə məqaləsini, həmçinin İngiltərədən professor Con Fladın bir məqaləsini tərcümə etdim.

Boris Samoyloviç necə də haqlı idi, ən əsası, geniş statistik materialım oldu. Bu iki il ərzində daha beş elmi əsər nəşr etdirdim.

Bu illərdə, əsasən də Leninqrada ezamiyyətlərin təşkilində mənə xüsusi köməkliyi Azərbaycanın ən yaxşı rabitəçisi, A.S.Popov ad. radiotexnika, elektronika və rabitə üzrə elmi-texniki cəmiyyətin məsuliyyətli katibi Leyla xanım İbrahimova göstərmişdi.

Amma 1978-ci ilin əsl xoşbəxtliyi, əlbəttə ki, 17 iyunda baş verdi, üç nəfər olduq, Leylamız anadan oldu. Bütün yay bir həftə kimi tez keçdi. Leylanın ətrafında dolanırdıq.

İndi biz Subi ilə gülürük və ilk nəvəmiz Rüstəmin əsərək qayğısını çəkən Leyladan heç incimirik. O onu dünyaya gətirən, böyüdən, bütün məktəb illərini birlikdə keçən, Tibb Universitetində hər imtahanı üçün həyəcan keçirən doğma anasına onlarla irad tuturdu. Anası ona duvağını taxıb, onun üçün hamilə ikən narahat olub və doğuş vaxtı həyəcan keçirib.

Məgər uşaqlarımızdan inciyə bilərik, axı onların bizimlə, öz valideynləri ilə münasibətlərdə buraxdıqları səhvlər – ilk növbədə bizim səhvlərimizdir, deməli, biz də nəyisə gözdən qaçırmışıq.

Amma ən böyük yük 1979-cu ilin ikinci yarısında Moskvada ixtisasartırma kurslarında (*İAF*) olarkən üstümə düşdü. Kursları bizim Sara xanım Abdullayevanın xahişi ilə Politexnik institutunun İAF şöbəsinin rəhbəri Elmira xanım təşkil etmişdı.

Bütün bu üç ay yarımı əsl cəhənnəmdə yaşayırdım.

Birincisi, İAF kurslarını buraxa bilməzdim.

İkincisi, günün ikinci yarısında Boris Samoyloviçin verdiyi tapşırıqları yerinə yetirməyi, müxtəlif paraqrafları yazıb, düzəliş edib və çap etməyi çatdırmalı idim ki, şənbə günü elmi rəhbərimlə görüşmək üçün cümə günü (*gecə yarısı*) "*Qırmızı Ox*" qatarı ilə Leninqrada gəlim. Bu üç ay yarımda mən, ən azı ayda iki dəfə həmin qatara minirdim ki, dissertasiyanı yenidən yazıb qurtara bilim.

1980-ci ilin iyun ayında namizədlik dissertasiyamı ikinci dəfə müdafiə etdim: "05.12.14. Şəbəkələr, rabitə qovşaqları və informasiyanın yayılması". Dissertasiyanın mövzusu: "*Telefon şəbəkəsinin layihələndirilməsi üçün telefon yükləmələri parametrlərinin müəyyən edilməsi metodlarının araşdırılması və işlənib hazırlanması*". M.A.Bonç-Bruyeviç ad. Leninqrad (*Sankt-Peterburq*) Telekommunikasiya üzrə Dövlət Universiteti, 1980-ci il", B.S.Livçicin rəhbərliyi ilə, və tezliklə təsdiqi aldım.

Şükür Allaha ki, prinsiplərimə, ən əsası isə elmi rəhbərimə sadiq qaldım. Məhz yeni dissertasiyaya və trafikin proqnozlaşdırılmasının tədqiqinə görə İngiltərədə bir illik təcrübə keçdim, nəticədə Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) xətti ilə Birləşmiş Millətlər Təşkilatının (*BMT*) eksperti oldum.

Odur ki mən həmişə inanmışam ki, Allah insanları əməyinə görə mükafatlandırır!

*"Bilik gücdür, güc bilikdədir"*
Frensis Bekon (1561-1626)

# IV. XARİCDƏ ELMİ TƏCRÜBƏ

## 4.1. Xarici ezamiyyətə ilk hazırlıq.

Adətən mən, işarası bizim Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun (*indi- Azərbaycan Texniki Universiteti*) müxtəlif şöbələrinə baş çəkirdim.

Bir dəfə, 1980-ci ilin oktyabrında AzPİ-nin aspirantura şöbəsinin yanından keçərkən, Aspiranturanın müdiri Abik Çaruxçiyev məni çağırdı, salamlaşdı və institutun əməkdaşlarından biri ilə, Göyçaydan həmyerlim Əlimirzəyev Burxan müəllim ilə tanış olmağımı mənə tövsiyə etdi.

Yaxınlaşıb, gənc, qısa boylu, açıq alınlı, çox incə ağ dərili və göyçaylıdan daha çox çeçenə bənzəyən sağlam biri ilə salamlaşdım.

O, xoş gülümsədi və məlum oldu ki, onun əmisini İsfəndiyar müəllimi Göyçaydan yaxşı tanıyıram. İxtisasca ərəbşünas idi, görünür, ərəb ölkələrindən birində tərcüməçi işləyirdi və bu vəzifəyə təyin olunduğundan, yəqin ki, DTX ilə bağlı idi. Burxan müəllim heç kimdən heç nə ummayan biri kimi təəssürat bağışlayırdı.

Bir həftədən sonra mən təsadüfən xarici şöbəsinin yanından keçərkən, yenə də Burxan Əlimirzəyevi gördüm, dəhlizdə popiros çəkirdi. Yaxınlaşıb salamlaşdım, o isə:

- Abdul müəllim, nə yaxşı ki, sizi gördüm, yanıma gəlin, sizin üçün bir xeyirli xəbərim var. Masasının arxasında əyləşəndə o, 1981/1982-ci tədris ili üçün gənc alimlərin xaricdə ezamiyyətə cəlb edilməsi haqqında Azərbaycan Təhsil nazirliyinin təlimat məktubunu çıxartdı. Söylədim ki, ingilis dilliyəm, cari ilin iyun ayında dissertasiya müdafiə etmişəm və AAK-dan təsdiqi gözləyirəm, İsveçə getmək istərdim, əgər bu mümkündürsə, amma evdə məsləhətləşməliyəm, sonra ona baş çəkərəm.

Burxan dedi ki, rəsmiləşdirmə uzun prosesdir, ingilis dilini yaxşı bilmək lazımdır, əgər məhz İsveçə istəyirəmsə, bunun üçün Xarici Dillər institutunda (*1 may küçəsi, Kirov prospektinin tinində*

*yerləşən Xarici Dillər İnstitutunun binasında*) iki illik kurslarda ingilis dilində biliklərimi təkmilləşdirməliyəm.

Həmin gün axşam evdə Subi ilə bu məsələni müzakirə etdik, o ideyanı dəstəklədi və nə qədər gec deyil ingilis dili kurslarına yazılmağımı təklif etdi. Başa düşürdüm ki, iki növbədə işləməli olacağam, gündüz "*Elektrik rabitəsi*" kafedrasında dərs deyəcəyəm, axşamları isə, həftədə üç dəfə ingilis dili kurslarına gedəcəyəm.

Ertəsi gün Burxan Əlimirzəyevə yaxınlaşıb xahiş etdim ki, mənə ingilis dili kurslarına göndəriş versin və rəsmiləşdirməni nədən başlayacağımı başa salsın.

Məlum oldu ki, xaricə ezamiyyət üçün rəsmiləşdirmə elə də asan iş deyil. Əvvəlcə doldurulması lazım olan bir sıra blanklar verdi, sonra dedi ki, bu məqsədlə AzPİ-nin Partiya Komitəsində müsahibədən sonra əvvəlcə kafedranın üçlüyinin (*Kafedra müdiri, Partqruptəşkilat, Həmkərlar İttifaqının sədrləri*), sonra isə fakültənin üçlüyinin və nəhayət, İnstitutun üçlüyinin imzaları üçün xasiyyətnamə hazırlamalıyam. Məhz indi anladım ki, bu əsl karuseldir və artıq geriyə addım yoxdur. Burxan müəllim bütün xasiyyətnamələrın nüsxələrini çıxartmağı məsləhət gördi.

Kafedramızın partiya xasiyyətnaməsinın tərtibatından başladım, və bu işdə kafedranın partiya təşkilatının sədri Rzayev İslam müəllim mənə yardım etdi, o mənim keçmiş müəllimim idi, və məni yaxşı tanıyırdı. Xasiyyətnamə tərtib olunanda İslam müəllim mənə dedi ki, imzalar həmişə bu ardıcıllıqladır: Həmkarlar İttifaqının, Partiya Təşkilatının sədrləri və yalnız axırda – kafedra müdiri, eləcə də fakültə, sonra isə institut üzrə.

Hərəkətə keçdim, ilk olaraq kafedramızın daimi və sevimli Həmkarlar İttifaqının sədri Sara xanım Abdullayeva imza atdı. Sonra Rzayev İslam müəllim imzaladı, daha sonra imza üçün yenicə kafedra müdirimiz olan Həsənov Əlşana verdim. Lakin o dərhal imzalamadı, və dedi ki, yuxarıdakılarla məsləhətləşməlidir. Xasiyyətnaməni onun yanında qoymalı oldum. Amma hər ehtimala qarşı Burxan müəllimin yanına getdim, ona xasiyyətnaməni hazırlanması prosesindən, həm də xasiyyətnaməni EƏ kafedrasının müdirində qalmasından məlumat verdim.

Bunu biləndən sonra o mənə məsləhət gördü ki, narahat olmayım, bu onun qayğısıdır. Heç bir saat keçmədi, Əlşan müəllim

dərs zamanı auditoriyaya girdi və imzalanmış xasiyyətnaməni mənə verdi. Təşəkkür edib, xarakteristikanı götürdüm və yalnız ertəsi gün Burxan müəllim mənə müəyyən detalları söylədi.

Sonra fakültə səviyyəsində imzaları toplamağa başladım. Burada da fakültənin Həmkarlar İttifaqının və Partiya Təşkilatının sədrləri imza atdılar, lakin dekan Məmmədov Famil özündən çıxdı ki, niyə onunla məsləhətləşməyib imzalayıblar və xasiyyətnaməni məndən aldı. Yenə də Burxan müəllimin yanına getdim.

Burxan müəllim yanımda fakültənin partiya təşkilatının sədri Allahverdiyev Zakir müəllimə zəng edib soruşdu: - Nə olub? Axı siz də Əlcəzairdə işləmisiniz, bilirsiniz ki, belə məsələləri hökumət həll edir, dekan deyil. Niyə dekan imzanı gecikdirir?

İki saatdan sonra dekan məni çağırdı və imzası ilə xasiyyətnaməni mənə verdi. Artıq altı imza əldə edərək, üçüncü, axırıncı, imzaların institut səviyyəsində toplanmasına keçdim. Ertəsi gün Politexnik institutunun həmkarlar ittifaqının sədrindən imza aldım, sonra AzPİ-nin partiya təşkilatına ilk nüsxəni verdim.

Mənə dedilər ki, bir həftədən sonra gündüz saat üçdə partiya komitəsinin iclası olacaq və mən orada iştirak etməliyəm.

Xasiyyətnaməni təhvil verib, Burxan müəllimin yanına getdim ki, məlumat verim. Söylədi ki, orada olacaq və ezamiyyətdə olacağım ölkədə yerinə yetirəcəyim işin mövzusunu və planını hazırlayım.

Bir həftədən sonra AzPİ-nin partiya təşkilatına getdim, təxminən bir saat gözlədim, Burxan müəllim çıxdı və dedi ki, tezliklə bizim məsələmiz müzakirə olunacaq. Bundan 15 dəqiqə sonra məni içəri çağırdılar. Əvvəlcə Burxan müəllim çıxış etdi, sonra AzPİ-nin partiya təşkilatının sədr müavini mənim xasiyyətnaməmi oxudu.

Partiya təşkilatının katibi – kiminsə sualı var? – soruşdu.

ETF fakultəmizin dekanı Famil Məmmədov soruşdu:

- Niyə o xaricə ezamiyyətə getməlidir? Bəlkə başqasını göndərmək lazımdır?

Partiya təşkilatının bütün üzvləri güldülər. AzPİ-nin partiya təşkilatının üzvü, professor Salman Qarayev isə cavabında dedi:

- Famil müəllim, siz buraya dekan kimi dəvət edilmisiniz, lakin funksiyalarınızdan uzaqlaşırsınız. Bu sualı sizə aitdir, AzPİ-nin

partiya təşkilatının sədrinə deyil. Siz kimi istəsəniz təqdim edə bilərsiniz, kimi göndərmək qərarını isə biz veririk. Abdul müəllimə gəldikdə isə, mən heç bilmirdim ki, o sizin "*Elektrik rabitə*" kafedrasındadır. Amma mən onu hələ AzPİ-nin birinci kursundan, 1966-cı ildə potokda Sov.İKP-nın tarixindən yeganə beş alan kimi tanıyıram. Odur ki, Burxan müəllimə bu cür seçimə görə təşəkkürlər, bax belə kadrlar bizi yanıltmaz. Ona görə də mən, partiya təşkilatının bir üzvü kimi, Abdul müəllimin xaricə ezamiyyətə göndərilməsini tövsiyə edirəm.

Dekanımız yetişmiş pomidor kimi qizardı, susaraq oturdu. Katib elan etdi ki, yalnız partiya təşkilatının üzvləri səs vermək hüququna malikdir. Sonra qalxan əlləri sayıb, dedi: - Yekdilliklə.

Beləliklə, təxminən 20 günə xasiyyətnaməni rəsmiləşdirdim. Əslini Burxan Əlimirzəyevə verdim, nüsxəsini isə özümdə saxladım.

Sovet bürokratiyasının nə demək olduğunu mən indi başa düşdüm. Lakin bununla hər şey bitmədi. Bir neçə həftədən sonra tanımadığım bir səs mənə zəng etdi və dedi ki, ezamiyyət məsələsinə görə mənimlə görüşməlidir və nədənsə görüş yerini bulvarda, saatlı qülləsinin yanına təyin etdi.

Soruşdum ki, onu necə tanıyacağam. O isə gülərək, cavab verdi ki, əsas odur ki o məni tanıyır və dəstəyi yerinə qoydu. Beləliklə mənim kuratorlarımın sayı iki oldu.

Qabağa qaçaraq, söyləmək istəyirəm ki, o zaman əvəzsiz kuratorlar var idi: əvvəlcə Burxan Əlimirzəyev, sonra Gəraybəyov Çingiz müəllim və s. Onlar necə də təmiz və düzgün adamlar idi!

Lakin qabaqda bizi, xaricə ixtisasını artırmağa getmək istəyən gənc alimləri yeni seçimlər və yeni sınaqlar gözləyirdi.

Belə ki, 1981-ci ilin yanvar ayında bizi, ezamiyyətə göndərilmək üçün Zaqafqaziyanın üç respublikasından olan namizədləri Tiflisə zona toplanışına yığdılar, xaricə gözlənilən ağır işi, özü də kapitalist rejiminin əcnəbiləri arasında, harada ki, "*insan insana canavardır*" – daha sərt izah etdilər.

Bu kapitalist ölkələrində bizi gözləyən inanılmaz çətinlikləri, mümkün təxribat və çəkişmələri beynimizə yeridirdilər. Görünür, düşmənlərimiz yatmır. Sonrakı mərhələ Krasnovidovo şəhəri idi, Moskva ətrafında gözəl bir yer, burada Sovet İttifaqının bütün yerlərindən olan təxminən yüz əlli nəfər gənc alim toplamışdılar. Bu

toplanışların məqsədi bir idi – burada, Moskvada bu iki həftə ərzində üzə çıxarılmalı olan etibarsızları ayırmaq. Hər şeyə diqqət yetirirdilər: kim lazım olmadan içir, kim sərt və qaradinməzdir, və nahayyət gənc alimlər səhər yeməyi, nahar və şam yeməyində özlərini necə aparırlar.

Paytaxtdan gələn cavan müəllimələr vasitəsilə seçilən xarici dildə biliklərin səviyyəsini də yoxlayırdılar. Şəxsən mənə dilin öyrənilməsində Bakıda öz istəyimlə getdiyim Xarici Dillər İnstitutunun məşhur professoru İsmixan müəllim Rəhimovun apardığı on beş nəfərlik qrupdan ibarət ixtisaslaşmış ingilis dili kursunun çox böyük köməyi olmuşdur. Mahiyyətcə bu kurs məni xilas etdi, ünsiyyətdə və davranışda mən özümə daha əmin idim.

Xaricdə təcrübə keçməyimin həyata keçirilməsində xüsusi rolu olan uzaq qohumum (*anası bizim Şərifli sülaləsindən idi*), mən Azərbaycan İnşaat-Memarlıq İnstitutunun dosenti Tofiq Mehdiqulu oğlu Mahmudovu qeyd etmək istəyirəm.

Belələri hada deyərlər - "*Ot kök üstündə bitər!*"

O bu qrupda çoxlarından ağıllı və gözüaçıq idi və əsasən praqmatikliyi və təmkinliliyi ilə seçilirdi. Mən tez özümdən çıxan və səbirsiz idim, istənilən işdə hər şeyi axıra qədər anlamağa çalışırdım və əgər nəyisə başa düşmürdüm, o dəqiqə boşluğu doldurmaq üçün uyğun sualı verirdim...

Biz Tofiqlə (*o inşaatçı ixtisası üzrə Yaponiyada təcrübə keçmək üçün hazırlaşırdı*) həm Tiflisdə, həm Krasnovidovoda bir yerdə qalır və yeyirdik, bir qədər hövsələ etməyimi məsləhət görərək, həmişə məni saxlayırdı ki, həmin sualı başqası da verə bilər. Bəli, Tofiq Mahmudov, şübhəsiz, müdrik insandır! Məhz onunla sıx əlaqəm məni bir çox gözlənilməz qayğılardan qurtardı.

Burada, Moskva ətrafında öyrəndim ki, xaricə ezamiyyətə hazırlaşan azərbaycanlıların sayı az deyil. Lakin onların bir hissəsini və həmçinin digər regionlardan olanları, təəssüf ki, çıxartdılar.

Burada müxtəlif ixtisaslı alimlər var idi: riyaziyyatçılar, mexaniklər, bioloqlar, rabitəçilər, inşaatçılar və s.

Amma biz şəhər ətrafından Moskvaya qayıdanda məni İttifaqın Təhsil nazirliyindən hazırlığımız üçün cavabdeh olan kuratorum çağırdı və izah etdi ki, mən İsveçə düşmürəm, çünki həmin yerlər başqalarınındır (*barmağı ilə yuxarını göstərdi*).

Tamamilə dilxor oldum və növbəti gün Bakıya qayıtmaq istəyirdim ki, məni (*sonradan məlum oldu ki, təkcə məni deyil*) günün ikinci yarısında həmin kurator yenidən çağırdı.

O yeni xəbəri mənə çatdırdı, SSRİ və Böyük Britaniya arasında yeni dövlət sazişi (*hansi ki, son iyirmi ildə yox idi*) bağlanıb, tərəflər 1981/1982-ci illərdə təcrübə keçmək üçün 25-ə yaxın alim götürə bilər. Bununla əlaqədar olaraq, kuratorumuz dedi:

- Abdul, sənin iki həftə vaxdın var. Əgər sənədləri, o cümlədən xasiyyətnaməni yenidən rəsmiləşdirib bizə, Təhsil nazirliyinə göndərə bilsən, İngiltərədə olacaqsan. Amma əsas məsələ odur ki, İngiltərədə hansı alimi tanıyırsan, onu göstərməlisən?

Birmənalı cavablandırdım: - Bəli, əsərlərindən istifadə etdiyim Aston Universitetinin professoru Con Flad. Bundan əlavə, SSRİ Elmlər Akademiyasının İnformasiyanın Ötürülməsi Problemləri İnstitutundan Vladimir İliç Neyman onu yaxşı tanıyır.

Kuratorumuz dedi ki, bu, işin təxminən 50%-dir, indi qalır bu günlər ərzində bütün sənədləri yeniləyib, partiya təşkilatından və rektorluqdan keçirib, ünvana yollamaq. O sənədlərin yenidən rəsmiləşdirilməsində mənə köməklik göstərilməsi üçün Azərbaycan Təhsil Nazirliyinə ünvanlanan məktubun nüsxəsini mənə verdi.

Mən heç təsəvvür etmirdim, ki bu sənədləri necə təzələyim, lakin bundan ötrü hər şeyi edəcəyimə kuratora söz verdim.

Moskvadan qayıdan kimi institutumuzun ümumi şöbəsinə, Xədicə xanım Fərzəliyavanın yanına gəldim, hər şeyi olduğu kimi ona danışdım və Təhsil Nazirliyinin məktubunu ona verdim.

Xədicə xanım, çox zərif xanım görünüşünə və gözəlliyinə baxmayaraq, güclü, deyərdim ki, cəsarətli idi. Düşünüb, soruşdu:

- Başqa kimsəyə ilə bu haqda danışmısan?

- Xeyir, ilk olaraq sizə yaxınlaşmışam.

- Bütün blanklar və xasiyyətnamənin nüsxəsi, səndə var?

- Bəli.

- Deməli belə, yaxşı makinaçı tap, bütün bunları Böyük Britaniya üçün yenidən çap elətdir və mənə gətir.

Ertəsi gün məndə hər şey hazır idi və mən onları Xədicə xanıma təhvil verdim. O diqqətlə baxdı, hamısını oxudu və dedi ki, sabah saat beşdən sonra onun yanına gəlim.

Fikirləşdim ki, yəqin kiminləsə məsləhətləşməlidir.

Növbəti gün onun otağına girəndə sakitcə, elə bil heç nə olmamış kimi, imzalanmış və qeydiyyatdan keçirilmiş bütün sənədləri mənə uzatdı. “*Dilim qurudu*”, bilmədim ki, nə soruşum.

Xədicə xanım dedi, Təhsil nazirliyinə get, bütün sənədləri Xarici əlaqələr şöbəsində Çingiz müəllim Gəraybəyova ver, o isə sabah bunları Moskvaya şəxsən göndərəcək.

Azərbaycan Təhsil nazirliyinin Xarici əlaqələr şöbəsinə gələndə başa düşdüm ki, Xədicə xanım hər şeyi necə lazımdır həll edib. Düz iki gündən sonra İttifaqın Təhsil nazirliyindən olan kuratorumuza zəng etdim və dinlədim:

- Afərin Abdul, dünən sənədlərin kuryerlə alınmışdır. Bundan əlavə, hamısını yenidən rəsmiləşdirib, SSRİ Xarici İşlər Nazirliyinə (*XİN*) göndərə bildim. Beləliklə, yaxın günlərdə sizin nazirin adına göndərəcəyimiz teleqramı gözlə, İngiltərəyə çantanı hazırla.

Bilirsiniz, buna qədər də Xədicə xanıma xüsusi simpatiyam vardı, lakin bundan sonra və AzPİ-də (*sonra Texniki Universitetdə*) çalışdığım son günlərədək ona böyük bacım kimi müraciət edirdim.

Hə ezamiyyətdən danışırdım axı... Bağışlayın, yayındım.

Amma bu günlərdə elə şey baş verdi ki, bütün həyatımı alt-üst etdi. Yuxudan ayıldım, artıq 35 il idi ki, varlığını bilmədiyim doğma anamı tapdım. Çox asan oldu, bu yay günlərində, elə bil heç bir qayğı yoxdur, kuratorumuz Çingiz müəllim Gəraybəyov mənə zəng edir və “*Yeni İnturist*” mehmanxanasının beşinci mərtəbəsinə qalxmağımı xahiş edir, orada formal suallar üçün məni gözləyirdilər.

Adətim üzrə vaxtından on dəqiqə əvvəl gəldim və beşinci mərtəbəyə qalxdım. On dəqiqə gözlədim və düz təyin olunmuş vaxtda göstərilən nömrənin qapısını döydüm.

Gördüm, balaca masa arxasında üç nəfər oturub, biri deyəsən yerli, digər ikisi isə, şübhəsiz, rus idilər.

Salam verib özümü təqdim etdim. Onlar mənə əyləşməyimi təklif etdilər.

Sakitcə oturdum. Yerlimiz başladı (*on ildən sonra məlum oldu ki, o Göyçaylı, DTK-nin polkovniki Maqsud Məmmədov*). Aramla, ahənglə, rus dilində dedi ki, onlar formal olaraq, müsahibə aparmalıdırlar və ona görə də həyəcanlanmamalıyam, sakitcə və qərəzsiz bir sıra formal suallara cavab verməliyəm.

Razılaşdım və özümdə fikirləşdim – yola düşməyə iki həfdə qalmış vaxt tapdılar sadə sullar verməyə. Üç nəfərdən yaşlısı, yaşıl formada olanı zabit sual verməyə başladı.

- Söyləyin, Abdul, atanızın adı nədir?

- Həmidulla.

- Yaxşı. Bəs ananızın adı nədir?

- Türfə.

Otağa sükut çökdü. Yerli mənə dedi:

- Abdul, həyəcanlanma, hər şey qaydasındadır, ən əsası necə var elə cavab ver.

Bu vaxt onların arasında ən cavanı dedi:

- O heç nə bilmir, baxın, necə səmimi cavab verir.

Bir az həyəcanlandım və fikirləşdim, "*nəyi bilmirəm?*".

Yerli: - Sən qorxma, biz sualları təkrar edə bilərik.

Bu dəfə cavan zabit soruşdu: - Atanızın adını deyin.

Mən (*istəmədən*) – Həmidulla.

Cavan: - Yaxşı, bəs ananızın adı necədir?

Mən: - Türfə.

Hər üçü, xorla: - Hə, görünür, o bunu bilmir.

Mən: - Bağışlayın, mən nəyi bilmirəm?

Yerli: - Necə fikirləşirsən, anan kimdir?

Mən: - Əlbəttə ki, Türfə.

Yaşlı zabit: - Əlbəttə o kimi istəsə anası hesab edə bilər, özü də atası ilə yaşayıb. Amma bu haqda doğrusunu bilməyə haqqı var.

Mən (*bir şey anlamayıb*): Nəyi bilməliyəm?

Yerli (*sakitcə*): - Sənin anan Məleykədir, bütün bu illər ərzində atanın kəndində, Bığırda heç hara getmədən yaşayıb. Abdul sən anan həyatda olarkən yetim qalmısan. Atan müharibədən kontuziyalı qayıdıb, boş şeydən ayrılıblar və sən atanla qalmısan. Anan gərək ki, hələ həyatdadır, İngiltərəyə səfərə qədər gedib onunla görüşə bilərsən.

Donub qalmışdım, sakitcə durdum və çıxdım.

Evə çatanda həyat yoldaşım dedi ki, əmim oğlu Dünyamı iki dəfə zəng vurub. İkinci dəfə "*Yeni İnturist*" mehmanxanasının telefonunu qoyub. Nömrəni mənə verdi.

Əmim oğluna zəng etdim, o dəqiqə bildi ki, kefim yoxdur və soruşdu: - Nə olub?

Mən: - Dünyamı, xahiş edirəm, de, sən bilirdin, mənim doğma anam həyatdadır?

- Əlbəttə, bunu hamı bilir. Sən bilmirdin bəyəm? (*Dünyamı, başa düşdü ki, bilmirəm*) İndi yanına gələrəm.

Bir neçə dəqiqədən sonra bizim evdə idi.

Onu danlamağa başladım: - Sən mənə necə əmim oğlusan ki, bir dəfə də olsun bu barədə mənə heç nə deməmisəm.

O isə təəccüblənərək: - Sən doğrudan bilmirdin?

Mən: - Qulaq as, əgər sən mənə deməmisənsə, əgər heç kim mənə deməyibsə, mən bunu hardan bilərdim?

O: - Bilirsən, rəhmətlik atanın həyətində sənin toyun olanda anan tərəfdən dayın Zaman və ana tərəfdən qardaşlarından biri Məhəbbət gəlmişdilər. Eyvanın yanında idim, oradan yeməkləri alırdım ki, qonaqlara paylayım. Bacın Nailə və anan Türfə də mənim yanımda dayanmışdılar. Elə bu zaman dayın və qardaşın səni qucaqlayıb öpürdülər.

Gördüm ki, onlarla soyuqsan, odurki anandan və bacından soruşdum ki: - Niyə Abdul doğmaları ilə belə soyuq salamlaşır? Anan Türfə cavab verdi: - Gizlədir ki, biz başa düşməyək. Amma hələ də gözümün qabağındadır. Ay Allah, sən ki onları tanımırdın!

Mən partladım:

- Qulaq as, sizi, əmim oğlanlarını, sayıb qurtarmaq mümkün deyil. Məgər bütün bunları mənə danışmaq olmazdı?!

- Sən atanı tanımırdın? Hamımız ondan qorxurduq və buna cəsarət etmirdik. Amma, anama and olsun ki, mən elə bilirdim, sən bunları bilirsən. Qulaq as, bəs o sağdır?

- Hardan bilim!

- Qardaş, sabah Göyçaya hər şeyi öyrənib sənə zəng vuraram.

Bir gün sonra o zəng edib xəbər verdi ki, anam sağdır. Əmimoğlu Dünyamıdan xahiş etdim ki, şənbə günü ailəmlə birgə Bığıra gələcəyim, odur ki anamı xəbərdar etsin...

Yığışıb üçümüz birlikdə (*Subi, Leyla və mən*) Bığıra, Şərifli sülaləsinin torpağına getdik ki, 35 ildən sonra anamla görüm.

Görünür, Allahın mənə yazığı gəlib, nəinki xaricə ezamiyyətə getməli oldum, həm də anam (*ikinci dəfə ərə getmişdi*) doğma olan dörd qardaşım və iki bacımla tanış oldum...

İndi mənim altı qardaşım və yeddi bacım vardı və həm anamın, həm də atamın ailəsində ən böyük mən idim...

Düzdür, mən gözlədiyim o böyük xoşbəxtliyi görmədim. Görünür, anam bu 35 ildə mənim üçün bütün göz yaşlarını axıdıb qurtarmışdı və artıq istədiyim kimi məni hiss etmirdi. Amma kim bilir? Xarici görünüş aldadıcıdır. Bəlkə daxilən o mənim üçün hönkür-hönkür ağlayırdı, atam onu qovanda, məni, o zaman altı aylıq körpəsini tərk etməyə məcbur edəndə, bəlkə ikinci ərinə görə bütün məhəbbətini göstərə bilmirdi? Ya da başqa bir şey?

Axşam qardaşım Məhəbbət dedi ki, Bığır kəndindəki məktəbin direktoru əmim nəvəsi Şərif müəllim Şəriflidir, Azərbaycan SSR EA-nın Tarix İnstitutunun keçmiş direktoru, məşhur tarix elmləri doktoru, professor Məmmədəli Xəlil oğlu Şəriflinin kiçik qardaşıdır. Söylədi ki, Şərif müəllim məni görmək istəyir və xahiş edir ki, Bığıra gələndə məni onun evinə aparsın.

Onun qapısını döyəndə bizi zahirən gözəl, hündür və cazibədar, amma ilk görüşdə bir qədər sərt, altmış yaşlarında bir kişi qarşıladı. Görünüşcə təkəbbürlü, sərbəst və düz, qətiyyətli, yaltaqlıq və ikiüzlülüyə dözümsüz idi. Bu Şərifli sülaləsindən olan hər bir kişinin tipik xüsusiyyətidir.

Salamlaşıb, o bizi stola dəvət etdi və dərhal mətləbə keçdi.

- Abdul, sən bizim sülaləmizdə iyirminci alimsən. Təəssüf edirəm ki, mənim böyük qardaşımı və öz əmin nəvəsini, tarixçi Məmmədəli Xəlil oğlu Şəriflini tanımamısan. Sovet quruluşu bizim camaatı ayırdı, sənin baban Sədi Şəriflidən sonra isə Bığır kəndində lap pis oldu. Sənə Şərifli sülaləmizin şəcərəsini göstərmək istəyirəm, qorxuram iyirmi ildən sonra belə şeylərlə heç kim maraqlanmasın. İlkin variantı götür və onunla işləməyə çalış. Axı nə vaxtsa kiməsə bütün bunlar maraqlı olacaq, materiallar isə olmayacaq. Əlbəttə, bunları rəhmətlik Məmmədəli Şəriflinin sağlığında etsəydik, çox gözəl olardı, amma nə etmək olar, onun heç cür əli çatmırdı. Əgər nə vaxtsa bunu sən etsən, bütün Şərifli sülaləmiz üçün ən şərəfli iş olar. Bütün babalarımız və ulu babalarımız o dünyada yerlilərimizin işləri ilə fəxr edəcək. Bu şərəfli, lakin çox əziyyətli işdir. Allah köməyin olsun, lütf edib, yerinə yetir bunu.

Mənə əllə yazılmış vərəqlər verdi və dedi ki, bilirsən, 1947-ci ildə qardaşım Məmmədəli Şərifli də Londonda təcrübə keçib, "*Tarix təkrarlanır*".

Bir gündən sonra Bakıya qayıtdıq. Amma Moskvaya, oradan da Londona getməmişdən əvvəl pis vəziyyətdə idim. Düzünü desəm, hətta fikirləşirdim ki, səfərdən əvvəl anamla və Şərif müəllimlə görüşməyim təsadüfi deyildir, bu, yuxarıdan bir işarədir, getməmişdən əvvəl heç olmasa bir dəfə görüşməli idik.

Bəli, həyatımın bu həlledici anlarında çox şey ağlıma gətirirdim. Ancaq bu barədə Subiyə heç nə demədim, axı onsuz da onu qızımla tək qoyub gedirdim.

Suallar məni narahat edirdi: mənsiz Subi körpəmizin və evin öhdəsindən necə gələcək? "*Çoxkanallı rabitə*" kursunu apardığı Bakı Rabitə Elektrotexnikumunda işə çatacaqmı?

Birmingemdə qalmaq üçün fərz etdiyim ən vacib şeyləri götürdüm: geyimdən bəzisini, lüğətləri, çapdan çıxmış bir sıra elmi əsərləri, həmçinin qısa tezislərimi, bunlarla Birmingemin Aston Universitetinin prorektoru, Aston Universitetinin "*Elektrik rabitə*" departamentinin rəhbəri, professor Con Flad qarşısında çıxış etməyə hazırlaşırdım. Bir neçə balaca suvenirlər də götürdüm: rus matryoşkalarını və balaca suvenir samovarlar. İnanırdım ki, Birmingemdən olan elmi rəhbərim Con Fladla dil tapacağam və biz həm müasir rabitə şəbəkələrinin, həm də rəqəmli kommutasiyanın layihələndirilməsinə aid bir neçə məsələləri işləyəcəyik.

Səfərdən əvvəl SSRİ Elmlər Akademiyasından Vladimir İliç Neyman ilə görüşdüm. Söylədim ki, İngiltərəyə, prof. Con Fladın yanına gedirəm. O söz verdi ki, yaxın günlərdə Con Flada, Birmingemə, Aston Universitetinə mənə aid tövsiyə məktubu göndərəcək.

Xarici, özü də kapitalist ölkəsinə ilk səfərim üçün hər şey hazır idi. Çox şey dumanlı idi, ölkə ilə bağlı hər şeyi kitablardan və soraq kitabçalarından bilirdik. Yeni, hələ hiss etmədiyimiz kapitalist ölkəsini – Böyük Britaniyanı görməli idik.

*"Kim özgə dili ilə tanış deyilsə,*
*öz dili haqqında da heç nə bilmir"*
İohann Göte (1749-1832)

## 4.2. Əvvəlcə ingilis dili kursları.

Xitrou Aeroportunda (*London Heathrow Airport*) bizi British Council nümayəndələri öz avtobusları ilə, həmçinin SSRİ-nin Böyük Britaniyadakı səfirliyinin işçiləri qarşıladılar.

Bizi Hayd Parkla (*Hyde Park*) yanaşı kiçik bir otelə apardılar, burada biz, 17 gənc alim çox rahat yerləşdik və Londona gəlişimizin ilk günündən zövq almaq üçün Hyde Park-a çıxmağı qərarlaşdırdıq. Bilirdik ki, Hayd Park Londonun mərkəzində yerləşən, sahəsi 1,4 $км^2$ olan kral parkıdır və qərbdən ona Kensinqton bağı birləşir. Bağa isə Kensinqton döngəsi birləşir ki, burada SSRİ-nin İngiltərədəki səfirliyi yerləşir.

Böyük Britaniyanın hüdudlarında Hayd Park ilk növbədə onunla məşhur idi ki, burada *Speakers Corner* yerləşirdi, və burada ənənəvi olaraq, müxtəlif cür natiqlər və təbliğatçılar öz natiqliyini itiləyirdilər. Ona görə də Hayd Park istənilən ideyaların sərbəst elanı və müdafiəsi üçün əla yer idi.

Şənbə günü idi, qeyri-iş günü idi və istədik Hayd Parkda gəzişək, məşhur *Speakers Corner*-i görək, harada ki, müxtəlif siyasi partiyaların nümayəndələri öz fikirlərini təbliğ etmək məqsədilə, Hitleri təriflәmək, yaxud Vladimir İliç Leninə oda oxumağa qədər, istənilən nitqi söyləyib və ya çıxış edə bilərdilər, yəni tam azadlıq.

Səfirliyin işçiləri, su içmək və ya nəsə yemək istəsək deyə, hər birimizə bir az pul vermişdilər.

Qrupumuz bir-birinin fotoşəklini çəkərək və yanan günəşdən həzz alaraq, dəstə ilə hərəkət edirdi (*görünür yalnız SSRİ-dən olan turistlər üçün xarakterik idi*).

Balaca dövrə edərək, burada hər yerdə səpələnən iri ağacların altında beş dəqiqə dincəlmək qərarına gəldik, uşaqların bəziləri isə şalvarlarını, maykalarını çıxarıb, qaralmaq istədi.

Hayd Parkda iki cür skamya vardı, biri möhkəm və uzun, bir neçə adamlıq, digəri isə şezlonq, yüngül, rahat və tək adamlıq.

Uşaqlardan bir neçəsi o dəqiqə soyunub, qaralmaq üçün şezlonq götürüb, şalvar və maykalarını asdılar və məmnun halda, qaralmağa başladılar.

Əvvəlcə şezlonqda oturdum, ancaq onlar kimi soyunmadığıma görə, böyük skamyaya keçdim və hiss etdim ki, əgər gözlərimi yumsam, o dəqiqə yatacağam.

Bu zaman uşaqlarımızın xor kapellası məni fikrimdən ayırdı, onlar nəyisə bərkdən müzakirə edirdilər. Gözlərimi açdım və gördüm ki, konduktora oxşayan, çantasını çiyninin üstündən atan bir ingilis şezlonqlarda rahatlaşan uşaqlardan şezlonqların kirəsi üçün bir funt sterlinq istəyir. Uşaqlar hiddətlənməyə başladılar ki, hələ bir dəqiqə öncə onlar dincəlmək üçün oturublar və əgər lazımdırsa, onları qaytara bilərlər və s., lakin nəzarətçi bir funt sterlinqlik çeki cırıb, ödənişi tələb etdi.

Uşaqlara yanaşıb, özlərindən çıxmamaqlarını məsləhət gördüm, əks halda o polisi çağıracaq, polisdən isə yaxa qurtarmaq mümkün deyil. Bunu anlayıb, uşaqlar hərəsi bir funt sterlinq çıxarıb, narazı halda nəzarətçiyə verdilər. O isə onlara çekləri verərək, xoş sifətlə "*thank you*" (*yani çox sağ ol*) dedi.

Səkkiz nəfərin hamısı şezlonqların kirəsini ödəyəndən sonra nəzarətçi onlarla sağollaşıb getdi. Heç bir dəqiqə keçmədi, uşaqların isterik gülüşü səsləndi. Gülüş içərisində söyüş də eşidilirdi, amma ən çox axmaq vəziyyət şənləndirirdi – ilk funt sterlinqi şezlonqa xərcləmək! La-Manşdan qatarla evə, İttifaqa qayıdanda bu şezlonqları hələ çox xatırlayıb ürəkdən gülürdük.

Ancaq ən böyük həzzi Hayd Parkın dəmir hasarı boyunca gedəndə və düz dəmir hasara quraşdırılmış müxtəlif həvəskar rəssamların gözəl rəsm əsərlərini görəndə aldıq.

Sonra daha maraqlı oldu: Hayd Parkın dəmir hasarının arxasında kitab yarmarkası vardı, burada xaricdə çıxmış məşhur rus yazıçılarının əsərləri də var idi.

Kalinin şəhərindən olan dosent Volodya yanımda idi. Birdən rus dilində kitab gördü A.İ.Soljenicının "*Qırmızı təkər*" romanı idi.

SSRİ-də "*Qırmızı təkər*" 1917-ci ilin fevral və oktyabr inqilabları, həmçinin birinci dünya müharibəsi haqqında Aleksandr Soljenicının məşhur epopeya romanı kimi tanınırdı.

Volodya tez pulunu verib, kitabı alıb portfelində gizlətdi. Biz yüzlərlə həvəskar rəssamların əsərlərinə baxıb həzz alırdıq.

Volodya məni sualla yayındırdı, Aleksandr Soljenicının "*İvan Denisoviçin bir günü*"nü oxumuşam? Fikirləşdim ki, Volodya məni yoxlayır və cavab verdim: - Başqa işim yoxdur?

Ertəsi gün səfirlikdən kuratorumuz bizə yaxınlaşıb məlumat verdi ki, səhər yeməyindən yarım saat sonra bizi İngiltərənin cənubunda, Kalçestrdə yerləşən Esseks Universitetinə aparacaqlar, orada təxminən bir ay ingilis dili kursları keçəcəyik.

Otelin podvalında yerləşən restorana düşəndə Volodya mənə dedi ki, onun yanına İttifaqın komcamolun MK-dan dostu gələcək.

Lakin heç kimi görməyib, səhər yeməyi üçün aşağı düşdük. Moskva ətrafındakı Krasnovidovoda bizi öyrətdikləri kimi sakit və səlis bıçaq və çəngəldən istifadə edirdik.

Hamının başı səhər yeməyinə qarışmışdı və aşağı düşən cavan oğlanı heç kim görmədi.

Bu cavan oğlan bizdən fərqli olaraq cins şalvarda və qalstuksuz idi, və zala daxil olub, səsləndi: "*Salam, kişilər*".

Biz donub qaldıq, qrupun yarısının bıçaq və çəngəli yerə düşdü. Ölü sükut restoranı bürüdü. Bizə elə gəldi ki, bu provokasiyadır. Susurduq, heç kim bıçaq və çəngəlini yerdən götürmürdü.

Bu zaman dosdum Volodya ucadan dedi: - Kolya bu sənsən?

O isə cavabında: - Hə, niyə sizdə ölü sükutdur?

Kimsə ucadan: "*Oy, Allaha şükür, keçdi!*"

Uşaqlar əyilib yerə düşən bıçaq və çəngəlləri döşəmədən qaldırdılar. Bəziləri hətta xaçlandı. Yüngül nəfəs aldıq, düşündük ki, keçdi! Düz yarım saatdan sonra əşyalarımızla bizim üçün ayrılmış avtobusa minib, Esseks Universitetinə (*Colchester Essex, Great Britain*) yola düşdük.

1981-ci il sentyabrın altısından Kalçestrdə yerləşən Esseks Universitetində aparılan 4 həftəlik ingilis dili kursunda bizi, 17 gənc alimi, SSRİ-dən olan t.e.n.-lərini qalmaq üçün ayrı-ayrı evlərə tək-tək yerləşdirdilər.

Hesab edirəm, mənim bəxtim gətirdi, çünki ev sahibəm 72 yaşlarında tənha dul qadın Mrs. Eileen Heightman idi, çox mehriban, xoşsifət, diqqətli, təhsilli və səbrli qadın (*Mrs. Eileen*

*Heightman, 57 Broome Grove Wivenhoe C074QU Colchester Essex, Great Britain)* ünvanında yaşayırdı.

Hər gün ev sahibəmin yaşadığı Vivinxoy (*Wivenhoe*) qəsəbəsinin kənd həyatından həzz ala-ala, Esseks Universitetinə və geriyə təxminən bir kilometr piyada yol gedirdim.

Universitetdə saat üçə qədər məşğul olurduq, sonra isə müvəqqəti ev sahiblərimizin evində vaxtımızı sərbəst və sıxılmadan keçirirdik.

Ev sahibəm miss Eylin iki il bundan əvvəl pensiyaya çıxmış BBC-2-nin aparıcı mühəndisinin keçmiş həyat yoldaşı idi. Eylin Heytman danışırdı ki, on iki il əvvəl onlar həyat yoldaşı ilə sakitcə və mədəni surətdə ayrılıblar, o gücünün çox olan vaxtında idi və ona gənc qadın lazım idi.

Rəsmi boşanmalarına baxmayaraq, keçmiş əri hər iki həftədə bir onun yanına gəlirdi və onlar söhbət edir, qəsəbədə gəzişir və kart oynayırdılar. Onların iki oğlu vardı. Böyüyü musiqiçi idi, bütün vaxtını qastrol səfərlərində keçirirdi və miss Eylin onu demək olar ki, 10 il idi görmürdü.

İkinci oğlu atasının yolu ilə getmişdi, radiotexnik-mühəndis idi, BBC-3-də işləyirdi ki, yüksək səviyyəli mütəxəssis sayılan atasının ayağının altında dolaşmasın.

Ev sahibəm deyirdi ki, onun həyat yoldaşına artıq iki ildir dalbadal ikiqat maaş verirlər ki, o, yerinə gənc perspektivli mühəndis hazırlasın, bu il isə kompaniya xahiş edib ki, hazırlamaq üçün ikinci işçi götürsün və ona ikiqat maaş verməkdə davam edəcəklər. Bundan əlavə, onun qeyd etdiyi kimi, keçmiş əri artıq iki ildir, ona böyük bonuslar yazır ki, Eylin dünya səyahətinə çıxsın.

Anladığım qədər, tək yaşamağına baxmayaraq, o darıxmırdı və ilk növbədə ona görə ki, qonşuluqdakı bütün uşaqlar onu yanına gəlirdi, üç-dörd ay burada ailəsi ilə qalan hansısa milyonçu şeyxin uşaqlarına ingilis dilini öyrədirdi.

Eylin, xüsusilə bir dülgərin ailəsi ilə dostluq edirdi, bu dülgərin arvadı və iki qızı vardı.

Ev sahibəmin evinin qarşısında yaşayan qonşusu ilə çox isti münasibətləri vardı. Qonşu  yük traulerinin adi sürücüsü idi.

Bu qonşu iki səbəbdən yaddaşımda qaldı: birincisi – o həmişə sevinirdi ki, oğlu hansısa klubun futbol akademiyasında oxuyur, ikincisi – o traulerinə öz həyat yoldaşı kimi baxırdı.

Onunla ilk tanışlığımız yadımdadır. O trauleri ilə həyatinə girdi, fikirləşdim yaxınlaşıb Tedlə tanış olmalıyam, lakin ev sahibəm məni fikrimdən döndərdi ki, indi o maşınını yumaqla məşğul olacaq, bu isə qırx dəqiqə çəkəcək. Və həqiqətən də 40-45 dəqiqədən sonra Ted qapımızın zəngini çaldı, böyük təbəssümlə miss Eylin və mənimlə salamlaşdı.

Onun maşınına sevgisini anlayaraq, yöndəmsiz söylədim ki, traulerinizə həyat yoldaşınıza yanaşdığınız kimi necə də sevə-sevə baxırsınız. Bunu düzgün qeyd olunmuş kompliment kimi qəbul etdi və əlavə etdi ki, trauler onun özününküdür.

Bu yerdə məndə tormozlanma baş verdi. Ciddi-ciddi ona baxıb, soruşdum:

- Necə yəni şəxsi? Bu ki yük maşınıdır, şəxsi ola bilməz.

İndi də Ted bərəldi, və məndən soruşdu:

- Başa düşmədim, niyə yük trauleri mənim özümünkü ola bilməz?

Mən Sovet mentaleti ilə cavab verdim:

- Adətən minik avtomobilləri şəxsi ola bilər, bu cür traulerlər deyil.

Tedin gözləri lap bərəldi və o dedi ki, hələ ikincisini də almaq istəyir.

Və bu an hər şey dayandı, çətinliklə anlaya bildim ki, Sovet İttifaqında deyil, İngiltərədəyəm, harada ki, həmin 80-ci illərdə nəinki şəxsi yük maşınlarından, hətta traulerdən belə söz gedə bilməzdi. Bunu başa düşüb, əlavə etdim:

- Ted, məgər sizdə şəxsi traulerin alınmasına icazə verilir?

Bu suala o gülərək cavab verdi, İngiltərədə torpaq, ev, zavod və fabrik, avtomobillər, həm minik, həm də yük, şəxsi ola bilər.

Mən cavabında:

- Sovet İttifaqında bizim sadalananlardan yalnız minik maşını şəxsi ola bilər.

O hamısını başa düşdü və dedi:

- Sizdə kommunadır, hər şey ümu və şəxsi heç nə yoxdur.

O ürəkdən güldü. Bundan sonra unutmamağa çalışırdım ki, hər şeyin alınıb satıldığı kapitalist ölkəsindəyəm.

Bir həftədən sonra miss Heytman mənə dülgər Consgilə qonaq getməyi təklif etdi, bizi gözləyirdilər. Onun qırmızı Forduna mindik, sürətlə sürürdü və qırx dəqiqədən sonra açıq sahədə yerləşən hündür, ikimərtəbəli evə çatdıq. Açıq darvazadan həyətə girdik.

Düşəndə gördüm ki, həyətdə müxtəlif markalı üç minik maşını dayanıb və yalnız birində (*furqonluda*) dülgər alətləri vardı.

Fikirləşdim ki, Consun evində qonaqları var və bu barədə miss Eylindən soruşdum. O təəccübləndi və maraqlandı ki, bunu haradan bilirəm. Sovet mentalitetindən irəli gələrək, izah etdim ki, üç minik maşınını burada daha üç ailənin olduğunu ğöstərir.

Eylin buna gülümsəyərək, dedi ki, o belə düşünmür.

Və həqiqətən də biz birinci mərtəbədə yerləşən qonaq otağına girəndə orada iki qızı ilə birgə onların iki valideyni idi.

Ev sahibi Cons bu ikimərtəbəli evin bütün otaqlarını mənə göstərməyə başladı, harada ki, SSRİ ölçülərinə görə, burada minimum 7 ailə sərbəst yaşaya bilərdi.

Söhbət rahat başladı. Öz-özümə fikirləşdim ki, Cons gözəl iş adamıdır, o bir illik dülgər kursunu bitirib və artıq 15 ildir ki, bu sənətdə çalışır. O 5 il bundan əvvəl evlənib, böyük qızının 4, kiçiyinin isı iki yaşı var.

Bütün otaqları gördükdən sonra Cons həyətə də baxmağı təklif etdi, mən böyük məmnuniyyətlə razılaşdım. Həyətə düşdük. Bu üç minik maşınının kimin olduğu haqqında sualıma - Cons əlbəttə mənumkudur, deyə cavab verdi.

Soruşdum, bəs bu 3 avtomobili neyləyir, o cavab verdi:

- Bax, bu mənim iş maşınımdır, güclüdür və mən onu Qatır adlandırıram. Bax bu sevimli, arvadımın maşınıdır, axı ona da harasa getmək, uşaqları harasa aparmaq və s. lazım olur. Üçüncü isə mənim öz kefim üçündür. Axı uşaqlarla barlarda, pivəxanalarda, restoranlarda görüşürük. Dostlarımla görüşə bu iri və yöndəmsiz iş avtomobilimlə gedə bilmərəm axı, bütün alətlərim görünür!

O elə sadaladı ki, heç bir suala ehtiyac qalmadı.

Mənim hələ 12 il bundan sonra maşınım olmayacaq, amma bu adi fəhlənin 3 avtomobili var, hələ lazım olsa birini də alacaq...

Gündüz saat iki radələrində nahara başladıq. Atmosfer elə rahat idi ki, evə dönmək vaxtının gəlib çatdığını hiss etmədik.

Axşam saat altıya, hava qaralmağa başlayanda miss Eylinin Forduna mindik. Ev sahibəsi xeyli yavaş gedirdi və mənə elə gəldi ki, onun kefi yoxdur. Onun kefini qaldırmaq istədim. Bakıda İsmixan Rəhimovla məşğələlərdə öyrəndiyim mahnı yadıma saldım, və "*Oh Dear, What Can The Matter Be*" oxumağa başladım:

Oh dear, what can the matter be
Dear, dear, what can the matter be?
Oh Dear, what can the matter be
Johnny is so long at the fair.

- - -

He promised to bring me a basket of posies
A garland of lilies, garland of roses
A Little straw hat to set off the blue ribbons
That ties up my bonny brown hair.

Miss Xeytman nəğməni eşidib, mənimlə birgə ucadan, yenidən və yenidən təkrarlayaraq, oxumağa başladı. Yolda qırx dəqiqənin neçə keçdiyini heç hiss etmədik də, şən və razı evə çatdıq. Yarım saatdan sonra o məni birinci mərtəbəyə, çay içməyə çağırdı və soruşmağa başladı ki, ən məşhur ingilis nəğməsini hardan bilirəm. Dedim ki, bunu mənim ingilis dili müəllimim, professor İsmixan Rəhimovun öyrədib.

Söylədi ki, hələ uşaqlıqdan kefi olmayanda o bu nəğməni oxumağı sevirdi və ona görə də mən onun üçün bu mahnını oxuyanda təəccübləndi. Sonra, axşam çay içəndə (*saat beşdə*) yenə də bu ingilis nəğməsini sevinclə oxuyurduq. Miss Eylin Xeytmanla oxuduğumuz digər sevimli nəğmə Thomas Moore-nin gözəl sözlərinə bəstələnmiş "*Those evening Bells*" idi, Rusiyada "*Axşam zəngi*" kimi tanınırdı:

Those evening bells! Those evening bells!
How many a tale their music tells,
Of youth, and home, and those sweet time,
When last I heard their soothing chime.

“*Köhnəni öyrən, yenisini bilərsən*”
Yapon atalar sözü

## 4.3. Wivenhoe-də baş tutmayan iməcliyim.

Dörd həftə qalmalı olduğum Vivenxo (*Wivenhoe*) kəndinin infrastrukturu, əsasən də qəsəbənin qədim hissəsindəki yollar parıldamırdı və London üçün şəhərətrafı avtomobil yollarının əhəmiyyəti itdiyindən unudulmuşdu.

Wivenhoe – Esseksin (*İngiltərə*) cənubu Kolçesterdən təxminən 3 mil (*təqribən 4,8 km*) cənub-şərqə yerləşən şəhərdir. Vivenxo Koln çayının ətrafında yerləşir.

İlk baxışda müəyyən etmək çətin idi: Wivenhoe kənddir, qəsəbədir yoxsa kiçik şəhərcikdir, lakin bir şey aydın idi, o Londondan heç nə ilə fərqlənmirdi. Görünür, Sov.İKP-nin yetmişinci illərdə qoyduğu “*şəhər və kənd arasındakı fərqi götürmək*” məsələni İngiltərədə çoxdan həll etmişdilər.

Şənbə günü Mrs. Eileen Heightman mənə dedi: “*Abdul, əgər etiraz etmirsənsə, balaca iməclik edək, sənin və mənim xoşumuza gəlməyən bütün əşyaları həyətə çıxaraq, sonra tullayacaqlarımızı ayırd edək*”.

İdman formamı geyindim və mənzilimizdən tullanacaq artıq əşyaları çıxarmağa başladıq. Təxminən bir saatdan artıq əşyaları həyətə çıxartdıq. Axırda o özü bütün otaqlara baxıb, həyətə düşdü.

Həyətə iki stul çıxardım, və təklif etdim ki, mən xanıma əşyaları bir-bir qaldırıb göstərim, tullanma qərarını isə o verəcək.

Hər bir əşyanı səylə qaldırırdım və onun qərarı ilə əşyanı tullamaq üçün qara torbaya yerləşdirirdik. Mən ön sol ayağı sınmış köhnə dəmir atı qaldıranda qara torba artıq yarıyadək dolmuşdu. At təqribən beş kiloqram olardı, sınıq əyaq onu çox eybəcərləşdirirdi.

Baxdım, miss Eylin bir az gülümsədi, amma heç nə demədi. Köhnə şeyi qaldırdım və bu ayaqsız atı tullamağı təklif etdim.

Atı qara torbaya qoymamışdan əvvəl sahibəyə baxdım, o isə daha da gülümsəyərək, dedi: “*Oy, mister Abdul, düzünü desəm, haqlısınız, onun təqribən 100 yaşı var, köhnə və yaraşıqsızdır, amma iş orasındadır ki, bu mənim babamın hədiyyəsidir, ən əsası*

*isə onda beş kiloqramdan artıq təmiz, özü də hind qızılıdırr. Ona görə də gəlin, yenə də onu evdə saxlayaq, birdən lazım olar*".

Məni titrəmə götürdü, bu çəkidə qızılı tullamaq! Vivenxoda yaxşı şənbə oldu ki! Bundan sonra heç nəyə baxmaq istəmirdim!

Mənim snukerlə (*ingilis dilində snooker*) bağlı xatirələrim bu qəsəbəyə aid idi. Bir dəfə ev sahibəm məni televizora baxmağa dəvət etdi və maraqlandı ki, ingilis snukeri (*snooker*) ilə tanışam?

Etiraf etdim ki, tanış deyiləm.

O izah etdi ki, bu çox maraqlı, intellektual və fərdi oyundur və onunla baxmağı təklif etdi. İki dəqiqədən sonra oyun başladı. Rus bilyardını xatırladırdı, yalnız şarlar balaca və müxtəlif rəngdə idi.

Etiraf etmək istəyirəm ki, iki həftə ərzində *BBC-3* kanalı ilə seyr etdiklərim tez bir zamanda bu oyunun qaydalarına yiyələnməyimə kömək etdi, miss Eylin də lazım olanda başa salırdı.

Sonradan öyrəndim ki, snuker (*snooker*) luzalı bilyard oyununun növüdür, gözəl idman növüdür və İngiltərədə XIX əsrin 70-ci illərinin sonundan yayılmışdır. Hesab olunur ki, snuker 1875-ci ildə Hisdistanda Britaniya qoşunlarının polkovniki N.Çemberlen tərəfindən icad edilmişdir. Snuker demək olar ki, bütün dünyada, əsasən Avropa və Çində tanınmışdır. Snuker üzrə dünya çempionatı isə 1977-ci ildən bəri hər il keçirilir.

Əvvəlcə yalnız dörd rəngli kürəcik vardı, yalnız on doqquzuncu əsrin sonundan onların sayı altı oldu. Miss Eylinə qulaq asaraq, başa düşdüm ki, Böyük Britaniyanın əzəmətliyi ondadır ki, həyatda olduğu kimi, idmanda da onlar yazılmış qaydalar qoyaraq, rəsmi mütəşəkkil icmalar yaradırdılar.

Birinci dünya çempionatı Birmingemdə 1926-cı ilin axırında və 1927-ci ilin əvvəlində təşkil olunmuşdu. İkinci dünya müharibəsindən sonra, daha dəqiq, 1950-1960-cı illərdə sponsorlar və yeganə təşkilat olmadığından snukerin idarə olunmasının yararsız hala düşməsinə baxmayaraq, 1970-ci illərin axırlarından oyun yenidən canlanmağa başladı, ona sponsorluq etməyə və televiziyada göstərməyə başladılar.

Beləliklə, 1977-ci ildən snukerçilərin hər iki-üç mövsümdə yenilənən rəsmi reytinqi tətbiq edildi. 1980-ci illərin əvvəlindən Asiya ölkələrində bu oyunun təbliğatı fəal aparılırdı.

Məhz miss Eylinə görə, burada, İngiltərədə 1981-1982-ci tədris ilinin bu olduqca qayğısız ayında idmanın ən gözəl növlərindən birini öyrəndim. Bu gün, Azərbaycanın müstəqilliyinin bərpasından iyirmi il ötdükdən sonra Eurosport idman kanallarından bu oyunu məmnuniyyətlə izləyə bilirəm.

Snuker nəinki ingilis dilli ölkələrdə (*İngiltərə, Şotlandiya, Uells, Şimali İrlandiya, İrlandiya, Avstraliya*), hətta Almaniya, Braziliya, həmçinin Çində də məşhurdur.

Miss Heytmanın izah etdiyi kimi, oyun çox sadədir, oyunun başlanğıcında oyun stolunda piramida şəklində 15 qırmızı kürəciklər (şarlar) və hər biri stolun müəyyən nişanlanmış yerində yerləşən 6 rəngli şarlar düzülür.

Ağ toxmaq rəngli şar vurmaq üçün istidafə edilir. Oyunçular növbə ilə əvvəlcə qırmızı, sonra isə digər rəngli kürəcikləri luzaya vurmalıdırlar. Qırmızı şarlar stolda olarkən, vurulmuş rəngli şarlar öz mövqelərində qoyulurlar. Ən çox xal toplayan oyunçu qalib gəlir.

Oyunun məqsədi oyunun qaydaları çərçivəsində mümkün qədər çox kürəcik vurmaq və mümkün qədər çox xal toplamaqdır. Qeyd etmək istərdim ki, snuker intellektual oyundur, oyunçular əvvəlcədən hərəkətlərini hesablaya bilirlər.

Mən İngiltərədə olanda ən məşhur snuker oyunçusu Stiv Devis (*Steve Davis*) idi, o 1980-ci illərdə 6 dünya çempionatının qalibi olmuşdu, indi onun yəqin 60-dan çox yaşı var və əminəm ki, hələ də bu idman növünün liderlərindən biridir.

Ev sahibəm miss Heytmanın sevimli idman növlərindən digəri, təəccüblü olsa da, futbol idi. Futbola elə məmnuniyyətlə baxırdı ki, bu yetmiş yaşlı evdar qadının enerjisinə heyran qalırdım.

Həmin illərdə ingilis komandaları arasında ən məşhuru Tottenxem idi, İngiltərə Kubokunu, sonra da İngiltərə Superkubokunu iki dəfə inandırıcı qələbə ilə qazanmışdı. Üç ildən sonra bu komanda digər kuboku – UEFA Kubokunu da qazandı, bu barədə "*Sovet idmanı*" qəzetində oxumuşdum.

Snukeri futbolla müqayisə etdikdə miss Xeytman deyirdi ki, futbol on minlərlə insan üçündür, snuker isə yalnız yüzlərlə. Futbol insanları coşdurur, onlara boşalmaq, enerjisini, hirsini, emosiyalarını çıxarmaq imkanı verir. Azərkeşlərin coşması stadionda davaya gətirib çıxarır və onlar bir-birini eybəcər hala salırlar. Kənardan

adama elə gəlir ki, İngiltərənin iki şəhərinin ayrı-ayrı komandaları (*bəzən bir şəhərin iki komandası*) deyil, dünyanın müxtəlif ölkələrinin iki komandası oynayır. Miss Eylin Heytman deyirdi:

- Bizdə stadiona bütün ailə ilə birlikdə gəlirlər, hətta uşaqlar da baş verənlərə şahid olurlar. Amma futbolda təcavüzkarlıq artır və məlum deyil 20 ildən sonra necə olacaq.

15 aprel 1989-cu ildə bütün dünya futbol tarixində ən dəhşətli faciənin şahidi oldu – Şeffildin "*Xillsboro*" stadionunda düşən basabas 96 insan həyatına son qoydu. Faciənin səbəbləri xüsusi komissiya apardı və nəticəsi sonradan açıldı və dərc edildi.

Snuker isə ağıl və təxəyyül oynudur, şahmatda olduğu kimi burada da yaxşı oyunçu 4-5 addım qabağı planlaşdırır. Burada oyunçu emosiyalarını gizlətməlidir, baxın onların boynunda necə kəpənək-qalstuk var. Burada hər şey ədəb və nəzakətlədir. Biri oynayarkən, digəri səsini çıxartmadan sakit və səbrlə kreslosunda oturur. Snuker də şahmat kimi şahların, ziyalıların oyunudur və bəlkə ona görə müxtəlif çempionatlarda və kubok yarışlarında həvəskar oyunçular deyil, bir qayda olaraq, dünya reytinqli professionallar çıxış edir.

Miss Eylin Heytmanın hesab etdiyi kimi, futbol milyonların oyunudur, burada nəinki komandanın futbolçu heyəti, onun məşqçisi, klubun sahibi, həm də komandanın azərkeşləri də vacibdir. Stadionlara baxsaq, Böyük Britaniyanın "*Ayır və hökm sür*" məşhur siyasi devizini hətta bu idman növündə də görmək çətin olmaz.

Və nəhayət, miss Eylin Heytman barədə yaddaşımda qalan üçüncü şey, onun inqilab haqqında fikirləri idi.

Bir dəfə, bütün dörd həftə ərzində düz axşam saat beşdə dəvət etdiyi çay süfrəsində ona SSRİ və Böyük Britaniyadakı inqilab haqqında suallar verməyə cəsarət etdim.

Sovet İttifaqı ilə bağlı sualı tez kəsdi:

- Abdul, sən yaxşı oğlansan, buraya bir illik gəlmisən və əminəm ki, qoyduğun məqsədlərə çatacaqsan, ona görə ki, sən rus deyilsən. Hələ Böyük Pyotrdan İkinci Nikolayadək və Lenindən tutmuş Brejnevə qədər Rusiya üçün Rusiya təbliğatı (*Russian Propagandası*) daimən birinci yerdə olmuşdur.

Əfsuslar olsun ki, bütün 15 respublika və İttifaqda yaşayan yüzlərlə millət bu təbliğatın qurbanıdır odur ki, və mən təfərrüatına

varmayacağam. Amma açıq danışacağam, baxmayaraq ki, cən məni ingilis anam adlandırırsan, İngiltərədən gedəndən sonra mənə məktub yazmağı sənə qadağan edəcəklər. Səni öz oğlum bildim, səmimi və ürəyiaçıq adamsan, amma evə qayıdandan sonra sənə bunu etməyə icazə verməyəcəklər. Beləliklə bu haqda televiziya ekranlarında yazıb, danışmağa məcburuq, çünki biz Rusiya təbliğatından qorxuruq.

İndi isə ingilis inqilabından danışım. Karl Marksın böyük "*KAPİTAL*" əsərini yaxşı tanıyırıq, hansını ki, ilk dəfə bizim Fridrix Engels onu əsaslı tədqiq etmişdir. Təəssüf ki, sizin qəddar dahiniz V.İ.Lenin çox şeyi təhrif etdi, o cümlədən Karl Marksın əsərlərini. Stalin isə, bizim Uinston Çerçill haqlı qeyd etdiyi kimi, "*Rusiyanı kotanla qəbul edib, atom bombası ilə tərk etdi*", hamısı da "*yumruq*" və terrorun hesabına.

Abdul, televizorun yuxarı sağ küncünə bax, orada nə yazılıb? Oxuyuram: look east (*şərqə tərəf bax*). Bilirsən, İngiltərə artıq üç yüz ildir bunu yazır və bu əbəs deyildir. Yəqin bilirsiniz, Pyotrun-I (*bunu bilmirdim*) xalqına bütün dünyanı tutmaq vəsiyyətini, ancaq bilmirsiniz, necə o bizə, avropalılara pis yanaşırdı. Ona görə də Britaniya parlamenti Karl Marksın müttəfiqi Fridrix Engelsə dəfələrlə müraciət etmişdir ki, Böyük Britaniya parlamenti qarşısında aşağıdakı mövzu üzrə çıxış etsin: necə etmək lazımdır ki, İngiltərədə istənilən ölkəni yoxsulluq və aclığa gətirən və bir qayda olaraq, ölkə iqtisadiyyatını 20-50 il geriyə atan inqilab baş verməsin.

Mən bu parlamentin iclasında iştirak etməmişəm (*miss Heytman gülümsəyərək davam etdi*), amma şahidlərin də söylədiyi kimi, Fridrix Engels parlament qarşısında məxfi çıxış etməyə razılıq verib ki, ona vaxt məhdudiyyəti qoyulmasın. Ölkənin bütün rəhbərliyi bu görüşə hazırlaşıb və onun çıxışının nə qədər olacaqı haqqında müxtəlif fərziyyələr sürürdülər: biriləri hesab edirdilər ki, minimum üç, digəriri iki, üçüncüsüləri isə bir saat.

Fridrix Engels təyin olunmuş gündə gəlir, iştirak edənlərlə ehtiramla salamlaşır və deyir ki, onların çıxış etmək xahişinə qarşı bir istəyi var – zaman məhdudiyyəti olmasın. Hamı ayaq üstə onu alqışlayırdı.

Zal sakitləşəndə o son dərəcə müdrik təklif irəli sürdü: "*Ölkədə inqilabın olmaması üçün fəhləyə elə maaş verin ki, onun nəinki ailəsini saxlamağa, həmçinin ağ adam kimi asudə vaxtını pivəxanalarda, restoranlarda keçirməyə çatsın, həm də pensiyaya çıxandan sonra dünya gəzintisinə çıxa bilsin*". Bu yeganə təklifi irəli sürüb, Fridrix Engels başını əyib və parlament tribunasından enərək, onun üçün ayrılmış kresloya əyləşir.

Parlament yarımsaat F.Engelsi onun inqilab haqqında məsələnin dahiyanə sadə həlli üçün ayaq üstə alqışladı.

Abdul, ölkəmizi ideallaşdırmaq istəmirəm, amma görünür F.Engelsin nitqi parlament tərəfindən 80% yerinə yetirilir. Mənim dostlarımın evində olmusan, dülgər Consun, qonşum Tedin, trauler sürücüsünün yaşayışını görürsən. Onlar fəhlədir, yaxud Amerikada onları mavi yaxalı işçilərdir, lakin onların hər şeyi var, həm uşaqlarının təhsili üçün, həm qocalıq üçün, elə mənim də.

Axı biz hamımız fərqliyik, bir əlin beş barmağı kimi, lakin insanlara ailəsini təmin edəcək qədər pul lazımdır. Hamı milyoner ola bilməz və milyonerlərin hamısı "*qazandıqları milyondan*" faydalanmır. Ancaq istedadlı adamlar da var ki, aldatmadan, ağlı və bacarığı sayəsində özü üçün milyonlar qazanır və onu çoxaldır.

Bunu söyləyib o, BBC-1-i qoşdu və davam etdi:

- Bax, zəhmət olmasa, bu iş adamının fotosuna. Artıq bir aydan çoxdur nümayiş etdirilir və reklamda deyilir ki, iki aydan sonra o Londonun növbəti milyoneri olacaq, BBC-1-də çıxış edib, buna necə nail olduğu barədə danışacaq. Sən, zəhmət olmasa, Birmingemə gedəndə axşamları mütləq onu izlə ki, sonda onun televiziyada danışığını, bütün bunlara necə nail olduğunu eşidəsən.

Qabağa qaçaraq, söyləyim ki, hər axşam BBC xəbərlərində bu adamın reklam olunduğunu və İngiltərənin milyoneri olacağı günlərinin azaldığını görürdüm.

Təyin olunmuş vaxtda ona, yeni milyonerə söz verdilər və o dedi: - *Böyük Britaniyanın vətəndaşları, artıq iki aydır ki, BBC-1 televiziyası elan edir ki, bu gün yeni milyoner mən olacağam. Bəyan edirəm, Barclays Bank təsdiq etdi ki, bu gündən mənim hesabımda iki yarım milyon Britaniya funt sterlinqi var. İndi, söz verdiyim kimi, Böyük Britaniyanın vətəndaşlarına bu pulları necə qazandığım barədə danışacağam.*

*Bir il əvvəl Londondakı bütün köhnə alüminium zibil konteynerlərinin yenilərinə (eynisinə), lakin plastik konteynerlərə və daha asan danışınıla bilənlərə dəyişdirilməsi fikri ağlıma gəldi. İşçi qrupum tam məxfi bu layihənin texniki-iqtisadi əsaslandırılması və hesablanmasını hazırladı. Bu yeni plastik konteynerlərin etibarlılıq və praktikliyi nəzərə alınmaqla, fiziki, kimyəvi, ekoloji və nəqliyyat vəziyyətinin sınağını apardıq. Bu plastik konteynerlər alüminiumlardan dörd dəfə ucuz və üç dəfə etibarlı çıxdı.*

*Londonun bələdiyyə təşkilatları ilə bütün alüminium konteynerlərinin (köhnəlmiş, sınıq, xarab) alınması və yenilərinə tam dəyişdirilməsi haqqında müqavilə bağladım. Barclays Bank-a mənə bu müddətə verdiyi kreditlərə görə səmimi təşəkkürümü bildirirəm. Yeni milyonerin söylədiyi kimi, bu kreditlər ona plastik zibil konteynerlərini, BBC-1-in ekranlarından tamaşaçılara göstərilirdi, buraxan şəxsi zavodun, həmçinin sonradan Böyük Britaniyada satılması üçün strateji əhəmiyyətli məhsulun - alüminiumun külçəsinin hazırlanması üçün şəxsi sex yaradıldı.*

Sonda milyoner dedi:

"*Bu barədə ardıcıl və səbrlə informasiya verən BBC-1 telekompaniyasına minnətdaram. Mənim ideyalarıma inanan dostlarıma və biznesdəki köməkçilərimə minnətdaram. Bu yeni işdə mənə inanan və yardım edən hər bir kəsə minnətdaram. Bütün bu aylar ərzində onlarla olmadığım üçün məni qınamayan ailəmə minnətdaram. Əvvəldən bir milyon funt sterlinqə ümid edirdim, amma müqavilə genişləndirildikdən sonra gəlirimizi demək olar ki, üç dəfə artırdıq. Bundan əlavə, İngiltərənin daha bir böyük şəhərini – Birmingemi də bu layihəyə qoşuldu. Ümid edirəm ki, tezliklə ölkəmizin digər iri şəhərləri ilə də əlaqə saxlayacağıq və bütün köhnəlmiş zibil konteynerlərini yeniləri ilə əvəz edəcəyik.*

*Ölkəmin iş adamlarını yeni ideyalardan cəsarətlə yapışmağa və Vətənimizin sərvətini artırmağa səsləyirəm.*

*Həmişə vətəndaşlarımızın qayğısına qalmalı və tərəqqi naminə daha yeni-yeni ideyalar işləyib hazırlamalıyıq.*

*Diqqətinizə görə təşəkkür edirəm və varlı olun!*"

Miss Eylin dedi ki, arzu edir ki, nə vaxtsa sizdə də, müstəqil Azərbaycanda ölkənin milyoneri olmaq üçün bu cür şəffaflıq və düzlük olsun, daha Amerikadakı kimi mafiya və bantidizm yox.

“*Qabaqcadan görmək – idarə etməkdir*”
Blez Paskal (1623 - 1662)

## 4.4. Birmingemin Aston Universiteti.

Kolçestrin Esseks Universitetinin (*University of Essex*) dörd həftəlik ingilis dili kursunu bitirdikdən sonra biz 17 alim avtobusa bilet götürüb, təyin olunmuş son məntəqələrə yola düşdük, ona görə də mən və Kalinindən olan Volodya biletləri Birmingemə aldıq.

Miss Eylin Heytmanla çox isti ayrıldım. O mənə özünün balaca Rus-İngilis və İngilis-Rus lüğətini hədiyyə etdi. Ona təşəkkür edib, balaca suvenir rus samovarı bağışladım. O ağladı, məni qucaqladı və xahiş etdi ki, əgər mənə ziyan etməzsə, ona məktub yazım. Amma mən bilirdim ki, icazə verməyəcəklər.

Artıq avtobusa oturanda gördüm ki, Heytmanin ev açarlarını qaytarmağı unutmuşam. Avtobusdan düşüb evinə zəng etdim, o isə buna sakit yanaşdı və dedi ki, Birmingemin Aston Universitetində yerləşən kimi açarı konvertə qoyub, ona məktubla göndərim.

Mən, keçmiş poçt işçisi kimi, təəccübləndim, belə ağır əşyanı – metal açarları adi konvertə necə qoymaq olar…

Ertəsi gün poçtda idim və orada mənə dedilər ki, açarları sadəcə konvertə qoymaq, ünvanı yazmaq və istənilən (*bütün dünyaya məlum olan*) girdə, qırmızı və hündür poçt qutusuna atmaq lazımdır. Düz iki gündən sonra miss Eylin Heytmandan məktub alanda məəttəl qaldım.

O şad idi ki, mən Aston Villa Parkda, *Cedar House* evində (*bu, hər birinin öz adı olan üçmərtəbəli evlərdən ibarət Aston Universitetinin tələbə şəhərciyi idi, mənimki Sidr evi adlanırdı*) yaxşı yerləşmişəm və açarlara görə təşəkkür edirdi.

İndi İngiltərənin cənubundan olan xeyirxah və çox qayğıkeş ingilis anam mənimlə deyildi, indi *Cedar House* aspirant yataqxanasında hər şeyi özüm etməli idim. Yeri gəlmişkən, Aston Villa Parkdakı bütün evlər ağacların adları ilə adlandırılmışdı...

Professor Con Fladla ilk görüşüm qanımı qaraltdı, o özünü ünsiyyətcil kimi göstərməməyə, yəni məni məsafədə saxlamağa çalışırdı. Mənə burada, İngiltərədə dissertasiyasını müdafiə edib,

elmi dərəcə alan Banqladeşli fəlsəfə doktoru Məhəmməd Maaruf ilə birgə əla bir otaq verdilər.

Ertəsi gün prof. Con Fladın katibəsi, sarışın Şila məni kafedranın dosenti Martin Akkroyd ilə tanış etdi, Aston Universitetinin kitabxanasına buraxılış verdi və xəbərdar etdi ki, bizim kampusun birinci mərtəbəsində ikinci və dördüncü günlər axşam saat beşdə keçirilən texniki ingilis dili kurslarına yazılmışam.

Sonra məlumat verdi ki, öz istəyimlə 1981-ci ilin noyabrın birindən dekabrın 20-sinə qədər professor Con Fladın mühazirələrinə gedə bilərəm. Və, nəhayət, Cenevrədə Beynəlxalq Telekommunikasiya İttifaqının ixtisaslaşdırılmış komissiyasının üzvü cənab Donald Berin Aston Universitetinə gəlmə təqvim planını mənə verdi – 1982-ci ilin yanvarından üç ay cümə günləri.

Texniki ingilis dilinin ilk məşğələsində auditoriyaya kursun dinləyicisi, Herakla oxşayan, təxminən iki metr boyu olan, çox xoş təbəssümlü bir oğlan girdi. Bütün dərs boyu sakitcə öz-özünə bizim azərbaycan muğamımıza oxşayan bir şey zümzümə edirdi. Sonrakı məşğələyə mən birinci gəldim, o isə otağa girib, ucadan "*Salam Əleyküm*" dedi. Yerimdən qalxıb, "*Va Əleykümə Assalam*" deyə, cavab verdim. Mənim tərəfə dönüb, özünü təqdim etdi: - Təbrizdən Həsən. Cavab verdim: - Abdul, Bakıdan.

Bakı sözünü eşidib, azərbaycan dilinə keçdi və ucadan dedi:

*- Baba, nə gözəl! Şimaldan olan qardaşımı tapmaq ümidi ilə artıq ikinci ildir ki, muğamı zümzümə edirəm. Həsən Tahirkiyadır adım, əslən Təbrizdənəm, amma gəncəliyik, yəni Şimali Azərbaycandan. Rəhmətlik atam 1929-cu ildə kommunistlərdən qaçıb, o vaxtdan Təbrizdə yaşayırıq. Baba, gəl dərsdən gedək.*

Məlum oldu ki, Həsən də Aston Villa Parkda, qonşu evdə yaşayır, ona görə də kampusu iki saat gəzəndən sonra avtobusa minib, yataqxanaya getdik və orada daha iki saat gəzişdik. Həsən cənubi Azərbaycandan tanış olduğum ilk yerlim idi. İki həftədən sonra cənubdan daha bir yerlimlə tanış oldum, İsgəndər, gənc kimyaçı, 1982-ci ilin may ayında dissertasiyasını müdafiə edib, Aston Universitetinin kafedrasında yer aldı.




Təsirli görünüşünə baxmayaraq, Həsən çox yumşaq və mədəni idi. Yaşca böyük olsa da (*45 yaş*) mənimlə paylaşırdı və ailə faciəsindən ətraflı danışmışdı. Həsən 1946-cı ildə Təbrizdə böyük qardaşını itirmişdi (*Cənubi Azərbaycan Demokratik Respublikasından Sovet Ordusu çıxarılan zaman on minlərlə azərbaycanlının qırıldığı kimi*). Sonra Həsən ali təhsil almamaq (*bu məni çox təəccübləndirdi...*) haqqında atasına verdiyi sözü pozmalı olub. Həsən varlı fars ailəsindən bir qızla evlənib. Amma o hesab edirdi ki, atasına verdiyi sözü tutmadığından qurduğu ailəsi sonsuz olub və artıq iyirmi ildir uşaqları yoxdur.

Bu görüş məni elə coşdurdu ki, ilk dəfə İngiltərədə yata bilmədim. Başım ayaqla gedirdi. Bu halın nə olduğunu bilirdim, kağız və qələm götürüb, şeir yazmağa başlamaq. Tam hazır idim, fikirlərimdəki bu şeirlər yazmaq, oxumaq üçün hazır idi. Gecə saat üçdə emosiyalardan yataqdan qalxdım, bloknotumu götürüb, demək olar ki, səkkiz saat dalbadal məni müşayiət edən ssenarini tərtib etməyə başladım. Sətirlərin axdığını hiss edirdim və Həsənə həsr olunmuş şeiri yazmağa başladım.

Demək olar ki, bir neçə saata nəticədə doğma qardaşım olan, cənubi Azərbaycandan ilk dostuma həsr etdiyim şeiri bitirdim. Allah böyükdür, bu mənim hələ də fəxr etdiyim ilk unudulmaz dostluğumdur. Bu şeirlərlə çox fəxr edirəm.

## QAN QARDAŞIM (*Həsən Tahirkiya*)

Əcnəbi dilini öyrənərkən mən,
Muğam zümzüməsin eşitdim birdən.
Sevincdən od tutub alışdı başım,
Mən səni tanıdım ey qan qardaşım!

Bir anda görüşdü açıq baxışlar,
Salam sözü ilə birləşdi onlar.
Yapışıb əl-ələ öpüşdük birdən,
Gözlər yaşla doldu bu cür sevincdən!

Həsənəm Təbrizdən gəlmişəm bura,
Çox şükür, axır ki, çatdım arzuma.
Güzey qardaşımı tapmaq üçün mən,
Muğam qəzəlin deyirəm hərdən!

Baba danış görüm Bakıda nə var,
İnsan məlumatsız gül kimi solar.
De mənə Şirvandan, Kürdən, Gəncədən,
Mən isə söyləyim Güney tərəfdən!

Söylə bir necədir odlu Bəxtiyar,
Onu çox arzular bizim Şəhriyar.
Alırmı Ədalət sinəyə sazın,
Rəşid oxuyurmu ana mahnısın!

Hə qardaş, görürəm qəlbində sən də,
Vətəni görürsən yalnız birlikdə.
Onu bil Güneydə milyonla ürək,
Bu günü bahar tək bayram edəcək!

Ertəsi gün axşam saat beşdə departamentdən çıxanda məni Həsən qarşıladı. Avtobus dayanacağına çatıb, yataqxanamıza getdik.

Otaqlarımıza çatanda Həsən dedi ki, onun həyat yoldaşı Zərin azərbaycan şam yeməyi hazırlayıb və məni evinə dəvət etdi. Razılaşdım. Həsənin otağına gələndə Zərin bizi qarşıladı, qısaboylu

(*hardasa bir-altmış metr boylu*) qadın idi və bizim doğma azərbaycan dilində dedi: "*xoş gəlmisiz*". Birlikdə keçirdiyimiz bu üç saat ərzində özümü Təbrizdə hiss etdim, İngiltərədə olduğum bu iki ayda birinci dəfə idi ki, özümü belə rahat hiss edirdim. Dondurmadan sonra biz məşhur "*Ayrılıq*" (*Yaqub Zurufçunun ifasında*) azərbaycan mahnısını oxuduq.

Bu mahnını Bakıda SSRİ xalq artisti Rəşid Behbudov oxuyurdu. Mahnın sonunda Həsənin gözləri yaşardı. Bunu görüb, Həsənə dedim ki, ona şeir həsr etmişəm və icazəsi ilə onu oxuyaram. Buna o dedi: Sən axı Şirvandansan, rəhmətlik atam deyərdi ki, Şirvanlı şeir yazmırsa, onun əsl şirvanlı olduğuna şübhə edərlər.

Hamımız güldük, Həsənə həsr etdiyim şeiri oxudum.

Bitirəndə gördüm ki, Həsən çəkinmədən gözlərindən yaşını silir. Zərin xanım isə: - Həsən, bu şairdir. Buna o qürurla dedi: - Bəs rəhmətlik atam nə deyirdi, Abdul əsl şirvanlıdır, "*sağ ol, baba*".

Birdən Həsən durdu, maqnitofonu gətirdi və bu şeiri yenidən oxumağımı xahiş etdi, çünki özü üçün yaddaşda saxlamaq istəyirdi.

Cənubi Azərbaycandan olan qan qardaşımın xahişini məmnuniyyətlə yerinə yetirdim, hər şey bitəndə isə o yaxınlaşıb, məni qucaqladı və dedi: Ömrümün axırına kimi bu şeir mənimlə olacaq, nəinki səni, bütün şimali Azərbaycanı xatırladacaq, rəhmətlik atamın da ən böyük arzusu heç olmasa bir dəfə Bakıda, Gəncədə, Azərbaycanda olmaq idi.

Qabağa qaçaraq, söyləyim ki, 1997-ci ildə Bakıda Kanadadan aldığım məktub məni heyrətə gətirdi, belə ki, Bakı ünvanım mənim xəttimlə, geriyə ünvan isə Həsənin xətti ilə yazılmışdı (*ona yazdığım ünvanı yapışdırmışdı*). Həsən yazırdı: "*Əziz qardaşım Abdul, sənə Kanadadan, artıq yeddinci ildir yerləşdiyim və yaşadığım Kvebekadan yazıram. Aston Universitetində nəqliyyat yollarının inşası üzrə dissertasiyanı müdafiə etdim, orada üç il dərs dedim və nəhayət, Zərinlə qərara aldıq ki, buraya, Kanadaya köçək. Xoşbəxtəm ki, Azərbaycanımız müstəqil dövlət olub. Azərbaycanlıların bir çox nəsillərinin arzusu həyata keçdi, o cümlədən mənim doğma qardaşımın da, hansı ki, müstəqil dövlət olan Təbrizin yuxarı dairələrində idi, elə 27 yaşında həyatını ona qurban etdi.*



*Elə ona görə atam istəmirdi mənim ali təhsilim olsun, düşünürdü ki, təhsil insanları vətəni üçün həyatından keçməyə sövq edir. Əziz Abdul, tezliklə Tehranda olacağam, çox xahiş edirəm, bizə qonaq gəl. Səni görmək istəyirəm, bu mənə lazımdır. Rica edirəm, oktyabrın beşi gəl, Tehranın aeroportunda səni gəzləyəcəyəm. Öpürəm səni, qardaşın Həsən*".

Tənbəllik etmədim: Tehrana və geriyə bilet və Bakıdakı İran səfirliyində viza aldım. Bu vaxt mənzilimi bir illik kirayəyə vermişdim və artıq Azərbaycan prospekti ev № 33-də qalmırdım.

Oktyabrın beşi Tehranda idim, Həsən məni gülümsəyərək qarşıladı, amma onu narahat edən bir şey var idi, nə idi – onlarda qaldığım bir həftə ərzində anlaya bilmədim.

Zərin də məni gülümsəyərək qarşıladı, amma onda da narahatlıq var idi. Bir az özümə gələndə, bir gecə qonşu otaqdan kompüterin klavişinin səsini eşitdim. Getdim və bu gec saatda Həsənin işlədiyini gördüm. Soruşdum ki, - Artıq səhər saat dörddür, niyə yatmırsan?

*- Abdul, az vaxtım qalıb, monoqrafiyamı bitirmək istəyirəm. Onu Tehranda dərc etdirməyi planlaşdırıram, həm fars, həm də ingilis dillərində və Kanadaya dönmədikdən əvvəl bu işi tamamlamaq istəyirəm. Abdul, yadında saxla, bəşəriyyətin əsrlər boyu icad etdiyi ən yaxşı şey monoqrafiyadır, bu dünyada iz*

*qoymağa kömək edir. Tövsiyyə edirəm, nə qədər gec deyil, ixtisasın üzrə monoqrafiya yaz, bu həmişəlikdir, inan mənə.*

Amma ən əsasını bilmirdim, demə, dostum xərçəng xəstəliyinə tutulub, üstəlik, son mərhələdə imiş və ona görə monoqrafiyasını dərc etdirmək üçün bütün qüvvəsini qoyurdu.

Bundan əlavə, faciəvi hallarda öyrəndim ki, hər həftə mənə Kanadadan zəng edib, hardasa gecə saat bir radələrində və məni evdə tapmayıb... (*məhz bu ərəfədə, 1997-ci ildə maliyyə çətinliklərinə görə mənzilimi kirayəyə vermişdim, özüm isə BMT-nin eksperti işindən qalan pullara Bayılda üçotaqlı mənzili indikindən gülünc qiymətə - 1,5 min dollara almışdım. Lakin 7 aydan sonra kirayəçi kirəni ödəyə bilmədi və çıxdı. Təəssüf ki, kommersiya bacarığım yoxdur. Aldığımız mənzili əlimizdə saxlaya bilmədik. Düzdür onu aldığımızdan on min baha qiymətə satdıq və köhnə mənzilimizə qayıtdıq... İndi onun qiyməti yüz iyirmi mindir...*).

Amma hər şeyi ardıcıl olaraq...

Tehrandan döndükdən sonra dörd ay keçmişdi, Həsəndən isə heç bir xəbər yox idi. Və bir dəfə, dostumun Mahmudov Tofiqin, yanında idim, oradan gündüz saat on ikidə Həsənə zəng etdim.

Dəstəyi Zərin götürdü:

- Zərin xanım, salam, necəsiniz, qardaşım Həsən necədi?

- (*O, yazıq, göz yaşı tökür*) Oy Abdul, qırx gündür ki, Həsəni itirmişik, axı o Tehranda imkan vermədi ölümcül xəstə olduğunu sənə söyləyim. O dəfələrlə sənə zəng edib, istəyirdi mirasını sənə vəsiyyətnamə ilə versin, fikirləşirdi səninlə necə əlaqə saxlasın.

Dedim ki, mənzilimi kirayə vermişəm, başqa yerdə qalıram, Həsənin ölümündən çox kədərlənirəm, axı onu qardaşım qədər sevirdim. Bax belə həyatdakı ən yaxşı dostumu itirdim, xeyirxah, uşaq kimi həssas, Dədə Qorqud kimi kamil bir insanı. İndi də bu sakit və parlaq dostumun, gəncəli həmyerlimin, vətənpərvərin yeri görünür. Onun ölümü ilə çox şeyi itirdim, Allah rəhmət etsin!

Aston Universitetindəki iş maraqlı idi, öz qrafikimlə işləyirdim, amma iki yol ayrıcında idim, bir layihədə iki məsələnin həllini necə çatdırmaq: telekommunikasiya şəbəkələrinin müasir layihələndirmə metodlarını tədqiq etmək və Avropanın yeni rəqəmsal kommutasiya sistemlərini öyrənmək.

Birinci məsələnin öyrənilməsi üçün bütün qüvvəmi rabitənin telekommunikasiya şəbəkələrinin layihələndirilməsi və proqnozlaşdırılması metodlarının tədqiqinə yönəltdim. Bu işdə mənə ilk növbədə elmi rəhbərim Con Fladın keçdiyi iki aylıq intensiv kurs və mühazirə zamanı onun mənə verdiyi geniş texniki sənədlər kömək oldu. Bu məsələdə mənə əsas köməyi riyaziyyatçı, teletrafik üzrə mütəxəssis cənab Donald Ber göstərdi.

İkinci məsələ üçün rəqəmsal texnologiya və xüsusilə mobil kommutasiya ilə məşğul olan departamentin dosenti Martin Akkroyda əziyyət verirdim. Beləliklə, Boyük Britaniyanın bu üç istedadlı mütəxəssisinin köməyilə müasir telekommunikasiya şəbəkələrinin yeni layihələndirmə metodlarını öyrəndim. İngiltərədə keçdiyim bu elmi təcrübə mahiyyətcə yaradıcılıq fəaliyyətimin bütün gələcək otuz ilinə qida və böyük elmi material verdi.

Birmingemə gedəndən bir ay sonra elmi rəhbərimlə balaca atışmam da buna səbəb oldu. İş ondadır ki, elmi rəhbərimin mənə olan soyuq münasibətilə heç cür barışa bilmirdim. Və bir dəfə, departamentdə apardığım işin bir aylıq hesabatını verərkən, işləriniz necə gedir? – sualına Şərifli sülaləsinin nümayəndəsi kimi dedim:

“*Hörmətli professor, mən artıq bir aydır ki, burdayam və sizin bir insan kimi mənə münasibətiniz məni qane etmir. Mən azərbaycanlıyam (yəni türkəm) və bir türk kimi sizin təkəbbürlüyünüzlə razı ola bilmərəm. Seçdiyim mövzu ilə məşğul olan sizin alımlərdən heç nəyim əskik deyil, yalnız rus dilim (doğma dilim deyil) və axırıncı on ildə məni əhatə edən rus texnologiyaları mənə mane ola bilər. Ona görə də rica edirəm mənə ağ adam kimi yanaşasınız və bütün yaradıcı işlərimlə maraqlanasınız*”.

Professor Flad yanımda əyləşdi və yavaşca soruşdu:

- Amma Sizin soyadınız Qəhrəmanovdur, bildiyim qədər, *-ov və -ev* şəkilçiləri ilə rus familiyaları bitir. Etiraf edim ki, türk olduğunuzu bilmirdim. Rusiya təbliğatına hər zaman ehtiyatla yanaşmışam və düzünü desəm, ona görə sizə qarşı məsafə qoymağa çalışmışam. Rica edirəm məni bağışlayın, daha diqqətli olmalı və bunu yoxlamalı idim.

Yəhudi əsilli ingilis kimi, mən və mənim əcdadlarım türk millətinə və əsasən də xalqımı qaçılmaz zorakılıqdan qurtaran türk Sultanına borcluyuq. 1492-ci ildə Qranadanın fəthindən sonra

xaçpərəst-monarxlar İspan yəhudilərinə bir seçim təklif etdilər: xristian olmaq yaxud sürgün. Təxminən yüz əlli min yəhudi xristianlıqdan imtina etdi, İspaniyadan məcburi çıxarıldıqdan sonra onlar Türkiyədə, İstanbulda sığınacaq tapdılar, burada sultan elan etdi: yaşayın, ticarət edin, bank və müəssisələr yaradın – bura sizin də vətəninizdir. Ulu babalarım yalnız yüz ildən sonra Böyük Britaniyaya köçdülər, burada onlar universitet təhsili aldılar və indi mən fəxr edirəm ki, Böyük Britaniya vətəndaşıyam.

Həmin gündən professorumun mənə qarşı münasibəti 180 dərəcə dəyişdi. Bundan əlavə, növbəti bazar günündə evində mənim şərəfimə ziyafət verdi, məndən başqa burada departamentin iyirmidən çox işçisi vardı. Qabağa qaçıb, söyləyim ki, professor Con Fladla elə dostlaşmışdıq ki, bir ildən sonra, yəni 1983-cü ilin sentyabrında o həyat yoldaşı ilə Bakıya, evimə qonaq gəlmişdi.

Keçdiyim təcrübənin mövzusunu yaxşı seçdiyimə görə, 1983-cü ildən Beynəlxalq Telekommunikasiya İttifaqı xətti ilə Birləşmiş Millətlər Təşkilatının (*BMT*) eksperti oldum.

Bu təcrübənin nəticəsidir ki, telekommunikasiya üzrə on iki dərslik və metodik göstərişlərin, həmçinin onbir Mahmudov Tofiq, monoqrafiyanın müəllifi oldum. Ancaq işin elmi tərəfindən danışarkən, İngiltərənin Aston Universitetindəki gündəlik həyatımdan bəhs etməyə bilmərəm. Universitetinin prorektoru, telekommunikasiya departamentinin dekanı, professor C.Fladın apardığı teletrafikin nəzəriyyəsi kurslarına getməyə başlayanda noyabr ayının əvvəli idi.

C.Fladın köməkçisi, arıq Cefri Cekson məni xəbərdar etdi ki, həftədə iki dəfə, gündüz saat üçdə, üçüncü mərtəbədə, 303 saylı otaqda C.Fladın mühazirəsi keçirilir. Mən intizamlı adam kimi, mühazirənin başlamasına beş dəqiqə qalmış üçüncü mərtəbəyə qalxdım.

Təkcə oturub, fikirləşdim ki, bəlkə nəyinsə vaxtı dəyişdirilib, tələbə kimi həyəcanlanırdım. Bir dəqiqədən sonra zəng çalındı və prof. C.Fladın magistrları və aspirantları gəlməyə başladı.

Bu zaman prof. C.Fladın köməkçisi Cefri Cekson göründü, iştirak edənləri saydı. Məni görüb, xoş üzlə salamlaşdı və getdi.

Bir dəqiqə keçdi və köməkçi (*assistent*) Cefri Cekson C.Fladın çoxlu sayda hazır mühazirələri ilə yenidən gəldi və onları

iştirakçıların hamısına payladı. Beləliklə, tələbələr artıq birinci dərsdə mühazirələrin bütün konspektlərini əldə edirlər.

Daha bir neçə dəqiqə keçdi və nəhayət prof. C.Fladın özü auditoriyaya daxil oldu. İştirakçılarla çox nəzakətlə salamlaşdı, kursun adını elan etdi və mühazirəyə başladı.

Hərdən öz konspektlərinə istinad edərək, ilk mühazirəsini çox sadə və anlaşıqlı oxumağa başladı. Özünü adi aparırdı: gah masasının yanında dayanırdı, gah da auditoriyada gəzişirdi. Dərs zamanı mərtəbədən keçənlərin addımlarının səsindən yayınmamaq üçün girişdən birinci sıranın axırıncı partasında əyləşmişdim.

Mühazirə çox sakit şəraitdə keçirdi və prof. C.Flad üçüncü sırada idi, oradan dəhliz aydın görünürdü. Birdən o üzr istəyib, qapıya doğru getdi.

Birinci fikirləşdim ki, Aston Universitetinin prorektoru kimi tanışlarından kimisə görüb. Qapıya yaxınlaşıb, tam açdı və "*zəhmət olmasa*" deyərək, kimisə auditoriyaya dəvət etdi.

Sovet mentalitetinə uyğun olaraq, fikirləşdim ki, prorektor ən azı universitetin rektorunu qarşılamaq üçün qapıya qaçır. Hətta düşündüm ki, nə yaxşı, təcrübə keçdiyim universitetin rektoru ilə tanış olacağam. Bir neçə saniyə keçdi və içəri dinləyici, bir əlində kofe, o birində, köməkçidən götürdüyü mühazirə ilə içəri girdi.

C.Flad bu cavan oğlan üçün qapını saxlayana qədər o sakitcə auditoriyaya daxil oldu, prof. C.Flada üzünü tutub, "*çox sağ olun*" deyib, birinci sıranın birinci partasına keçdi. Əvvəlcə kofeni, sonra mühazirə konspektini partaya qoydu və sakitcə parta arxasına keçdi.

Bu cavan oğlan bu qədər yolu keçib, parta arxasına yerləşənə qədər prof. C.Flad sakitcə dayanıb, ona baxırdı.

Cavan oğlan yerləşəndən sonra prof. C.Flad dedi:

- Əgər etiraz etmirsinizsə, mühazirəmizi davam edək.

Karıxdım, halım pis oldu, tərlədim, əlində bir fincan qəhvəsi ilə bu gecikən magistra uşaq kimi qaçıb qapını açan prof. C.Fladın yerinə hətta utandım. Məni bu hadisə dərindən sarsıtdı və mən dəfələrlə bunu Azərbaycan Texniki Universitetindəki tələbələrimə danışmışam, onlar isə gülməkdən özlərinə gələ bilmirdilər.

*"Yaxşı yaşamaq üçün*
*gözə çarpmadan yaşamaq lazımdır"*
Rene Dekart (1596-1650)

## 4.5. Birmingemdən Londona həftəlik səfərlər.

Aston Universitetinə (*Aston University*) gəldikdən bir həftə sonra Kalinindən olan Volodya mənə zəng etdi. O Birmingem Universitetində işləyirdi (*Aston Universitetinin yaxınlığında yerləşirdi*) və xəbər verdi ki, bizi Londona, səfirliyə çağırırlar.

Şənbə günü Volodya ilə Birmingem şəhərlərarası avtobus vağzalında görüşdük, Londona və geriyə biletləri götürüb, avtobusun sol tərəfində oturduq, SSRİ-dən fərqli olaraq, burada sürücü sağdan əyləşir (və *hərəkət sağ tərəfdəndir*).

Etiraf edim ki, səfirliyin tələbi ilə Londona ayda iki dəfə getməyimizdən məmnun idim. Bu səfər ürəyimcə idi. Avtobusla getməyi, təyyarə ilə uçmağı və ümumiyyətlə səyahət etməyi xoşlayıram. Sovet səfirliyinə elə ilk gəlişimizdə bizi tək-tək gizli (*dinlənilməyən*) otağa saldılar, Vətən naminə fərdi tapşırıq verdilər, sonradan məlum oldu ki, bunu 27 il azadlıqdan məhrum olmaqla, Britaniya həbsxanasının divarları arxasında ödəyə bilərdik.

Məndən elmi rəhbərim prof. C.Flad haqqında tam məlumat aldılar və onlara əvvəlcədən hazırladığım onun departamentdəki vizitkasından olan məlumatları verdim: Professor at Aston University. He has worked both in academy and in industry and is a former Chairman of both the British Standards Committee for Telecommunications and the IEE Professional Group on Telecommunications Networks and Systems. Senior Pro-Vice-Chancellors of the Aston University in 1981 – 1983. Professor J.E. Flood, Deans of the Faculty of Electrical Engineering Department.

Təlimatlandırmanı bitirib, "*Dost*" ləqəbli kuratorumuz mənə xəbər verdi ki, azadam və əlavə etdi ki, yarım saatdan sonra bu dar küçənin o biri tərəfində, bizim klubda bədii film başlayacaq.

Əsas korpusda SSRİ-nin Böyük Britaniyadakı 1980 -1986-cı illərdəki səfiri Viktor İvanoviç Popov (*1918-ci il təvəllüdlü*) özü otururdu. Tarix, fəlsəfə və ədəbiyyat üzrə Moskva institutunu, SSRİ-

nin XİN-in Ali Diplomatiya məktəbini bitirmişdi, tarixi elmlər doktoru, professor idi.

O 1968-1980-ci illərdə SSRİ-nin XİN-in Diplomatik akademiyasının rektoru olub, 1986-1992-ci illərdə isə Viktor İvanoviç Popov Sovet İttifaqının XİN-in müşaviri, sonra isə Rusiya Federasiyasının XİN-in konsultantı vəzifələrini tutub. O saat klubun binasına getmək istəmirdim. Qeyd etmək lazımdır ki, klubun yaxşı bufeti vardı, orada həmişə sardina və sosiska ilə kartof püresi olurdu, həm də geniş pivə seçimi var idi.

İçkidən uzaq olan adam kimi, Kensinqtonun dar döngəsində dayanmağa qərar verdim. Yanımızdan Çexiya və Bolqarıstan səfirliklərinin avtomobilləri keçdi, çünki bu səfirliklər bizim səfirlikdən 20 metr aralıda yerləşirdilər.

Bu zaman səfirliyin əsas korpusundan səliqəli boz kostyumda, hündür, enlikürək, qara (*daha çox şaten*) saçlı, burnu bir balaca donqar olan cavan oğlan (*təxminən iyirmi yaşlarında*) çıxdı.

Azərbaycanlıya oxşatdım, ona görə də əminliklə və ucadan dedim: “*Buradan azərbaycanlı iyi gəlir*”.

Səsimi eşidib, mənə tərəf döndü, gülümsədi və Bakıdan olduğunu təsdiqlədi. Bir neçə sürətli addımlarla onun yanına keçdim, əl-ələ görüşdük, – İlham, dedi, mən isə, – Abdul, dedim.

Tanışlıq zamanı bildim ki, Beynəlxalq əlaqələr üzrə Moskva Dövlət İnstitutunun (*BƏMDİ*) tələbəsi olaraq, yaxın günlərdə səfirliyimizə üç aylıq təcrübəyə gəlib. Öz haqqımda ona dedim ki, Birmingemin Aston Universitetində telekommunikasiya məsələləri üzrə elmi təcrübə keçmək üçün buradayam. Təcrübə bir tədris ili davam edəcək.

Bu zaman səfirlikdən azərbaycanlıya oxşayan daha bir nəfər çıxdı, qısaboylu, qara saçlı, ağ dərili. O qaşqabaqlı mənə baxdı və yanımıza gəlmədi. Mənə elə gəldi ki, o İlhamla tanışdır və bu barədə soruşdum. İlham cavab verdi ki, “*Bəli, mənimlədir*”. Onun sonuncu sözünü dəqiq yadımda saxladım, lakin əhəmiyyət vermədim.

Klubun bufetinə sardina ilə kartof püresinə ona təklif etdim. İlham məsləhət gördü ki, mən gedim, o isə sonra gələcək.

Vidalaşdıq, kluba girdim, bufet podvalda yerləşirdi.

Bufetimizin standart porsiyasından götürüb, boş olan yerə oturdum və şam etməyə başladım. 10 dəqiqədən sonra İlham tanışı

ilə gəldi, mənə əl yellədi və onlar (*az qala ikincini kölgə adlandıracaqdım*) sardina üçün növbəyə dayandılar.

Növbəti dəfə İlhamı səfirliyin dükanında görmüşdüm, bizim təcrübə keçən uşaqlarımız ilk növbədə çox ucuz və yaxşı keyfiyyətdə rus arağı satıldığından həmişə ora gedərdilər.

Emosiyalarsız görüşdük, işlər barədə formal olaraq maraqlandıq, İlham dedi ki, bütün alim dostlarımız onun kimi aeroflotun korpusunda qalırlar, amma onlar birinci, İlham isə üçdə.

Mağazada bir şeyə baxanadək İlham gözdən itdi, Lomonosov Universitetindən olan alim, bizim partiya qrupunun sədri, hündürboylu Volodya gəldi və dedi ki, 7 noyabr bayramını qeyd etmək məqsədilə üç funt sterlinqdən yığır. Xırda pulum yox idi, ona beş funt verdim. Təşəkkür edib, getdi.

Növbəti dəfə Volodya ilə Londona noyabrın 7-i getdik. Əvvəlcə uşaqların yanına keçdik, çoxlu ərzaq almışdılar. Hamı ilə salamlaşıb, köməyimizi təklif etdik. Hündürboy Volodya isə cavab verdi ki, əsas maliyyə yardımını göstərmişik, qalanı sizlik deyil.

Volodya ilə mağazaları gəzmək istədik və üç saat ərzində Londonu gəzib, sonra səfirliyə getdik. Səfirlikdə bizi "*Dost*"umuz gözləyirdi, dedi ki, səfirliyin təhlükəsizlik üzrə müavini, litva soyadlı podpolkovnikin məni ilə işi var.

Əsas korpusa keçdim, səfirin müavininin otağının harada olduğunu öyrəndim və qapısını döydüm. İcazəni eşidib, otağa keçdim və hündürboylu, möhkəm bədən quruluşlu, əlli yaşlarında bir kişi gördüm. Mənimlə salamlaşıb, dialoqa başladı.

- Siz Abdulsunuz?

- Bəli.

- Yaxşı. İşləriniz necədir?

- Normaldır.

- Yaxşı. Burda kiminlə dostluq edirsiniz?

- Kalinindən olan Volodya, ikimiz də Birmingemdə qalırıq.

- Yaxşı. Bəs kiminlə burada, Londonda dostluq edirsiniz?

- Lomonosov Universitetindən Volodya ilə, aeroflotun binasında qalır.

- Yaxşı. Bəs kiminlə daha, Londonda dostluq edirsiniz?

- Leninqraddan olan Volodya ilə. Mən orada aspiranturada oxumuşam və o çox şən oğlandır.

- Yaxşı. Bəs daha kiminlə burada, Londonda dostluq edirsiniz?

- Daha heç kimlə.

- Necə heç kimlə?

- Elə heç kimlə.

- Bəs Azərbaycandan olan o oğlan? (*diqqətlə mənə baxır*)

- Hə, siz BƏMDİ-dan olan o oğlanı deyirsiniz?

- Bəli.

- Yox e, biz bir neçə dəfə görüşmüşük, lakin dostluq etmirik.

- Bəs onun adı nədir?

- Deyəsən İlhamdır, nədir ki?

- Soyadı nədir?

- (*Çiyinlərimi qaldırdım*) Bilmirəm.

- Atasının adı?

- (*təəccüblə*) Onun atasının adını hardan bilim?

- Yaxşı, gedə bilərsiniz.

Onun otağından çıxanda Volodya məni gəzləyirdi və o soruşdu, niyə orda qalmışan, mən isə qeyri-müəyyən – heç nə.

Axşam səkkizdə bayram şamımız başladı, qənaətkarlıqla olsa da stolun üstündə hər şey var idi. Uşaqlar sərbəst idi, kimisə içirdi, kimisə yeyirdi, kimisə lətifə danışırdı, bir sözlə, şən keçirdi.

Həmişəki kimi, su və şirələrdən içirdim və mənə yaxşı idi.

Birdən bizim uşaqlardan biri mənə yaxınlaşıb, soruşdu:

- Abdul, sən içmirsən?

- Niyə? Budur (*ona göstərirəm*), şirələrdən, sudan içirəm. Nədir ki?

- Burda ancaq sən içki içmirsən? Bizə hörmət etmirsən?

Və başladı səsini qaldırmağa. Uşaqlar öz yerlərindən:

- Nədi, Kolya? Abdul içki içməyəndir.

Kolya qəzəblə:

- Ah, sən nədi, yüksək sortsan? Bizi adam yerinə saymırsan?

Stol arxasına sükut çökdü. Bu vaxt mətbəxdən partiya qrupumuzun sədri Volodya gəldi. Kolyaya üzünü tutaraq:

- Niyə səs-küy salırsan?

- Bilirsən, o bizə hörmət etmir, içmir.

Volodya bərkdən:

- Uşaqlar, bağışlayın. Kolya məni məcbur edir, demək istəyirəm ki, uşaqlardan ikisi, o cümlədən də Kolya, bu axşam üçün üç funt verməyiblər. Kolya, sənə təəccüb edirəm, axı Abdul üç deyil, beş funt verib, içki içməyən özü üçün və içən sənin üçün, ikinizin yerinə. Soruşulur ki, Kolya, sən nədən narazısan? Ən əsası, bu azğınlıq deyilmi? Adam bizimlə oturub, danışır, gülür, şadlanır, şirələrdən içir, sən isə ondan yapışmısan ki, mənə aldığın arağı niyə içmirsən? Otaqda uşaqların gülüş səsi yayıldı. Ona görə də xahiş edirəm nəinki özünüzə, həm də burada əyləşəyənlərə hörmət edəsiniz və burada lazımsız mübahisələr yaratmaq lazım deyil.

Bax beləcə, bu xoşagəlməz epizoddan yan keçdim, buna görə sinif nümayəndəmiz və partiya qrupumuzun sədri, Moskvadan olan Volodyaya minnətdaram.

Səhər oyanaq, uşaqlar hərəsi bir yana dağılışdı və mən də Birmingemdən olan Volodya ilə getmək istədim, lakin Lomonosov Universitetindən olan partiya qrupunun sədri Volodya mənə yaxınlaşıb, dəzhlizə çıxmağı təklif etdi.

Çıxanda dünənkinə görə üzr istədi və baş verənə fikir verməməyimi məsləhət gördü. Sonra əlavə etdi:

- Bilirsən, səfirin təhlükəsizlik üzrə müavini (*litvalı*) sırağagün məni yanına çağırmışdı, soruşdu ki, sən, Abdul, kiminlə dostluq edirsən? Mən də ona cavab verdim ki, üç Volodyalarla: Kalinindən, Moskvadan (*mənimlə*) və Leninqraddan olanlarla. O isə: "Bəs o yerlisi, tələbə İlhamla dostluq etmir?". Cavab verdim: "*Çətin, onu təsadüfən iki və ya üç dəfə görüb, ondan artıq deyil*".

Volodyaya səfirliyin əməkdaşının tələbəyə, İlhama qeyri-sağlam olan marağına təəccübləndiyimi söylədim, o isə elə bil məni eşitmirdi, davam etdi: "*Abdul İlhamın Heydər Əliyeviç Əliyevin oğlu olduğunu bilmir*"

Təbii olaraq, sual verdim:

- Nədi, o Heydər Əliyevin oğludur?

- Bəli.

- Bəs niyə onun ətrafında bu qədər səs-küydür? Onun oğlu olsa da, oğlan burada təcrübə keçir. Nə olub?

- Bilmirəm, Abdul. Ona dedim ki, Abdul onun haqqında heç nə bilmir.

Qabağa qaçaraq, söyləyim ki, 1982-ci ilin iyun ayının sonunda İngiltərədən döndükdən sonra bütün bunları dostum və ata tərəfdən uzaq qohumum Tofiq Mahmudova danışdım. O bu söhbəti ört-basdır etdi, yalnız onu dedi ki, İlham və onun qardaşı Rafiq Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutundan olan Arif Paşayevin iki qızı ilə evlidirlər.

Tofiq söz verdi ki, bir gün İlhamla mənim görüşümüzü təşkil edəcək. Ancaq sonra bütün bunlar unuduldu və mən on iki ildən sonra İlhamla gördüm. Bu 1995-ci il 27 dekabr tarixində Tofiqin böyük oğlu Fəqanın toyunda baş verdi.

Tofiq insanlara puluna (*şükür Allaha, onda həmişə olub*), tutduğu vəzifəsinə (*özü otuz yaşında İnşaat institutunun elm üzrə prorektorunun vəzifələrini icra edirdi*) görə rəftar etməyən yeganə adamlardandır. Səmimi adam kimi, həmişə insanlara hörmətlə yanaşıb. Tofiq toyda gəlib bizim masada əyləşdi (*həyat yoldaşım Subi ilə oturmuşduq*), salamlaşdı və çox xoş söhbət etdik.

Subi və mən, hər şeydən əvvəl, onu böyük oğlu Fəqanın toyu münasibətilə təbrik etdik, gənclərə xoşbəxtlik, müvəffəqiyyət və s. arzuladıq. Bu zaman gördüm ki, "*Gülüstan*"ın zalına Tofiqin qardaşı Rafiq və İlham ailələri ilə (*həyat yoldaşı Mehriban, onun bacısı Nərgiz və onların uşaqları*) birgə daxil oldular.

Tofiq üzü bizə və arxası qapıya tərəf oturmuşdu, ona görə də girənləri görmürdü, İlhamın gəlişini ona xəbər verdim. O üzr istəyib, tez onu qarşılamağa getdi.

Rafiqlə bizim aramızda hardasa on addımlıq məsafə vardı, Rafiq məni salamlamaq əlaməti olaraq, başını əydi, İlham isə, mənə elə gəldi, gülümsədi və mənə əlini yellədi. Tofiq hər ikisini qucaqlayıb, öpdü və bütün ailəni əvvəlcədən ayrılmış masaya apardı.

Toy başladı, aşıqların, muğam ifaçıları, müasir mahnı və kamera ansamblı müğənnilərinin ifası ilə musiqilər səsləndi. Şən idi.

Bu toy Azərbaycan toylarından 99% ona görə fərqlənirdi ki, Tofiq pul verilməsini qəti qadağan etmişdi.

Təxminən birsaatyarım oturub, toyun bitməsini gözləmədən getdik, çünki uşaqlar evdə tək idilər.

Bu, mənim bu günə qədər İlhamla ilk və son görüşüm idi.

İndi İlham Əliyev – Azərbaycanın Prezidentidir, amma biz onunla hələ 1981-ci ildən, mənim Böyük Britaniyadakı missiyam

zamanından tanışıq. Mən Birmingemin Aston Universitetində elmi məzuniyyətdə, İlham isə BƏMDİ-nin axırıncı kurs tələbəsi kimi, Londonda səfirlikdə təcrübə keçirdi. Hekayəti davam edək.

İki həftə keçdi və biz yenə də avtobusla Londona getməli idik. Viktora əvvəlcədən zəng edtim ki, avtobusun (*coach*) gediş vaxtını razılaşdıraq, o isə bildirdi ki, dördüncü gün Edinburqa, oradan isə bizim uşaqlarla Londona gedəcək.

Şənbə günü səhər avtovağzala getdim, bilet alıb, Londona, Viktoriya stansiyasına (*Victoria coach station*) yola düşdüm. Birmingemdən Londona qədər olan məsafə təqribən 210 km-dir və iki saata (*1 saat 50 dəqiqə*) yaxın yol edir.

Həmişə olduğu kimi, avtobus Victoria coach station-a vaxtında çatdı və digər avtobusa mindim ki, iyirmi dəqiqədən sonra səfirlikdə olum. Gedişhaqqı verib, keçib qapıya yaxın, iri, kök qadının yanında oturdum. Avtobus tərpənən kimi, qadının sakitcə mahnı zümzümə etdiyini eşitdim. Sarışın qadına təəccüblə baxdım və onun milli mahnımız “*Sarı gəlin*”i oxuduğuna məəttəl qaldım. Halım pisləşdi, elə bildim bu xəyaldır və düşündüm ki, mahnılarımız üçün necə darıxmışam ki, bunu belə eşidirəm.

Avtobus növbəti dayanacaqda durdu və qapıları açıldı, yeni adamlar gəldi və mahnı dayandı. Fikirləşdim ki, Allaha şükür, deməli, yalnız mənə bu cür eşidilib, amma avtobus tərpənən kimi, yenidən “*Sarı gəlin*” mahnımızı dəqiq eşitdim.

Diqqəti cəlb etmədən, Azərbaycan mahnısı “*Sarı gəlin*”i oxuyan ingilis qadınına baxmağa çalışdım. Ancaq qadına gözlərimi dirəmədim, çünki hələ səfirlikdə bizi xəbərdar etmişdilər ki: “*Gedəndə yaxud dayananda qadınlara gözlərinizi bərəltməyin, əgər bu baş versə və o görsə, dərhal üzr istəyin, əks halda qadın polisə şikayət edə bilər ki, ona sataşırlar*”.

Xanım isə, elə bil qəsdən, dodaqlarını sıxaraq, alnının tərini silib, nəsə fısıldayırdı. Artıq üçüncü dayanacaq idi, xəyal isə məni tərk etmirdi. Növbəti dayanaqda fürsətdən istifadə edib, bu iri sarışınla üzbəüz oturmaq qərarına gəldim ki, məhz onun mahnını zümzümə etdiyindən əmin olum.

Artıq dördüncü dayanacağı keçmişdik, zümzümə isə davam edirdi. Elə ki, avtobus dayandı və qapıları açıldı, yerimdən durub qarşı tərəfə keçmək istədim ki, birdən kök qadın qalxdı və

dayanacaqda düşdü. Qeyri-ixtiyari çevrilib, onun ardınca baxdım, özlüyümdə fikirləşdim ki, nə yaxşı oldu, nəhayət getdi.

Avtobus tərpəndi, "*Sarı gəlin*" mahnısının zümzüməsi sarışının oturduğu tərəfdən davam edirdi. Birdən, gözlərimə inanmadım, indicə gedən qadının arxasında bir kişi oturmuşdu, altmış yaşlarında, hardasa 155 sm boyda, çəkisi 50 kq-dan artıq olmazdı, "*Sarı gəlin*"i o oxuyurdu.

Qoca alçaqboylu idi, ona görə mən onu iri sarışının arxasında görməmişəm. Şansımı əldən verməyib, ona yaxın əyləşdim və azərbaycanca "*Salam*" verdim, o sevincək, "*Va əleykusalam*" cavab verdi. Aksentindən başa düşdüm ki, qoca cənubi Azərbaycandandır və maraqlandım: - Baba, Təbrizdənsiniz?

O isə sevinərək, cavab verdi:

- Bakıdansan? Nə yaxşı! Çoxdan burada, Londonda yaşayıram və İrandan qaçandan birinci dəfədir ki, bakılı ilə rastlaşıram! Sonra əlavə etdi:

- İslam inqilabı İranı müflis etdi, milyonlarla iranlı mollaların rejimindən qaçmağa məruz qaldı. İnqilab 1978-ci il yanvarın 8-də başlandı. Həmin il ərzində İranın müxtəlif şəhərlərində ruhanilər müxtəlif nümayışlər təşkil edirdilər. Şah, artıq hakimiyyəti əlində saxlaya bilməyib, baş nazirə təhvil verdi və ölkədən qaçdı. 1979-cu il fevralın 1-dən isə Ayətullah Xomeyni İrana qayıtdı və İslam Respublikasını yaratdı.

- Amma sizə burada yaxşıdır?

- Yox. Pul var, şikayət etmək günahdır, buradan İrandakı ailəmə dəstək oluram, amma heç cür onları buraya gətirə bilmirəm. Ev var, mal-dövlət, lakin doğma, azərbaycan rahatlığı yoxdur.

(*Mən, gülümsəyərək*) - Tez-tez zümzümə edirsiniz?

(*O, sevinərək*) - Nədir, oxuduğumu eşitdiniz? Hə, avtobusa oturan kimi, qeyri-ixtiyari zümzümə edirəm, ya muğam, ya "*Sarı gəlin*", ya da "*Arpa çayı*" və s. (*Başını yellədərək*) Biz azərbaycanlılar 30 milyonuq və bütün dünyaya yayılmışıq, maraqlıdır, nə vaxt bayrağı və himni, hökuməti və ordusu olan müstəqil dövlətimiz olacaq? (*Başını qaldırdı*) Siz burada yaşayırsınız, yoxsa oxuyursunuz?

- Burada elmi təcrübə keçirəm.

- Təhsil burada yaxşıdır, onlar bunu qiymətləndirirlər.

Tezliklə səfirliyin qarşısında enməli idim. Onunla vidalaşıb, növbəti dayanacaqda düşdüm, amma onun "*Sarı gəlin*"i zümzümə etməsi hələ də yadımdadır.

Muğam (*instrumental-vokal əsər kimi*) bütün Şərqdə yayılmış milli musiqi təcrübəsinin azərbaycan müxtəlifliyi sayılır. Erkən dövrlərdə muğam ənənələrinin ərəb, türk və fars nümayəndələri ilə yanaşı, yeganə musiqi ənənəsi kimi tədqiq olunurdu. Lakin azərbaycanlı muğam ustadlarının və postsovet dövrünün musiqişünaslarının, ilk növbədə dahi bəstəkarlarımız Üzeyir Hacıbəyov və Fikrət Əmirovun nəzəri və musiqili əsərləri bütün dünyaya Azərbaycanın müasir həyatının bir hissəsi olan muğamla tanış olmaq imkanı yaratmışdır.

Həyat çox qəribədir. Təəssüf edirəm ki, İngiltərədə bütün gördüklərimdən hətta doğmalarımla belə bölüşə bilməmişəm. Sovet rejimi xalq üçün ağır yük olub, açıq düşünüb, danışmaq qorxulu idi, daha qorxulusu isə şəxsi fikrin olması idi.

Bəli, böyük ölkə dağıldı, bəlkə heyf, amma görünür razılaşmalıyıq ki, yoxsulluğun böyük düşərgəsi dağıldı, burada partiya fəalları xüsusi sifarişlərlə qidalanarkən, mən, dosent, müharibə vaxtlarından dondurulmuş əti talonla almaq üçün dil çıxardıb, günlərlə gəzirdim.

Xalqın həqiqətən qoyun sürüsü, özlərinin isə ağıllı çoban olduqlarını fikirlənlərə bəzən elə yazığım gəlir ki.

Onlar necə bütün kainatın Yaradanını unudurlar?!

Bu zaman məşhur türk şairi Nazim Hikməti yadıma saldım.

Burada, İngiltərədə ikən, onun Leninqraddakı vəziyyətini yaxşı anlayırdım, harada üç il aspirant olmuşam.

*"Hərəkətsizlikdə xoşbəxtlik yoxdur"*
F.M.Dostoyevski (1821-1881)

## 4.6. Folklend adaları üçün elan olunmamış müharibə.

Yeni, 1982-ci il sakit başladı, əgər yanvarın ilk günlərini nəzərə almasaq, yəni mən bir həftə Bakıda olarkən və Respublika sarayının (*keçmiş V.İ.Lenin ad.*) qarşısındakı bağda qızım Leyla yıxılıb, burnu mərmər döşəməyə dəyəndə.

Subi ilə uşağın burnundakı əyriliyi görmədik və Türkiyədən olan azərbaycan əsilli həkim (*Vaqif həkim*) onu, sevimli qızımı əla əməliyyat edənə qədər təxminən iyirmi il bu əziyyəti çəkdik.

Yeni 1982-ci ilin ilk hadisəsi proqnozlaşdırıcı kimi mənim maraqlı olan, 1963-cü ildən Britaniyada çıxan ən məşhur milli gündəlik "*The Sun*" qəzetindəki, SSRİ-yə aid geniş məqalə oldu.

Xaricdə daha ağıllı hərəkət edirlər və gözlənilən proqnozları "*The Times*" (*Tayms – Birləşmiş Krallığın gündəlik qəzetidir, 1785-cu ildən çıxır və ən məşhur qəzetlərdən biridir*) kimi rəsmi qəzetlərdə vermirlər. Məqalə Sovet İttifaqının 2000-ci ilə gözlənilən dağılışına həsr olunmuşdu. Məqalədə SSRİ-nin bütün xəritəsi, İttifaqın dağılması mənzərəsi və inkişaf perspektivi ilə yeni dövlətlərin yaranması təsvir edilmişdi.

Məqaləyə görə, qərb 1991-ci ildə SSRİ-nin dağılmasından xeyli əvvəl yeni müstəqil dövlətlərin yaradılması ilə İttifaqın dağılışını dəqiq planlaşdırmışdı.

Bu məqalədə proqnozun həm məntiqli, həm də perspektivli olan bir neçə variantları məni heyrətləndirdi. Diqqətimi cəlb edən ilk şey, əlbəttə ki, cənubi Azərbaycanın Təbriz, Ərdəbil, Urmiya, Məhəbad, Xoy və s. əsas iri şəhərlərini əhatə edən, şimali və cənubi Azərbaycanın birləşməsi ilə bizim müstəqilliyimizin bərpası idi.

Sonra Gürcüstanın ilə Ermənistan, Moldovanın ilə Rumıniya və Orta Asiyanın bütün beş respublikasının (*Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Tacikistan*) Türkistan adlı bir ölkəyə birləşməsi məni heyrətə saldı. Üç müstəqil Baltikyanı ölkələrin (*Litva, Latviya və Estoniya*) Baltikyanı dövlət birləşməsi maraqlı idi.

Düzünü desəm, səfirlikdə bizi elə qorxudurdular ki, bu qəzeti İttifaqa gətirməyə qorxurdum. Hətta yataqxanada saxlamaq da

riskli idi, çünki stajçıları bir-birindən xəbər verməyə məcbur edirdilər. Və hətta 25 mart 1982-ci ildə Subi İngiltərəyə yanıma gələndə belə, qəzeti ona göstərmədim (*digər stajçıların həyat yoldaşlarının qrupu ilə, Böyük Britaniyaya bir aylıq səfərlərini SSRİ-nin ATM nazirliyi təşkil etmişdi*).



Lakin 1991-ci ildə M.S.Qorbaçov və B.N.Yeltsin SSRİ-ni dağıdanda həmin məqaləni bir də oxumağı elə arzulayırdım ki.

Amma 1982-ci ilin ən əlamətdar hadisəsi Böyük Britaniyada Folklend müharibəsinin (*Falklands War*) başlanması idi, həmin ilin aprelin 2-dən iyunun 20-ə qədər davam etdi, Folklend adalarına (*Argentinada onları Malvin adaları adlandırırlar*) nəzarət etməkdən ötrü idi. Nə Argentina, nə də Böyük Britaniya formal olaraq bir-

birinə müharibə elan etməmişdi və hərbi əməliyyatlar öz ərazilərinə nəzarəti bərpa etmək üçün aparılırdı.

Müharibə Böyük Britaniyanın həlledici qələbəsi ilə sona çatdı, hansı ki, bu gün də həmin adalara nəzarət edir. Britaniyalılar hərbi əməliyyatın gedişində çətinliklərlə üzləşdilər.

Göstərmək lazımdır ki, Böyük Britaniyanın bir sıra qəzetləri müharibəni Britaniyanın gücünün hərbi-dəniz dövləti olduğunun sübutu kimi dərk edirdilər. Qeyd etmək istəyirəm ki, bu qələbə Böyük Britaniyada vətənpərvərliyin artmasına, həmçinin Marqaret Tetçer hökumətinin mövqeyinin möhkəmlənməsinə səbəb oldu.

Bakıda Politexnik institutunda dərslərim tam gücü ilə keçərkən, "*Komsomolskaya pravda*" qəzetində 12 oktyabr 1982-ci ildə Folklend müharibəsində Argentina üzərində qələbənin qeyd edilməsi münasibətilə Londonda keçirilən Qələbə paradı haqqında məqalə oxudum.

Lakin şəxsən mən bu müharibə haqqında necə bildim, onu danışmaq istəyirəm. Bir dəfə gecə (*saat bir radələrində*), adətən Aston University tələbə şəhərciyində çox sakit və qaranlıq olarkən, gurultu eşidildi, bütün pəncərə və bağçalar yanmağa başladı, tələbələr həyətə çıxmışdılar və hamısının əlində məşəl vardı.

Onlar hələ də mənə aydın olmayan hansısa şüarları qışqıraraq, sıra ilə toplaşıb, şəhərin mərkəzinə yola düşdülər.

Təsviredilməz səhnə idi, qulaqbatıran hönkürtü vardı, elə bil bu dəqiqə hamı müharibəyə yola düşəcək və qoy ingilislər məni bağışlasınlar, mənə elə gəldi ki, bütün bunlar Sovet İttifaqındakı ssenari üzrə gedirdi. Qalxan səs-küy səhərədək davam etdi, ingilislərin əhval-ruhiyyəsi qalxmışdı, müxtəlif şüarlar qışqırırdılar, kralın silahlı qüvvələrinin Folklendə göndərilməsi ilə əlaqədar məmnunluqlarını ifadə edirdilər.

Aydın görünürdü ki, xalq, əsasən də gənclər elə bu gün öz koloniyalarını qorumaq üçün oraya (*Böyük Britaniyadan bir neçə min kilometr aralı*), müharibəyə uçmağa hazırdırlar.

Bu, ingilis gücünün və hegemonluğunun aydın nümayişi idi və onlar bunu bütün dünyaya göstərməkdən çəkinmirdilər, güclərini açıq-aydın göstərirdilər, yəni bu dünyanın sahibi bizik.

Məhz bu günlərdə cənubi Azərbaycandan və Türkiyədən olan tələbə və aspirantlarla mən tez-tez görüşürdüm.

Onların içərisində ən istedadlısı Təbrizdən olan İsgəndər adlı (*saqqallı mollalar onun ardınca kölgə kimi gəzirdilər*) cavan oğlan idi. Digəri türk Məhəmməd idi, çox şən idi və açıq-aşkar elan edirdi ki, Türkiyənin növbəti baş nazirlərindən biri o olacaq.

Uşaqlar onu həmişə ələ salırdılar, yalnız mən deyirdim ki, əgər Allah yazıbsa, niyə də yox.

Tez-tez axşam saat altıdan sonra onlarda toplaşırdıq. Uşaqlar plov hazırlayırdılar, Azərbaycanın tarixindən, insanları əhatə edən haqsızlıqlardan, ordan-burdan söhbət edirdik.

Uşaqlar xürrəmilər hərəkatından – ərəblərin "*qırmızı geyinən*" əleyhdarlarından, 642-ci ildə Adurqanda Babəkin başçılığı altında xürrəmilərin ərəblərə qarşı kütləvi üsyanının meydana çevrilməsindən danışırdılar.

Uşaqların danışdığına görə, Babək (*hardasa 816-837-ci illər*) Azərbaycanda Ərəb xəlifətinə qarşı mərkəzi Şimal-Qərbi İranda olan və İran və Zaqafqaziyanın digər bölmələrini əhatə edən milli üsyanın başçısı idi.

Üsyan zərdüştliyin qədim etiqadını bərpa etmək və Xəlifətin əsarətindən qurtarmaq şüarları altında keçirdi. Xürrəmilər hərəkatının başçısı Babək milli qəhrəman və Azərbaycanın azadlığı uğrunda mübarizəçi sayılırdı.

Üsyançıların mərkəzi Bəzz qalası idi, hələ də "*Babək qalası*" (*Şərqi Azərbaycanın vilayətində Kəleybər şəhəri yaxınlığında, coğrafi olaraq, Araz və Axar çayları arasında, Qaradağ dağlarında yerləşirdi*) kimi tanınır. Yeni sərkərdə Afşinin başçılığı ilə bütün ərəb dünyası Babəkə qarşı qalxarkən, o, aralarında qardaşı Abdullah, anası və arvadı olmaqla, bir neçə silahdaşları ilə dağlardan və meşələrdən keçərək, Bizansa keçmək məcburiyyətində qalmışdı.

Uşaqların danışdığına görə, Bizansla sərhəddə Babək ona xəyanət edib, onu Afşinə satan və əlinə verən köhnə müttəfiqi, erməni knyazı Səhl ibn Smbatın yanında qaldı. Bütün Azərbaycanda Babək milli qəhrəman – azərbaycanlıların azadlığı uğrunda mübarizəçi kimi sayılır.

Farsların arasında isə, uşaqların qeyd etdiyi kimi, Babək, mübarizəsinin islama qarşı yönəldiyindən və əsasən də hazırda ölkəni mollalar idarə etdiyindən az tanınır.

Ancaq İran tarixçisi S.Nəfisi özünün “*Azərbaycanın qəhrəmanı – Babək Xürrəmdin*” adlı kitabında Babəki – ona ölümsüzlük gətirən, İran torpaqlarının dahi insanlarından, İranın milli qəhrəmanlarından biri adlandırır.

Uşaqlar danışırdılar ki, bu gün də gənclər ildə bir dəfə hələ də “*Babək qalası*” kimi tanınan Bəzz qalasına qalxırlar. Siyasətə ümumiyyətlə qarışmayan və Tanrı tərəfindən istedad bəxş olunan, çox təvazökar oğlan – İsgəndərin doktorluq dissertasiyasının müdafiəsi üzərində xüsusi dayanmaq istəyirəm.

Bir dəfə İsgəndər mənə ailəsinin fotoşəklini göstərmişdi və bütün ailənin on iki üzvündən yalnız dördünün ayağında tufli və başmaq, qalanlarının isə ayaqqabısız olduğunu görəndə məəttəl qaldım, foto isə 1980-ci ilə aid idi.

İsgəndərdən soruşanda ki, burada, Aston Universitetində hansı pula təhsil alır, cavab verdi: - Baba, İranın qızıl pullarına. Bəs bu siyahıya necə düşüb, – növbəti sualıma cavab verdi ki, – Çox sadə, əlaçı idim, məni seçdilər.

Deməli, İranda təbii seçim var və bu çox yaxşıdır – nəticəsinə gələndə, sualla cavab verdi: - Əgər belə olmasaydı, onda necə burada təhsil alardım? Bəli, bu lazımi cavab idi, amma mən cənubdan olan doğma azərbaycanlıma necə başa sala bilərdim ki, Sovet sistemində xaricə bir çox hallarda təbii seçimlə deyil, partiyanın tövsiyələri, tanışlıqla – “*tapşla*” və s. ilə göndərirdilər.

Xatırlamaq istədiyim növbəti şey, İsgəndərin doktorluq dissertasiyasının müdafiəsi prosesidir. O aprelin sonunda, dedi:

- Ağayi Abdul, əgər istəyirsinizsə, mənim müdafiəmə gələ bilərsiniz. İkinci korpusda, 302-ci otaqda olacaq.

Həm də ona görə razılaşdım ki, iki il bundan əvvəl özüm də, düzdür, ikinci dəfə, dissertasiya müdafiə etmişdim və mənə çox maraqlı idi, burada, Böyük Britaniyada, əsasən də Aston Universitetində dissertasiyanı necə müdafiə edirlər.

Ona görə də səhər saat on birdə 302-ci auditoriyaya bir dəstə güllə yaxınlaşdım, auditoriyanın iki girişi vardı, iri idi və hələ heç kim yox idi. Burada hər şeyin vaxtlı-vaxtında başlandığını düşünüb, dəhlizə çıxdım və hamının toplaşmasını gözlədim.

Axı şəxsən məndə Leninqradda bu cür olmuşdu: dissertasiya komissiyasının hardasa 14-16 nəfər üzvü, kafedra və fakültənin

işçiləri və digərləri: aspirantlar və müdafiəçinin canfəşanları iştirak edirdilər.

Təqribən saat on birdə gördüm ki, üç nəfər və deyəsən onlardan biri İsgəndər idi, birinci qapıdan daxil oldular. Camaatın gəlişini səbirlə gözləyirdim, amma onlar gəlmirdilər. Dözmədim və ikinci qapıdan içəri girdim, gördüm ki, bu üç nəfər yanaşı əyləşiblər.

Digər gələnləri gözləmək üçün yenidən dəhlizə çıxdım. Qırx dəqiqədən artıq keçdi, gələn yox idi. Narahat olmağa başladım, görəsən müdafiəni başqa vaxta keçiriblər? On beş dəqiqədən sonra ikinci qapıdan yenidən otağa daxil oldum və bu üç nəfərin iş rejimində sakitcə nəyisə vərəqlədiklərini, baxdıqlarını, müzakirə etdiklərini görüb, təəccübləndim. Beləliklə iki saat dəhlizdə dayanmalı, üç nəfərin hələ də orada olduğundan əmin olmaq üçün bəzən auditoriyaya girməli oldum. Nəhayət, bu üç nəfər birinci qapıdan çıxdı, aralarında nəsə danışıb, ayrıldılar: ikisi birlikdə getdi, biri isə, cavan, mənə tərəf gəldi. İsgəndər idi. Mən başladım.

- Nədi, müdafiəni ləğv etdilər?

- Ağayi Abdul, elə indicə müvəffəqiyyətlə müdafiə etdim.

- Necə? Orada üç nəfər idiniz, bu müdafiə adlanır?

- Bəli. Onlardan biri elmi rəhbərim, ikincisi digər universitetdən ekspert, onu ümumiyyətlə tanımırdım, üçüncüsü isə – mən, ekspert və rəhbər qarşısında müdafiə edən.

Bu formada müdafiəyə mat qalmışdım. Bununla belə, sevinərək onu səmimi təbrik etdim və gülləri verdim, o isə: “*Ağayi Abdul, həyatımda ilk dəfədir ki mənə gül verirlər, çox sağ olun*”.

Mən isə, sovet mentalitetimə görə, soruşdum:

- Banket nə vaxt və haradadır?

- Banket nə üçündür ki?

- Sənin müvəffəqiyyətlə müdafiə etdiyin üçün.

- Ağayi Abdul, müdafiə ancaq mənə aiddir. Niyə mən kiməsə banket düzəltməliyəm?

Mən ürəkdən güldüm, ona izah etməli idim ki, Sovet İttifaqında müdafiənin əsas atributu – banketdir və ən azı, kafedranın bütün kollektivi üçün və s.

Yadıma 2005-ci ildə AMEA-nın Kibernetika institutunda qeyri-ixtiyari eşitdim, aspirantın elmi rəhbəri ilə söhbətini düşdü. Deyəsən müdafiyə vaxtı idi. Gələcəyin alimi rəhbərindən soruşurdu:

- Necə fikirləşirsiniz, banketi qırx nəfərlik hesablayım?

- Yox. Əlli nəfərlik etsən daha yaxşıdır.

- Yaxşı. Atamla yaxşı yer seçmişik, orada zal lap 60 nəfərlikdir, problem olmayacaq.

- Yox. Problem var.

- Nədədir?

- Problem ondadır ki, banket zalı Şura üzvlərinin yaxud müdafiəyəyə cavabdeh olanın məsləhət gördükləri yer olacaq. Həmişə onların seçdikləri yerdə banketin keçməsini istəyirlər. Bu belə qəbul olunub, ənənəni poza bilmərik...

Müdafiə təxminən belə keçirilir, ciddi tənzimlənən ssenari əsasında, Şuranın 15-18 nəfərədək üzvünün iştirakı ilə və s. Bəlkə ona görə bizdə elm ölür, bəlkə ona görə bizə Midhət Abbasov, Rüstəm İbrahimbəyov, Rafiq Əliyev və s. kimi alimlər lazım deyil.

İsgəndərə qayıdaraq, qeyd etmək istəyirəm ki, müdafiədən bir gün sonra yataqxanaya yanıma gəlib soruşdu: - Ağayi Abdul, sizin 36 yaşınız var, mənim isə 24, zəhmət olmasa, söyləyin, bundan sonrakı illəri əziyyət çəkməmək üçün sonra necə davam edim, öz müqəddəratımı necə həll edim? Gördüm ki, cavan oğlan yeni sivilizasiyaya öyrəşib, ona kafedrada dosent vəzifəsini veriblər, artıq ikiotaqlı mənzil var.

Ona cavab verdim: "*İsgəndər, sənin vəziyyətin mənə tanışdır. 1977-ci ildə mən də Leninqradda qala bilərdim, burada nəinki elmi rəhbərimin, həm də kafedranın bütün kollektivinin yaxşı dəstəyi vardı. Lakin vətənimi seçdim, məni həmişə Azərbaycana, çəkir. Bilirdim ki, istənilən məsələ ilə bağlı kafedramla həmişə əlaqə saxlamaq mənim üçün çətin deyil. Bu vəziyyəti böyük şirvanlı – İmadəddin Nəsiminin şeirləri ilə sənə başa salmaq istəyirəm:*

*"Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,*
*Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.*
*Ərşlə fərşu kafü nun məndə bulundu cümlə çün,*
*Kəs sözuvü əbsəm ol, şərhu bəyanə sığmazam".*

*Ancaq sənin vəziyyətin başqadır. Birincisi, İngiltərə – Leninqrad deyil. İkincisi, əgər burda qalmasan, elmdə inkişaf edə bilməzsən. Üçüncüsü, burda qalsan – yerli sarışınlar boynunu kəndirləyəcəklər (İsgəndər güldü), sən isə, görünür, bu illər ərzində onlardan*

*doymusan. Ona görə də sənə məsləhətim budur: Təbrizə uç, doğmalarınla görüş, yaqin, dissertasiyanı müvəffəqiyyətlə müdafiə etdiyinə görə qurban kəsməyə imkanın vardır. Şənliyə bütün ailəni və qonşularını dəvət et, əgər imkan varsa, elə bütün kəndi də. Şənlik düzəlt, qoy sənin bacıların oraya bütün gözəl rəfiqələrini və tanışlarını dəvət etsinlər və sən onların arasından ürəyincə olan on səkkiz yaşlı qızı seç, onunla danış, anan və bacılarınla məsləhətləş, yəni özünə gələcək həyat yoldaşı seç.*

*Yadında saxla, Təbrizdən özünə arvad seçəndə ömürlük vətənlə bağlanacaqsan. Bu qız heç olmazsa ildə bir və ya iki dəfə səni vətənə getməyə məcbur edəcək, bu isə ən əsasıdır – doğmalarla əlaqəni itirməmək. Belə seçimlə nəinki sən, həm də bütün bacı və qardaşların razı qalacaq. Sən, Allaha şükür, bu illər ərzində doyunca gəzmisən, artıq sənə arvad lazımdır, sadə və evdar, sənə və uşaqlarına baxsın. İkiqat xoşbəxt olacaqsan və evdə də hamı xoşbəxt olacaq. Belə ki, Təbrizə, doğmalarının yanına uç və ordan həyat yoldaşınla qayıt".*

Görünür, İsgəndər təxminən belə də düşünürdü, ürəkdən mənə təşəkkür etdi, bir həftədən sonra isə Təbrizə uçdu. Təcrübə dövrünün sona, Londondan Moskvaya yola düşməzdən əvvəl biz, alimlər səfirlikdə toplaşdıq. Planlaşdırılırdı ki, La-Manş boğazından bərə ilə materikə keçib, qatarla Moskvaya çatacağıq. Yola düşməmişdən əvvəl, kuratorumuz "*Dost*" mənə yaxınlaşdı və xəbər verdi ki, Birmingemdən kimsə yanıma qonaq gəlib.

Çıxıb gördüm ki, İsgəndərdi dostları ilə. Məni qucaqlayıb dedi: "*Ağeyi Abdul, sizin məsləhət verdiyiniz kimi etdim, toy elədim və həyat yoldaşımla bura gəldim. İnanmazsınız, bütün doğmalarım: atam, anam, qardaş və bacılarım sizə salam göndərdilər, can sağlığı və müvəffəqiyyətlər arzulayırlar. Valideynlərim xoşbəxtdirlər ki, mənim qarşıma bu cür adam çıxıb, milli ənənələrimizə uyğun məsləhət verib. Buna görə sizə təşəkkür edirəm, xoşbəxt olun, şadam ki, sizə qulaq asdım. Allah həmişə sizi və bütün ailənizi qorusun*".

Əgər düzünü desəm, cənubi Azərbaycandan olan bu istedadlı alimin taleyinin belə tez həll olunacağını gözləmirdim, və bir azərı ailəsinin İngiltərədə xoşbəxt yaşamasından şadlanırdım.

“*Yaxşı adətləri olan yer əsl vətəndir*”
Pifaqor (e.ə. 570-490-cı illər)

## 4.7. Böyük Britaniyadan qayıdış.

Bütün alim-stajçılar Böyük Britaniyadan birlikdə, La-Manş boğazından bərə ilə, sonra isə qatarla bütün Avropadan keçərək, qayıtdıq. Təxminən axşam saat səkkizdə bizim bərə yerindən tərpəndi və məəttəl qaldım, elə bil üzmürdük, yavaş-yavaş (*hətta deyərdim ki, hiss edilmədən*) şürüşürdük.

Bu qədər vaxtı dənizdə olduğum ilk dəfə idi və bərədə bəzilərindən fərqli olaraq, dayanmadan təqribən on saatlıq gəmi səfərini sakit keçirdim. Qeyri-ixtiyari fikrə getdim, İsgəndərin Freddi Merkyurinin (*Fərrux Bulsara*) Birmingemin futbol stadionunda keçirilən konserti haqqında danışdıqları yadıma düşdü.

Onun çıxdığı səhnə insan dənizindən olan adaya bənzəyirdi, əsasən tələbələr idi, elə bil gənclərlə görünməz əlaqə yaradırdı, geniş təbəssümü ilə onları asan idarə edirdi.

İsgəndər əmin edirdi ki, heç kim Freddidən yaxşı bu cür axınla bacara bilməzdi. Lakin Freddi Merkyuri üçün ən ağır – tək qalmaq idi, o ancaq oxuduğu zaman xoşbəxt olurdu. Öz nəqmələri altında fanatlarını üzməyə məcbur edərək, özü də xoşbəxt üzürdü və görünür, sonsuzluğa.

İsgəndər, ağlamsınaraq, dedi:

- Ağayi Abdul, bu böyüklükdə şəxsiyyətə Sahara səhrası yaxud Sakit okean boyda yer lazımdır ki, qeyri-təbii və qeyri-adi hadisələrin toqquşmasına tab gətirsin.

İsgəndər iddia edirdi ki, Freddi Merkyuri “*bir nömrəlidir*”, “*Queen*” qrupunun digər üzvlərinin istedadı ruhən ona yaxındır: Brayan Mey, Con Dikon və Rocer Teylor. Çox istedadlı idi və ideyaların sıx rəqabətli şəraitində ele hey yaradırdı, musiqinin kreativ vulkanı ilə əhatə olunmuşdu. “*Queen*” qrupunun aparıcısı kimi, ona dahi istedadı az idi, özündə insan ucalığını da inkişaf etdirirdi. Merkyurinin dostları iddia edirdilər ki, mahiyyətcə, onu bütün dünya tanıyırdı. O rok ulduz, Zərdüştün canlı, aydın alovu, şərqyanı utancaq və hətta bir az özünə qapanmış idi.

İsgəndərin iddia etdiyi kimi, *Fərrux Bulsara* hər kəsi özünə yaxın buraxmırdı, özündən, problemindən utanırdı və hiss olunurdu ki, bu stressə tab gətirmək onun üçün çətindir. Daha çox zəif, sirli və hürkək görünürdü.

Görünür, "*These are the days of our lives*" – Freddinin ən yaxşı nəğməsi olaraq qalacaq, bu nəğməyə çəkilən klip isə, şübhəsiz, bütün dünyanı dolaşmışdır. Bu xatirələrdən ayrılanda, bizim işaqlar bankalardan pivə içirdilər, hansıları ki, o illərdə SSRİ-də yalnız yaxşı əlaqələrlə əldə etmək olardı.

Londondan Moskvaya gedən qatarın marşrutunun, bir qayda olaraq, ən ucuzu (*daha sərfəli*) seçilirdi. Görünür ən münasib marşrut – London, Brüssel, Köln, Varşava, Minsk və Moskva idi.

Brüsseldə bir qədər yubandıq və tezliklə, Köln və Varşavadan keçərək, Belarusda SSRİ-nin sərhəddinə çatdıq. Amma gördüm ki, bu qədər uşaqların arasında tək mən bizim sərhədçilərə sevinirdim. Uşaqlar çox mütəəssir olmuşdular, vurnuxmağa başladılar, nədənsə qatarın konduktoru, bizim sovet vətəndaşı, onlardan nəyisə tələb edirdi, onlar isə hamısını sərf etdiklərindən şikayətlənirdilər, ümumiyyətlə, düzünü desəm, onların gizli danışıqlarından heç nə anlamırdım.

Nəhayət, bütün uşaqlar bizim kupedə toplaşdılar, biri lider rolunu özünə götürüb, dedi:

- Başa düşün, əgər yığmasaq, nöqtəbənöqtə axtaracaqlar, onda çox şeyi itirəcəyik.

Uşaqların təşvişini görüb, soruşdum:

- Nə işdir? Nə olub? Nədən qorxursunuz?

Buna leninqradlı Kolya cavab verdi:

- Nədir? Nədir? Səndə cəmi qırx kiloqram yükdür, onun da yarısı kitabdır. Başa düşürsən, əgər məni sərhədçilər yoxlasa, nə olacaq? Elə qadın tumanlarından məndə 500 ədəddən çoxdur, hələ başqa şeyləri demirəm. Məni buradan düz qazamata!

Uşaqlar susurdular, Birmingemdə mənimlə birlikdə olan Volodya bığlarını burmağa başladı, kimsə burnunu, kimsə qulaqlarını. Mən isə Kolya ilə davam etdim:

- Yaxşı. Bəs bu konduktor sizdən nə istəyir?

- Abdul, nə istəyir? Pul istəyir, özü də funt sterlinqlə.

- Kolya, nə qədər istəyir?

- Çox istəyir, 30 funt sterlinq, yoxsa razılaşmayacaq, hələ istəyir ki, dovşan da tutaq. Başa düşməyib, dovşanı hardan tapaq?

Hamı bir səslə: - Ay Abdul, biz hamımız (*səndən başqa*) burda dovşanıq, Əgər sərhədçilər çamadları açsa, hamımız getdik.

Volodya: - Abdul bizə de görək, şəxsən sənin bu iki çamadanında nədənsə 5 ya da 10 nüsxə var?

Mən: - Nə danışırsınız, uşaqlar, o qədəri neynirəm, mən Bakıda bazar açmaq fikrində deyiləm ki.

Kolya: - Abdul, Leninqradda dissertasiya müdafiə etdiyinə baxmayaraq, elə bil real deyilsən. Bu alt paltarlarının əvəzində mən sabah təzə jiqulidə gəzəcəyəm. Başa düşdün!

Nəhayət, işin nə yerdə olduğunu anladım və davam etdim:

- Yaxşı, siz orada, Londonda az qala hər bazar günü yemək-içmək təşkil edirdiniz, burada konduktor Sizdən cəmi 30 (*otuz*) funt sterlinq istəyir, siz isə vermək istəmirsiniz, sizə ayıb deyil? Yaxşı, gəlin görək, kimdə nə qədər pul var, çıxardın stolun üstünə.

Beş dəqiqədən sonra stolun üstündə təxminən 8 (*səkkiz*) funt sterlinq və çoxlu sayda sikkə (*təqribən 12 funt sterlinq*) vardı, düz 10 (*on*) funt sterlinq çatmırdı. Kolyaya müraciət edərək, soruşdum:

- Sən nə qədər qoydun?

- Bir funt sterlinq.

- Ay səni, xırdaçı! Utanmırsan?

Nümayişkar stolun üstünə 5 (*beş*) funt sterlinq qoyb dedim:

- Bir vicdanınız olsun! Məgər 12 adamın hər birində yarım funt sterlinq tapılmayacaq?

Və yalnız bundan sonra uşaqların bəzisi stolun üstünə əlavə bir funt sterlinq atmağa məcbur qaldılar, cəmi 34 funt sterlinq oldu.

Uşaqlara əlavə 4 funtu hələlik saxlamağı, Kolyaya isə konduktoru buraya çağırıb, pulları elə burada, yanımızda ona verməyi təklif etdim və bununla məsələni həll edək.

Uşaqların ikinci maraqı, kim dovşan olacaq:

- Hamının cəfasını mən çəkəcəyəm dedim. Konduktor gələndə ona məni göstərin, onsuz da bu vaqonda tək mən qarayam, düşünürəm onun yadında qalacağam.

Bir neçə dəqiqədən sonra konduktor yanımıza gəldi. Stolun üzərində bütün kağız pulları və sikkələri görüb, dedi: Uşaqlar, başınız xarab olub, nədir? Tez başından dəmir yolu papağını

çıxardıb, süpürgə kimi əli ilə bütün pulları ora yığıb tökdü və soruşdu: - Dovşan kim olacaq? Mən, gülümsəyərək, dedim: - Sizin dovşanınız bu gün qara olacaq, belə ki, onlara məni göstərin.

- Hə, elə təkcə sən burda belə qarasan, kupenizdə hamınız açıq rənglisiniz, belə ki, yadda saxlamaq çətin deyil – deyə, o bildirdi. Yığılan pulları götürüb, "*Hə, uşaqlar, bəxşiş üçün çox sağ olun*", dedi və getdi.

Qırx dəqiqə keçdi, vaqonun çarxlarını dəyişirdilər (*dardan geniş yola*), sonra konduktordan əmr gəldi, hamı kupesinə keçsin.

Beş dəqiqədən sonra konduktor yanımıza gəldi, ardınca qapını örtüb, sakitcə dedi: - Hə, uşaqlar, siz ki alimsiniz, əlinizə kitablarınızı götürün, ümumən, məni anladınız...?

Mənə dedi, sən kitabsız uzanım, guya istirahət edirsən.

Uşaqlar tez ixtisaslarına uyğun kitab çıxardılar, Kolya eynəyini taxdı və hərə öz yerinə əyləşdi.

Mən başı qapıya tərəf, aşağı yataqyerində uzandım və istirahət edən görkəmini aldım. Birdən tappıltı və sərhədçilərin səslərini eşitdim. Zabit konduktordan soruşdu:

- Sizin alimlər buradadır?

- Bəli, onlardan nə götürəsən? Nə vaxt içəri girirsən, onlar kitabladırlar. Ancaq bir qara var, özündən razı, bütün günü ya yatır, ya da istirahət edir. Onlara baxmaq istəyirsiniz?

- Niyə də yox? Bax o qaranı da elə soyub boşaldarıq...

- Yaxşı, yaxşı!

Qapımız açıldı, iki əsgər və bir zabit içəri daxil oldular. Uşaqlar kitablardan gözlərini çəkib, gələnlərlə salamlaşdılar. Konduktor kupeyə girmədi, qapıda dayandı. Guya məni səs-küy oyatdı – görkəmini alıb, narazı soruşdum: - Nə olub?

Deyəsən sualım zabiti hiddətləndirdi, kobudcasına donquldandı: - Pasport yoxlanışıdır, pasportunuzu göstərin!

Mən isə onu nəhayət coşdurmaq üçün dedim:

- Bəs müqəddəs söz "*Zəhmət olmasa*" hanı?

Görünür, zabit zarafatsız coşdu: - Deməli belə, bu eynəklilər məni maraqlandırmırlar. Uşaqlar, burada iştirak edənlərin iştirakı ilə bu centlmenin çamadanlarına diqqətlə baxın! (*kobudcasına məni göstərdi*).

Çamadanlarım yuxarıda axırıncı qoyulmuşdu, onları götürmək çətin olmadı. Qalxdım və iki çamadanımı göstərdim.

Əsgərlər onu yuxarı yataqyerindən indicə uzandığım aşağı yataqyerinə qoydular. Zabit konduktora tərəf çevrilib, soruşdu: - Nədi, onun elə iki çamadanı var?

O isə acizanə təsdiqlədi.

Zabit əsgərlərə baxılmasını əmr etdi.

Əsgərlər on səkkiz ya da iyirmi yaşlarında idilər, nəzakətlə çamadanları açmağımı xahiş etdilər. Yavaşca açarları çıxardıb, çamadanlardan birini açdım və çəkildim. Bu zaman zabit işə qarışdı və hər ikisini açmağımı əmr etdi.

Narazı halda ikinci çamadanı da açdım. Kupeyə sükut çökmüşdü, mənimlə eyni kupedə gedən uşaqların üçünün də rəngi qaçmışdı. Qorxudan ancaq yerə baxırdılar. Mən isə sakitcə pəncərəyə tərəf çəkildim ki, əsgərlər əşyalara rahat baxsınlar.

Hər şeyin qaydasında olduğuna əmin olmaq üçün əsgərlərə beş dəqiqə kifayət etdi. Bu barədə zabitə məlumat verdilər. O təkrar, daha diqqətli baxışın keçirilməsində israr etdi. Uşaqlar hər şeyi yenidən yoxlamalı oldular, hətta kitabları bir-bir vərəqlədilər və on beş dəqiqədən sonra məlumat verdilər ki, hər şey təmizdir.

Bu vaxt zabit lap coşdu: əsgərlərə əmr etdi ki, kupedən çıxıb, baxsınlar ki, necə yoxlamaq lazımdır, konduktor isə şahid olmaq üçün kupeyə gəlsin.

Uşaqlar qapıdan çıxdılar, konduktor daxil oldu, zabit isə qollarını çırmalayıb, guya təmiz əllərini nümayiş etdirir, hər şeyə bir-bir baxmağa başladı. On dəqiqə də keçdi, nəticə isə yox idi, əsəbiləşməyə başladı və birdən qadın sancaqlarını görüb soruşdu ki, niyə bu qədər çoxdur?

Sayı isə dörd ədəd idi, dialoqa başladım:

- Zabit, siz evlisiniz?

O kobud: - Hə, nədi ki?

- Uşaqlarınız var?

- Hə, bir oğlan.

- Onda siz məni başa düzərsiniz. Arvadım və qızım var, onlara iki cür müxtəlif sancaqlar almışam. Amma, əgər bu cinayətdirsə, birini götürə bilərsiniz.

O (*qızarıb*): - Yox, bu məcburi deyil. (S*aatına baxıb*) Biz burada ləngidik, artıq yarım saatdan çoxdur bir kupedəyik, çıxaq!

Qapıya yollandı ki, çıxsın. Mən isə ona: - Zabit, bəs bütün bu əşyaları kim çamadana yığacaq? Mən onları elə səliqəli qoymuşdum, siz isə bütün kupeya dağıtdınız.

O əsəbi halda (*əsgərlərə*) dedi: - Kömək edin, çamadanlarını yığışdırsın. (*Konduktora*) İndi məni mayor öldürəcək. Bu qədər kupedən ancaq birini yoxlamışam, o da boş yerə!

Konduktor ona cavabında: - Yoldaş leytenant, axı onlar alimdir, onlardan nə alacaqsız? Zabit: - Hə, düz deyirsən, elə var.

Əsgərlər əşyalarımı yığışdırmağa cəhd göstərdilər, amma mən onlara təşəkkür edib, söylədim ki, özüm yavaş-yavaş yığışdıracağam, gedə bilərlər, hər şey qaydasındadır. Əsgərlər üzr istəyib, çıxdılar.

Bizim kupenin uşaqları hələ də ölü kimi dayanmışdılar, susurdular və bilmirdilər nə desinlər. Sakitcə on dəqiqəyə yığışdırıb, hər iki çamadanı bağladım. Bu zaman konduktor gəldi və dedi:

- (*Uşaqlara*) Niyə belə ölü kimisiniz? Sizin qara dovşana əhsən. (*Mənə*) Amma sən, qardaş, yaxşısan! Onları tamamilə silahsızlaşdırdın. Zabit o qədər hirslənib ki, digər kupelərə girmək istəmədi. Yanımda mayora dedi, "*Bilsəydim orada elmi işçilər var, ümumiyyətlə o kupeyə girməzdim*". Belə ki, hər şey "*Okey*"dir.

Razı halda bizim kupedən çıxdı.

Çamadanlarımı qaldırıb, yuxarı yataqyerinə qoydum.

Baxdım ki, uşaqlar hələ hipnoz edilmiş kimidilər, su şüşəsini götürüb, stakana su tökdüm və içməmişdən əvvəl onlara müraciət etdim: - Uşaqlar, kimsə su istəyir?

Uşaqlar elə bil yuxudan ayıldılar. Volodya mənə müraciətlə:

- Qulaq as, onları bir təhər etdin, şəxsən mən az qala infarkt olacaqdım, yoxlanışa məhdud vaxtlarının olduğunu axı bilmirdik, fikirləşdim ki, indi səndən əl çəkib, bizə keçəcəklər, onda hər şey batdı!

Mən cavabında: - Yaxşı, deməli, alınır da. Konduktora üç dəfə daha çox pul verdim, lakin, gördüyünüz kimi, verməyə də bilərdim, qara dovşan oldum ki, məni yoxlasınlar, siz isə əsirsiniz.

Hamı oturdu.

Kolya:

- Abdul, bizə gəl, səni bütün Piterdə gəzdirəcəyəm.

Volodya:

- Sən, əlbəttə, hər şeyi düz deyirsən, amma az qala ölmüşdüm. Bağışla Abdul.

Mən:

- Uşaqlar, gəlin mehriban yaşayaq!

Hamı güldü.

Amma bütün bunlar dövlət üçün acı idi, niyə biz, dosentlər, belə desək, elmin gələcəyi, o vəziyyətə gəlib çıxmışıq ki, Kolya Londondan, bağışlayın, qadın tumanlarını daşıyır və məlum oldu ki, onun bizə dediyi kimi, 500 deyil, iki min ədəd, digərləri də elə.

Soruşulur, niyə Birmingemin Aston Universitetinin Telekommunikasiya kafedrasının dosenti ayda beş min funt sterlinq (*təxminən 10 000 ABŞ $*) alır, biz isə, bədbəxt sovet alimləri elm üzrə ən yaxşı halda 320 rubl və 110 rubl (*hardasa cəmi 430 rubl*) alırıq, özü də hətta bu qədər az pulu almaq üçün 10-12 ilə dissertasiya müdafiə edib, dünyanın bu böyük ölkəsində dərəcə almaq üçün cəhənnəm əzabını çəkirik?

Buna heç cür bəraət qazandıra bilməzsən, bunu anlamazsan!

Və bu gün, artıq bizim, doğma, müstəqil Azərbaycanımızda hər şey elə də asan deyil.

Hansısa donuzlar cip və xammerdə gəzir, dosentlər yenə də yoxsuldurlar, güc-bəla ilə dolanırlar.

Bəli, deyəsən, alim-stajçılardan danışırdım axı.

Moskvaya çatanda sevinirdik ki, hər şey ötüb keçdi, hər kəs evinə tez getmək istəyirdi, o cümlədən mən də bilet götürüb, Bakıya, doğmalarımın yanına uçdum.

İlk növbədə Bakıda izah etdilər ki, institutumuzun rektorunun adına Böyük Britaniyada görülən işlər haqqında qısa hesabat yazmaq, nüsxəsini öz kuratoruma, xüsusilə Ç.Qəraybəyova vermək lazımdır.

Xaricə ezamiyyət haqqında hesabatı əsər kimi, A.H.Qəhrəmanzadənin çap olunmuş əsərlərinin siyahısına qeyd etmək lazımdır: "*Telefon yüklənmələrinin və onun paylanmasının proqnoz parametrlərinin əsasında telefon şəbəkələrinin layihələndirilməsinin müasir üsullarının tədqiqi (Xaricə ezamiyyət haqqında hesabat)*". AzPİ. Bakı, 1981. 31 səh. [31].

Sonra, xarici şöbənin tapşırığı ilə həm kafedrada öz müəllimlərim, həm də bizim Politexnik institutunun Elektrotexnika fakültəsinin Şurası qarşısında məruzə etməli edim. İngiltərədən gətirdiyim çoxlu sayda rəngli slaydlardan istifadə edib, Aston Universitetindəki fəaliyyətim barədə prezentasiya ilə çıxış etdim.

Lakin kafedra və fakültədəki müəllimlərim qarşısında çıxışım, çox təəssüf, birmənalı qarşılanmadı, bu barədə uşaqlarımız hələ Moskvada xəbərdarlıq etmişdilər, qeyd etmişdilər ki, burada insan faktoru "*Niyə mən deyil, o*" prinsipi ilə rol oynayacaq.

Lakin etiraf etmək lazımdır ki, ətrafdakıların münasibəti müəyyən mənada dəyişdi, özü də sıravi müəllimlərin – yaxşı tərəfə, fakültənin rəhbərliyinin isə - əksinə.

Tezliklə məni Elektrotexnika fakültəsinin Həmkarlar İttifaqının sədri seçdilər və tez-tez ictimai tədbirlərdə iştirak etməli oldum, amma məni ən çox evə, ailəyə köməyə çəkirdi. Ailəmiz ikinci uşağı gözləyirdi.

İngiltərədən dönüşümdən on bir ay keçdi və evimizə yaxşı xəbər gəldi, Leyla qızımın 9 aprel 1983-cü ildə Həmid (*atam Həmidullanın şərəfinə*) adında balaca qardaşı dünyaya gəldi.

Leyla ilə ikimiz evi səliqəyə saldıq ki, anamızı və Həmidi Dəmiryolu Xəstəxanasının doğuş evindən qarşılayaq, 1978-ci ildə Leylamız da burada anadan olmuşdu.

İndi dörd nəfər idik, körpə qayğıları iki dəfə artmışdı, çox şeyi çatdırmaq lazım idi, yalnız ətə, yağa və digər yeyinti məhsullarına olan talon sistemi həyatı dözülməz edirdi. Və eyni zamanda Sov.İKP-nin bütün təbliğat maşını gündüz və gecə bəşəriyyətin böyük quruluşundan, kommunizmdən car çəkirdi.

O zamanların ən çox təkrarlanan lətifəsi isə Sov.İKP-nin "*ABŞ-ı qovub keçmək*" çağırışı haqqında idi. Ölkə borc içərisində üzürdü, amma biz hələ bütün dünyaya yardım edirdik və üstəlik, Əfqanıstanda büsbütün batmışdıq.

Lakin SSRİ-nin əsas problemi ateizm idi. Elm və texnikanın uğurları insanlara (*əsasən Sov.İKP komsomolu və partiya üzvlərinə*) özünə inam və müstəqillik ruhu aşılayırdı, nəticədə elan edirdilər ki, Allahdan asılı deyillər. Allahın yeri olmayan fəlsəfi və elmi şərhlərini qurarkən, Lüdviq Feyerbaxa, Karl Marksa, Çarlz Darvinə, Fridrix Nitşeyə, Ziqmund Freydə və digərlərinə istinad edirdilər.

Bu paraqrafın sonunda qeyd etmək istəyirəm ki, Birmingemdə (*Böyük Britaniya*) 1981-1982-ci tədris ilində mənə elə gəldi ki, müstəmləkələrin idarə edilməsi üzrə Britaniya konsepsiyası fəth edilmiş və faktiki tabelikdə olan ölkənin rəhbərliyi ilə onları siyasi və mədəni münasibətdə yaxınlaşdıraraq və "*bu müstəmləkələri dolayısı yolla idarə etmək*" üçün bənzərsizlik xülyalarını yaradaraq, əlaqənin qurulmasına gətirir.

Özünə cəlb etmənin əsas metodu Hisdistanın, Pakistanın, Honkonqun və Ərəb ölkələrinin gənclərinin (*bir qayda olaraq, zəngin ailədən*) müəyyən təbəqəsi idi. Görünür, bu, öz rejiminin əbədiləşdirilməsi məqsədilə Britaniya rasionalizmi tərəfindən və qərb sivilizasiyalarına öz üstünlüyünü göstərməyə can atırdı.

İstənilən imperiya kimi Britaniya da bu prosesə öz rejiminə dayaq kimi baxırdı. İngilis dili mahiyyətcə, demək olar ki, bütün üçüncü dünya regionları üçün Avropa təhsilli gəlmələrin ünsiyyət vasitəsinə çevrilirdi. Axı, bir qayda olaraq, ali təhsil bu ölkələrin əsasən feodal və ticarət və sənaye elitasının övladlarını əhatə edirdi. Bir çox gənc bu ölkələrin, belə desək, qızıl ehtiyatları ilə Britaniyanın universitet və kolleclərində ali təhsil alıb.

Britaniyanın yüzlərlə universitetinin birinci kurs tələbələrinin ən yaxşı müəllimləri çoxlu saylı gənc sarışınlar idi ki, aylarla üçüncü dünyanın varlı tələbələrinin hesabına dolanırdılar, onlara metropolisin əsas qayda və qanunlarını və eyni zamanda ingilis dilini öyrədirdilər. Özü də bu varlı uşaqlar çəkinmədən öz adları ilə deyil, "*Atam həqiqətən çox varlı adamdır*" ifadəsi ilə açıq-aydın vurğulayaraq, özlərini təqdim edirdilər, bunu isbat etmək üçün isə həmin sarışınları şampan vannasında çimdirirdilər.

Metropolisdəki azad həyata aludə olub, bəzən bu universitetləri 8-10 ilə bitirirdilər, öz ölkələrində yüksək qiymətləndirilən diplomları alırdılar, adətən real bilik və təcrübə olmadan. Əlbəttə bu, təbii seçimlə bura düşən tələbələrə aid deyildi.

*"İnternet – böyük biznes viaqrasıdır"*
Con Frensis Uelç (1935)

## 4.8. Telefon rabitəsi kimə lazımdır?

Danışıq siqnallarının elektrik siqnallarına çevrilməsi, onların məsafəyə ötürülməsi və sonra yenidən danışıq siqnallarına çevrilməsi danışığın telefonla ötürülməsi (*telefon əlaqəsi*) adlanır.

Şübhəsiz, telefon əlaqəsi kütləvi və mübaliğəsiz, vacib növüdür.

Telefon əlaqəsi həmçinin telekommunikasiyanın bir-birilərindən istənilən məsafədə yerləşən insanlara danışıq aparmaq imkanı verən ən əlverişli növüdür.

Telefon əlaqəsi həm stasionar sabit (*köhnə və nisbətən ucuz rabitə sistemi*), həm də mobil (*yeni, daha mürəkkəb və hələlik nisbətən bahalı rabitə sistemi*) olur.

Telefon şəbəkəsi həm ölkənin ərazisində, həm də onun xaricində yerləşən milyonlarla telefon aparatlarını, on minlərlə kilometr rabitə xətlərini, çoxlu sayda kanalyaradıcı və kommutasiya texnikasını və bir çox xüsusi avadanlığı birləşdirir.

Ona görə də müasir telefon şəbəkəsi telekommunikasiyanın digər növləri arasında ən iri və şaxəli şəbəkədir. Şəbəkənin qovşaq məntəqələrinin əsas funksiyası telefon məlumatlarının ötürülməsi yollarını yaratmaq üçün elektrik sxemlərinin birləşməsinə gətirir.

Və görünür təsadüfi deyil ki, dünyada istənilən ölkənin telekommunikasiya şəbəkəsinin inkişaf səviyyəsi həmin dövlətin inkişaf səviyyəsindən asılı olmayaraq, Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) və Beynəlxalq Valyuta Fondunun (*BFV*) tövsiyyəsi ilə 100 nəfərlik sabit telefonların sayına görə qiymətləndirilir və "*telefon sıxlığı*" adlanır [4-151, 148, 157, 160, 162, 161-260].

Mübaliğəsiz, iddia etmək olar ki, bu gün telefon rabitəsindən geniş istifadə etmədən heç bir istehsal, elmin inkişafı, mədəniyyət, təhsil prosesi və ümumiyyətlə bəşəriyyətin intellektual inkişafı mümkün deyil.

Telefon rabitəsi olmadan heç bir ölkənin etibarlı müdafiəsini təmin etmək olmaz və əsasən iqtisadiyyatın və xalq təsərrüfatının idarə edilməsində əvəzsiz rol oynayır.

Bir sıra ölkələrin telefon rabitəsi şəbəkəsinə yüz mindən bir milyona qədər (*inkişaf etmiş ölkələrdə isə on milyonlarla*) telefon aparatı qoşulmuşdur, bu gün isə mobil rabitə şəbəkəsi mövcuddur, onun sayı bir çox ölkələrdə sabit telefon rabitəsindən daha çoxdur.

Fiziki nöqteyi-nəzərdən telefon rabitəsi elektrik siqnalların köməyilə insan səsinin məsafədən ikitərəfli ötürülməsi və qəbulu və hər iki istiqamətin (*çıxan və daxil olan*) danışıqlarının təminatı üçün təyin olunmuşdur.

"*Telefon – telephony*" sözü yunan dilindən tərcümədə (*tele – uzaq və phone – səs*) "*uzaqdan səs*" deməkdir [245].

Rəsmi qəbul olunub ki, ilk dəfə səsli məlumatları elektrik siqnallarına və əksinə çevirən qurğu (*ixtira*) amerikalı alim Aleksandr Qrem Bell tərəfindən 1876-cı ildə icad olunub, bu da telefon rabitəsinin yaranmasının təməlini qoymuşdur [148].

A.Q.Bellin ixtirası abonentlərarası telefon əlaqəsi sisteminin təşkilinin başlanğıcına ilk siqnal oldu.

Əvvəlcə bu, ştepsel birləşdiriciləri olan primitiv kommutatorların köməyi ilə həyata keçirilirdi və abonentlər operatorlar (*telefonçu qızlar*) tərəfindən əllə birləşdirilirdi, sonra isə operatorların funksiyalarının yerinə yetirilməsində avtomatik əməliyyat prinsipləri tətbiq olundu.

Telefon rabitəsi sistemi çağıran abonentin səs telləri ilə yaranan və çağırılan abonentin eşitmə (*qulaq*) orqanı ilə qavranılan səsli (*akustik*) məlumatların məsafəyə ötürülməsi üçün təyin edilmişdir.

Lakin telefon rabitəsi telekommunikasiya növlərindən ən etibarlısına çevrilməmişdən əvvəl dünyanın bir çox alim və mühəndisləri bu ixtira üzərində işləməli oldular [4-151].

Beləliklə, rus alimi P.M.Qolubickiy 1883-cü ildə təkmilləşdirilmiş kömür tozlu mikrofona görə patent almışdır. O 1885-ci ildə telefon aparatlarının (*TA*) mikrofonlarının mərkəzi batareyadan təchizatı yollarını işləyib hazırlamışdır.

Sabit və dəyişən cərəyan dövrəsinin ayrılması üçün telefon aparatlarında kondensatorun istifadəsi və s. fikri digər rus alimi Q.Q.İqnatyevə məxsusdur.

Telefoniyada fiziki olaraq, fəzada yaranan səs dalğalarını məsafəyə ötürən elektrik siqnallarına çevirən qurğular ötürücülər kimi istifadə olunur.

Bu cür ötürücülər elektrik-akustiki dəyişdiricilər (*mikrofon*) adlanır.

Telefoniyada tez-tez kömür mikrofonlar tətbiq olunur, burada əsas funksional element iki elektrod arasındakı boşluğu dolduran kömür tozudur. Elektrodlardan biri hərəkətsizdir, isincisi isə membranla bərabər səs təzyiqinin dəyişməsinə uyğun rəqsi hərəkət edir.

Bu zaman tozun sıxlığı dəyişir, bu da onun elektrik müqavimətinin uyğun dəyişməsinə gətirir. Nəticədə dövrədən elektrik cərəyanı – siqnal keçir, onun parametrləri analoji olaraq, səsli məlumatların parametrlərinin dəyişməsindən asılı olaraq dəyişir.

Telefon rabitəsi sistemində qəbuledicilər qismində elektrik siqnalının səs dalğalarına əks çevrilməsindən istifadə olunur.

Bu cür qəbuledicilər elektrik-akustiki dəyişdiricilər (*telefon*) adlanır.

Telefonda dolamalı mildən ibarət elektromaqnit və hərəkətli element – metal membran vardır. Burada dolamaya siqnal verilir, onun təsiri altında membranı milə cəzb edən maqnit sahəsi yaranır. Siqnal kəsilmədən dəyişir və membran rəqsi hərəkət edir. Membranın bu hərəkətləri havada hissəciklərin rəqsinə gətirir ki, onlar da insanın qulağına səs kimi gəlir.

Əlverişli istifadə üçün mikrofonlar və telefonlar eyni korpusa, mikrotelefona konstruktiv birləşib.

Sistemin əsas elementindən – mikrotelefondan başqa abonentin rahatlığı üçün köməkçi qurğular da vardır ki, onlar qoşulma, çağırış və siqnalizasiya üçün zəruridir.

Abonentin istifadə etdiyi əsas və köməkçi elementlər telefon aparatına (*TA*) konstruktiv birləşmişdir. Bu gün TA müxtəlif cür ola bilər.

Operatorun çağıran və çağırılan abonentlərin telefon aparatları arasındakı əlaqəni əllə yaratdığı ilk kommutasiya qovşağı əl telefon stansiyası idi (*ƏTS*).

Kommutasiya cihazlarının köməyi ilə çağıran abonentdən çağırılan abonentə siqnalların keçməsi (*və son təkamül*) əlaqə kanallarını təmin edir.

Dünyada kommutasiya qovşaqlarının (*stansiyalarının*) qurulmasının növbəti təkamülü məlumdur, addım-addım, aşağıdakı səkkiz inkişaf mərhələsi ilə həyata keçirilirdi:

- yerli batareya ilə əl stansiyaları;
- mərkəzləşmiş batareya ilə əl stansiyaları;
- maşın sistemli stansiyalar;
- dekad-addım sistemli stansiyalar;
- koordinat sistemli stansiyalar;
- kvazielektron sistemli stansiyalar;
- elektron (*rəqəmsal*) sistemli stansiyalar;
- yeni nəsil şəbəkə (NGN) stansiyaları.

Qeyd etmək lazımdır ki, Azərbaycanda telefon rabitəsinin 125 illik inkişaf tarixindən (1886-2011) yalnız birinci mərhələ (*əl stansiyaları*) 60 ili əhatə edib (*görünür bu gün də ordu da istifadə olunur*), qalan mərhələlər isə daha tez keçirdi.

Fərəhlə etiraf edim ki, kommutasiya qovşaqlarının (*telefon stansiyalarının*) bütün bu yeddi inkişaf mərhələsini bizdə, Azərbaycanın telekommunikasiya şəbəkələrində görmək mənə nəsib olub.

Qeyd etmək istəyirəm ki, XX əsrin əvvəlində (*elə bu gün, XXI əsrin əvvəlində də*) Azərbaycanın neft sənayesi "*qara qızılın*" çıxarılma səviyyəsinə görə ABŞ-dan heç də geri qalmırdı.

Lakin Azərbaycanın müstəqil olmaması, feodal çar quruluşunun tərkibində olması, bu tükənməz sərvətdən – neftdən Azərbaycan xalqının rifahı naminə istifadə etmək şansını bizə vermədi.

Baxmayaraq ki, Azərbaycan XX əsrin əvvəlində Rusiya İmperiyasının birinci və əsas neft arteriyası idi, ölkəmizin iqtisadiyyatının inkişafı yoxsulluqdan xilas etmədi.

Şübhəsiz, Sobet İttifaqından az almadıq, xüsusilə ictimai planda (*təhsil və səhiyyə*), ancaq müsəlman respublikası olduğumuz Zaqafqaziya üzrə qonşularımıza münasibətdə aydın hiss olunurdu, hələ digərlərini demirəm.

İngilis atalar sözündə deyilir – tarix təkrar olunur və mən çox ümid edirəm ki, bu dəfə Azərbaycanımız dünyanın inkişafda olan ölkələr sırasından inkişaf etmiş ölkələr sırasına çıxacaq.

Bu gün sənayedə antiinhisarlaşma prosesi başlayıb, Azərbaycanın rabitə sahəsində özəlləşmənin mürəkkəb məsələlərini həll etmək lazımdır, amma onları ölkənin Milli Məclisi tərəfindən qəbul edilmiş Azərbaycanın telekommunikasiyasının inkişaf konsepsiyasına uyğun həyata keçirmək daha yaxşı olardı.

Telekommunikasiya sahəsinin özəlləşdirilməsi ilə əlaqədar, Azərbaycanın rabitəçilərinin qarşısında bu strateji sahənin bazar iqtisadiyyatına uyğun struktur idarə edilməsi mexanizminin yaradılması üzrə böyük məsələlər dayanır.

Azərbaycanda telekommunikasiyanın inkişafının və idarə edilməsinin elmi əsaslanmış metodlarının həyata keçirilməsi üçün sahənin inkişafının konseptual proqramlarının reallaşdırılmasının bir sıra yolları və üsulları vardır.

Bu, sahənin inkişafının son tendensiyasının dəqiq təhlilini və bugünkü real sektor məqsədlərinin tənzimlənməsini (*onlara nail olmaq yollarının seçimi ilə*) tələb edir.

Bu məqsədlərə nail olmaq üçün ən yaxşı vasitəsi həm bizdə, Azərbaycanda telekommunikasiyanın inkişaf tarixinin, həm də telekommunikasiyanın inkişafı üzrə dünya təcrübəsi və prinsiplərinin tədqiqidir, hansılarda ki, firmalar, şirkətlər və dövlətlər arasındakı münasibətlər öz əksini tapmalıdır [148,151].

Qeyd etmək istəyirəm ki, XX əsrin əvvəlindən dünyada telefon rabitəsi bazarının inkişafı üç istiqamətdə getmişdir:

- coğrafi ayrılmış sistemlər;
- şirkətlər arasında xidmət bölgüsü sistemi;

- dövlət inhisarçılığı.

Coğrafi ayrılmış sistemlər o ölkələrdə formalaşıb ki, onların dövlət idarəetmə strukturu (*Nazirlik, komitə, müstəqil komissiyalar, ixtisaslaşdırılmış İttifaqlar*) əksəriyyəti xüsusi olan yerli şirkətlərə və təşkilatlara söykənir. Bu ölkələrdə hökumətin müdaxiləsi, bir qayda olaraq, yalnız müstəsnadır (*ABŞ, Kanada, Finlandiya, Daniya və s.*).

Burada ölkənin bütün bazarı tənzimlənən inhisarçılıq yaradaraq, çoxlu sayda şirkətlər arasında bölünürdü ki, bu da tarif siyasətində istehlakçıların müdafiəsinə təminat verirdi.

Şirkətlər arasında xidmət bölgüsü sistemi İtaliyada, İspaniyada və s. qəbul olunmuşdur. Əvvəlcə bütün ölkə ərazisində müəyyən xidmətləri təmin etmək üçün inhisarçılıq hüququna malik telekommukasiya firma və şirkətləri əmələ gəlmişdi (*həm dövlət, həm də xüsusi*). Məsələn, İtaliyada bir firma ancaq yerli telefon şəbəkəsinə, digəri şəhərlərarası, üçüncüsü isə beynəlxalq rabitəyə xidmət edir.

Dövlət inhisarçılığı üçüncü istiqamətdir ki, burada istehsalçının bazarı ölkə ərazisindəki bütün xidmətlər sahəsində fəaliyyət göstərir. Bu prinsip Avropanın Böyük Britaniya, İsveç, Almaniya, Fransa, İsveçrə, Polşa, Rusiya və digər ölkələrində istifadə olunur [67].

Telekommunikasiyanın inkişafının bu üç istiqamətini təhlil edərək, demək olar ki, Azərbaycanda, Rusiyada və ümumiyyətlə MDB-nin bütün respublikalarında inkişaf üçüncü istiqamətlə həyata keçirilirdi [148].

Etiraf etmək lazımdır ki, dövlətin infrastrukturunun əsası kimi telekommunikasiyanın inkişafı, hər şeydən əvvəl, cəmiyyətin və ümumilikdə dövlətin sosial-iqtisadi və siyasi vəziyyətindən asılıdır.

Məlumdur ki, SSRİ-də avtoritar idarəçilik rejimi hökm sürürdü, ölkə və cəmiyyət informasiyanın yerdəyişməsi baxımından iyerarxik, çoxpilləli, piramida quruluşlu idi, kommunist partiyasının idarə etdiyi inzibati-amirlik sisteminə uyğun gəlirdi.

Sadəcə desək, Avropadan və bütün dünyadan fərqli olaraq, harada ki, bütün iş dünyası telefon rabitəsinin üstünlüklərindən, uzun məsafə rabitəsinin operativliyindən, kompanyonun səsinə inamdan faydalanaraq, öz biznesini aparırdı, keçmiş İttifaqda XX əsrin 60-cı illərinə qədər əsasən teleqraflaşma istifadə olunurdu ki,

onu da dövlət təhlükəsizliyi strukturlarının nəzarəti altında saxlamaq asan idi.

Bütün respublikalarda və ölkənin Mərkəzi Teleqrafında bütün ötürülən və qəbul edilən informasiyanın müntəzəm izlənməsi ilə məşğul olan Moskvadakı xüsusi laboratoriyalar əbəs yerə deyildi.

Yeri gəlmişkən, məhz dünyanın iki ölkəsində (*SSRİ-də və Çində*) teleqraflaşma rabitənin ən inkişaf etmiş sektoru idi.

Bu gün teleqraflaşma bir çox sosialist ölkələrindən, o cümlədən MDB-dən yavaş-yavaş itir. Ancaq Bakteleqraf-ı uçurdub, həmişəlik xüsusi monolit korpusu (*Zərifə Əliyeva küç., 41-də yerləşən 11 min kv.m. sahəli 1982-ci ilin tikintisi artıq sökülmüşdür*) əldən çıxartmaq nəyə lazım idi. Bakteleqraf quruluşunun əsasında (*təxminən 300 işçidən 20-si qalmışdı*) zəruri DATA-mərkəzləri yaratmaq lazım idi, daha bugünkü kimi, hər şeyi yenidən milyonlara layihələndirməklə deyil (*bəs texniki siyasət hardadır*).

Eyni zamanda hələ xilas ola bilmədiyimiz telekommunikasiya vəsaitləri hesabına dövlət inhisarçılığı (*Pribaltika ölkələri istisna olmaqla*) bütün dünya şirkətlərini zənginləşdirən və çox yaşadan böyük mənfəətin əldə olunmasına imkan vermir.

Və hətta indi də, bütün bu postsovet ölkələrində antiinhisarçılıq və ürkək (*bəlkə də vəhşi*) özəlləşmə (*özəl şirkətlər yaranır*) gedərkən, dünya inhisarçılığı sahənin fəaliyyətinin normal forması kimi təqdim edilir.

Sovet dövründə ilk növbədə rəhbər partiya, dövlət, təsərrüfat, hərbi təşkilatlar, həmçinin daxili işlər, dövlət təhlükəsizliyi, məntəqə polis və s. orqanlar telefon rabitəsi ilə təmin edilirdi.

İnformasiya mənbələrinə sərbəst giriş anlayışı yox idi, adi vətəndaşların və zəhmətkeşlərin maraqları nəzərə alınmırdı və bu, sovet dövrünün norması idi.

Mahiyyətcə, 60-cı illərin Xruşşov dövrünə qədər telefon rabitəsi başlanğıc halında idi və yalnız hakimiyyətin ən yüksək eşelonuna xidmət edirdi [148].

Çox şey həmçinin respublikalarda telefon rabitəsinin inkişaf probleminin həlli üçün rabitə sahələrinin rəhbərlərindən asılı idi, onların mentalitetindən, baxışlarının genişliyindən.

Misal üçün, Sovet Azərbaycanında və xüsusilə respublikanın paytaxtında, Bakıda telefon rabitəsinin yüksək inkişaf tempi keçən

əsrin 70-ci illərinin ortalarından 1990-cı ilə qədər baş verdi, Azərbaycan üzrə **100** sakinə düşən telefon apparatlarının sayı **9.47** idi [157].

Lakin analoji göstəricilər Pribaltika Respublikaları, Belarus, Ukrayna, Rusiya və Zaqafqaziyadakı qonşularımızda bizdən daha yaxşı (*təqribən iki dəfə çox*) idi.

Qeyd etmək istərdim ki, 1975-90-cı illərdəki müqayisəli sıçrayış ona görə baş verdi ki, telekommunikasiyada onun əsası hələ 1969-1975-ci illərdə qoyulmuşdu, o zaman rabitə sahəsinə Azərbaycanın istedadlı rəhbəri və böyük məmuru Nəsrullayev Nəsrulla Hidayət oğlu rəhbərlik edirdi.

Məhz N.H.Nəsrullayev respublikada telefoniyanın gələcək illər üçün inkişafı üzrə Azərbaycanda və SSRİ-nin Rabitə nazirliyində dəqiq planların və proqnozların yüksək səviyyədə qəbuluna təşviq göstərirdi.

Dünyanın əllidən artıq ölkəsində telekommunikasiyanın inkişaf vəziyyətinin təhlili göstərir ki, telekommunikasiyanın əsas inkişaf göstəricisinin artımı – telefon sıxlığı (*istənilən ölkənin 100 sakininə düşən telefon apparatlarının sayı*) orta hesabla adambaşına düşən milli gəlirin artım kvadratına mütənasibdir.

Məhz bu təhlil akademik A.A.Xarkeviçin fərziyyəsini təsdiq etdi, yəni ölkədə informasiyanın sayı ən azı ölkənin sənaye potensialının kvadratına mütənasib olaraq artır. Göstəmək lazımdır ki, müxtəlif sahələrdə informasiyanın sayı hər 5-10 ildə iki dəfə artır [67].

Bundan əlavə, Nəsrulla Hidayət oğlu Nəsrullayev Bakı Soveti vasitəsilə Bakı şəhərində Avtomatik Telefon Stansiyaları (*ATS*) üçün hər il xüsusi 2 və 3 mərtəbəli binaların tikinti planının təsdiqinə nail olmuşdu.

Bu layihəyə görə, Bakı şəhərinin yaşayış məntəqələrində tutumu 20 və 30 min nömrə olan ATS binalarının tikintisinə başlanıldı.

İnanmaq mümkün deyil, lakin Bakı şəhərinin baş planına, yaşayış məntəqələrinin inşasının artıq hazırlanmış layihələrinə məhz N.H.Nəsrullayevin sayəsində aşağıdakı xüsusi Avtomatik Telefon Stansiyaları binalarının tikintisi üçün dəyişikliklər edilmişdi: ATS-

31, ATS-21, ATS-71-73, ATS-74-76, ATS-32, ATS-38-39, ATS-94-95, ATS-61-62, 91, ATS-68-69, ATS-64, ATS-66-67 və s.

Azərbaycanın rayonlarında kənd telefon rabitəsinin geniş miqyaslı inkişafı da həmin illərdə planlaşdırılmışdı.

Bu sahənin istedadlı rəhbəri, əla təşkilatçısı (*necə deyərlər, Tanrıdan*), inadçıl idarəçi – Azərbaycanın rabitə naziri N.H.Nəsrullayev mahiyyətcə, 1969-1975-ci illərdə respublikamızın telefonlaşdırılmasında əsl sıçrayış etdi və artıq respublikanın rabitəçilərinin bir neçə nəsli onun barından faydalanır.

Həmçinin qeyd etmək lazımdır ki, telekommunikasiyanın inkişafının bu coşqun illərində Azərbaycanın Rabitə nazirinin tikinti və sahənin inkişafı üzrə müavini Əli-zadə Əli-saleh Qurban-əli oğlu xüsusi rol oynamışdır [148].

Ə.Q.Əli-zadə respublikanın nəinki yerli telefon rabitəsini, həm də teleqrafiyanın vəziyyətini, uzun məsafə rabitəsinin inkişaf səviyyəsini, radio, televiziya və Azərbaycan respublikasının bütün xətti təsərrüfatını yaxşı bilirdi.

Azərbaycanın Rabitə nazirinin müavini kimi, Ə.Q.Əli-zadə poçt rabitəsinə, Radio və Televiziyaya layiqincə nəzarət edirdi, Azərbaycanın rabitəçiləri arasında əsl nüfuza malik idi.

1965-ci ildən 1975-ci ilə qədər, Azərbaycanın Rabitə nazirinin tikinti üzrə müavini kimi, Ə.Q.Əli-zadə sahənin vəziyyətinin bütün incəliklərini bilirdi, həyatının son on ilində isə tikintiyə şəxsən nəzarət edirdi, bütün respublikanı, paytaxt Bakı şəhərindən başlayaraq, Azərbaycanın ən ucqarlarınadək gəzirdi.

Güman edirəm, Rabitə nazirinin əsl istedadlı üç müavinindən: *Axundov Bahadır Məmməd oğlu, Yusifov Sabir Məmməd oğlu*, Əli-zadə Əli-saleh Qurban-əli oğlu – əsas texniki mütəxəssis o idi.

Bu imkan verdi ki, rabitə təhsili olmayan, ancaq dahi menecer olan Azərbaycanın Rabitə naziri N.H.Nəsrullayev rabitə sahəsinin inkişafı üzrə qoyulan məqsədlərə addım-addım nail olmaq üçün bütün məsələləri həll etsin.

Kuratoru Əli-saleh Qurban-əli oğlu Əli-zadə olan Azərbaycanın Rabitə nazirliyinin xüsusi "*Azərrabitətikinti*" tresti tərəfindən bu istiqamətdə böyük işlər görülürdü.

Marat Allahverdiyevin rəhbərliyi altında Azərbaycanın "*Azərrabitətikinti*" tresti isə beşillikdə respublikamızın telekommunikasiyasının bütün əsas infrastrukturunu yarada bildi.

Məhz "*Azərrabitətikinti*" trestinə, İsmət Abdullayeviç Gözəlovun rəhbərliyi ilə Respublika Elektrik əlaqə və Radiolaşdırma Qovşağına, İbrahim Abdul oğlu Nəsirovun rəhbərliyi ilə Respublika Əsas Rabitə və Televiziyanın Texniki Qovşağına, Həsən Məmmədoviç Qafarovun və onun istedadlı baş mühəndisi Həsən Hüseynoviç Nəcəfovun rəhbərlikləri altında Beynəlxalq Telefon Stansiyasına, Fərrux Əmircanovun rəhbərliyi ilə Layihə-Araşdırma Kontorunun (*LAK*) kollektivinə görə, XX əsrin 80-ci illərinin axırına bütün Azərbaycanın əsas telekommunikasiya şəbəkəsinin bünövrəsi qoyulmuş və yaradılmışdır.

Bu sahənin yuxarıda adları çəkilən dörd istedadlı rəhbərlərinin rəhbərliyi altında Azərbaycanın bütün rabitə sahəsinin səyləri nəticəsində, mahiyyətcə, müasir müstəqil Azərbaycanın bütün telekommunikasiyasının və poçt rabitəsinin indiki əsas şəbəkə infrastrukturu və təməli yaradılmışdır.

*"Az və daha az barədə çox və*
*daha çox bilən – ekspertdir".*
*Nikolas Mürrey BATLER (1862-1947)*

# V. BMT-nin TELEKOMMUNİKASİYA ÜZRƏ EKSPERTİ

## 5.1. BMT-nin eksperti olmaq üçün sənədlərin verilməsi.

Böyük Britaniyadan (*İngiltərədən*) qayıtdıqdan sonra mənim elmi fəaliyyətimdə əsasən iki istiqamət görünürdü:

1. Telekommunikasiyada telefon sıxlığı və trafikinin proqnozlaşdırılması üsullarının təkmilləşdirilməsi;
2. "*System-X*" (*Böyük Britaniya*) Elektron-rəqəmsal kommutasiya sisteminin tədqiq edilməsi.

Ona görə də İngiltərədən döndükdən sonra – 1982-ci ildən 1992-ci il də daxil olmaqla, on il ərzində dərc olunmuş elmi əsərlər məhz bu iki istiqamət üzrə idi.

Böyük Britaniyadan sonra daha maraqlı işlərlə məşğul olmaq istədim və ona görə 1982-ci ilin sentyabrında Azərbaycanın Rabitə nazirliyindən olan əvəzsiz məsləkdaşım, respublikanın rabitə nazirinin poçt rabitəsi üzrə müavini Sabir Məmmədoviç Yusifovla fikir mübadiləsi etməyi qərarlaşdırdım.

O Əfqanıstandan yenicə dönmüşdü və Azərbaycanın Rabitə nazirliyində əvvəlki vəzifəsinə qayıtmışdı.

Axşam saat altından sonra onun kabinetində görüşüb, bir neçə həyat planlarımdan ona danışdım.

Diqqətlə məni dinləyib, dedi:

- Abdul, bütün bu illər ərzində Kabulda işləmişəm və orada öz vəzifələrini ekspert qismində yerinə yetirən Birləşmiş Millətlər Təşkilatının (*BMT*) işçiləri ilə dəfələrlə rastlaşmışam. Və təxminən bir həftə əvvəl nazirliyimiz SSRİ-nin Rabitə nazirliyindən Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) xətti ilə BMT-ə ekspert qismində mütəxəssislərin hazırlanmasını təmin etmək haqqında məktub almışdır.

Sonra o daxili telefonla Azərbaycan SSR Rabitə nazirliyinin kadrlar şöbəsinə, Bəxtiyar müəllim Şahməmmədova zəng vurub xahiş etdi ki, həmin məktubu gətirsin.

Beş dəqiqədən sonra SSRİ-nin Rabitə nazirliyinin məktubu onun masasının üstündə idi. Məktubu mənə verib, əlavə etdi:

- Bir şey etmək lazım deyil, yalnız razılığın kifayətdir. Evdə məsləhətləş, əgər razılaşsan, özüm Moskvaya məktub yazacağam, sonra hər şey lazım olduğu kimi gedəcək. Həftə ərzində cavabını gözləyəcəyəm, əgər razı olsan, SSRİ-nin Rabitə nazirliyinin Xarici əlaqələr İdarəsinə öz imzamla tövsiyə məktubu göndərəcəyəm.

Evə gəlib, həyat yoldaşıma hər şeyi danışdım və həmişə olduğu kimi, Subi dedi:

- İrəli, necə deyərlər, "*dayanmaq ölümə bərabərdır*".

Ali təhsildən, aspiranturadan və xarici elmi təcrübədən sonra telekommunikasiya üzrə əsas biliklərimin yeni, sonuncu inkişaf mərhələsinə - beynəlxalq telekommunikasiya üzrə ekspert olmağıma qərar verdim, bu da məndən tam iki il öz üzərimdə intensiv hazırlıq tələb etdi.

Üç gündən sonra respublikanın rabitə nazirinin poçt rabitəsi üzrə müavini Sabir Məmmədoviç Yusifovla yenidən dörüşdük və ondan Moskvaya tövsiyə məktubunu göndərməsini xahiş etdim.

O, həyatımın bu yeni mərhələsinə razılıq verdiyim üçün şad oldu və on gündən sonra onun yanına gəlməyimi xahiş etdi.

Düz bir həftə yarımdan sonra yenidən Sabir Məmmədoviçin yanında idim. Söylədi ki, Moskvada məktubu alıblar və SSRİ-nin Rabitə nazirliyinin Kadrlar idarəsində məni gözləyirlər. Onlar özləri İttifaqın Rabitə nazirliyindən Politexnik institutunun rektoruna rəsmi dəvət məktubu göndərəcəklər.

Həqiqətən, heç iki həftə keçmədi, məni rektorluğa çağırıb xəbər verdilər ki, SSRİ-nin Rabitə nazirliyindən Azərbaycanın Təhsil Nazirliyinə Dövlət teleqramı daxil olub, mənim Moskvaya, Rabitə nazirliyinin Kadrlar idarəsinə BMT-nin ekspertlərinin hazırlıq kurslarında təlim keçmək üçün ezam olunmağımı xahiş edirlər.

Rektorluqda bu məktubdan hər kəs şokda idi, amma sonra məlum oldu ki, belə məktub bütün SSRİ üzrə qırxdan çox mütəxəssisə göndərilmişdir.

İrəli qaçaraq, söyləyim ki, qırx nəfərdən yalnız beşi Rabitə nazirliyinin və SSRİ-nin elm üzrə Dövlət Komitəsinin bütün hazırlıq mərhələlərindən keçdi. 1983-cü ilin iyul ayında BMT-nin çoxsaylı

prosedur və kurslarından sonra məni SSRİ Nazirlər Sovetinin və Sov.İKP MK-nin Qərarı ilə Sovet İttifaqından telekommunikasiya üzrə ekspert qismində Cenevrədə Beynəlxalq Telekommunikasiya İttifaqına (*International Telecommunication Union – ITU*) rəsmi təqdim etdilər.

Həmin ilin sentyabr ayında isə Birmingemin Aston Universitetindən olan elmi rəhbərim, professor Con Flad Moskvaya, sonra isə mənim yanıma, Bakıya bizə qonaq gəldi.



Şəkildə: soldan sağa – professor V.İ.Neyman, miss və mister Con Flad və mən onların arasında. Bakı, 1983-cü il.

1984-cü ilin noyabr ayında Sovet İttifaqının Ali Attestasiya Komissiyası (*AAK*) mənə – Qəhrəmanzadə Abdul Həmidulla oğluna "*Elektrik rabitəsi*" kafedrasının dosenti elmi adını və DC № 076989 saylı diplomunu verdi.

Moskvaya ən uzun ezamiyyə CODEVTEL (*Course of Development of Telecommunication*) kursları ilə bağlı idi, BMT-nin yerli ekspertləri B.N.Fyodorov və S.B.Yakovlev tərəfindən 1986-cı ilin 20 oktyabr tarixindən 1 noyabr tarixinədək Beynəlxalq Telekommunikasiya İttifaqının (*International Telecommunication Union – ITU*) himayəsi altında keçirilirdi.

Bundan sonra məni Xarici iqtisadi əlaqələr nazirliyində rəsmi təqdim etdilər, burada çox savadlı və ciddi mütəxəssis Şamil Xayrulinin nəzarəti altında idim.

Həmin illərdə Rabitə nazirliyindəki kuratorum Boris Nikolayeviç Fyodorov idi, o radist idi, Cenevrədə International Telecommunication Union-da təxminən beş il çalışmışdı.

SSRİ-nin Rabitə nazirliyinin kadrlar şöbəsində xüsusi qayğını, şübhəsiz, şəxsi kuratorum, nazirliyin Kadrlar idarəsinin rəis müavini M.A.Rıjovdan hiss edirdim.

O sovet illərində bu üç kuratorun öz işinə fədakarlıqları məni çox heyrətə gətirirdi. Müvafiq blank və ərizələrin tələb olunan yuxarı təşkilatlar üçün doldurulmasını tamamlamaqdan ötrü öz iş yerlərində əlavə saatlara qalmağa tənbəllik etmirdilər, həmişə xeyirxah idilər...

Görünür, buna görə bu alicənab insanlar yadımdadır...

Moskvada qarşıma qoyulan qəribə şərtlərdən biri də sürücülük vəsiqəmin olması idi. Avtomobilimin olmadığını deyəndə gülümsəyərək onlarda da olmadığını söylədilər, lakin deklarasiyalarında məni normal imkanları olan bir mütəxəssis kimi göstərməli idilər.

Bakıda üç aylıq sürücülük kurslarına yazılmalı oldum, kursu bitirəndən sonra mənə beynəlxalq vəsiqə verdilər, bu vəsiqəni BMT-nin eksperti qismində çalışdığım üç ölkədə özümlə gəzdirmişəm (*Əfqanıstan, Liviya və Pakistan*).

Sənədlərimi verdiyim ilk ölkə Qana idi, amma orada ingilis və fransız dilini bilmək tələb olunurdu.

Yay tətilindən sonra, yani 1984-cü ilin sentyabr ayında institutumuzun həmkarlar ittifaqının sədr müavini, çox cazibəli, ünsiyyətli və işgüzar, Fəxrəddin Seyidov Elektrotexniki fakültənin həmkarlar ittifaqının sədri kimi məni yanına çağırdı.

Tanış olduqdan sonra ölkəmizdəki təhsil barədə məruzə hazırlamağında ona köməklik göstərməyimi xahiş etdi.

Nəzərə alsaq ki, bu ilk görüşümüz idi, imtina etməyim yaxşı olmazdı, ona görə də soruşdum ki, məruzə nə vaxta hazır olmalıdır və neçə dəqiqə davam etməlidir.

Dedi ki, bir həftədən sonra Gəncə şəhərində çıxış etməlidir, ona görə də hazırlığa dörd gün qalıb, məruzə isə 5-6 dəqiqə davam etməlidir.

Razılaşdım, vidalaşıb getdim.

Üç gündən sonra CONSUL – Çexiya istehsallı çap makinamda mətni çap etdiyim dörd səhifəlik məruzəni ona gətirdim və dedim: - Anladığım qədər siz çox tez danışırsınız və buna görə sizə 3-4 səhifəlik məruzə lazımdır.

Fəxrəddin məruzəni götürüb, yanımda axıradək oxudu, mənə baxıb dedi: - Mənə demişdilər ki, sən çox hazırlıqlısan, hər dəfə partiya və həmkarlar ittifaqının iclaslarında çıxış edirsən, indi mən özüm buna əmin oldum. Mənə səmimiyyətlə təşəkkür etdi.

Getmək istəyəndə məni saxladı ki:

- Abdul, mən hamıya bunu söyləmirəm, amma sən birmənalı mənim xoşuma gəldin. Bəlkə sən burada, institutun Həmkarlar Komitəsində işləyəsən?

Gülümsəyərək, cavab verdim:

- Bilirsiniz, Fəxrəddin müəllim, axı mən Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə BMT-yə ekspert qismində gedirəm və istənilən vaxt məni çağıra bilərlər, yuxarı təşkilatlar qarşısında müəyyən öhdəliklərim var, onları pis vəziyyətdə qoya bilmərəm. Yəni düşünürəm ki, bunu etmək lazım deyil.

O, gülümsəyərək:

- Abdul müəllim, axı bu sənədlərdə Həmkarlar Komitəsinin də imzası vardır, ona görə narahat olmayın və inan ki, AzPİ sizin kimi bacarıqlı və vicdanlı adamın Həmkarlar Komitəsinin sədri olmağından ancaq qazanar.

Vidalaşdıq və mən getdim, öz-özlüyümdə isə Allaha şükür etdim ki, keçib getdi, yoxsa məni yükləyəcəkdilər.

Ancaq üç həftə keçmədi, məni evdən institutun həmkarlar ittifaqına çağırdılar. Fikirləşdim ki, daha qətiyyətlə imtina etmək lazımdır. İçəri girən kimi Fəxrəddin müəllim AzPİ-nin Həmkarlar

İttifaqının sədri, Xarici tələbələr üçün rus dili kafedrasının müdiri Tamilla xanımla tanış olmağımızı təklif etdi.

Tamilla xanım dedi:

- Fəxrəddin müəllim, biz Abdul müəllimlə çoxdan tanışıq, o bizim birinci kurs tələbələrimizin sevimlisidir, onlara "*İxtisasa giriş*" fənnindən mühazirə söyləyir, xarici tələbələr də ondan çox razıdırlar, deyirlər ki, Abdul müəllimə görə onlar kim olacaqlarını və seçdikləri ixtisas haqqında hər şeyi bilirlər.

Fəxrəddin müəllim, gülümsəyərək:

- Görünür, hamıdan sonra Abdul müəllimi mən tanımışam... (*özünə gəlib*) Bəli, yuxarı gedək, bizi partiya komitəsində gözləyirlər.

Təəccübləndim və maraqlandım: - Nəsə olub?

- Gedək, öyrənərsən.

Həmkarlar İttifaqından çıxanda Tamilla xanım baş barmağını yuxarı qaldırıb, dedi:

- *Fəxrəddin, afərin, sənə beş.*

İkimiz ikinci mərtəbəyə qalxıb, partiya komitəsinə girdik. Orada bizi institutun partiya təşkilatının sədr müavini Malik müəllim qarşıladı.

O bizimlə ürəkdən salamlaşdı və Fəxrəddinə dedi:

- Biz onu iki dəfə xarici ezamiyyəyə göndərmişik, artıq Böyük Britaniyada olub, axırıncı dəfə isə Qanaya verib.

Mən deyilənləri təsdiq etdim, lakin öz fikrimi söyləyə bilmədim, çünri otağa partiya təşkilatının sədri Əli Tağıyeviç Nağızadə daxil oldu, qısa boylu, sağlam, kəskin baxışlı. Salamlaşıb, dedi:

- Siz artıq toplaşmısınız, yaxşı! (*Mənə müraciət edib*) Bir yerdə işləyəcəyik. (*Gözlərimdəki çaşqınlığı görüb, Fəxrəddin müəllimə müraciət etdi*) Nədir sən onu xəbərdar etməmisən?

Fəxrəddin: - Düşünürəm, siz desəniz, daha yaxşı olar.

Əli Tağıyeviç: (*mənə*) Bilirsən, mən özüm də xaricdə işləmişəm, amma hamı oradan müsbət xüsusiyyətləri ilə qayıtmır. Sənə afərin, Fəxrəddin müəllim ilə razıyam, səni institutun Həmkarlar İttifaqının sədri seçəcəyik. Bizi rektor gözləyir, birlikdə rektorluğa gedək.

Onu saxlayıb, xəbərdarlıq etdim: - “*Amma siz bilirsiniz, BMT-nin eksperti olacağam, istənilən vaxt məni çağıra bilərlər*”.
O: - Abdul, əgər səni dövlət göndərirsə, səni kim saxlaya bilər? Ancaq bu nə zaman olacaq – Allah bilir. Amma bu sahə “*axsamayacaq*”, ona görə də gedək rektorun yanına, Mirzə Eyyuboviç bizi gözləyir.

Məcburən, başımı aşağı salıb, rektorun yanına yollandım.

Artıq axşam saat altı idi və rektorun yanına qapını döymədən girdik, deməli o bizi gözləyirdi.

Otağa elə yeni daxil olmuşduq, rektor dedi:

- Mən demişdim, o bizim fakültədəndir. Onun namizədlik müdafiəsi də, İngiltərəyə səfəri də yaxşı yadımdadır, bu cavan oğlan institutda üçüncü şəxs olacaq. (*Arxadan şalvarını çəkib, davam etdi*) Əminəm, o institutun yaxşı Həmkarlar İttifaqının sədri olacaq.

Mən: - *Mirzə Eyyuboviç, BMT-nin eksperti olacağam, ümid edirəm, bu təyinat mənə mane olmayacaq.*

- Bu bizə əngəl deyil, nə vaxt dəvət edərlər, o zaman buraxarıq. Hazırda komitə sədrinin işini qaldırmaq lazımdır və bunu sən edəcəksən. (*Əli Tağıyeviçə üz tutaraq*) Sabah Oktyabr rayon partiya komitəsində bütün rəsmiyyəti keçsinlər, siz isə Abdul müəllimin seçilməsi üçün hesabat-seçki yığıncağı təyin edin. Bu iş bitdi, gedin! Bu çox yaxşı seçimdir!

Evə gəlib hər şeyi yoldaşım Subiyə danışdım. O, BMT-nin eksperti olmaq üçün nə qədər güc sərf etdiyimi bildiyindən, soruşdu:

- Bu sənin BMT-nin eksperti işinə mane olmayacaq?

Bu sualı həm partiya komitəsinin sədrinə, həm institutun rektoru Bağırov Mirzə Eyyuboviçə verdiyimi bildirib, onu sakitləşdirdim. Mane olmayacaqlarına söz verib, əmin etdilər ki, bu dövlət məsələsidir.

Səhər saat onda Həmkarlar komitəsində idim, burada məni Fəxrəddin müəllim gözləyirdi. O dedi ki, Oktyabr rayon partiya komitəsinin ikinci katibi Marqarita Əşrəfovna Əhmədova məni gözləyir.

Rayon komitəsinə piyada getdim, ikinci mərtəbəyə qalxdım və Marqarita Əşrəfovnanın yanına girdim. Söhbəti o açdı:

- Nədi, xaricə ezamiyyədən sonra yükləyirlər?

- Amma bilirsiniz, BMT-nin eksperti olacağam. Əgər məni hansısa bir ölkəyə sahə sınağına çağırsa nə olacaq? Mən imtina edə bilməyəcəyəm, özünüz bilirsiniz.

- Əlbəttə, imtina etmək olmaz, bizə də imtina etmək olmaz. Fikirləşirsiniz, əgər institutunuzda 1200 müəllim varsa, hər hansı birini seçmək olaq? Yox əzizim, sizə etibar edirlər, deməli, inanırlar, bu etibarı doğruldun. Belə ki, rayon partiyasından problemsiz keçdin, əbəs yerə səni Böyük Britaniyaya göndərməyiblər ki. İndi instutut üçün işlə, narahat olma, sən hazırlıqlı yoldaşsan, hər şey yaxşı olacaq. İrəli!

O telefonun dəstəyini qaldırıb, zəng etdi və gülümsəyərək, dedi:

- Əli Tağıyeviç, əla namizəddir, seçki gününü təyin edə bilərsiniz, bizdən Pirimov Eldar müəllim olacaq. Sizə uğurlar!

Dəstəyi qoydu, bu zaman otağa Eldar Pirimov daxil oldu, salamlaşıb, mənə çox ciddi dedi:

- Siz artıq söhbət etmisiniz, mən sizin partiya komitəsinin sədrinin zəngini gözləyirəm.

Mən onlarla vidalaşdım və Politexnik institutuna getdim.

Orada məni Fəxrəddin müəllim gözləyirdi, dedi ki, saat üçə Azərbaycan respublikanın Həmkarlar İttifaqın Şurasında (AHİŞ) Ali Təhsil Müəssələrin (ATM) Həmkarlar İttifaqlarının sədri Ədilə xanım Heydərova bizi gözləyəcək.

Düz saat üçdə onun yanına getdik, sözün əsl mənasında zərif və çox xeyirxah xanımdı. Fəxrəddin müəllim məni təqdim etdi, o isə - nə yaxşı ki, gənclər bu cür vəzifələrə gəlib çıxırlar, - dedi və öhdəsindən gələcəyimi ümid edərək, öz razılığını ifadə etdi:

- *Axı mən BMT-nin eksperti olacağam, ümid edirəm ki, bu seçki mənə mane olmayacaq.*

Ədilə xanım çağırılanda kömək edəcəyini bildirdi.

İlk dəfə Azərbaycanın Rabitə nazirliyində birinci rəhbərim Mişin Nikolay Stepanoviçin məşhur sözlərinin mənasını başa düşdüm, o tez-tez təkrarlayırdı: "*Əsas odur qarşına qoyduğun məqsədlərin ssenarisi olsun, onları yerinə yetirmək heç nədir*".

Həqiqətən, mən AzPİ-nin Həmkarlar Komitələrinin sədrlərinin məlumatlarını iki-üç günə oxudum və Elektrotexnika Fakultəsinin (ETF-in) Həmkarlar Komitəsinin sədri kimi mənə söz

verdiklərində dinləyicilərin etibarını qazanmaq üçün artıq nə deyəcəyimi və necə çıxış edəcəyimi təsəvvürümə gətirirdim, onda onlar mənə asanlıqla səs verə bilərlər.

Ertəsi gün institutun xolunda AzPİ-nin Həmkarlar Komitəsinin hesabat-seçki yığıncağı haqqında elanı gördüm.

Yığıncaq gündüz saat on birdə başladı, sədrin əvəzinə onun müavini, Fəxrəddin müəllim çıxış etdi. Yığıncağı AzPİ-nin partiya komitəsinin katibi aparırdı.

Fakültələrin həmkarlar komitələrinin sədrlərinin çıxışları başlandı. Mən axırıncıdan əvvəl çıxış edəcəkdim. Rektor özü də prezidiuma qalxdı.

Təəccüblü olsa da, hər şey çox rahat gedirdi. Nəhayət həlledici an gəldi. Əli Tağıyeviç Nağızadə möhkəm səsilə dedi:

- Biz bu məsələyə institutun rəhbərliyi və ağsaqqallar şurası ilə baxdıq, 27 nəfərdən ibarət həmkarlar komitəsini aşağıdakı tərkibdə sizə təklif edirik:

O bütün siyahını oxudu, mənim də soyadım vardı – Qəhrəmanov Abdulla Həmidulla oğlu, "*Elektrik rabitəsi*" kafedrasının dosenti – Elektrotexniki fakültənin həmkarlar komitəsinin sədri. Sonra o iştirakçılara müraciət etdi:

- Kimin təklifi var?

Professor Salman müəllim Qarayev qalxdı və dedi:

- *Mirzə Eyyuboviç, siz məni yaxşı tanıyırsınız, həmişə fikirləşdiyimi söyləmişəm. Afərin sizə! Bu cür tərkib! Bu əladır! Xahiş edirəm, dərhal qapalı səsverməyə keçək.*

Bir saatdan sonra səslərin sayı bilindi. İki nəfərdən başqa (*mənim kafedramdan idilər*) hamı mənə səs vermişdi.

Sonrakı mərhələ institutun həmkarlar komitəsinin sədrinin seçilməsi idi. Bu məqsədlə siyahıya daxil olanlar (*27 nəfər*) institutun həmkarlar komitəsinə getdilər.

Sözü institutun partiya təşkilatının katibi Əli Tağıyeviç Nağızadə aldı. O çox qısa çıxış etdi.

- *Hamınızı institutun Həmkarlar Komitəsinə (HK) seçilməyiniz münasibətilə təbrik edirəm. Bu məsələyə rektorluqda baxmışıq və ümumi fikrimiz – HK-nin sədri vəzifəsinə t.e.n., "Elektrik rabitəsi" kafedrasının dosenti, Elektrotexniki fakültənin*

*həmkarlar komitəsinin sədri Qəhrəmanov Abdulla Həmidulla oğlu təklif olunur. Kim lehinədir, əlini qaldırsın.*

Əyləşən 26 nəfərin hamısı əlini qaldırdı, Əli Tağıyeviç isə mənə tərəf dönərək, dedi: "*Abdul müəllim, əgər siz də əlinizi qaldırsanız, yekdil olacaq*".

Mən də əlimi qaldırdım. O isə: - Deməli ekdildir!

İlk iş günü səhər saat doqquzdan başladı və həmişə olduğu kimi, mən işə saat doqquza on beş dəqiqə qalmış gəldim.

Aydın oldu ki, həmkarlar komitəsinin katibəsi işdən çıxıb, sənədlərin yerində olduğunu yoxlamağa qərar verdim.

Məlum oldu ki, həmkarlar komitəsində kargüzarlıq "*axsayır*".

Bundan əlavə, heç bir kafedranın, xüsusilə də fakültənin həmkarlar ittifaqının üzvləri haqqında məlumat yoxdur.

Otağımda ilk zəng çalındı. Dəstəyi qaldırdım və ümumi şöbənin müdiri Xədicə xanım Fərzəliyevanın tanış incə səsini eşitdim. O seçilməyimlə əlaqədar məni ürəkdən təbrik etdi və əmin etdi ki, bu işdə hər bir şeydə qardaşına (*yəni mənə*) kömək edəcək və dəstək verəcək.

Sonra məni görmək istədiyini söylədi və yanıma gəlmək üçün icazə istədi. Qəti dedim ki, özüm bacımın yanına gələcəm.

O sevinərək güldü və dedi: - Çox sağ ol, qardaş.

Beş dəqiqədən sonra onunla əyləşib, dünənki yığıncaq barədə çox şirin söhbət edirdik: "*Bilirsən, Abdul müəllim, axı bütün ssenari tam məxfi saxlanılırdı və səni seçəcəklərini bilmirdim. Amma sən müzakirələrdə çıxış edəndə mən bizim kadrlar şöbəsinin müdiri Elvira xanım Hətəmzadəyə dedim: - Bizə bax beləsi Politexnikin həmkarlar komitəsinin sədri lazımdır*".

Bu zaman qapı döyüldü və gözüyaşlı bir qız Xədicə xanımın otağına girməyə çalışdı.

Onu görüb, Xədicə xanım əli ilə işarə edərək, bir saatdan sonra yaxınlaşmasını xahiş etdi. Qız çevrilib getdi.

Sonra Xədicə xanım daxili telefonla Elvira xanıma zəng etdi və otağında olduğum üçün ona da gəlməsini xahiş etdi.

Elvira xanım Hətəmzadə gəldi, təmtəraqlı və yaxşı qulluq görmüş. ÜŞ-nin müdiri ilə belə dost olduq. Təxminən yarım saat söhbət edib, vidalaşdım və öz otağıma qayıtdım.

Yolüstü ikinci mərtəbədə Xədicə xanımın otağına girməyə çalışan həmin gözüyaşlı qızla rastlaşdım. O institutun elmi Şurasının katibinin qapısına söykənərək dayanmışdı və acı-acı ağlayırdı.

Ona yaxınlaşıb, salam verdim və kimin onu incitdiyini soruşdum. O, başını qaldırmadan ağlamağa davam edirdi və institutun elmi Şurasının katibinin qapısını göstərərək, dedi:

- O məni işdən qovdu.

Ona mənimlə birinci mərtəbəyə, institutun həmkarlar ittifaqının sədrinin otağına getməyi təklif etdim.

O sözümə baxıb ardımca gəldi. Qapıya çatanda mən açdım və qıza daxil olmasını təklif etdim.

O qorxaraq mənə baxdı və dedi:

- Axı siz məndən böyüksünüz.

Onunla razılaşıb, otağa birinci daxil oldum. Ona iri beş metrlik stol arxasında əyləşməsini təklif etdim və haranı bitirdiyini soruşdum. Dedi ki, bizim institutun axşam şöbəsinin ikinci kursunda oxuyur. Onun adı Yeganə olduğunu öyrənib, Xədicə xanıma zəng vurub, dedim:

- Burada Yeganə adında qız əyləşib, işsiz qalıb, əgər razısınızsa, onda onu yanıma, həmkarlar komitəsinin katibəsi götürək.

- Oy, Abdul müəllim, hardan bildiniz ki, o mənim bacım qızıdır?

- Mən ğülərək qaraçı poçtundan.

Gəlin belə edək, indi o sizə yaxınlaşacaq, mənim yanıma necə təcili işə götürülməsini ona başa salarsınız.

- Çox sağ olun, Abdul müəllim, mən sizə borcluyam.

*"Dəqiq intizam – hər bir uğurun təməlidir"*
Edmund Börk (1729-1797)

## 5.2. İnstitutun həmkarlar komitəsində əmək fəaliyyətim

Ertəsi gün həmkarlar komitəsinin mühasibinə tapşırdım ki, AzPİ-nin həmkarlar komitəsi üçün bütün lazım olan dəftərxana ləvazimatlarının alınmasında Yeganəyə kömək etsin.

İnstitutun hər bir işçisi üçün həmkarlar ittifaqının şəxsi kartoçkasının tərtib edilməsi kimin və harada işlədiyini çox tez bilməyimdə mənə kömək etdi, həmkarlar komitəsində kargüzarlığın qaydaya salınmasına görə isə bütün zəruri sənədləri, o cümlədən Azərbaycan Həmkarlar İttifaqın Şurasından (AHİŞ) olan direktiv məktubları bərpa etməyə başladım.

Təxminən bir aydan sonra demək olar ki, hamıdan və hər şeydən xəbərdar idim və heç bir qovluğu olmayan həmkarlar komitəsinin sədrinin artıq iyirmiyə qədər xüsusi, o cümlədən fakültələr üzrə hesabat-seçki yığıncaqları haqqında qovluqları vardı.

Mənim üçün ilk gözlənilməz hadisə Respublika Nazirlər Sovetindən direktiv məktubla müəyyən işçinin adına alınan avtomobillərin (*"Jiquli" markalı*) növbədənkənar paylanması oldu.

Məlum oldu ki, ayda bir dəfə avtomobili institutun avtomobilinin olmaması və almaq üçün nağd pul verə bilməsi haqqında direktiv məktubu, DYTİ-dan arayışı olan işçisilərinə növbədənkənar vermək olar.

Sonra bu adamlara avtomobilin növbədənkənar ayrılması (*direktiv məktub əsasında*) və Əmanət Bankına avtomobilin pulunun köçürülməsi (*günorta saat üçə qədər*) haqqında həmkarlar komitəsinin qərarı verilirdi.

Bunların hamısını mənə Fəxrəddin müəllim başa saldı, amma həmkarlar komitəsində bunları təsdiq edən heç bir direktiv məktub yox idi.

Bir saatdan sonra Nazirlər Sovetinin sədr müavini zəng vurub, xahiş etdi ki, günorta saat birə qədər iki əməkdaşımızın avtomobil alması rəsmiləşdirilməlidir. Onu dinləyib, çox nəzakətli

tərzdə söylədim ki, bu hal üçün heç bir direktiv məktubum yoxdur. Ona görə də xəbərdar etdim ki, əgər mənə bu sənədlərin nüsxələri verilməsə, bu rəsmiləşdirmə ilə məşğul olmayacağam.

Görünür, o, institutun həmkarlar komitəsinin adi sədrindən, rayon komitəsinin hüququnda olsa da, bu cür cavab gözləmirdi. Beş dəqiqədən sonra rektor Mirzə müəllim zəng vurub, dedi ki, məndən şikayət edirlər. Cavab verdim ki, görüşəndə izah edə bilərəm. Rektor elə indi yanına gəlməyimi söylədi.

Mirzə Eyyuboviç məni yaxşı əhval-ruhiyyədə qarşıladı və izah etdi ki, avtomobillərin pulunu dövlət müəssisələrdə əmək haqqının verilməsi üçün istifadə edir. Camaat pulunu "*corabında*" saxladığından ölkədə dövriyyə yoxdur, camaatın isə maaşını vaxtında vermək lazımdır. Bütün bunları dinləyib, dedim:

- Mirzə Eyyuboviç, bu, avtomobilin növbədənkənar əldə olunmasına həmkarlar komitəsinin sədrinin razılıq verdiyi blankdır və gördüyünüz kimi, burada əsas imza Sizinkidır, bundan əlavə, burada həm həmkarlar komitəsinin sədrinin, həm də rektorun möhürü dayanır. İndi təsəvvür edin, sabah yuxarıdan hansısa bir yoxlama gəlsə, növbədənkənar paylanma haqqında direktiv məktub yoxdur. Mənə nə? Mən tərkibi 27 nəfərdən ibarət olan həmkarlar komitəsiyəm. Əgər onlar Sizə irad tutsalar, onda mən nə edəcəyəm? Ona görə də mənə bu direktiv məktublar lazımdır. Elə indi, əgər göstəriş versəniz, avtomobilləri bu şəxslərin adlarına rəsmiləşdirməyə başlaya bilərəm. Bəlkə birini də olsa çatdıra bildik? Nazirlər Soveti də bizə əvvəlcədən ərizə verməlidir, axı həmkarlar komitəsi 27 nəfərdən ibarətdir, kimisə xəstələnir, kimisə dərsdədir və s. Deməli, bəzi rəsmiyyəti gözləmək lazımdır, yoxsa problemlərimiz olacaq.

- Abdul, biz artıq yüzə qədər "*Jiquli*" paylamışıq, amma heç kim bunu mənə ağıllı-başlı izah edib, mənə başa salmyıd.

- Mirzə Eyyuboviç, mən keçmişi qurdalamağı sevmirəm, cavabdeh olduğum bu gün və sabah məni maraqlandırır. Mən hər şeydən əvvəl institutumuzun nüfuzunun qeydinə qalıram, istəmirəm ki, tələsdiyimizə görə bizi cəzalandırsınlar.

Rektor məni dinləyib, Dövlət telefonunu qaldırdı və həmin sədr müavininə zəng etdi, salam verib, çox hörmətcil tərzdə bu direktiv məktubu bizə verməsini xahiş etdi və çalışıb saat üçə qədər kimisə banka göndərəcəyinə əmin etdi.

O (*sədr müavini*) görünür, söz verdi və rektora təşəkkür etdi.

Mən Həmkarlar komitəsinə endim və tez maşını bir müəllimin adına rəsmiləşdirdim və onu DYTİ-a avtomobilinin olmaması haqqında arayış üçün göndərdim. Ancaq o nəsə vurnuxmağa başladı ki, burada qayda belədir, həmkarlar komitəsinin sədrinə nəsə vermək lazımdır və s.

Dinləyib, dedim: - Şəxsən mənə sizdən heç nə lazım deyil, gedin və tezliklə lazımi sənədləri DYTİ-dan (*milisdən*) götürün.

O bu arayışla gələnə qədər protokolun nömrəsini göstərməklə, Politexnik institutunun rektorunun və həmkarlar komitəsinin sədrinin imzaları ilə şablon məktub hazırladım.

Bir saatdan sonra müəllim DYTİ-dan arayışla qayıtdı, arayışı və şablon məktubun nüsxəsini tikdim və müəllimi tələb olunan məbləği ödəmək üçün banka göndərdim.

Məlum oldu ki, "*Jiquli*"yə ikinci namizəd yox idi.

Bundan sonra bütün doqquz fakültənin həmkarlar komitələrinin sədrlərinə növbədənkənar maşın almaq istəyənlərin siyahısını hazırlamalarını tapşırmaq üçün zəng etdim.

Beləliklə bu prosesə fakültə həmkarlar komitələrinin sədrlərini də cəlb etdim, ən əsası isə, indi mən bir neçə saat ərzində lazımi məbləği ödəməyə qadir olanların adlarını və telefonlarını bilirdim.

Heç bir ay ötmədi ki, yenə üç nəfəri təcili "*Jiquli*" ilə təmin etmək tələb olundu, bu dəfə respublikanın Təhsil nazirliyindən.

Təhsil nazirinin müavini zəng edəndə, mən bütün vəziyyəti ona açıq şəkildə izah etdim, həmin direktiv məktubları tələb etdim və xəbərdarlıq etdim ki, əgər onları almasaq, onda AzPİ-nin həmkarlar komitəsinin sədri bu məsələlərə baxmayacaq.

O bu açıq danışıqdan şokda idi və AzPİ-nin rektoru Mirzə Eyyuboviç Bağırova şikayət edəcəyini söylədi.

Beş dəqiqədən sonra rektor "*Nə məsələdir?*" sualı ilə zəng etdi, cavab verdim ki, Nazirlər Sovetinin sədr müavini bizə avtomobillərin paylanması üçün əsas olan sənədləri göndərmədi, indi də aşağı dərəcəlilər zəng edir. Rektora qətiyyətlə söylədim ki, məsələni müvafiq təsdiqləyici sənədlər olmadan həll edə bilmərəm.

O görünür hər şeyi xatırlayib dedi ki, indi onlara özü zəng vurar. Hər ehtimala qarşı maşını ala biləcək adamlara zəng vurub onlardan avtomobillərinin olmaması haqqında arayış almaq üçün DYTİ-ya getmələrini və lazımi məbləği hazırlamalarını xahiş etdim.

Üç nəfər arayış dalınca gedənə qədər katibəyə tapşırdım ki, təcili bugünkü tarixlə həmkarlar komitəsinin protokolu üçün tələb olunan şablonu hazırlasın.

On dəqiqədən sonra rektor mənə birbaşa telefonla dedi:

- Abdul, onlar söz veriblər üç günə direktiv məktubları göndərəcəklər, bu dəfə hər şey elə, onların alınmasına özüm nəzarət edəcəyəm.

Bir saatdan sonra üç maşının üçü də paylanmışdı, bunun barədə rektorun və həmkarlar komitəsinin sədrinin imzası və möhürü ilə sənəd vardı.

Lakin bunların hamısını görüb, bütün sənədləri qaydaya salmaq, ardıcıllığı bir də yoxlamaq və s. qərarına gəldim.

Bəli, çox tezliklə AzPİ-nin həmkarlar komitəsinin sədri bütün məktub və sənədlərlə saat kimi dəqiq və səliqəli işləməyə başladı.

İki həftədən sonra daha 6 maşın daxil oldu, direktiv məktub isə yenə də yox idi. Rektora birbaşa telefonla zəng vurub, üzr istədim və dedim ki, bizi təhlükə altına qoyurlar, direktiv məktub yoxdur, onlar isə daha altı "*Jiquli*" göndəriblər.

Bir saatdan sonra rektorun sürücüsü gəldi və bu başıbəlalı direktiv məktubu gətirdi. Tez bir neçə nüsxə elədim, müvafiq qovluqlara qoydum və bir az sakitləşdim.

Həmkarlar komitəsinin sədri kimi heç bir fakültə və kafedra işlərinə demək olar ki, qarışmırdım, amma kafedra həmkarlar ittifaqı təşkilatçılarından və fakültə həmkarlar komitələrinin sədrlərindən

azmaaşlı işçilərdən nəinki bayramlar, həm də adi günlər üçün maddi yardım göstərilməsi haqqında ərizələri toplayıb mənə verilməsini sistematik olaraq tələb edirdim. Bu işdə mənə əsas köməyi bizim Sara xanım Abdullayeva göstərirdi.

İnstitutun həmkarlar komitəsinin sədri olduğum müddətdə heç kimə heç bir vaxt maddi yardım verməkdən imtina etmədim.

Yadımdadır, bir dəfə həmkarlar komitəsinin sədri qismində üzərimə rektorun həftə ərzində bir xanımın institutun qadınlar şurasının sədri vəzifəsinə namizədliyinin irəli sürülməsini hazırlamaq tapşırığını icra etmək kimi xoş vəzifə düşmüşdü.

Rektor belə də dedi: "*Cazibəli, maraqlı, məşhur və yaxşı olardı hansısa kafedranın professoru yaxud dosenti olsun*".

Bu məsələyə öz bildiyim kimi yanaşmağı qərara aldım və həmkarlar komitəsinə "*Elektrik rabitəsi*" kafedrasından, böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabirin (*Tahirzadə*) nəvəsi Məmmədova Arifə xanımı dəvət etdim və onunla söhbət etdim.

Sonra seçimim – Arifə xanım barədə rektora (*Mirzə Eyyuboviçə*) məlumat verdim.

O fikirləşib, soruşdu:

- O professordur?

- Xeyr.

- Dosentdir?

- Xeyr, "*Elektrik rabitəsi*" kafedrasının baş müəllimidir.

- Bəs niyə o?

- Mirzə Eyyuboviç, o, Mirzə Ələkbər Sabirin (*Tahirzadə*) nəvəsidir!

- Əla seçimdir! İnstitutun ümumi iclasını təyin et, on bir nəfərdən ibarət yeni Şura seç, onları həmkarlar komitəsinə apar, orada isə rektorluğun adından Məmmədova Arifə xanımı AzPİ-nin Qadınlar şurasının sədri elan et.

Bir həftədən sonra Arifə xanım Ç.İldırım adına Azərbaycan Politexnik institutunun Qadınlar şurasının sədri oldu.

Qadınlar şurasının üzvləri seçildilər: professor İsgəndərova; Rus dili kafedrasının müdiri, dosent Tamilla xanım; institutun

həmkarlar komitəsinin üzvü, bizim Abdullayeva Sara xanım; Qadınlar şurasının gələcək sədri Arifə xanım Məmmədova; AzPİ-nin dəftərxana müdiri Xədicə xanım; sevimli kimya müəlimim, dosent Məmmədova Gulya xanım və digərləri.

Bax belə, yumşaq desək, əvvəlcədən hazırlanmış ssenari üzrə bu proses başa çatdı. Çox təvazökar, alicənab, ağıllı bir qadın və gözəl pedaqoq olan Arifə xanımın AzPİ-nin Qadınlar şurasının sədri seçilməsinə mən də öz töhfəmi verdiyimə görə həmişə fəxr etmişəm...

Bir dəfə yanıma Eldar Atayev gəldi, Leninqradda müdafiə etmişdi və onu yaxşı tanıyaraq, kafedramıza qəbul etməyən kafedra müdiri Əlşan Həsənovdan şikayət edirdi. Söylədi ki, onun ərizəsi dəftərxanadan "*Elektrik rabitəsi*" kafedrasına daxil olub və Əlşan Həsənov dərkənar yazıb: "*Etiraz edirəm, yer yoxdur*".

Eldar Atayevin yanında Xədicə xanıma zəng vurdum və məktub barədə maraqlandım, o dedi ki, Əlşan ona etiraz edib.

Ondan xahiş etdim ki, qızlarla məktubu mənə göndərsin, belə ki, rektor Mirzə Eyyuboviçin yanına getmək istəyirəm.

Bir neçə dəqiqədən sonra rektorun yanında idim. O, mənim arqumentlərimi dinləyib (*kafedrada gənc alimlərə ehtiyacımız var və s.*), dedi:

- Bilirsən Abdul, Əlşan barədə yaxşı fikirdə idim. Mənim üçün sirrdir, niyə bu oğlanı tanıyaraq, onu beləcə kənara atır?

O məktubu götürüb, viza qoydu: "*Elektrik rabitəsi" kafedrasına elan edilmiş kafedranın assistenti vəzifəsinə götürülsün*". Rektora təşəkkür edib, məktubla bərabər həmkarlar komitəsinə düşdüm, Eldar Atayev məni orada gözləyirdi.

Lakin Xədicə xanıma aparmaq üçün məktubu ona verməmişdən əvvəl maraqlandım: "*Niyə Əlşan, uzun illərdir səni tanıyaraq, səninlə bu cür rəftar edir?*". O güman etdi ki, yəqin ondan nəsə istəyir.

Mən isə Eldara dedim: - Mənə heç nə lazım deyil, ged işlə.

Adətən Yeni il ərəfəsində həmkarlar komitəsinin işi artır: daxili tədbirləri keçirməyi, Respublikanın AHİŞ-dan yeni il biletləri paylanması və maddi yardım göstərməyi çatdırmaq lazım idı.

Qarşıda fevral və mart bayramlarının tədbirləri gəlirdi və həmkarlar komitəsi çox şeyi çatdırdı, əsasən də növbədənkənar avtomobillərin paylanmasını.

Həmin müddətdə rektor (*Bağırov M.A.*) Almaniyada idi, onun vəzifələrini isə prorektor Şükürov Rəhim müəllim icra edirdi.

O məni yanına çağırıb, dedi: "*Abdul müəllim, indicə Təhsil nazirliyindən zəng vurub xəbər verdilər ki, üç maşın daxil olub, sizdən xahişim var, onlardan birini bizim fizikimiz Rəhim müəllimə verin*". Etiraz etdim ki, artıq onun maşını var, R.Şükürov dedi ki, fizik dünən o maşını əmisioğluna satıb və maşınının olmaması haqqında DYTİ-dan arayışı var. Fiziki həmkarlar komitəsinə çağırıb, hər şeyi təşkil etməyə razılaşdım. R.Şükürov dedi ki, fizikə özü zəng vuracaq və dərhal bunu mənim yanımda etdi.

Öz otağıma endim və lazımi sənədləri hazırlamağa başladım.

Tezliklə Rəhim müəllim gəldi, DYTİ-dan arayışı mənə verdi və banka pulu ödəməyə hazır olduğunu dedi.

Bir neçə saatdan sonra daha iki nəfər rektor v.i.-nin imzası ilə sənədləşdirildi və onların protokolunu hazırladım.

Amma düz iki həftədən sonra rektor Almaniyadan qayıdanda institutda xoşagəlməz bir hadisə baş verdi. Politexnik İnstitutun müəllimlərindən biri əsəbi halda (*deyəsən əldəqayırma tapançası vardı*) kafedra müdirinə, sonra isə institutun tədris üzrə prorektoru Rəhim müəllim Şükürova hücum etdi.

Görünür stressdən prorektor Müalicə Komissiyasına düşdü.

Rektor baş verənlərdən narahat idi və institutda xoşagəlməz gərginlik hiss olunurdu.

Bu zaman məni partiya komitəsinə çağırıb, anonim məktubu (*Xalq Nəzarətindən*) göstərdilər, burada mənim tərəfimdən buraxılan pozuntu barədə xəbər verilirdi: Jiquli-03 olan müəllimə avtomobil vermişəm, indi onun Jiquli-06-ı da var.

Başa düşdüm ki, söhbət fizik Rəhim müəllimdən gedir.

Söylədim ki, işlərimdə (*qovluqda*) onun avtomobilinin olmaması haqqında DYTİ-dan arayışı var.

Lakin, təəccüblüsü o idiki, partiya komitəsinin Katibi olduqca ciddi şəkildə söylədi ki, bütün bu sənədləri partiya

komitəsinin partiya bürosunun üç üzvündən ibarət komissiyasına verim, qoy bunu onlar ayırd edsinlər.

"*Daxili yanacaqlı mühərrik*" kafedrasının dosenti Rizvan müəllim başda olmaqla, üç nəfərli komissiya Profkoma gəldi. Rizvan müəllim haqqında söz-söhbət gəzirdi ki, onu bir yerə göndərirlərsə, deməli oranı bəla gözləyir.

O komissiyanın iki üzvü ilə otağa daxil oldu. Hər üçü salamlaşıb, dedilər ki, institutun partiya bürosunun tapşırığı ilə şikayət üzrə yoxlama aparmalıdırlar.

Onlara salam verib, oturmalarını təklif etdim, xahiş etdim çay versinlər və dedim ki, şikayətlə tanış olmaq istəyirəm.

Rizvan müəllim mənə ciddi baxıb, hamıya masa ətrafında əyləşməyi təklif etdi, anonim məktubu çıxardıb, oxumaq üçün mənə verdi.

Məktubun məzmunu ilə tanış olub, onlara əvvəlcə məni dinləmələrini, sonra isə lazım bildikləri kimi hərəkət etmələrini təklif etdim. Rizvan müəllim dedi ki, bu məntiqlidir, özü də onlar İnstitutun həmkarlar komitəsində birinci dəfə deyil.

İzah etdim ki, Rabitə nazirliyi sahəsində 12 il işləmişəm və təbiətcə qayda-qanun sevirəm, lakin burada, bizim həmkarlar komitəsində onun fəaliyyətini səciyyələndirən hansısa sənədi olan bir dənə də qovluq tapmadım. Amma mən geriyə deyil, qabağa baxan adamlardanam, ona görə də həmkarlar komitəsinin keçmiş tərkibini, xüsusən də sədrini pisləmək istəmirəm. Artıq beş aydan çoxdur ki, bu vəzifədəyəm, Politexnik institutunun həmkarlar ittifaqı üzvlərinin yeni uçot sistemini (*pəncərənin yanındakı on iri dəliyi göstərdim*), həmçinin həmkarlar komitəsinin bütün fəaliyyətini əks etdirən kargüzarlığı (*iyirmiyə qədər qovluq*) yaratmışam. Bu qovluqlara baxmalarını təklif etdim, belə ki, komissiya onları maraqlandıran suallara burada cavab tapa bilər.

Burada Rizvan müəllim sözümü kəsib, maraqlandı ki, avtomobillərin verilməsi uçotu aparılırmı? Cavab verdim:

- Bəli, bu qovluqdadır. Burada nəinki bu beş ayın gündəlik işləri, həmçinin təhsil müəssisələri üçün növbədənkənar

avtomobillərin ayrılması qaydaları haqqında direktiv sənədlər də vardır. Burada avtomobillərin alınması üçün olan ərizələrin həm köhnə, həm də yeni uçot kitabı vardır.

Qovluğu çıxarıb, Rizvan müəllimə verdim və dedim:

- Xahiş edirəm, heç bir sənədi otaqdan çıxarmayın, lakin nə qədər istəsəniz oturub, onlarla işləyə bilərsiniz. Amma madam ki, söhbət bu qovluqdan düşdü, bu da fizik Rəhim müəllimə DYTİ-dan verilən arayış.

Komissiyanın üç üzvünün üçü də qalxıb arayışa baxdılar.

Sonra komissiyaya Azərbaycan Nazirlər Sovetinin müvafiq direktiv məktubunun nüsxəsini göstərdim.

Rizvan müəllim bu sənədin təsdiq edilmiş surətini aldı və diqqətlə hamısını oxudu. Sonra komissiyaya müraciət etdim:

- İndi, gördüyünüz kimi, əlinizdə institutumuzdan növbədənkənar "*Jiquli*" alan işçilərimizin siyahısı var. Onlarla görüşün və soruşun ki, bu necə baş verib. Yeri gəlmişkən, əgər kimə avtomobil verilməsi barədə qərar formasına diqqətlə baxsanız, görərsiniz ki, orada institutun həmkarlar komitəsinin sədri və rektorun imzası (*qolu*) var. Bundan əlavə, burada, gördüyünüz kimi, həm həmkarlar komitəsinin sədrinin, həm də rektorun girdə möhürü dayanır. Və, nəhayət, növbədənkənarların rəsmiləşdirilməsindəki bu tələsmənin səbəblərinə aydınlıq gətirmək istəyirəm. Bu əhalinin pulunun gecikdirilməsi ilə əlaqədar dövlətdə nağd pulun çatışmazlığıdır. Dövlət aylıq maaş üçün pul yığır, bu barədə Nazirlər Sovetinin direktiv məktublarında göstərilib. İndi, bir neçə izahdan sonra yoxlamaya başlaya bilərsiniz və xahiş edirəm, yoxlamaya bitəndən sonra nəticələrlə məni tanış edin.

Lakin axşam məni yenə partiya komitəsinə çağırdılar.

Burada fizikə növbədənkənar maşın verməkdə şəxsi marağımın olmasını müəyyənləşdirmək üçün mənə təzyiq etdilər.

Başa düşdüm ki, onlar nəyəsə qəzəblənirlər, mənə zərər vurmaq istəyirlər. Bütün bunlar daha on gün davam etdi və hətta partiya komitəsinin katibi buna vaxt sərf edirdi.

Və bir gün, iş gününün sonunda komissiyanın sədri Rizvan müəllim yanıma (*Profkoma*) gəldi və gizlicə dedi:

- Bilirsiniz, Abdul müəllim, komissiyamız yekdilliklə razılaşdı ki, Rəhim müəllimə "*Jiquli*"nin verilməsində sizin tərəfdən heç bir pozuntu yaxud, və başqa niyyətiniz olmayıb. Komissiyanın üzvləri "*Jiquli*" alan hər kəslə görüşüb və onlar hətda söyləyirlər ki, əvvəllər maşın alarkən, AzPİ-nin həmkarlar komitəsinin sədrinə hansısa xərclər üçün 1000 rubl verirdilər, lakin sizin beş aylıq fəaliyyətiniz zamanı bu olmayıb. Bundan əlavə, biz partiya komitəsinə məlumat verdik ki, institutun həmkarlar komitəsində hər şey, həmçinin kargüzarlıq da qaydasındadır, bütün qərarların əsası var və hamısı qeydə alınır. İstədim arayışın son variantını gətirib Sizə göstərim, amma partiya komitəsinin katibi icazə vermədi. Güman edirəm ki, bu sizə qarşı xüsusi hazırlanmış bir şikayətdir. Amma tamamilə narahat olmayın: birincisi, onların heç bir əsası yoxdur, ikincisi, mən olmadan bu məsələyə baxılmayacaq, mən isə haqsızlığa yol verməyəcəm.

Üçüncü həftə partiya komitəsinin katibi zəng vurub, məni xəbərdar etdi ki, axşam saat beşdə rektorun yanında olum.

Gündəliyimi götürüb, saat beş tamamda rektorun yanına girdim. Partiya komitəsinin katibi artıq orda idi.

Partiya komitəsinin katibi başladı: - Heç bilmirəm, necə edək? Bundan təkcə töhmət iyi gəlmir, Sov.İKP-nın sıralarından çıxarıla bilər.

Onlara baxıb, gülümsədim və dedim: - İşiniz, gücünüz yoxdur? Nə ilə məşğulsunuz? Sizə qan lazımdır? Bu ki gülməlidir.

Bu zaman otağa qapını döymədən tədris üzrə prorektor daxil oldu, hansı ki, fizik Rəhim müəllimə "*Jiquli*" verilməsini xahiş etmişdi. Hər üçümüzlə mehribanlıqla salamlaşdı və partiya komitəsinin katibinin yanında əyləşdi və görünür, gərginlik hiss edib, soruşdu: - Siz burada nəyə baxırsınız?

Bu zaman mən dözməyib, ayağa durdum və bərkdən dedim: - Bilirsiniz, Rəhim müəllim, görünür bu ikisinin işi, gücü yoxdur və istədikləri kimi əylənirlər.

Söylədim və otaqdan sağollaşmamış çıxdım.

Bir saatdan sonra rektor zəng vurub, yanına gəlməyimi xahiş etdi.

Getdim. Prorektor Rəhim müəllimlə əyləşmişdilər, qıpqırmızı, əsəbi idi, əlləri titrəyirdi.

Salam verib, əyləşdim.

Rəhim müəllim mənə üzünü tutub: - Abdul, onlar bir aydır ki, səni ələ salırlar, sən isə mənim xahiş etdiyimi söyləməmisən. Əsl kişisən.

- Rəhim müəllim, bu blanka qol çəkəndə mən də rektor kimi imzam üçün məsuliyyət daşıyıram. Nədir, rektor bilmir ki, onun imzası və girdə möhürü olmadan heç bir maşın verilə bilməz? Onlar uşaqdılar? Bir növ axmaq komissiya yaradırlar, partiya biletimi almaqla təhdid edirlər, elə bil bu biletimi onlar mənə veriblər. Axı bu yaşda adamlar belə etməzlər!

Rəhim müəllim gülümsəyərək: - Yaxşı, onlar unudublar ki, blank həm institutun rəhbərliyi, həm də həmkarlar komitəsinin sədri tərəfindən imzalanır.

Rektor susurdu, görünür, hər şeyi başa düşmüşdü.

Rektora üzümü tutub, soruşdum ki, mənə hansısa tapşırığı var? Rektor cavab verdi ki, - yoxdur, amma səni partiya komitəsinin katibi gözləyir.

Sağollaşıb, partiya komitəsinə getdim, orada isə Əli Tağıyeviç əyləşmişdi, qıpqırmızı idi. Mənə oturmağımı təklif etdi. İçəri girdim və əyləşdim. İki dəqiqə susdu, əli ilə başını tutmuşdu və nəhayət dedi:

- Bilirsən Abdul, düşünürdüm ki, sən mənim adamımsan. Sən isə bu işdə bir söz belə söyləmədin. Axı sən mənə o dəqiqə deyə bilərdin ki, bu prorektor Rəhim müəllimin xahişi idi.

Gülümsəyərək, cavab verdim:

- *Əli Tağıyeviç, birincisi, özünkülərlə belə davranmazlar. İkincisi, əgər siz məndən şəxsən xahiş etsəydiniz, bu barədə hamıya xəbər verməliydim? Və, nəhayət, "Jiquli" qanuni paylanıb, siz isə böyük bir komediya çıxartdınız. Bu yaxşı deyil.*

- O yenə dedi, düşünürdüm siz mənim adamımsınız.

Mən yenə təkrar etdim: - Əli Tağıyeviç, özünkülərlə belə rəftar etməzlər.

Və bu söhbəti bitirmək üçün soruşdum ki, mənə hər hansı bir sualınız varmı? Cavab verdi ki, yoxdur, gedə bilərəm. Onun yanından çıxıb, prorektorun otaqına getdim. İçəri girəndə Rəhim müəllim qalxdı, məni qucaqlayıb, öpdü və dedi:

- Sənə afərin! Bilirsən, xəbərim var, kim və nə üçün bu lənətəgəlmiş anonim məktubu yazıb. Mən onlara hər şeyi ətraflı danışanda işləri baş tutmadı. Qardaş, onları yaxşıca cəzalandırdın. Sənə afərin, dörd həftə boyunca onlara dözdün. Axı mən bu gün Müalicə komissiyasından çıxmışam, bilirsən, elə ancaq buraya, işə gəlmək istəyirdim, yaxşı ki, özümü çatdırdım.

- Narahat olmayın, onlar heç nə edə bilməzdilər, mən möhkəm adamam, ancaq indi təəssüf edirəm ki, bu cür insanlarla bir yerdəyəm. Onlar mənimlə yaxşı rəftar etmədilər. Buna Allah şahiddir, özünkülərlə belə davranmazlar.

Rəhim müəllim nəsə demək istədi, amma başa düşdü ki, onlar haqsız idilər, yalnız onu söylədi: - Müdrik ol, onları bağışla.

Bu hadisə həmkarlar komitəsindəki işimdə bir dönüş nöqtəsi oldu, məndə nəsə qırıldı və bilirdim ki, tezliklə buradan gedəcəyəm.

Tezliklə SSRİ-nin Rabitə nazirliyindən mənimlə əlaqə saxladılar. Öyrəndim ki, sentyabrda ekspert qismində Əfqanıstanda ilk sahə sınağından keçəcəyəm. Ancaq bunu 3 ay heç kimə demədim.

Lakin aprel ayında yeni xoşagəlməz hadisələr yaşandı. Mirzə Eyyuboviç Bağırov məni yanına çağırıb soruşdu ki, etibar etdiyim adamlarım varmı, çünki təcili bir dosentin evinə getmək lazımdır, belə ki, həmin adam bülleten bəhanəsi ilə Moskvadadır. Əgər bülletenin saxtalığı təsdiq olunarsa, onda o adamın tutduğu vəzifədən azad olunması barədə institutun həmkarlar komitəsinin sədrinin protokollaşdırılıb çıxartdığı qərar lazım olacaq.

Soruşdum ki, kimə getmək lazımdır? Cavab verdi ki, Fəlsəfə kafedrasından demaqoq dosent *Əşrəf Mehtiyevin* evinə.

Fəlsəfə kafedrasının həmkarlar komitəsinin sədri, bizim Abdullayeva Sara xanımı və AzPİ-nin həmkarlar komitəsindən daha bir nəfəri yanıma çağırıb, sakitcə, həyəcansız, tapşırığı izah etdim.

Üç saatdan sonra onlar qayıdıb məlumat verdilər ki, dosent A.Mehdiyev evdə idi, yataqda uzanmışdı, bülleteni (*həkimin imzası ilə*) onlara verib və özü də sabah işə çıxacaq.

Fəlsəfə kafedrasının həmkarlar ittifaqının sədri bülletenə qol çəkdi və mən bülleteni mühasibatlığa verdim.

Axşama rektora məruzə etdim və faktın ətraflı təsviri ilə komissiyanın üç üzvünün imzaladığı arayışı ona təqdim etdim.

Rektor yoxlamanın nəticəsindən açıq-aydın narazı idi, amma həqiqətləri görüb, dedi: - Bu demaqoqdan canımı qurtaracağam. O Moskvanın bütün yuxarı təşkilatlarına bizim Respublikanın Birinci Katibindən (*və şəhadət barmağı ilə yuxarıya göstərdi*) qərəzli yazır.

Təfərrüatına varmadan, söyləyim ki, sonrakı üç ay ərzində üç dəfə bizim komissiya dosent Əşrəf Mehdiyevin evinə gedib, o isə həmişə, yazıq, yataqda olub və bülleteni vardı.

Və bir dəfə rektorun katibəsi otağıma gəlib, Əşrəf müəllim Mehdiyevin işdən azad edilməsi barədə əmri mənə verdi.

Əmr rektor M.A.Bağırov tərəfindən imzalanmışdı və mənə də imza üçün göndərilmişdi ki, yəni həmkarlar komitəsinin sədri də razıdır.

Əmri geri göndərdim, söylədim ki, özüm rektorun yanına qalxıram. Katibə fınxırıb, çıxdı.

Gündəliyimi, sahə işçilərinin işdən azad edilməsinə dair qaydaları götürüb, rektorluğa qalxdım.

Katibə rektorun məni gözlədiyini dedi.

İçəri girib, salam verdim. Oturmağı təklif etdi.

Əyləşib, qaydaları açdım. Rektor təəccüblə maraqlandı:

- Bu nədir?
- Çıxarılmaya dair qaydalar.
- Nə qaydalar? Şəxsən özüm qol çəkmişəm.
- Bəli.
- Bəs sən niyə qol çəkməmisən?
- Bu qanunsuzdur!
- Necə yəni qanunsuzdur?

- Bu əmr və onun əsası İnstitutun Həmkarlar komitəsinin iclasında müzakirə olunmalıdır. Əgər həmkarlar komitəsinin 2/3 hissəsi lehinə səs versə, mən qol çəkərəm. Əks halda o Moskvanın yuxarı təşkilatlarına şikayət edəcək. Və, əgər onun qeyri-qanuni işdən azad olunmasına qərar versələr, onda bir neçə aydan sonra Sizin maaşınızın hesabına ona maaş ödənilməklə öz vəzifəsinə qaytarılacaq. Beləliklə, mən ilk növbədə Sizi bu düşünülməmiş addımdan qoruyuram. Bunu etməməlisiniz.

Görünür sonuncu sözüm rektoru özündən tamamilə çıxartdı. Kreslosundan qalxıb, yaxınlaşdı, "*Sən kimsən?*" sözləri ilə qarşımda əyləşdi, baş barmağını masaya "*batırıb*", barmağı ilə düz və əks istiqamətlərdə bir-birinin ardınca yarımdairələr çəkməyə başladı. Və sonra səsləndi:

- *Mən səni tarakan kimi belə əzərəm!*

Mən gülümsəyərək: - *Mirzə Eyyuboviç, siz bacarmazsınız!*

O daha da hiddətlənərək: - *Mən Bakı şəhər Partiya Komitəsinin üzvüyəm, Bakı şəhərinin deputatıyam, rektoram.*

- *Mən yenə, Siz bacarmazsınız!*

- *Yaxşı. Başa sal, niyə mən bacarmaram?*

- *Çox asan! Mirzə Eyyuboviç, siz mənim barəmdə heç nə bilmirsiniz, mən isə sizin haqqınızda o qədər şey bilirəm ki...*

O ayağa durdu, rəndi ağarmışdı və heç bir anlaşıqlı cavab tapmayaraq, sakitcə dedi: - Yaxşı, gedə bilərsən.

Bu iyun ayının ortasında baş vermişdi, institut qarşıdan gələn qəbul imtahanlarına hazırlaşırdı. Bununla əlaqədar Qəbul Komissiyasının Katibinin və tərkibinin təyin olunması haqqında rektorun əmri çıxdı, burada AzPİ-nin Apellyasiya Komissiyasının Sədrinin Abdul Həmidulla oğlu Qəhrəmanovun təyin olunması göstərilirdi. Bunu – mənə tələ qurulduğu kimi qiymətləndirdim.

Məhz bu günlərdə Moskvadan 1985-ci ilin sentyabr ayının əvvəlində Əfqanıstanda, Kabildə BMT-nin eksperti qismində missiyamın başlanması haqqında bütün sənədləri aldım.

Bu sənədlərin uyğun nüsxələrini çıxartdım və Azərbaycan Təhsil Nazirliyinə, Pirverdiyevə mənim Təhsil naziri Əliyev Qurban Həsənoviçlə görüş vaxtımı təyin etməsi xahişi ilə zəng etdim:

- Xahiş edirəm, "*Qəhrəman*"ın onu görmək istədiyini deyin. Onda biləcək kimdir.

Bir saatdan sonra Pirverdiyev telefonla nazirin saat beşdə məni gözləyəciyini xəbər verdi.

Qurban Həsənoviç Əliyevin kabinetinə daxil olanda o məni gülümsəyərək qarşıladı:

*- Qəhrəman, bu nədir başın ağarıb.*

*- Siz isə, Qurban Həsənoviç 1967-ci ildən məni adımla deyil, soyadımla çağırırsınız.*

*- Hə, doğrudur. Danış, nə olub?*

Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə BMT-nin eksperti qismində Kabilə göndərilməyim barədə Cenevrə qərargahından olan BTİ-nın qərarının nüsxəsini çıxardıb ona verdim.

- Bəli, Qəhrəman, səni ürəkdən təbrik edirəm, deməli, səni əbəs yerə iki il bundan əvvəl İngiltərəyə göndərməmişdik. Məndən nə tələb olunur?

AzPİ-nin rektorunun Qəbul Komissiyasının yaradılması və mənim Apellyasiya Komissiyasının Sədri təyin olunmağım haqqında əmrin sutərini çıxartdım.

- *Qurban Həsənoviç, bir neçə aydan sonra Kabildə işləməli olacağam. Özünüz bilirsiniz, orada müharibə gedir, ona görə də bu yayı ailəmlə keçirtmək istəyirəm, AzPİ-nin Apellyasiya Komissiyasının Sədri olmaq istəmirəm.*

*- Hə, əlbəttə, Qəhrəman.*

O dəqiqə Qurban Həsənoviç Hökumət telefonunu qaldırıb, rektorumuza zəng vurdu, selektoru da qoşdu ki, mən də eşidim.

*- Salam Mirzə, mənəm, Qurban Həsənoviç.*

*- Bəli, Qurban Həsənoviç, sizi dinləyirəm.*

*- Qulaq as Mirzə, bizim Qəhrəmanı Apellyasiya Komissiyasının Sədri vəzifəsindən azad et, sizdə orada təyin etmək üçün bir adam tapılar, axı o tezliklə BMT-nin eksperti kimi Əfqanıstana getməlidir, qoy adam yayda ailəsi ilə olsun. Hər şey aydındır?*

*- Bəli, əlbəttə, Qurban Həsənoviçin sözü mənim üçün qanundur.*

*- Yaxşı.*

Mən iş otağıma yenicə daxil olmuşdum ki, rektorun birbaşa telefonu zəng çaldı. Xahiş etdi, yanına gəlim. Otağında məni gülümsəyərək qarşıladı.

- Abdul, Qurban Həsənoviç zəng vurmuşdu. Nə üçün bu cür gəlirdən uzaqlaşırsan? De görüm, Əfqanıstanda olanda nə qədər qazanacaqsan?

- Hardasa 30 min dollar, amma dolların hamısını Moskvadakı sülh fonduna verəcəm, onlar isə mənə iyirmi minə yaxın çeklə verəcək.

- Bu cüzi miqdarda pullar nəyinə lazımdır?

- Mirzə müəllim, mənim iki uşağım var, bir otaqlı mənzildə yaşayıram, dəyişmək və mənzil problemimi həll etmək istəyirəm.

- Qulaq as, Apellyasiya Komissiyasının Sədri qal, müavinin naxçıvanlı fizik Məmməd olacaq, o bu işdə təcrübəlidir. Sentyabrda yüz min rubl pulun olacaq və mənzil problemini həll edərsən.

Mən gülümsəyərək: - Mirzə Eyyuboviç, ailəmin mənzil problemini həll etmək istəyirəm, lakin Allahın qarşısında problemimin olmasını istəmirəm. Belə ki, çox sağ olun, bu komissiyadan məni azad edin.

- Bəli, əlbəttə, Qurban Həsənoviçin sözü mənim üçün qanundur!

Həmkarlar komitəsinə qayıdanda Fəxrəddin müəllimə zəng vurub, təcili yanıma gəlməsini xahiş etdim.

Üzbəüz əyləşəndə ona dedim:

- Fəxrəddin, məni BMT-nin eksperti qismində təsdiq ediblər və tezliklə Əfqanıstana uçacağam, bu vəzifəni təhvil verməliyəm, razılığını ver və bu vəzifəni tutmaqda sənə kömək edərəm.

Fəxrəddin dinləyib, dedi:

- Çox sağ ol Abdul, amma mənim başqa namizədim var, o altı aydır ki, riyaziyyat kafedrasına keçib, professor Məhərrəmov, əla oğlandır, əgər razısansa, onu bura çağırım.

Mən razılaşdım, və 15 dəqiqidən sonra alçaqboylu, yumru, kök bir adam otağa daxil oldu.

Mən söylədim: - Lap yaxşı, Ədilə xanımı xəbərdar et ki, sabah səhər saat on birdə ikimiz də onun yanında olacağıq. Biz isə səninlə "*Gənclər Meydanında*" AHİŞ-in qarşısında görüşəcəyik.

Sonra hər şey adi ssenari üzrə getdi.

*“Borcunu yerinə yetir, qalanını göylərə burax”*
Pyer Kornel (1606-1684)

## 5.3. BMT-nin eksperti qismində ilk sahə sınağı.

1977-ci ildən sonra ilk dəfə bütün yayı öz ailəmlə oldum.

Bakının Qaradağ rayonunun “*Primorsk*” qəsəbəsində istirahət etməyə qərar verdik. Sement zavodunun yanında olsa da, dənizdən cəmi beş addım məsafədə yerləşən bir mənzil tutduq.

Sovet Azərbaycanının çətin zamanları idi, televiziya ilə hər şeyin olduğunu verərkən, uşaqları, əsasən də Həmid kimi balacaları saxlamaq problemli idi.

Həmin yaydan xatırladığım yeganə şey – dadlı, şirin və ən əsası, ucuz qarpızlar idi.

Lakin burada iki həftə qalmağa macal tapmadıq ki, çətin güzəran Subini Qaradağdakı istirahətdən imtina edib, Bakıya, qaynar asfalta qayıtmağa məcbur etdi.

Sentyabrın əvvəlində Moskvadan xəbər verdilər ki, Kabilə uçuş oktyabrın axırına (*29.10.1985*) keçirilir. Kabildə 03.03.1986-cı ilə qədər qaldım.

Kabilə uçuşdan üç gün əvvəl məni Moskvaya çağırdılar, burada mənim üçün “*Moskva*” mehmanxanasında yer ayrılmışdı.

İlk günümü BMT-nin pasportunu (*Laisser-Passer*), Moskva-Kabil-Moskva təyyarəsinə biletləri və gedəcəyim ölkə haqqında dəqiq təlimatı aldığım (*İngiltərəyə səfərdən öncə aldıqlarımdan pis deyildi*) Xarici İqtisadi Əlaqələr Nazirliyində (*XİƏN*) keçirdim.

SSRİ-nin Rabitə Nazirliyində də təlimat aldım, burada məni xəbərdar etdilər ki, mənimlə layihənin rəhbəri alban İsmət Həmididən (*İsmet Hamidi*) başqa daha iki xarici vətəndaş və Qomel və Minskdən iki belarus da olacaq.

Ertəsi gün günorta saat dördə uçuşdan öncə gömrük nəzarətindən keçmək üçün hava limanında idim.

Əlimdə içərisində bütün sənədlərim olan portfelimi və alt paltarlarım və köynəklərim olan, İngiltərədən aldığım yüngül əl çantamı tutmuşdum, ümumi çəki yeddi kilo idi.

Miniyi elan etdilər və qeydiyyat üçün yaxınlaşacağım pəncərənin nömrəsini axtarmağa başladım. Moskva-Kabil reysinə böyük növbənin olduğuna təəccübləndim.

Tələsmədən yaxınlaşıb, soruşdum ki, axırıncı kimdir. Gənc, 24 yaşında, beş yaşlı uşaqla olan cazibəli xanımı göstərdilər. Uşaq ağlayırdı.

Mən soruşanda ki, axırıncı odurmu, o elə ağladı ki, bütün zal ona baxırdı.

Uşağın yanında ananın göz yaşları məni laqeyd qoymadı və dözməyərək:

- Bağışlayın, siz niyə ağlayırsiniz? Biletləri itirmisiniz?

O təmiz xaxol dialekti ilə cavab verdi: "*Daha nələr*" ("*Ешо чо*").

- Bəlkə izah edəsiniz, niyə belə ağlayırsınız, nə olub?

- Necə yəni nə olub? Həyat yoldaşımın yanına getməliyəm, çamadanlarım çəkisi isə iyirmi kilo ağırdır, deyirlər artıq çəki üçün ödəniş etmək lazımdır. Nə ilə ödəyəcəyəm? Uşağın suyu üçün belə pulum yoxdur. Belə çıxır ki, nəyisə tullamalıyam, orada isə yarımillik şorbalar var. Yeməyi necə atım, axı uşaq ölər?

Bunu söyləyib, daha da bərkdən ağlamağa başladı.

Yazıq uşaq da bir şey başa düşmədən, onunla ağlayırdı. Ətrafdakılar laqeyd yanaşdılar.

Mən: - Sizin üçün nə vacibdir, həyat yoldaşınızın yanına uçmaq yoxsa bu şorbalar?

- Əlbəttə, həyat yoldaşımın yanına uçmaq. Amma ərzaqsız necə olarıq (*ağlamağa davam edir*).

- Adınız nədir?

- Tanya.

- Oğlunuzun?

- Kolya.

- Həyat yoldaşınızın?

- Viktor.

- Belə, Tanya, nəyin vacibliyinə qərar verin, yoxsa bir saatdan sonra təyyarə qalxacaq... Əşyaları çeşidləyin, bəlkə nəyisə tullayarsınız, təyyarə sizi gözləməyəcək.

O isə daha da bərkdən ağlayıb, başını tuturdu.

Şorba faciəsinə baxmağa, ana və uşağının ağlamağını eşitməyə gücüm çatmırdı.

- Qulaq asın Tanya, sizi bu vəziyyətdə qoya bilmərəm. Hardadır o böyük çamadan, onu mənə göstərin?

Bu vaxta qədər üzərində əyləşib ağladığı çamadandan qalxıb, onu göstərdi.

- Yaxşı. Baxmayaraq ki, diplomat kimi mənə indi edəcəyim təklif qadağandır, amma yenə də mənim qarşımda növbəyə dayanmanızı, çamadanınızı adıma qeydiyyatdan keçirtməyi və birlikdə keçməyə cəhd etməyimizi təklif edirəm.

- Necə? Axı çamadanı götürmək yaxud vermək qadağandır, buna görə cəzalandıra bilərlər.

- Heç bir şey olmaz. Sizi burada şorbalarla atıb getməkdənsə, bu oğlandan ötrü cəzalanmağım yaxşıdır.

- Siz qorxmursuz, axı təlimata görə buna icazə yoxdur.

- Bəli, həqiqətən olmaz, amma siz doğrudan şorba və konservlər aparırsınız, yəqin ki, buda narkotik şeylər yoxdur.

- (*O xaç çəkərək*) Nə danışırsınız, Allah eləməsin.

- Onda gəlin, növbəyə durun, mən isə sizdən sonra dayanacağam.

Beləliklə, qorxaraq və riskə alaraq, Ukraynadan olan Tanyaya Moskvadan Kabilə 20 kq artıq yükü (*ərzağı*) aparmaqda kömək etdim.

Onun sakitləşməsi üçün isə bir dəqiqəlik gedib, bir neçə şüşə limonad, iki bulka aldım və onlara verdim.

Yazıq uşaq, deyəsən həqiqətən uzun müddətdir heç nə içməmişdi, şüşəni bir dəfəyə boşaltdı və bulkanı yeməyə başladı.

Eləcə də onun anası şüşənin yarısını içib, sonra bulkanı yeməyə başladı. Tanrının mənə bu gənc ailəyə yardım etmək imkanı verdiyi üçün elə bil yüngülləşmişdim.

Təyyarədə bizə istədiyimiz yerdə oturmağa icazə verdilər və biz üçümüz bir sırada əyləşdik.

Bütün günü Rabitə nazirliyi və XİƏN arasında qaçdığımdan o qədər yorulmuşdum ki, təyyarənin qalxmasını gözləmədən yuxuya getdim. Yalnız bir dəfə Tanya məni oyadıb soruşdu: – Yemək yeyəcəyəmmi? Cavab verdim: - Nə istəyirsiniz sifariş edin və özünüz yeyin. Və o dəqiqə yuxuya getdim.

Səs-küydən ayıldım. Gözlərimi açıb, oğlanın və onun anasının qorxmuş gözlərini gördüm. Nə olub? – soruşdum. O isə: - Təyyarə aşağı "*şığıyır*", heç kim heç nə izah etmir, stüardessalar deyirlər ki, hər şey qaydasındadır.

On dəqiqədən sonra təyyarə endi, sərnişinlər təyyarədən düşdülər, mən isə çıxışda stüardessadan soruşdum:

- Orada nə baş vermişdi? Niyə sərnişinlər belə qışqırırdılar?

Stüardessa isə:

- Baqran aerodromu üç dağ silsiləsinin arasında yerləşdiyindən təyyarənin enməsi üçün şığımasından başqa əlacı qalmadığını sərnişinlərə aydın izah edə bilmədik.

- Amma mənə izah edə bildiniz, özü də çox aydın, uçuş zamanı bunları elan edərdiniz də.

- Nə istəyirsiniz? (*gülümsəyərək*) Siz elə möhkəm yatmışdınız ki, hamımız əsəblərinizə qibtə edirdik.

Çıxışda oğlu ilə Tanyanı və məni iyirmi beş yaşlarında gənc bir kapitan uşaq kimi sevinərək qarşıladı. Salamlaşaraq, Viktor deyə özünü təqdim etdi.

Ona şorbalar olan çamadanın talonunu verib, hər üçü ilə vidalaşıb, havaya çıxdım.

Orada məni səfirlikdən gözləyirdilər və maşınla, sonradan mənə izah etdilər ki, Kabilin köhnə mikrorayonuna apardılar və burada beş otaqlı mənzilin birinci mərtəbəsində yerləşdirdilər.

Beləliklə daxili müharibənin atəşində yanan Kabilə gəldim, burada hər şey dəyişkən, etibarsız və, düzünü desəm, bir qədər qorxulu idi.

Məni yerləşdirərkən səfirlikdən uşaqlar xəbərdar etdilər ki, atəş yaxud həyəcan siqnalı eşitsəm, həmin an döşəməyə uzanmalıyam, dirsəklərim üzərində tualetə qədər sürünməliyəm

(*partlayış və atəşlərdən ən etibarlı yerdir*), qapı döyülərkən əvvəlcə soruşmalıyam: "*Kimdir?*" və yalnız ondan sonra qapını açmalıyam. Axşam saat yeddidən sonra mənzildən çıxmaq qadağan idi, ən əsası isə, M.S.Qorbaçovun qoyduğu qanuna görə, sərxoşluğa görə 24 saat ərzində evə göndərə bilərdilər və s.

Göründüyü kimi, Əfqanıstandakı təlimatlar Böyük Britaniyadakı təlimatlardan heç nə ilə fərqlənmirdi.

Lakin müxtəlifliklər də var idi. BMT-nin baş eksperti kimi mənə SSRİ-nin Əfqanıstandakı Səfirliyində XİƏN-nin təkidi ilə Səfirliyin baş məsləhətçisi statusunu verdilər və Səfirlikdə əfqanla aldığım maaşım SSRİ-nin Səfirinin maaşından bir əfqan aşağı idi.

Səfirlikdə mənə gizli söylədilər ki, mühasibatlıq qəzəblənirdi ki, mən kiməm ki, maaşım bütün səfirlikdə SSRİ-nin Əfqanıstandakı Səfirinin maaşından sonra ikincidir və yalnız bir əfqan ondan azdır.

Lakin hər ay, maaş aldığım gün, gecikdirmədən bir neçə min dollar mühasibatlığa verəndə onlar sakitləşdilər və artıq qəzəblənmirdilər.

Hər dəfə valyutanı səfirliyə təhvil verərkən onlardan qəbz alırdım. Axırda bütün qəbzləri məndən XİƏN-də istədilər.

Amma partiya təşkilatının mənə münasibəti səfirlikdə çoxluq təşkil edən Xarici İşlər Nazirliyinin işçilərinə olan münasibətdən qəti surətdə fəqrlənirdi.

Hətta Əfqanıstanda bizim səfirliyin partiya təşkilatının katibinin məsləhətini də xatırlayıram:

- Abdul, çalış burada görünmə. Onlar tez-tez gözə dəyənləri görürlər. Sən BMT-nin ekspertisən, həmişə deyə bilərsən ki, nəzarətdəsən, idarədə olmamağını xoşlamırlar, BMT müxtəlif tədbirlər təşkil edir ki, onlardan imtina etmək yaxşı deyil.

Ona görə də səfirliyə lazımsız yerə getməməyə çalışırdım, əlbəttə ki, BMT-nin Baş İdarəsində maaş aldığım gündən başqa. Maaşı gecikdirmədən səfirliyə təhvil verirdim.

Əfqanıstandakı missiyamın zəhmətsiz hissəsi belə keçirdi, işin özü isə çox maraqlı, çətin və mürəkkəb idi.

Hər gün işdən zövq alırdım və Kabil şəhər Telefon Şəbəkəsinin qravitasiya modelini quranda layihə (*Project AFG-83/001*) rəhbərim cənab İsmət Həmidi (**İsmet Hamidi**) təəccüblə soruşdu ki, trafik üzrə bu cür praktiki biliklərim hardandır. O rəhbərlərimin Leninqradda professor B.S.Livşicin, İngiltərədə isə professor Con Fladın olmasına təəccüblənirdi.

Gəlişimin ertəsi günü məni Kabildə BMT-nin avtomobilində Baş İdarəyə gətirdilər, burada kiçik formal işlərdən sonra mənə aylıq maaşımı və ekstremal vəziyyətlərdə ekspertin davranışına dair təlimatı verdilər.



Şəkildə məndən solda Əfqanıstanın Telekommun İnkişafı üzrə Layihəmizin (*Project AFG-83/001*) rəhbəri Albaniyadan olan cənab İsmət Həmidi (*İsmet Hamidi*) durub.

O mənimlə çox mehribancasına salamlaşıb, özünü təqdim etdi, rus dilində nəsə demək istədi və hər zaman gülürdü. İyirmi dəqiqədən sonra Layihəmizin (*Project AFG-83/001*) həyata keçirildiyi idarədə idik.

Elə həmin gün Layihənin bütün ekspertləri ilə tanış oldum, o cümlədən həmkarım (*Kabildən gedənə qədər işimi öyrədəcəyim yerli mütəxəssis*) cənab Abdul Qani ilə, otuz beş yaşında, hündürboylu və arıq idi (*şəkildə məndən solda*).

İrəliyə qaçaraq söyləyim ki, Abdul Qani ilə çox dostlaşdıq, ixtisası üzrə ali təhsilinin olmamasına baxmayaraq, Almaniya Federativ Respublikasında (*AFR*) keçdiyi iki qısamüddətli təcrübəyə görə, işi təsəvvür edə bilirdi, ancaq hələ çox şeyi öyrətməli idim.

Abdul Qani böyük ailəsi vardı (*beş uşağı*) və görünür, çox kasıb yaşayırdılar.

Ertəsi gün cənab İsmət Həmidi məni Əfqanıstanın Rabitə nazirliyinə apardı və nazirliyin Telekommunikasiya departamentinin prezidenti Məhəmməd Cəlaləddinə və Əfqanıstanın Rabitə nazirinin texnika üzrə müavini Məhəmməd Koxistaniyə təqdim etdi.

Düzünü desəm, düşünürdüm ki, Kabildə isti olacaq və bu dağlıq ərazinin kəskin kontinental iqlimini nəzərə almamışdım. Əgər gündüz günəşli və temperatur küləksiz müsbət 25 dərəcə idisə, axşam temperatur müsbət beş dərəcəyədək enirdi, mənim mənzilim (*və evim*) isə qızdırılmırdı.

İlk gecə mənə çox soyuq idi, çoxlu geyindim, amma yenə də soyuq və narahat idim.

Cümə gününə (*Əfqanıstanda istirahət, qeyri-iş günü*) qədər bir təhər çıxdım ki, nəhayət yuxumu alım.

Səhər saat on radələrində qapım döyüldü.

Yaxınlaşıb, dəlikdən baxdım, yad adamlar gördüm: rus zabiti və əsgəri. Soruşdim "*Kimdir?*". Zabit qamətini düzəldib, özünü təqdim etdi:

- Yoldaş Abdul, mənəm, Viktor, təyyərədən Tanyanın əri.

Sakitləşib, qapını açdım. O isə əsgərə komanda verdi: “*burada dayan*”, özü isə mənzilimə gülümsəyərək daxil oldu.

- Yoldaş Abdul, sizə necə minnətdaram, sizə necə borcluyam, Tanyam və oğlum evdə hər şeyi danışdılar, yardıma görə çox sağ olun.

- Burada nə var ki? Siz də belə şey görsəydiniz, kömək edərdiniz.

- Danışdınız da! Buna görə məni dustaqxanaya göndərərdilər, siz isə ailəmin dadına çatdınız, çox sağ olun.

- Hər şey qaydasındadır, ailənizə məndən salam deyin.

- Abdul, xətrimə dəyirsiniz. Tanya borş bişirib, mən də bu gün azadam, sizi bütün ailəmlə evimizdə gözləyirik. Sizin üçün gəlmişəm, buradan uzaq deyil, xahiş edirəm, etiraz etməyin.

Düzünü desəm, gecənin soyuğundan üşüdürdüm və yaxşı, qaynar borş yerinə düşərdi. Razılaşdım.

İsti geyindim, QAZ-69-a (*Sovetin tırtıllı maşını*) minib, təxminən bir saat getdik.

Bizi yolda dəfələrlə saxlasalar, lakin Viktoru görəndə yoxlamadan buraxmaları məni təəccübləndirdi.

Nəhayət Viktorun mənzilinə daxil olduq, qapıda məni Tanya və Kolya qarşıladılar. Tanya ərinə baxıb, soruşdu:

- Olar onu qucaqlayım? Viktor isə: - Əlbəttə, əzizim, mən də onu bütün elədiklərinə görə qucaqlamaq istəyirəm.

Bu cür qarşılamadan bir qədər utandım və salamlaşıb, stol arxasına keçdim. Tanya Moskva aeroportunda olanların hamısını yada salmağa başladı, Kolya isə evin içərisində hoppanaraq, təkrarlayırdı:

- Abdul əmi bizim üçün limonad və bulkalar aldı.

Tanya əlində böyük bağlama ilə bizə yaxınlaşanda, Viktorla mən, Kabildəki əsgərlik həyatından, gecələrin pis havasından söhbət edirdik.

Tanya dedi: -Abdul, hesab etməyin ki, Moskvadakı ödənilməz köməyinizə qarşı nəsə edirik. Burada dörd ədəd isti, yun

yorğan və bir neçə istifadə olunmamış döşəkağı və yorğanağı var. Bu sizə bizdə səmimi qəlbdəndir! Sizi elə görmək istəyirdik ki, səfirlikdən ünvanınızı öyrəndik, buyurun sağlıqla istifadə edin!

Mənə soyuqdan lazım olan bu yataq dəstləri üçün onlara beş dəfə təşəkkür etdim və bu yorğanlarda yatanda mənim üçün necə yaxşı olacağını təsəvvür edəndə artıq istiləndim.

Öyrəndim ki, Viktor sovet qoşunlarının Əfqanıstana girdiyi ilk gündən burdadır, çox sadə ukraynalı oğlan idi.

Düz günorta saat birdə Tanya stola əsl ukrayna borşunu verdi və söylədi ki, bu çamadandan deyil. Mənə görə bütün ərzağı Viktor özü tapıb. Və, əlbəttə, stola bir şüşə araq da qoyuldu.

Ancaq Viktor təəccübləndi, mən, Leninqradda və İngiltərədə olduğu kimi içmədim və sakitcə izah etdim ki, sadəcə içki içən deyiləm.

Amma onlar (*ərlə arvadı*) şüşəni boşaltdılar.

Bundan sonra Tanya yeyilənləri stolun üzərindən yığışdıran kimi, çay təklif etdi və böyük məmnuniyyətlə razılaşdım.

O sevincək çay dəmləməyə başladı və dedi:

- Viktor, o da əfqanlar kimi araq içmir, çay xoşlayır.

Mən: - Axı biz əslində əfqanlarla qardaşıq. Sovet quruluşuna qədər nəinki dinimiz, həm də yazımız da bir idi.

- Tanya, bilirsiniz, əgər düzünü desəm, onlardan qorxuruq.

- Tanya, siz düz edirsiniz. Xatırlayın, Hitlerin ordusu Ukraynaya soxulanda almanlar da sizdən qorxurdu və sizin partizanlar onları lazım olan kimi cəzalandırırdılar. (*Viktora*) Və, doğrudur, gözəl sözlər arxasında gizlənsək də biz burada işğalçıyıq.

- İşğalçı deyilik, amma yerli müxalifət bizi bu cür adlandırır.

Çay içib, istədim evə dönüm, belə ki, Viktorun evində, elə mənim də mənzilimdə oldugu kimi nə radio, nə də televizor vardı. Bunu görüb, o dedi:

- Abdul, bir şeyi sizə göstərmək istəyirəm, ancaq əvvəlcədən söyləmək istəmirəm, ona görə də, əgər evinizə istəyirsinizsə, əvvəlcə onu sizə göstərim, sonra sizi evə aparım. Bir də, biz, zabitlər

bu gün burdayıq, sabah başqa yerdə, əgər sizi ikinci dəfə görməsəm xətrinizə dəyməsin. Lakin icazə verin bir daha sizə böyük ÇOX SAĞ OLUN söyləyim. Ailəmə kömək etdiniz, qoy Tanrı sizə kömək olsun.

Tanya və Kolya ilə vidalaşdım, Viktor yataq dəstləri olan bağlamanı arxa oturacağa qoydu və biz yola düşdük. Təxminən bir saat yol getdik, bu müddət ərzində bizi, səhv etmirəmsə, demək olar ki, hər on dəqiqədən bir saxlayırdılar. Nəhayət, bizim QAZ-69 təpəciyə qalxdı və dayandı. Viktor geniş təbəssümlə qapını açdı və maşından düşdüm.

O dedi ki, indi iyirmi addım getməliyik və təpəciyi göstərdi.

Əks tərəfə döndüm və anladım ki, təxminən yolun yarısını dik dağa qalxmışıq.

Bu təpəciyə çatanda donub qaldım, mənə elə gəldi ki, bütün bunlar yalnız mənə görünür. Təpənin üstündə dayanırdım, buradan, Moskvanın məşhur Kutuzov prospektindəki Borodinoda döyüş muzeyində olduğu kimi, Kabildə yerləşdirilən məşhur yüzminlik sovet ordusu dayanırdı.

Ordunun yerləşdiyi dərənin ucu-bucağı görünmürdü, ən azı iyirmi kilometr, bəlkə də ondan artıq olardı.

Bütün qoşün növünün tutduğu mövqeni aydın görmək olurdu, çadırlar o qədər idi ki, lap məşhur “*Çingiz xanın ordusu*” filmindəki kimi. Gördüklərimdən, heç bir filmdə göstərmək mümkün olmayan bu boyda miqyasdan donub qalmışdım.

Möhtəşəm idi! Həqiqətən valehedici idi!

On beş dəqiqə baxıb, Viktora dönüb dedim: - Yəqin, bunu çox az adam görüb. O isə fərəhlə: - Bu xüsusi olaraq, sizin üçündür.

Bir saatdan sonra Viktor məni evə gətirdi, mənimlə mənzilə daxil oldu, bağlamanı verib, dedi:

- Anladım, açıq ürəklisiniz, ancaq ehtiyatlı olun. Burada sizi bir qəpiyə satarlar və yaxşı ki, içən deyilsiniz.

Həyətə düşüb, vidalaşdıq. Viktor maşına minib getdi.

Sonra mən onları bir daha görmədim, amma çox ümid edirəm ki, bu gənc ukraynalı ailədə hər şey yaxşıdır.

Axı onlar məni Kabilin şiddətli soyuğundan qurtardılar.

İki həftədən sonra səfirliyin xahişi ilə yanıma rabitənin ölçü texnologiyası üzrə yeni mütəxəssisini, Belarusdan olan, qırx yaşlarında, bir qədər qəribə və içməyi sevən Viktoru yerləşdirdilər.

Görünür o da mənim kimi ilk gecəni soyuqdan yata bilməmişdi və səhər şikayət etməyə başladı ki, tədbir görmək lazımdır. Mən yun ədyal, bir dəst yataq ağı çıxarıb Viktora bağışladım. Lakin bir aydan sonra ondan "*arxadan zərbə*" aldım, Yeni ildə o səfirliyə xəbər verdi ki, guya mən Quru qanunu pozuram və içənəm.

Beləliklə Kabildə iki Viktoru tanıdım: biri yaxşılığa yaxşılıqla cavab verdi, özü də bütün ailəsi ilə, digəri isə əyyaş olaraq, məni şərləmək istədi. Lakin Allah böyükdür, onun xəbərçiliyindən düz iki həftə sonra, yeni il gecəsi onu Kabilin köhnə mikrorayonunun küçə qapısından birində sərxoş halda tapdılar. Səfirliyin partiya təşkilatının katibi araşdırmaya başladı, üzləşdirmə apardı, hamımızı topladılar (*üç eksperti*) və qərara aldı ki, Viktor 24 saat ərzində Moskvaya göndərilsin.

Yığıncaqda həm partiya təşkilatının, həm də səfirliyin gizli şöbəsinin nümayəndələri iştirak edirdilər. Bəlli idi ki, buna yalnız mən mane ola bilərəm, mən də bunu etdim.

Əvvəlcə onun Minskdən olan həmyerlisi çıxış etdi və onun Kabildən çıxarılmasına səslədi. Sonra səfirliyin partiya təşkilatının katibi çıxış etdi. Qeyd etdi ki, Viktor BMT-nin Layihəsində ekspert olsa da SSRİ-nin vətəndaşıdır, orada isə Quru qanun qəbul edilib. Axı onu hansısa küçə qapısından sərxoş tapıblar.

Mən isə onlardan fərqli olraq uzaqdan başladım:

- Mən Viktoru onun yerlisi qədər yaxşı tanımıram, amma yeni il axşamı Viktorla axşam saat altıya qədər birlikdə idik və mən, içki içməyən adam kimi, iddia edirəm ki, bu vaxta qədər bizim mənzildə spirt qoxusu dəqiq gəlmirdi. Saat altıda Əfqanıstanın Baş

nazirinin tərcüməçisi Şahin Fazil oğlu Fərzəliyevin yanına getdim, Yeni ili qarşılamaq üçün birlikdə plov hazırladıq. Səhər saat doqquz radələrində qayıtdım, uzanıb, o dəqiqə də yuxuya getdim. Amma yenə də iddia edirəm, otağımızdan spirt qoxusu gəlmirdi, içki içməyən adam kimi bunu o dəqiqə hiss edərdim. Bundan əlavə, Yeni ili axşamı Viktorla vidalaşanda, və Viktoru yeni il münasibətilə təbrik edərkən, soruşdum ku, yeni il gecəsini harada keçirəcəksən. O cavab verdi ki, Minskdən olan həmyerlisi Semyon Semyonoviçin yanında. İndi aydın deyil, nədi, o təkcə içib?

Partiya təşkilatının katibi Belarusdan olan hər iki yurddaşa baxıb, soruşdu:

- Siz nədir, iki yurddaş bir-birinizi batırmağa qərar vermisiniz? Nədi, uşaqlar, Yeni ildə ikiniz içib sərxoş olmusunuz?

Mən qarışdım:

- Əgər mənə inanırsınızsa, söz verirəm, Viktorla bir yerdə qalana qədər o mənzilimizdə içki içməyəcək, təntənəli surətdə söz verirəm və xahiş edirəm onu bağışlayasınız.

Partiya təşkilatının katibi yumşaldı və dedi:

- Gəlin belə edək! Abdul, Sov.İKP-nın üzvü kimi Viktora zamin durur və ona görə də bu gün yalnız şifahi xəbərdarlıqla keçinmək olar. Hamınız gedə bilərsiniz. Siz isə, Abdul, xahiş edirəm qalın!

Onlar gedəndən sonra partiya təşkilatının katibi mənə dedi:

- Nə yaxşı ki, sən bu axmağın tərəfini saxladın, ancaq haqlısan, Viktor Minskdən olan həmyerlisi ilə içmişdi, sonra da onlar nədənsə dalaşıblar və yerlisi onu evindən qovub. Onda isə mənzilinin açarları yox idi, səndən ayrılandan sonra onları otağında unudub. Nədi, siz fikirləşirsiniz ki, mən istəyirəm, orada, Moskvada məni və səfiri bu axmaqlardan ötrü müzakirə etsinlər? Sənə təşəkkür edirəm ki, hər şey bu cür qurtardı. Ümid edirəm, sakitləşəcəklər.

O mənə masadan bir vərəq çıxartdı və mənə oxumağa verdi. Viktorun xəttini tanıdım, o "*məni ittiham edirdi*".

Qabağa qaçaraq, söyləyim ki, Project AFG-83/001 Layihəsinin bütün ekspertləri ilə vidalaşanda səfirliyin işçiləri məni aeroporta apardılar. Tək oturmuşdum, Semyon Semyonoviç mənə yaxınlaşdı, kədərli və səssiz idi. Ondan soruşdum:

- Nəsə olub? Niyə bura, Baqran aeroportuna gəlmisiniz? Bu ki təhlükəlidir!

- Özüm və Viktor adından üzr istəməyə gəlmişəm. Bilirsən, Abdul, yalnız burada, bu şərq ölkəsində başa düşdüm ki, siz müsəlmanlara qalib gəlmək olmur, siz hətta bizim əclaflığımıza və satqınlığımıza sülh və yaxşılıqla cavab verirsiniz. Məni bağışla, Abdul, altmışdan çox yaşım var və mən belə bir axmağam.

Onu sakitləşdirdim, söylədim ki, belə narahat olmasın və işə göndərdim. Özüm isə üzümü Allaha tutub, təşəkkür etdim ki, bu ölkədən ürəyim sakit gedirəm və hətta alçaqlıq etmək istəyənlərə üzr istəmək üçün Allah ağıl verdi.

Axı həyat elə qısa və gözlənilməzdir, yolundan gərək azmayasan, sanki bu dünyada biz bir şey həll edirik. Mən razı halda Kabil-Moskva reysinin elanını gözləyirdim və dörd saatlıq uçuşa hazırlaşırdım ki, Moskvadakı Texnoeksporta Əfqanıstanda yerinə yetirilmiş işlər barədə məlumat verim.

*“Kimin deyil, nəyin düz olduğu vacibdir”*
Tomas Henri Heksli (1825-1895)

## 5.4. Kabildə bəzi qəribə əhvalatlar.

Ən qəribə əhvalatlardan biri Kabilin köhnə mikrorayonunun pivəxanasında mənim başıma gəldi, orada bizim zabitlər pivə içməyə toplaşırdılar, özü də Quru qanun zamanı. Onun yanında səfirliyimizin tərcüməçilərindən biri ilə görüş təyin olunmuşdu. Vaxtında gəlmişdim, o isə gecikirdi. Pivəxanaya girdim, lakin içki içməyən olduğumdan pivənin iyindən bilmirdim hara gedim.

Pivəxanada yalnız Sovet zabitlər vardı, hərəsində də on krujka, dayanmadan içirdilər, kimisi noxudla, kimisi balıqla. Haradasa təxminən 15-20 nəfər idilər.

Zalda bir qoca gəzirdi və boş krujkaları və döşəməyə atılmış kağızları, bir sözlə, zibili yığırdı.

İydən uzaq olmaq üçün mən pəncərənin qabağında dayanıb gözləyirdim.

Bu zaman qoca, mayorun yanından keçərək, əyildi və döşəmədən zibili yığışdırmağa çalışdı. Mayor yazıq qocanı əyilmiş vəziyyətdə görüb, xrom çəkmələri ilə onun yumşaq yerindən vurdu. Zərbədən qoca döşəmə ilə beş metr uçdu.

Bunu görüb, mayor bərkdən gülməyə başladı.

Qocaya qalxmağa kömək etdim, paltarından tozu çırpdım. O yazıq bir neçə dəfə təkrarladı: *şükran, şükran!*

Mayor isə ürəkdən gülməyə davam edirdi.

Özümü saxlaya bilmədim, ona yaxınlaşıb dedim:

- *Axı onlar, yoxsul əfqanlar yazıqdırlar, acizdilər.*

Mayor isə bərkdən cavab verdi:

- *Çox vecimədir, bizə əfqan yox, bizə Əfqanıstan lazımdır.*

Qan başıma vurdu, onun sözünü kəsdim:

- *Siz Azərbaycanımızı da alanda belə deyirdiniz və görünür, sizin kimi sərxoş bir mayor da bizim Qarabağ xanı, İbrahim xanı ailəsinin gözü önündə doğrayib.*

Mayorun rəngi qaçdı, tez qoburundan Makarov tipli tapancasını çıxardıb, düz başıma tərəf yönəldib bağırmağa başladı:

- *Mən sizi, qaraları bu tapança ilə güllələyərəm.*

Bu zaman qapı açıldı və tərcüməçimiz gəldi. "*Makarov*"u gicgahımda görüb, ucadan qışqırdı:

- O BMT-nin işçisidir, bizimki deyil, səfirlikdən deyil!

Yanıma yüyürüb, rusca dedi:

- BMT-nin pasportunu göstər yoldaş mayora.

BMT-nin göy rəngdə pasportunu çıxarıb mayora göstərdim. O pasportu görüb dedi:

- Lakin o rus dilini təmiz bilir.

Sonra on krujka pivəsindən ayrılıb, *Makarov*"u qoburuna qoydu və pivəxanadan qaçdı.

Tərcüməçinin rəngi ağarmışdı: - Sən nədi, Abdul? O alnından gülləni keçirib, səni bir yana ata bilərdi. Burada, Kabildə bu çox tez-tez olur.

Ona olanları danışıb, hələ də paltarından tozu çırpan yazıq qocanı göstərdim.

Pivəxanadan çıxanda qocaya yaxınlaşıb, ona on əfqani verdim, o yazıq isə təkrarladı: *şükran, şükran!*

Bundan sonra hərbiçilərlə ünsiyyət qurmamağa çalışırdım, aydın başa düşdüm ki, burada bütün zabitlər Ukraynadan olan Viktor kimi deyillər.

Buna bir bazar günü əmin oldum. Ayaqlarım açılışsın deyə, köhnə mikrorayonun balaca dükanlarını təxminən bir saat gəzdim.

Dükana yaxınlaşıb, piştaxta arxasında dayanan satıcı ilə Şahin müəllimdən öyrəndiyim iki-üç kəlmə tacik sözləri ilə salamlaşdım.

Bu zaman dükana planşet qovluqla iki zabit və onların arxasında isə Kalaşnikov avtomatla iki nəfər daxil oldular.

Zabit ucadan komanda verdi: - Dükana heç kimi buraxmayın.

Yazıq satıcının rəngi qaçdı, amma əlini dodaqlarına qoymağa macal tapdı, yəni "*sus və heç nə danışma*".

Fikirləşdim çıxım, amma o, mənimlə əfqanca danışaraq, mənə qəndlə bir stəkan çay verdi.

Bu mənim susmağıma açıq-aydın işarə idi. Sonra zabitlərə müraciət edib, nə istədiklərini soruşdu.

Zabitlərdən biri dəridən olan qadın plaşlarına, gödəkçələrinə acıqlı halda göstərməyə başladı və ucadan təkrarlayırdı: - Böyük və çox, anladın!

Əfqan sakitləşdi və söylədi: - Yaxşı, çox. Əlləri ilə isə 5, sonra 10 barmağını göstərdi. Zabit hər iki əlini göstərərək, on dənə istədiyini başa saldı.

Əfqan on dəri gödəkcə gətirib, kağıza yazdı, sonra plaşları (*yenə yazdı*), sonra yaxalıqlı plaşları (*yenə də yazdı*), sonra o qədər də dublyonka və s. gətirdi.

Zabit starşinaya hamısını maşına daşımasını əmr etdi. İki nəfər yüyürüb gələrək, hamısını dükandan çıxarmağa başladılar. Yükləmə başa çatandan sonra zabit qalın planşet çantasını qaldırıb açdı və piştaxtaya çoxlu sayda əfqanini səliqəsiz səpələməyə başladı.

Əfqan sakitcə pulları saymağa başladı. Zabit isə:

- Saymaq lazım deyil. Bu pullar kifayətdir?

Əfqan onlardan tezliklə canını qurtarmaq üçün cavab verdi:

- Yaxşı, yaxşı, bəsdir.

Zabit komanda verdi: - Qurtardı, əkildik!

Onlar tentlə örtülmüş yük maşınına oturub, gəldikləri kimi, birdən yoxa çıxdılar.

Yazıq əfqan hər iki əlini göyə qaldırıb, bir neçə dəfə təkrarladı: "*şükran*".

Sonralar, mən səfirlikdə soruşdum ki, zabitlərimizə maaşlarını hansı pulla verirlər. Onlar isə təəccüblə:

- Əlbəttə rublla. Axı onlar yalnız hərbi komissarlığın mağazalarından mal ilə təmin edilə bilərlər, digər mağazalara

getmələri qadağandır. Nədi ki? Siz bizimkiləri dükanlardan alış-veriş edəndə görmüsünüz?

- Yox, siz nə deyirsiz, mən sadəcə soruşdum.

Özümdə isə böyük sual vardı, bu zabitlərdə bu qədər əfqani haradandır? və içimdə şübhə – doğrudanmı bizim əsgərlər soyğunçuluqla məşğuldur?

Əfqanıstanın Rabitə nazirliyində mənə statistikanın verilməsini xahiş etdim. Onlarda o heç yox idi. Mənə ümumiyyətlə Əfqanıstanın və əsas iri şəhərləri, haradaki 1978-ci ildən vətəndaş müharibəsi gedirdi, üzrə ayrılmış əhalisi haqqında məlumatlar lazım idi. Ölkədəki qeyri-sabitlik ilə əlaqədar olaraq, əhalinin son siyahıya alınması 1979-cu ildə aparılmışdı. Ona görə də Kabil, Herat, Qəndəhar, Məzari-Şərif, Cəlalabad, Künduz və s. şəhərlərin əhalisinin sayı haqqında yalnız təxmini məlumatlardan istifadə etməli oldum.

Məlumdur ki, Əfqanıstanın ərazisinə girmək çətindir, amma o müxtəlif səbəblərdən istilaçılardan öz müstəqilliyini saxlayan yerli tayfalar üçün əlverişli idi.

Mən Kabildə ən çox Əfqanıstanın Rabitə nazirinin müavini Məhəmməd Koistani və nazirliyin telekommunikasiya departamentinin rəisi Məhəmməd Cəlaləddin ilə görüşürdüm.

Bütün nazirlik üzüm bağı olan balaca həyətdən ibarət ikimərtəbəli kiçik bir binada yerləşirdi. Əfqanıstanın Rabitə nazirinin müavini Məhəmməd Koistani ilə hər görüşümüzdə o, mütləq bizim Sabir Məmmədoviç Yusifovu xatırlayırdı, hansı ki, demək olar beş il Əfqanıstanda Rabitə nazirinin Poçt rabitəsi üzrə köməkçisi işləyib. O Əfqanıstanın Rabitə nazirliyinin Poçt İdarəsinin rəisini (*yetmiş yaşlı qocanı*) yanına çağırırdı və onun haqqında uzun-uzun danışırdılar.

Mən hər dəfə nazirliyin həyətinə daxil olanda altmış yaşlarında, ortaboylu, arıq bir xadimə ilə qarşılaşırdım (*çox sevdiyim rəhmətlik Zəhra anama çox oxşayırdı*). Həmişə bu yaşlı əfqanla salamlaşırdım.

Bir dəfə köməkçim Abdul Qani mənimlə birlikdə ona yaxınlaşdıq mehribanlıqla salamlaşdıq və izah etdi ki, mən Sovet İttifaqından olan müsəlmanam (*onların adlandırdığı kimi – Şuravi*), azərbaycanlıyam, doğma dilim isə türk dilidir. Xanım isə gülümsəyərək, söylədi – *xeyli məmnunam*.

Əfqanıstanda gedən müharibəyə baxmayaraq, Kabildə mənə rahat idi, axı əfqanlar müdrik xalq kimi özünkülərini yadlardan dəqiq ayıra bilirdi.

Kabilə gəlişimdən bir ay sonra Əfqanıstanın Rabitə nazirinin müavini Məhəmməd Koistani mənə zəng vurub xəbər verdi ki, Əfqanıstanın Rabitə nazirliyinin Poçt İdarəsinin rəisi vəfat edib, həmin yaşlı adam.

Əgər istəyirsinizsə, – Koxistani dedi – dalınızca maşınla gəlim və dəfn mərasiminə birlikdə gedək. Əlbəttə, mən razılıq verdim. Yarım saatdan sonra nazir müavininin maşını idarəmizin həyətində idi, həmkarım Abdul Qanini də götürüb, üçümüz də oraya getdik.

Çox böyük, qeyri-adi yumru və çox hündür bir məscidə gəlib çatdıq. Orada xalça ilə döşənmiş döşəmədə oturduq və mərhumu anma mərasimi başlandı.

Məni, ilk növbədə, məscidin bəzəyi, təmizliyi və səliqəsi, sonra isə təklif olunan yeməyin yüksək keyfiyyəti çox heyrətləndirdi, elə bil yemək yüksək səviyyəli məmurlar üçün idi.

Ayağa qalxıb, avtomobilə minməyə gedəndə Koxistani mərasimin mənim xoşuma gəlməsi ilə maraqlandı.

Səmimiyyətlə söylədim ki, Azərbaycanın doğma şəhərində, Göyçayda bu cür anma mərasimini yalnız şəhərin seçilmiş adamları edə bilərlər.

O isə, görünür, tam anlamadı və avtomobilin səs-küyündən cavabımı aydınlaşdırmadı.

İyirmi gün keçdi, M.Koxistani yenə mənə zəng edib, kədərli səslə dedi ki, Əfqanıstanın Rabitə nazirliyinin həmin xadiməsi vəfat edib və əgər istəyirəmsə, dalımca gələcək.

Söylədim ki, əgər etiraz etmirsə, həmkarım Abdul Qani ilə Rabitə nazirliyinə, onun yanına BMT-nın maşını ilə gəlib, onu götürərik. O razılaşdı və Abdul Qani ilə birlikdə iyirmi dəqiqədən sonra M.Koxistaninin yanında idik.

Abdul Qani sürücümüzə hara gedəcəyimizi söylədi.

Tezliklə eyni şəraitli, eyni anma mərasimi keçən həmin məscidə gəldiyimizi görəndə çox təəccübləndim.

Çox təəccüblənmişdim, amma hisslərimi göstərməməyə çalışırdım, qərara aldım sonra Layihəmizin yerinə yetirildiyi idarədə nədənsə gözdən itmiş Abdul Qanidən ətraflı öyrənim.

İdarəmizə qayıdanda Abdul Qanini otağıma çağırıb soruşdum:

- Abdul, zəhmət olmasa, söylə, mərhum Kabildə yaxud Rabitə nazirliyində hansısa məşhurun anası idi?

- O (*təəccüblə*) yox, xanım tənha qadın idi, nə ailəsi, nə də uşağı yox idi. Niyə belə sual verdiniz?

Mən isə utanaraq:

- Qoy bu söhbət aramızda qalsın, ancaq mən bir şeyi aydınlaşdırmaq istəyirəm. Nazirliyin Poçt rabitəsi İdarəsinin rəisini dəfn edəndə, anlayırım, mərhum neçə il Əfqanıstanın Rabitə nazirliyində çalışıb, ona görə də mərasim bu qədər yüksək səviyyədə keçirilmişdi. Amma bu, yazıq xadimə, kim onun üçün demək olar oxşar dəfn mərasimini təşkil etmişdi? Axı buna çoxlu xərc lazımdır, hələ Quranı oxumaq üçün mollaya verilən pulu demirəm.

- (*Abdul Qani karıxmış halda*) Siz hansı xərcdən danışırsınız?

- Dəfn mərasimi, Quranın və Yasinin oxunması, yüksək keyfiyyətli yemək, təmiz kətan salfetlər, üzərində oturduğumuz döşəkcələr, bir sözlə, hər şey.

- (*O təəccüblə başını yelləyərək*) Cənab Abdul, axı siz söylədiniz ki, müsəlmansınız, azərbaycanlılar – türklərdir və islamın dəyərləri ilə yaşayırsınız.

- Bəli!

- Onda bu suallar nə üçündür? İslam müsəlmanın cinsindən və rütbəsindən asılı olmayaraq, mərasimin yerinə yetirilməsini nəzərdə tutur. Dəfn mərasimi məsciddə keçirilir, yemək məscid tərəfindən verilir, mərhumlar üçün xidmət məscidin hesabına aparılır.

- Mən bəs hansı pula məscid bunları təşkil edir? – soruşdum.

- Müxtəlif dini mərasimlərdə məscid tərəfindən illərlə və günlərlə yığılan zəkat hesabına. Bir sualı başa düşmədim, müfti və mollanın Yasin və Quranı oxuması üçün verilən pullar haqqında soruşdunuz?

- Bəli!

- Siz nədir, Azərbaycanda Quranın oxuması üçün pul verirsiniz?

- Bəli, həm Quranın oxunmasına, həm qəbrin qazılmasına, həm müfti yaxud mollanın mərasimdə iştirakına, həm yeməyə və onu paylayanlara və s.

Qarşımda dayanan Abdul Qani oturdu.

- Cənab Abdul, sizdə Azərbaycanda bütün bunlar mərhumun ailəsinin hesabına edilir?

- Bəli! 1976-cı ildə rəhmətə gedən atamın mərasimində də bu cür olmuşdu. Onda özüm hər şeyi ödəyirdim, hətta borca da düşmüşdük.

- Cənab Abdul, zəhmət olmasa, məni bağışlayın, bəlkə azərbaycanlılar müsəlman deyillər, axı bu məscidin borcudur!

İzah etməli oldum ki, məsələn, altmış min əhalisi olan doğma şəhərim Göyçayda ancaq bir məscid var, onu da 1915-ci ildə tikiblər və Ayətolla Mir Fazil Ağa özü oranı işıqlandırıb. Onu isə Sovet hakimiyyəti Bakı Bayıl həbsxanasına sürgün etmişdi, sonra da yazıq ümumiyyətlə yoxa çıxdı. Azərbaycanın on minlərlə məscidindən yalnız yüzə yaxını qalıb, onun da yarısı anbarlara çevrilib, sevimli bahar bayramımızı – Novruzu keçirə bilmirik, bu bayramdan ötrü Şıxəli Qurbanov kimi böyük və vicdanlı milli liderimizi itirmişik.

Təxminən bir saatlıq söhbətimizdən sonra Abdul Qani dedi:

- Cənab Abdul, biz əfqanlılar necə də xoşbəxt millətik. İslam bərabərliyindən faydalanırıq və cinsindən, yaşından, tutduğu vəzifəsindən və həyat şəraitindən asılı olmayaraq, o dünyaya eyni gedirik. Bilirsiniz, cənab Abdul, mən siyasətdən uzağam və gördüyünüz kimi, rus dövlətinə loyal münasibətdəyəm, lakin sizdən eşitdiklərim məndə mücahidlərə qarşı iftixar hissi oyatdı, deməli, onlar bilirlər nə üçün mübarizə aparırlar, Allah onlara kömək olsun!

Bu söhbətdən sonra Əfqanıstanın bütün Rabitə nazirliyinin mənə münasibəti 180 dərəcə dəyişdi və qəribə olsa da yaxşı tərəfə. Mənə elə məlumatlar verdilər ki, heç Project AFG-83/001 Layihəsinin rəhbəri İsmət Hadidi də xəyalına gətirməzdi.

Bundan əlavə, Simens istehsallı ATS-2-də ölçü aparmağa icazə verdilər, burada mən ilk dəfə Əfqanıstanda Kabil şəhəri telefon şəbəkəsində (*ŞTŞ*) telefon yüklənmələri göstəricilərinin real qiymətlərini aldım.

Və, nəhayət, trafik və telefon sıxlığı üzrə apardığım tədqiqatlar və proqnozlar nəticəsində Əfqanıstanın Rabitə nazirliyi mənə elmi işlərimin Kabil ŞTŞ-də tətbiqi haqqında rəsmi Akt verdi.

Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə Əfqanıstanda BMT-nin eksperti missiyamı başa çatdıranda Əfqanıstanın Rabitə nazirliyi məni vətənimə rəsmi yolasalma mərasimi keçirdi.

Layihə üzrə rəhbərim (*İsmət Həmidi*) dedi:

- Sən beşinci adamsan ki, bu layidə qəbul edib, yola salıram, ancaq Əfqanıstandan bu cür yolasalma ilk dəfədir görürəm.

Qeyd etmək istəyirəm ki, BMT-nin eksperti qismində (*Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə*) üçüncü missiyamı yerinə yetirib bitirdikdən sonra Pakistandan qayıdarkən, cənab İsmət Həmidi Cenevrədə, BTİ-nin qərargahında regional layihənin müdiri işləyirdi və məni yenidən Cenevrədə görəndə xoş şəkildə təəccüblənmişdi. Həyat belədir, tarix təkrarlanır!

ATS-2-də trafiki ölçdüyüm günlərdə Əfqanıstanın Rabitə nazirliyinin Telekommunikasiya Departamentinin prezidenti Məhəmməd Cəlaləddin ilə tez-tez görüşürdük.

O mənim çalışqanlığımı görüb, dedi: "*Cənab Abdul, istəyirsiniz, sizə Simens istehsallı bu ilk avtomat telefon stansiyasının (ATS) Kabildə yaranması tarixini danışım?*"

Təbii ki, razılaşdım. O gülümsəyərək, başladı:

- Belə, *Konrad Herman İozef Adenauer*, 87 yaşında istefaya çıxan AFR-nın 1949-1963-cü illərdə ilk federal kansleri əllinci illərin axırında Kabilə gəlmişdi. 1933-cü ildən 1973-cü ilə qədər 40 il ölkəni idarə etmiş Əfqanıstanın padşahı Zahir-şah onu təntənəli şəkildə qəbul etmişdi. Söz gəzirdi ki, Zahir şah ürəyinin genişliyindən kansler Adenauerə qızıl, zümrüd və brilyantlarla örtülmüş, qiyməti milyon doyç markadan artıq olan gözəl bir qılınc bağışlamışdı. Kansler borclu qalmamağı qərarlaşdırıb, bəyan etdi ki, Kabilə Simens istehsallı 1000 nömrəlik yeni avtomat telefon stansiyası gətirib. Padşah xoşbəxt idi və kansler uçub gedən kimi nazirlərini çağırıb soruşdu ki, - bu stansiya hardadır?

Aydın oldu ki, Əfqanıstanın qızıl pullarına lazım idi: bu stansiyanı təmir etmək, xətt və abunəçi qurğuları çəkmək, sonra 1000 abonent üçün yeni nəsil telefon aparatları tələb olundu, Almaniyada stansiya və xətti qurğuların işçilərinin təlimi və s. Bütün hesablamalar bitəndə məlum oldu ki, Almaniya Əfqanıstanı uzun illər Simensə və on milyonlarla doyç markalara bənd etdi. Bunu başa düşüb, padşah Zahir şah dedi: "*Avropalılar hədiyyə almağı və bizdən pul qazanmağı sevirlər*".

Kabildə sonrakı, daha emosional hadisə bizim köhnə mikrorayonda, düz həyətimizdə, daha dəqiq, birinci mərtəbədəki pəncərələrimin qarşısında baş verdi.

Bazar günü idi. Həyətdə 8-9 yaşlarında oğlanlar oynayırdılar. Xüsusi bir şey gözlənilmirdi.

Birdən düz blokumuzun qabağında avtomat səsi gəldi. Əyilərək, mətbəxə gəldim, oradan həyətimiz aydın görünürdü.

Dilemma qarşısında idim: başımı qaldırıb baxım yaxud səfirliyimizin təlimatına uyğun olaraq, plastun kimi duşa gedim.

Mən fikirləşənə qədər evimizin pəncərələrinin şüşələrini səpələyən ikinci avtomat gülləsi yağdı.

Həyətə sükut çökdü. Yalnız beş dəqiqədən sonra ətraf hərəkətə gəldi və həyətə Əfqanıstanın XƏD-indən (*DTK*) onlarla hərbiçi gəldi.

Cürətlənib bloka çıxdım.

Həyətdə mən Kalaşnikov avtomatı əlində səkkiz yaşlı oğlanı gördüm. Gənc bir əfqan, adi əsgər, bu həyətin keşikçisi, qanaxma ilə həyətin ortasında uzanmışdı. Bura xüsusi hissə gəlmişdi. Gələnlərdən biri oğlandan nəsə soruşurdu, o isə uzanmış əsgəri göstərib, nəyisə başa salırdı.

Bu zaman qonşu evdən tərcüməçimiz gəldi.

Çox həyəcanlı məndən soruşdu: - Sizdə hər şey qaydasındadır?

- Hə. Sən yaxşısı budur tərcümə et onlar nədən danışır, niyə oğlan əlində Kalaşnikov avtomatını tutur?

Tərcüməçi oğlanın aşağıdakı sözlərini tərcümə etdi:

- "*Mən bu əsgərə artıq üçüncü dəfədir xəbərdarlıq etmişdim ki, böyük bacım evdən çıxanda və ya evə qayıdanda ona gözlərini bərəltməsin, onunla danışmağa cəhd etməsin yaxud görüşəndə gülümsəməsin. Xəbərdarlıq etmişdim ki, qardaş kimi təhqirə dözməyib, öldürə bilərəm və Allah məni bağışlasın, çünki mən ailəmin şərəfini qoruyuram. O isə hər dəfə mənə gülürdü, zarafat edib, boynumun ardına şapalaq vururdu və sözlərimə laqeyd yanaşırdı. Mən də günahkarı cəzalandırdım. Əgər lazımdırsa, sizinlə hara istəyirsiniz gedim. Mən əfqanlıyam, şərəfimi qoruyuram*".

Xüsusi hissənin təşvişi göz qabağında idi və birdən zabitlərdən biri ucadan nəsə dedi.

Səbirsizliklə tərcüməçiyə döndüm, o isə xəbər verdi ki, zabit keşikçini günahkar sayıb, tərk-silah edilməsini, hərbi xəstəxanaya, sonra isə istintaqa aparılmasını əmr etdi.

Xüsusi hissələr yaralanmış əsgəri də götürüb getdilər.

Zabit Kalaşnikov avtomatını göstərərək, oğlana döndü. Yenə tərcüməçidən zabitin sualının tərcüməsini xahiş etdim. Aydın oldu ki, zabit onda avtomatın hardan olduğunu soruşub. Oğlan dedi ki, qonşu blokun zirzəmisində daha bir neçə avtomat var və göstərməyi təklif etdi.

Zabit oğlanın ardınca getdi. Həyətə iynə atsaydın düşməzdi, elə bil, bütün Kabil burada toplaşmışdı.

Tezliklə zabit, oğlan və bir vətəndaş geri qayıtdılar. Əllərində bir neçə Kalaşnikov avtomatı və üstəlik, patronlar tutmuşdular. Zabit oğlana dedi:

- Lakin sən başa düşürsən ki, burada sənin də günahın var.

- Xeyr! Quranda deyilib ki, üç dəfə xəbərdarlıqdan sonra günahkarı cəzalandırmaq olar. Zabit susdu, elə bil o günahkar idi, oğlan yox. Onlar avtomatları götürüb, maşınlara oturub getdilər.

Təəccüblüsü o idi ki, həqiqətən oğlana daha yaxınlaşmadılar və missiyamın axırınadək o həyətdə oynayırdı.

"*Məğlubiyyət deyil,*
*ən aşağı məqsəd dözülməzdir*"
Ceyms Rassel Louel (1819-1891)

## 5.5. Atəşli Əfqanıstandan dönüş.

Moskva-Kabil marşrutundan fərqli olaraq, cəmi 5-6 kq əl baqajı olarkən (*elə ona görə gənc ukraynalı anaya, Tatyanaya 20 kq-lıq şorba və digər ərzağı aparmaqda kömək etdim*), Kabil-Moskva dönüş reysində maksimum icazə verilən çəkidə baqaj götürməliydim.

Yaxşı ki, nədənsə nə Kabildən 50 km məsafədə yerləşən Bağram aeroportunda, nə təyyarədə baqaja heç bir diqqət yetirmədilər.

Düzünü desəm, yoldaşım Subinin heyran olduğu yapon musiqili çay dəstindən başqa (*o zamanlar SSRİ-də bütün istehlak mallarına ümumi defisit vardı, qısaca, dükanlarda top oynat, həm ərzaq, həm paltar, həm də təsərrüfat malları defisit idi*), əllərim müxtəlif qab-qacaqla dolu idi, hansıları biz hələ də evdə məmnuniyyətlə istifadə edirik.

Ona görə də Kabildən uçanlar üçün problem Moskvada idi, lakin mənim üçün deyil, diplomatik və BMT-nin pasportu var idi.

Həyat yoldaşım Kabildən gələnlərin ümumi axını içərisində məni axtararkən, VIP (*Çox Vacib Şəxslər*) üçün ayrılmış xüsusi keçiddən çıxıb, dərhal Subinin qollarındakı oğlum Həmidi gördüm.

Bəli, nəhayət ki, doğmalarımla birgə Moskvadayam.

Növbəti gün Xarici İqtisadi Əlaqələr Nazirliyində (*XİƏN*) idim, oradan məni Sülh Fonduna göndərdilər. Burada Əfqanıstandakı SSRİ-nin Səfirliyinin mühasibatlığında mənə verilən bütün dollarları (*təxminən otuz min*) könüllü surətdə Sülh Fonduna verdiyim barədə şəxsən imzaladım.

Buna görə XİƏN-də mənə qazandıqlarımdan az miqdarda pula qəbzlər verdilər, bu da imkan verdi ki, o zamanlar üçün çox

yaxşı sayılan xarici mağazalardan (*Moskvada "Beryozka" və Bakıda "Çinar"*) bəzi şeylər alaq...

Əgər düzünü desəm, bu pullar o qədər boş yerə getdi ki, bugünkü gün, 67 yaşımda ikən, öz-özümdən soruşuram, bu çeklər üçün Əfqanıstana güllə altına getməyə dəyərdimi?

Lakin, ən əsası, bu səfərin mənə verdiyi Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə BMT-nin eksperti qismində keçdiyim sahə sınağı idi.

Əfqanıstanda SSRİ-nin Səfirliyinin baş məsləhətçisi statusu dünyanın istənilən ölkəsində SSRİ-nin səfirliyinin işçisi olmaq imkanı verirdi, amma bunun üçün yüksək vəzifəli məmurun (*qohumun yaxud dostun*) himayəsi tələb olunurdu ki, o da məndə yox idi.

Lakin şübhəsiz, Əfqanıstan mənim üçün Beynəlxalq Telekommunikasiya İttifaqının (*International Telecommunications Union* (*ITU)*) digər layihələrinə yol açdı.

Beləliklə, bu ilk sahə sınağı mənim üçün növbəti iki səfərə (*Liviya və Pakistan*) yol açdı ki, bu da öz növbəsində bütün Azərbaycanın layiqli müvəffəqiyyəti oldu, belə ki, onun mütəxəssisi – rabitəçi üç dəfə Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə ekspert qismində xaricdə çalışdı.

Hava limanında Subi dedi ki, mərkəzdən uzaq yerləşən hansısa mehmanxanada işə düzəlib. Həmin gün Moskvanın mərkəzindəki Sretensk bulvarında yerləşən SSRİ-nin Rabitə nazirliyinin mehmanxanasına köçdük.

Və, əlbəttə ki, ertəsi gün məşhur *"Beryozka"*da idik, burada, Parisdəki kimi, normal insanların istədiyi hər şey vardı.

Moskvada keçən bu 3 günü həyatımızın gözəl bir dövrü kimi, Sübi ilə hələ də tez-tez yada salırdıq.

Moskvadan qayıtdıqdan sonra bütün qohumlarımızı ziyarət etməyə çalışdıq. Həm bacım Nailəyə, həm də onun bacısı Ceyrana hədiyyələri *"Çinar"*dan almışdıq. Lakin birotaqlı mənzilin ikiotaqlıya dəyişdirilməsi məsələsinin həllinə müvəffəq olmadıq.

Amma Şaumyan küç. 26/28 ünvanındakı evimizin qarşısında yerləşən DİN/DTK-nin məhəlləsindəki həyətdə bunu etməyə imkan vardı.

Əfqanıstandan sonra kafedramızda 1986-cı ildə aktual olan yeni "*Kommutasiyanın və elektrik rabitə şəbəkəsinin rəqəmsal sistemləri (KvəERŞRS)*" fənni üçün tədris proqramlarının tərtibatının vacibliyi məsələsi qəti şəkildə qoyuldu.

Döndükdən on gün sonra kafedra müdirimiz Həsənov Əlşan müəllim məni üçüncü mərtəbədə kafedramızın giriş qapısının qarşısındakı pəncərənin önünə çəkib dedi: "*Abdul, gəl centlmencəsinə, kişi kimi əsas dərsləri aramızda bölüşdürək. Mən, böyük kimi, kommutasiyanın elektromexaniki sistemləri ilə məşğul olum, sən isə, gənc, kommutasiyanın rəqəmsal sistemləri məsələlərinin hamısı ilə məşğul ol. Mənə yenilərin öhdəsindən gəlmək asan olmayacaq, sən isə bununla İngiltərədə məşğul olmusan*".

Dedim: - Yaxşı.

Ona görə Əfqanıstandan qayıdandan sonra, 1986-1991-ci illərdə kafedramızın yeni kursu - "*Kommutasiyanın və elektrik rabitə şəbəkəsinin rəqəmsal sistemləri (KvəERŞRS)*" üzərində çalışdım, Bakıda və Moskvada kvazielektron və elektron ATS üzrə bir çox metodiki işlər və dərs vəsaitləri buraxdım.

Qabağa qaçaraq, qeyd edim ki, bu istiqamətdəki dörd illik böyük əməyim və KvəERŞRS fənni üzrə bir neçə fundamental əsərlərin nəşri dekanın və kafedra müdirinin paxıllığına səbəb oldu.

Asan deyildi. Azərbaycan üçün həmin çətin illərdə hər kəs güclü və müvəffəqiyyətli olduğu (*siyasətçilər – siyasətlə, alimlər isə elmlə*) işlə məşğul olmalı idi.

1989-cu ilin ikinci yarısında Moskvada istisasartırma kurslarında idim və eyni zamanda iki istiqamətdə işləyirdim: *metodiki göstərişlər və dərs vəsaiti.* Kurslar Moskva Elektrotexniki Rabitə institutunun (*MERİ*) İxtisasartırma fakültəsində, "Avtomatik elektrik rəabitəsi" kafedrasında keçirilirdi (kafedra müdiri –

Pşeniçnikov A.P., işçilər – Nesterova A.V. və Popova A.Q.). İlk dəfə üç moskva kafedrasının əməkdaşları ilə birgə elmi əsərlər nəşr edilmişdi:

8. Qəhrəmanzadə A.H. “System-X” kommutasiyasının elektron sistemi. ETİM, ”*İnforməlaqə*” № 9., M., 1989, s.1-12.
9. Qəhrəmanzadə A.H. ŞTS-da EHM-lə stansiyalararası yükün təyini metodu. “*Azərbaycanın Xalq Təsərrüfatı*” № 11, Bakı, 1989, s. 61-64.
10. Qəhrəmanzadə A.H. RKS vəziyyəti və inkişaf perspektivləri (*Tezislər*) A.Popov ad. ETC-in Respublika konfransı, Bakı,1989, s.6-8
11. Qəhrəmanzadə A.H. Dərs vəsaiti. “*System-X*” kommutasiyasının elektron-rəqəmsal sistemi. AzPİ nəşriyyatı, Bakı, 1989, 50 s.
12. Qəhrəmanzadə A.H. DMS-100 kommutasiyasının elektron-rəqəmsal sistemi (*Tezislər*). ETC-in Resp. konfr., Bakı, 1990, s. 48-49
13. Qəhrəmanzadə A.H., Nesterova A.V. İkiqat əmsalların köməyilə ŞTS-da stansiyalararası yük axınının proqnozlaşdırılması üzrə metodiki göstəriş. MRİ nəşr., M., 1991, 16 s.
14. Qəhrəmanzadə A.H., Qəhrəmanzadə S.D. Trafikin proqnozlaşdırılması – müasir rabitə şəbəkələrinin layihələndirilməsinin əsası. ETİM. M., “*İnforməlaqə*”. № 1, 1991, 44 s.
15. Qəhrəmanzadə A.H. ATSE-200 tipli kommutasiyanın rəqəmsal sistemlərinin layihələndirilməsinin əsasları. Metodiki göstərişlər. AzTU, Bakı, 1991, s.81
16. Qəhrəmanzadə A.H. DMS-100/200 kommutasiyanın rəqəmsal sistemi. ETİM, “*İnforməlaqə*”, № 5, M., 1991, 21 s.
17. Qəhrəmanzadə A.H., Popova A.Q. və d. Avtomatik kommutasiyanın xarici sistemləri. Dərs vəsaiti. MRİ nəşr., M., 1991, 83 s.

Sonra bu kurs üzrə proqrama hazırlıq və tamamlanması başlandı. Lakin müasir rəqəmsal texnologiyaların gələcək

perspektivi ona gətirdi ki, həmkarım tərəfindən verilən söz unuduldu. Bu fənn üzrə praktiki olaraq hazırladığım və tamamladığım təlim kursunun məndən alınması cəhdləri ilə 2002-ci ilə qədər uzanan çəkişmələr başlandı.

Beləliklə nə centlmen, nə də kişi qalmışdı.

Kafedrada müasir Kommutasiyanın Rəqəmsal Sistemləri (*KRS*) üzrə birinci idim, bu da məni öz üzərimdə daha çox çalışmağa vadar edirdi.

Lakin nəinki mənim, həm də bütün Azərbaycan əhalisi üçün ən ağır il 1990-cı il oldu. Xalq Bakıdakı 20 yanvar 1990-cı il faciəvi hadisələrdən sarsılmışdı.

"*Qara 20 yanvar*" hadisələri "*Yenidənqurma*" dövründə, Ermənistan tərəfindən başlanmış və Azərbaycana toxunmuş Qarabağ münaqişəsinin fonunda baş verdi. 1989-cu ilin iyul ayında Azərbaycanda milli hərəkatın başında duran siyasi təşkilat Azərbaycan Xalq Cəbhəsi (*AXC*) yarandı. Azərbaycan milli hərəkatının böyüməsinin əsas səbəbi Qarabağ məsələsi idi. Qarabağ böhranını həll etmək üçün mərkəzin boş səyləri ilə yanaşı, respublikanın rəhbərliyinin Azərbaycanın milli maraqlarının müdafiəsində bacarıqsızlığı (*qaçqınların yoxsul vəziyyəti və bir çox yerli şikayətlər*) dekabrda AXC-nin başçılığı altında xalqın qəzəbinə səbəb oldu.

Gecə yarısından başlayaraq elan olunmuş fövqəladə vəziyyətin şəhərdə tətbiqi haqqında fərmanı rəhbər tutaraq, 1990-cı ilin 19-dan 20-ə keçən gecə sovet ordusu Xalq cəbhəsinin darmadağın və Azərbaycan Kommunist partiyası hakimiyyətinin xilas edilməsi məqsədilə Bakıya hücum etdi.

Telefiziya efirinin (*televiziya stansiyasında enerji təchizatının təşkil olunmuş partlayışından sonra*) 19:30-da söndürülməsi səbəbindən şəhərin sakinləri xəbərsiz idilər. Bakılıların çoxu fövqəladə vəziyyətin tətbiqi haqqında yalnız səhər 5:30-da radio ilə edilmiş elandan və vertolyotla səpələnmiş vərəqlərdən xəbər tutdular. Amma artıq çox gec idi.

Bakıda yeni gün, şəxsən mənim hafizəmə, Bakı şəhərinin "*Azadlıq*" meydanından televiziya kadrları ilə yazıldı, buradan milyonlarla azərbaycanlı Bakı şəhərinin dağlıq hissəsinə şəhidləri dəfn etmək üçün hərəkət edirdi.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri Elmira Qafarova radio ilə fövqəladə vəziyyətin elanını və Bakıya ordunun girməsini qəti ittiham edərək çıxış edirdi, bunun onun xəbəri olmadan baş verdiyini iddia edirdi.

Mahiyyətcə, o zamankı Azərbaycanın liderlərindən xanım yeganə adam idi ki, öz vətəndaş mövqeyindən geri çəkilməmişdi.

Hərbiçilərin məqsədi Bakı limanına soxulmaq idi, orada, kəşfiyyatın məlumatına görə, Sabit Orucov teploxodunda Xalq Cəbhəsinin qərargahı yerləşirdi. Əməliyyatın sonunda DTK-nin xüsusi hissəsinin təxribatçılığının köməyilə Bakı Teleqülləsindən yayımlama dayandırılmışdı.

Bakıdakı üsyan yatırıldıqdan sonra Sovet Ordusu Azərbaycanın şəhərlərində devrilmiş sovet hakimiyyətini bərpa etdi. Azərbaycan SSR Ali Sovetinin hadisələrin araşdırılması üzrə komissiyasının iddiasına görə, bu aksiya "*cəza aksiyası olaraq, qəsdən planlaşdırılmış və həyasızcasına həyata keçirilmişdir və Azərbaycanda və Sovet İttifaqının digər respublikalarında müstəqillik hərəkatının qarşısını almaq üçün qorxu dərsi vermək məqsədini daşıyırdı*".

Çox əminəm ki, Bakıya Sovet Ordusu hissələrinin girməsi bütün Azərbaycanın yaddaşında faciə olaraq qaldı.

Güman edirəm, məhz 20 yanvar 1990-cı il Moskva və ümumiyyətlə Rusiya, mahiyyətcə, Azərbaycanı əbədi itirdi.

Axı bizim tolerant xalq başa düşürdü ki, DQR-da Qarabağ hərəkatının bütün ssenarisi Moskvada Ermənistanın xeyrinə yazılmışdı. Bu, Rusiyaya inamın son damlası idi.

Demək olar ki, Bakının bütün əhalisi, təxminən 2 milyon, yanvarın 22-si şəhidlərin (*faciənin qurbanları*) ümumi dəfninə çıxmışdı.

Şəhidlər müstəqillik uğrunda mübarizənin qəhrəmanları kimi, sonradan Şəhidlər Xiyabanı adlandırılmış S.M.Kirov ad. parkda dəfn edildilər.

Həmin gün bütün Azərbaycanda iş dayandırılmışdı (*aeroport, vağzal, şəhərlərarası telefon rabitəsi*) və bütün matəm günləri Xəzər dənizi gəmilərinin sirenası hər saat səslənirdi.

Azərbaycanda hamı anlayırdı ki, Moskva bu qəddar hərbi aksiyanın keçirilməsini erməni əhalisinin müdafiəsinin vacibliyi üçün əsaslandırırdı, amma hamı bilirdi ki, əslində aksiya kommunist hakimiyyətinin xilası üçün idi.

Heç şübhəm yoxdur ki, 20 yanvar şəhidlərin anılmasının matəm günü kimi, həmişə Bakıda müstəqil Azərbaycanın ümumxalq hüzn Günü kimi qeyd olunacaq.

Güman edirəm, həmin gün şəhidlərin qəbirlərinə güllər gətirməklə, Şəhidlər Xiyabanına yüz minlərlə insan gələcək, bu faciənin qurbanlarını yad edəcək.

Bu gün Azərbaycana səfər edən rəsmi şəxslər də Şəhidlər Xiyabanını ziyarət edirlər.

Həmin günlərdə insanlar, qəlblərinin səsi ilə, Kommunist partiyası sıralarını kütləvi şəkildə tərk edirdilər, o cümlədən Azərbaycan Politexnik institutunda da, fakültəmiz və kafedramız da daxil olmaqla (*amma hamı deyil*).

Lakin üç ay keçmədi ki, əks, qeyri-təbii proses başladı, məncə, insanlara təzyiq yolu ilə, yəni oynadınız bəsdir, gedin partiya biletlərinizi götürün.

Əsasən bu bizim Elektrotexnika fakültəsində xoşagəlməz idi, may ayında ETF-in ümumi iclasını keçirərək, insanlara təzyiq göstərirdilər.

Yaxşı xatırlayıram, bu iclasda dekan insanları necə açıq-aydın hədələyirdi ki, ağlınızı başınıza yığın, biletlərinizi götürün.

Çıxış edərək, ictimaiyyət qarşısında bunlara, belə desək, yerli knyazlara müraciət etdim ki, şəxsən sizin ixtiyarınız var öz biletlərinizi qaytarmağa, lakin başqalarını məcbur edə bilməzsiniz – bu zorakılıqdır.

Çıxışımı məşhur Azərbaycan atalar sözü ilə bitirdim: “*Kişi tüpürdüyünü yalamaz*”.

Bundan əlavə, bu təbliğata nöqtə qoymaq üçün ailəmlə məsləhətləşib, soyadımı Qəhrəmanovdan Qəhrəmanzadəyə dəyişdim, bütün fakültə tam məəttəl qalmışdı.

Amma əsas hadisə sentyabrın əvvəlində baş verdi, Sovet İttifaqı artıq yox idi, tamamilə və həmişəlik dağıldı.

Yaxşı yadımdadır, bizim Texniki Universitetin (*AzTU*) dəhlizində ETF-in dekanı Famil Məmmədovu görüb soruşdum: "*Hə, Famil müəllim, Sov.İKP-ni bərpa edək?*"

O qızardı, lakin susdu və 2002-ci ildə "*ssenari*" üzrə Azərbaycan Texniki Universitetinin (*AzTU*) prorektoru olanda məndən intiqam almağı yaddan çıxarmadı.

Bundan əlavə, o, 2002-ci ilin iyun ayında üç monoqrafiyamın dərc edilməsinə baxmayaraq, doktorluq dissertasiyamın müdafiəsinə hazırlaşmağım üçün yaradıcılıq məzuniyyətinə çıxmağıma mane oldu.

Məhz o məni, mahiyyətcə, 25 il işlədiyim AzTU-dan Azərbaycan Milli Elmlər Akademiyasının (*AMEA*) Kibernetika İnstitutuna getmək qərarını almağa vadar etdi.

Bundan başqa, o AMEA Kibernetika İnstitutunun direktoruna, "*niyə o məni işə götürüb*", iddiaları ilə zəngi təşkil etdi. Lfkin bu pislik də işə yaramadı.

Ancaq Allah böyükdür, hər şey bu adama nə ilə qurtardı?

Nə isə pislik özünə qaldı.

Mən isə həmin illərdə azərbaycan dilində "*Rəqəmli Kommutasiya Sistemləri*" adlı ilk dərs vəsaitini sərbəst hazırladım, və 1995-ci ildə onu "*Maarif*" nəşriyyatı dərc etdi.

Məhz bu, Pakistandan sonrakı illərdə ilk dəfə "*Maarif*" nəşriyyatı ilə tanış oldum, çapın köhnə, baba texnologiyası üsulları ilə işləyirdi. AzTU-dakı kafedralarımız üçün müstəqil Azərbaycanın Təhsil nazirliyi tərəfindən ilk dəfə təsdiq edilmiş bu dərs vəsaitinin nüsxələrinin sayı 1000 idi.

Bu dərs vəsaitinin işıq üzü görməsi və onun "*Elektrik əlaqə*" kafedrasından, necə deyərlər, çıxan üç kafedranın əməkdaşlarının

iştirakı ilə kafedramızda sivil təqdimatı mənə olan həsədi daha da artırdı. Görünür, onlar başa düşürdülər ki, mənim üçün artıq doktorluq dissertasiyasına yol açıqdır və bununla barışa bilmirdilər.

Və, düzünü desəm, bu üç kafedra müdirlərini ötüb keçməyə hazırlaşmırdım və ona görə özümü daha mülayim və sakit, "*Uşaqlar, gəlin dost olaq*" prinsipi ilə aparırdım.

Bu paraqrafa daxil etmək istədiyim son şey, 1990-cı ilin iyununda axırıncı dəfə ailəmlə Moskvada olarkən, Moskvanın mərkəzində, Sretensk bulvarındakı SSRİ-nin Rabitə nazirliyinin mehmanxanasında baş verən hadisədir.

Məhz axırıncı dəfə, çünki bu hadisədən sonra Sübi artıq mənimlə Moskvaya getmək istəmədi.

Dördümüz şəhərdən "*Vremya*" proqramının başlanğıcına qayıdırdıq və Subidən xahiş etdim ki, uşaqlarla nömrəmizə getsin, mən isə üçüncü mərtəbənin dəhlizində yarım saata Qarabağ haqqında son xəbərlərə qulaq asacağam.

Dəhlizdə məndən başqa kresloda bir rabitəçi, hərbi mayor da (*yenə bu mayorlar*) əyləşmişdi, Qarabağdan xəbərlərin verildiyi ilk dəqiqələqdən açıq şəkildə söyərək, ermənilərin mövqeyini müdafiə edirdi.

Mən buna dözməyib, ona sualla müraciət etdim:

- Doğrudan da siz bütün bunlara inanırsınız?

Fikirləşdim ki, o zabitdir, tərbiyəsiz olmaz və televiziyanın, xüsusilə də "*Vremya*" proqramının bütün söylədiklərinin qeyri-obyektivliyini tarixi sübut etməyə başladım.

Bilmirdim ki, bu mayor üstəlik sərxoşdur.

O özündən çıxmağa başladı:

- A, Azərbaycan Moskvaya sənin kimi tarixçilərini göndərir ki, əksini sübut etsinlər.

Və birdən xidməti silahını çıxarıb məni hədələməyə başladı.

- Birincisi, mən rabitəçiyəm, texniki elmlər namizədiyəm, "*Avtomatik elektrik rabitəsi*" kafedrasının dosentiyəm. İkincisi, sən,

savadsız axmaq və tərbiyəsiz, doğrunu erməni təbliğatından ayıra bilmirsən.

O, hələ də Makarov tapançasını tutaraq, deyir:

- Burada erməni yoxdur, burada mən və sən, azərbaycanlı varıq.

- Xeyr, səhv edirsən. Sən, başıboş, ya operatoru, ya da verilişin aparıcısı erməni olan bu proqramla becərilmisən. Gəl daha iyirmi dəqiqə "*Vremya*" verilişinin axırınadək oturub, verilişin bu 30 dəqiqəsi ərzində nə qədər ermənínin bütün Rusiyanı aldatmasına birgə əmin olaq.

Bundan əlavə, cibimdən qələmimi çıxarıb, jurnal masasından əlimə keçən ilk qəzeti götürüb, "*Vremya*" proqramında iştirak edən ermənilərin soyadlarını yazmağa başladım.

"*Makarov*"a məhəl qoymadan bu proqramın bütün operator və aparıcılarının soyadlarını aydın şəkildə qeyd etdim.

Amma mayor görəndə ki, ermənilərin siyahısı qəzet üzərində uzanıb gedir, əvvəlcə xidməti silahını endirdi, sonra isə ümumiyyətlə gizlətdi. "*Vremya*" proqramı qurtaranda isə o üzr istəyib, getmək istədi.

Onu dayandırıb, millətini soruşdum. O isə başını qaldırmadan cavab verdi: "*Bəli, axmağam, rusam*".

- İş sənin millətində deyil, ondadır ki, niyə yüzmilyonluk rus xalqı olarkən, sizin "*Vremya*" proqramını ermənilər idarə edir? Nədir, rus televiziyada işləyə bilməz? Hara gəlib çıxmısız, arağa başınız qarışıb, üzünüzü itirmisiniz və sizi, axmaq kimi, ermənilər idarə edir. Amma düzünü deyin, bu alçalma sizə toxunmur? Bu cür böyük rus millətini gəlmə ermənilərin manipulyasiya etməsi məgər təhqiredici deyil. İş yalnız Qarabağda deyil, əgər oyanmasanız, Sovet İttifaqını itirəcəksiniz, onilliklərdən sonra isə bütün Rusiyanı. Bu ermənilər həmişə güclülərin nökəri olub, ya yunanların, ya fransızların, ya ingilislərin, ya da Rusiyanın, indi isə ABŞ-ın. Siz içənə qədər onlar İttifaqı dağıdacaq, sonra da bütün Rusiyanı, Böyük

Krım xanlığını dağıtdıqları kimi. Nə vaxt ayılacaqsınız? Axı siz uçurumun kənarındasınız!

Mayorun rəngi qaçdı, bilmədi nə cavab versin, dedi: "*Əgər bizim siyasi rəhbərlərimiz sizin kimi savadlı olsaydı*".

Ayağa qalxdı, hərbi formasını düzəltdi, üzr istəyib, sağollaşaraq getdi.

Mən isə nömrəyə daxil olanda uşaqları yatmış görüb, hamısını həyat yoldaşıma Sübiyə danışdım.

Özümü qəhrəman saymırdım, amma sevinirdim ki, heç olmasa bir adama problemin mahiyyətini aydın izah edə bildim.

Bundan əlavə, əminəm ki, o artıq heç kimə xidməti silahını qaldırmayacaq, şükür Allaha.

Əsas odur ki, qoruyucu-mələyim mənimlədir və Allah eləsin, o həmişə məni qorusun, həm məni, həm də Qarabağ həqiqətini.

Burada qeyri-ixtiyari 1993-cü ildə Ceyhun Mirzəyevin çəkdiyi "*Fəryad*" adlı Azərbaycan filmini xatırladım, şübhəsiz, həqiqətən yüksək səviyyəli bədii filmdir və Azərbaycan kinomotoqrafiyasının tarixinə çox qiymətli bir töhfədir.

Çox təəssüf ki, Ceyhun Mirzəyev filmin çəkilişindən bir il sonra, 1994-cü ildə vəfat etdi. Film Qarabağ müharibəsi illərində azərbaycanlı zabitin həyatından, o vaxtlar Qarabağda baş verən hadisələr haqqında söhbət açır. Film "*Azərbaycanfilm*" və "*Aşkarfilm*" kinostudiyalarında çəkilmişdir.

Ssenari üzrə, ayağından yaralanan zabiti – İsmayılı bir evdə saxlayırlar, zirzəmisində Ermənistanla ünsiyyət qurmaq mümkün olan dəhlizi (*katakomba*) var ki, burada həm hərbi, həm də mülki ermənilər gizlənir. İsmayılın yaralı ayağına baxan erməni həkim ona pıçıltı ilə gizli zirzəmiyə işarə edir, haraya ki, ermənilər hər bombardmanda qaçaraq, yeraltında tam təhlükəsizlikdə qalırlar.

Qeyri-ixtiyari mən 1974-cü ili xatırladım, Azərbaycanın Rabitə nazirliyinin apparatında ŞTŞ şöbəsinin müdiri və Şəhər və kənd telefon rabitəsi idarəsinin (*ŞKTRİ*) rəis müavini işləyirdim. O zaman Rabitə nazirliyinin Məmmədova Zara Abbasovnanın rəhərlik

etdiyi birinci (*məxfi*) şöbəsindən birinci dərəcəli icazəm vardı. Məxfi direktivlər daxil olduqca bu və ya digər sənədlərə yazılı və şifahi resenziya və rəy verməli olurdum. Bütün bunlar Bakıda yüzlərlə "*Azərbaycan geniş addımlayır*" yazılı plakatların asıldığı və hər il Azərbaycanın Sov.İKP-nin və SSRİ Nazirlər Sovetinin qabaqcıl qırmızı bayraqlarını aldığı zamanlarda baş verirdi.

1974-cü ilin iyun ayının əvvəlində birinci məxfi şöbənin müdiri məni yanına çağıraraq, müharibənin başlanması və ya atom bombardmanı halları üçün Azərbaycanın ərazisində Mülki Müdafiə (*MM*) obyektinin tikilməsi haqqında sənədlə təcili tanış olub, qiymətləndirməyimi xahiş etdi. Bu cür tapşırıqlar mənə hər dəfə zəruri hallarda, məxfiliyə və gizliliyə tam əməl olunmaqla, verilirdi. Hətta ŞKTRİ rəisim Lazinskiy Naum Borisoviç məndən soruşmurdu ki, orada saatlarla nə ilə məşğul oluram.

Layihəyə görə, bu iri yeraltı tikili idi, əgər müharibə olarsa, vətəndaşlar (*təxminən on minlələ*) burada demək olar ki, illərlə yaşaya bilərlər, normal yaşayış üçün kommunikasiya və kanalizasiyanın bütün növləri ilə təchiz edilirdi. Burada tam elektrik təchizatı (*bu məqsəd üçün ehtiyat generatorları və benzin tədarükü ilə*), nəqliyyat, rabitə və hətta içməli su arteriyaları olan bir neçə çıxış və giriş nəzərdə tutulurdu. Əsasən toxunulmaz ehtiyatlar (*TE*) üçün xüsusi iri anbarlar ayrılmışdı: insanların həyatını təmin etmək məqsədilə ərzaq, paltar, təsərrüfat ehtiyacları üçün materiallar.

Hər şey razılaşdırılıb, başa çatdırıldıqdan sonra Zara Abbasovnaya əsaslı bir sual verdim: bu çox kilometrlik yeraltı tikili MM harada tikiləcək, axı rabitənin keyfiyyəti, əsasən də onun xətt qurğuları bizim rabitə qovşağına qədər olan məsafədən əhəmiyyətli dərəcədə asılıdır. Zara Abbasovna bu suala təəccübləndi və cavab verdi ki, məgər bu belə xüsusi əhəmiyyət daşıyır? Ona, rabitəçiyə (*Leninqrad Dövlət Universitetinin hüquq fakültəsini əla bitirmişdi*) olduğu kimi deyil, başa salmalı oldum ki, ölkənin əsas gizli rabitə qovşağı Azərbaycanın Şamaxı rayonunun dağlarında yerləşir, ondan

görünür nəinki Azərbaycanın, hətta, ola bilər, bütün Zaqafqaziyanın elektrik əlaqəsi asılıdır.

Buna o məndən təəccüblə soruşdu ki, "*doğrudan, bəs onda nə üçün onlar bütün bunları Ermənistanla sərhəddə, Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) nəzərdə tuturlar?*". Beləcə öyrəndim ki, bu iri istehkam tikilisi DQMV-də tikilir.

İşin mahiyyətini anlayıb, Zara Abbasovna dedi: "*Bəli, Abdul, sən məni çaşdırdın, bu haqda xüsusi fikir hazırlamalı olacağam, bizim Şamaxı coğrafi olaraq Azərbaycanın mərkəzində yerləşirsə, onda sual olunur, nə üçün bu cür tikili ermənilər üçün tikilir, o ki Azərbaycanın əhalisi üçün nəzərdə tutulub*".

Çox təəssüf ki, bu hadisədən düz dörd ay sonra Azərbaycanın Rabitə nazirliyinin apparatından prof. M.A.Bonç-Bruyeviç ad. Leninqrad Elektrotexniki rabitə institutunun əyani aspiranturasına getməli oldum. Oradan qayıtdıqdan sonra məni Rabitə nazirliyinin apparatına geri götürmədilər və MM tikilişinin aqibəti haqqında heçnə öyrənə bilmədim.

Bu gün Azərbaycan televiziyasının bütün kanallarında bu bədii filmə baxarkən, istəmədən öz-özümə sual verirəm, 1993-cü ildə çəkilmiş C.Mirzəyevin bədii filmindəki yeraltı tikili həmin tikilidirmi?

Sual ortaya çıxır, bəs Azərbaycanın partiya, inzibati, dövlət və hüquq-mühafizə orqanları harda idi? Doğrudanmı, biz həmin illər yalnız "*geniş addımlaya*" addımlaya bilirdik, bəs milli hisslərimiz, vətənpərvərliyimiz harda idi?

Bəlkə buna görə öz köklərimiz, sülaləmiz, millətimiz, dilimiz və mədəniyyətimiz haqqında çoxlu yazmalıyıq ki, başqaları üçün onların xilası naminə belə nəhəng yeraltı tikililər tikməyək...

Niyə biz böyük 10 min illik türk millətinə aid olduğumuzu, bizim də öz üstünlüklərimizin və ölkənin milli maraqlarının olduğunu dərk etməyə, anlamağa və fəxr etməyə qorxuruq!

*"Yaxşı yaşamaq üçün müstəqil yaşamaq lazımdır"*
Rene Dekart (1596-1650)

# VI. MÜSTƏQİL AZƏRBAYCAN

## 6.1. 1990-cı ilin Qara yanvarı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet hökuməti Siyasi büronun və şəxsən M.S.Qorbaçovun başçılığı altında Bakıda çox qəddar və dəhşətli bir cinayət aksiyası törətdi.

Yanvarın 20-si düz gecə yarısı (*daha doğrusu, saat 00.05-də*) Bakıya tanklar, ağır zirehli hərbi qüvvələr yeridilərək, əsl qırğın törədildi.

Ağır texnika (*tank və zirehli maşınlar*) canlı insanların üzərindən keçərək, arxasında yüzlərlə ölü və yaralı qoyurdu. Ordu müasir döyüş sürsatından istifadə edirdi, tanklardan, minomyotlardan, avtomatlardan insanlara atəş açılırdı. Hətta maraqlananlar da mənzillərində evlərin pəncərələrinə atəş açan əsgərlərin güllələrindən həlak olurdu.

Əməliyyata rəhbərlik edirdi: SSRİ-nin Müdafiə naziri, ordu generalı Yazov, Bakı qırğınından sonra marşal və Daxili İşlər naziri olan Vadim Bakatin.

Həmin gecə görünür, SSRİ-nin mərkəzi hakimiyyət tərəfindən Azərbaycan xalqına qarşı cinayət törədilmişdi.

Və yalnız yanvarın 20-i səhər, yəni şəhərə ordu yeridilərək, orada qırğın törədildikdən sonra SSRİ Ali Soveti Sədrinin (*M.S.Qorbaçovun*) Bakıda fövqəladə vəziyyətin elan edilməsi haqqında Fərmanı açıqlandı və əlbəttə ki, Azərbaycan Ali Sovetinin Rəyasət Heyətində bu məsələyə baxılmadan.

Görünür, M.S.Qorbaçov SSRİ-nin qüvvədə olan Konstitusiyasını qəsdən pozurdu.

Bakıdakı 20 yanvar faciəsinin kökləri Ermənistanın və onun Moskvadakı əlbirlərinin Azərbaycana qarşı son üç ildə (*1988-1990*) davam edən təcavüzkarlığında idi.

Bu gün 1988-1990-cı illərdəki hadisələrin təhlilindən açıq görünür ki, Ermənistan Azərbaycan Respublikası ərazisinin zəbtini təşviq edən Moskvadakı mərkəzi hakimiyyətin tam dəstəyi ilə hərəkət edirdi (*uzaqgörən siyasət*).

Görünür Qorbaçov Qərblə birlikdə SSRİ-yə qarşı gizli müharibə aparırdılar və Ermənistan da onların əlində "*hürən it*" idi. Ona görə də nə Vaşinqton, nə də Moskva hələ də Ermənistanı təcavüzkar adlandırmır və bizim Qarabağımız ermənilərə Sovet İttifaqının dağıdılmasındakı fəal iştiraklarına görə mükafatdır.

Bu hadisələrin açıq təhrikçisi SSRİ-nin saxta akademiki, Qorbaçovun iqtisadiyyat üzrə müşaviri A.Ağanbeqyan idi. O 18 noyabr 1987-ci ildə Parisdə olarkən, "*Yumanite*" qəzetinə verdiyi müsahibəsində deyirdi: "*İqtisadiyyatçı kimi hesab edirəm ki, o (yəni Qarabağ) Azərbaycandan çox Ermənistanla bağlıdır. Bu baxımdan mən bir təklif irəli sürmüşəm*".

Bu gün bütün Rusiya anlayır ki, M.S.Qorbaçovun Moskvanın erməni diasporunun köməyilə hakimiyyətə gəlişindən sonra Sov.İKP MK-nın içərisində, görünür, MKİ-nin (*ABŞ*) ssenarisi üzrə Sovet İttifaqının dağıdılmasına yönələn böyük planın bir hissəsi olan Azərbaycana qarşı da plan hazırlanırdı.

Axı bütün bunlar 11 fevral 1988-ci ildə Sov.İKP MK-nın şöbə müdiri V.Mixaylov Qarabağdan olan erməni nümayəndə heyətini qəbul edərkən başlandı, onlar yalnız bir sual qoyurdular: "*DQMV-nin Azərbaycandan ayrılmaq imkanı varmı?*". V.Mixaylov ermənilərin çoxdan gözlədiyi, ümidverici, gözlənilməz və çaşdırıcı cavabı verdi: "*Gedin və hərəkətə başlayın*".

Həmin günlərdə Ermənistan millətçilərinin əsas şüarı: "*Türklərsiz Ermənistan*" idi. 1988-ci ilin sonunda iki yüz minlik azərbaycanlı qaçqın vətənini, evini, bütün yığdığını itirərək, Ermənistandan Azərbaycana tökülüşüb gəldilər.

Lakin Ermənistanın bəşəriyyətə qarşı cinayət olan azərbaycanlılardan etnik təmizlənməsinə SSRİ-nin mərkəzi hakimiyyəti susaraq, reaksiya vermirdi.

Nə sovet ordusu (*Ermənistanda*), nə təhlükəsizlik orqanları, nə də SSRİ DİN-nin daxili qoşunları bu etnik təmizləməni dayandırmaq üçün heç bir tədbir görmürdülər.

Amma tezliklə Moskva Ermənistanın xeyrinə yeni bir addım atdı, bu 12 yanvar 1989-cu ildə baş verdi, SSRİ Ali Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətində A.İ.Volskiyin sədrliyi altında xüsusi idarəetmə formasını tətbiq etdi ki, bu da DQMV-ni birbaşa Moskvaya tabe edirdi.

Bu səhifəni Moskvadan olan həmyerlimiz, azərbaycanlı, "*Ocaq*" Azərbaycan mədəniyyəti cəmiyyətinin sədri Tofiq Məliklinin sözləri ilə bitirmək istəyirəm: "*1990-cı ilin Qara yanvarı bir çox sirrləri saxlayır. Bakı faciəsi haqqında bütün həqiqəti bilməliyik ki, o bir daha təkrarlanmasın. Bunu Şəhidlər Xiyabanında yatan günahsız insanların xatirəsi də tələb edir.*"

Həmin dövrün layiqli rəhbəri Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinin sədri E.M.Qafarova olaraq qalacaq, o 20 yanvar 1990-cı ildə radio ilə çıxışında Respublikanın suverenliyinin kobud şəkildə pozulması və Bakıda fövqəladə vəziyyətin elanı ilə bağlı qəti etirazını bildirdi.

Elmira xanım Qafarova kişi kimi bəyan etdi: "*Azərbaycan hakimiyyəti və hökumət orqanları fövqəladə vəziyyətin tətbiqi haqqında heç bir qərar qəbul etməyib və bu cür qərarın qəbuluna da razılıq verməyib*".

Ona görə də SSRİ ərazisində Bakı hadisələrinə cavab olaraq, 1990-cı ilin yanvarında müstəqilliyini ilk elan edən Azərbaycanın Naxçıvan ASSR oldu.

İngilis atalar sözündə əbəs yerə deyilmir ki: "*Öz tarixini bilmək istəyirsənsə, qonşularının tarixini öyrən*". Biz, azərilər çox yumşaq və tolerant millətik, 1905, 1912, 1918, 1920, 1943-1953, 1987-1989-cu illərdəki hadisələri unudub, bağışlamışıq. Lakin indi xalq özünə sual verir: "*Məgər 20 yanvar 1990-cı il hadisələrini unudacağıq?*", cavabı, şübhəsiz, mənfidir – YOX!

Yadımdadır, hardasa Ermənistan SSR KP MK-nin birinci katibi Q.Arutyunovun İosif Vissarionoviç Stalinə 1945-ci il noyabr tarixli məktubundan danışılırdı, burada o, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq, Sovet Ermənistanının tərkibinə salınması təklifini irəli sürürdü.

Yaxşı ki, Azərbaycan SSR KP MK-nin birinci katibi Mircəfər Bağırov cavabında qarşılıqlı tələb irəli sürdü və bundan sonra məsələ çıxarıldı.

Lakin iki il keçmədi, 23 dekabr 1947-ci il tarixində İ.V.Stalinin imzası ilə SSRİ Nazirlər Sovetinin "*Kolxozçu və digər azərbaycan əhalisinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında*" qərarı çıxdı.

Bu sənədə görə, köçürülməyə 100 min adam məruz qaldı, o cümlədən, 10 min – 1948-ci ildə, 40 min – 1949-cu ildə, 50 min – 1950-ci ildə.

Sonra, 10 mart 1948-ci ildə SSRİ Nazirlər Sovetinin "*Kolxozçu və digər azərbaycan əhalisinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında*" yeni qərarı çıxdı.

Hətta Ermənistan SSR Daxili İşlər naziri general-mayor Qriqoryanın 3 may 1948-ci il tarixli "*Ermənistanın azərbaycanlı əhalisinin Azərbaycan SSR-ə köçürülməsi ilə bağlı əhval-ruhiyyəsi haqqında*" məlumatında da qeyd olunurdu: "*Tərəfimizdən azərbaycanlıların yeni yaşayış yerinə köçmək istəməməsi, onlardan bəzilərinin qəbiristanlığa gedərək, doğmalarının məzarlarında ağlayıb, köçürülməmələri haqqında dua etmələri kimi çoxsaylı faktlar qeydə alınmışdır*" http://news.day.az/politics/320274.html.

Bundan əlavə, 1952-ci ilin dörd ayı ərzində Ermənistandan daha 204 ailə köçürülmüşdü. Azərbaycan SSR hökumətinin 17 yanvar 1952-ci il qərarı ilə müəyyən edilmiş plan üzrə, daha 150 ailənin Ermənistan SSR-dən köçürülməsi nəzərdə tutulurdu. Obyektiv çətinliklərə istinad edərək, Azərbaycan hökuməti SSRİ Nazirlər Sovetinin qarşısında Kür-Araz ovalığına əhalinin köçürülməsi planının 1952-ci ildə üç dəfə azaldılmasını irəli sürdü.

Hətta bu köçürülmə kampaniyası başa çatdıqdan və baş verənlərin intensivliyi azaldıqdan sonra da azərbaycanlıların tədricən, yavaş-yavaş çıxarılması qaçılmaz oldu və tədricən sabit bir tendensiya formasını aldı. SSRİ dağılana qədər Ermənistanda qalan azərbaycanlılar oranın qədim yaşayış yerlərində özlərini ikinci dərəcəli hiss edirdilər.

Əgər yuxarıda deyilənləri ümumiləşdirsək, bu "*sakit deportasiya*" 1991-ci ilə qədər müxtəlif adlar altında davam etmişdir, çox hissəsi Azərbaycana köçürülmüş xalq isə həqarətdən Ermənistanda qalmaq istəmirdi və bu da Ermənistanın istədiyi nəticəyə gətirdi.

Bütün bunları bilərək, Azərbaycan ziyalıları başa düşürdü ki, başqa əlac yoxdur, öz ordusunu yaratmalıdır.

Ona görə də 1992-ci ilin yayında Azərbaycan Prezidentinin göstərişlərinə əsasən, Azərbaycan Müdafiə Nazirliyinin Sovet ordusunun Azərbaycan ərazisində yerləşdirilmiş bir sıra hissə və birləşmələrinə silahın və hərbi texnikanın respublika hakimiyyəti orqanlarına verilməsi ultimatumunu irəli sürməsi məntiqli idi.

Nəticədə 1992-ci ilin axırlarına Azərbaycan bir neçə motorlu piyada diviziyalarını formalaşdırmaq üçün kifayət qədər texnika və silah aldı.

Güman etmək olar ki, SSRİ-nin dağılması – Sovet İttifaqının iqtisadiyyatında, ictimai və siyasi həyatında sistemli parçalanma prosesi olaraq, 1991-ci il dekabrın 26-da SSRİ-nin sonuna gətirib çıxardı.

İttifaqın dağılması SSRİ-nin 15 respublikasının çoxdan gözlənilən müstəqilliyinə və onların dünya siyasi arenasında dünyanın müstəqil dövlətləri kimi ortaya çıxmasına gətirdi.

Hal-hazırda analitiklərin SSRİ-nin dağılmasına əsasən nəyin səbəb olduğu haqqında vahid nöqteyi-nəzərləri yoxdur.

İttifaqın dağılmasının səbəbləri arasında aşağıdakıları hallandırırlar:

- mərkəzləşdirilmiş millətçi tendensiyalar və ayrı-ayrı xalqların müstəqilliyə can atması;
- sovet cəmiyyətinin avtoritar xüsusiyyəti, dini təqiblər, DTK-nin izləmələri, vahid ideologiyanın hökmranlığı, xariclə əlaqələrə qadağa, senzura və s.
- ərzaq və mallara növbələrlə əlaqədar əhalinin narazılığı, həyat səviyyəsinin Qərbdən geri qalması;
- mallara və iqtisadi sistemə olan inam böhranı;
- texnoloji fəlakətlər və onların gizlədilməsi;
- Sovet sisteminin uğursuz islahatları;
- SSRİ-nin iqtisadiyyatını sarsıdan neftin qiymətlərinin azaldılması .

Yuxarıda sadalanan səbəblərə mən "*telekommunikasiya*" qapılarının xaricdə açıq olmasını əlavə edərdim. Görünür rabitə sahəsində gedən inkişafın bütün detallarından ətraflı danışmağa

dəyməz, lakin siyasi ölçüdən bu – Sovetlər ölkəsindən informasıya axınının tam açıqlığına və M.S.Qorbaçovun dövründə "*Yenidənqurma*" adını alan prosesin geri dönülməzliyinə gətirdi.

Çox kəskin fərqlənən 1988-ci ildə başlanan Qarabağ münaqişəsi idi. Ermənistandan azərbaycanlıların etnik təmizlənməsi başlandı (*bu da Sumqayıt hadisələrinə gətirib çıxardı*).

1989-cu ildə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın ona birlədirilməsini elan edir. Həmin ilin yayında isə Ermənistan SSR Naxçıvan ASSR-i blokadaya salır, Azərbaycan Xalq Cəbhəsi isə cavab olaraq, bütün Ermənistanın iqtisadi blokadısını elan edir.

Azərbaycan Sovet Sosialist Respublikası (*Azərbaycan SSR*) rəhbərliyinin Moskvanın mərkəzi orqanlarının "*ssenarisi*"ndən tam asılılığı fonunda Azərbaycan əhalisinin vətənpərvər və demokratik düşüncəli hissəsi ölkənin ərazi bütövlüyünün müdafiəsi üzrə ictimai strukturlar (*Xalq Cəbhəsi*) formalaşdırmağa başladı.

Hesab olunur ki, Azərbaycan Xalq Cəbhəsinin meydana çıxmasını şəxsən kiməsə yazmaq lazım deyil, qəzəblənmiş xalq hakimiyyətdən Azərbaycanın milli maraqlarının müdafiəsi üçün qəti addımlar tələb edirdi (*ssenari də istisna edilmir*). AXC görünür, millətçi ideyalar əsasında deyil, demokratik islahatların bayrağı altında, hardasa "*yenidənqurmaya*" inamla, amma yenə də ssenari üzrə yaranmışdı.

Lakin 1991-ci ilin aprel ayında, mahiyyətcə, SSRİ-nin iki sovet respublikası arasında müharibə başladı.

Bundan əlavə, 1990-1991-ci illər ərzində "*Suverenlik paradları*" baş verdi, bu zaman bütün müttəfiq (*o cümlədən, RSFSR*) və muxtar respublikalar Suverenlik haqqında Deklarasiyanı qəbul etdi ki, burada ümumittifaq qanunlarının respublika qanunlarından prioritetliyinə etiraz edirdilər, bu da "*qanunlar müharibəsinin*" başlanğıcı oldu.

Ondan başlayaq ki, Azərbaycan SSR 19 noyabr 1990-cı ildən "*Azərbaycan Respublikası*" adlanmağa başladı.

Azərbaycanın suverenitetliyi 23 sentyabr 1989-cu ildən, Azərbaycanın müstəqilliyi və SSRİ-nin tərkibindən çıxması – 30 avqust 1991-ci ildən və nəhayət, Azərbaycanın müstəqilliyi de-yure – 26 dekabr 1991-ci ildən elan edildi.

SSRİ-nin son illərində Ermənistanın təcavüzkar siyasəti sayəsində onun ərazisində xarici düşmənlərin marağında olan millətlərarası münaqişə alovlandı.

İttifaqın dağılması ilə səhnələşdirilmiş qarşıdurmalar başlandı və görünür, onlar Rusiyanın güc strukturlarının ssenarisi üzrə gedirdi:

- Qarabağ münaqişəsi, ermənilərin Azərbaycana iddiası;
- Baqramyan ad. batalyonun iştirakı ilə Gürcüstan-Abxaziya;
- Gürcüstan-Cənubi Osetiya;
- Osetin-İnquş;
- Dnestryanı münaqişə;
- Rusiya tərəfindən aparılan ilk Çeçen müharibəsi və s.

Şəxsən mən Sovet İttifaqının necə və nə üçün dağılması haqqında çox oxumuşam və 20 il ərzində bu barədə çoxlu məqalə və kitablar yazılıb. Lakin onların heç birində 1986-cı ildə Qazaxıstandakı, 1989-cu ildə Tiflisdəki, 1990-ci ilin yanvarında Bakıdakı, 1991-ci ildə Vilnüsdəki hadisələrin ətraflı təhlilinə rast gəlinmir.

Bu, 1985-ci ilin aprel ayında Mixail Qorbaçovun hakimiyyətə gəlişindən sonra başlanan hadisələrin tək zənciri idi. Bundan əlavə, M.Qorbaçovun Avropada və ABŞ-da fəaliyyətinin qiymətləndirilməsi məni təəccübləndirir, özü də Qərbdə onu – yuxarıda sadalanan respublikalarda dinc əhali arasında çoxsaylı qurbanlara gətirib çıxaran aksiyalar haqqında acımadan əmrlər verən adamı necə də təntənəli və şərəflə qəbul edirlər (*hələ də*).

Deməli, "*Yenidənqurma*", "*Aşkarlıq*" və "*Demokratikləşmə*" – görünür bunlar Sovet İttifaqının modernləşdirilməsində Qorbaçov siyasətinin üç boş şüarıdır.

Amma bu həm də müxalifət dünyasının da arzusu idi, yalnız keçmiş SSRİ-nin müttəfiq respublikalarındakı milli azadlıq hərəkatlarına tab gətirə bilmədilər.

M.Qorbaçovun Qərb qarşısında ikiüzlülüyü və məsələnin güclə həll edilməsi üzrə DTK-nin ssenarisi, görünür, ölkəni açıq-aydın nüfuzdan salaraq, çox şeyi cəfəngiyata gətirdi.

Bakıda bu planlaşdırılmış (*ssenari üzrə*) cinayət aksiyasını həyata keçirmək üçün SSRİ-nin Müdafiə və Daxili İşlər nazirləri,

digər yüksək hərbi rütbəli və partiyanın vəzifəli şəxsləri gəldilər. Bütün çıxışlarında onlar ikiüzlülük göstərərək, bizi əmin edirdilər ki, vəziyyəti aydınlaşdırmaq və şəhərə qoşunun girməsinə yol verməmək üçün Bakıya gəliblər.

Hamı bilirdi ki, Bakı ermənilərinin heç bir kütləvi qırğını, heç bir, guya onların cəsədlərinin hələ də tolerant olan Bakının küçələrində yandırılması olmayıb və ola da bilməzdi.

Amma DTK-nin təxribat ssenarisi işə düşdü və bu da ordunun Azərbaycanın paytaxtı Bakıya soxulmasına yol açdı.

Ssenariyə görə, Azərbaycan televiziyasının enerji bloku partladıldı, nəticədə bir neçə gün Azərbaycan xalqı üçün televiziya yayımı dayandırıldı.

Bu, ictimaiyyətə əvvəlcədən bildirilmədən paytaxtda informasiya blokadasının yaradılması və Bakıya soxulmaq üçün sınanılmış addım (*göründüyü kimi, 1956-cı ildə Budapeştdə baş vermişdi*) qüvvələrin kobud, lakin ən yaxşı ssenarisi idi.

O günləri unutmayacağam, kafedramızın müəllimi Eldar Atayevlə onun maşınında həmin yerlərin, indiki 20 Yanvar meydanının ətrafında bir balaca fırlandıq.

O günlərin Bakısını unutmaq mümkün deyil. Hər yanda tikə-tikə edilmiş cəsədlərin izi, küçələrdə və meydanlarda qan izləri görünürdü. Deyirdilər ki, tanklar nəqliyyat vasitələrini (*həm minik, həm də iri yük*) yaxından güllələyir və əzib keçirdilər, bu küçə və meydanlara baxan yaşayış evlərini isə güllələrlə deşik-deşik edirdilər.

Güman edirəm, o qorxunc günlərin şahidi kimi, hər bir azərbaycanlıya bu haqda danışmaq və daha artıq, yazmaq ağrılıdır.

Həmin gün qırğından sonra, yanvarın 20-i Bakının milyonlarla əhalisi Azərbaycanın həlak olmuş oğulları və qızları ilə "*AZADLIQ*" meydanına toplaşdılar.

Bəli, ümid edirəm, 20 Yanvar çoxmillətli Azərbaycanın ümumxalq hüzn günü olaraq qalacaq.

Ölkəmizin keçdiyi bu dəhşəti unutmaq mümkün deyil, lakin biz dünyaya, ilk növbədə Rusiyaya öz mesajımızı vermişik: bunu unutmayacağıq, bunu xatırlayacağıq və bunun haqqında bildiyimiz və anladığımız kimi xatırladacağıq və yazacağıq.

Heç bir ümidsizlik yox idi, qüvvələrin vəhşi aksiyası Azərbaycanı sındırmadı. Partiyaçıların və onların strukturlarının arzu etdikləri "*güllələnmiş ümid dövrü*" alınmadı.

Əksinə, bu hadisələr azərbaycanlının (*etnik mənsubiyyətsiz*) qəlbində ölkənin gələcək müstəqilliyinə inam gətirdi, hansı ki, iki ildən sonra baş verdi.

KİV-lərin məlumatına görə, ordunun soxulması ilə Bakı şəhərində və sonradan məlum olduğu kimi, respublikanın rayonlarında cəmi 133 nəfər öldürülmüş, 611 nəfər yaralanmış, 841 nəfər qeyri-qanuni həbs edilmiş və 5 nəfər itkin düşmüşdür.



Qəzetlərdə yazılırdı ki, hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80-ə yaxın nəqliyyat vasitəsi, o cümlədən təcili yardım maşınları talan edilmiş və yandırılmış, cəmi altı milyon rubl dəyərində dövlət və şəxsi əmlak məhv edilmişdir. Öldürülənlər içərisində nəinki qadınlar, uşaqlar, qocalar, həm də təcili yardım və milis işçiləri vardı.

Əlbəttə, Bakıya sovet ordusunun yeridilməsi və Azərbaycanın paytaxtında bədnam fövqəladə vəziyyətinin elanı SSRİ Konstitusiyasının (*119-cu maddə*) və Azərbaycan SSR Konstitusiyasının (*71-ci maddə*), 1966-cı ilin "*Mülki və siyasi hüquqlar haqqında*" Beynəlxalq Paktın (*1-ci maddə*) ciddi pozulması idi və əlbəttə ki, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdı.

Hətta müstəqil Rusiya da etiraf etdi ki, Bakıda fövqəladə vəziyyətin qanunsuz elanı, paytaxta hərbi qüvvələrin soxulması və heç bir müqavimət olmadığı halda ağır texnikanın cəlb edilməsi ilə dinc əhaliyə açıq şəkildə vəhşicəsinə divan tutulması bütün Azərbaycan xalqına qarşı cinayət idi.

1990-ci il yanvarın 20-ində Bakıda baş vermiş qanlı faciə totalitar rejimin xalq əleyhinə olan üzünü göstərdi, silahlı qüvvələr eyni ssenari üzrə xarici təcavüzdən müdafiə üçün deyil, öz xalqına qarşı növbəti dəfə istifadə olundu, müttəfiq respublikaların suveren hüquqlarının saxtalığı, onların 1956-cı ildə Budapeştdə etdiyi kimi.

Əgər o vaxt, 1956-cı ildə Budapeştdə Yer kürəsi Stalinin tərəfdarlarının, sosialist blokunun sarsılmazlığına möhkəm inananların ayaqları altında idisə, onda indi Yer L.İ.Brejnevin tərəfdarlarının ayaqları altında gəzərdi. Amma mahiyyət dəyişməyib. Avropanın inkişaf etmiş dövlətlərinin təcrübəsindən fərqli olaraq, Azərbaycanın partiya rəhbərləri nəinki istefaya getdi, bizdə ölü sükuta üstünlük verildi.

Xalq şəhidlərini qurban verdiyi faciə günündə onlar rəsmi bəyanatları ilə bu faciəyə münasibətlərini və hətta yas içərisində olan xalqa başsağlıqlarını da ifadə etmədilər.

Milyonlarla bakılı "*Azadlıq*" meydanında Azərbaycanın həlak olmuş oğulları və qızları ilə vidalaşırdı.

Dəfn mərasimi "*Azadlıq*" meydanından Bakının Dağlıq parkına (*indi Şəhidlər Xiyabanı fəxri adını daşıyır*) qədər uzanmışdı, paytaxtın ən yüksək yeridir, ikinci dəfə (*15 sentyabr 1918-ci ildən sonra*) şəhidlərin torpağa tapşırılması üçün uyğun yer kimi seçilmişdı.

Onlar, adi azərbaycanlılar öz ölümləri ilə gələcək nəsillər üçün qəhrəmanlara və Azərbaycanın müstəqilliyi naminə "*şəhidlərə*" çevrilmişdilər.

Partiyanın vəzifəli şəxsləri (*və onların ssenariçiləri*), həmçinin şəhərin hərbi hakimiyyəti həmin gün xalqın qəzəbindən qorxub, dəfn mərasimində belə iştirak etmədilər.

Görünür o partiyaçıların və hökumət üzvlərinin çoxu bu cinayətin iştirakçıları və sovet imperiyasının hərbi hissələrinin Bakıya yeridilməsi zamanı əlbirləri idilər və öz xalqının təhlükəsizliyinin təmin edilməsi üçün heç bir tədbir görmədilər, yüksək vəzifəli şəxslər kimi, onların üzərinə qoyulmuş vəzifə borclarının öhdəsindən gəlmədilər.

Bundan əlavə, mərkəzi hakimiyyətin hərəkətləri bu ağır illərdə faktların gizlədilməsinə, hadisələrin təhrif edilməsinə yönəlmişdi.

Həmin günlərdə ermənilər tərəfindən törədilmiş cinayətlər azərbaycan xalqının yaddaşında əbədi qalacaq. Minlərlə dinc azərbaycanlı – qarabağlılar yalnız milli mənsubiyyətinə görə məhv edilmiş, milyona yaxın insan doğma yurdlarından qovulmuşdur.

Ermənilər evləri yandırırdı, insanları diri-diri yandırırdı, milli memarlığı, məktəbləri, xəstəxanaları, məscidləri və abidələri dağıdırdı, Qarabağın çox hissəsini və onun mirvarisi olan Şuşanı xarabalığa çevirmişdi.

Susan Sovet rəhbərliyi isə, əsasən də KİV, erməni millətçiləri 1987-ci ildən başlayaraq, Ermənistandan və Dağlıq Qarabağdan azırbaycanlıları qovanda birdən "*ayılıb*" Azərbaycandakı "*erməni qırğınları*"na görə hay-küy qaldırmağa başladı.

1987-1989-cu illərdə yerli rəhbər, partiya və hüquq-mühafizə orqanlarının fəal iştirakı ilə erməni millətçiləri tərəfindən Ermənistandan 200 000-ə yaxın azərbaycanlı zorla çıxarılanda İttifaqın rəhbərliyi hərəkətsiz idi. Dəqiq məlimatlara görə, 1987-1989-cu illərdə azərbaycanlıların Ermənistandan deportasiyası nəticəsində 214 azərbaycanlı həlak olmuşdu ki, onların da böyük bir hissəsi vəhşicəsinə öldürülmüş və ölənə qədər işgəncəyə məruz qalmışdır.

Beləliklə, Bakıdakı 20 yanvar faciəsinin kökləri Moskvanın köməyilə Ermənistan tərəfindən Azərbaycana qarşı arasıkəsilməyən üç illik təcavüzdə idi.

Hətta bu gün, o faciəvi hadisələrdən 20 ildən çox müddət keçdikdən sonra biz informasiya müharibəsində uduzuruq. Axı bizim azərbaycanlı jurnalistlərin səviyyəsində gecə-gündüz öz informasiyasını bütün dünyaya (*o cümlədən, Azərbaycanda*) axıdan və öz imperiya məqsədləri üçün bilərəkdən yanlış məlumatlar verən bir deyil, onlarla rus qəzetləri və televiziya kanallarının həyata keçirdiyi güclü rus təşviqat təbliğatına qarşı dayanmaq çox çətindir.

Yalnız Azərbaycan xalqı ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü naminə həyatından keçərək, ədalətsiz döyüşdə həlak olan "*şəhidlərinin*" xatirəsini həmişə əbədi tutacaq.

"*Mən yanmasam, sən yanmasan necə çıxar qaranlıqlar aydınlığa?"*

Şəhidlərimizə Allah rəhmət eləsin!

Onlar doğma Azərbaycanımızın azadlığı və müstəqilliyi naminə qurban oldular.

Azərbaycanın xalq şairi, professor Xəlil Rza Ulutürk (21.10.1932–22.06.94) azadlıq, doğma torpağına, vətəninə məhəbbət mövzusunda çox yazıb.

Şeirlərindən birində azadlıq haqqında belə yazırdı:

"Azadlığı istəmirəm zərrə ilə, qram ilə!
Mən öz əlimdəki zənciri qırmalıyam!
Azadlığı istəmirəm, həb tək, dərman tək,
İstəyirəm Səma tək! Günəş tək! Cahan tək!"

*"İnsanlara azadlıq, millətlərə istiqlal!"*
Məmməd Əmin Rəsulzadə (1884-1955)

## 6.2. Xalq üçün inqilabın ssenarisi.

Həyat göstərir ki, gələcəyin "*ssenarisi*" həmişə işə yaramır, əsasən də əgər o xalqa qarşı yönəlibsə.

Şəxsən mən, rabitə sahəsinin inkişafının proqnozlaşdırılması ilə məşğul olan alim kimi, əminəm, 1988-1992 və görünür, 1993-2003-cü illərin hadisələri heç də təsadüfən baş verməyib.

Bu yalnız bizdə, şərq məsəlində Tanrı günahkar insanları bir qayığa yığır ki, onları cəhənnəmə göndərsin.

Axı 22 nəfəri bir təyyarəyə (*vertolyota*) yığmağı, görünür, ya dövlət təhlükəsizliyi təşkilatı (*keçmiş SSRİ-nin*), ya da onların ölümündə marağı olanlar bacara bilərdi...

Bütün komanda bir vertolyotda, onları toplamaq lazım idi. 20 noyabr 1991-ci ildə "*Mİ-8*" vertolyotunun Xocavənd rayonunun Qarakənd kəndi üzərində məhv edilməsindən 25 ildən çox ötür.

Həmin gün Qarakənd kəndinin yaxınlığında erməni döyüşçüləri tərəfindən içərisində Azərbaycan höküməti üzvlərinin və Qazaxıstan və Rusiyadan olan sülhməramlıların olduğu Azərbaycan vertolyotu vurulmuşdu.

Adi insanlar deyil, Qarabağ uğrunda döyüşənlər deyil, münaqişə zonasındakı vəziyyətlə tanış olmaq üçün regiona yollanan görkəmli dövlət xadimləri həlak oldular (*görünür ssenari üzrə*).

20 noyabr 1991-ci ildə Azərbaycanın Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında törədilmiş terror aktına görə məsuliyyəti bilavasitə bütün Zaqafqaziyanın hava məkanını idarə edənlər və onların Ermənistandan olan əlaltıları idilər.

Mərmi ilə vurulmuş "*Mİ-8*" vertolyotunda aşağıdakılar vardı:

1. İsmayılov Tofiq Kazım oğlu – dövlət katibi
2. Qayıbov İsmət İsmayıl oğlu – baş prokuror
3. Əsədov Məhəmməd Nəbi oğlu – dövlət müşaviri
4. Hacıyev Zülfi Saleh oğlu – baş nazirin müavini
5. Cəfərov Vaqif Cəfər oğlu – deputat
6. Məmmədov Vəli Hüseyn oğlu – deputat

7. Mirzəyev Osman Hüseyn oğlu – PA-nin şöbə müdiri
8. Namazəliyev Qurban Hüseyn oğlu – nazir müavini
9. Plavskiy İqor Aleksandroviç – DQMV-nin prokuroru
10. Kovalev Vladimir Vladimiroviç – DQMV-nin daxili işlər idarəsinin rəisi
11. İvanov Sergey Semyonoviç – Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin müdiri
12. Jinkin Nikolay Vladimiroviç – FH bölgəsinin komendantı
13. Serikov Sanlal Dasumoviç – Qazaxıstanın DİN-nin nazir müavini
14. Lukaşov Mixail Dmitriyeviç – milisiya general-mayoru
15. Koçerev Oleq Nikolayeviç – leytenant polkovnik
16. Məmmədov Rafiq Məmməd oğlu – dövlət katibi köməkçisi
17. Mustafayev Alı Mustafa oğlu – telejurnalist
18. Hüseynzadə Arif İsmayıl oğlu – AzTV-də işıqçı
19. Şahbazov Fəxrəddin İbrahim oğlu – video-operator
20. Kotov Vyaçeslav Vladimiroviç – vertolyot komandiri
21. Domov Gennadiy Vladimiroviç – vertolyot ekipajı
22. Yarovenko Dmitriy Borisoviç – vertolyot ekipajının üzvü

Sadalanan bütün sərnişinlər və ekipaj həlk oldular.

"*Qara qutu*" yoxa çıxdığından faciənin səbəbləri hələ də məlum deyil. Günahkarlar da cəzalandırılmayıb və o cümlədən, versiyalardan birinə görə, ilk növbədə M.S.Qorbaçov və Müdafiə naziri P.S.Qraçov.

Vertolyot qəzasının Qorbaçov versiyasından başqa, planlaşdırılmış terror aktının törədilməsi faktını daha bir neçə səbəb təsdiqləyir, o cümlədən, yüksək vəzifəli məmur və yüksək rütbəli zabitlərin olduğu vertolyot nədənsə "*atəşlə müdafiə vertolyotu*" ilə müşayiət olunmurdu.

Hələ də məlum deyil, nə üçün bu qədər adam bir vertolyotda idi və erməni döyüşçüləri vertolyotun uçuş vaxtını və marşrutunu haradan bilirdi, bir halda ki, bunu yalnız sovet qoşunlarının komanda heyəti bilməli idi, axı mülki deyil, hərbi vertolyot idi.

Həmçinin aydın deyil, erməni döyüşçülərində hərarət mərmiləri üzrə mütəxəssis və mərmilər haradandır? Vertolyotun

qara qutusu hara yox oldu? Əgər həmin mərmi hədəfinə çatmasaydı, Dağlıq Qarabağdakı hadisələr necə olacaqdı?

Və ümumiyyətlə, 1988-1992-ci illərdə nə baş verirdi, bəlkə bu, Naxçıvan klanının Qarabağ klanına, sonra isə, görünür, şirvanlılar klanına qarşı hakimiyyət uğrunda mübarizəsi idi.

Əsas sualı doğurur – Bəs ssenariçi kimdir?!

Yeri gəlmişkən, Azərbaycanın Baş Prokurorluğunun 19 noyabr 2010-cu il tarixli məlumatına əsasən, Xocavənd rayonunun Qarakənd kəndi üzərində 20 il əvvəl baş vermiş vertolyot qəzası üzrə cinayət istintaqı dayandırılmışdır.

Azərbaycanın Baş Prokurorluğunun məlumatında deyilir - "*Bu cinayət işi üzrə istintaq qəzanın baş verdiyi ərazinin hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olunduğundan dayandırılmışdır. Bu cinayəti törədən şəxslərin müəyyənləşdirilməsi mümkün deyil*".

İngilis jurnalisti Tomas de Vaalın Dağlıq Qarabağda erməni-azərbaycan münaqişəsinin səbəbləri və gedişatı haqqında söhbət açılan kitabında, müəllif hesab edir ki, "*məhz 20 yanvar 1990-ci ildə Moskva, əslində, Azərbaycanı itirdi*"...

Bu faciəvi hadisələrdən 70 il əvvəl tarixi şansdan faydalanaraq, milli ruhda böyüyən Azərbaycanın ən yaxşı oğulları 28 may 1918-ci ildə Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən Azərbaycan Milli Şurasının tarixi iclasında Azərbaycan Demokratik Respublikasının (*ADR*) yaradılması haqqında elan etdilər.

ADR nəinki Azərbaycanda, həm də bütün Şərqdə ilk demokratik respublika oldu. Bu parlament respublikası idi. ADR dövlət atributlarını – bayrağı, gerbi, himni qəbul etdi. Onun üçrəngli bayrağında türkçülük, Avropa başlanğıcı və islam həmahəng birləşmişdi.

Yalnız təəsüf ki, ADR cəmi 23 ay ömür sürdü. 28 aprel 1920-ci ildə bolşeviklərin Qırmızı Ordusu Bakını işğal etdi və demokratik respublikamız süqut etdi.

Və 71 il ötəndən sonra Azərbaycan Ali Soveti 30 avqust 1991-ci ildə "*Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında*" Deklarasiyanı, 18 oktyabrda isə "*Azərbaycan

*Respublikasının dövlət müstəqilliyi haqqında*" Konstitusiya Aktını qəbul etdi.

Bundan əlavə, 10 sentyabr 1991-ci ildə Azərbaycan Kommunist Partiyasının Fövqəladə Qurultayı keçirilərək, Kommunist Partiyasının buraxılması haqqında qərar qəbul edildi. Və, nəhayət, dekabrın 29-da Azərbaycanda dövlət müstəqilliyi haqqında referendum keçirildi, referendum iştirakçılarının 99,58 %-i müstəqilliyə səs verdi.

Bəli, Azərbaycan öz müstəqilliyini bərpa etdi və burada ADR-in lideri M.Ə.Rəsulzadənin yeni parlamentin çağırılması ilə bağlı xalqa müraciəti yada düşür: "*Bizə fəlakət və yoxsulluqdan başqa heç bir şey verməyən ədavəti və ixtilafı kənara qoyaq. Tarix bizi birlikdə yaşamaq məcburiyyəti qarşısında qoyur. Milli və dini fərqlərdən asılı olmayaraq, gəlin həyatımızı ədalətli və insanpərvər əsaslar üzərində quraq, gəlin bir-birimizi sevək və hörmət edək ki, yeni həyatın təbii çətinliklərini daşımaq asan olsun. Bütün Azərbaycan vətəndaşları bir vətənin övladlarıdır. Birgə həyat qurmaq və xoşbəxtliyə nail olmaq üçün biz bir-birinə əl uzatmalıyıq*"...

Azərbaycan milli hərəkatının gələcək lideri Məmməd Əmin Rəsulzadə 31 yanvar 1884-ci ildə Novxanı kəndində ruhani ailəsində anadan olub. Atası, axund Hacı Ələkbər oğlu oğlunu dünyəvi məktəbə verdi. Məmməd Əmin Rəsulzadə ikinci "*Rus-müsəlman məktəbində*" oxuyurdu, sonradan təhsilini Bakı texniki məktəbində, özü də rus dilində, davam etdirdi.

Gənclik illərindən Məmməd Əmini inqilabi mübarizə cəlb edirdi. Siyasi karyerasının başlanğıcında o sosial-demokratik ideyalarla maraqlanırdı. Məhz o, Mirhəsən Mövsümov və Məmmədhəsən Hacınski ilə birlikdə "*Hümmət*" sosial-demokratik təşkilatını yaradır. Qeyd edək ki, bu fakt sovet tariçxiləri tərəfindən uzun müddət məxvi saxlanılmışdır.

1905-1907-ci illərdəki birinci rus inqilabından sonra M.Ə.Rəsulzadə sosial-demokratiyadan ümidini kəsib, azərbaycanlılar üçün özünü idarəetməyə müvəffəq olmaq məqsədini daşıyan milli hərəkatın tərəfdarı olur.

Lakin çar hakimiyyətinin inqilabdan sonrakı reaksiyası M.Ə.Rəsulzadəni mühacirət etməyə məcbur edir. Əvvəlcə o İrana

keçir, burada Səttarxan hərəkatında fəal iştirak edir, "*İranə-nou*", "*İranə Axat*" qəzetlərinin baş redaktoru və İranın Demokratik partiyasının banisi olur.

Sonralar Məmməd Əmin Rəsulzadə haqqında yazırdılar ki, "*məhz Rasulzadə İranda Avropa nümunəli qəzet işinin təməlini qoymuşdur*". Rəsulzadənin artan nüfuzu şah rejiminin onu 1911-ci ildə ölkədən sürgün etməsinə səbəb olur.

O İstanbula köçür, burada M.Ə.Rəsulzadənin siyasi baxışları tam formalaşır. O milli partiyanın yaradılmasının vacibliyini əsaslandıraraq, Bakıdakı həmfikirlərinə müraciət edir. 1911-ci ilin oktyabr ayında "*Müsavat*" partiyası yaranır ki, onun da lideri 1913-cü ildə mühacirətdən qayıdan Məmməd Əmin Rəsulzadə olur.

Məmməd Əmin Rəsulzadənin sayəsində "*Müsavat*" Fevral inqilabından sonra azərbaycanlıların aparıcı siyasi qüvvəsi olur və M.Ə.Rəsulzadə Moskvada türk və müsəlman xalqlarının qurultayında şöhrət qazanır. Qurultay müəllifi M.Ə.Rəsulzadə olan Rusiyanın gələcək federal quruluşu haqqında layihəni qəbul edir.

1917-ci ilin oktyabrında partiya Bakı Sovetinə seçkilərdə, noyabrda isə Zaqafqaziyanın bütün müsəlmanlarının səsinin təxminən 2/3-ni toplayaraq, Rusiyanın Müəssislər məclisinə seçkilərdə qalib gəlir.

Müəssislər məclisinin dağılması ilə Zaqafqaziya xalqı özünü idarəetmə üçün parlamentini – Seym yaradır.

Azərbaycanlıların Seymdə 44 nümayəndəsi var idi, onlardan 30-u "*Müsavat*"ın üzvləri idi. Rəsulzadə Zaqafqaziya parlamentinin Azərbaycan fraksiyasının rəhbəri oldu.

Lakin Zaqafqaziya federasiyası ideyası nəticə vermədi və may ayının sonunda üç müstəqil respublika yaradıldı. Seymin Azərbaycan fraksiyası özünü Milli Şura elan edərək, M.Ə.Rəsulzadəni sədr seçir. Məmməd Əmin üzvü olduğu Azərbaycan parlamenti yaranana qədər bu səlahiyyətləri icra edirdi. Baxmayaraq ki, bundan sonra M.Ə.Rəsulzadə heç bir rəsmi vəzifə tutmayıb, o gənc Azərbaycan Respublikasının ən nüfuzlu və real xadimi olmuşdur.

Bir çox mütərəqqi təşəbbüslər, o cümlədən Bakı Dövlət Universitetinin yaradılması böyük M.Ə.Rəsulzadənin adı ilə bağlıdır.

M.Ə.Rəsulzadə avropalıların şərq ölkələrinə münasibətindən yazırdı: "*Avropa ölkələrində əsasən koloniyalara və şərq ölkələrinə münasibətdə barbar münasibətləri müşahidə olunub və olunur da. Avropalı Asiya və Afrika torpaqlarına ayaq basan kimi, insani hisslərini unudub, yerli sakinlərə vəhşi pişiyin siçana olan münasibəti kimi davranır. Onlar bu insanları qul etmək istəyir*".

Məmməd Əmin Rəsulzadə mətbuata xüsusi diqqət yetirirdi və onun ictimaiyyətdə rolunu yüksək qiymətləndirirdi:

"*Mətbuatın rolu çox böyük və vacibdir. Mətbuat ən vacib milli qüvvələrdən biridir. O dördüncü gücdür. Yəni hakimiyyətin üç gücü var: birincisi – qanunvericilik, ikincisi – icra və üçüncüsü – hüquq-mühafizə orqanları. Bundan sonra mətbuat gəlir.*

*Mətbuat, onun hesab etdiyi kimi, milli maraqların ictimai nəzarətçisidir... və bütün səhvləri açıqlayır, xəstəlikləri və yaraları sağaldır. Azad mətbuatı olan xalq inkişaf etmiş sayılır.*

*Mətbuat müəllimlərdən birinin vəzifələrini yerinə yetirir. O xalqın tərbiyəçisidir. Qeyri-əxlaqi ola bilməz. Təmiz, düzgün olmalıdır, ədalət hüdudlarından kənara çıxmaq haqqı yoxdur...*

*Mətbuatın azadlığa qəsd etməsi – insan azadlığına qəsd edilməsi deməkdir. Mətbuat təzyiqi tənəzzülə gətirib çıxarır, etik gözəlliyi və yaxşı keyfiyyətləri sıradan çıxarır; yalan, aldatma, oğurluq və xəyanət mətbuat üçün norma halına gəlir...*".

Azərbaycanın müstəqilliyi uğrunda böyük mübariz Məmməd Əmin Rəsulzadə həyatının son illərini Türkiyədə keçirmişdir. Sovet İttifaqının möhkəmlənmiş qüdrətinə və artan nüfuzuna baxmayaraq, o Azərbaycanın müstəqilliyinin mütləqliyinə bir an belə şübhə etmədi.

28 may 1953-cü ildə "*Amerikanın səsi*"ndə çıxış edərək, Məmməd Əmin qəti bəydan etdi: "*Gün gələcək və 28 may günəşi Vətəndə yenidən doğacaq*".

Məmməd Əmin Rəsulzadə 6 mart 1955-ci ildə Ankarada 71 yaşında vəfat etmişdir. Şahidlər iddia edirlər ki, ölümündən əvvəl üç

dəfə onun üçün müqəddəs olan "*Azərbaycan*" sözünü söyləmişdir. O Ankarada "*Əsri*" qəbiristanlığında basdırılmışdır.

Hesab olunur ki, ictimai-ədəbi tariximizdə M.Ə.Rəsulzadə kimi başqa bir nəzəriyyəçi və mütəfəkkir yoxdur ki, öz fəaliyyətində bu cür dəqiq, açıq və qlobal olaraq, Azərbaycanın bütün acı problemlərini ortaya qoysun (**http://www.zerkalo.az/2011-05-28/history/**)...

Şübhəsiz, Azərbaycan bütün həyatını ölkəsinin müstəqilliyi və demokratiyası uğrunda mübarizəyə həsr etmiş milli lideri Məmməd Əmin Rəsulzadəni daim xatırlayacaq və hörmətlə anacaq. Allah ona rəhmət etsin!

Qeyd etmək lazımdır ki, keçmiş müttəfiq və respublika orqanlarının rəhbərliklərinin və kütləvi informasiya vasitələrinin Azərbaycanda baş verən 1990-ci ilin qanlı yanvar günləri, xüsusilə də Bakıdakı qırğınlar haqqında diqqətlə gizlətdikləri və saxtalaşdırdıqları həqiqətlər bütün xalqın mülkiyyətinə çevrildi...

Bu hadisələr haqqında həqiqət hər kəsə məlum olmalıdır, əsasən də bu gün, azərbaycanlıların hələ də gözlədiyi – böyük qardaşının köməyilə bütün əməllərinə görə ermənilərin üzrü, Qərbin ittihamı.

Azərbaycan SSR Ali Sovetinin Hadisələrin araşdılırması üzrə Komissiyası sübut etdi ki, bu aksiya "*cəzalandırıcı aksiya olaraq, qəsdən planlaşdırılmış və həyasızcasına həyata keçirilmişdir və Azərbaycanda və digər Sovet İttifaqı respublikalarında müstəqillik uğrunda hərəkatlara qorxutmaq üçün dərs vermək məqsədini daşıyırdı*".

Moskva isə hərbi aksiyanın erməni əhalisinin müdafiəsi üçün zəruriliyini bəhanə gətirirdi, əslində isə Bakıda sovet hakimiyyətinin qurtuluşu üçün aparılırdı.

Bütün 1992-ci ili Azərbaycan müxtəlif hadisələrlə dolu idi, onları xronoloji olaraq, aşağıdakı ardıcıllıqla göstərmək olar:

- Dağlıq Qarabağ Respublikasının (*DQR*) separatçıları 6 yanvar 1992-ci ildə müstəqillik haqqında deklarasiyanı qəbul etdilər.

- Erməni silahlı qüvvələri 21-22 yanvar 1992-ci ildə Xankəndində (*Stepanakert*) Azərbaycanın XTMD-nin bazasına hücum etdilər.
- Ermənistan tərəfindən 28 yanvar 1992-ci ildə vurulmuş Ağdamdan ermənilərin mühasirəyə aldığı Şuşaya uçan Mİ-8 milki Azərbaycan vertolyotunda onlarla insan həlak oldu.
- Azərbaycan 14 fevral 1992-ci ildə 7 vertolyot müsadirə edərək, öz vertolyot eskadrilyasını yaratdı.
- İlk dəfə 19 fevral 1992-ci ildə Azərbaycan vertolyotları döyüş meydanının üzərinə qalxaraq, erməni mövqelərinə atəş açdı, vertolyotları Azərbaycan tərəfinə keçən keçmiş sovet təyyarəçiləri idarə edirdi.
- Erməni silahlı qüvvələri 25-26 fevral 1992-ci ildə Xocalıda silahsız uşaq, qadın və qocaları kütləvi şəkildə öldürərək, soyqırım törətdi.
- Rusiya qəzetlərinin məlumatına görə, guya Gülüstan kəndi yaxınlığında martın 3-də Ermənistana uçan Mİ-26 Rusiya hərbi nəqliyyat vertolyotu vurulmuşdur.
- Martın 28-də Azərbaycan tərəfi 1992-ci ilin başlanğıcından bəri Xankəndi üzərinə ən böyük hücumu həyata keçirdi. İki günlük döyüş başa catdıqdan sonra DQR-nın itirdiyi qüvvələrin sayı – 8 ölü, 28 yaralı idi.
- DQR-nın hərbi komandanlığı vəlvələdədir, 1 aprel 1992-ci ildə Ağdamda, Tovuz və Laçın rayonlarında ilk türk silahlı dəstələri meydana çıxdı.
- İnformasiya yayıldı ki, Rusiyanın 80-ci hücum aviasiya alayının yerləşdiyi Sitalçay aerodromundan 8 aprel 1992-ci ildə Vaqif Qurbanov SU-25 hücumçu təyyarəsini qaçırmışdır.
- Azərbaycan silahlı qüvvələri 10 aprel 1992-ci ildə Mardaket rayonunun Marağa kəndini azad etdilər.
- Erməni silahlı qüvvələri mayın 8-9-u Şuşanı aldılar, müdafiəsini Azərbaycan birləşmələrindən başqa, guya çeçen döyüşçüsü Şamil Basayev də həyata keçirirdi.

- Naməlum döyüşçülər 12 may 1992-ci ildə Vizianidən (*Gürcüstan*) Naxçıvana (*Azərbaycan*) uçan Rusiyanın Mİ-26-nı vurdular.
- Erməni qüvvələrinin 18 may 1992-ci ildə Naxçıvana hücumları ilə əlaqədar olaraq, Türkiyə Ermənistanı hərbi qüvvələrin tətbiqinin yolverilməzliyi barədə xəbərdarlıq etdi.
- MDB-nin Birləşmiş Hərbi Qüvvələrinin Baş Komandanı marşal Şapoşnikov 20 may 1992-ci ildə bildirdi ki, münaqişədə üçüncü tərəfin iştirakı üçüncü dünya müharibəsinə gətirib çıxara bilər (*Türkiyənin 18 may tarixli bəyanatına cavab olaraq*).

Hələ 1981-82-ci illərdə İngiltərədə təcrübə keçərkən, inqilab haqqında məqalə oxumuşdum, orada deyilirdi: "*İstənilən inqilab tətilçilərin yaxşı məqsədlərindən asılı olmayaraq, həmin cəmiyyəti (milləti) on illərlə geriyə atır*".

Buna mən 1985-86-cı illərdə Əfqanıstanda Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə BMT-nin eksperti qismində bu gözəl ölkə üçün yaxşı insanlarla çalışarkən və olduqca sakit və rahat bir ölkəni nə günə qoyduqlarını görərkən əmin oldum.

Axı Kabilə bizim gətirdiyimiz sosialist inqilabı yüzlərlə yaşayış massivlərini xarabalıqlara çevirərək, bu ölkəni 50-70 il geri atdı. Normal insan heç vaxt, heç bir halda bu inqilabi ideyalara səs verməz.

Hətta bu gün vətəndaş cəmiyyətinin həqiqi müxalifət, azadlıq və demokratiyanın – boş sözlər olmadığını iddia edərkən, düşünmək lazımdır, kimin ssenarisi ilə bu baş verir və sən adi bir qurbana çevrilmirsənmi.

Azərbaycan keçmişdə, XX əsrdə özünün qanlı planını artıqlaması ilə yerinə yetirmişdir. Hətta 114 kv.km-lik ərazidən, 70 illik Sovet hakimiyyəti dövründən sonra, indi 86,6 kv.km qalmışdır, Azərbaycan torpaqlarının 20%-i isə Ermənistanın və onların Gülüstan sülh müqaviləsini imzalayan böyük qardaşlarının ayaqları altındadır.

Beləliklə, hələ 12 (24) oktyabr 1813-cü ildə Qarabağın kəndində Rusiya-İran müharibəsinin bitməsini elan edən Rusiya və

İran arasında bağlanmış Gülüstan sülh müqaviləsində Ermənistan haqqında heç bir bənd yox idi.

Bu sülh müqaviləsi bağlandığı kəndin adını daşıyaraq, Gülüstan kimi tarixə düşdü. Bu müqavilə əsasında bütün Şimali Azərbaycanın xanlıqları (*İrəvan və Naxçıvandan başqa*) – Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki Rusiyaya verilirdi.

İndi isə həmin Rusiyanın icazəsi ilə buna Gülüstan müqaviləsinin iştirakçısı olmayan bədbəxt Ermənistan iddia edir.

Burada görünür, Azərbaycan şairi, dramaturqu, ədəbiyyatşünası, böyük Bəxtiyar Vahabzadəni (*1925 - 2009*) yada salmaq lazımdır. O, XIX əsrin 60-cı illərində başlanan azadlıq uğrunda milli hərəkatın liderlərindən biri idi.

1959-cu ildə yazdığı "*Gülüstan*" əsərində şair doğma Azərbaycanımızı iki hissəyə ayıran tarixi faciəni göstərir.

Şeirləri ilə iki Rusiya və İran İmperiyasının əsarəti altında əziyyət çəkən Azərbaycan xalqının azadlığı və müstəqilliyi uğrunda ədalətli mübarizə aparır.

Bu poemanı yazdığına görə, 1962-ci ildə şair Azərbaycan Dövlət Universitetindən qızğın "*millətçi*" kimi işdən çıxarılmış və yalnız iki ildən sonra yenidən əvvəlki iş yerinə bərpa olunmuşdur.

*"İnqilabı romantiklər başlayır,*
*fanatiklər davam etdirir, nəticələrindən*
*isə praqmatik və namərdlər istifadə edir"*
Tom Karlayl (1795-1881)

## 6.3. Azərbaycanda inqilab kimə lazımdır?

Bir qayda olaraq, cavabdehlərin yarısı inqilaba adətən mənfi yanaşır, inqilabın vacibliyinə də – görünür, elə o qədər.

Güman edilir ki, inqilab ideyasına inkişaf etmiş ölkələrdə, əsasən, 50 yaşına qədər vətəndaşlar, həmçinin gələcəyə pessimizmlə baxanlar (10%) və etiraz askiyalarında iştirak etməyə hazır olanlar, bağışlayın – 1%, təqdir edirlər.

Bu gün, İnternətlə bizim rusdilli əhalimizin əhval-ruhiyyəsini görəndə narahat oluram.

Mənə elə gəlir, hamı inqilab üçün, hamı xalqın qəzəbi üçün.

Amma sosioloqlar, bir qayda olaraq, əksini söyləyirlər, inqilab əleyhinə ümumiyyətlə və xüsusilə optimistlər, ali təhsilli insanlar, müəssisə rəhbərləri, İnternet istifadəçiləri çıxış edirlər.

Görünür, əslində çoxlarımız barrikadalara yalnız virtual olaraq getməyə hazırıq, işə gəldikdə isə, gündəlik həyatda – "*biz gözləyək*".

Ancaq, əlbəttə, iddia etmək olar ki, bu cür insan ("*inqilabçı*") konspirasiyalaşır, siyasi və hansısa baxışlarını gizlətməyə çalışır.

Bəli, Sovet İttifaqına görə, keçən XX əsrdə Azərbaycan, yəqin ki, inqilabların sayına görə (*XX əsrin 17-ci, 91-ci, 93-cü illəri*), planı artıqlaması ilə doldurmuşdur.

Onda sual ortaya çıxır – bizə bu lazımdır? Şəxsən mənə yox!

1992-1993-cü illərdə hamı bu cür əhval-ruhiyyədə ikən, doğma Azərbaycanıma virtual deyil, əslində ölkənin müstəqilliyinin bərpasına "*başqalarının ssenarisi*" olmadan qoşulmaqla kömək etmək istədim.

Deyəsən inqilab haqqında danışırdım? Bağışlayın, yayındım!

Və bir dəfə, hardasa on birə on beş dəqiqə qalmış axşam dərslərindən dönərkən, Azərbaycanın Rabitə nazirliyinin qarşısında (*1977-ci ildən həyatində yaşayıram*) oradan çıxan beş gənc rabitəçi ilə qarşılaşdım.

Məni görüb, hamısı ayaq saxlayıb, salamlaşdı.

Niyə belə gec? – sualıma cavab verdilər ki, mayın 24-ü Azərbaycanın gənc rabitəçilərinin konfransına gedəcəklər. Buna razılığımı bildirdim. Onlardan ikisi dedi: - Abdul müəllim, sizi konfransa dəvət edirik.

Gənclərin konfransında iştirakıma şübhəmə xorla cavab verdilər: - Abdul müəllim, siz bizim Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) xətti ilə BMT-nin yeganə ekspertisiniz, sizin Azərbaycanın rabitə sahəsinin inkişafının perspektivləri haqqında fikir və təklifləriniz bizə lazımdır.

Mübahisə etməyib, dəmiryolu poçt idarəsində – poçt nəqliyyatı şöbəsində (*PNŞ*) keçirilən Azərbaycanın gənc rabitəçilərinin konfransında iştirak etməyə razı oldum.

Tədbirin keçiriləcəyi akt zalına gələndə artıq rabitəçilərin müxtəlif qruplara ayrıldığını görmək olurdu. Göstərilən qruplar Azərbaycanın Rabitə nazirliyindəki vəzifəli şəxsin dəstəyinə görə bölünmüşdü.

Qruplar özlərini belə də adlandırırdılar – ömərçilər (*rəhmətlik və deyərdim ki, o dövrün ən savadlı rabitəçilərindən biri, Rabitə Nazirinin müavini Hüseynov Ömərin tərəfdarları, düzdür, korrupsiyaya batmışdı*) və digəri, daha təcavüzkar qrup, nadirçilər (*Rabitə Nazirinin müavini Əhmədov Nadirin tərəfdarları*). Onlar açıq şəkildə razılaşdırılmış ssenariyə görə hərəkət edirdilər.

O dövrün Rabitə naziri, çox gözəl bir insan, işgüzar, öz vəzifəsində qalmağa çalışan – Musayev Şamilin dəstək qrupu da görünürdü.

Ancaq bir qrup islahatçı da var idi ki, sahənin gələcək taleyini toxunmaqla müəyyən etməyə çalışırdı, Azərbaycanın poçt işçiləri də özlərini ayrı cür aparırdılar.

Bu, konfransın başlandığı andan konfransın adının sahənin inkişaf perspektivləri ilə bağlı olduğu halda, daha çox Azərbaycanın yeni Rabitə nazirinin təyini və bununla əlaqədar yerdəyişmələr haqqında düşünən çıxışçıların məruzələrinin mövzusu ilə üst-üstə düşməməsindən görünürdü.

Hər bir çıxış səs-küylə, natiqlərin "*yorğanı üzərinə çəkməsi*" ilə müşayiət olunurdu.

İş ora gəlib çıxdı ki, sədr iclasın gedişatını idarə edə bilmirdi, ancaq zaldakılardan sakitləşmələrini və çıxış edənlərə öz fikirlərini axıra çatdırmağa imkan vermələrini xahiş edirdi.

Yığıncaq xaosa çevrildi. 1992-ci ilin bu narahat may günlərində həqiqətən dəyərli və vacib bir şey eşitmək üçün burada toplaşan gənc və ortayaşlı adamlara yazığım gəlirdi.

Düzünü desəm, istəyirdim üzümü çevirib, sakitcə gedim, lakin zaldakı çoxsaylı iştirakçılar, əsasən də çoxlarından nəsə yeni bir şey eşitmək məni saxlayırdı.

Və iclasın sədri tamamilə çarəsiz qalıb, bilməyəndə ki, səs-küylü camaatı necə yola gətirsin, mən, özüm üçün gözlənilmədən, ayağa qalxıb, sahənin inkişaf perspektivlərini necə gördüyüm haqda çıxış etmək qərarına gəldim.

Ancaq məni o saxlayırdı ki, mən nə Xalq Cəbhəsi hərəkatında, nə də Azərbaycanda yaranan hansısa yeni partiya ya da hərəkatlarda idim, hətta artıq 1967-ci ildən 1990-cı ilin yanvarın 20-ə qədər üzvü olduğum Sov.İKP-də də deyildim.

Yalnız bir səbəbdən söz almağa qərar verdim, mən – Azərbaycanın yeganə rabitəçisi idim ki, Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) xətti ilə Birləşmiş Millətlər Təşkilatının (*BMT*) eksperti işləmişdim.

Və mən Azərbaycan şairi və dramaturqu, böyük Hüseyn Cavidi (*Hüseyn Abdulla oğlu Rəsi-zadə*) xatırladım, o bir söz ilə xaosu dağıda bilirdi.

O, milli lirikanın motivləri, humanizm və insanpərvərliyin öz əksini tapdığı əsərləri ilə həmişə xalqı xaosdan çıxarmağa çalışmışdır.

Hüseyn Cavid 1937-ci ildə həbs olunmuşdur. Repressiyaların başlandığı və Azərbaycanın yaradıcı ziyalılarının təqib olunduğu şəraitdə "*xalqın düşməni*" elan olunmuşdu.

Onu Sibirə (*Maqadan*) sürgün etdilər, 1944-cü ildə burada, Qulaqda o çətin şəraitə dözməyib, faciəli şəkildə həlak oldu.

XX əsrin reallıqları və onun ziddiyyətləri H.Cavidi öz siyasi baxışlarını aradan qaldırmağa məcbur etdi.

O, tarixi materialda əsrin ziddiyyətlərinin təbiətini açmaq üçün dövrünün vacib problemlərini həll etməli, xalqının keçmişinə müraciət etməli olurdu.

Bütün bunları xatırlayıb, əlimi qaldırdım və söz istədim.

İclasın sədri sevincək zala müraciət edib, dedi: "*Hörmətli bəylər, bizim zalda telekommunikasiya üzrə BMT-nin eksperti Abdul müəllim Qəhrəmanzədə iştirak edir*".

Zala sükut çökdü, güman edirəm, bu, əsasən, həmin konfransın təşkilatçılarının siyahısından kənar yeni birisinin (*ssenaridən kənar*) meydana çıxmasından irəli gəlirdi.

Sakitcə tribunaya çıxdım, bütün zala göz gəzdirdim, salamlaşdım və zalda üstünlük təşkil edən və bu prosesdə öz vacibliyini nəzərə çarpdıranlara baxdım.

Ondan başladım ki, qırx yeddi yaşım var və bu konfransa dəvət olunan gənclərə aid deyiləm.

Həmçinin qeyd etdim ki, zalda nümayəndələri aydın görünən heç bir siyasi qruplaşmaya aid deyiləm. Bu sahədə 25 ildən çox iş stajı olan rabitəçiyəm, texniki elmlər namizədi, Azərbaycan Texniki Universitetinin "*Elektrik əlaqə*" kafedrasının dosentiyəm və indicə sədrin qeyd etdiyi kimi, Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) xətti ilə BMT-nin ekspertiyəm, 1985-86-cı illərdə Əfqanıstanda ilk sahə sınağından keçmişəm.

Çıxışım, təxmin etdiyim ki, müstəqil Azərbaycanın rabitə sahəsinin qarşıda duran vəzifə və problemləri ilə birbaşa əlaqəsi olan bu konfransın mövzusu ilə bağlıdır.

Güman edirəm, bizdən Azərbaycanın rabitə sahəsinin inkişafının qısa, orta və uzun müddətli perspektivlərinin istiqamətini (*konsepsiyasını*) və proqnozunu müəyyən etmək tələb olunur.

Bunun üçün bizim, burada iştirak edən rabitəçilərin bu konfransı siyasiləşdirməyimizə ehtiyac yoxdur. Görünür, yalnız bacarıqlı gənc rabitəçilərdən (*məsələn, 11 nəfər*) ibarət içşi qrupu (*təşkilat komitəsi*) tələb olunur ki, iş şəraitində yığışıb, sahədə köhnə

sovet problemlərinin həlli üçün yeni rəqəmsal texnologiyaları nəzərə almaqla, sahəmizin inkişafına öz baxışlarını işləyib hazırlasınlar.

Söylədiyim ki, zalda çox bacarıqlı gənc rabitəçilər (*beşinin adını sadaladım*) var ki, müstəqilliyimizi nəzərə alaraq, Azərbaycanın rabitə sahəsinin yeni inkişaf konsepsiyasını işləyib hazırlamağa qadirdir.

İlk dəfə zalda əl çalmağa başladılar. Təşəkkür edib, əyləşdim.

Bu zaman sədrə iki nəfər yaxınlaşıb, nəsə söylədi və yerlərinə qayıtdı.

Sədr dedi, - ekspertimizin təklifinə səs verməyinizi xahiş edirəm. Oturanlar əllərini qaldırdılar.

Sədr zala müraciət edərək, soruşdu ki, komissiyada olanların ümumi sayı ilə bağlı hansı təkliflər olacaq. On birdə dayandılar.

Sonra sədr zala müraciət edərək, rabitəçilərin adlarını daxil etməyi xahiş etdi.

Aşağıdakı müəssisələrdən olanları təklif etdilər: Bakı Şəhər Telefon Əlaqəsi (*BŞTƏ*), Avtomatik Şəhərlərarası Telefon Əlaqəsi (*AŞTƏ*), "Azərrabitətikinti", Bakı şəhəri Baş Poçt İdarəsi, Bakıteleqraf, Azərpoçt və s. Məni də təklif edəndə, təəccübləndim. Zal dəstəklədi.

Ayağa durub, dedim:

- Axı mən gənc deyiləm, məni niyə bu siyahıya salırsınız?

Sədr isə:

- Abdul müəllim, təcrübəli mütəxəssislərə, ekspertlərə də ehtiyacımız var.

Yerimə əyləşdim. Səsvermə başladı və zaldakı bu 3-4 qruplaşmanın nümayəndələri mənim namizədliyimə yekdilliklə səs verəndə təəccübləndim.

Beləliklə, konfransın işçi qrupunu seçdik, hansı ki, gələcək üçün müstəqil Azərbaycanın rabitə sahəsinin inkişafı məsələlərinə vahid yanaşma işləyib hazırlamalı idi.

Yığıncaq bitəndən sonra qrupumuz qalıb, sabah Üzeyir Hacıbəyov küçəsində, Pedaqoji Universitetin yanında yerləşən "*Rabitə Evində*" görüşmək qərarına gəldi.

Təyin olunmuş vaxtda "*Rabitə Evinin*" üçüncü mərtəbəsində görüşüb, Azərpoçtun akt zalına daxil olduq.

Ancaq görəndə ki, iştirakçılardan biri bizdən uzaqda oturub, Şəkiliyev Səfadan soruşdum, - bu rabitəçi niyə bizə yaxınlaşmır, Səfa cavab verdi: - Abdul müəllim, o rabitəçi deyil, jurnalistdir.

Nəticə çıxardım ki, yəqin kimsə xahiş edib.

Hamımız birlikdə oturub, məsələni müzakirə etməyə başladıq: "*Yeni Azərbaycanın rabitə sahəsinin qısa inkişaf konsepsiyasını necə tərtib etmək lazımdır*".

BŞTŞ-dən Məmmədov Məmməd sədrlik edirdi. O, texniki işçi kimi, belə konseptual şeylərdən çox uzaq idi, bunu da o dəqiqə etiraf etdi...

Sonra sözü Şəkiliyev Səfa aldı. O dedi ki, hamımız Abdul müəllimdən xahiş etməliyik ki, bu tapşırığı yerinə yetirməkdə bizim qrupa kömək etsin.

İştirakçıların hamısı Səfanı dəstəkləyib, bu məsələnin həllində təşkilat komitəsinə kömək etməyimi xahiş etdilər.

Mən, gülümsəyərək söylədim: - Doğrudan da "*təşəbbüs cəzalandırıla bilər*", nədi, uşaqlar, hamının əvəzinə işləməliyəm?

Hamı güldü, mən isə davam etdim: - Niyə də yox?

Yaxşı, iki gündən sonra qaralama tezislər (*qısa şərh*) hazırlayıb, burada qarşınızda çıxış edəcəyəm.

Artıq dağılışmaq istəyirdik, Səfa Şəkiliyev mənə yaxınlaşıb, "*AZADLIQ*" qəzetindən olan jurnalist Rövşən Hacıyev ilə tanış olmağımı xahiş etdi, ciddi gənc idi və çox düşüncəli gözləri vardı.

Nəzakətlə əllərimizi bir-birimizə uzatdıq, jurnalist isə maraqlandı ki, Azərbaycanın rabitə sahəsinin inkişaf konsepsiyası haqqında tezislərin müzakirəsində iştirak edə bilər.

Cavab verdim ki, bu, təşkilat komitəsinin üzvlərindən asılıdır, mən xalq cəbhəsi hərəkatında deyiləm və bura Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə BMT-nin eksperti kimi daxil edilmişəm.

Səfa, gülümsəyərək, dedi ki, o rabitəçi olsa da R.Hacıyev bu sahəni ondan çox bilir və o bu məsələni dərk etmək istəyir.

Səfanın razılığı ilə, ondan növbəti yığıncağımıza elə buraya gəlməyini xahiş etdim.

Vidalaşıb, evə getdim, başa düşürdüm ki, sadə, mühəndis səviyyəsində bü konsepsiyanı təşkilat komitəsinin üzvlərinə izah etməliyəm.

Bu iki gündə mən, heç bir şeyə yayınmadan Əfqanıstandakı BMT-nin eksperti missiyamı yadıma salaraq və BTİ-nın materiallarından istifadə edərək, Azərbaycanda rabitənin inkişaf konsepsiyasının qaralama tezislərini tərtib etməyə başladım.

İki gündən sonra təşkilat komitəsinə (*onlar artıq doqquz nəfər idi*) dünya ölkələri ilə beynəlxalq əlaqəni nəzərə almaqla, Azərbaycanın milli rabitə şəbəkəsinin qurulmasında öz baxışlarımı ətraflı məruzə etdim.

Məruzə başımı elə qatıb ki, "*Azadlıq*" qəzetinin jurnalisti Rövşən Hacıyevin bütün söylədiklərimi çox böyük sürətlə (*stenoqraf kimi*) yazdığını görməmişəm.

Məruzə bitdikdən sonra oturanlar sual verməyə başladılar, ətraflı cavab verirdim, müzakirə təxminən iki saat davam etdi, sonra təşkilat komitəsinin üzvləri evlərinə dağılışdılar. Ancaq iki nəfər qaldı: Səfa Şəkiliyev və jurnalist Rövşən Hacıyev. Söhbət etmək xahişi ilə mənə yaxınlaşdılar.

Etiraz etmədim. Onsuz da jurnalist hər şeyi eşidirdi və izahatda konsepsiyanın qaralamasını görürdü.

O başladı:

- Abdul müəllim, mən burada səbəbsiz yerə deyiləm. Azərbaycan Xalq Cəbhəsinin yuxarı rəhbərliyi sizinlə maraqlanır, rabitə sahəsi strateji əhəmiyyətli nazirlikdir, ona görə də "*Azadlıq*" qəzeti (*AXC-nin orqanı*) üçün mənə müsahibə verməyinizi təklif edirəm. Mənə elə gəlir ki, siz vətənpərvər fikirli mütəxəssissiniz, amma öyrəndim ki, həqiqətən Azərbaycanın heç bir təşkilatına və yeni demokratik partiyasına daxil deyilsiniz.

"*Azadlıq*" qəzetinin redaktoru "*Mirzənin*" tapşırığı ilə buradayam. Qəzetimiz bu sahənin strateji baxımdan vacib olduğunu vurğulamaq istəyir. Təəssüf ki, çoxları bunu başa düşmür, amma burada sizinlə birlikdə olduğum bütün günlərdə rabitə sahəsinin

Azərbaycan üçün əhəmiyyətli olduğunu anladım. Ona görə də elə burada sabah mənimlə görüşüb, suallarımı cavablandırmanızı təklif edirəm.

Ertəsi gün üçümüz – Səfa, Rövşən Hacıyev və mən Azərpoçtun akt zalında oturmuşduq və müsahibə başladı.

Əgər düzünü desəm, bu mənim "*Azadlıq*" kimi məşhur qəzetə ilk müsahibəm idi [161].

Söhbətimiz təxminən saat yarım çəkdi, başa çatanda "*Azadlığ*"ın jurnalisti dedi: - Abdul müəllim, Bakıda onlarla müsahibə almışam, amma bu cür məndə ilk dəfədir. Verdiyim bütün suallara o qədər aydın və qısa cavab verdiniz ki, söylənənlərin yalnız stenoqrafiyasını götürəcəyəm.

Daha yarım saat söhbət etdik və sonra jurnalist getdi.

Səfadan soruşdum, artıq bir şey söyləmədim ki. O isə:

- Abdul müəllim, indi başa düşürəm ki, Azərbaycanın gənc rabitəçilərinin konqressi fikrimiz, ən əsası, bu sahənin sizin kimi liderini bizə bəxş etdi, qoy respublika sizi tanısın.

1992-ci il mayın 30-da səhər Səfa Şəkiliyev və Rövşən Hacıyevdən zənglər gəldi, bildirdilər ki, "*Azadlığ*"ın bugünkü nömrəsində Azərbaycanın rabitə sahəsi haqqında müsahibə dərc olunub.

Müsahibənin adını Rövşən Hacıyev belə seçmişdi: "*Respublikanın bütün informasiyası nəzarət altındadır*".

Üç gün keçmədi, Rövşən Hacıyev zəng vurub, gündüz saat üçdə "*Azadlıq*" nəşriyyatına gəlib, ona yaxınlaşmağımı xahiş etdi. O tək deyildi, yanında Səfa Şəkiliyev və "*Mirzə*" adlandırdıqları "*Azadlıq*" qəzetinin redaktoru vardı, sonralar məlum oldu ki, onun adı Qismət Zahidov idi.

Mənimlə on beş dəqiqə danışıb, "*Mirzə*" dedi:

- Abdul müəllim, indi bizimkilər Sovet qoşunlarının Azərbaycandan çıxarılması uğrunda mübarizə aparır. Rabitə üzrə həll edilməmiş problemlərimiz var. Bizə kömək lazımdır, amma Rabitə nazirliyinin ən yüksək vəzifəli məmurlarının heç biri bizə lazım olan informasiyanı vermir, söyləyirlər ki, guya heç nə bilmirlər. Bununla əlaqədar, sizdən xahişim var, bu gün axşam saat

altıda Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyinə gedin, orada bizim adamımız Nazirin birinci müavini Sülhəddin Əkbərov sizin barədə hər şeyi bilir və sizinlə danışmaq istəyir.

Sakitcə söylədim: - Niyə də yox? Axı bu ölkə üçün, vətənimizin təhlükəsizliyi üçündür? Bəli - "*Mirzə*" cavab verdi.

"*Mirzə*" şüşənin arxasındakı otağa keçdi, harasa zəng vurdu və çıxanda dedi ki, Sülhəddin bəy sizi gözləyir.

Düz axşam saat altıda 8 nömrəli trolleybusla Nəriman Nərimanov prospektindəki yeni DTN-nin binasına çatdım.

Məni bir praporşik qarşıladı, adımı və soyadımı söylədim, nəyəsə baxdı, sonra harasa zəng etdi, sonra isə mənimlə, deyəsən, üçüncü mərtəbəyə qalxdı.

Müxtəlif daxili otaqlardan keçib, Sülhəddin Əkbərovun yanına gəldik, gənc, çox qanışirin, xoş bir təbəssümü vardı.

Qarşı-qarşıya oturduq. "*Azadlıq*" qəzetindəki məqaləni mənə göstərib, əlavə etdi - əla müsahibədir!

Sonra uzaqdan başlayıb, dedi:

- Abdul müəllim, sizin barədə hər şeyi bilirik, nəsə əlavə edəcəksiniz?

Gülümsədim və cavab verdim:

- DTK-nin ştatlı işçisi olmamışam, amma İngiltərədə olarkən, təbii ki, məndən məsləhətçi kimi istifadə edirdilər, mən isə etiraz etmirdim.

- Bəli, Abdul müəllim, bu barədə də bilirəm və hətta bilirəm ki, Sov.İKP-nın üzvlük biletini necə atıb, başqaları kimi yanvar hadisələrindən 2-3 ay sonra geri götürməmisiniz. Burada, bu kabinetdə sizə verəcəyim sual aramızda qalmalıdır, protokollaşdırılıb yaxud yazılmayacaq, Azərbaycan Rabitə nazirliyinin beş rəhbəri də (*nazirin özü və dörd müavini*) bu suallara mənfi cavablar verib. Bu sorğuların nəticəsindən məyusuq. Elə bil, onlar bu barədə bilirlər, lakin bizimlə, Azərbaycanın yeni hakimiyyəti ilə danışmaq istəmirlər.

O üç sual verdi və onlara, söylədiyi kimi, ilk dəfə müsbət cavab aldı. O soruşdu:

- Abdul bəy, bu informasiya BMT-nin eksperti olduğunuzdan, yoxsa Rabitə nazirliyinin apparatında işlədiyinizdən sizə məlumdur?

- Əgər mən, Azərbaycan Rabitə nazirliyinin ŞTŞ şöbəsinin keçmiş müdiri və Şəhər və kənd rabitəsi idarəsinin keçmiş rəis müavini olmuşamsa, bunu bilirəm, onda məntiqli sual çıxır, niyə Rabitə nazirinin özü və müavinləri sizə cavabı verməyiblər? Güman etmək olar ki, onların heç biri bu barədə heç nə bilmir. Amma ola bilməz, onlardan biri, Hüseynov Ömər çox savadlıdır, Əhmədov Nadir isə bu müəssisələrin kuratoru kimi bilməli idi və s. Bütün bunları isə 1973-1974-cü illərdə Azərbaycan Rabitə nazirliyinin ŞKTRİ-də işləyərkən öyrənmişəm, onlar nazirliyin birinci (*məxfi*) şöbəsində qeydə alınıb və Rabitə nazirliyinin bütün texniki elitası bu haqda bilməli idi. Bundan əlavə, Azərbaycanın şəhərlər arası rabitəsini təmin edən üç rabitə müəssisəsi bu haqda bilir (ТУРМ, ТУСМ və AMTC). Ona görə də Azərbaycan Rabitə nazirliyinin yüksək rəhbərliyindən cavab ala bilməməyiniz məni təəccübləndirdi.

Sülhəddin Əkbərov dözməyib dedi:

- Onlar satqındılar, Azərbaycanın taleyinin həll olunduğu bu günlərdə necə susmaq olar. Yox, Abdul bəy, onlar ya satqındılar, ya da respublikanın rabitəsi haqqında heç nə bilməyən kütdülər.

Sonra o, məmnun halda kreslosuna oturub, üç rəqəmli nömrə yığaraq, kiməsə zəng etdi. Mənim haqqımda danışırdı və dedi ki, öz maşını ilə məni onun yanına göndərə bilər.

Söhbəti bitirib, Sülhəddin Əkbərov mənə dedi:

- *Abdul bəy, siz Vətənə belə bir anda kömək etdiniz və belə çıxır ki, bu problemi texniki cəhətdən və asan birinci siz həll etdiniz. Əgər Azərbaycanda bu cür insanlar sahələri idarə etsəydi, ümumiyyətlə problem olmazdı. Sizinlə tanış olmağıma şadam və həmişə bunu xatırlayacağam. İndi maşınımı sizə verəcəyəm, o sizi Azərbaycan Prezidentinin səlahiyyətlərini i.e. İsa bəy Qəmbərovun yanına aparacaq, o sizi gözləyir.*

Ona təşəkkür etdim və dedim ki, 8 nömrəli trolleybusla gedəcəyəm.

Axşam saat səkkizdə İstiqlaliyyət küçəsində yerləşən Azərbaycan Prezidentinin binasına gəldim...

Birinci dəfə idi bu iri binanın pilləkənlərini qalxırdım, Azərbaycan KP-nın Mərkəzi Komitəsinin köhnə binası idi, axırıncı mərtəbəsinin (*mansard*) pəncərələri, bulvarda, Neftçilər prospektində yerləşən Hökumət evinin sonuncu mərtəbəsindəki kimi, nədənsə altıguşəli ulduz (Davudun Ulduzu) formasındadır, yəhudi işarəsidir, bunu Göyçaydan olan yəhudi dostlarımdan bilirdim.

Və burada yenidən Aleksandr İsayeviç Soljenicının sözlərini xatırladım: "*Sovet hakimiyyəti yalan üzərində qurulmuşdur*" və qeyri-ixtiyari düşündüm, Sovet İttifaqını elə yalan da məhv etdi.

Plakatlarla bizi inandırırdılar ki, İttifaq – sülhün dayağıdır, qoşunları isə bütün dünyaya göndərirdilər. Televiziya ilə növbəti beşillik planların yerinə yetirilməsi haqqında xəbər verirdilər, dükanlarda rəflər isə boş idi. Sov.İKP spirtli içkiləri qadağan etmişdi, Moskvada isə şərxoş insanlar veyllənirdi.

Kommunistlər və Lenin haqqında filmlərə baxırdıq, partiya nomenklaturası isə gizli Qərbi Avropa yaradıcılığından zövq alırdı.

Camaat kolbasa üçün növbələrdə dayanırdı, xidməti avtomobillər isə Sov.İKP-nin üzvlərinin evlərinə xüsusi mağazalardan delikateslərlə dolu gedirdi.

Televiziya ilə dayanmadan ölkədə inkişaf etmiş sosializm haqqında danışırdılar, camaat isə heç olmasa bir dəfə dünyanın kapitalist ölkələrində olmağı arzulayırdı, bu zaman iddia edərək ki, SSRİ "*Birləşmiş Ştatları (ABŞ) ötüb keçmək*" üzrədir.

*"Bir çox insanı idarə etmək – bir neçəsini idarə etmək kimidir. Bu təşkilatçılıq məsələsidir".*
Sun - Czı (e.ə. 544-496)

## 6.4. Bəs Azərbaycanı necə idarə edirdilər.

1992-ci ilin mayın 30-da "*Azadlıq*" qəzetindəki "*Respublikanın bütün informasiyası nəzarət altındadır*" müsahibəsində rabitə sahəsində strukturun yenidən qurulması və kadr dəyişikliyinin aparılması ilə Azərbaycan üçün bu strateji vacib sahəyə gənc mütəxəssislərin cəlb edilməsilə rabitə sahəsinin inkişaf konsepsiyasının tezislərini şərh etdim [161].

Prezidentin olduğu mərtəbəyə qalxanda, "*diplomat*" çantamı hər ehtimala qarşı yoxladılar və qəbul otağına qədər məni müşayiət etdilər, Prezidentin v.i.e.-in gənc (*35-40 yaşlarında*) köməkçisi ilə görüşdüm. Üzündə təbəssümlə mənə müraciət etdi:

- Abdul bəy, xoş gəlmisiniz. Mən, Gülşad Zərbəliyevəm, Prezidentin v.i.e.-in köməkçisi. İsa bəy tezliklə sizi qəbul edəcək, zəhmət olmasa, əyləşin. Oturub, sakitcə dəvəti gözləyirdim.

Beş dəqiqədən sonra Gülşad Zərbəliyev söylədi ki, gələ bilərəm, Prezidentin v.i.e. məni gözləyir.

Ayağa qalxıb, qapını açdım və Azərbaycan Prezidentinin vəzifələrini icra edənin böyük kabinetinə (*deyəsən, 250-300 kv.m.*) daxil oldum...

Masa arxasında İsa Qəmbər oturmuşdu, qısaboylu gənc, eynək taxmışdı, biz az da beli bükük. Azacıq qalxıb, sağ tərəfində əyləşməyimi təklif etdi.

Salam verib, oturdum və nəzərimi ona yönəltdim, çünki buna qədər onu ancaq televiziyada görmüşdüm.

O "*Azadlıq*" qəzetini masanın üzərindən qaldırıb, dedi:

- Bizi çox ustalıqla maraqlandıra bildiniz. Siz yanıma trolleybusla gələnə qədər Sülhəddin Əkbərov mənə ikinci dəfə zəng vurub, əlavə etdi ki, sizin ona görüş vaxtı verdiyiniz o informasiya təsdiq edildi. Bundan əlavə, artıq həmin rabitə qovşağa AXC-nin

rabitəçiləri qoyulmuş məsələnin həlli üçün göndəriliblər, sizə qədər bunun həllini heç kimdən ala bilmirdik.

Gülümsəyib, cavab verdim: "*Vətənimə xidmət etməyə hazıram*".

İsa Qəmbər xoş gülümsəyərək, əlavə etdi:

- Respublikanın Rabitə nazirliyinin bütün yüksək rəhbərliyi burada mənim yanımda olub və guya heç kim heç bir şey bilmir. İndi mən dəqiq onlara inanmıram. Otuz il bu sahədə işləyib, necə heç nə bilmirlər? Təsəvvür edə bilməzsiniz, Azərbaycana necə kömək etmisiniz, özünüz də, bilirəm, Xalq Cəbhəsi hərəkatında deyilsiniz.

- Hə, bu uzun məsələdir, lakin 1967-ci ildə Sov.İKP-nin üzvlüyünə namizədlik biletini təqdim edəndə mənə elə bir dərs veriblər ki, siyasətdən uzaq durmağı qərara aldım.

- Birinci sualım Azərbaycan Rabitə nazirliyinin yuxarı təbəqəsinə aiddir. Sizcə, onlar niyə belə hərəkət etdilər?

- Mənim üçün bunu söyləmək çətindir, söhbət zamanı olmamışam, amma görünür onlar ya köhnə quruluşa sadiqdirlər, ya da başqa səbəb var...

Bu zaman İsa Qəmbər gözlərini qaldırıb, gözlərimə diqqətlə baxdı və əvvəlcədən hazırlanmış və qarşısında olan on sualı ardıcıl olaraq verməyə başladı.

Mən, heç bir şey olmamış kimi, dürüst və açıq şəkildə bütün sualları cavablandırdım və mənə elə gəldi ki, bundan onun gözləri daha çox genişlənirdi.

- Abdul bəy, həm Rabitə nazirliyi, həm institutdan iş təcrübəniz, həm də BTİ-nın eksperti qismində xarici təcrübəniz olduğu halda niyə bu sahədə yüksək vəzifələrə cəlb olunmamısınız?

- İsa bəy, Azərbaycanda əsrlərdən bəri qəbul olunub ki, yazıçımız Anarın dili ilə desək: "*Adamın adamı gərək*".

- Bəli haqlısınız, "*elə evimizi yıxan budur*"...

Sonra o, rabitə sahəsindəki çatışmazlıqlar və Azərbaycan üçün bu problemlərin həlli yolları haqqında soruşmağa başladı.

- Abdul bəy, siz İngiltərədə təcrübədə, Əfqanıstanda isə BMT-nin eksperti qismində olmusunuz, söyləyin, Azərbaycanın rabitə sahəsində vəziyyəti necə düzəltmək olar, bu sahə necə irəliləsin, inkişafın optimal yolu hansıdır?

- Bunun üçün iki şey lazımdır:

Birincisi, Azərbaycanın rabitə sahəsinin inkişaf Konsepsiyası: qısa, orta və uzun müddətli;

İkincisi, Azərbaycanın rabitə sahəsinin inkişafının Baş planı, onların yerinə yetirilməsi planları ilə birlikdə.

Birincisinin olmaması və ikincinin ölkənin parlamenti tərəfindən təsdiqlənməməsi sahədə müvəffəqiyyətə gətirməz.

- Siz Azərbaycanın rabitə sahəsi üçün belə bir konsepsiyanı tərtib edə bilərsiniz?

- Niyə də yox? Amma başlanğıc üçün onları iki-üç səhifəlik tezislər şəklində etmək və yalnız bundan sonra tam geniş konsepsiyanı hazırlamaq lazımdır, bu da Azərbaycanın Rabitə nazirliyinin konkret sahələrinin inkişafının Baş planının yaradılmasının əsasını təşkil edəcək.

- Bu tezisləri nə qədər tez tərtib etmək mümkündür?

- Əgər Beynəlxalq Telekommunikasiya İttifaqının (*BTİ*) tövsiyələrini nəzərə alsaq, bir həftəyə. Nədir ki?

- Bilirsiniz, mən sizə onlarla sual verdim və hamısına tam cavab aldım, amma buna qədər bu masa arxasında ölkənin Rabitə nazirliyinin demək olar ki, bütün vəzifəli şəxsləri oturdu, cavablar isə yox idi. Sizdən xahiş edirəm, hesab edin ki, bu mənim şəxsi xahişimdir, bu tezisləri üç günə hazırlayın və mən özüm sizə evinizə zəng edəcəyəm. Əgər vaxtında qurtarsanız, yenidən burada görüşəcəyik.

- Yaxşı, amma getməmişdən əvvəl sizə bir etirafım olacaq. Siz yəqin bilirsiniz, kim inqilabları düşünür, onları kim edir, kim onların nemətindən bəhrələnir – zəhmət olmasa, sonra hakimiyyəti demokratik Azərbaycan Republikasının bütün ideologiyasını ləkələyən praqmatik və namərdlərə verməyin. Və daha bir şey, bəlkə

biz sizinlə bir daha görüşməyəcəyik, bilin ki, çiyinlərinizə ağır yük götürmüsünüz...

Sonrakı üç günü masadan durmadım, BMT-nin bütün sənəd və tövsiyələrini qaldırdım, söz verdiyim tezisləri hazırlayıb çatdırmağa çalışırdım. Əlbəttə, bu işdə may ayının əvvəlində Azərbaycanın gənc rabitəçilərinin konfransının təşkilat komitəsi üçün hazırladığım qaralama materiallar mənə kömək oldu.

Axşam saat beşə söz verdiyim konsepsiyanın hardasa dörd səhifəlik tezis variantını tamamilə bitirdim.

Lakin Prezident Apparatından zəng gəlmədi və mən hardasa sevindim, fikirləşdim ki, nə yaxşı, keçib getdi.

Amma növbəti gün axşam saat altıda zəng çalındı və dəstəyi özüm qaldırdım. Zəng vuran salamlaşıb, dedi:

- Abdul bəy, dünən Bakıda deyildim, ona görə zəng vurmadım.

Danışanın səsini tanımadım, o bunu hiss edib, soruşdu:

- Məni tanımadınız, İsa bəydir.

Mən gülərək:

- Dövlətli olacaqsınız, İsa bəy. Mən, telefonçu olaraq, əgər kiminləsə heç olmasa bir dəfə telefonla danışmışamsa, onu tanıyıram. Amma biz ilk dəfədir telefonla danışırıq və ona görə mən sizi tanımadım.

İsa bəy: - Əgər tezislər hazırdırsa və etiraz etmirsinizsə, onda sizi saat səkkizdə gözləyirəm, buraxılış artıq yazılıb.

- Yaxşı, - cavab verdim.

Səkkizə on dəqiqə qalmış Prezident Apparatının buraxılış məntəqəsindən keçib, liftlə qəbul otağına qalxdım.

Uzaqdan görüb, Prezidentin s.i.e.-nin köməkçisi Gülşad Zərbəliyev məni gülümsəyərək qarşılayıb, sakitcə dedi ki, o artıq məni soruşub, dərhal girə bilərəm. Mən də içəri daxil oldum.

Salamlaşıb, adət etdiyim yerimdə oturdum və çap etdiyim dörd səhifəlik tezisləri çıxardıb, İsa bəyə verdim.

O eynəyini düzəldib, diqqətlə oxumağa başladı. Susaraq oturmuşdum, onun üzündə maraq və təəccübü aydın görürdüm.

7-8 dəqiqədən sonra tezislərin bütün vərəqlərini qarşısına qoyub, mənə baxıb, dedi:

- Biz də burada özümüzü öldürürük ki, kimi Azərbaycanın Rabitə naziri təyin edək. Çox gözəl, mən belə də düşünürdüm, siz bütün elmi-tədqiqat institutunun yerinə işləmisiniz, bu əladır. Bundan əlavə, Abdul bəy, siz indi Azərbaycanın yeni hakimiyyəti üçün hər bir nazir vəzifəsinə olan bütün namizədlərə qarşı böyük bir günah işlədiniz. Daha mən sahənin inkişaf konsepsiyasının tezisləri əlində olmayan bir nəfəri də vəzifəyə qoymayacağam. Bunun üçün çox sağ olun.

Ona baxıb, nəyi nəzərdə tutduğunu anlamağa çalışırdım.

Bundan sonra İsa bəy dedi:

- Belə, mən də daxil olmaqla, Azərbaycanın Rabitə naziri vəzifəsinə namizədliyinizə AXC-nin yuxarı altı üzvünün hamısı səs verdi. İnanmazsınız, ancaq tədbirlərimizdə heç vaxt iştirak etməyən birisinə münasibətdə bu cür həmfikirliyimiz birinci dəfədir. Bundan əlavə, AXC-nin Göyçay bölməsi ilə əlaqə saxlayıb, sizin barədə ideal zəmanət aldıq. Sizi Azərbaycanın yeni hakimiyyətinin Rabitə naziri təyin etmək istəyirik. Amma AXC-nin şərtləri də var: "***Sizin təyinatınızdan sonra, ilk ayda Azərbaycanın Rabitə nazirinin dörd müavini istefaya göndərilməlidir və sizin təqdimatınızla biz nazirin yeni müavinlərini təyin edəcəyik. Ondan əlavə, onların öz istəyilə işdən azad edilməsi haqqında ərizələrini təyin olunduğunuz ilk gündə alırsınız. Sizə hər şey aydındır, bunu biz xatırlatmadan, sizi nazir kimi təqdim edəndən dərhal sonra etmək lazımdır!***"

Sağ əlimi bir az qaldırıb, dedim:

- "*İsa bəy, mən bu cür edə bilmərəm, mən də məsləhətləşməliyəm. Ən əsası isə, AXC hərəkatında olmamışam və bununla məni həmişə qınayacaqlar. Bilirsiniz, mən BMT-nin ekspertiyəm, onların qarşısında öhdəliyim var, istənilən vaxt məni çağıra bilərlər. Və onlara etiraz etməyə hüququm yoxdur*".

- *Nədən danışırsınız Abdul bəy? Bəli, razıyam, bunları evdə razılaşdırmalısınız, lakin Vətənə belə anda etiraz edə bilməzsiniz. Düşünürəm gedib sakitləşməlisiniz və güman edirəm, iki gün ərzində sizi çağıracağıq*".

Tam çaşqınlıqla evə döndüm.

Evdə həyat yoldaşım halımı görüb, soruşdu: "*Sənin konvensiyan həqiqətən onun xoşuna gəlmədi?*".

- İş elə orasındadır ki, çox xoşuna gəldi və məni Azərbaycanın Rabitə naziri təyin etmək istəyirlər.

- *Nədir, yalnız bu rüşvətxorlar Azərbaycanın Rabitə naziri olmalıdır? Onlar düzgün seçim ediblər. Əgər rabitə sahəsinin başında düzgün və texniki savadlı adam görmək istəyirlərsə, onda Rabitə nazirliyinin başında sən olmalısan.*

Səhərisi gün Rabitə nazirinin köməkçisi mənə evə zəng vurub, deyir ki, Rabitə naziri Şamil Musayev artıq dərəcədə xahiş edir ki, gündüz saat dörddə onun yanına gəlim.

Köməkçiyə təşəkkür edib, görüşə razı oldum.

Dördə beş dəqiqə qalmış artıq iki ildir ki, Şaumyan küçəsi 33-də (*sonra Azərbaycan prospekti, indi isə Zərifə Əliyeva küçəsi*) yerləşən Baş Poçt İdarəsinin məşhur binasına köçən Rabitə nazirliyinin ikinci mərtəbəsində idim.

Nazir görüşə 15 dəqiqə kecikdi, mavi jinsdə, yarıidman formasında idi.

Hesab edirdilər ki, Şamil Musayevin A.Mütəllibovla (*müstəqil Azərbaycanın ilk prezidenti*) yaxın münasibətləri vardı, o rabitəçi təhsilli, çox işgüzardı və deyəsən onun şəxsi biznesi var idi.

Bir sözlə, çox sənli-mənli və işgüzar adam idi və onunla həmişə çox rahat davranırdım.

Məni görüb, qucaqlayıb, öpdü və çay təklif etdi.

Katibə tez çay gətirdi. O uzaqdan başladı:

- Abdul müəllim, necəsiniz, işləriniz necədir?

Mən sakitcə: - Yaxşı. Sizin?

Bu zaman başını qaşıyıb, dedi:

- Heçdə yaxşı deyil. Müavinlərim məni pis vəziyyətdə qoyurlar, hər zaman bir intriqaları var, bir-biriləri ilə yola getmirlər və məni pis vəziyyətdə qoyurlar. (*Gülümsəyərək*) Abdul müəllim, düşünürəm sizi bizə, Rabitə nazirliyinə cəlb edim. Siz necə düşünürsünüz?

- *Şamil müəllim, hər şey sizin məndən nə istədiyinizdən və məni burada kim olaraq görməyinizdən asılıdır.*

- Bilirsiniz, "*Azadlıq*" qəzetində 30 may 1992-ci il tarixli müsahibənizi oxudum, orada əsas suallara çox yaxşı cavab vermisiniz, məqalə mənim xoşuma gəldi. Və mən fikirləşdim ki, bəlkə sizin üçün bir qəzet və ya jurnal təşkil edək və siz orada baş redaktor olasınız, institutda isə yarı ştatla dərs deyısiniz?

- Bilirsiniz, Şamil müəllim, artıq 15 ilə yaxındır kafedrada işləyirəm və baxmayaraq ki, başqa yerlərdən saathesabı ödənişli müxtəlif təkliflər olub, mən bunu xaltura hesab edib, ora getməmişəm. Məncə adam yalnız bir yerdə, necə deyərlər, 100% səmərəli işləyə bilər. Ona görə də çox sağ olun, mən razı deyiləm, xüsusilə də bu vəzifədən respublikanın Rabitə nazirliyinin texniki siyasətinə təsir göstərə bilmərəm. Təklifiniz üçün təşəkkür edirəm, ancaq bu mənə lazım deyil.

- (*Mənə "sən" deyərək, müraciət edib*) Haqlısan, mənim bu müavinlərimlə mümkün deyil, axı mənim kənarda öz işlərim var, bunlar kimi deyiləm: rabitə müəssisələrindən hər şeyi sorurlar. Bundan əlavə, onlarla dolanmaq mümkün deyil. Rabitə sahəsini rüşvətxorluqda günahkarlandırırlar, mənim isə buradan bir qəpiyim belə yoxdur, ancaq nazir kimi və bitdi. Məsələn, bax Rabitə nazirliyinin bu üçüncü mərtəbəsini öz puluma tikdirmişəm, müavinlərim isə altımı qazırlar.

- Deməli, Şamil müəllim, mən yalnız o halda və bu səviyyədə sizin üçün faydalı ola bilərəm ki, əgər bütün bunları sizinlə birlikdə aradan qaldırsam.

- Bəli, haqlısan, sənə nazir müavininin yerini təklif etməliyəm. Gəl mən bu işə başlayım, razılaş.

*- Şamil müəllim, əgər siz Prezidentin adına rəsmi məktub yazsanız ki, cəmiyyətimizin müstəqilliyi və demokratlaşması ilə bağlı mənim müavinlərimi tutduqları vəzifələrdən azad edib, Abdulu birinci müavin təyin edəsiniz, onda Azərbaycanın Rabitə nazirinin birinci müavini olmağa razılaşaram. Bax onda Azərbaycan rabitəçilərinin 25 minlik ordusu deyəcək ki, Şamil düzgün nazirdir, bütün fırıldaqçıları qovub, Abdul Qəhrəmanzadəni birinci müavin təyin etdi. Bununla siz 100% udursunuz, mən isə həmişə sizinlə olacağam, məsləhətləşərik kimi Rabitə nazirinin boşalmış müavinlərinin yerinə təyin etməyi, yuxarıdakılar isə, ölkənin Prezidenti və onun komandasını nəzərdə tuturam, deyərlər ki, bəli, Şamil dürüst və açıq şəkildə hərəkət edir. Sizi, Şamil müəllim, bütün bunlar təmin edir?*

*- Nə danışırsan, Abdul, buna mənim gücüm yetməz, istəyirəm hansısa birini çıxardım, amma hamısını yox, bunu bacarmaram.*

*- Deməli mən, Abdul, sizinlə eyni qoşquda gedə bilmərəm, bundan əlavə, əgər bu cür etməsəniz, yuxarıda sizə inanmazlar.*

*- Bəli, heyf – Şamil dedi – düşünürdüm dil tapacağıq.*

*- Əgər təklif etdiklərimə razılaşsaydınız, bəlkə də bir şey alınardı.*

Sonra Şamillə sağollaşıb, otaqdan çıxdım.

Lakin otaqdan çıxarkən, Şamil Musayevin necə ümidsiz başını aşağı saldığını gördüm.

Ona yazığım gəldi, axı pis oğlan deyildi.

Evdə hər şeyi yoldaşıma danışdım, o da razılaşdı ki, Rabitə nazirliyində yarımçıq qərarlar keçməz.

Və həmin axşam saat doqquzdan keçmiş tələbələrim, təşkilat komitəsinin iştirakçıları və onlardan tanımadığım bəziləri arasıkəsilmədən bizə zəng edirdilər.

Ancaq Prezidentin v.i.e. İsa Qəmbərov və Rabitə naziri Şamil Musayevlə görüşlərdən olan təəssüratlarımı biruzə etmədim.

Azərbaycan Xalq Cəbhəsinin hərəkatlarında iştirak etməyən biri kimi, kiməsə etibar etmək, yuxarıdakı görüşlərim haqqında onlara danışmaq mənim üçün çətin idi.

Yalnız Azərbaycan bu günlərdə vulkan kimi qaynayırdı, AXC-nin isə nə ağlı, nə hikməti, nə də siyasi fəaliyyət təcrübəsi kifayət etmirdi (*totalitar, təkpartiyalı Sovet İttifaqı sistemində hansı təcrübə ola bilərdi?*).

Görünür, mahiyyətcə, keçmiş DTK-nin yeni işçiləri ilə qarışmış köhnə kommunist qvardiyasından ibarət bütün Prezident Apparatı yalnız ssenari üzrə işləyə bilərdi.

Mahiyyətcə, onlar Azərbaycan hakimiyyətinin ali orqanlarının istənilən qərarlarına, respublika üçün bu göstərişlərin əhəmiyyətindən asılı olmayaraq, mane ola bilərdilər.

Yeni hakimiyyətin işçilərinin mentalitetində, şəxsən mən, heç bir kreativlik görmədim, bütün yenilik bir-birilərinə müraciətdə söylədikləri sevimli sözlərim: bəy və xanımdan ibarət idi (*zamanında bizim dahi Üzeyir Hacıbəyovun vurğuladığı azərbaycanlıların müqəddəs müraciət üsulu*).

Lakin, təəssüf ki, AXC-nin savadsız (*boşboğazları*) bu sözləri elə murdarladılar ki, 25 ildən sonra biz heç cür Azərbaycan vətəndaşlarımıza bu gözəl sözlərlə müraciət edə bilmirik və hamını müəllim deyə çağırırıq.

Şəxsən mən ümidlə yaşayıram ki, azərbaycan soyadlarının sonluğu və insanlara müraciət sözləri Azərbaycan mədəniyyətinin parlaq və şəffaf hissəsi kimi məişətdə bərpa olunacaq.

Burada Azərbaycanın bu və ya digər sahəsində işlənən sözlərin tolerantlığında dayanmaq istəyirəm.

Hansısa bir sahə haqqında həqiqəti (*təhlil*) KİV vasitəsilə çatdırmaq istəyən ekspertin anti-vətənpərvər yaxud daha pisi, "*ümidsiz müxalifətçi*" kimi təqdim edilməsini yolverilməz sayıram. Axı sahənin təhlili mütləq siyasət deyil, sadəcə alternativ düşünən mütəxəssislərin fikridir (*hansının ki, bunun üzərində elm dayanır*).

Sonra, müxalifətçi olmaq – Sovet hakimiyyəti dövründə olduğu kimi, "*xalqın düşməni*" olmaq deyildir.

Güman edirəm, alternativlər həmişə lazımdır və məlum olduğu kimi, Qərb məhz alternativ və müxalifət yanaşmaları üzərində öz demokratiyasını qurur. Görünür, Allah bilir, kim tərəfindən kresloya oturdulmuş "*kreslodakı məmur*"un fikrini dövlətinki (*xalqın fikri*) ilə qarışdırırıq. Çox güman, bütün bunlar cəmiyyət yaxud sahədəki çatışmazlıqları aradan qaldırılması məqsədilə açıq etiraf edənlərlə (*vətənpərvərlər*) və cəmiyyətdəki çatışmazlıqları yuxarı eşelondan və ölkəsinin xalqından gizlətməyə çalışanlar (*saxtakar vətənpərvərlər*) arasındakı mübarizəyə daha çox oxşayır.

Düşünürəm, Prezident Apparatının işçilərinin "*sementlənmiş mentalitetdən*" boşaltmaq lazımdır, hansılara ki, həmişə kimin üçün çalışmağın fərqi olmayıb...

Bu apparat işçiləri üçün ən əsası, Apparatın hədsiz vəsaitlərini sormaqdır, görünür, burada bu görünməmiş vəsaitlərin hara sərf olunduğunu aydınlaşdırmaq üçün heç kim və heç vaxt heç bir müstəqil monitorinqlər və ya yoxlamalar aparmayıb.

Maraqlıdır, ölkə üzrə minimal əmək haqqı hələ də az olduğu halda bu apparat işçiləri hansı vəsaitlə bu cür təmtəraqla yaşayır, bu cür dəbdəbəli villalar (*qəzetlərdə yazıldığı kimi*) onlarda hardandır?

Görünür, Fridrix Engelsin sözləri nəzərə alınmalıdır: - İnsanlara elə maaş vermək lazımdır ki, insan kimi yaşasınlar, onda onlar inqilab fikirinə gəlməzlər (*yəni bugünkü Tunis, Misir, Liviya, Suriya və s.*).

Səadə insanlar üçün siyasətçilər maraqlı deyil, onlar stress və ehtiyac olmadan normal bir mədəni həyat istəyirlər və ən yaxşı halda onlar müxtəlif ictimai və qeyri-hökumət təşkilatlarında fəal olacaqlar.

Bu gün demokratik dövlət yalnız açıq cəmiyyətdə inkişaf etmiş infrastrukturun köməyilə irəliləyir, harada ki, güclü möhkəm iqtisadiyyat, aşağı işsizlik və yüksək yaşayış səviyyəsi olmalıdır.

Ancaq uşaqlarımıza görə susmamalıyıq ki, yoxsa onlar gələcəkdə bizi adi qorxaqlıqda ittiham etməsinlər.

Görünür dövlətimiz əhalini elə bir vəziyyətə çatdırıb ki, onlar bütün məmurlara, qanımız bahasına əldə etdiyimiz müstəqillimizə və möcüzə ilə bərpa olunan dövlətçiliyimizə nifrət edirlər.

Bu zaman milli azlıqlar (*artıq sayı az deyil*) ölkədə baş verlənləri repressiya kimi qəbul edirlər və özü də məhz onlara qarşı olan repressiya.

Çoxları görünür hələ də başa düşmürlər, niyə əsasən xüsusu regiondan olan xüsusi adamlar dövlətin inzibati vəzifələrindədirlər və istəmədən bütün bunları ayrı-seçkilik kimi qəbul edirlər. Axı nomenklatura, sovet məmurları, ilk növbədə komsomol fəalları və kölgə iqtisadiyyat nümayəndələri cinayətkarlardan biznesmenlərə və sahənin rəhbərlərinə çevrilərək, hakimiyyətə gəldilər.

Bəli, təbii ki, ölkənin idarə edilməsində ədalət lazımdır, amma hamı istisnasız, Azərbaycana Tanrının verdiyi yeraltı piroqdan çox da olmasa, yetərincə öz payını gözləyir.

Lakin istisnalar da vardı, xüsusilə də Göyçaydan olan həmyerlim Mikayılov Mirzə Kərim oğlu, 1965-ci ilin məzunu.

Mirzə Xəzər (*Mikayılov Mirzə Kərim oğlu*) dağ yəhudisidir, 29 noyabr 1947-ci ildə Azərbaycanın Göyçay şəhərində anadan olub, görkəmli radio jurnalisti, publisistdir, Bibliyanın azərbaycan dilinə tərcüməçisidir. 1973-cü ildə Bakı şəhəri, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1974-cü ildə İsrailə mühacirət etmişdir, 1976-cı ilin avqust ayında isə "*Azadlıq*" radiosunun Azərbaycan redaksiyasına dəvət olunmuşdur. 1979-1985-ci illərdə "*Azadlıq*" radiosunun Azərbaycan redaksiyasının baş redaktorunun müavini vəzifəsində işləmişdir.

1985-ci ilin oktyabrında Mirzə Xəzər ABŞ-a köçmüşdür və burada, Vaşinqtonda 1985-1987-ci illərdə "*Amerikanın səsi*" radiostansiyasının Azərbaycan redaksiyasının direktoru olmuşdur. Sonralar, 1987-2003-cü illərdə Münhendə, sonra isə Praqada "*Azad*

*Avropa / Azadlıq*" radiostansiyasının Azərbaycan redaksiyasının direktoru olmuşdur.

Mirzə Xəzər Azərbaycan və Türkiyədə siyasi və iqtisadi vəziyyət haqqında yazılmış bir çox tədqiqat məqalələrinin və şərhlərinin müəllifidir.

Şəxsən mən Mirzə Xəzərin verilişləri sayəsində Türkiyə, o cümlədən Çanaqqala döyüşü barədə bir çox şey öyrəndim.

Məlum olduğu kimi, 25 aprel 1915-ci ildə Antantanın qoşunları (*ingilis-fransız donanması*) Çanaqqalanı işğal etmək üçün böyük hərbi əməliyyat həyata keçirərkən, böyük itkiyə uğradılar.

Türkiyə üçün ağır olan o illərdə Azərbaycan xalqı qardaş xalqın, vahid müstəqil türk dövlətinin və bütün türk dünyasının gələcək taleyi üçün çox narahat olurdu.

Azərbaycanda bir çoxları türk ordusuna könüllü olaraq yazılırdı ki, Türkiyəni parçalamaq niyyətində olan düşmənlərə qarşı dursun. Azərbaycanlılar qan qardaşları ilə birlikdə Çanaqqalanın müdafiəsinə dayandılar, həmçinin türk ordusunun ehtiyacları üçün pul və zinət əşyaları toplayırdılar.

Türk həmrəyliyi özünü çox tez biruzə verdi (*üç il sonra*), 15 sentyabr 1918-ci ildə Nuri paşanın başçılığı altında Qafqaz islam ordusu bizim Bakını erməni soyğunçularından azad etdi.

*"Kimin haqlı olduğu deyil,*
*nəyin düzgün olduğu vacibdir"*
Tomas Henri Geksli (1825-1895)

## 6.5. Mən onların ssenarisi ilə, Rabitə Nazirliyində yox idim.

Gündüz saat üçdə, 15 iyun 1992-ci ildə Prezident Apparatından zəng edib, xəbərdarlıq etdilər ki, saat beşə Azərbaycan Prezidentinin v.i.e. İsa Qəmbərin yanında olum.

Həmişə olduğu kimi, təyin olunmuş vaxtdan beş dəqiqə əvvəl Prezidentin köməkçisi Gülşad Zərbəliyevin yanında idim.

O, heç nə demədən, məni qucaqladı və söylədi – keçin.

Prezidentin otağına daxil olub, salamlaşdım, İsa Qəmbər əlini uzadıb, sağ tərəfində yanında oturmağıma işarə etdi və dedi:

- Yuxarının yekdil qərarına əsasən, siz Azərbaycanın Rabitə naziri təyin olunursunuz. – Əvvəlcədən hazırlanmış Prezidentin Sərəncamını çıxarıb, mənə göstərdi və imzalayıb, yenidən mənə göstərdi. – İndi Azərbaycanın rabitə sahəsi üçün sakitəm. Hə, Prezidentin sizə ilk tapşırığı: – Araşdırın, niyə Naxçıvanla əlaqə işləmir? Nədənsə bunu bizimlə əlaqələndirirlər, ancaq bu cür tapşırıqlar verməmişik.

İndi Prezidentin mühafizə dəstəsi ilə Baş Nazirin yanına gedəcəksiniz, sizi orada təqdim edəcəklər, Azərbaycanın Rabitə nazirinin şəxsiyyət vəsiqəsini verəcəklər və sabah səhər, hardasa onun yarısında Rabitə nazirliyində görüş barədə sözləşəcəklər, orada Nazirlər Kabinetinin nümayəndəsi Rabitə nazirliyinin Apparatına sizi respublikanın yeni Rabitə naziri qismində təqdim edəcək. Bu axşam saat səkkizdəki xəbərlərində isə Azərbaycan Televiziyasının Prezidentin sizin təyinatınız haqqında əlinizdə olan Sərəncamını oxuyacaqlar. Sizə uğurlar arzulayıram ki, şəxsən buna mənim şübhəm yoxdur. Sizi əmin etmək istəyirəm ki, şəxsən mən həmişə rabitə sahəsinin yenidən qurulması işlərində bütün təşəbbüslərinizi dəstəkləyəcəyəm.

O masa arxasından qalxıb, bundan əvvəl hansısa bir düyməni basaraq, əlimi sıxdı və söylədi:

- Abdul bəy, sizdən tələb olunan birinci şey, dörd müavinlərinizin hamısının ərizəsi və təcili Naxçıvanla əlaqənin bərpasıdır. Yenə də görüşəcəyik.

Bu zaman Prezidentin otağına mühafizədən bir nəfər gəldi, elə bil yerimirdi, döşəmədə sürüşürdü, Londonda İlham Əliyevlə SSRİ-nin Böyük Britaniyadakı səfirliyinin qarşısında 1981-ci ilin o oktyabr günlərində tanış olarkən gördüyüm kimi. İsa Qəmbər ona dedi: - Abdul bəyi Nazirlər Kabinetinə aparın, qalanını onlar özləri edəcəklər.

"*Yaxşı*" – polkovnik söylədi və bir az özünü düzəltdi.

Prezidentin otağından çıxanda birinci Prezidentin köməkçisi Gülşad Zərbəliyev mənə yaşınlaşdı. O səmimiyyətlə dedi: - Abdul müəllim, sizi ürəkdən təbrik edirəm.

Polkovnik öndə gedirdi, mən onun arxasınca və liftə daxil olduq. Başa düşdüm ki, bir mərtəbə aşağı endik.

Qırx-əlli addım irəliləyib, çox da yüksək olmayan tunelə girdik. Görünür, Prezident Apparatı ilə Nazirlər Kabinetini birləşdirirdi.

Tuneldə on beş addım irəliləmişdik ki, polkovnik ayaq saxlayıb, dedi: - Abdul müəllim, tezliklə Heydər Əliyev gələcək və hər şey yaxşı olacaq.

Bu cür etirafdan təəccüblənib, cavab verdim:

- *Yəni yeni Prezident hələ vəzifəsinə başlamamış onu dəyişdirmək lazımdır?*

Polkovnik söylədiklərimdən susdu, mən də daha heç nə demədim, amma burada, yeraltı tuneldə başa düşdüm ki, Azərbaycanı idarəetmə ssenarisi Bakıda yazılmır və ümumiyyətlə bu mənim ssenaridə olmadığımı hiss etdim...

Lakin artıq gec idi, təəssüf ki, oyun başlamışdı...

Bir anda on il yaşlandım, hər şey aydın oldu.

Baş nazirin birinci müavininin otağına yaxınlaşanda bir dəqiqəlik ləngiməyimi xahiş etdilər. Mən gözləyənə qədər məndən vəsiqə üçün rəngli şəkil istədilər.

Pul kisəsindən fotoşəkli çıxardıb, onların köməkçisinə verdim.

Bu zaman təngnəfəs qaçaraq, Şamil Musayev (*Rabitə naziri vəzifəsində olan*) gəldi, mənimlə salamlaşıb, Baş nazirin birinci müavini Vahid Əhmədovun yanına keçdi.

Beş dəqiqədən sonra otaqdan bütün qırmızı və tərli çıxdı, məni qucaqlayıb, dedi: "*Abdul, bu təyinat münasibətilə səni ürəkdən təbrik edirəm, əgər düzünü desəm, buna layiqsən. Sənə uğurlar, hələlik, sabah saat doqquzda Rabitə nazirliyində görüşərik*". Çevrilib, ağır addımlarla çıxıb getdi.

Bu zaman məni dəvət etdilər, qaranlıq, böyük bir otağa keçdim, burada kağızlara batmış, Vahid Əhmədov oturmuşdu.

O başı ilə salam verib, dedi ki, sabah o burada olmayacaq və digər müavindən, R.Gülməmmədovdan xahiş edəcək ki, səhər saat doqquzda Rabitə nazirliyində mənim Apparata təqdim edilməyim üçün orada olsun və dişlərini sıxaraq, dodaq arası məni təbrik etdi.

Ona təşəkkür etdim və polkovniklə otaqdan çıxdıq, burada köməkçi əlində vəsiqə ilə bizi gözləyirdi.

Polkovnik dedi ki, sərbəstəm, amma sabah səhər saat doqquzda Rabitə nazirliyinin qarşısında R.Gülməmmədovu qarşılamalıyam, və o məni Rabitə nazirliyində təqdim edəcək.

Vidalaşıb, Azərbaycan Respublikası Prezidentinin mənim respublikanın Rabitə naziri təyin edilməyim haqqında ***15 iyun 1992-ci il tarixli 844 nömrəli*** Sərəncamının nüsxəsi ilə Nazirlər Kabinetindən çıxdım.

Nazirlər Kabinetindən çıxarkən, ilk rastlaşdığım maşına oturub, evə gəldim, anladığım qədər, evdəkilər çox narahat idilər.

Səkkizə on beş dəqiqə qalmış evdə idim, Subiyə mənim Azərbaycanın Rabitə naziri təyin edilməyim haqqında Sərəncamı göstərib, dedim:

- Televizoru qoşun, indi mənim təyinatım haqqında elan olacaq.

Düz saat səkkizdə ailəmiz – Subi, Leyla, Həmid və mən televizorun önündə idik.

Bir neçə dəqiqədən sonra Milli Televiziyanın diktoru Respublikanın Prezidentinin Azərbaycanın Rabitə naziri Şamil Musayevin vəzifədən azad edilməsi haqqında Sərəncamını və ardınca Prezidentin Qəhrəmanzadə Abdul Həmidulla oğlunun Azərbaycanın yeni Rabitə naziri təyin edilməsi haqqında 15 iyun 1992-ci il tarixli 844 nömrəli Sərəncamını oxudu.

Evdəkilər xorla URA qışqırdılar!

Hamıdan çox Leyla sevinirdi, sevincindən ay kimi parıldayırdı və ucadan deyirdi: "*Ata, ata necə şadam!*".

Beş dəqiqə keçmədi ki, təbrik zəngləri başladı, hər yandan zəng edirdilər, tələbələrim (*Mənsurov Fəxrəddin*), kafedranın müəllimləri (*Eldar müəllim*), sahəmizdən (*Elmira Mahmudovna İsmayılova*) və digərləri zəng vururdular.

Təxminən yarım saatdan sonra qapının zəngini vurdular. Açdım – iki nəfər dayanıb: Məmmədov Məmməd (*qara Məmməd ləqəbində*) və Bakı ŞTŞ-dən Məmmədov Fəxrəddin, güllər və bir qutu şokoladla, sevinclərindən parlayırlar, elə bil onları təyin ediblər.

Gələnləri qapı arxasında saxlamaq yaxşı deyildi, onları qonaq otağına dəvət etdik. Divana əyləşib, bu münasibətlə şad olduqlarını ifadə etməyə başladılar. Azərbaycanın gənc rabitəçilərinin təşkilat komitəsinin üzvləri kimi onlar, mənim təyinatıma sevinirdilər.

On beş dəqiqədən sonra xudahafizləşib getdilər.

Biz dördümüz qalıb, baş verəni axıra qədər dərk etmədən, yenə şadlanaraq, bir-birimizi qucaqlayırdıq.

Birdən şəhərlərarası zəng çalındı, Göyçaydan, evdən zəng edirdilər, hamı təbrik edirdi, anam, bacılarım və qardaşlarım, elə xoşbəxt idilər ki, bilmirdilər, sevinclərini necə ifadə etsinlər.

Gecə yarısınadək zənglər dayanmadı, bəzilərini hətta tanımırdım, amma yenə də diqqətlərinə görə təşəkkür edirdim.

Uşaqlar yatandan sonra biz (*Subi ilə mən*) sakitcə gün ərzində yaşananları müzakirə edirdik. Azərbaycanın Prezident Apparatı və Nazirlər Kabinetinin binası arasındakı yeraltı keçiddə baş verənlər barədə də danışmalı oldum. Və Subidən xahiş etdim ki, artıq ilk gündən həyatın bütün dönüşlərinə hazır olsun və söylədim ki, əgər Cenevrədən çağırış gəlsə, onda mütləq BMT-nin eksperti qismində dünyanın istənilən nöqtəsinə işləmək üçün getməyə razı olacağam.

Buna cavab olaraq, Subi dedi: "*Abdul, yadında saxla, sən lüt, yoxsul, dayısız və tapşırıqsız ikən, heç vaxt AXC-nin heç bir qruplaşma və hərəkatlarında olmadan, ancaq 26 il ərzində yorulmadan işlədiyindən ixtisasın üzrə ən böyük vəzifəyə nail olmusan. Bu namizədlik dissertasiyasından, Beynəlxalq Telekommunikasiya İttifaqının xətti ilə BMT-nin eksperti vəzifəsindən sonra ixtisasın üzrə sənin üçüncü layiqli qələbəndir. Və yadında saxla, bu vəzifədə nə qədər işləyirsən işlə, onsuz da yeni müstəqil və demokratik Azərbaycanımızın ilk naziri olaraq, bu sahənin tarixinə düşəcəksən*".

Mən isə cavabında: - Hə, Allah qüdrətlidir! Mafiya quyu qazsa da Allah onsuz da bizi bədxahlardan qoruyacaq. Allahdan başqa heç bir kəsdə qudrət və qüvvət yoxdur! Bax belə, hələ Rabitə naziri vəzifəsinə başlamamış bütün pisliklərə mənəvi olaraq tamamilə hazır idim.

Söhbət edib və bir qədər sakitləşib, heç olmasa bir neçə saat yatmaq qərarına gəldim ki, səhər tam hazırlıqlı olum.

Adətim üzrə səhər düz saat yeddidə oyanıb, yuyunub, səhər yeməyini yedim və Azərbaycan Rabitə nazirliyinin Apparatına təqdim olunmaq mərasiminə hazırlaşdım. Amma bundan əvvəl küçəyə çıxıb, qastronoma getdim ki, uşaqlar üçün səhər yeməyinə süd, yağ, bulka və çörək alım, necə deyərlər, atalıq borcunu məndən heç kim almayıb.

Leylanı Tolstoy küçəsi, Səməd Vurğun tinindəki 1 nömrəli məktəbə yola salıb, Subi məni işə hazırlamağa başladı.

Düz səhər saat doqquzda Rabitə nazirliyinin Azərbaycan prospektindəki 33 nömrəli giriş qapısının yaxınlığında dayanmışdım.

Tezliklə Azərbaycanın Baş nazirinin müavini R.Gülməmmədovun qara volqası yaxınlaşdı, o maşından düşüb, mənimlə salamlaşdı və yuxarı qalxmağı təklif etdi.

Nazirin qəbul otağına gələndə katibə ayağa qalxıb, məlumat verdi ki, hamı toplaşıb, bizi gözləyirlər, və biz keçə bilərik.

Azərbaycan prospektinə baxan pəncərələrin yanındakı uzun, geniş masa arxasında nazirin dörd müavini, Azərbaycan Rabitə nazirliyinin bütün idarələrinin və şöbələrinin rəhbərləri əyləşmişdilər.

R.Gülməmmədov salam verib, dedi:

- Bildiyiniz kimi, Azərbaycan Prezidentinin 15 iyun 1992-ci il tarixli 844 nömrəli Sərəncamına əsasən, Qəhrəmanzadə Abdul Həmidulla oğlu respublikanın yeni Rabitə naziri təyin olunub, ona görə də gəlin, keçmiş Rabitə naziri Musayev Şamil ilə vidalaşaq və Abdul bəy öz vəzifəsinə başlasın. Biz Şamil bəylə gedirik, siz isə tanış olmağa davam edin.

Onlar xudahafizləşdilər, və mən onları çıxışa qədər yola salıb, qayıtdım.

Stol arxasında oturub, xahiş etdim ki, rəhbərlə bir-bir qalxıb, nazirlikdəki vəzifələrini səsləndirərək, özlərini mənə təqdim etsinlər.

Hər kəs özünü təqdim etdikdən sonra ayağa qalxıb, on dəqiqə Azərbaycan Rabitə nazirliyinin yeni müstəqil və demokratik Azərbaycanımız üçün məqsədləri (*rabitə sahəsinin hazırladığım inkişaf konsepsiyasından*) haqqında ətraflı danışdım. Sonra söylədim ki, burada iştirak edənlərin təxminən 80%-i ölkənin Rabitə nazirliyinin Apparatının ŞTŞ şöbəsinin keçmiş müdiri və ŞKTŞİ-nin keçmiş rəis müavini kimi məni yaxşı tanıyırlar.

Əsasən nazir müavinləri məni yaxşı tanıyırlar, ona görə də respublikanın rəhbərliyi tərəfindən Azərbaycanın rabitə sahəsi qarşısında qoyulan yeni məsələlər, bu sahənin bölmə (*Rabitə nazirliyinin idarə və şöbələri*) və müəssisə rəhbərlərinin hər birinin məsuliyyətinin artması haqqında danışmağa icazə istədim.

Şöbə müdirlərinə müraciət edərək, soruşdum ki, mənə sualları var mı. Sual yox idi.

Onda nazirin dörd müavinindən başqa, hamıdan xahiş etdim ki, öz iş yerlərinə qayıdıb, ölkəmizin bu çətin keçid dövründə fəaliyyətlərini daha da artırsınlar.

Dörd müavindən başqa, hamı qalxıb getdi.

Nazirin otağında beşimiz qaldıq. Çökmüş sükutu Nadir Əhmədov pozdu, o masadan qalxaraq dedi:

- *Abdul bəy, icazə verin sizi Azərbaycanın Rabitə naziri vəzifəsinə təyin olunmağınız münasibətilə təbrik edim, əminəm hamımız, müavin kimi, Rabitə nazirliyinin imicinin qalxması və respublika rəhbərliyinin etibarının güclənməsi üçün səylərimizi göstərəcəyik. Bir daha təbriklərimizi qəbul edin.*

Susub, onlara baxırdım, gərginlik artırdı, işə ciddi girişib, dedim:

- *Nadir müəllim, respublika rəhbərliyinin etibarı haqqında yaxşı xatırlatdınız. Ona görə də icazə verin, ölkənin rəhbərliyi adından hamınızdan xahiş edim ki, mənim adıma könüllü istefanız haqqında ərizələrinizi yazasınız. Biz isə, əlbəttə respublikanın rəhbərliyi ilə razılaşdırdıqdan sonra müəyyən edəcəyik, hansınız burada nazir müavini qismində öz işini davam etdirəcək. Azadsınız və xahiş edirəm, xatırlatmadan beş dəqiqədən sonra ərizələrinizi mənə təqdim edəsiniz.*

Diqqətlərinə görə onlara təşəkkür edib, dördündən də xahiş etdim ki, Prezident tərəfindən onların taleyi həll olunana qədər fəal çalışsınlar.

Dördü də ayağa qalxıb, otağımdan çıxdılar.

Ərizəsi ilə birinci gənc və enerjili Rabitə nazirinin Poçt əlaqələri üzrə müavini İntiqam Bağırlı gəldi.

Sonra Fuad Zeynalov, ondan sonra Nadir Əhmədov və axırıncı iki dəqiqəlik gecikmə ilə nazirin birinci müavini Ömər Hüseynov gəldilər.

Ərizələri oxuyub, qəbul otağına çıxdım və orada tələbəm İsmayıl Əfəndiyevi gördüm.

Xahiş etdim otağıma gəlsin. Ardımca gəldi, soruşdum:

- İsmayıl, Rabitə nazirliyinin bu çətin anlarında mənə kömək etmək istəyirsən?

- Əlbəttə, Abdul müəllim.

- Bir neçə ay səbr et və mənim köməkçim ol. Qəbul otağında katibə qadın görmək istəmirəm. Razısan?

- Bəli, Abdul müəllim.

- Onda kadrlar şöbəsinin müdiri Qaranizadəni yanıma çağır, katibəni isə Bakıteleqrafa göndər, harada ki, adı gedir və söylə ki, şəxsi bir şey deyil, qoy inciməsin. Özün isə dəhlizdə sənə necə rahatdır, elə də yerləş. Əsas şərtim – nə məni, nə də burdan informasiyanı satma.

- Bəli, Abdul müəllim, başa düşdüm, hər şey yaxşı olacaq.

İki dəqiqədən sonra yeni köməkçim zəng edib, məlumat verdi ki, kadrlar şöbəsinin müdiri Mustafa Qaranizadə qəbul otağındadır, keçə bilərmi. İcazə verdim.

Mustafa ilə salamlaşıb, soruşdum ki, ona etibar edə bilərəmmi?

- Abdul müəllim, onsuz da mən oğluma görə sizə borcluyam. Bütün bu illərdə o sizdən danışır. Tələbələr sizə o qədər hörmət edirlər ki, sizi xariqülada hesab edirlər, belə ki, siz fakultədə rüşvət götürməyən və iki qoymayan yeganə adamsınız.

Onun sözünü kəsdim.

- Mustafa, bunu yaddan çıxart, mənə sənin köməyin lazımdır. Hər nə etsən, bildirmədən, sakit və təvazökarlıqla olmalıdır.

- Bəli, Abdul müəllim, hər şey siz deyən kimi olacaq.

- Mustafa, İsmayılı mənim köməkçim kimi rəsmiləşdir, o maddi cəhətdən əziyyət çəkməməlidir. Onun Telekommunikasiya şöbəsinin müdiri yerinə, BŞTŞ-nin stansiya xidmətinin işçisi Şəkiliyev Səfanın təyin edilməsi haqqında əmr hazırla. Mənim üçün təcili Mirzəyev Zakiri tap, sən onu tanıyırsan. Sonra, zəhmət olmasa, mənə Bahadır Məmmədoviç Axundovu tap və yanıma dəvət et.

İndi isə şəxsi tapşırıq, başqaları üçün deyil. Bu sənə dörd müavinin ərizəsi, əvvəlcə oxu, sonra iş üçün və mənim üçün əlavə nüsxələrəni çıxart. Mənim adımdan Prezidentə onların istefaya göndərilməsi xahişi ilə məktub hazırla. Hamısını hazırlayandan sonra yanıma gəl, nahara qədər göndərməliyik. Mənim maşınımla gedərsən.

Yeri gəlmişkən, şoferlər barədə, hamısını otağıma çağır, özümə sürücü seçməliyəm, əgər mümkünsə, Prezidentə məktubu özün hazırla, əvvəlcədən səs-küy istəmirəm.

"*Yaxşı*" deyib, çıxdı. Köməkçim zəng etdi:

- Abdul müəllim, sürücülər yaxınlaşıblar, gəlsinlər?

Rabitə nazirliyinin beş sürücüsü daxil oldu, Rabitə nazirinin Poçt əlaqələri üzrə müavini rəhmətlik Sabir Məmmədoviç Yusifovun şoferi Əhməd kişi Dadaş-zadəni tanıdım. Soruşdum ki:

- Əhməd kişi, Baş Poçt şöbəsinin direktoru İsfəndiyar Hüseynoviç Bayramovla və Rabitə nazirinin müavini Sabir Məmmədoviç Yusifovla işləmisiniz, indi mənimlə işləməyə etiraz etmirsiniz?

- Əlbəttə etiraz etmirəm, Abdul müəllim.

- Yaxşı, deməli, siz mənimlə işləyirsiniz.

Şoferlər otaqdan çıxan kimi, dörd poçt işçisi, AXC-nin üzvləri içəri soxuldular.

İddialarını qışqırırdılar. Yazıq İsmayıl onlara mane olmaq istəyirdi, lakin onlar həyasızcasına içəri soxulmuşdular, özləri də bilmirdilər, nə istəyirlər.

İsmayılı sakitləşdirdim, onlardan isə xahiş etdim masa arxasında danışıqlar üçün əyləşsinlər. Sonra hər birindən özlərini təqdim etmələrini istədim və onların Azərbaycanın gənc rabitəçiləri konfransında necə səs saldıqları yadıma düşdü. Onlardan biri, daha həyasızı, əlilliyindən istifadə edib, hələ ayaqlarını da qaldırdı. Sakit soruşdum:

- Hansı səbəbdən iş gününün ortasında buradasınız?

Sual şikəstə toxundu:

- Biz – xalq cəbhəsiyik, siz burada bizim hesabımıza oturursunuz.

Suallarımı ona yönəltdim:

- Siz haranı bitirmisiniz? İxtisasınız nədir? Harada işləyirsiniz? Nə üçün, yenə soruşuram, iş vaxtı burada, nazirlikdəsiniz?

Əlilin halı pisləşdi, bilmədi nə cavab versin və ona verilən sualların ardıcıllığından pərt olmuşdu. Yaşını soruşanda cavab verdi ki, 30 və mən davam etdim:

- Başa düşürəm, təhsiliniz yoxdur. Bəs sizi bu insanlar necə dinləyir? Bağırtınızı necə başa düşürlər? Və ən əsası, evdə də siz valideynlərinizlə bu cür hörmətsizliklə danışırsınız?

Bir ayağı üstə qalxıb, dedi:

- Mən gəlmişəm ki, suallar verim, siz isə onları mənə verirsiniz.

- Bəli mən soruşuram, çünki siz öhdənizə çox şey götürürsünüz. Bax deyin, respublikanın gənc rabitəçiləri konfransında ən çox və ucadan siz qışqırırdınız, sizi isə hətta təşkilat komitəsinə seçmədilər, izah edə bilərsiniz niyə belə oldu? Cavab verim, insanlar sizin qışqırığınızdan yorulub, işləmək lazımdır, faydalı olmaq lazımdır, yoxsa işləməyib, maaş alsanız, haramdır. Bax siz Azərbaycanın cənub bölgəsindənsiniz, sizdə orada camaat içmir, çəkmir, ibadət edir, böyüklərə hörmət edir, siz isə nə edirsiniz, bura gəlib, nə özünüz işləyirsiniz, nə də başqalarını qoyursunuz, məgər bu haram deyil?

- Haradan bildiniz ki, mən Lənkərandanam?

- Cavan oğlan, 1977-ci ildə Bakı Elektrik rabitə texnikumunun Avtomatik rabitə şöbəsinin müdir işləyəndə, şöbədə 609 tələbəm var idi və mən hər birini adı ilə tanıyırdım, hələ hansı rayondan olduqlarını da bilirdim, siz isə soruşursunuz "*haradan bildiniz?*". Prezidentin istəyi ilə burdayam, cəbhəçi deyiləm və əgər onlar lazım bilsəydilər, şəxsən elə sizi Rabitə naziri təyin edərdilər. Ona görə xahiş edirəm, bir də bunu təkrarlamayın, yoxsa sizin AXC-nin yuxarı rəhbərliyinə müraciət edəcəyəm. Nəyi bacarırsınız, onunla məşğul olun, indi sökmək deyil, tikmək vaxtıdır, baxın, nə qədər həll ediməmiş problem və məsələlər var. İndi isə bir də soruşuram, mənə sualınız nədir, sizi dinləyirəm, əgər konkretdirsə, sizə cavab verəcəyəm, əgər yox, onda mənim dedi-qoduya vaxtım yoxdur, gedə bilərsiniz.

- Siz hamını çıxardısınız, bizimlə isə məsləhətləşmədiniz.

- Mən isə: "*Cavan oğlan, respublikanın birinci şəxsləri ilə məsləhətləşmişəm, nazirin müavini vəzifəsi isə yalnız Prezidentin ixtiyarındadır, sizin deyil. Məgər belə deyil?*"

Həmin şikəst ayağa qalxdı və dördü də otaqdan çıxdılar.

İsmayılı çağırıb, sabah saat üçə Bakı rabitəçilərinin fəallarını çağırmasını tapşırdım, belə ki, onlara bəzi aydınlaşdırmalar etmək lazımdır.

İsmayıl elə təzəcə çıxmışdı, yenidən qayıdıb, soruşdu ki, Zakir Mirzəyev gələ bilərmi. İcazə verdim və M.Qaranizadəni çağırmasını istədim.

Zakir Mirzəyev içəri daxil oldu, salam verib, təəccüblə soruşdu ki, onu nə üçün çağırmışam. Baxdım, çirkli iş paltarındadır, elə bil kabel quyusundan indicə çıxıb. Bu zaman KŞ-nin müdiri M.Qaranizadə də gəldi. Soruşdum ki:

- Zakir müəllim, bizim nazir müavinləri sizi bu dəfə hara salıblar? Adlarını çəkməyəcəyik, amma mən də, M.Qaranizadə də onları yaxşı tanıyırıq.

Qaranizadə Mustafa bic-bic güldü.

- Hə, məni elə kabel quyusundan birbaşa bura çağırıblar. Nə olub, Abdul müəllim?

- O olub ki, sizi Prezident Apparatına Azərbaycanın Rabitə nazirinin müavini vəzifəsinə təqdim edəcəyəm.

Zakirin rəngi ağardı: - Abdul müəllim, mən sizə nə etmişəm ki, siz məni bu cür vəzifəyə təyin edirsiniz?

- Zakir, siz həyatınızda rüşvət almısınız?

- Nə danışırsınız, Abdul müəllim, bir çox vəzifələrdə işləmişəm və bu barədə heç vaxt düşünməmişəm.

- Zakir müəllim, bax ona görə də mənim müavinim olacaqsınız. (*M.Qaranizadəyə müraciət edib*) Mənim adımdan təqdimat hazırlayın, onu mənim maşınımla evinə göndərin, qoy paltarını dəyişib, üzünü qırxsın. Bütün sənədlər hazır olanda həm o dörd nəfərin istefası haqqında məktubu, həm də onun müavinliyə təqdim olunması haqqında məktubu ikiniz apararsınız. Əgər hər şey aydındırsa, gedə bilərsiniz!

İkisi də çıxdı, ardınca Nadir Əhmədov gəldi.

- Abdul bəy, Səfa Şəkiliyevi şöbə müdiri təyin etməyiniz yaxşı oldu, o öhdəsindən gələcək. Düşünürəm, Məmmədov Məmmədi də öz vəzifəsinə bərpa etmək lazımdır, axı o baş mühəndis idi, onu səbəbsiz çıxartdılar.

- Yaxşı, Nadir Əliyeviç onun baş mühəndis vəzifəsinə bərpa olunması haqqında nazirin əmrini hazırlayın, etirazım yoxdur.

- Hə, Abdul bəy, Bakı Elektrik rabitə texnikumunun hərtərəfli yoxlanılmasını təşkil etmək yaxşı olardı, Allah bilir, orada nə baş verir. Etirazınız yoxdur?

- Buna ehtiyac varmı? Belə bir vaxtda, hələ camaatı da işindən ayırıb, yoxlamalar aparmaq. Axı mən özüm də bir il orada işləmişəm, ora qapalı dairədi, bir şey isbat edə bilməzsiniz, ancaq insanları əbəs yerə yayındıracağsınız.

- Narahat olmayın, hər şeyə özüm nəzarət edəcəyəm.

- Yaxşı. Bu komissiyanın başında kim olacaq?

- Gəlin bu Məmməd Məmmədovu.

- Yaxşı, mən də hər gün nəzarət edəcəyəm.

Nadir Əhmədov razı halda çıxdı, mən isə öz-özümə fikirləşdim: Hə, Nadir Əliyeviç, M.Məmmədovun əli ilə Nuri Əhmədovun quyusunu qazırsan.

N.A.Əhmədov çıxan kimi Nuri Əhmədova zəng edib, salamlaşdım (*o isə təyinatım münasibətilə məni təbrik edib, dedi ki, yanıma gəlmək istəyir*) və dedim:

- Nuri müəllim, tezliklə sizə komissiya gələcək. Nəsə Nadir Əhmədov bunu çox istəyir. Düz bir həftədən sonra komissiyanı geri çağıracağam. Hər şey aydındır?

- Aydındır. Mən bir həftəyə komissiyanı geri çağırdım.

Fasilədə evə getdim, Subi yemək verib, dedi: - Yaxşı ki, mənzilimiz Rabitə nazirliyinin həyətindədir, evdə nahar edib, bir qədər istirahət də edərsən!

Nahardan sonra İsmayıl məlumat verdi ki, problem yaranıb: Azərbaycan Rabitə nazirliyinin "*Azərrabitətikinti*" Birliyinə məxsus olan Güzdək qəsəbəsindəki daş karxanasının satılması haqqında məktub (*Ş.Musayevin 16 iyun tarixli imzası ilə*) tapılıb. Sonra məlum oldu ki, "*Azərrabitətikinti*"nin keçmiş direktoru V.Quliyev "*Alfat*" firmasının bu karxanasını, hardasa həftəlik qazancına bərabər olan az miqdarda pula (*380 min manat*) hansısa "*Tolima*" firmasına satıb (*"Azadlıq" qəzeti, 8 sentyabr 1992-ci il, səh.6*).

Hüquqşünası çağırıb, xahiş etdim ki, Prezident Apparatı ilə əlaqə saxlayıb, onlarla məsləhətləşsin ki, bu razılaşmanı necə ləğv etmək olar, belə ki, Ş.Musayev artıq iyunun 15-dən naziri deyil.

DTK-dən zəng vurub, dedilər ki, yaxınlaşıb, otaqdakı xüsusi avadanlığı yenidən qurmalıdırlar. Bax belə, mən fikirləşdim, artıq ssenari işə düşdü, elə ilk gündən gizli dinləmə işləyəcək. Nə etmək olar? Qoy dinləsinlər.

Saat üçdə M.Qaranizadə və Zakir Mirzəyev kostyumda gəldilər. Sənədləri imzalayıb, Prezident Apparatına zəng vurdum və rəhbərliyin tapşırığı barədə xatırlatdım, əlavə etdim ki, iki nəfər gələcək: KŞ-nin müdiri M.Qaranizadə və müavinliyə namizəd Zakir

Mirzəyev (*zamanında o Respublika elektrik rabitəsi və radiolakasiya qovşağının baş mühəndisi, RERRQ-nın laboratoriya müdiri vəzifələrində çalışmışdır, çox savadlı rabitəçi idi ki, onu da kabel sexinə qovmuşdular...*). Onlar getdilər, və saat altıda qayıtdılar.

Mustafa Qaranizadəyə təşəkkür etdim, o yerinə qayıtdı, biz Zakirlə ikimiz qaldıq. Zakir müəllim gülümsəyərək:

- Abdul bəy, mən sizi həqiqətən tanımıram, seçiminizə elə təəccüblənmişəm ki, amma sona qədər sizinlə olmağa söz verirəm.

- Zakir müəllim, əsas o deyil, əsas özünlə dürüst olmaqdır. Baxın, hələ təyin olunmamısınız, ancaq mən tapşırıq vermişəm ki, sizin otağınızı hazırlasınlar, telefonları quraşdırsınlar. İndi sizə tapşırıq: bütün respublikanın rabitəsini bilirsiniz, ona görə də:

1. Hər gün və saat respublikanın bütün telekommunikasiyasını nəzarətdə saxlamalısınız;
2. Həftə ərzində ŞTR-də Müdafiə nazirliyi və DİN-in respublikanın bütün kənd və rayonları ilə növbədənkənar əlaqəsi üçün ayrıca növbətçi danışıq məntəqəsi yaratmaq;
3. Nə üçün Naxçıvanda rabitənin işləmədiyini, ssenarinin kimin olduğunu "sıqan poçtu ilə (*şəxsi rabitəçi dostların vasitəsilə*)" aydınlaşdırmaq. Bu işi mənə məruzə edin;
4. N.Əhmədovun və O.Hüseynovun hərəkətlərinə göz qoyun;
5. İsmayıldan xahiş edin, Rabitə nazirliyinin AXC-sindən kim gəlir, hamısını şəxsən sizə göndərsin və başqa heç kimə;
6. Vaxtınızın çox hissəsini burada olun, mənə lazımsınız;
7. Bütün müzakirə etdiklərimiz aramızda qalmalıdır.

Zakir müəllim, hər şey aydındır?

- Bəli, Abdul müəllim.

- İndi isə ümumi şöbənin müdiri Rasim müəllimin yanına gedin, o sizin otağınızla məşğul olacaq, M.Qaranizadə onu xəbərdar edib, məsələdən xəbəri var. Amma ilk növbədə Naxçıvanla məşğul olun. Hər şeyi aydınlaşdıranda mənə məruzə edin. Hərəkət edin!

“*Çevrilişlər çıxılmaz vəziyyətlərdə baş verir*”
Bertold Brext (1898-1956)

## 6.6. Rabitə nazirliyində davamlı stress ayı.

Azərbaycanın Rabitə naziri işlədiyim bütün ayı səhər saat 8-də işə gəlirdim və ən yaxşı halda axşam saat 11-də evə gedirdim.

Günlər elə dolğun idi ki, demək olar özümlə tək qalmırdım və başa düşürdüm ki, əgər Azərbaycanın rabitə sahəsinə “*axan*” mafiya və ssenarilərdən özümü qoruya bilsəm, bu hələ başlanğıcdır.

Məsələn, növbəti gün aydın oldu ki, kimsə Azərbaycanın bütün beynəlxalq rabitəsini satışa (*boyunduruq kimi*) çıxarıblar. Bu, daş karxananın satışından daha pis və təhlükəli idi.

16.06.1992-ci ildə Nabarro Nathanson-un (*50 Stratton street London W1X5FL ünvanında yerləşən*) hüquqşünası cənab Piter Sammefildin vasitəsilə aydın oldu ki, hələ 19.12.1991-ci ildə Azərbaycanın Rabitə nazirliyi “*İstern Foun Sat*” və Almaniyanın “*G.İ.D.*” ilə müştərək “*AZFOUNSAT*” müəssisəsini yaradıb. Bu müştərək müəssisə Venada qeydiyyata alınıb, Bakıda isə filialı yaradılıb. Keçid dövrünün “*bulanıq suyundan*” və çətinliyindən istifadə edərək, görünür, burada da kimsə onu ələ keçirməyə cəhd göstərib.

Təxminən üç həftə Rabitə nazirliyi və Prezident Apparatının hüquqşünasları, mafiyanın yaratdığı, bu, quldurluq (*boyunduruq*) razılaşmasının aradan qaldırılması üçün hər şey edirdilər.

Və yalnız 13.07.1992-ci ildə quldurluq şərtlərinin ləğvi və Azərbaycanın suveren beynəlxalq rabitəsinin bərpası məqsədilə Dövlət katibinə 5 səhifəlik qoşma ilə PN-10/177 nömrəli rəsmi məktub göndərdim.

Azərbaycanın bütün rabitə sahəsi üçün növbəti vacib addımı Azərbaycan Rabitə nazirliyinin “*Ulduz*” zavodu və “*NETAŞ*” türk firması ilə birgə yaratdığı “*ULTEL*” müştərək müəssisəsinin köməyilə ölkənin telekommunikasiyasının rəqəmsallaşdırılmasının başlanmasını hesab edirəm.

Bu işdə əsasən "*Ultel*"in direktoru Kurultay Kozutox səy göstərirdi, o da mənim kimi hələ 1992-ci ildə Azərbaycanda rəqəmsal kommutasiyaların istehsalı üçün Bakıda "*NETAŞ*" firmasının filialının olmasını arzulayırdı.

Bu Azərbaycan Rabitə nazirliyinə rabitə avadanlıqlarının istehsalı (*1992-ci ildə "NETAŞ" türk firmasının əldən buraxılmış təşəbbüsü*) üçün öz hazırlamalarını aparmağa, milli rabitə şəbəkəsinin mərhələli inkişaf Master-planının işlənib hazırlanmasına, rəqəmsala keçid yolu ilə Azərbaycanda mövcud rabitə şəbəkələrinin genişləndirilməsi və modernləşdirilməsinə kömək etməli idi.

Kurultay Kozutoxdan şəxsən xahiş etdim ki, işin operativliyi üçün bütün məsələləri köməkçim İsmayıl Əfəndiyevlə razılaşdırsın.

Bir gün sonra gündüz saat üçdə Rabitə nazirliyinin akt zalında Azərbaycanın rabitə sahəsinin gənc və istedadlı mütəxəssisləri ilə görüşüm baş tutdu.

Bakı şəhərinin rabitə müəssisələrinin nümayəndələri ilə ilk görüşümün əsas məqsədi Rabitə nazirliyinin müəssisələrindəki həlledici vəzifələrə gələcəkdə gənc mütəxəssislərin irəli sürülməsini dəstəkləmək idi.

Qabağa qaçaraq, söyləyim ki, məhz bu görüşdə Telefon Rabitəsi İstehsal Birliyinin (*TRİB*) Bakı ŞTŞ-ə və AŞTS-a (*Avtomatik Şəhərlərarası Telefon Stansiyası*) bölünməsi haqqında elan etdim. Bir həftədən sonra (*Avtomatik Şəhərlərarası Telefon Stansiyası Azərbaycan Prezidenti Fuad Zeynalovu adı çəkilən müəssisənin rəhbəri vəzifəsindən azad etdikdən sonra*) mənim əmrimlə Azərbaycanın rabitə sahəsinin yeni "*AzTelecom*" adlı müəssisəsi yaradıldı.

Azərbaycan iqtisadiyyatının keçid dövründə "*AzTelecom*"un əsas vəzifəsi Avtomatik Şəhərlərarası Telefon Rabitəsinin (*AŞTR*) gəlirləri hesabına ölkənin kənd rabitəsinin dəstəklənməsi idi.

Qeyd edim ki, məhz "*AzTelecom*"a görə, telekommunikasiyamızın kənd və rayon şəbəkələri respublikanı

davamlı rabitə ilə təmin etmək və çətin post-sovet dövrünün çağırışlarına davam gətirmək üçün vahid güclü bir şəbəkəyə birləşməyi bacardılar.

Bu istiqamətdə planlaşdırdığım növbəti addımım (*bir aydan sonra*) Bakı şəhərinin bütün rabitə müəssisələrini vahid "*BakuTelecom*" müəssisəsinə birləşdirməklə, Azərbaycanın telekommunikasiyasının ikinci iri müəssisəsini yaratmaq idi (*lakin bunu etməyi çatdırmadım*).

Görünür, Azərbaycanın telekommunikasiya şəbəkəsinin məhz bu cür bölünməsi bu günə qədər mafiya tərəfindən telekommunikasiyasının, necə deyərlər, topdan özəlləşdirilməsini tamamlamağa imkan vermədi.

Qeyd etmək istərdim ki, bu istiqamətdə görülən bütün işlər gizli qalırdı, belə ki, AXC Prezident Apparatı məni Azərbaycanın Rabitə nazirinin müavinlərindən öz istəklərilə işdən çıxarılması haqqında ərizələri almağa məcbur edib, özləri isə onların işdən çıxarılmasını gecikdirərək, onlarla "*Siçan-pişik*" oynunu oynayaraq, mahiyyətcə, məni satmışdı.

Bu zaman, üçüncü iş günümdə Azərbaycanın keçmiş Rabitə naziri Bahadır Məmmədoviç Axundov yanıma gəldi, şübhəsiz rüşvətxor deyildi, respublikanın bütün infrastrukturunu, ən əsası isə, həm Bakı şəhərinin, həm də respublikanın ən yaxşı mütəxəssislərinin hamısını, istisnasız olaraq, yaxşı tanıyırdı.

Təxminən iki saat Bahadır Məmmədoviçlə bu sahədəki bütün iş şəraitindən danışdıq, Naxçıvanla əlaqənin olmamasına təəccübləndi və nazir müavini vəzifəsinə Zakir Mirzəyevin təyinini dəstəklədi.

Ona Azərbaycanın Rabitə nazirinin rəsmi köməkçisi vəzifəsini təklif etdim. Bu təklifi minnətdarlıqla qəbul etdi və məlumat verdi ki, qollarını çırmalayıb, respublikada rabitənin bərpası işinə qoşulmağa hazırdır.

Rabitə nazirliyinin kadrlar şöbəsinin müdiri Qaranizadə Mustafaya Bahadır Məmmədoviç Axundovun nazirin köməkçisi vəzifəsinə təyin edilməsi haqqında əmr hazırlamasını tapşırdım.

Komandamda iki gənc müavinin (*Mirzəyev Zakir və ümid edirdim ki, Qəmbər Bəybalayev*) və təcrübəli məsləhətçinin (*Axundov Bahadır Məmmədoviç*) olmasından başa düşürdüm ki, Azərbaycanın rabitə sahəsinin rəqəmsallaşdırılmasının əsas mərhələlərinə sakitcə keçə bilərəm.

Bir gündən sonra Bakı Mərkəzi Teleqrafının akt zalında respublikanın rabitə sahəsinin rabitəçiləri və bütün yüksək vəzifəli rəhbərləri ilə görüş keçirildi.

Görüş təxminən iki saat sürdü və indi respublikanın rabitəçiləri bütün xəbərləri bilirdilər: Rabitə nazirliyinin dörd müavinlərinin istefaya vermələri, Zakir Mirzəyevin yeni müavin təyin edilməsi, nazir müavini vəzifəsinə Qəmbər Bəybalayevin (*mahiyyətcə, ən cavan və telekommunikasiya üzrə perspektivli mütəxəssis*) təqdim edilməsi, həmçinin Bahadır Məmmədoviç Axundovun mənim köməkçim olması təklifi haqqında.

Əlbəttə, əgər Qəmbər Bəybalayevin Rabitə nazirinin müavini vəzifəsinə namizədliyinin təsdiqi və iki müavinin (*Hüseynov Ömər və Əhmədov Nadir*) öz istəklərilə işdən çıxarılmaları haqqında ərizələri ilə istefaları gecikdirilməsəydi, Azərbaycan Rabitə nazirliyində ümumiyyətlə problem qalmazdı.

Onuncu gün mənim əmrimlə "*Azərrabitətikinti*" idarəsinin yeni rəisi, respublikanın savadlı rabitəçilərindən biri Əlixan Səlim oğlu Əliyev Güzdək qəsəbəsindəki daş karxananın satışı ilə əlaqəsi olan keçmiş rəis V.Quliyevin yerinə təyin edildi.

Sahənin işi tədricən yoluna düşürdü, insanlarda sabahkı günə ümid yaranırdı.

Amma hiss edirdim ki, anlaşılmaz bir qüvvə sahənin işini elə qeyri-sabit vəziyyətdə saxlamaq istəyir.

Məni Baş Poçt şöbəsində və Soyuzpeçatda kadr dəyişikliklərinə itələyirdilər, lakin orada təcrübəli adamlar işləyirdilər.

Baş Poçt şöbəsinin binasında olub, müdiri ilə görüşdüm, birinci mərtəbənin salonunda az qala yarmarka qurmağa çalışırdı. Elə oradaca yarmarkanın yığışdırılmasını və Baş Poçt şöbəsinin lazımi şəkilə gətirilməsini əmr etdim.

Növbəti gün Baş Poçt şöbəsinin keçmiş müdiri *Niyətşah Səfər oğlu Neymətov* yanıma gəlmək istədi. Məlum oldu ki, o vəzifəsinə qayıtmaq istəyir, bundan əlavə, dedi ki:

- Abdul bəy, respublikanın Nazirlər Kabinetinin Baş nazirinin birinci müavini V.Əhmədov mənim bacım oğludur. Məni Poçtamta müdir qoymaqla, siz 20-mi il nazir işləyəcəksiniz.

Fikirləşdim "*pis alver deyil*" lakin dedim ki, poçtda hələlik kökündən dəyişikliklər olmayacaq, belə ki, orada Azərbaycanın ən savadlı poçt işçilərindən biri Radik İsmayılov işləyir, onun namizədliyini nazirin poçt əlaqələri üzrə müavini vəzifəsinə təqdim etmək istəyirdim.

Amma görünür, yuxarıda, daha dəqiq, Respublikanın Dövlət katibinin başqa niyyətləri var idi, o cümlədən, Rabitə nazirliyinin adi mühasibini nazir müavini təyin etmək kimi. Bax elə bundan sonra apparatda hər şey tərs getdi.

Dövlət katibi, görünür, respublika parlamentinin başçısının (*İsa Qəmbər*) fikrini nəzərə almırdı, onun müavinlərin dəyişdirilməsindən xəbəri vardı və nazirin köhnə müavinlərinin yeniləri ilə dəyişdirilməsi prosesini ləngitməyə başladı.

Kabinetimdə hökumət telefonunun olmasına baxmayaraq, üç həftə ərzində bir dəfə də olsun İsa Qəmbərlə danışa bilmədim ki, ya telefonda, ya da şəxsən görüşəndə bütün kadr dəyişikliklərinin gecikdirilməsinin səbəbini öyrənim.

Mənim telefon zənglərimə həmişə onun köməkçisi Tariyel bəy cavab verirdi. Mənə görüş təyin etsin ya da zəng vursun xahişimi İsa Qəmbərə çatdırması hər dəfə havada qalırdı. Tariyel

bəy ya unutduğuna, ya da İsa bəyin vaxtının olmamasına istinad edirdi. O məni Azərbaycan Prezidentinin v.i.e., həm də həmin günlərdə respublikanın Parlamentinin (*Milli Məclis*) başçısı ilə bir dəfədə olsa birləşdirmədi.

Başa düşürdüm ki, bu "*pişik-siçan*" oyunu yaxşı deyil və tezliklə mənə informasiya gəldi ki, Ömər Hüseynov və Nadir Əhmədov yeni Prezidentin yanında öz yerli havadarları ilə olub bə şikayət ediblər ki, bu Abdul Qəhrəmanzadə kimdir ki, bu cür müavinləri qovur.

Mənə Prezident Apparatından çatan şayiələrə görə (*kimdən olduğunu deməyəcəyəm, o yazıq o biri dünyadadır*), artıq üçüncü həftədə bu ikisinə Bakı Şəhər Telefon Rabitəsinin bəzi işçiləri də qoşuldular.

Bundan əlavə, Bahadır Məmmədoviç Axundov mənim köməkçim təyin edildikdən iki gün sonra "*Azadlıq*" qəzetində B.M.Axundova qarşı məqalə çıxdı ki, niyə yeni nazir arvadı erməni olan köhnə naziri özünə köməkçi götürüb.

Məni və Zakir Mirzəyevi Dövlət Təhlükəsizliyi Komitəsinə çağırdılar ki, onu çıxardın, başınızı niyə ağrıdırsınız.

Sülhəddin Əkbərova açıq söylədim:

- Siz bilirsiniz Bakıda neçəsinin arvadı, əmisi, babası, anası, qaynanası və s. ermənidir (*sonra məlum oldu ki, hələ erməni gəlinlərin sayı Bakıda hardasa 30 mindir*)?

Razılaşmadığımı görüb, mənə müavinim Zakir Mirzəyevin onlarda qalmağını təklif etdilər, guya bir saatdan sonra ona materiallar göstərəcəklər, hansılardan ki, aydın olacaq, niyə B.M.Axundov Rabitə nazirinin köməkçisi işləyə bilməz.

Dəhlizə çıxıb, Z.Mirzəyevə ciddi xəbərdarlıq etdim ki, heç bir halda Bahadır Məmmədoviçi satmasın.

Saat on ikiyə Rabitə Nazirliyində idim, B.M.Axundova heç nə dedim, Rabitə nazirinin müavini Zakir Mirzəyevin Komitədən qayıtmasını gözləyirdim. O saat altıya qayıtdı, B.M.Axundovla yanıma gəldi və onun yanında dedi:

- Abdul müəllim, mən heç nə edə bilmədim. Onların tapşırığına əsasən, hər şeyi Bahadır Məmmədoviçə danışdım.

Halımın pisləşdiyini görüb, Bahadır Məmmədoviç söylədi:

*- Abdul müəllim, istəmirəm ki, mənə görə əziyyət çəkəsiniz, buna davam gətirə bilmərəm. Sizin mənə qarşı kişi kimi hərəkət etdiyinizə bütün respublika şahiddir, sizə çox borcluyam. İki müavinimin (Nadir Əhmədov və Ömər Hüseynov) hər biri nazir olmaq istədiyindən başıma gətirdiklərindən sonra məni yenidən 57 il ömrümü verdiyim Rabitə Nazirliyinə gətirdiniz.*

*Artıq kadrlar şöbəsində Mustafa Qaranizadənin yanında olmuşam. Mənim ərizəmi sizə gətirəcək. Bu cür istedadlı rabitəçinin doğma sahəmizə rəhbərlik etməsi mənim üçün çox yaxsıdır.*

*Ürəyim sakit gedirəm, çünki ümid edirəm, bu iki başabəla müavinlər sizin onların hamısından daha savadlı olduğunuzu anladılar. Zakir Mirzəyevi təyin etməklə, müavin vəzifəsinə Qəmbər Bəybalayevin namizədliyini təqdim etməklə və məni bura qəbul etməklə, siz onları mənəvi olaraq məhv etdiniz.*

*İndi onlar nüfuzlu kirvələrini, qudalarını, qohumlarını, onların və özlərinin dostlarını ayağa qaldıracaqlar ki, sizin işlərinizi batırsınlar.*

*Güman edirəm, Zakir müəllim daha möhkəm olmalıdır, hər şeyi öz əlinə almalıdır, bu ssenaristlərə mənfəətpərəst istəklərini həyata keçirməyə imkan verməməlidir.*

*Boynuma alıram ki, nə vaxtsa sizə qarşı haqsız olmuşam və, yəqin ki, bu hardasa sizə ziyan da vurub. Mən bunları nazir müavinliyinə irəli çəkməkdənsə, sizi dissertasiya müdafiəsindən sonra Rabitə Nazirliyinə öz davamçım olaraq götürməliydim.*

*Amma Allah böyükdür, siz fırıldaqçı oyunlarınızla deyil, əməyinizlə Azərbaycanın Rabitə nazirinə qədər yüksəlmisiniz. Axı onlar sifarişlə Rabitə texnikumundan məni təhqir etmək üçün bura adamlar çağırmışdılar və mən istefaya getməyə məcbur oldum.*

*Və, nəhayət, əgər heç olmasa ayda bir dəfə siz məni buraya, bu kabinetə məsləhətləşmək üçün deyil, qoca rabitəçi ilə söhbət etməyə dəvət etsəniz, şərəf hissi duyaram.*

O ayağa qalxıb, əlini uzatdı, kişi kimi vidalaşıb, getdi.

Bu zaman M.Qaranizadə B.M.Axundovun öz istəyilə işdən çıxması haqqında ərizəsi ilə gəldi.

Üçümüz – mən, Zakir və Mustafa təqribən on dəqiqə oturduq, bu cür ssenari, əlbəttə, gözləmirdik.

Başa düşdüm ki, ssenari mənim təxmin etdiyimdən daha hiyləgərdir, ancaq yenə də xoşbəxt idim. Mümkün qədər çox şeyi çatdırmaq istəyirdim ki, bu sahədə başqasının ssenarisi ilə deyil, özü xeyirxahlıq edən rəhbər kimi qərəzsiz iz qoyum.

Bəli, Prezident Apparatında Qəmbər Bəybalayevin təsdiqini torpedləyirdilər, üç dəfə tələb etdilər ki, poçt əlaqələri üzrə nazir müavini vəzifəsinə hansısa mühasibi təqdim edim və iş gedib Prezidentə çatdı, bu 19 iyun 1992-ci ildə baş verdi.

Elçibəy açıq dedi: "*Abdul bəy, başa düşün, hər bir sahədə bizim adamlarımız olmalıdır. Burda nə var ki?*"

Mən isə ona: "*Elçibəy, məni məgər siz təyin etməmisiniz? Mauzerli komissar nəyimə lazımdı? Bu normal kadr siyasəti deyildir. Əgər istəyirsinizsə, qoy seçim üçün beş nəfərin adını versinlər, mən isə, nazir kimi, ən peşəkarını seçəcəyəm, xalq cəbhəsinə yaxın və lazım olduğuna görə deyil.*

*Poçt əlaqələrindən başı çıxmayan bir namizədin (mühasibin) üzərində dayanmaq demokratik deyil. Sahəni bu cür idarə etmək olmaz, bu peşəkarlıq deyil*".

Elçibəy bildirdiklərimdən çaşıb qaldı və Dövlət katibi Pənah Hüseynovu yanına çağırdı, onun isə fikrini mən onsuz da bilirdim. Burada mən Dövlət katibinin danışıq metodunun təsvirinin üzərindən keçirəm, o müxtəlif dövrlərdə bu vəzifəni tutanlardan çox uzaq idi: Tofiq Kazım oğlu İsmayılovdan, Mitət Teymur oğlu Abbasovdan yaxud Lalə Şövkət qızından.

Pənah bəy Prezidentin yanına 6 x 9 gülümsəyərək gəldi və hələ oturmamış, dedi:

- Cənab Prezident, bu günlərdə Abdul bəy çox işlər görüb!

Və başladı hamısını saymağa, o qədər ki, hətta mən özüm də təəccübləndim.

Elçibəy təəccüblə: - Abdul bəy? Siz isə narazısınız?

Dövlət katibi isə (*Lenin kimi gözlərini qıyaraq*), söylədi ki, qəbul otağında rabitəçi-cəbhəçilər toplaşıb, Prezidenti və Rabitə nazirini görmək istəyirlər.

Üçümüz qonşu otağa keçdik, burada iri dəyirmi stol ətrafında 12-ə qədər rabitəçi-cəbhəçi oturmuşdu, Prezident içəri girəndə ayağa qalxdılar. Elçibəy onlara müraciət etdi:

- Əyləşin. Necəsiniz? İşlərimiz necə gedir? Yeni Rabitə naziri Abdul bəydən razısınızmı?

Həm gördüklərimdən, həm də eşitdiklərimdən sarsılmışdım.

Rabitəçilərin, AXC fəallarının 90%-dən çoxu mənim bu vəzifəyə təyinatımı müsbət qiymətləndirmişdi, fəaliyyətimin müsbət qiymətləndirilməsindəki yekdillik də təəccüblü idi. Çıxış edənlər niyə mənim dörd müavini (*xüsusilə Ömər Hüseynov və Nadir Əhmədovun*) istefaya göndərmədiyimlə bağlı narahatlıqlarını ifadə etdilər, bu şərti onlar İsa bəyin qarşısında qoymuşdular.

Açığını desəm, xoş təəccübləndim.

Elçibəy mənə müraciət edib, soruşdu ki, niyə bu dörd nəfər istefaya göndərilməyib. Mən hələ 3 gün bundan əvvəl Prezident Apparatına (*PA*) göndərilən məktubun nüsxəsini çıxartdım:

- Bu da onların azad edilməsi xahişi ilə qeydiyyatdan keçirilmiş məktubum. Yəqin Dövlət katibi sizin sualınıza cavab verər.

Prezident - Gəlin, Abdul bəy, elə indi Rabitə nazirliyinə gedib, yeni məktub yazın və onu burada əyləşən AXC nümayəndələri ilə bizə göndərin.

- Mən razıyam. Məmmədov Məmməd və Rabitə nazirliyinin KŞ müdirim bir saatdan sonra məktubu sizə gətirəcəklər.

Elçibəy razı halda ayağa qalxıb, xudahafizləşdi və üçümüz Prezidentin oval otağından çıxdıq.

Prezident və Dövlət katibi ilə vidalaşıb, Prezident Apparatı (*PA*) binasının girişinə gəldim, burada məni Məmmədov Məmməd məsud və sevincək gözləyirdi.

Biz Məmmədlə 5 dəqiqədən sonra Rabitə nazirliyində idik.

KŞ müdiri M.Qaranizadəyə tapşırdım ki, O.Hüseynovun və N.Əhmədovun istefaya yenidən göndərilmələri barədə məktub hazırlasın.

Bir saatdan sonra M.Qaranizadə və M.Məmmədov məktubu aparıb PA-nın ümumi şöbəsində qeydiyyata alıb, qayıtdılar.

Bu günün nəticəsindən razı idim və elə bil hər şey həll olundu. Amma belə olmadı, hamısı təxminən bir ay çəkdi.

12 iyul 1992-ci il gündüz PA-dan məni xəbərdar etdilər ki, "*Gülüstan*" sarayına dəvət olunmuşam, Fransa səfirliyi burada 14 iyul – Bastiliyanın alınması gününü qeyd edir.

Məlumdur ki, 14 iyul 1789-cu ildə qiyamçı parislilər kral zülmkarlığının simvolu olan Bastiliya həbsxana-qalasını hücumla alıb, 7 məhkumu azad ediblər.

İçki içməyən olduğumdan qəbulda bir qədəh meyvə şirəsi götürdüm və təxminən bir saat fırlanıb, 1981-82-ci illərdə İngiltərədə olduğu kimi, gecənin müxtəlif qonaqları ilə ünsiyyət qururdum.

Bu zaman mənə arıq və çox məlahətli səslə bir nəfər yaxınlaşıb, özünü təqdim etdi və xahiş etdi ki (*əgər etiraz etmirəmsə*), çıxıb onunla eyvanda söhbət edək.

Mən məmnuniyyətlə razılaşdım, belə ki, spirtli içkilərin və tütünün iyindən nəfəs almaq olmurdu.

"*Gülüstan*"ın eyvanında daha sərin və sakit idi.

Divana əyləşdik və həmsöhbətim birinci başladı: "*Abdul müəllim, gizlətmək istəmirəm, Dövlət Təhlükəsizliyi Komitəsindənəm. Təxminən yarım saatdır, sizi izləyirəm. Siz bu dünyadan deyilsiniz. Ünsiyyətdə o qədər səmimi və mədənisiniz ki,*

*məəttəl qalmışam azərbaycanlı olduğunuza. Yox, mən bilirəm, Leninqradda dissertasiya müdafiə etmisiniz, bir il İngiltərədə olmusunuz, Əfqanıstanda BMT-nin eksperti işləmisiniz, amma siz həm də qorxmaz, tabe olmayansınız. Siz həqiqətən ətrafınızda baş verənləri hiss etmirsiniz, altınızı qazırlar, sizin isə vecinizə deyil*".

Mən yalnız gülümsəyib, cavab verdim: "*Siz təəccüblənməyin, mən Allaha inanan və sadə bir insanam, hər şeyi Allahdan gözləyirəm. Axı siz ssenari üzrə mənə yaxınlaşmamısınız ki, "altımı qazdıqları" barədə məni xəbərdar edəsiniz. Nə baş verirsə, hər şey yaxşılığadır. Əgər getmək lazımdırsa, gedərəm, çox şey edə bilmişəm. Allahın köməyilə mənim üçün daha yaxşı olacaq, onun mənə verdiyi yükü daşıyaram. Siz narahat olmayın. Amma yenə də xəbərdarlıq üçün sizə çox minnətdaram*".

Təqribən qırx dəqiqə söhbət etdik və ayrılanda ev telefonlarımızı bir-birimizə verdik.

Axşam saat doqquz radələrində "*Gülüstan*"dan Rabitə nazirliyinə qayıdanda köməkçim İsmayıl məlumat verdi ki, Zakir Mirzəyev məni gözləyir, onu dəvət etməsini istədim.

Zakir Mirzəyev içəri girən kimi, başını yırğalayaraq, məlumat verdi ki, ona xəbər veriblər, guya məni, Abdul Qəhrəmanzadəni tutduğum vəzifədən azad edirlər.

Zakir bildirdi ki, o mübarizə aparacaq. Mən isə ona:

- Zakir, mən öz tariximi yazdım, bu mənim həyatımdır. Sən, zəhmət olmasa, bu işlərə qarışma. Edəcəyin ən yaxşı şey, ömrünün axırına qədər özün kimi olmağın və səni yalnız bir şəxsiyyət deyil, həm də ədalət və peşəkarlıq simvolu olaraq seçdiyimi yadında saxlamağın olar. Bu gənc nəslin düzgünlüyə çağırışıdır, Allah isə özü qərar verər.

Bax, Zakir, respublikanın rabitə sahəsi üçün yalnız bir ay ərzində edə bildiklərim:

1. *Dörd nazir müavinindən öz istəklərilə işdən çıxmaları haqqında ərizələri aldım. Məgər bu tarix deyil?*

*2. Səni, Zakir Mirzəyevi Azərbaycanın Rabitə nazirinin müavini təyin etdim. Məgər bu nailiyyət deyil?*

*3. Bütün Azərbaycan rabitəçilərinin əmək haqqının 100% artırılması haqqında Əmr verdim. Məgər bu sevinc deyil?*

*4. Güzdək qəsəbəsindəki Azərbaycan Rabitə nazirliyinin "Azərrabitətikinti" Layihə-İnşaat Birliyinə məxsus daş karxanasını rabitə sahəsinin bir həftəlik gəlirinə bərabər olan satışın qabağını alaraq, qaytardım bu nailiyyət deyil?;*

*5. Sənin və daha iki rabitəçinin köməyilə Naxçıvan ASSR ilə həftələrlə bağlanmış əlaqəni bərpa etmədim;*

*6. Azərbaycanın beynəlxalq rabitəsini (на кабальный торг ?????) satışa çıxaran iki müəssisənin – Venanın "İstern Foun Sat" və Almaniyanın "G.İ.D." ilə müştərək "AZFOUNSAT" müəssisəsinin lisenziyalarını ləğv etmədim;*

*7. Gənc və istedadlı rabitəçilərin rəhbər vəzifələrə irəli çəkilməsi məqsədilə Bakının gənc rabitəçiləri ilə ilk görüş keçirdim;*

*8. Axundov Bahadır Məmmədoviçi Azərbaycanın Rabitə nazirinin köməkçisi təyin etdim (lakin sənin günahından saxlaya bilmədik);*

*9. TRİB Müştərək müəssisəsini Bakı ŞTŞ-ə və AŞTS-a böldük, kənd rabitəsini təmin etmək məqsədilə Azərbaycanın rabitə sahəsində yeni "AzTelecom" müəssisəsini yaratmadıq;*

*10. Azərbaycanın rabitə müəssisələrinin rəhbərləri ilə Rabitə Evində, Bakı Teleqrafiyanın akt zalında geniş ümumrespublika görüşünü keçirdim (500-ə yaxın rabitəçinin iştirakı ilə);*

*11. Respublikanın savadlı rabitəçilərindən biri Əliyev Əlixan Səlim oğlunun daş karxananın satışı ilə əlaqəsi olan keçmiş rəis V.Quliyevin yerinə, "Azərrabitətikinti" idarəsinin yeni rəisi təyin edilməsi haqqında əmr vermədik;*

*12. Respublikanın rayon və kəndlərində Azərbaycan Ordusunun bütün mövcud hissələri ilə operativ əlaqə saxlamaq üçün Bakı Şəhərlərarası Telefon stansiyasında şəhərlərarası əlaqə məntəqəsini yaratmadıq (sənin nəzarətin altında);*

*13. Bakı Rabitə Kollecinin yeni Azərbaycan Telekommunikasiya Universitetinə çevrilməsi məqsədilə Azərbaycan Texniki Universitetinin dekanları və rabitə kafedrasının müdirləri ilə ilk görüş keçirdim;*
*14. Bakı şəhərinin bütün rabitə müəssisələrinin birləşməsi üçün – "BakuTelecom" ölkənin ikinci iri rabitə müəssisəsinin yaradılmasına hazırlığa başladım (düzdür, çatdırmadıq);*
*15. Rabitə nazirliyinin tərkibində Elmi-Texniki Şuranı yatardım, bu ilin sentyabrında işə başlayacaq.*

İndi Zakir söylə, Rabitə nazirliyində bir aylıq iş müddətində bütün bunlar azdır, özü də ölkəmizdəki bu keçid dövründə (*bu qarışıqlıqda*) və Azərbaycanın idarə edilməsində bu cür ssenari ilə? Sənə məsləhətim, əgər mən getsəm, bunun sənə dəxli yoxdur, sən bu sahəyə mənim etmək istədiyim kimi kömək et.

Ancaq Zakir Mirzəyevə söylədim ki, problem Dövlət katibi Pənah Hüseynovda deyil, hər şey daha dərindir...

İş orasındadır ki, müsahibədən bir gün əvvəl məni, Azərbaycanın yeni Rabitə naziri kimi AzTV-də, AXC-nin bir illiyi münasibətilə Respublika sarayında Pənah Hüseynov əmin edirdi ki, "*Xalq Cəbhəsi bütün Azərbaycan xalqının dostudur*".

Ertəsi gün Azərbaycan televiziyasına müsahibə verdim. AzTV-nin aparıcısının mənim hobbim haqqında sualına cavab verdim ki, ingilis atalar sözlərini toplamağı sevirəm və misal göstərdim: "*A friend to everybody is a friend to nobody*", tərcüməsi "*Hamıya dost olan– heç kimə dost deyil*".

Təbii ki, AzTV-də müsahibə göstərildikdən bir gün sonra P.Hüseynov məni Prezident Apparatına çağırıb, bununla əlaqədar özünün, yumşaq desək, narazılığını bildirdi.

Ancaq həqiqətən atalar sözündən danışırdım, nə etmək olar, əgər o vaxtına düşübsə...

Dahi Konfutsiyə görə, dövlət – piramidadır. Onun zirvəsində göylərin oğlu, yəni idarə edən dayanır. Piramidanın ortası – yüksək mənsəb sahibləridir, apparatı idarə edən. Oturacağı – xalqdır. Əsas

diqqət – piramidanın ortasınadır. Piramida özünü necə aparırsa, xalq da elədir. Xalqı mərdlər idarə edə bilər. "*Mərd kişinin mənəviyyatı külək kimidir, namərdinki isə ot kimi. Ot küləyin əsdiyi yerə əyilir*". (http://www.sirius-ru.net/liki/konfuziy.htm).

Konfutsi hesab edirdi ki, "*insan insanpərvərlik və etiket qaydalarına əməl etməyi öyrənməlidir*". O öyrədirdi: "*Mərdlər həmrəy (başqaları ilə) yaşayırlar, lakin onların ardınca getmirlər*". İddia edirdi ki, "*Əgər özünü mükəmməlləşdirə bilmirsənsə, başqalarını necə mükəmməlləşdirəcəksən*" və təkrar edirdi "*Mərd borcunu düşünər, namərd isə mənfəətini*".

Bu arasıkəsilməyən stress ayı ərzində piramidanın ortasında Azərbaycanın Prezident Apparatında həmrəy yaşayıb, xalq qarşısındakı borcu haqqında düşünən mərdlər görmədim, ancaq ani şəxsi mənfəətlərinin qeydinə qalırdılar, özü də bir il idi təkrarlayırdılar ki, xalqın dostlarıdırlar.

Axı dövlət, görünür, zorakılıq və cəza aparatı deyil, kimin ölkənin hansı regionundan olmasından asılı olmayaraq, adi vətəndaşların müdafiəçisidir. Vətəndaş dövlət strukturlarının qayğısını və ölkədəki məmurların obyektivliyini hiss etməlidir.

“*Yazılan yazılar qalır*”
Latın atalar sözü

## 6.7. “Öz vətənində peyğəmbər olmaz”.

16 iyul 1992-ci il səhər Azərbaycanın Rabitə naziri vəzifəsində bir ayım tamam olurdu. Gün hədsiz dolğun idi, zəng edib məni bədxahların fitnələri barədə xəbərdarlıq edirdilər, dəstəklərini ifadə edib, uğurlar arzulayırdılar.

Amma ən təəccüblüsü Bakı ŞTŞ-nin rabitəçisinin zəngi oldu. Söylədi ki, bir həftə əvvəl yeni nazirin sahədə apardığı texniki siyasətdən rabitəçi kimi öz heyranlığını açıq ifadə edəndə onu döyüblər.

O dedi ki, indi ATS-91-in üçüncü mərtəbəsindədir və oradan Prezidentin Dövlət katibinə oxşayan bir nəfərin ŞTŞ-dən olan üç rabitəçi ilə danışdığını görür. Üçlükdən biri ona qəzetə bükülmüş bir bağlama verdi və o maşına oturub, getdi.

Rabitəçi əlavə etdi:

- Abdul müəllim, sizin yerinizi qəzet kağızına bükülmüş yaşıl dollarlara satdılar, bir şey edin.

İnformasiyaya görə təşəkkür edib, dəstəyi qoydum.

Bilmirəm niyə, amma Milli Məclisin sədri İsa bəylə söhbətimizi xatırladım, o Azərbaycanın rabitə sahəsinin inkişaf konsepsiyasının tezislərini məndən alanda dedi ki, “*Heç bir halda sahəsinin inkişaf konsepsiyası əlində olmayan yeni naziri təsdiq etməyəcəyəm*”.

Və qeyri-ixtiyari düşündüm, doğrudanmı onların əvvəlcədən düşünülmüş ssenarisi vardı, mən isə onların qanını qaraltdım.

Bu zaman köməkçim xəbər verdi ki, Rabitə nazirliyinin kadrlar şöbəsinin müdiri Mustafa Qaranizadə yanıma gəlib.

Mustafa müəllim əsəbi halda içəri girdi. Gülümsəyərək, soruşdum ki, nə olub, kim xətrinə dəyib?

- Bəli, Abdul müəllim, elə indicə onlara dedim ki, belə olmaz, Allah hər şeyi görür, bəsdir onun altını qazdınız, imkan verin adam işləsin, ondan nə istəyirsiniz?

- Mustafa, ən yaxşısı, de görüm, məktubu hazırladınız?

- Bəli, Abdul müəllim, məktub hazırdır. Bəlkə onu bir də oxuyasınız?

Mən götürüb, AR Prezidenti Əbülfəz Elçibəyə ünvanlanan məktubu ucadan oxumağa başladım. Məktubun üslubu və iki səhifədə olması xoşuma gəlmədi.

Amerikanın prezidentlərindən birinin kəlamı yadıma düşdü: "*Əgər istəyirsiniz ki, sizin məlumat vərəqənizi oxusunlar, onu bir səhifəlik yazın*".

Düzəlişlərimi edib, məktubu qısaltdım və Qaranizadədən xahiş etdim ki, Respublikanın Prezident Apparatına bu iki nəfərin (*Hüseynov Ömər və Əhmədov Nadir*) azad edilməsi haqqında əvvəllər göndərilmiş məktubların nömrəsini göstərsin.

Məktub təbii ki, azərbaycan dilində yazılmışdı:

"*Hörmətli Prezident!*

*Mənim Sizə müraciətim onunla bağlıdır ki, əvvəlcə İsa bəy, sonra isə biz sizinlə və Pənah bəyin iştirakı ilə Rabitə nazirinin dörd müavininin vəzifədən azad edilməsi məsələsini razılaşdırmışdıq, özü də onun həllində xalq cəbhəsinin nümayəndələri təkid edirdilər.*

*Ona görə də 19.06.1992-ci il tarixli KŞ-13/46 və KŞ-13/47 nömrəli məktublara uyğun olaraq, onların işdən azad edilməsi haqqında təqdimat verilmişdi.*

*Lakin bu günə qədər bu məsələ tam həllini tapmadığından nazirliyin işində qeyri-sabitlik və onlar tərəfindən idarə edilən sahələrdə gərginlik müşahidə olunur.*

*Göstərilənlərə əsasən, nazir müavinləri Hüseynov Ömər Mustafa oğlu və Əhmədov Nadir Alı oğlunun tutduqları vəzifədən azad edilməsini təkidlə xahiş edirəm.*

*Onların tezliklə işdən azad edilməsi mənə və yeni müavinlərə bugünkü demokratik prinsiplərə cavab verən iş şəraiti yaradacaq.*

*Bu məsələnin tezliklə həll edilməsini xahiş edirəm*".

Məktubu bitirib, Mustafanı xəbərdar etdim ki, bu gün səhər saat on birdən gec olmayaraq, Prezidentin yanında olmalıyam ki, bu məktubu ona təqdim edim.

Buna M.Qaranizadə cavab verdi ki, sabah səhər saat doqquzda məktub məndə olacaq.

Növbəti gün mən düz saat on birdə Prezident Elçibəyin qəbulunda idim, onun köməkçisi, Gülşad Zərbəliyev isə dedi ki, indi o məni çətin qəbul etsin, çünki düz saat 12-də İsveçrənin Azərbaycandakı səfiri ilə "*Köhnə İnturist*" mehmanxanasında görüşəcək. Amma Elçibəyin yanına girib, çıxandan sonra dedi ki, əgər işim təcilidirsə, onda Dövlət katibi Pənah bəyin yanına gedə bilərəm, axşam saat beşdə isə Elçibəy məni qəbul edəcək.

Onun yanından çıxıb, Pənah bəyin yanına getdim. İçəri daxil olmuşdum ki, o ucadan və qınayaraq, dedi:

- Bax, siz gəldiniz, Abdul bəy, hamısını qovursunuz.

- Bunu elə sizin fəalların istəyi ilə etməyə çalışıram və biz bunu hələ 19.06.1992-ci ildə sizinlə və Prezident Elçibəylə razılaşdırmışdıq. Bu ikisinin istefası üçün sizə təkrar ərizə göndərmişdim. Ona görə deyin, necə edim, axı camaat sizin qərarlarınızı gözləyir. Onları istefaya göndərməyə qərar verirsiniz yoxsa yox? Sizin qərarınızı bilməliyəm.

O, başını aşağı salıb yırğalayaraq, dedi:

- Onları istefaya göndərməyəcəyik.

- Amma siz mənə oyun oynadınız. Onlardan ərizələri almağa məcbur etdiniz, indi isə bu cür gözlənilməz cavab. Bəs AXC fəallarına Prezident Elçibəyin yanında verilən söz necə oldu?

- Nə istəyirsiniz, edin! Qurtardı!

Pənah bəyin otağından çıxıb, bu problem haqqında bugünkü tarixlə imzaladığım məktubu qeydiyyatdan keçirmək üçün ümumi şöbəyə getdim.

Məktubu məndən Abramenko aldı, 17.07.1992-ci il tarixli Sİ 3128 nömrəsi ilə onu qeydiyyata alıb, iki nüsxədə surətini verdi.

Bilmirəm niyə, ancaq Azərbaycan Respublikasının Baş naziri Rəhim Əliyeviç Hüseynovun yanına getməyi qərara aldım.

Məni dərhal qəbul etməsinə təəccübləndim, lakin narahat idi. Bu dörd müavinlərlə olanları ona danışdım, sonuncu qeydiyyata alınmış məktubu oxumağa verdim və xahiş etdim ki, sonra nə edəcəyimi məsləhət görsün.

O, məni dinləyib, dedi:

- Abdul bəy, çox ziyalı adamsınız: alim və BMT-nin ekspertisiniz. Lakin bu komanda ilə hətta mənim kimi çox təcrübəli adam da, pis vəziyyətə düşür. Nə məsləhət görə bilərəm, Elçibəyə müraciət edin.

Onunla xudahafizləşib, çıxdım. Qəbul otağında Sirus Abbasbəylini gördüm. Yanımda onu elə indicə çıxdığım Azərbaycan Respublikasının Baş naziri Rəhim Əliyeviç Hüseynovun otağına çağırdılar.

Bunu görməyə bilməzdim. Çıxdım, maşına əyləşib, Rabitə nazirliyinə işə getdim. Saat birə on beş dəqiqə qalmışdı. Şürücünü evinə nahara buraxdım, özüm isə bir az tez evə gedib nahar etməyə qərar verdim.

Elə evə təzə girmişdim, Subi şikayətlənərək:

- Evdə nə yağ var, nə ət, yeməyə bir şey yoxdur, nə edim?

- (*Gülümsədim*) Heç nə olmaz Subi, narahat olma. Tezliklə evdə olacam və hər şeyi çatdıracam: həm tapmağı, həm almağı, hələlik isə bir az uzanıb, iyirmi dəqiqə dincələcəyəm.

O biri otağa keçib, divana uzandım və yarım saat yatdım.

Durub, nahar etdim, bir stəkan çay içib, geyindim və 1977-ci ildən bəri həyatində yaşadığım Rabitə nazirliyinə işə getdim.

Pilləkənləri qalxanda gördüm ki, camaat məndən yan qaçır.

Rabitə nazirinin qəbul otağına girdim, nazirin kabinetinə giriş oradan idi, gördüm camaat yığılıb, iynə atsan yerə düşməz. Soruşdum ki: - Nə olub?

Sükut çökdü. Köməkçim İsmayıl Əfəndiyev stol arxasından qalxdı, rəngi ağarmışdı, elə bil infarkt keçirib. Soruşdum ki, xəstələnməyib. O isə bir az gülümsəyərək və günahkarcasına dedi:

- *Abdul müəllim, bilmirsiniz?*

- *Nə olub, İsmayıl?*

- *Abdul müəllim, Dövlət katibi Pənah Hüseynov elə indicə buradaydı, Rabitə nazirliyinin bütün idarə və şöbələrinin rəhbərlərini dörd müavinlə birlikdə toplayıb, Sirus Abbasbəylinin Azərbaycanın Rabitə naziri təyin edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamını elan etdi və onu onlara təqdim etdi. İndi otaqda yeni nazir dörd müavini ilə birlikdədir.*

- *Ay Maşallah! Belə operativ, televiziyada elan etməmiş, "nahar fasiləsi zamanı", özü də mən olmadan, niyə belə tələsik?*

- *Abdul müəllim, bilmirəm, siz girmək istəyirsiniz?*

- *Yox, İsmayıl. Yalnız gizli seyfin açarı məndədir, adətən köhnə nazirin iştirakı ilə təhvil-təslim zamanı verilir. Soruş, açarları nə vaxt verim?*

İsmayıl qalxıb, yeni nazirin otağına keçdi.

Bir neçə dəqiqədən sonra çıxıb, dedi ki, yeni nazir sabah səhər saat onda gəlməyinizi istəyir.

- *Yaxşı. Sabah olacağam.*

Vidalaşıb, çıxdım. Elə yüngülləşdim və sevindim ki, elə bil uçurdum. Evə qalxıb, qapının zəngini basdım, həyat yoldaşım açdı və təəccüblə:

- Nəyisə unutmusan?

- Məni işdən azad etdilər, özü də nahar fasiləsində. Bəlkə bu yaxşılığadır!

- Niyə belə? Axı adətən televiziyanın axşam saat səkkiz xəbərlərində elan edirlər. Necə ola bilər?

- İnan, Subi, bu cür mafiya ilə hər şey mümkündür!

Subi (*özündə deyildi*) – Bunu necə edə bilərlər?!

- Görünür, ssenaridə bu cür nəzərdə tutulmuşdu... (*Subini sakitləşdirdim*) Hələ sentyabra çox var, yatmaq da olar.

Yanında hökümət telefonu olan divana uzandım.

Beşin yarısında hökümət telefonu çaldı. Prezident Apparatından Gülşad Zərbəliyev danışırdı:

- Abdul müəllim, saat beşdə sizi Prezident Elçibəy gözləyir.

- Gülşad, mən ona nə üçün lazımam?

- (*Gülşad Təəccüblə*) Abdul müəllim, o Prezidentdir və Rabitə nazirini çağırır.

- Gülşad, əzizim, sən hara zəng edirsən?

- Evinizə.

- Evimə niyə?

- Bilmirəm, mənə köməkçiniz dedi ki, siz evdəsiniz.

- Gülşad, mənim əzizim, mən artıq Rabitə naziri deyiləm. Bu lotular nahar fasiləsi zamanı gəlib, Sirus Abbasbəylini Azərbaycanın Rabitə naziri təyin etdilər, sənin Prezidentin isə bunu bilmir?

- Bəli, Abdul müəllim, o mənə birbaşa telefonla dedi ki, Rabitə naziri Abdul bəyə xatırladım ki, saat beşdə onun yanında olsun. Mən axı heç nə bilmirdim, bax ha!

- Görürsən, Dövlət katibi nə yaxşı işləyir, Elçibəyin yerinə hər şeyi həll edir, nahar fasiləsi zamanı, hətta Azərbaycan Prezidentinin özünü də xəbərdar etmədən.

- Abdul müəllim, bura yaxınlaşın, sizi onun yanına buraxacağam.

- Yox Gülşad, ən yaxşısı sən belə elə, onun yanına gedib, de ki, Abdul müəllim gəlməyəcək, amma xahiş etdi çatdırım, rabitə şəbəkəsinin proqnozlaşdırılması ilə məşğul olan BMT-nin eksperti kimi xəbərdarlıq edirəm, o öz vəzifəsində bir il də qalmayacaq.

- Abdul müəllim, bir dəqiqə telefonda gözləyin, indi gəlirəm.

Fasilə yarandı, 5 dəqiqədən sonra isə Gülşad:

- Abdul müəllim, uşaqlarımla and içirəm, onun yanına gedib, hamısını söylədim. Elçibəy isə başını tutub, dedi ki, onlar onun başına daha nələr gətirəcək, çox xahiş edir ki, gələsiniz.

- Yox Gülşad, *öz Apparatındakı vəziyyətə yiyəlik edə bilməyən adam mənə lazım deyil, sağ olun!*

Dəstəyi asdım və qapıda dayanan həyat yoldaşımı gördüm. Məni qucaqlayıb, dedi ki, bəlkə bu yaxşılığadır!

Bir saatdan sonra Hökumət ATS-dən gəlib, evdəki hökumət nömrəmi çıxartdılar.

Axşam, saat səkkizdə televiziya ilə mənim tutduğum vəzifədən guya "*başqa işə keçməyimlə*" əlaqədar azad olunmağım haqqında AR Prezidentinin 17.07.1992-ci il tarixli 52 nömrəli Sərəncamını elan etdilər. Amma hansı işə, hələ də heç kim bilmir.

Nazir təyin olunmağımla əlaqədar verilən birinci Sərəncamdan fərqli olaraq, heç kim evə zəng vurmurdu, heç kəs bir şey demək istəmirdi.

Bir həftə keçdi, şəhərlərarası zəng gəldi. Dəstəyi özüm qaldırdım, ingilis dilində məndən xahiş edirlər:

*- Cənab Qəhrəmanzadə, sizi Cenevrədən, Beynəlxalq Telekommunikasiya İttifaqından miss İnessa Haran (Ines Haran) narahat edir, sizinlə danışa bilərəm?*

*- Bəli. Danışın miss Haran, sizi dinləyirəm.*

*- Cənab Abdul, Beynəlxalq Telekommunikasiya İttifaqı Sizi 1992-ci ilin avqustundan 1993-cü ilin mart ayına qədər Liviyanın telekommunikasiyasının inkişaf layihəsi üzrə Project LIB-88/007 baş ekspert vəzifəsinə dəvət edir.*

*Zəhmət olmasa, deyin, bu Layihədə iştirak etməyə hazırsınız? Axı bizim ITU jurnalımız elan hazırlayır ki, bir ay bundan əvvəl siz Azərbaycan Respublikasının Rabitə naziri olmusunuz. Ona görə də sualı təkrar edirəm, bizim Layihədə iştirak etməyə razısınız?*

*- Bəli, Layihədə iştirak etməyə razıyam, artıq bir həftədir ki, nazir deyiləm, ona görə də jurnalda elan verməyə ehtiyac yoxdur.*

*- Onda BMT-nin pasportunu və təyyarəyə biletinizi göndərirəm. Siz Moskvaya uçun, "Moskva" mehmanxanasında avqustun 27-dən iki günlük nömrə ayrılacaq. Bilet 28 avqust 1992-ci il tarixindən, uçuş isə "Şeremetyevo" aeroportundan olacaq.*

Qayğıma qaldığına görə miss Harana təşəkkür etdim.

Subi sevincək soruşdu ki, həqiqətən layihə alındı?

Nə deyim, görünür haqlı idim, axı Azərbaycanın "*demokratik müxalifət*"i bir il ərzində ona olan bütün etibar limitini boşa çıxardı. Ehtimal ki, bu, ilk növbədə, nəzərdə tutulmuş ssenari üzrə onların ölkəni idarə edən mafiya və elita ilə sıx əlaqədə olmasından baş verdi.

Axı keçmiş müdriklər demişkən: "*Hakimiyyəti nəinki qazanmaq, ən vacibi idarə edib, əldə saxlamaq lazımdır*"...

*"Yaxşılığı əzəldən adət etsən özünə,*
*Yaxşılığın hər yanda qapı açar üzünə"*
Nizami Gəncəvi (1141-1209)

# VII. ŞƏRİFLİ SÜLALƏSİNDƏN BİRİ

## 7.1. BMT-nin eksperti qismində ikinci missiyam.

1992-ci ilin avqust ayının üçüncü ongünlüyü idi, səhər təqribən saat onda Azərbaycan Texniki Universitetinin (*AzTU*) rektoru Sadıxov Əli müəllim zəng vurdu, Azərbaycanın Rabitə naziri olanda məni ilk təbrik edənlərdən biri o idi.

Salamlaşıb, dedi:

- Abdul müəllim, pəncərənizdən Azərbaycan prospektinə boylanın. Orada nə görürsünüz?

Pəncərəyə yaxınlaşıb, rektorumuzun sürücüsünü gördüm.

- Əli müəllim, sizin maşınınızı gördüm. Sürücünü tanıdım, mən Texniki Universitetimizin Həmkarlar Komitəsinin Sədri olanda o mənə xidmət edirdi.

- Hə, indi mənim şoferimdir. Soruşdum ki, harada yaşadığını bilir, cavab verdi ki, bəli. Abdul müəllim, bir xahişim var, zəhmət olmasa, geyin, maşına otur və AzTU-a gəl, səni gözləyirəm.

Tez geyinib, maşına əyləşib, AzTU-a getdim.

Rektorun otağa daxil olanda Əli müəllim, alicənab kimi, qalxıb, otağının ortasında məni qarşıladı, çox istiqanlıqla salamlaşıb, qucaqlayıb, oturmağımı təklif etdi, özü isə qarşımda əyləşdi.

Dostcasına soruşdu: - Necəsən? Hər şey yaxşıdır?

Mən təmkinlə, emosiyasız cavab verirdim, amma hiss edirdim ki, rektor mənə layiqincə yanaşır.

- Abdul müəllim, siz bizdə yarımştat işləyirsiniz, gəlin sizi tam ştata keçirim.

- Əli müəllim, axı avqustun axırında Cenevrəyə Birləşmiş Millətlər Təşkilatının (BMT) eksperti qismində uçacağam, oradan isə Liviyaya altı aylığa, ona görə tam ştata keçməyimə dəyərmi?

- Bəli dəyər, biri digərinə mane olmur.

Ayağa qalxıb, kreslosuna yaxınlaşdı, selektorun düyməsini basdı. Kadrlar şöbəsinin müdiri Hətəmzadə Elvira xanımın səsini eşitdim. Əli müəllim nəzakətlə:

- *Elvira xanım, Abdul müəllim Qəhrəmanzadənin şəxsi işini qaldırın və onun tam ştata keçirilməsi haqqında əmr hazırlayın. Sizə hər şey aydındır?*

- *Təcili hazırlayıb, iyirmi dəqiqədən sonra gətirəcəyəm.*

Əli müəllim mənə üzünü tutub:

- *Abdul müəllim, doğrudanmı baş verənlərdən təsirlənmisiniz? Axı istənilən vəzifə gedib gələndir, necə deyərlər, Allah verir, Allah alır.*

Birlikdə güldük.

- Yox, iş vəzifədə deyil, digər çətinliklərim var.

- Abdul müəllim, hər ikimiz xaricdə işləmişik, bəziləri kimi, "*görməmiş*" deyilik, amma mənə deyə bilərsən, iş nədədir.

- Bilirsiniz, Əli müəllim, ancaq güləyin. Axı mən həmeşə maaşla yaşayıram, inanın, manatım da yoxdur ki, Bakı-Moskva təyyarəsinə bilet alıb, oradan dəvət edən tərəfin ödədiyi və "*Moskva*" mehmanxanasında məni gözləyən təyyarə biletlə ilə Moskvadan Cenevrəyə uçum.

Əli müəllim yerindən qalxdı, gördüm ki, narahatdır, hətta qızardı və dedi:

- *Abdul müəllim, sizin haqqınızda çox şey bilirəm, amma bu dərəcədə təmiz və açıq olduğunuzu indi bildim. Özümü pis hiss edirəm, çünki respublikanın bu cür mütəxəssisi ölkədən gedir, yola da pulu yoxdur. Hə doğrudan da – el-oba öz peyğəmbərini tanımaz.*

O yenə də selektora yaxınlaşdı və dedi:

- *Vəli müəllim, bilmirəm necə, nə cür, bir yaxşı dostumu üç günlüyə Moskvaya yollamaq lazımdır, o oradan Cenevrəyə uçacaq*.

Texniki Universitetin baş mühasibi Vəliyev Vəli müəllim cavab verdi: - *Əli müəllim, əzizim, nə danışırsınız? Moskva indi xarici ölkədir. Bu cür xərclərə icazəni kim mənə verər? Bu mümkün deyil.*

Rektor: - *Vəli, bu mənim dostum Abdul müəllim Qəhrəmanzadəyə lazımdır, indi burada mənimlədir və sən bunu edəcəksən, başa düşdün!*

Vəli müəllim: - *Bəli, Əli müəllim. Məşədi İbad demişkən, bu ayrı məsələ. Abdul müəllim üçün ezamiyyəni düzəldib, pulları da özüm gətirib, ona verəcəyəm, hələ sizin yanınızda onu öpəcəyəm də. Razısınız, Əli müəllim?*

Rektor: - *Məşədi İbad demişkən, bu ayrı məsələ.*

Üçümüz də güldük.

Əli müəllimlə təxminən yarımsaatlıq söhbətdən sonra kadrlar şöbəsinin müdiri mənim işə bərpa olunmağım haqqında rektorun əmrini imzalamaq üçün gətirdi. Ondan beş dəqiqə sonra Vəli müəllim görüşümüzə sevinərək, gəlib məni qucaqladı, yanımda oturub, ezamiyyət vəsiqəsini və Moskvaya üç günlük ezamiyyət və təbii ki, aviabiletin dəyərində lazım olan məbləğdə pul verdi...

Bax belə, AzTU-nun rektorunun səyləri nəticəsində borca girməli olmadım, axı mən borcdan, indi də qaçıram.

Növbəti gün Bakı-Moskva təyyarəsinə bilet aldım. Şeylərimi toplayıb Moskvaya, oradan Cenevrəyə, sonra isə Liviyaya Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) xətti ilə BMT-nin eksperti qismində ikinci missiyamın icrası üçün yola düşməli idim.

Bəli mənim taleyim: “*Yolda olub, inkişaf etməkdir*”.

Hələ 1983-cü ildə mən Moskvada çox gözəl bir insanla dostlaşmışdım, milliyyətcə tatar, türk qanından idi, Şamil Xayrulin. Onun nümunəvi bir ailəsi vardı: arvadı Roza xanım – ağıllı qadın; qızı – gözəl Regina (*iki uşağı vardı*); başı qızıldan olan oğlu Marat Moskva rabitə institutunu bitirmişdi.

Mən təəssüf edirəm ki, bu gözəl ailə ilə əlaqəm itib, ailənin başçısı olan Şamil mənə qardaş kimi idi.

O, zənnimcə, Moskvada olan ən etibarlı dostum idi.

Mənim nailiyyətlərimə sevinirdi, Moskva ətrafında bağ evi tikmək planları haqqında bölüşürdü və elə hey deyirdi:

- Baxarsan, Abdul, gələn dəfə səni bağımda qəbul edəcəyəm.

Həmişəki kimi, mən onunla "*Mayakovskiy*" ad. metro stansiyasında görüşdük. Dondurma kafesinə gedib, orada hər şeydən söhbət edirdik və Şamil qədəhdə şampan, mən isə limonad içərək, dondurma yeyirdik.

Moskva mehmanxanasında mənə Birləşmiş Millətlər Təşkilatının (BMT) pasportunu və Moskva-Cenevrə reysinə biletimi verdilər, avqustun 28-də isə mən Cenevrə şəhərinə uçdum.

Cenevrədə məni miss Xaran əlində ingilis dilində adım və soyadım olan böyük plakatla qarşıladı.

"*National Hotel*" də üç günlük yerləşdim, otel Beynəlxalq Telekommunikasiya İttifaqının (*ITU*) binasının yaxınlığında yerləşirdi və ertəsi gün miss Xaranla bir balaca söhbət edib, ITU kadrlar şöbəsinin müdiri miss Fazanelliyə təqdim olundum (*Mrs. E.Fasanelly*).

Sonra Mrs. E.Fasanelly məni ITU-nun direktoruna, Finlandiyanın keçmiş rabitə nazirinə, Pekka Tarjanneyə təqdim etdi. O məni çox səmimiyyətlə qəbul etdi, rus dilində bir neçə söz dedi, bir az Azərbaycanda telekommunikasiyanın vəziyyəti barədə maraqlandı və məni idarəsində çay içməyə dəvət etdi.

International Telecommunication Union – ITU - telekom və radio sahəsində tövsiyyələrini müəyyənləşdirən, həmçinin radiotezliyin (*radiotezliyin təyinatı və ölkələr üzrə paylanması*) beynəlxalq istifadəsini tənzimləyən beynəlxalq rabitə təşkilatdır.

BTİ BMT-nin ixtisaslaşmış təşkilatıdır. 2012-ci ilin mart ayına olan vəziyyətə görə, BTİ-ə 192 ölkə daxildir və sektorlar və assosiasiyalar üzrə 700-dən çox üzvü vardır. Standartlar (*daha doğrusu, BTİ-nın tövsiyələri*) mütləq deyil, lakin geniş dəstəklənir, belə ki, bütün dünyada rabitə şəbəkələri arasında qarşılıqlı əlaqəni asanlaşdırır.

ITU qərargahı (*orada 12 dəfə olmuşam*) Cenevrədə (*İsveçrə*) BMT-nin hündür (*16 mərtəbəli*) binasında yerləşir.

İdarəetmə orqanı – Səlahiyyətli konfransdır, dörd ildə bir dəfə çağırılır və 46 üzvü olan BTİ (*ITU*) Şurasını seçir, hər il iclaslarını keçirir. BTİ-nın strukturu üç bölmədən ibarətdir:




- ITU-T (BTİ-T) – Telekommunikasiyanın standartlaşdırılması sektoru – преемник МККТТ ????? (CCITT) davamçısı.
- ITU-R (BTİ-R) – Radioəlaqə sektoru (*преемник МККР ?????*).
- ITU-D (BTİ-D) – Telekommunikasiyanın inkişaf sektoru.

Bütün sektorların tədqiqat komissiyaları mövcuddur.

BTİ-T sektoru 5 sinifdən ibarətdir:

- A sinfi: rabitənin milli nazirlikləri və idarələri;
- B sinfi: rabitə ilə məşğul olan iri xüsusi korporasiyalar;
- C sinfi: avadanlıq istehsal edən elmi müəssisələr;
- D sinfi: beynəlxalq təşkilatlar, o cümlədən standartlaşdırma (*ISO*) üzrə beynəlxalq təşkilat;
- E sinfi: sektorun fəaliyyətinə maraq göstərən digər sahələr üzrə təşkilatlar.

Sonra rəsmi brifinq keçirildi, Project LIB-88/007 layihəsinin məqsədləri, layihənin ümumi məbləği və 1992-ci ilin avqust ayına olan büdcəsi haqqında danışdılar.

Bizə layihənin rəhbərini, isveçrəli Harold Consonu (*Mr.Harold Jonson*), 70 yaşlarında olardı və layihənin üzvlərini: Orxan Turanı (*Orhan Turan*), 50 yaşında, çoxkanallı əlaqə üzrə mütəxəssis və hind əsilli ingilis, cənab Şuklu (Mr.Shukla) və məni təqdim etdilər. Bütün komanda 2 gündən sonra Cenevrədən Tunisə uçdu, sonra isə bizi ciplərdə Liviyanın paytaxtı Tripoliyə götürdülər. Bu onunla bağlı idi ki, ABŞ və qərb ölkələri tərəfindən Liviyaya istənilən təyyarənin uçmasına embarqo elan edilmişdi.

Burada bizi Liviyanın telekommunikasiyasının planlaşdırılması şöbəsinin müdiri, cənab Məhəmməd Şalufa təqdim etdilər, savadlı, həm də şübhəli adam idi.

Tripolinin mərkəzində, məşhur “*Yaşıl Meydan*”ın yanındakı oteldə yerləşdik və orada iki həftə qaldıq (*foto aşağıda*).

Sonra Liviya tərəfindən olan köməkçilərin, xüsusilə də mənim kontrpartım Hüseyn Qremidin yardımı ilə Aralıq dənizi sahillərinə köçdük, burada diplomatik qəsəbədə – Regatada yerləşdik.

Əfqanıstandakı layihə təcrübəmi nəzərə alaraq, işdə çox da çətinliyim olmadı, ikili əmsal metodunu (*Kruitkoff alqoritmi*) hələ Moskva Rabitə institutunda test etmişdim. Bu metoddan istifadəyə dair orada Metodik təlimat da nəşr etdirmişdim.

Ancaq gördüm ki, İngiltərədən olan hindu (*Mr.Shukla*) layihədə iştirakı və layihənin müddətinin daha bir il uzadılması məsələsini qaldırır, yəni işin həcminin çoxluğuna istinad edərək, bir ilin əvəzinə iki il istəyirdi. Buna məni və Orxan Turanı da cəlb edirdi.

Yaxşı bir şeyə gətirməyən çəkişmə başladı, çünki BTİ adətən layihənin büdcəsini dəyişmir.

Mr.Shuklaya bunu izah etməyə çalışdım, amma o bir növ inadkar adam idi, elə bil ailəsinin bütün problemlərini məhz bu layihə (*Project LIB-88/007*) vasitəsilə həll etmək istəyirdi.



Liviyanın tikilmiş stansiyaları üzrə materialların toplanmasında ona kömək etməyə başladım, rəqəmsal ATS üçün avadanlıqların xüsusi prinsipini, ölkənin milli rabitə şəbəkələrinin nömrələmə prinsipini və s. izah etdim, lakin o bütün qüvvəsini müqaviləsinin uzadılmasına yönəltmişdi.

Mənim isə Harold Conson ilə öz çətinliklərim vardı... O mənim trafikin hesablanmasındakı nəticələrimin tezliyinə təəccüblənmişdi, ümumiyyətlə bir qədər şübhəli adam idi, hamıya şübhə ilə yanaşırdı. Tezliklə Orxan Turan mənə onunla ehtiyatlı olmağımı məsləhət gördü, "*bu qoca bir oyun durğuza bilər*".

Yaxşı ki, bir aydan sonra hesablama mərkəzi ilə sıx əlaqəyə girib, bütün Liviyanın milli trafikinin hesablanması üzrə ilk nəticələr toplanmasına başladım.

Məhz bu zaman mən və Orxan Turan Tripolun mərkəzindəki oteldən dənizə tərəf, Regata adlı yerə köçdük.

Burada hər gün işdən sonra dənizə (*villamızdan cəmi 20-30 metr aralı*) getmək və ən əsası, Orxanla tennis oynamaq olurdu.

Bu gündən sonra işlər yaxşı getməyə başladı: işdə özümü tamamilə layihəyə verirdim və işdən sonra dəniz kənarında, Reqatada istirahət edirdim.

Fəaliyyətim və hər gün hesablama mərkəzinə getməyim cənab Consonu narahat etməyə başladı, o tezliklə Cenevrəyə uçdu.

Onun yoxluğundan istifadə edib, cənab Şukl məni və Orxan Turanı layihənin uzadılması ilə əlaqədar qızışdırmağa başladı.

Mən onlara dedim ki, işlərim qaydasına düşüb, Liviyanın telekommunikasiyasının inkişafının proqnozlaşdırılması üzərində gərgin işləyirəm və bu məsələni ümumiyyətlə qaldırmaq istəmirəm, "*amma əgər siz bunu etmək istəyirsinizsə, onda əvvəlcə layihənin iş planı ilə əsaslandırın, yoxsa heç bir şey alınmaz*".

Bu söhbətdən sonra Orxan Turan dedi ki, bu hindu (*Mr.Shukla*) artıq UNDP-nin Qahirədəki regional idarəsinə, cənab Barriyə (*Mr.Barry*) məktub yazıb.

Bu pis xəbər idi, Orxan Turanın isə heç vecinə deyildi, onun çox savadlı və ondan da çox bilən köməkçisi Məhəmməd vardı və o layihəyə görə narahat deyildi.

H.Conson geri qayıdan kimi, elan etdi ki, sabah cənab Barri gələcək və bəzi məsələni ayırd edəcək.

Növbəti gün hamımız layihənin iclas zalına yığışdıq və iclası cənab Barri özü açdı, onun 55 yaşı olmazdı, hündür bir kişi idi.

Cənab Şuklanın layihənin bütün üzvlərinin (*belə çıxır ki, həm mənim, həm də Orxan Turanın*) adından yazılmış məktubundan narazı idi və layihə üzrə işin gedişi barədə hər birimizin fikrini eşitmək istəyirdi.

İlk söz Project LIB-88/007 layihəsinin rəhbəri Harold Consona verildi. O layihə və bizim üçümüz barədə çox az danışdı və məktuba təəccübləndiyini söylədi.

Sonra Orxan Turan çıxış etdi, ən çox fransız dilində danışırdı (*görünür, fransız olan Mr.Barry-nin xoşuna gəlmək istəyirdi*), amma mahiyyətcə bir şey söyləmədi.

Sözü hindu cənab Şuklaya verdilər, o layihənin uzadılmasını tələb etməyə başladı, guya layihənin bütün bəndlərini icra edib çatdırmaq üçün vaxt çox azdır və s.

Axırıncı sözü mənə, layihədə altı aylıq iş müddətinə (*qalanlarında iş müddəti çox idi*) dəvət olunmuş yeganə iştirakçıya verdilər. Mən şəbəkə üzrə trafikin ölçülməsi haqqında məlumatın

olmaması və Tripolidə apardığım ölçülər barədə qısaca danışıb, və artıq bir aydır ki, işlədiyim hesablama mərkəzini təriflədim. Çıxışımı onunla bitirdim ki, bütün işimi mənə ayrılmış altı ay ərzində tamamlayacağam və qeyd etdim ki, Layihənin büdcəsi əvvəlcədən təsdiqləndiyindən vaxtın uzadılması mümkün deyil.

Sükut çökdü, onu Mr.Barry pozdu:

- Cənab Qəhrəmanzadə düz deyir, əgər kimsə layihənin müddəti ilə razı deyildi, o müqaviləni imzalamamışdan əvvəl bunu etməli idi, bu gün isə bu mümkün deyil.

O elan etdi ki, ITU Mr.Shukla ilə müqaviləni ləğv edib, onu Cenevrəyə göndərməli olacaq. Qalanlarına isə bu araşdırmada iştiraka görə təşəkkür edib, vidalaşdı və Qahirəyə döndu.

İclasdan çıxandan sonra Orxan Turan dedi:

- Bilirsən, Mr.Harold Jonson səni də layihədən ayırmaq istəyirdi, lakin söylədiyin nitq nəzakətli və inandırıcı idi, odur ki Mr.Barry buna getmədi.

Mən isə ona cavab verdim- Sən də bunu bilərək, ağzına su alıb, susdun ki, nə ilə qurtaracaq, mənim türk qardaşım! O pət oldu.

Düz üç gündən sonra biz Orxan Turanla birlikdə telekommunikasiya məsələlərindən tamamilə xəbərsiz olan və görünür, bu layihəyə təsadüfən düşən Mr.Shukla-nı yola saldıq.

Mr.Shukla-nın gedişindən sonra layihəyə daha məsuliyyətlə qoşulduq. Orxan Turan hər axşam məndən transmissiya məsələlərini necə planlaşdırmağı ona başa salmağımı xahiş edirdi. O SSRİ-dən olan mütəxəssislərin çox şeyi bildiyinə, özlərinin isə yalnız dar istiqamətdə biliklərinin olmasına təəccüblənirdi.

Ona izah etdim ki, mənim dissertasiyam trafik üzrə, dediyim dərs kommutasiya, və artıq 15 ildən çoxdur ki, Universitetdə öz kafedramda rabitə şəbəkələri üzrə layihələr həyata keçirirəm.

Bəli, Londondan olan hinduya (*Mr.Shukla*) yazığım gəlirdi, ingilis dili onun doğma dili idi, amma bu dildən başqa, görünür, çox təəssüf, proektən heç bir şey bilmirdi.

Axırıncı dörd ay çox tez keçdi, iş maraqlı, cəlbedici və canlı, ən əsası isə həqiqətən faydalı idi. Qardaş Liviya xalqının telekommunikasiyasının inkişafı prosesində mənim də payımın olduğuna sevinirdim. İş gününün bütün yorğunluğu isə tennis

oynamaqla keçirdik, və hər dəfə Orxana qalib gəlirdim, o isə hər dəfə soruşurdu: "*Abdul bəy, siz bu tennislə çoxdan uğraşırsınız?*"

Mən isə ona – Hə, raketi əlimə burada, Tripolidə almışam.

O sözlərimə inanmadı, ancaq mən həqiqətən məhz Liviyada tennis oynamağa başlamışam, Bakıya evə qayıdandan sonra isə tennisə olan məhəbbətimi oğlum Həmidə də aşıladım.

Amma tezliklə yeni sürpriz meydana çıxdı. Aralıq dənizi (*Orhan Turanın deyirdi ki türklər bu dənizi Ağ dəniz adlandırırlar*) sahillərindəki kurortda, Regata-da yerləşdiyimiz ikinci ayda idarəmizə 1992-ci ilin noyabr ayına olan aylıq ITU – Telecommunication - № 59 jurnalı gəldi.

Orhan Turan bir nüsxəsini mənə verib, dedi:

- Abdul bəy, 16-cı səhifəni oxu.

Nahar fasiləsində jurnalı açıb, səhifə-səhifə baxmağa başladım. 16-cı səhifəyə çatanda "*ağzım açılmış qaldı*". Orada yazılmışdı: "*Xəbər veririk ki, Rusiyadan olan Mr.A.Kagramanzade Liviyada ITU baş esperti qismində missiyasının icrasına başlayıb və 03.09.1992-ci ildən 02.03.1993-cü ilədək aparılacak*".

Birinci xoş xəbərdən sonra mənə kədər gəldi. Bunu görüb, Orxan Turan yanıma gəldi və soruşdu:

- *Əfəndim, nə olub?*

- *Yazıblar ki, mən Azərbaycandan deyil, Rusiyadanam.*

- *Nə olsun ki? Redaksiyaya məktub yaz, onlar düzəliş verib, yenidən çap edərlər.*

Orxan bəy ITU strukturunu çox yaxşı bilirdi, ardıcıl olaraq 12 il Qanada ITU layihəsinin rəhbəri qismində işləyib.

Axşam Reqatada Telecommunication jurnalının redaksiyasına məktub tərtib edib, orada səhvi göstərərək, Azərbaycanı nəzərə almaqla mətni yeniləməklərini xahiş etdim.

Ertəsi gün məktubu Orxana göstərdim, o isə oxuyub, dedi:

- Bax elə bu gün Cenevrəyə göndər. Onlar tez baxacaqlar.

Bir həftədən sonra İTU-nun "*Telecommunication*" jurnalının redaksiyası adından ətraflı üzr məktubu aldım, növbəti, 1992-ci il tarixli 60 nömrəli jurnalın 16-cı səhifəsində isə buraxılan səhvə görə üzr istəməklə, mənim Azərbaycandan olduğum dərc edilmişdi.

Bəlkə kiməsə bu mənasız görünə bilər, amma mənə xoş idi! Onların üzr istəyib, operativ reaksiya vermələri məni heyrətə gətirdi.

Mən Liviyadan işimi bitirməmişdən iki həftə əvvəl cənab Conson öz işlərinə görə İsveçə uçdu, mən isə tənbəllik etməyib, yerinə yetirilmiş işlər haqqında hesabat hazırlayıb, layihənin Liviyadan olan rəhbəri Məhəmməd Şalufa təqdim etdim.

M.Şaluf şəbəkənin ətraflı hesablanmış strukturuna baxıb təəccüblə soruşdu: - Cənab Qəhrəmanzadə, axı bu hesablamaları Mr.Harold Jonson İsveçdə, Eriksonda yerinə yetirir, siz isə bunu Tripolidə etmisiniz. Bu necə ola bilər?

Mən M.Şaluf ITU-nun tövsiyələr toplusunu son səhifəni göstərib soruşdum: - Cənab Şaluf, siz izah edə bilərsinizmi, Kruitkof metodu ilə şəbəkə hesablamalarının proqram diski haradadır?

Məhəmməd Şaluf eşitdiyinə təəccüblənib soruşdu:

- Demək istəyirsiniz ki, Kruitkof metodunun proqram diski ITU-nun bu tövsiyələr toplusuna əlavə edilmişdi?

- Bəli! Cenevrəyə zəng vurub, soruşun, sonra da sifariş edin, qoy onları sizə, Tripolidəki ünvanınıza təcili göndərsinlər.

Məhəmməd Şaluf mənim bu kəşfimdən demək olar ki şoka düşdi. O elə yanımda Cenevrəyə, Beynəlxalq Telekommunikasiya İttifaqına (*ITU*) zəng etdi və mənim 100% haqlı olduğuma məəttəl qaldı.

- Cənab Abdul, əgər bu disk haqqında bütün həqiqəti bizə söyləmədən Liviyadan getsəydiniz, biz bir axmaq kimi, cənab Consonun oyuncağı olacaqdıq.

Siz niyə bunu bizə (*Liviyaya*) və şəxsən mənə açdınız?

- Ona görə ki, mən də müsəlmanam, mən türkəm və bizi axmaq yerinə qoyana dözə bilmirəm. Zəhmət olmasa, diski əldə edəndən sonra mənə zəng vurun.

Mən Şalufla xudahafizləşib, öz otağıma getdim.

Bir neçə gündən sonra Məhəmməd Şaluf zəng vurub, dedi ki, o Cenevrədən həmin toplunu alıb, axırıncı səhifəsinə rabitə şəbəkələri üçün trafikin hesablanması üzrə hazır proqram diski qoyulub, və o onları hesablama mərkəzinə verib, Mərkə isə mənim söylədiklərimi təsdiq ediblər.

*“Özünüzə inanmağa cəsarətiniz olsun”*
Fridrix Nicşe (1844-1900)

### 7.2. BMT-nin eksperti qismində üçüncü missiyam.

Cenevrəyə xüsusi əhval-ruhiyyə ilə uçdum, ITU qarşısında yerinə yetirilmiş işlər haqqında etdiyim hesabat yüksək səviyyədə keçdi [62].

Elə ilk gün Layihə üzrə kuratorlarım Uruqvaydan missis İnes Haran (*Mrs. Ines Haran*) və Çexoslovakiyadan missis Culiya Dvorak (*Mrs. Julia Dvorak*) məni işin müvəffəqiyyətlə sona çatması münasibətilə təbrik etdilər. Onlar söz atdılar ki, ITU kadrlar şöbəsinin müdiri missis Fazanelli (*Mrs E.Fasanelly*) mənə trafik-mühəndisliyi üzrə ekspert qismində Pakistan Telekommunikasiya Tədris Mərkəzinin yaradılması üçün altı aylıq müddətə Pakistana getməyimi təklif etməyə hazırlaşır.

Mrs E.Fasanelly-nin yanına getməmişdən əvvəl mən evə zəng vurub, Subiyə yeni layihə barədə xəbər verdim və o mənim on günlük olsada Bakıya gəlib uşaqları görmək şərtilə razılaşdı.

Mrs E.Fasanelly layihənin (*Project LIB-88/007*) uğurla başa çatması münasibətilə məni təbrik edib, qeyd etdi ki, Tripolidən cənab Məhəmməd Şaluf mənim barədə çox yaxşı xarakteristika göndərib və bu həmin layihə üzrə ilk müsbət rəydir.

Sonra Mrs E.Fasanelly söylədi:

- Cənab A.Qəhrəmanzadə, sizdən xahişimiz var: İslamabada uçub, 1993-cü ilin aprelindən sentyabr ayına qədər Pakistanın Telekommunikasiya Tədris Mərkəzinin yaradılması layihəsini (*Project PAK-88/002*) yerinə yetirəsiniz. Siz bizim hesabımıza evinizə uçub, bir həftə istirahət edəcəksiniz, oradan isə İstanbul vasitəsilə birbaşa İslamabada uçacaqsınız, təyyarəyə bilet hazırdır.

Mən sakitcə razılaşdım, belə ki, Mrs E.Fasanelly Bakıda ailəmlə birgə dincəlməyim şərtimi qabaqlamısdı.

ITU-dan müəyyən bir məbləğ alıb, bir hissəsini İsveçrə Bankının filialının yanında yerləşən Beynəlxalq Telekommunikasiya İttifaqının binasının birinci mərtəbəsində satılan ITU-nin bir sıra tövsiyə və vəsaitlərinə xərclədim, həmin Bankda isə mənim adıma

rəsmi olaraq, şəxsi hesab açılmışdı ki, oraya Liviyadan aldığım əmək haqqımı köçürürdim.

Altı aylıq köçürmələr ilə 1993-cü ilin martında İsveçrə Bankındakı mənim şəxsi hesabımda 60 000 ABŞ $ olmuşdur.

Özümlə bir neçə min dollar götürüb, Bakıya, ailəmin yanına uçdum. Mən həqiqətən evdəkilərin hər biri üçün çox darıxmışdım.

Bakıdakı bir həftə elə tez keçdi ki, heç özümə gələ bilməmiş, ad günümdə, aprelin 5-i 1993-cü ildə Bakıdan İstanbula, növbəti gün isə səhər saat onda Pakistana, İslamabada uçdum.

Yerli vaxtla gündüz təqribən saat dörddə təyyarədən İslamabadın hava limanına düşdüm, elə təyyarənin pilləkanına ayaq basmışdım, məni isti və quru hava bürüdü.

Təyyarədən aeroportun binasına qədər heç yüz metr məsafə yox idi, amma binaya çatana qədər hətta sümüklərim də qızmışdı. Güclə nəfəs alırdım, ancaq qadınların, ilk növbədə avropalı, geyimlərinə məəttəl qalmışdım. Onların hamısı döşəməyə qədər uzun paltara bürünmüşdülər, baş və üz isə ipək yaylıqla örtülmüşdü.

Project PAK-88/002 layihəmizin nümayəndəsi – kurslar üzrə baş ekspert, uzunsaqqallı, John Hant (*Con Hant*) məni qarşıladı və cipdə UNDP-nin binasına apardı.

Orada qeydiyyatdan keçdim, mənə oteldə yaxud xüsusi evdə qalmağı təklif etdilər. Mən sonuncunu seçdim.

Məni "*Region of E, Islamabad*"a apardılar, nəticədə məlum oldu ki, bura İslamabadın ən varlı və təhlükəsiz rayonudur, bunu iki min dollarlıq aylıq kirayə pulu da (*düzdür buraya səhər yeməyi də daxil idi*) təsdiq etdi.

Buradakı layihədə də komanda beynəlmiləl idi. Project PAK-88/002 layihəsinin başçısı Simens (*Siemens*) firmasından olan alman Siegfried Buchholz (*Ziqfred Boçxolz*) idi [63].

Layihənin ən yaşlı eksperti Misirdən, İskəndəriyyədən olan professor Məhəmməd Nağı (*Mohamed Nagi El-Yusuf*) idi. O çoxkanallı rabitə üzrə ekspert idi. 65-dən çox yaşı olardı, alçaqboylu idi, nəinki Amerika, həm də sovet texnologiyalarını yaxşı bilirdi. Misirin üçüncü prezidentinin, Hamal Abdel-Naserin varisi, marşal Məhəmməd Ənvər əs-Sədatın istefaya çıxmış generalı idi.




Demək olar ki, bütün altı ayı 25 ildən çox ABŞ-da yaşamış professor Məhəmməd Nağı ilə yoldaşlıq münasibətlərini saxladım (*təbiətcə sakit və yaşına görə bir az aqressiv idi*).

İslamabaddan uzaqda (*paytaxtdan 90 km şimala doğru*), gözəl dağ havası olan Hari-Puri şəhərində işləyirdik, burada Makedonlu İskəndərə abidə ucaldılmışdı.

Hər gün səhər saat səkkizdə layihəmizin cipi bizi (*M.Nağını və məni*) villamızdan götürürdü və yüksək sürətlə bir saatdan çox yol gedirdik. İslamabadın yeni yaradılmış Telekommunikasiya Tədris Mərkəzi gözəl, ikimərtəbəli hündür binada, Hari-Purinin yaşıl zolaqları arasında yerləşirdi.

Elə birinci gün Con Hant və prof. M.Nağı məni Pakistan Telecom rəhbərliyinə təqdim etdilər: Təhsilin Baş direktoru – Məhəmməd Aktar (*Muhammad Akhtar)*, Haripur-Hazar (*Haripur Hazara*) Təhsil Mərkəzinin direktoru – Sərfraz Mahmud (*Sarfraz Mahmood*), həmçinin İslamabadın Təhsil Mərkəzinin direktoru – Məhəmməd Nağı (*Mohammed Nagi*), bizim prof. M.Nağının adaşı.

Layihədə işimin əsas məqsədi Pakistanın telekommunikasiya mühəndis tərkibi üçün "*trafik mühəndislik*" (teletrafik nəzəriyyəsi)

praktiki kursunun yaradılması və bu ixtisas üzrə nəzəri kursun keçirilməsi idi.

Təlim kursunu həm elektron (*disklərdə*), həm də çap (*kitab*) şəklində təqdim etmək lazım idi. Ona görə də Mərkəzin mətbəəsi mənim dərsliyimi (kitabı) əvvəlcədən 100 nüsxə çap etmişdi.

Buna kitaba görə Master-planı tamamilə mənimsədim.

İş çox həyəcanlı idi və Mərkəzin kitabxanasında BTİ-nin (*ITU*) lazım olan əsas tövsiyələri, həmçinin ingilis dilində bir sıra xarici kitablar və tədris vəsaitləri vardı.

Yalnız bir çox ingilis rabitəçi alimlərin əsərləri kitabxanada yox idi, ona görə də Mərkəzin direktorunun razılığı ilə iyirmi müasir ingilis və amerika alimlərinin siyahısını tərtib etdim və biz onları Mərkəzimiz üçün sifariş verdik.

"*Pakistan*" sözü mənim xoşuma gəldi, tərcüməsi "*Təmiz ölkə*" idi. İnsanlar burada təmiz qəlblidir. Onları Allahı sevir və ondan qorxurdular.

Pakistanlıların başqalarına qarşı pis niyyətləri ola bilməz, əsl xeyirxahdırlar. Əgər öz zəhmətləri ilə qazanmayıblarsa, yemirlər. Yüz yetmiş milyonluq xalqın həyat tərzini görüb, onların ləyaqət və tamahsızlıqlarına heyran qalırdım.

Onlar sadə və təvazökar olduqlarına baxmayaraq, həm özlərinə, həm də ətrafındakılara qarşı tələbkardırlar.

Çox zəhmətsevər və istedadlı millətdir.

Onlar Kəşmir və Əfqanıstandakı (*onları doğma qardaşları hesab edirlər*) müharibəyə görə çox əziyyət çəkirdilər, lakin istənilən pakistanlının əsas xarakteristikası – türklərə olan məhəbbətdir.

Türklərə pərəstiş edib, onlarla özləri kimi fəxr edirdilər.

Quran və İslamı həddindən artıq sevir və fəxr edirdilər ki, bütün müsəlmanlar qardaşdır, Məhəmməd Peyğəmbərə sadiqdirlər və onun yolu ilə inam və qürurla gedirdilər.

İslamabada gəlişimdən on gün keçməmiş, məscidə getmək istədiyimi hiss etdim.

1993-cü ilin aprel ayının üçüncü cüməsi idi. İslamabadda Səudiyyə Ərəbistanının Kralının vəsaitləri hesabına tikilmiş gözəl Faysal Məscidi məni maqnit kimi özünə doğru çəkirdi.

London və Kabildə gözəl məscidlər görmüşəm, amma bu cür gözəl dörd minarəli məscidə valeh olmuşdum, İslamabadın dağlıq ərazisində yerləşirdi. Bu nəhəng məscid yaqin ki milyona qədər müsəlmanin bayramlarda və cümələrdə bir yerə toplaqa imkan verir.

Dəstəmaz alıb, 1986-cı ildə tikilmiş Faysal Məscidinə (*Faisal Mosque*) cümə namazına getdim.

Mənə elə gəlirdi ki, aprelin bu gözəl yaz günü məni əhatə edən minlərlə sadə müsəlman qardaşları ilə birlikdə uçuram. Hər bir şeyi mənə xoş gələn Allahın evinin bu gözəl guşəsində gördüklərimdən xoşbəxtlik qanadlarında uçurdum.

Burada, bu məscidin yanında Pakistanın ən yaxşı oğulları, milli qəhrəman, Pakistanın keçmiş prezidenti Məhəmməd Ziya-ul-Hak başda olmaqla, dəfn ediliblər. Onun hərbi təyyarəsi 17 avqust 1988-ci ildə naməlum səbəblərdən partlayıb və S-130 "*Herkules*" təyyarəsində olan 37 nəfərin heç biri, o cümlədən ölkənin ordu və təhlükəsizlik komitəsinin generalları xilas ola bilməmişdi.

Amerika mütəxəssisləri dağıntılarda təxribatlarda tez-tez istifadə olunan pentaritritol tetranitrat partlayıcı maddəsinin izlərini müəyyən etmişdilər. Yalnız terror aktının təşkilatçı və sifarişçiləri hələ də tapılmayıb (*İşlənilmiş ssenari!*).

Məhəmməd Ziya-ul-Hak 12 avqust 1924-cü ildə Calandxar (*indi Hindistanda yerləşir*) şəhərində zabit ailəsində anadan olmuşdur. Hindistan Kral akademiyasında təhsil aldıqdan sonra zabit olmuşdur. İkinci dünya müharibəsində Britaniya korpusunun tərkibində xidmət edib və Birma, Malayziya və İndoneziyada yapon ordusuna qarşı hərbi əməliyyatlarda iştirak edib.

1947-ci ildə müstəqil Pakistan yaradıldıqda Ziya-ul-Hak Pakistan ordusunda xidmətə başlayıb və 1955-ci ildə Kvettdə Ali komanda heyəti kollecini bitirib. Kolleci bitirdikdən sonra Ziya-ul-Hak iki dəfə (*1959 və 1963-cü illərdə*) ABŞ-da təcrübə keçib, burada Livanvort istehkamında Ali komanda heyəti kollecində təlim kursu keçib.



Pakistanlılar öz qəhrəmanlarını sevirlər və hər cümə günü Ziya-ul-Hakın, general Aktarın və digər milli qəhrəmanların qəbirlərini ziyarət edib, Quran oxuyurlar.

Burada Nobel mükafatı laureatı, pakistanlı nəzəriyyəçi fizik **Abdu Salamın** sözləri yadıma düşür: "*Müsəlman dünyası bu gün islama xidmət etdiyinə görə geridə qalmayıb. Bu onun islamdan uzaqlaşdığına görə baş verir*".

Faysal məscidini ziyarət etdikdən sonrakı iş günündə fasilə zamanı gözəl qızıl güllərlə və yabanı çiçəklərlə dolu olan bağa enərkən, Almaniyadan olan rəhbərimizin köməkçisi Məhəmməd Əli mənə yaxınlaşdı.

Məhəmməd Əli gənc (*25 yaşlarında olardı*) idi, ingilis dilini yaxşı bilirdi (*amma urdu tələffüzündə*), çox oxumuş gənc idi, kompüter savadı ilə seçilirdi.

Project PAK-88/002 layihəsində ən fəal idi və saqqallı tələbələrimin təhsil prosesinin təşkilində mənə kömək edirdi. Gülümsəyərək, dedi: - Cənab Abdul, həmişə sizin ixtiyarınızdayam, və əlavə etdi – istənilən zaman müraçiyyət edə bilərsiz.

Və nəhayət, trafik-mühəndisliyi kursuna başlamamışdan əvvəl, demək olar ki, "*Principles of Teletraffic Engineering. ITU, Project PAK-88/002, TSC. Haripur, Pakistan. 1993. 246 p.*" tədris vəsaitini mətbəədə çap etdirmək üçün işi tamamlamışdım [63].

Bundan əlavə, Məhəmməd Əlinin layihənin birinci şəxsi cənab Ziqfred Boçxolzun köməkçisi olduğunu nəzərə alsaq, komandamızın gündəlik həyatda heç bir çətinliyi yox idi. Belə ki ailəm (*Subi, Leyla və Həmid*) bir ay müddətə yanıma gələndə onun bizə olan xüsusi münasibəti özünü göstərdi. O istirahətimiz üçün bizə bütün şəraiti yaratdı, ailəlikcə İslamabadın zooparkına gedəndə video çəkilişlər etdi. Şəxsən mən Pakistanı, təmiz insanlar məskənini çox sevdim.



Axı Pakistan ölkə əhalisinin sayına görə dünyada altıncı, müsəlman əhalisinin çoxluğuna (*hal-hazırda təqribən 180 mln. nəfər*) görə isə İndoneziyadan sonra ikincidir və mənim anladığım

qədər Pakistana az köməklik göstərməyən Səudiyyə Ərəbistan tərəfindən çox sevilir.

Axı Pakistan ölkə əhalisinin sayına görə dünyada altıncı, müsəlman əhalisinin çoxluğuna (*hal-hazırda təqribən 180 mln. nəfər*) görə isə İndoneziyadan sonra ikincidir və mənim anladığım qədər Pakistana az köməklik göstərməyən Səudiyyə Ərəbistan tərəfindən çox sevilir.

Lakin Pakistan xalqının böyük fəxri, şübhəsiz, Məhəmməd Əli Cinnahdır (*Jinnah*). 25 dekabr 1876-cı ildə Karaçidə anadan olub və elə orada da 12 sentyabr 1948-ci ildə vəfat edib. Xalq arasında onu Kaid-i Azam (*Böyük lider*) deyə çağırırlar, Pakistanın müstəqilliyi uğrunda hərəkatın rəhbəri və birinci general-qubernatorudur (*avqust 1947 – sentyabr 1948*).



Türkiyədə Atatürkün portreti müqəddəs olduğu kimi, Məhəmməd Əli Cinnahın portreti də Pakistanda müqəddəsdir.

Hakimiyyətdə kim olursa, olsun, heç kim Pakistanın bu böyük vətəndaşına toxunmur.

Bəli, tam məsuliyyətlə deyirəm ki, tam altı ay ərzində bu gözəl müsəlman ölkəsində yaşayıb, işlədiyimə görə xoşbəxt adamam. Burada, məsələn, ABŞ-da, İndianada hiss etdiyim o gərginlik yoxdur.

Pakistanda hər şey sakit idi. İnsanlar onlarda olanlardan razıdırlar. Daha artığını istəmirlər və həyatlarından məmnundurlar.

Biz tez-tez İslamabadın dağüstü parkına gedirdik.



Məncə, bütün ailə həyatım boyunca Pakistanda, İslamabadda uşaqlarıma verdiyim qədər daha heç harada verə bilməmişəm. Hər axşam Təhsil Mərkəzindən qayıdandan və yarım saatlıq istirahətdən sonra dördümüz də sevinərək şəhərin mərkəzinə gəzməyə çıxırdıq, marketlərə gedirdik, bizə ancaq sevinc və şadlıq gətirən halal zəhmətlə qazanılmış pullara aldıqlarımız uşaqlarımız və Subi üçün sürpriz olurdu.

Allah mənə bu cür imkan verdiyinə görə sənə minnatdaram!

“*Vətənini sevənə,Vətən borc qalmaz*”
Rus məsəli

## 7.3. Salam ölkəm, Salam reallıq

BMT-də bir illik işdən sonra doğma evimə qayıtmağımın sevincini ifadə edə bilmirəm. Qeyd etmək istəyirəm ki, Leninqrad aspiranturasında üç illik təhsildən, İngiltərədə bir illik təcrübədən, Əfqanıstanda ekspert qismində yarım illik ilk missiyamdan, indi isə Liviya və Pakistanda keçirdiyim bir ildən sonra başa düşdüm ki, vətənsiz yaşaya bilmirəm, vətən həsrəti məni həmeşə boğurdu.

Mənə bu günə kimi deyirlər, ay Abdul sən bu qədər xarici dövlətlərdə olmusan, nə üçün oralarda qalmamısan?

Mən isə deyirəm, əgər doğma torpaq səni çəkmirsə, onda sən ümumiyyətlə kimə lazımsan, özü də xaricdə! Vətəndən uzaqlaşmamasının yeganə səbəbini vətənimə olan məhəbbətdə görürəm, bax ona görə mənin üçün vətəndə daxma da əsl cənnətdir.

Mənə elə gəlir ki, Məhəmməd Füzulinin İraqda, İmadəddin Nəsiminin şərqdə (*Suriyada*), Məhəmmədəmin Rəsulzadənin Avropada və hətta Nikolay Baybakovun Rusiyada həyatları həmişə bir şeylə müşayiət edilib: “*Mənim Vətənim – Azərbaycandır*”.

Bəlkə ona görə mən İslamabaddan Cenevrəyə debrifinqə qayıdanda nə Mrs. Ines Haran (*Uruqvaydan*), nə Mrs. Julia Dvorak (*Çexoslovakiyadan*) məni yeni 6 aylıq müddətə ITU xətti ilə BMT-nin eksperti qismində Filippində dördüncü missiyamı yerinə yetirmək üçün dilə tuta bilmədilər.

Hiss etdim ki, xoşbəxtlik pulda deyil, vətən abu-havası mənim üçün daha vacibdir və Filippinə uçmadım, missiyadan imtina etdim.

Azərbaycanda isə (*1993-95ci illərdə*) çox çətin zamanlar idi, çox şey çatışmırdı, qeyri-müəyyənlik çox idi, çoxlarının yaşamağa imkanı yox idi və bəlkə ona görə mən doğmalarımla olmalı idim.

Bir şeyi deyə bilərəm, 1993- çi ildə, ayda 35 ABŞ dollar maaşı olan AzTU-nun dosenti öz ailəsini saxlaya bilməzdi.

Bu zaman (*1993-95 çi illərdə*) bütün Bakı mənə 1985/86-cı illərin Kabil günlərini xatırladırdı, o vaxtlar, mənə elə gəlir, hamı yalnız piştaxtanın arxasında dayanmağa imkan verən xırda alverlə məşğul idi. Görünür müharibə yoxsulluğu gətirərək, alverçiləri çoxaldır. Məni də buna çəkirdilər, lakin özümü dəyişmədim.

MDB-nin digər ölkələrində olduğu kimi, Azərbaycanda da Rusiya kimi челночный бизнес ilə məşhur idi. Челнок бизнесçiləri fədakarcasına, özlərinə yazıqları gəlmədən, nəsə alıb və nəsə satmaq naminə şərqin (*İran və Türkiyədən başlayıb, ta Hindistan və Çinə qədər*) və Avropanın bütün ölkələrini dolaşırdı. Mən hələ Bakımızın bütün yeraltı keçidlərini, metro stansiyalarını və küçələrini basmış antisanitariyanın dəhşətindən danışmıram.

Siyasi cəmiyyət hakimiyyəti tutmaqla məşğul idi, xalqa isə sabaha bir parça çörək tapmaq lazım idi.

Bu o zamanın reallığı idi, kimsə bulanıq suda iri və hətta çox iri balıq tuturdu. Hərdən mənə elə gəlirdi ki, bunun sonu olmayacaq və xalq, Allah eləməmiş, canavarların quluna çevriləcək. Azərbaycan təbii ehtiyatları olan zəngin ölkə ikən, xalqın imkanlardan məhrum qalıb, yalnız alqı-satqı ilə məşğul olması məni heyrətləndirirdi.

Biz, hələ dünən ictimai cəhətdən bərabər hüquqlu cəmiyyətdə yaşayanlar bir anda yeni vəhşi kapitalist qəbiləsinə çevrilirdik.

Görünür biz bütün sosial bərabərlik qanunlarını kobudcasına pozduq, unutduq ki, hər bir vətəndaşın iş yeri və layiqli əmək haqqı olmalıdır (*Fridrix Engelsin məsləhət bildiyi kimi*).

Amma yaqin ki, Azərbaycanın tarixində ən biabırçı dövr məhz 1993-cü ili hesab etmək olar (**http://ru.wikipedia.org/wiki/**):

- 3 aprel – ermənilər Kəlbəcər şəhərini aldılar.
- 27 iyun – ermənilər Mardakert şəhərini aldılar.
- 23 iyul – ermənilər Ağdamı işğal etdilər.
- 22 avqust – ermənilər Füzuli şəhərini işğal etdilər.
- 23-25 avqust – ermənilər Cəbrayılın mərkəzinə soxuldular.
- 31 avqust - 1 sentyabr – ermənilər Qubadlını tutdular.
- 23-24 oktyabr – ermənilər Horadizi aldılar.

- 1 noyabr – ermənilər Zəngilanı aldılar.

Həyat isə öz axarı ilə gedirdi, camaat öz doğmalarını (*şəhidləri*) basdırır, eyni zamanda uşaqlarını evləndirirdi. Azərbaycanda görünür xalq arasında əbəs yerə deyilmir ki: "*Xeyirlə şər qardaşdır*".

Mən səhər tezdən təyyərə ilə Bakıya enib, evdə məni ura deyərək, qarşıladılar, dördümüz də qucaqlaşaraq sevindik.

Oğlum Həmidin on yaşı vardı, qucağıma atılıb, eyvandan mənə həyətdə dayanan Jiquli-01 maşınını göstərdi və sevinərək, dedi: - Ata, Aydın əmi verdiyin pulla bizə Jiquli aldı (*Subi gələndə maaşın bir hissəsini ona verərək, xahiş etmişdim ki, kiçik qardaşım bizə Niva avtomobilini alsın*).

Subidən soruşdum ki, axı Jiquli deyil, Niva xahiş etmişdim, özü də qırmızı rəngdə. O çiyinlərini çəkdi. Mə isə gülərək, belədirsə, onda Aydın əmi bu maşını özü sürsün, biz Jiqulini ona bağışlayarıq.

Gündüz saat 11-də qardaşım Aydın bizə gəldi və Həmid sevincək ona xəbər verdi ki, atam bu Jiquli maşınını ona bağışlayır.

Məhz gəldiyim gün Azərbaycanın Xarici İşlər Nazirliyindən (*Gənclər Meydanı – 3 ünvanında yerləşən*) zəng vurub, dedilər ki, nazir müavini Mahmud Məmməd-Quliyev (*prezident H.Əliyevin kürəkəni*) məni görmək istəyir.

Ertəsi gün, gündüz saat on birdə Mahmud müəllimin qəbulunda idim. Söhbət uzun və müxtəlif idi, bütün proseslərlə maraqlanırdı, hansıların ki nəticəsində Azərbaycanın Rabitə naziri olmuşdum, AXC hərəkatında olmuşammı, niyə 17 iyul 1992-ci ildə Prezident Apparatında məninlə o cür davrandılar və s.

Mahmud Məmməd-Quliyev: Düzünü desəm, baxmayaraq ki, Heydər Əliyeviç Əliyev Azərbaycanın rabitə sahəsinin işindən razı deyil, o dövrün həqiqətlərini axtarıb tapmaq istəyir və s. rakursdan söhbət gedirdi, görüşün səbəbləri mənə o qədər də aydın deyildi.

Axırda o bu şeylər haqqında iki səhifədə yazıb, sabah ona gətirməyimi xahiş etdi.

Əgər düzünü desəm, mənə bütün bunlar xoş gəlmədi, amma növbəti gün bu iki səhifə ilə onun yanına getməli oldum.

Mahmud Məmməd-Quliyev diqqətlə oxuyub, dedi:

- Abdul müəllim, bu gün axşam düz saat səkkizdə bu yazı Heydər Əliyeviçin qarşısında olacaq, tezliklə özüm sizə zəng vuracağam.

Bir-birimizə ev telefonu nömrələrimizi verdik. İki həftədən sonra yaxşı əhval-ruhiyyədə mənə zəng vurub, dedi ki, Heydər Əliyeviç oxudu və bu işi nəzarətə götürdü.

Onun zəngindən sonra qarışıqlıq başladı. Elə bil kimsə bizi dinləyirdi, bəzi şayiələr yayıldı, guya Sirus Abbasbəylini işdən çıxarırlar, bundan əlavə, bu söhbətdən sonrakı gün, məni və oğlum Həmidi giriş qapısında Rabitə nazirinin müavini Nadir Əhmədov qucaqlayaraq, qarşıladı (*əvvəldə qeyd etdiyim kimi, biz Rabitə nazirliyinin həyətindəki rabitəçilər evində yaşayırdıq...*).

O öpməyə başladı, üzr istəyirdi ki, onda (*bir il öncə*) məni başa düşməyib, mənimlə təklikdə görüşməyi çox istəyir və s.

Bu görüşdən sonra və təxminən 1997-ci ilə qədər Nadir Əhmədov məndən yapışqan kimi əl çəkmədi. O qarşısına məqsəd qoymuşdu – Sirusu yıxıb, onun yerinə keçsin. Mənə yüz dəfə, təkrar-təkrar deyirdi:

*- Abdul müəllim, ədalət uğrunda mübarizə aparmalıyıq, biz birlikdə olacağıq. Əgər siz nazir olsanız, onda birinci müavininiz mən, əgər mən olsam, onda siz mənim birinci müavinim olacaqsınız. Bu bizim aramızda kişi söhbətidir və bunu edəcəyik.*

1993-cü ildə dekabrın sonunda Nizami (*Torqovaya*) küçəsində təsadüfən Mahmud Məmməd-Quliyevlə üz-üzə gəldik. Deyindi ki, yuxarıda hər şey o qədər mürəkkəbdir ki, heç nə anlamırsan.

Gülümsəyərək, cavab verdim: - Mahmud müəllim, hər şey yaxşıdır, sizdən heç nə gözləmirəm də, axı siz məni çağırmışdınız.

Bir az qızardı, üzr istəyib, getdi...

Bu prosesi geridə qoyduğuma görə, məmnun idim, baxmayaraq ki, mənə anonim zəng də gəlmişdi ki, məktub həqiqətən nəzarətdə idi və görünür, bu məktubun surətindən istifadə edib, Sirusu, yumşaq desək, bir neçə dəfə "*sağıblar*" da.

Bütün bunları bir kənara qoyub, yaxşısı budur, 20 sentyabr 1993-cü ilə qayıdaq, qardaşım Aydın və əlbəttə həyat yoldaşım məni

ailəm üçün maşın almağa itələdikləri vaxta. Aydın Göyçaydan dostları ilə gəlmişdi və təkid etdi ki, 3-cü mikrorayona gedib, ailə üçün Volqa-QAZ-31-029 alaq.

Subi söylədi ki, nə vaxtsa avtomobil almaq lazımdır da. Üç saatdan sonra bizim Motya (*onu mənim Subim belə adlandırdı*) evimizin həyətində (*Azərbaycan prospekti - 33*) idi, bu gün 2014 ci ildə artıq 4-cü maşın dəyişmişik. Əlhəmdülillah!

Amma mən maşın sürmürdüm, ancaq 1983-cü ildə sürücülük kurslarında, sürücülük vəsiqəsi alarkən (*onsuz məni İngiltərəyə təcrübə keçməyə buraxmazdılar*).

Sürməkdə əmin olmaq üçün Rabitə nazirliyindəki sürücü (*nazir olarkən mənim sürücüm idi*) Dadaş-zadə Əhməd kişi ilə danışdım ki, gəlib mənə sürməyi öyrənməkdə kömək etsin.

Bir həftədən sonra səhər saat 6 radələrində o, həyətdə idi. Əvvəlcə maşının nömrəsini - *AZ-BB-10-908* bərkitdi, maşını işə salıb, qarajımızdan çıxardı, sonra mənimlə şəhərin mərkəzinə gedib, bir neçə dövr etdi, maşını saxlayıb, sükan arxasına keçməyimi istədi.

Beləliklə ilk dəfə Volqa-QAZ-31-029-u sürməyə başladım, onunla hardasa 6 kilometr gedib, həyətimizə girdim.

O mənə necə qaraja girib, parklanmağı izah etdi.

Əhməd sürmək üzrə mənə bəzi tövsiyələrini verdi:

- Çalışın yolun sağ tərəfi ilə sürəsiniz. Yarım il şəhərdə saatda 60 km-dən çox olmayan sürəti saxlayın, həyətə saatda 20 km-dən az sürətlə girin, şəhərdə hərəkət zamanı vaxtında döndəricini yandırın. Hərəkət zolağını dəyişməyin, əgər yola çıxmısınızsa (*məsələn, Göyçaya*), saatda 90 km sürətlə, bir ildən sonra isə saatda 120 km-ə yaxın sürətlə və s. hərəkət edə bilərsiniz.

Allah Əhməd kişiyə rəhmət eləsin, bu günə qədər onun öyrətdiklərini unutmamağa çalışıram.

Bizim Motyada Göyçaya ilk səfərimiz noyabrda baş tutdu. Vaqiflə Elladagildə qaldıq, səfərdən qayıtmağım münasibətilə qurban kəsdik, hər şey yaxşı idi.

Anam, Türfə ilə kiçik qardaşım Aydın barədə söhbətimiz oldu. Şikayət edirdi ki, o heç sözə baxmır, bütün vaxtını dostları ilə

keçirir, zabit kimi onu həmişə hərbi komissarlığa çağırırlar, çox içir və s. Anamın yanından Elladagilə gələndə Aydın barədə danışmağa başladıq ki, artıq 32 yaşı var, həqiqətən onu evləndirmək lazımdır, yavaşca dedilər ki, yaxşı olardı anasının kəndindən olan bacısı Əsli xalanın qızını – Mehribanı alsınlar.

Bu məlumatla anamla məsləhətləşmək üçün atam evinə getdik. Anam çox şad oldu, ancaq soruşdu ki, toyu və cehizi hansı pulla edəcəyik, axı Aydın bütün maaşını dostları ilə yeyib-içməyə xərcləyir.

Subi söylədi ki, bütün qızıl və toy mərasimi, o cümlədən Aydının toy kostyumu Abdul ilə bizdəndir.

Ertəsi gün anamı, qardaşlarımı və bacılarımı Elladagilə toplayıb, son qərarı verdik.

Bacılarımdan xahiş etdik "*kəşfiyyat*" işlərini aparsınlar, Subi və uşaqlarla isə Bakıya qayıtdıq ki, toy üçün bütün lazım olanları alaq. Bəli, yeznəm Vaqif, anam, bacılarım Ellada və Nailə sayəsində iki həftədən sonra bir neçə maşınla Mollahacılı kəndinə Mehribanı Aydına istəməyə getdik.

Qərara aldıq ki, kişi toyunu tez edək və tezliklə də gəlini Göyçaya gətirək. Toy çox gözəl keçdi (*axı mənim toyum adi, musiqisiz keçmişdi*), hər şey yüksək səviyyədə idi. Bütün bunlfrın hamısına biz Subi ilə üç min ABŞ dollar pul xərclədik və heyfsilənmədik də, bizim üçün əsas gənclərin xoşbəxtliyi idi.

Heç bir ay keçmədi, anam Göyçaydan telefonla zəng vurub, gileyləndi ki, Aydın işsizdir, onun orduya çağırılması məsələsini də həll etmək lazımdır, həyat yoldaşını və gələcək uşaqlarını nə ilə saxlayacaq və s. Beləliklə "*Jiqulidən*" və Aydının evlənməsindən sonra üçüncü məsələ qalxdı – onun işlə təmin edilməsi.

Və bir dəfə Bakıda evimizin qarşısındakı çörək mağazasından qayıdarkən Səbail rayonun icra komitəsindən köhnə tanışım Klimova Yelena Fyodorovna ilə rastlaşdım.

İş orasındadır ki, onun kiçik qızı Tanya Azərbaycan Texniki Universitetində bizim ixtisas üzrə oxuyurdu. Görüşümüzə çox

sevindi, şikayətləndi ki, Tanya pis oxuyur, universitetin müəllimləri ya iki qoyurlar, ya da qızından əl çəkmirdilər və s.

O, yalvararaq, məndən Tanyaya kəsirlərini verməsində kömək etməyimi xahiş etdi. On illik tanışlığımızı nəzərə alsaq, onun bizim kafedramız üzrə olan bütün problemlərini asanlıqla həll etdim və iki həftədən sonra Yelena Fyodorovna əlində güllərlə Azərbaycan prospekti – 33-də yerləşən qapımızın qarşısında dayanmışdı.

- Oy, Abdul müəllim, ailəmizə necə kömək oldunuz, o universiteti atmaq istəyirdi, indi isə ona yaxşı münasibət göstərməyə başlayıblar. O deyir ki, Abdul müəllim məni görən kimi yaxınlaşıb, hər şeyin qaydasında olduğu ilə maraqlanır, anama salam göndərir və s.

Gülləri götürmədim və dedim:

- Hesab edin, o mənim qızımdır və, ümumiyyətlə, kafedranın iclasında elan etdim ki, mənim qonşumdur, anası da mənə bacı kimidir, artıq narahat olmayın.

Daha bir ay keçdi, bir dəfə universitetdən qayıdanda birdən Yelena Fyodorovnanın səsini eşitdim:

- Abdul müəllim, niyə fikrə getmisiniz?

Mən isə düşünürdüm ki, Aydının iki məsələsini necə həll edim: ordu və işlə təminat. Diqqətsizliyimə görə Yelena Fyodorovnadan üzr istəyərək, ona qardaşım Aydının problemlərindən danışdım.

O, məni dinləyib, başını yelləyərək, dedi:

- Deməli, məni bacınız bilib, problemlərimi həll edirsiniz, öz problemlərinizdən isə mənə danışmırsınız.

- Axı siz rayon icra komitəsindəsiniz, orada nəyi həll etmək olar?

- Yelena Fyodorovna (*Gülümsəyərək*) Abdul müəllim, nə rayon icra komitəsi, mən artıq iki ildir Sərhəd qoşunlarındayam, baxın, sizin evin qarşınızdakı binada işləyirəm.

Təəccüblə evimizin qarşındakı (*keçmiş KQB*) binasına baxdım.

- Bəli, bundan əlavə, bizim komandan v.i.e. Həmidov Rəhim Bağıroviç sizi yaxşı tanıyır, onunla danışa bilərəm.

Düz bir həftədən sonra Həmidov R.B. məni qəbul edib, dinlədi, bildi ki, Aydın leytenantdır. Üç aydan sonra Aydın Gəncə Sərhəd qoşunlarında aeroportda təsərrüfat üzrə müavin işləyirdi.

Beləliklə bir anda iki məsələ həll olundu: Aydın – zabitdir və daimi iş yeri var.

Qoy Allah həmişə Klimova Yelena Fyodorovnaya və Rəhim Bağıroviç Həmidova bu əvəzsiz yardıma görə həmeşə kömək olsun.

Beləliklə, Allahın köməyilə, Aydına maşın aldıq, evləndirdik, işə düzəltdik, indi o mayordur, bir ildən sonra isə inşaallah təqaüdə çıxıb, Göyçaya, ata evinə qayıdacaq.

Amma onun həyatında daha əhəmiyyətli bir hadisə olub. Biz 2015-cı ildə (*onun qardaş va bacıları*) rəhmətlik atam Həmidullanın hələ 1947-ci ildə tikdiyi köhnə, gil evin yerində yeni, daş evin tikintisini başa çatdırdıq.

Bu işdə əlbəttə, bacım Elladanın həyat yoldaşı, bizim əziz Vaqifə xüsusi təşəkkür edirik, üç il ərzində, 2012-2015-cü illərdə bünövrədən başlayaraq, divarların hörülməsi, dam örtüyü, pəncərə və qapıların qoyulması işlərinə qədər Aydının ailəsi üçün ata evimizin tikintisini o idarə edirdi.

Doğrudan da davamlı, beletajı, dörd otağı, bütün şəraiti, mətbəx və ayrıca santexnika qovşaqları (*duş və tualet*) olan ev alındı. İşıqlı, 25 kv.m. sahəsi olan qonaq otağı var. Allah Vaqifə və evin tikilməsində bütün əməyi olanlara kömək olsun!

Bu gün insanlar bizim küçədən keçərkən, yenidən tikilmiş evə baxaraq deyirlər, Həmidulla kiçinin uşaqları atalarının adını əbədiləşdirdilər, gil evin yerinə yaxşı, möhkəm ev tikdilər!

Lakin bu, kiçik qardaşımın ailəsi üçün adi evdir.

*"Dəyərlər dil ilə deyil, əməl ilə təsdiqlənir"*
Jan Pol (1763-1825)

## 7.4. Zəkatların ən yaxşısı kitab dərc edib, hədiyyə etməkdir.

Bir dəfə İslamabadda işləyərkən, şənbə günü, iki nəfər mənim qapımı döydü, ikisi də saqqallı idi (*onlara bizdə vahhabistlər deyirlər*), özlərini Şeyx Mənsur və Abdel Qasım kimi təqdim etdilər.

Onları evin ikinci mərtəbəsindəki geniş eyvana (*hardasa 120 kv.m.*) dəvət etdim və evin xidmətçilərindən südlə çay üçün lazım olanları və peçenye gətirmələrini xahiş etdim.

Mənə elə gəldi ki, onlardan birini (*əlində bağlaması olan*) çalışdığımız Haripur-Xəzərin Tədris Mərkəzində görmüşəm.

Ona görə də Şeyxdən soruşdum ki, əvvəllər görüşməmişik.

O gülümsəyərək dedi:

- Bəli, bir neçə dəfə, siz Tədris Mərkəzinin bufetinə girib, ətli kökə və bir şüşə sprayt götürəndə.

Hər üçümüz ürəkdən güldük. Bu zaman bizim üçün eyvandakı masaya südlə çay və müxtəlif cür şirniyyat və konfet gətirdilər. Söhbəti Şeyx Mənsur açdı:

- Mənim babam Mənsur əslən Kazandandır, biz tatarıq, yəni türklərik. Doktor Abdul Qəhrəmanzadə, dostum Abdel Qasımla sizin yanınıza bir müsəlman kimi gəlmişik. Biz sizin Tədris Mərkəzinin həyətində işləyirik və bütün həyatımızı İslama həsr etmişik. Biz fanatik deyilik, amma Məhəmməd peyğəmbərimizin pərəstişkarıyıq və həyatımızı onun öyrətdiklərinin bütün dünyada yayılmasına həsr etmişik.

Dostumla iyirmidən çox müsəlman ölkəsində olmuşuq, oradakı xalqların çətinliklərini anlamağa və onlara Allah yolunu seçməkdə kömək olmağa çalışırıq.

Bilirsiniz, Quranda deyilir: "*İnamda məcburiyyət yoxdur*". Ona görə də məqsədimiz – Quranın bütün 114 surəsini düzgün şərh etməkdir ki, insanlar peyğəmbərin sözlərini mənimsəsinlər.

Biz ikimiz də Qahirənin Ali Ruhani Akademiyasını bitirmişik. Mən artıq dissertasiya müdafiə etmişəm və Şeyxəm, gələn yazda isə dostum Abdel Qasım da Şeyx Qasım olacaq.

Bilirik ki, siz hər cümə günü Şah Faysal məscidinə olursuz, Layihə üzrə komandanızda yeganə adamsınız ki, spirtli içki içmir, ibadət edir və küçədə sədəqə verirsiniz. Amma dindar deyilsiniz, telekommunikasiya üzrə alimsiniz və dinə düşməmisiniz. Bax ona görə də sizin yanınıza tanış olmağa, söhbət etməyə gəlmişik, axı siz burada qərb üslubunda olan pivə barlarında heç vaxt olmamısınız, vaxtınızın çox hissəsini Layihənin yerinə yetirilməsinə sərf edirsiniz. Biz bunları bilərək, sadəcə sizə qonaq gəldik. Əgər bizdən xoşunuz gəlmirsə, onda incimədən buradan gedərik.

Onları sakitləşdirib, söylədim ki, mən tanışlığımıza şadam, onların missioner fəaliyyətini bölüşürəm, həqiqətən vaxtımın çox hissəsini Layihəyə həsr edirəm. Etiraf etdim ki, ingilis dilini onlardan zəif bilirəm və bu da təbiidir, belə ki, Pakistanın ikinci dövlət dili – ingilis dilidir, əmin olduğumu bildirdim ki, zamanla ölkə həm texniki, həm ictimai tərəqqi hesabına böyük qazanc əldə edəcək ki, bunda da ingilis dili biliklərinin rolu az olmayacaq.

Şeyx Mənsur dedi:

- Bu sözlərə görə çox sağ olun, doktor Abdul, hansısa nəzəriyyələrlə sizi bezdirməyəcəyik, sizin öz elmi yolunuz var – telekommunikasiya, biz ancaq istəyirik ki, siz Pakistan haqqında çox şey biləsiniz.

Şeyxdən soruşdum ki, Pakistanda tatar çoxdurmu?

- Nə danışırsınız? Bəlkə böyük Moqolların vaxtında, indi yox. Mənim ailəmin ancaq üçüncü nəsli Kazandan Buxarya, oradan Kabilə və sonda Kabildən İslamabada (*Pakistana*) gəlib çıxıb. Babam Şeyx Mənsur Kazanın müftisi olub, lakin 1917-ci ildə Sovet inqilabı başlayarkən, ailəsi ilə birgə (*iki uşağı, o cümlədən mənim bir yaşlı atamla*) Buxaraya, əmir Səid Əlimxanın yanına köçüb və oranın baş müftisi olub.

1917-ci ildə Rusiyadakı inqilabdan sonra Səid Əlimxan protektoratdan azad olunmaq haqqında elan etdi, amma bir ildən

sonra Russiyanın yeni hökuməti ilə sülh müqaviləsi imzalayıb, ordusunu gücləndirməyə davam etdi. Lakin 2 sentyabr 1920-ci ildə Frunze Buxaranı alaraq, onu Buxara Xalq Respublikası elan etdi.

Daha bir uğursuz hakimiyyəti qaytarmaq cəhdindən sonra Səid Əlimxan Əfqanıstanda gizlənib, orada ömrünün axırına, 1943-cü ilə qədər fəxri məhbus statusu ilə yaşadı. Buxara müntəzəm ordusunun qalıqlarından təxminən 300 nəfər əmirin ardınca getdi. Onlardan 200 nəfər buxaralı və təxminən 100 nəfər əfqan Aslam xanın başçılığı altında idi. Buxaranın axırıncı əmiri Səid Əlimxan təqribən 150 mlyon qızıl rubl dəyərində olan qızıl və daş qaşlarını götürüb aparmalı idi. Bu 10 ton qızılı daşımaq üçün yüzə qədər at tələb olunurdu. Əmir sadiq adamları vasitəsilə Britaniya hökumətindən onun qızıl xəzinəsini öz müdafiəsi altına almasını xahiş etdi. İngilislər imtina etdilər. Onda əmir xəzinəsini öz torpaqlarında, dağlarda gizlətmək qərarına gəldi.

Şeyx Mənsurun sözlərinə görə, babasınn danışdıqlarına əsasən, həmin gün (*2 sentyabr 1920 ildə*) Buxaranın küçələri ilə qanlı çay axırdı, bu, M.Frunze başda olmaqla, rus komissarlarına boyun əymək istəməyən Buxaranın beş min müsəlmanının qanı idi.

Həmin vaxtlarda babam Şeyx Mənsur Kabilə, Buxara əmiri Səid Əlimxanın vəfatından sonra isə Pakistana köçüb.

Əfqanıstanın əmiri (*şah*) Əmənulla sürgün hökmdara ehtiramını bildirərək, Kabil yaxınlığında yerləşən Kalai Fatu kəndində ona iqamətgah ayırdı. Keçmiş əmirlə birgə burada onun 200-ə qədər yaxın adamları yerləşdi. Əfqanıstanın əmiri 17 may 1921-ci ildə Səid Əlimxanın gəlişi münasibətilə ziyafət verdi, orada mənim babam da iştirak edirdi.

Biz villanın eyvanında səmimi söhbət zamanı keçirdiyimiz dörd saat hiss edilmədən keçdi. Daha çox layihəmiz, Tədris Mərkəzi üçün nəşrə hazırlanan kitab, ümumiyyətlə telekommunikasiya haqqında danışırdım.

Sonda Şeyx Mənsur söylədi ki, yanıma gələndə mənə Pakistanın ən güclü Dini Akademiyası yerləşən Qaraçidə İslam dini üzrə üç aylıq kurs təklif etmək istəyirdi. Lakin bu dörd saatlıq

söhbətdən sonra başa düşdü ki, siz Allahı sevirsiz, ancaq daha çox elmə xidmət etmək istəyirəm və ona görə də sizə üç məsləhətim var:

1. Həmişə yola çıxanda (*piyada, minik və ya təyyarə ilə*) 105-ci surəni, *AL-FİL* oxuyun;
2. Sizin üçün ən yaxşı zəkat kitab nəşri və vətəninizdə onların pulsuz yayılmasıdır;
3. Peyğəmbərimiz haqqında və Quranın surələrinin izahlarını daha çox oxumağa çalışın, bu sizi həmişə sakitləşdirəcək.

Sonra əlində tutduğu bağlamasını açıb, qəşəng, qəhvəyi rəngdə, rus dilində QURAN kitabını çıxardıb, üç dəfə öpüb, mənə tərəf uzadaraq, dedi:

- Əgər bilsəm ki, müsəlman qardaşlarımdan biri bu kitab sayəsində QURANIN 114 surəsindən 40-a qədərini mənimsəyib, xoşbəxt olaram. Özünüzü məcbur etməyin, sadəcə Quran sizi özünə çəkəndə götürün və QURANIN bu və ya digər surələrinin yaranması tarixindən ilahiyyatçıların dediklərini oxuyun.

Sonra ikisi də qalxıb, məni qucaqladılar, vidalaşıb, İslamabaddan 90 km aralı yerləşən Haripur-Xəzərə getdilər.

Dogrusu mənə hələ də xoşdur ki, dünyada əvəzi və şiddət olmadan özünü islama və Məhəmməd peyğəmbərin irsinə xidmətə həsr edən insanlar var (*sal aleykumə salam*).

Bütün bunları yadda saxlayıb, xarici səfərlərdən qayıtdıqdan sonra telekommunikasiyada ən müasir rəqəmsal texnologiya üzrə Azərbaycanın Təhsil nazirliyi tərəfindən bəyənilmiş dərs vəsaitinin hazırlyaraq, onu nəşr etdirilməsi işinə başladım.

Kitab (*dərs vəsaiti*), mahiyyətcə, doğma azərbaycan dilində ilk dərs vəsaiti idi, kirilcə (*yəni rus əlifbası ilə*) yığılmışdı.

Bürokratik maneələrə və "*Maarif*" nəşriyyatında müxtəlif ləngitmələrə görə, bu kitabı (*şəkillərlə 208 səhifədə*) 1000 nüsxədə ancaq 1995-ci ilin axırında buraxa bildim.

Kitabları 1996-cı ilin martında aldım, kafedrada təqdimatını isə aprelin 5-də, öz 50 illiyimdə etdim.

Demək istəyirəm ki, bu kitabın 800-ə yaxın nüsxəsini Bakı şəhərinin, o cümlədən Azərbaycan Elmlər Akademiyasının bütün

kitabxanalarına, qalan 200 nüsxəsini isə kafedramızın 3-cü və 4-cü kurs tələbələrinə bağışladım.

Bu dərs vəsaitindən sonra, 1995-ci ildən 2012-ci ilə qədər bütün texniki və təhsil universitetlərinə və Bakı və Göyçay şəhərlərinin kitabxanalarına payladığım aşağıdakı monoqrafiya və dərs vəsaitlərini buraxdım:

18. Qəhrəmanzadə A.H. Rəqəmli kommutasiya sistemləri. Dərs vəsaiti. Bakı, "*Maarif*", 1995 il. 208 s. (*azərb. dilində*).
19. Qəhrəmanzadə A.H. Monoqrafiya. Telekommunikasiya şəbəkələrinin proqnozlaşdırılması və layihələndirilməsi. Bakı, "*Bakı Universiteti*" nəşriyyatı, 1998 il. 242 s.
20. Qəhrəmanzadə A.H. Monoqrafiya. Telekommunikasiya şəbəkələrinin texniki istismarı. Bakı. 1998 il, "*Çaşıoğlu*" nəşriyyatı, 100 s.
21. Qəhrəmanzadə A.H. Monoqrafiya. Rəqəmli kommutasiyanın əsasları (*azərb. dili*), Bakı, "*Çaşıoğlu*" nəşr., 1999 il, 132 s.
22. Qəhrəmanzadə A.H. Monoqrafiya. Rəqəmli kommutasiya sistemlərinin əsasları. Bakı, "*Elm*" nəşr., 2001 il. 259 s.
23. Qəhrəmanzadə A.H. Kommutasiya sistemlərinin texniki istismarı və layihələndirilməsi (*Dərs vəsaiti*). AzTU-nun nəşr-tı, Bakı, 2002 il, 255 s.
24. Qəhrəmanzadə A.H. Monoqrafiya. Telekommunikasiyada menecmentin əsasları. "*Sabah*" nəşr., Bakı, 2002 il, 243 s.
25. Qəhrəmanzadə A.H. Monoqrafiya. Azərbaycanın infokommunikasiyasının inkişafının əsasları. Bakı, "*Elm*", 2003 il, 191 s.
26. Qəhrəmanzadə A.H. Monoqrafiya. Rəqəmli kommutasiya sistemləri və şəbəkələri. Bakı, "*Elm*", 2004 il, 475 s.
27. Qəhrəmanzadə A.H. Monoqrafiya. İnfokommunikasiyalarda menecment və tənzimlənmə. Bakı, "*Elm*", 2006 il, 436 s.
28. Qəhrəmanzadə A.H. Monoqrafiya. Telekommunikasiyanın tənzimlənməsinin tətbiqi aspektləri. Bakı, "*Elm*", 2009 il, 353 s.

29. Qəhrəmanzadə A.H. Monoqrafiya. Azərbaycan telekommunikasiyasının inkişafının mərhələləri. Bakı, “*Elm*”, 2011 il. 726 s.

Bütün bu illər ərzində Şeyx Mənsurun sözlərini xatırlayıram, mənim üçün ən yaxşı zəkat kitabların nəşri və vətənimdə onların havayı paylanmasıdır. Bu nəsihəti məmnuniyyətlə yerinə yetirirəm.

Düşünürəm nə olar, bizim Azərbaycanda da həqiqi zəkat yer tapa, və bizim hər bir vətəndaşımız, öz illik gəlirinin qırxdan bir hissəsini, müsalman tək xalqın xeyrinə sədəqə edə. Onda bu təmiz gəlirlə məscidlərimiz istənilən azərbaycanlını islam ölkələrində olduğu kimi, şəriətin qanunları ilə bərabər hüquqlarla, kiməsə üstünlük verilmədən basdırar (*lap elə Əfqanistanda olduqu kimi*).

Burada Mirzə Fətəli Axundovun öz müəllimi, Mirzə Şəfi ilə söhbətini xatırlatmaq yerinə düşərdi: “*Bir dəfə o (Mirzə Şəfi) məndən soruşdu: “Elmi öyrənməkdə məqsədin nədir?” Cavab verdim ki, molla olmaq istəyirəm. Onda o mənə dedi: “Məgər sən də ikiüzlü və şarlatan olmaq istəyirsən?... Həyatını əbəs yerə bu nadanlığa sərf etmə. Özünə başqa məşğuliyyət tap*”.

Mirzə Fətəli Axundov 30 iyun 1812-ci ildə Şəkidə axund ailəsində anadan olub və 26 fevral 1878-ci ildə vəfat edib. O hesab edirdi ki, adətən bütün dinlər “*cəfəngiyat və uydurma*”dır, maarifin, elmin və mədəniyyətin inkişafında və yayılmasında əsas maneədir. Mirzə Fətəli Axundovun ədəbi istedadı dramaturgiyada özünü daha güclü biruzə etdi. Tiflisdə M.F.Axundov Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Qasım bəy Zakir kimi yazıçılarla tanış olur.

1860–1870-ci illərdə M.F.Axundovu ərəb əlifbasının türk dillərinin fonetik xüsusiyyətlərinə uyğunlaşmış latın əlifbası ilə əvəz fikri məşğul edirdi, bu da yalnız qısa bir müddətə (*1927-ci ildən 1939-cu ilə qədər*) və nəhayət 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra həyata keçirildi.

Axundov Mirzə Fətəli – azərbaycan realist ədəbiyyatının banisidir, Azərbaycanın filosof-materialisti və ictimai xadimidir.

M.F.Axundov xürafatı, avamlığı və mövhümatı, ikiüzlülüyü və riyakarlığı ələ salırdı, məmur bürokratiyasına, rüşvətxorluğa və

hakimiyyətdə olanların tamahkarlığına, satılmış mühakimə üsuluna qarşı idi, halal zəhməti, yüksək mənəvi keyfiyyətləri və dünyəvi maariflənməni dəstəkləyirdi.

Məgər M.F.Axundovun qiymətli əsərləri bütün müstəqil Azərbaycan üçün ən yaxşı zəkat deyilmi?!

Axı M.F.Axundov (*Mirzə Fətəli Məhəmmədtağı oğlu Axundov*) əvəzolunmaz azərbaycan yazıçısı – maarifçisi, filosof-materialisti və ictimai xadimidir. O azərbaycan dramaturgiyasının təşəbbüşkarıdır, azərbaycan ədəbiyyatında ədəbi tənqidin banisidir, “*müsəlman Molyeri*” titulu ilə çağırılır.

Mirzə Fətəli Axundovun əsas ədəbi istedadı hər şeydən əvvəl, dramaturgiyada özünü daha güclü biruzə vermişdir.

1850-ci ildən 1857-ci ilə qədər olan müddətdə o, 6 komediya və bir povest yaratmışdır ki, onlarda XIX əsrin birinci yarısındakı Azərbaycanımızın həyatı, ölkənin feodal-patriarxal cəmiyyətinin kəskin zülmkarlığı, iradəsizliyi, ehkamçılığı ilə yaşayış və adətləri realist əksini tapmışdır.

*"İşçilərin yeni bir şey öyrənməsində beş addım:
hazırlıq, izah, nümayiş, müşahidə və nəzarət"*
Bryus Barton (1886 - 1967)

## 7.5. Telekommunikasiya Mərkəzi üzrə TASİS layihəsi.

1998-ci ilin martın ortasında, axşam saat beşdə evə telefonla zəng vurub, söylədilər ki, Azərbaycan Texniki Universitetinin (*AzTU*) rektoru, t.e.d., professor Rafiq Mehdiyev məni təcili axtarır. O istəyir ki, təcili yanına gəlim.

Taksiyə oturub, on beş dəqiqədən sonra rektorun otağına daxil oldum. Salamlaşıb, masanın boş olan yerdə əyləşdim.

Otaqda on beş nəfər olardı: rektordan başqa, üç prorektor, iki dekan, beş kafedra müdiri, xarici əlaqələr üzrə şöbə müdiri və tanımadığım daha üç nəfər vardı.

Söhbətin nədən olduğunu bilməyərək, sakit oturub, diqqətlə dinləyirdim.

Lakin söhbətdən tezliklə məlum oldu ki, burada Bakıda (*AzTU-da*) Avropa İttifaqının (*Aİ*) TASİS proqramı üzrə hansısa yeni yaradılacaq telekommunikasiya tədris mərkəzindən gedir.

Sonra gördum ki, Bakı kəndlərindən birinin sakinlərinə bənzəyən bir gənc xaricilərə oxşayan iki nəfərə pıçıldayaraq, nəyisə tərcümə edir.

Sonra rektor həmin iki nəfərə müraciət edərək, soruşdu ki, layihə üzrə tələbləri nədir, sizə nə ilə kömək edə bilərik.

Onlardan biri (*görünür Aİ-dan idi*) qalxıb İngiliscə, dedi:

\- Cənab rektor, buraya Bakının rabitəçi alimlərini toplamısınız, amma bizə ingilis dilini bilən alim lazımdır ki, o həm rabitəçi həm də bu cür layihələrdə iş təcrübəsi olsun.

Tərcüməçi deyiləni ucadan rektora tərcümə etdi. Rektor bütün iştirak edənlərə müraciət edib, soruşdu, kim ingilis dilini bilir və Tədris Mərkəzi üzrə iş təcrübəsi var, qoy ayağa qalxsın.

Lakin iştirak edənlərin hamısı susurdular.

Onda rektor mənə müraciət edib, dedi: - Abdul müəllim, bizim qonaqlarla danışa bilərsinizmi, onlar artıq üçüncü dəfədir buradadırlar və biz onların problemlərini həll edə bilmirik.

Gördüm, bu cavan oğlan deyilənləri qonaqlara tərcümə etdi.

Ayağa durub, rektordan qonaqlarla ingilis dilində danışmaq üçün icazə istədim. Razılıq alıb, qonaqlara müraciət etdim:

- *Hörmətli cənablar! İcazə verin özümü təqdim edim. Mən doktor Abdul Qəhrəmanzadə, Azərbaycan Texniki Universitetinin Kommutasiyanın Sistemləri kafedrasının dosentiyəm.*

*Dissertasiyam Zaqafqaziyanın rabitə şəbəkələrinin layihələndirilməsi ilə bağlı olub. 1981-82-ci illərdə İngiltərədə, Birmengemin Aston Universitetinin professoru Con Fladın yanında elmi təcrübə keçmişəm.*

*Sonra, 1983-cü ildən Cenevrədə (İsveçrə) Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) ekspertiyəm. Ekspert qismində ilk təcrübəvi sınağımı 1985-ci ildə Əfqanıstanda, Kabildə keçmişəm.*

*1992-ci ildə Azərbaycanın rabitə naziri olmuşam, düzdür, ancaq bir ay. 1992-93-cü illərdə BTİ-nin xahişi ilə ikinci dəfə ekspert qismində 1993-2020-ci illər üçün Liviyanın telekommunikasiyasının inkişafı layihəsində iştirak etmişəm.*

*1993-cü ilin mart ayından sentyabr ayına qədər BMT-nin eksperti kimi 3-çü dəfə İslamabadda Pakistanın Telekommunikasiya Tədris Mərkəzinin yaradılma layihəsində iştirak etmişəm.*

*Sizin layihəni təfsilatı ilə bilməsəm də, lakin, mənə elə gəlir ki, bu çox perspektivli layihədir, özü də TASİS xətti ilə. Əgər Azərbaycanın telekommunikasiyası ilə bağlı suallarınız varsa, məmnuniyyətlə onları cavablandıraram. Diqqətinizə görə təşəkkür edirəm.*

Bütün bunları ingiliscə söylədim. Gənc tərcüməçi iclasda iştirak edənlər üçün mənim dediklərimi ucadan və dəqiq tərcümə edir, rektor Rafiq Mehdiyevə baxırdı.

Sükut çökdü, hamı susurdu, hətta rektor da.

Sükutu TASİS-in nümayəndələrindən biri pozdu, o ayağa qalxıb, dedi: "*Cənab rektor, niyə bu centlmeni bu vaxta qədər bizə*

*təqdim etməyiblər? O alimdir, rabitəçidir, ingilis dilində danışır, üstəlik, BMT-nin ekspertidir, Tədris Mərkəzin işini bilir. Biz sizinlə kadrların seçilməsinə iki ay sərf etmişik, o isə böyrünüzdəymiş. Çox xahiş edirəm, əgər etiraz etmirsinizsə, cənab A.Qəhrəmanzadəni Azərbaycan tərəfindən Layihənin rəhbəri təsdiq edin*".

Yenə sükut çökdü, bu dəfə onu rektor pozdu:

"*Bəli, hörmətli kafedra və fakültə nümayəndələri, güman edirəm, ikinci namizədimiz yoxdur, düşünürəm, razılaşıb, Abdul müəllimdən xahiş edək ki, o bu Layihəyə rəhbərlik etsin*".

Beləliklə, 1998-ci ilin mart ayından dekabr ayına qədər mən, A.H.Qəhrəmanzadə AzTU-nin rektoru, t.e.d., professor Rafiq Mehdiyevin xahişi ilə Azərbaycan Telekommunikasiya Təldris Mərkəzinin (*AzTTM*) yaradılması üzrə layihənin (*Project-TNAZ-9601*) elmi rəhbəri oldum. AzTTM-in yaradılmasının əsası Avropa İttifaqının himayəsi altında TASİS proqramının TNAZ 9601 №-li Layihəsi və AzTTM-in rəhbəri təyin edilməyim haqqında AzTU-nin rektoru, prof. R.İ.Mehdiyevin 10 mart 1998-ci il tarixli 43-mux №-li əmri oldu.

Beləliklə, Project-TNAZ-9601-in Azərbaycan tərəfindən rəhbəri mən, Aİ TASİS tərəfindən isə rəhbərləri – İrlandiyadan Con Rouç və İngiltərədən Frenk Artur olduq, baxmayaraq ki, əslində, layihənin işinə Frenk Artur rəhbərlik edirdi.

Pakistanın Telekommunikasiya Tədris Mərkəzindən aldığım təcrübədən bilirdim ki, öncə mərkəzin yerini (otaqları) ayrılmaqdır.

Halbu ki, mən artıq heç nəyi dəyişə bilməzdim, təəssüf ki, AzTU ilə razılığa əsasən, Mərkəz artıq əsas korpusda deyil, mənim kafedramın yerləşdiyi binada yer ayrılmışdı, bu da fakültəmizin rabitə kafedralarının müdirlərini çox qıcıqlandırırdı. Onlar görəndə ki, Mərkəzdə nələr yaradıram, anormal paxıllıq əmələ gəldi.

Xaricilərlə (*Con Rouç və Frenk Artur*) ilə hər şey yaxşı idi. İlk gündən başa düşdülər ki, mən tərəfdən problem olmayacaq, və layihə vaxtında yerinə yetiriləcək.

Azərbaycan Telekommunikasiya Tədris Mərkəzinin (AzTTM) layihəsinin məqsədi sadə idi: Azərbaycanda, zəruri hallarda digər ölkələrdən dəvət edilən mütəxəssislərin azərbaycan,

rus və ingilis dillərində apardıqları Qərbi Avropa üslubunda yüksək ixtisaslı təlimin təmin edilməsi.

İşin əsas istiqamətləri aşağıdakılar idi:

1. TASİS proqramı üzrə kursların aparılması üçün AzTU-da ixtisaslaşdırılmış yerlərin yaradılması;
2. AzTTM üçün kafedradan ingilis dilini bilən perspektivli və gənc mütəxəssislərin seçilməsi;
3. Seçilmiş 10 mütəxəssisin İngiltərədə (*Baaz şəhərində*), və İrlandiyada (*Dublin şəhərində*) təcrübə keçməsi;
4. AzTTM üçün tələb olunan avadanlıqların siyahısının tərtib edilməsi və Frenk Arturun onları alması;
5. AzTTM üçün zəruri (*siyahı üzrə*) avadanlıqları gətirən təşkilatların Frenk Artur tərəfindən seçilməsi;
6. AzTTM üçün mühazirəçilərin seçilməsi, ilk növbədə, kursların mühazirələrinin hazır konspektləri olanların, onların çoxaldılaraq, nüsxələrinin tələbələrə verilməsi;
7. Dinləyicilərin məişətinin, nahar və çaylarının təşkili;
8. AzTTM üçün əldə edilmiş TASİS təliminin texniki vəsitələrinə texniki dəstəyin göstərilməsi;
9. Azərbaycanın Rabitə nazirliyinin müəssisələrindən kurs dinləyicilərinin seçilməsinin vaxtında təşkili;
10. AzTTM-in hər bir kurs mühazirəçisinə və İdarə heyətinə aylıq əmək haqqının verilməsi.

AzTTM-in əsas sifarişçiləri Azərbaycanın Rabitə nazirliyinin müəssisə və təşkilatları nəzərdə tutulurdu.

AzTTM-in fəaliyyətinə aşağıdakılar aid idi:

- Texniki fənlər üzrə kurslar;
- Rabitəçilər üçün ingilis dili kursları;
- Biznes və menecment üzrə kurslar;
- Sifarişçinin tələbləri üzrə kurslar və s.

Amma layihənin ən məsuliyyətli hissəsi seçdiyimiz müəllimlərin İngiltərəyə (*Bath*) və İrlandiyaya (*Dublin*) hazırlıq kurslarına göndərilməsi idi.

Rektor R.Mehdiyevdən mənim əsas xahişim vardı, oda bu məsələyə formal deyil, muəllimlərin dil biliyi və gənc olması idi.

Mən istəmirdim ki, AzTTM-də 50-li yaşdan yuxarı kimsə iştirak etsin, lakin kafedra müdirlərin üçü də özlərini siyahıya daxil etmişdilər. Sonradan, kafedra müdirlərindən biri qarşıda doktorluq dissertasiyasının müdafiəsi olduğuna görə səfərdən etiraz etdi. Onun yerinə kafedranın müəllimi Atayev Eldarı daxil etdik. İkinci kafedra müdirinin yerinə kafedranın əməkdaşı, Gözəlov Elçini təklif etdim, amma, həmin professor özü (*ingilis dilini bilmədən*) iştirak etdi.

Həmçinin üçüncü kafedra müdiri də, gənc mütəxəssislərin olduğu halda, ingilis dilini bilmədən, özü getdi.

Bizim stajçıların əsas hazırlıq mərkəzi İngiltərədə, Bath şəhərindəki Balbruk Kollecində (*Bailbrook Colledge*) idi, burada 10 nəfər stajçımız yaxşı kurslarla, Bailbrook House-da yer və üç dəfə yeməklə təmin olunmuşdular.



Türkiyədə Atatürkün portreti müqəddəs olduğu kimi, Məhəmməd Əli Cinnahın portreti də Pakistanda müqəddəsdir. Hakimiyyətdə kim olursa, olsun, heç kim Pakistanın bu böyük vətəndaşına toxunmur.

Bəli, tam məsuliyyətlə deyirəm ki, tam altı ay ərzində bu gözəl müsəlman ölkəsində yaşayıb, işlədiyimə görə xoşbəxt adamam. Burada, məsələn, ABŞ-da, İndianada hiss etdiyim o gərginlik yoxdur.

Bizə yaxınlaşıb, tərcüməçidən soruşdu: - Söylə, zəhmət olmasa, niyə o centlmen sizin komandadan ayrı gəzir, təkəbbürlənir, elə bil bu dünyada təkdir.

Tərcüməçi ört-basdır etmək üçün cavab verdi ki, o professordur, kafedra müdiridir.

Görünür bu, Frenk Artura daha çox dəydi və o hamının yanında: - O nə professordur, əgər onu mən öyrədirəmsə və heç bir elmi dərəcəsi yoxdur? Söyləyib, başını yelləyərək, bizdən uzaqlaşdı.



Bəli, mentalitetimizdə çox şey anlaşılmazdır. Aydın deyil, necə onlar ad və dərəcə alırlar, sonra da istəyirlər ki, ətrafdakılar onlara hörmət etsin. Kağız parçasına görə?

Avropa üçün isə bu gülməlidir. Onlar üçün əsas sənin nəyə qadir olduğun, qadir olduqlarının gərəkliyi, ən əsası isə sənin əməyinin bəhrəsinin effektivliyi, yəni gəlir vacibdir.

Üç stajçının (*Atayev Eldar, Muradov Elşən və mən*) bəxti gətirdi. Biz üç həftə həm də Dublin Telekommunikasiya Tədris

Mərkəzində olduq, Fransada istehsal olunan E-10 rəqəmsal telefon stansiyaları və İrlandiyanın abunəçilərinin mərkəzləşdirilmiş təmir bürosu ilə tanış olduq.

Dublinin mərkəzi də gözəl idi, orada meyvə bazarı vardı, adətən bazar günləri ora gedirdik. Məni həmçinin mərkəzin direktoru kimi hazırlayırdılar, AzTTM üçün tələb olunan kursların hazırlanmasında xüsusi tövsiyələr verirdilər.

Frenk Arturun köməyilə AzTTM-in beş tədris otağının xüsusi avadanlığından tamamilə yararlandıq.

Layihələrin koordinatorluğu üçün AzTTM-ə Bənnayeva Leylanı qəbul etdik, Universitetimizin bakalavr və magistr pillələrini əla bitirmişdi, ingilis dili və kompüteri bilirdi.




Təcrübədən qayıdandan sonra Frenk Arturla danışdıq ki, Moskva və Leninqrada (*Sankt-Peterburq*) uçaq, orada oxşar mərkəzlər artıq fəaliyyət göstərirdi.

Lakin uğurlu ezamiyyətdən qayıtdıqdan sonra xəbər verdilər ki, mən olmayanda müavinim edəcəyim adam, yumşaq desək, başqa düşərgəyə birləşib. Onlar AzTU rektorunun professorlardan birinin AzTTM-ə direktor təyin edilməsi haqqında əmrini təşkil etmək və bura qədər edilənlərin hər birini onun adına yazmaq istəyirdilər.

Amma alınmadı, Universitetin xarici əlaqələr üzrə prorektoru Kəngərli Ayaz müəllim qəti surətdə bunun əleyhinə çıxış etdi, onun bundan artıq xəbəri vardı və geri addım atmaq istəmirdi.

Qeyd etmək istərdim ki, 1999-cu ilin yanvar ayından AzTTM-in işində heç bir problem yox idi, bir çox kafedra müdirləri bizə gələrək, yaradılan şəraitə heyran qalırdılar.

Bundan əlavə, layihənin rəhbəri Frenk Artur Bakıdan gedərkən, AzTTM-ə çəkilən xərcləri təhlil edərək, mərkəzin koordinatoru Bənnayeva Leylanın yanında məndən birmənalı şəkildə soruşdu: "*Cənab Abdul, sizin işdən yapışmanızı və çəldliyinizi görüb, bir sual vermək istəyirəm. Zəhmət olmasa, söyləyin, bizdən hansımız ingilisik, siz yoxsa mən?*". Üçümüz də gülüşdük.

Mərkəzin təxminən iki illik fəaliyyəti ərzində səksəndən artıq dinləyici buraxmışdıq, onlar nəinki burada aldıqları biliklərdən, həm də AzTTM tədris mərkəzindəki şərait və atmosferdən razı idilər və bunu AzTU-nun rektoru, professor R.Mehdiyevə etiraf edirdilər.

AzTTM-in ən yaxşı müəllimləri, şübhəsiz, kafedranın əməkdaşı, t.e.n. Qəhrəmanov Vaqif müəllim (*İngiltərədə təcrübə keçənlər arasında olmasa da*) və həmin vaxtlar AzEuroTel telekommunikasiya şirkətində İnformasiya-analitika şöbəsinin müdiri işləyən Qəhrəmanzadə Subi Cəfərovna idi.

Burada hekayəmin xronologiyasından bir az ayrılıb, yarım Subidən bəhs etmək istəyirəm. Bütün həyatımız boyu o həm həyat yoldaşım, uşaqlarımın anası, həm də mübarizə yoldaşım, arxam oldu. O nəinki evi bacarıqla idarə edir, uşaqların təhsili ilə məşğul olurdu, həmçinin rabitəçi karyerasında addımlar atmağa nail olurdu. O məndən 6 yaş kiçikdir, mənim bitirdiyim fakultənin gündüz şöbəsini bitirib, ən yaxşı tələbələrdən biri olub. Kiçik bir haşiyə - institutu bitirəndən bir il sonra Elektrik Rabitəsi kafedrasının müdiri Rəhimov Qurban Rəhimoviç ona diplom layihəsinin rəhbəri olmağı təklif etmişdi. Yəni ondan bir kurs aşağı oxuyan tələbələrin diplom layihələrinə rəhbərlik edirdi...

O 13 il Bakı Rabitə Texnikumunda müəllim işləyib, texniki savadlı, çox yaradıcı, ingilis dilini bilən və telekommunikasiyanın inkişaf mərhələlərindən yaxşı başı çıxır. Və heç də təsadüfi deyil ki,

AzEuroTel şirkətində 48 yaşında işə başlayıb, on üç il ərzində İnformasiya-analitika şöbəsinin müdiri vəzifəsindən Marketinq tədqiqatları və analitika departamentinin rəisi vəzifəsinə qədər yüksəlib, AzEuroTel şirkətinin ITU-da nümayəndəsi olub və ITU-nun İnkişaf sektorunun iclaslarında iştirak edib...

İndi isə o nəvələrimiz Rüstəmin (*Leyladan*) və Cavadın (*Həmiddən*) gözəl nənəsidir.

Burada uşaqlarımız Leyla və Həmiddən də danışmaq istərdim. Leyla Azərbaycan Tibb Universitetinin müalicə fakültəsini bitirib. Kiçik bir haşiyə edim: o test imtahanlarından keçmək üçün sənədlərini verəndə yalnız bir universitet və bir fakültəni qeyd etmişdi, halbuki, ödənişli və ödənişşiz, 15-ni göstərə bilərdi... Həmin ildə yığdığı bala görə, respublikanın məzunları içərisində 11-ci yeri tutmuşdu... Üçüncü kursda oxuyarkən, 3-5-ci kursların tələbələri içərisində kardiologiya üzrə ən yaxşı elmi işi o yazmışdı... İndi o kardioloq-reanimatoloq həkimdir.

Həmid mənimlə Subinin yolu ilə getdi. Mənimlə Subi kimi eyni fakültəni bitirib, magistraturanı da başa çatdıraraq, MBA dərəcəsini alıb, həmçinin ABŞ-ın Microsoft və Cisco akademiyasının sertifikatlarını almış mütəxəssisdir. Bakcell şirkətinin IT-departamentinin şöbələrindən birinin müdiridir.

Amma AzTTM-ə dönək. Bir çoxları üçün mərkəzimiz boğazda qalmış tikə idi və hər şey Universitetdə kadr dəyişiklikləri aparılanda və rektor Məmmədov Xavər, tədris üzrə prorektor isə Məmmədov Famil olanda aydınlaşdı.

Və budur, xarici əlaqələr üzrə yeni prorektor (*Mərkəzin kuratoru*) yanıma gəlib, söz atır ki, yeni rektor AzTTM-i yenidən qurmaq istəyir və mən mərkəzi təhvil verim.

Mən isə, artıq bu cür fırıldaqlara alışan adam, cavab verdim ki, yaxşı, qoy rektor məni çağırıb, bu barədə özü desin.

Tutduğum mövqeyə baxmayaraq, yəni AzTTM-ə beş illik təyin olunmuşdum və Mərkəzin qeydiyyatda olduğu Brüsselə (*Aİ*) həmişə müraciət edə bilərdim, lakin mən Aəzrbaycanın nüfuzuna görə buna getmədim, çəkişmələri xaricinə çıxarmaq istəmədim...

Üç gündən sonra yeni rektor Xavər Məmmədov məni çağırıb, uzaqdan başladı: "*Abdul müəllim, söyləyin, niyə doktorluq*

*dissertasiyasını müdafiə etmirsiniz? Bu mərkəz nəyinizə lazımdır?Artıq monoqrafiyanız var. Nə vaxt istəsəniz, yaradıcılıq məzuniyyəti götürün və dissertasiyasını müdafiə edin, şəxsən mən, kişi kimi, sizə hər şeydə köməklik göstərməyə söz verirəm*".

Onun gözlərinə baxıb, cavab verdim: "*Xavər müəllim, düzünü desəm, bu mərkəz mənə mane olmur və AzTTM-in direktoru işləyərkən də müdafiə edə bilərəm. Lakin, əgər siz təkid edirsinizsə, ərizə yazıb, gedə bilərəm*".

- Bəli, Abdul müəllim, bizim öz fikirlərimiz var, zəhmət olmasa, mərkəzi xarici əlaqələr üzrə yeni prorektora təhvil verin.

- *Xavər müəllim, mənim də qarşılıqlı xahişim var. Birincisi, komissiya yaradıb, AzTTM-in təhvil-təslimini aparaq, ikincisi, Mərkəzin təhvilindən sonra xahiş edirəm məni heç vaxt ora dəvət etməyəsiniz, mən ora heç vaxt gəlməyəcəyəm. Bu sizi təmin edir?*

- Bəli, Abdul müəllim, kişi söhbəti, danışdıq.

Bir gündən sonra beş nəfərdən ibarət komissiya, o cümlədən mən və Leyla Bənnayeva mövcud olan avadanlığı siyahıya alıb, təhvil-təslim aktını imzaladıq. Təhvil-təslimdən sonrakı gün Layihənin koordinatoru Bənnayeva Leyla öz xahişi ilə işdən getmək haqqında ərizəsini verdi və Mərkəzdə AzTTM-in bütün fəaliyyət mexanizmlərini bilən adamlar qalmadı.

Deyirdilər ki, biz gedəndən sonra mərkəzdə nə həmin vəsaitlər, nə həmin metodikalar, nə həmin müəllimlər, nə də dinləyicilər yoxdur, Rabitə nazirliyi də mərkəzlə əməkdaşlıq etmir.

Mən isə hələ də Mərkəzə getməmişəm və maraqlanmıram da. Bir şeyi bilirəm – görünür millətimizin bütün fəlakəti ondadır ki, heç bir işdə (*şəxsilərdən başqa*) davamlılığımız yoxdur və düzgünlüyə riayət etmirik.

Beləliklə, layihə (*Project-TNAZ-9601*) TASİS (*Aİ*) proqramı üzrə ciddi şəkildə aparılsa da və 5 il müddətinə AzTTM-in direktoru təyin olunsam da, Brüsseldə Azərbaycana gülməsinlər deyə, 20 sentyabr 2000-ci ildə öz xahişimlə Mərkəzdən getdim.

2002-ci ilin payızında Məleykə xanım Abbaszadə məni beynəlxalq Project - AZE/01/003 – "*Azərbaycanın informasiya-kommunikasiya texnologiyalarının inkişaf strategiyası*" layihəsinə milli ekspert qismində dəvət etdi.

Mən düz bir insan kimi, M.Abbaszadə ilə şəxsi söhbətdə ona söylədim ki, bu layihənin nailiyyəti, ilk növbədə, Azərbaycanın Rabitə nazirliyindən asılıdır və Layihədə (*Project-AZE/01/003*) onların olmaması böyük səhvdir.

Təxminən altı ay layihəyə səylə kömək etdim, lakin onlar Rabitə nazirliyinin bu layihədə rolunu anlamadılar.

Bu layihədən uzaqlaşıb, düşüncələrimdə azad idim və 2002-ci ildən başlayaraq, telekommunikasiyanın müstəqil eksperti kimi Rabitə nazirliyinin bu layihədə iştirakının və informasiya texnologiyalarını nəzərə almaqla, respublikanın Rabitə nazirliyinin statusunun dəyişilməsinin zəruriliyi haqqında bir neçə məqalə dərc etdirdim. Yuxarılarda, görünür, hazır ideyadan istifadə etməyi qərara aldılar və bu ideyanı ( *ailəyə yaxın adamı*) cəlb etdilər, və 2004-cü ildə Rabitə və İnformasiya Texnologiyaları nazirliyi (*RİTN*) yaradıldı və Nadir Əhmədovdan canları qurtardılar (*görünür, o dərin biliyi ilə çox da parlamırdı*).

Həmin 2002 illərdə AzTU-nun rektorun vədini xatırlayaraq, mən doktorluq dissertasiyasının müdafiəsi üçün yaradıcılıq məzuniyyətinin verilməsi xahişi ilə rektora ərizə verdim. Ərizəyə iki monoqrafiyamı da əlavə etdim. Lakin müəyyən oldu ki, məni AzTTM-in direktoru vəzifəsindən çıxararkən, bu məsələdə məni dəstəkləyəcəyinə dair söz verən *("kişi kimi")* rektor öz sözünü tamamilə unutmuşdu.

Dəftərxanada qeydiyyata alınmış rektorla üç dəfə yazışmadan sonra ərizəmi yazıb, AzTU-dan getdim.

2002-ci ilin sentyabr ayından 2007-ci ilin iyun ayına qədər Azərbaycan Milli Elmlər Akademiyasının (*AMEA*) Kibernetika İnstitutunun aparıcı elmi işçisi işlədim.

Həmin 2003-2006-cı illərdə ABŞ Dövlət Departamentinin İndiana (*Bluminqton şəhəri*) Univerisiteti ilə Azərbaycanın Elmi-tədqiqat və təhsil şəbəkələri Assosiasiyası (*AzRENA*) arasında əməkdaşlıq Proqramı üzrə Azərbaycanda ilk Distant Təhsil Layihəsinin (*Layihə - IU/AzRENA*) təşəbbüskarı və meneceri idim.

Şübhəsiz, Azərbaycanın Elmi-tədqiqat və təhsil şəbəkələri Assosiasiyasının (*AzRENA*) layihəyə düşünülmüş yanaşması və

İndiana Univerisitetinin (*ABŞ*) hazırladığı kadrların saxlanılması ilə, bu layihənin köməyilə bizim On-Line Univerisiteti yaratmaq olardı.

Ancaq dar düçüncələr və başqalarının əməyini mənimsəmək ölkəmizdə ən gözəl ideyaların kökünü kəsir. Beləcə Distant Təhsil üzrə gözəl layihəni və o qədər adamın əməyini məhv etdilər.

Amma bu layihəyə görə, üç gəncdən (*Sveta, Fəxri və Elnur*) ibarət komandamla iki dəfə ABŞ-ın Bluminqton şəhərindəki İndiana Univerisitetində olmuşam.



2004-2005-ci illərdə bir neçə dəfə Bluminqton ş., İndiana ştatında olmuşuq, burada İndiana Univerisiteti ilə Azərbaycanın Elmi-tədqiqat və təhsil şəbəkələri Assosiasiyası arasında IU/AzRENA Layihəsinin DT kurslarını keçmişik. Mənə memarlıq möcüzələrinin paytaxtı – Çikaqoda, o cümlədən ən yüksək binalarda olmaq nəsib oldu.

Layihənin üç illik dövründə aşağıdakı məqalələri dərc etdim:

1. Gahramanzadeh A.H. Some aspects of on-line education. The 4-th International Conference Internet-Education-Science IES-2004. Vinnytsia, 2004., Vol.1, p.172-175

2. Qəhrəmanzadə A.H. On-line təhsilin bəzi əsasları. IT magazine, Bakı, № 1 (14), 2004., s.28-29
3. Qəhrəmanzadə A.H. Training of students in on-line. IT magazine, Bakı, № 02 (17), 2005., s.38-39
4. Qəhrəmanzadə A.H. Azərbaycanda DT-in inkişafı üzrə AzRENA-ın fəaliyyəti. Alma Ata beynəlxalq konfransının materialları, KazRENA, Alma Atanın İqtisadiyyat və Statistika Akademiyası, 2005 il, s. 29-34
5. Qəhrəmanzadə A.H. Azərbaycanda on-line təhsil. ITmagazine, Bakı, № 02 (42), 2007., s.26-27

Bluminqtonda olarkən Şirvana həsr etdiyim şerləri yazdım.

2007-ci ilin iyun ayından 2009-cu ilin iyul ayına qədər, mən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində "*İnformasiya texnologiyaları və elmi tədqiqatlar*" şöbəsinin müdiri kimi çalışdım.

Bu yeni yaradılmış təşkilat idi, apparatının işçilərinə 5-ci kateqoriya dövlət qulluqçuları statusu verilmişdi, ona görə kadrların seçimi rəis Kamran İmanov tərəfindən diqqətlə düşünülmüşdü.

Həmin iki il, görünür, TASİS layihəsindən, AzTTM Telekom mərkəzini nəzərdə tuturam, sonra həyatımın ən yaxşı illəridir.

Biz Kamran İmanovla şöbəyə təcrübəli, bilikli və kollektivlə işləmək qabiliyyəti olanları yiğmışdıq, bir sözlə, təşəbbüskar insanların mehriban komandası yarandı.

Amma İnna xanım Nanaziaşvili, sözsüz, "*İçərişəhər*" idarəsinin İnformasiya texnologiyaları şöbəsində ən yaradıcı oldu.

Bizdə yerinə yetirmədiyimiz iş yox idi, hamımız – 5 nəfər işlə alovlanırdıq və bilirdi ki, onun əməyi şöbədə qiymətləndirilir.

İşlər eyni zamanda və parallel yerinə yetirilirdi.

"*İçərişəhər*" Qoruğunun apparatının bütün kompüterlərini birləşdirən lokal şəbəkə belə yaranmışdı.

Burada sevimli Şirvanıma həsr etdiyim şerləri yazdım.

İki il ərzində Qoruğun ərazisinə giriş xarici və daxili müşahidə kameraları ilə təchiz olunmuşdu.

Qoruğun ərazisinə giriş məhdudlaşdırılmışdı (*sürücülərə xüsusi icazə verilirdi*) və pozuntulara nəzarət vizual olaraq həyata keçirilirdi.

**Abdul Şərifli**

## ŞİRVAN

Şirvanımın barı nardır,
O Ğöyçayda Bığırdadır.
Hər dənəsi sanki qandır,
Min bir dərdə dərmandır.

Şirvanımın dağı qardır,
O Şahdaqdır, Şamaxıdır.
Əlçatmaz Yaylaqları
Min bir dərdə dərmandır.

Şirvanımın dadı baldır
İsmayıllı və Basqaldır
Qalacıqı həm Lahıcı
Min bir dərdə dərmandır.

Şirvanımın ətri bagdır
Quba, Qusar, Abşerondır
Qax, Qəbələ, Qobustanı
Min bir dərdə dərmandır.

Şirvanımın cayı gurdur,
Girdımandan gələn sudur.
Ağdaş, Ğöyçay, saf bulaqı
Min bir dərdə dərmandır.

Şirvanımın səsi nurdur,
Muğamatlar məkanıdır.
Alim səsli xanəndəsi,
Min bir dərdə dərmandır.

Şirvanımın zövqü nurdur,
Bu Xəqani, Nəsimidir
Seyd Əzimi həm Sabiri
Min bir dərdə dərmandır.

Bu məqsədlə şöbəmizdə giriş postları ilə əlaqəni həyata keçirən və videokadrları operativ məlumat üçün şöbəyə göndərən avadanlıq quraşdırılmışdı. Parallel olaraq, sakinlərin və Qoruğun ərazisində yerləşən təşkilatların avtomobil nəqliyyatlarının nömrələri və giriş üçün icazənin nömrələri göstərilməklə, sahibləri haqqında elektron məlumat bazası yaradılmışdı.

"*İçərişəhər*"də həqiqətən yaxşı IT komandam vardı.

Məsələn, İnna xanım Nananziaşvili tərəfindən "*İçərişəhər*"in bütün tikililəri haqqında elektron məlumat bazası yaradılmışdı. Bazaya tikililərin bütün texniki-iqtisadi göstəriciləri daxil edilmişdi. Qoruğun sakinləri haqqında daha bir elektron məlumat bazası yaradılmışdı ki, bu da "*İçərişəhər*" Dövlət Tarix-Memarlıq Qoruğunun demoqrafiya məsələlərini həll edirdi.

İnna xanım, Zöhrab, Kəmalə xanım və Vüsal birlikdə "*İçərişəhər*"in ən yaxşı İKT komandası oldu.

Lakin 2009-cu ildə "*İçərişəhər*"in rəhbəri dəyişdi.

Yeni rəhbərlər komandası gəldi, dəyərlər dəyişdi, mütəxəssislər bir-bir getdilər. Bütün bunlara əlavə olaraq, şöbəmizi sektora çevirmək istədilər, necə deyərlər, "*yeni süpürgə yeni şəkildə süpürür*". Bununla razılaşa bilməzdim.

2009-cu ilin iyul ayının sonunda ümumi əsaslarla təqaüdə çıxdım, amma bir dəfə Sovet İttifaqından və iki dəfə müstəqil Azərbaycandan BMT-dəki işimi nəzərə almaqla, dövlət qulluqçusu statusu ilə təqaüdə çıxmağa tam hüququm var idi.

Ancaq bizim ölkədə, əgər Azərbaycanın xalq şairi, professor Xəlil Rza Ulutürkün sözləri ilə desək, "*Rütbəlilər yalnız mütləq həqiqətdir*" və həmin illəri mənə hesablamadılar.

*"Xoşbəxtlik gülüş səsi eşidilən evə gələr"*
Yapon atalar sözü

## 7.6. İnsanların xoşbəxtliyi, onların şüurundadır.

Dünyada siyasi iqtisadiyyatın inkişafına əhəmiyyətli təsir göstərmiş Şotlandiya iqtisadçısı və filosofu Adam Smitin (*1723-1790*) gözəl bir fikri var: "*Sağlamlığı, təmiz vicdanı və borcları olmayan insana xoşbəxtlik üçün daha nə lazımdır?*".

Qeyd edim ki, ailəmizin ən böyük sevinci qızımız Leylanın gənc alim – həkim Seyidov Teymur Tərlan oğlu ilə evliliyi oldu.

Qızıl medal alıb, bizim Tibb Universitetini qırmızı diplomla bitirib, namizədlik dissertasiyasını (*Ph.D*) müdafiə edib, hal-hazırda Londonun Universitetində, səhiyyə idarə edilməsi üzrə ixtisaslaşır və İstanbulda BMT-nin regional bölməsinin birində çalışır.

Toy 29 aprel 2006-cı ildə "*TURAL*" şadlıq evində yüksək səviyyədə və şən keçmişdi.



Onların birgə həyatının birinci ilində hamımız sevimli Qaxımda, İlisuda – yay tətili üçün ən yaxşı yerdə dincəlmişdik.

Düz beş ildən sonra 28 aprel 2011-ci ildə Leyla ilə Teymurun oğlu oldu, adını Rüstəm qoydular.

Beləliklə, həmin gündən sonra Subi nənə, mən isə baba oldum və indi bizim nəvəmiz Rüstəm əlhəmdurullah böyüyür.



Suriyalı yazıçı Abu-l-Fərəcin (*1226-1286*) dediyi kimi, "*Sadəlik – təbiətin müttəfiqi və sağlamlığın keşikçisidir. Ona görə də yeyəndə, içəndə, hərəkət edəndə və hətta sevəndə də təvazökar ol*".

Və daha sadə, azərbaycan atalar sözləri ilə desək: "*Ayağını yorğanına görə uzat*".

Sonra, 2009-cu ildə artıq təqaudçu olarkən, bütün qırx üç illik iş həyatımı əhatə edən "*Azərbaycanın telekommunikasiyasının inkişaf mərhələləri. "Elm". 2011. 726 s.*" monoqrafiyasını yazdım, burada Azərbaycan rabitəsinin korifeylərini qeyd etmişəm. Monoqrafiyanın nüsxələrini Bakı və Göyçay şəhərlərinin bütün

kitabxanalarına payladım, onlar Azərbaycan və Rusiyanın aparıcı kitabxanalarının elekton kitabxanalarında da var.

Monoqrafiya 1974-1977-ci illərdə aspirantı olduğum prof. M.A.Bonç-Bruyeviç adına Sankt-Peterburq Telekommunikasiya Dövlət Universitetinin saytında da yerləşdirilmişdir.

Bu yaxınlarda, 2 fevral 2012-ci ildə zəng çalındı. Bolqariyadan özünü Nikola Kolev kimi təqdim edib, dedi ki, bu zəngə onu "*Azərbaycanın telekommunikasiyasının inkişaf mərhələləri"* adlı monoqrafiyamdan olan təəssüratı sövq edib.

Onun söylədiyi kimi, bu fundamental tarixi əsərdən heyranlığını ifadə etdi. "*İnanmazsınız, Azərbaycanın timsalında mənim arzumu həyata keçirdiniz. Görünür Azərbaycanın telekommunikasiyası haqqında böyük informasiyaya maliksiniz. Bolqariya üzrə bu cür elmi iş etmək arzusundayam. Sizi təbrik edirəm, çox yaxşı bir kitab yazmısınız. Həm öz sahəniz, həm də bütün Azərbaycan üçün fantastik bir işdir. Əgər etiraz etmirsinizsə, onda e-mail yazacağam və Sizinlə əlaqə saxlayacağıq. Sizinlə tanışlığıma çox şadam. Bu cür elmi iş üçün çox sağ olun*".

Amma mənim üçün ən çox Göyçay və sülaləmin tarixi maraqlıdır. Axı əgər Vikipediyada axtarışa versək, hələ də bütün tariximiz ancaq Rusiya ilə bağlıdır, elə bil biz başqa planetdənik, Rusiyanın istilasından sonra peyda olmuşuq. Mənbələrdən birində məlumat verilir: "*Qafqazda Çar hökumətinin inzibati islahatları əsasında 1867-ci ildə Bakı Quberniyasının tərkibində Göyçay qəzası yaradılmışdır. Sonra Göyçay qəsəbəsi 1916-cı ildən şəhər adlandırılmışdır. Azərbaycanın rayonlara ayrılması ilə əlaqədar olaraq, 1930-cu ildə Göyçay rayonu yaradılmışdır*".

İndi soruşulur, 1867-ci ilə qədər Göyçay yer üzərində yox idi, bizim AMEA-nın Tarix İnstitutunda nə ilə məşğul olurlar, məgər ölkəmizin müstəqilliyinin bərpasından 20 il ötsə də yenə də **http://ru.wikipedia.org/wiki** istinadlarından istifadə etməliyik?

Bəli, həyat isə davam edir, oğlumuz Həmid də 2012-ci ildə Belarusdan olan qızla, Yuliya ilə evləndi.

Onun seçimindən bütün yaxınlarım "*donub qalmışdı*", biz isə Subi ilə sadəcə cavab veririk: "*Bəlkə bu yaxşılığadır?*". Bizim üçün əsas onların xoşbəxtliyi və sağlamlığıdır, qalanları isə düzələndir.

Və biz 9 iyun 2012-ci ildə Leyla ilə Teymurun toyu olan həmin "*TURAL*"da Həmid və Yuliyanın da toyunu etdik...

Bizim Yuliya Belarus Dövlət Universitetini İngilis dilinin filologiyası ixtisası üzrə bitirib və çox ümid edirəm ki, zamanla dilimizi də mənimsəyəcək.



Bu gün bu gənc ailədə Şərifli sülaləsinin yeni "*vəliəhdi*", ikinci nəvəmiz Cavad Həmid oğlu Qəhrəmanzadə də var.

*“Bu dünyada havayı heç nə verilmir”*
Henrik İbsen (1828-1906)

## 7.7. Şərifli sülaləsinin məşhur nümayəndələri.

Bizim Göyçay rayonunun Bığır kəndində ruhani lider var. O ali iqtisadi təhsillidir, amma qəlbinin səsi ilə dinə girdi ki, insanlara xeyirdə və şərdə kömək etsin, islamın müqəddəs adətlərinə riayət etsin. O bizim Fərzəliyev Rəşad Sərdar oğludur, hamı ona Rəşad əfəndi deyir. O ana tərəfdən o Şərifli sülaləsindəndir, səmimidir, kəndimizin tarixini və Bığırda yaşayanların şəcərəsini dərindən bilir.

Ərəb dilini sərbəst öyrənib, Quranı tam mənimsəyib, islam adətlərinə təmkin və hörmətlə yanaşır.

Biz, onunla hər dəfə görüşəndə saatlarla söhbət edirik, və mənə xoşdur ki, görünür mənim onunla mənəvi yaxınlıqım var.

O qədər hərtərəfli inkişaf edib ki, onunla rahatdır, darıxdırıcı deyil, şablon və ssenarilərsizdir.

O çox sadə yaşayır, iki gözəl oğlu var, onlar da Rəşad əfəndi kimi təhsilli və çalışqandırlar. Məncə, bizim Bığırın tarixini Rəşad əfəndidən də yaxşı yalnız iki Şərifli qardaşları (*Məmmədəli və Şərif*) bilərdilər, lakin onlar, təəssüf ki, o biri dünyadadırlar.

Lakin mən Bığır haqqında çox şeyi bu kənddə 115 il yaşamış rəhmətlik babam Sədi Hacı Qəhrəman oğlu Şəriflinin, kəndin sakinləri əmilərimin (*atamın qardaşları*) danışdıqlarından öyrənmişəm, hayıf ki, onlar artıq həyatda deyillər. Ona görə Rəşad əfəndidən aldığım məlum informasiyanı təhlil və müqayisə edirəm.

Bir dəfə Rəşad əfəndidən soruşdum ki, bizim Şərifli sülaləsi Azərbaycana neçə alim verib? O cavab verdi ki, iyirmiyə yaxın, onlardan dördü elmlər doktoru, qalanları namizədlərdir:

1. Məmmədəli Xəlil oğlu Şərifli – tarix elmləri doktoru, professor;
2. Tamara Məmmədəli qızı Şərifli – filologiya elmləri doktoru;
3. İbrahimova Əminə Qüdrət qızı – fəlsəfə elmləri doktoru;
4. Qafarov Rauf Sədyar oğlu – biologiya elmləri doktoru;
5. Cavadova Münəvvər Nəsrəddin qızı – filologiya elmləri namizədi;

6. Cavadova Minayə Nəsrəddin qızı – filologiya elmləri namizədi;
7. İsmayılov Qılman Nasir oğlu – filologiya elmləri namizədi;
8. Ağayev İnqilab Həmid oğlu – biologiya elmləri namizədi;
9. Kərimov Arif Məhəmməd oğlu – tibb elmləri namizədi;
10. Aslanov Şahverdi Bürcalı oğlu – minerologiya elmləri namizədi;
11. Xəlilov Sayyab Hüseyn oğlu – coğrafiya elmləri namizədi;
12. Məmmədova Sədaqət Kamal qızı – filologiya elmləri namizədi;
13. Məmmədov Sadiq Ağabala oğlu – tarix elmləri namizədi;
14. Həmzəyev Teyyub Behbud oğlu – filologiya elmləri namizədi;
15. Bilalov Bahadur Ənvər oğlu – tarix elmləri namizədi;
16. Qəhrəmanzadə Abdul Həmidulla oğlu – texniki elmlər namizədi, dosent, BMT-nin telekommunikasiya üzrə Eksperti, Azərbaycanın sabiq rabitə naziri.

Məmmədəli Xəlil oğlu Şəriflinin qızı Tamara xanım Məmmədəli qızı Şərifli filologiya elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (*AMEA*) Nizami ad. Ədəbiyyat institutunun baş elmi işçisidir.

Ona görə də bu paraqrafda tarix elmləri doktoru, professor Məmmədəli Xəlil oğlu Şəriflinin anadan olmasının 100 illiyinə həsr olunmuş “*Zerkalo*” qəzetində 20 mart 2009-cu il tarixli, səh. 41-də “*Görkəmli alim, pedaqoq və elm təşkilatçısı*” adı altında gedən məqaləni verirəm. Məqalənin müəllifi: filologiya elmləri doktoru, professor və Məmmədəli müəllimin qızı – Tamara x.M. Şəriflidir:

“20 mart 2009-cu ildə Azərbaycanın tarix elmində öz işləri ilə dərin iz buraxan görkəmli alim, tarixçi-şərqşünas, tarix elmləri doktoru, professor Məmmədəli Xəlil oğlu Şəriflinin anadan olmasının 100 illiyi tamam olur.

Fəaliyyətinin başlanğıcında uzun illər boyu, 1924-cü ildən 1935-ci ilə qədər maarif sahəsində çalışmış, Azərbaycanın bir çox rayonlarında (*Göyçay, Qonaqkənd, Şuşa*) müəllimlik etmişdir. 1931-ci ildə Ali pedaqoji institutun tarix fakültəsinin tələbəsi olmuş, 1935-ci ildə oranı əla bitirmişdir. Tələbəlik illərində fars, ərəb, türk dillərini öyrənərək, elmə maraq göstərirdi, ən çox onu Azərbaycanın orta əsr tarixi cəlb edirdi. Elmi-tədqiqat fəaliyyətinə can atması, tarixə ciddi marağı nəticədə onun bütün həyatının əsas işi oldu.

1938-ci ildə SSRİ EA-nın Azərbaycan filialının Tarix institutunun aspiranturasına daxil olub, Azərbaycan tarixi üzrə ixtisaslaşdı. Aspiranturanı Leninqradda 1941-ci ildə qurtardı və həmin ilin mayında Tarix institutunun elmi işçisi oldu və burada ömrünün axırına qədər durmadan çalışdı. 1944-cü ildə M.X.Şərifli "Azərbaycan Qazan-xanın hakimiyyəti dövründə" mövzusunda dissertasiyanı müdafiə edərək, tarix elmləri namizədi elmi dərəcəsini aldı, eyni zamanda Ali attestasiya komissiyasının (Moskva ş.) qərarı ilə "Azərbaycan tarixi" kafedrasının dosenti alimlik dərəcəsi verildi.

Professor M.X.Şərifli nəinki tarix sahəsində, həmçinin ədəbiyyatda, dilçilikdə, poeziyada, astronomiyada geniş biliklərə sahib olan alim idi. Hər dəfə onunla söhbət zamanı ensiklopedik bilikləri, bütün sahələr haqqında geniş məlumatı bizi heyrətə gətirirdi. 40-cı illərdən başlayaraq, professor M.X.Şərifli Azərbaycanda tarix elmini yaradanlar sırasında idi. Onun çoxsaylı elmi tədqiqatlarında əvvəllər az tədqiq edilmiş yaxud heç tədqiq edilməmiş IX-XIII ə. Azərbaycanın tarixi məsələləri əksini tapmışdır.

Professor M.X.Şərifli Azərbaycan SSR Tarix institutunun yaradıcılarından biri idi, onun portreti bu gün də institutda digər direktorların portretləri arasında asılmışdır.

1941-ci ildən başlayaraq və Elmlər Akademiyasında bütün səmərəli fəaliyyəti ərzində o dəfələrlə rəhbər vəzifələrə təyin edilmişdir. 1943-1952-ci illərdə əvvəlcə Azərbaycan SSR EA-nın Tarix institutunun direktor müavini, sonra isə direktoru işləmişdir.

1952-1969-cu illərdə prof. M.X.Şərifli Tarix institutunun aparıcı və perspektivli şöbələrindən birinə – Orta əsrlər tarixi şöbəsinə rəhbərlik etmişdir. Şöbədə böyük elmi-tədqiqat işləri aparılırdı, həmçinin yüksək ixtisaslı kadrlar – tarix elmləri namizədləri və doktorlar hazırlanırdı.

Professor M.X.Şəriflinin elmi-tədqiqat fəaliyyəti pedaqoji, maarifçilik fəaliyyəti ilə kəzilməz əlaqəli idi. 1941-1958-ci illərdə Azərbaycan Dövlət Universitetində, habelə Azərbaycan Pedoqoji

institutunda Azərbaycan tarixini tədris edirdi və ixtisas kurslarını aparırdı.

1953-1954-cü illərdə professor M.X.Şərifli Bolqarıstan hökumətinin dəvəti ilə Sofiya universitetinə ezam edilmişdi, burada Azərbaycan tarixindən mühazirələr oxuyur, türk dilində ixtisas kurslarını aparırdı.

Professor M.X.Şərifli gözəl mühazirəçi idi, həmişə müasir biliklərin zirvəsində dayanırdı, çoxlu sayda ilk mənbəli faktların arasında sərbəst istiqamətini alırdı. Onun mühazirələri yüksək elmi səviyyəsi ilə fərqlənirdi – məzmun və formasına görə qüsursuz, canlı və çox maraqlı, quruluşu və ifadəsinə görə həmişə orijinal olurdu, çoxlu sayda tələbə və dinləyiciləri cəlb edirdi. Tarixin tədrisinin ümumi inkişafı üçün tarixi biliklərin geniş yayılmasına imkan yaradan orta əsrlərdə Azərbaycan tarixi üzrə ixtisas kursları böyük əhəmiyyət kəsb edirdi.

Qızğın vətənpərvər olaraq, o gənc tarixçilərin tərbiyəsinə böyük diqqət ayırırdı, savadlı və elmdə bacarıqlı olanları seçirdi, işə düzəlmələrinə kömək edirdi. Professor M.X.Şərifli yüksək ixtisaslı müəllim və elmi kadrların – orta əsr Azərbaycan tarixi sahəsində mütəxəssislərin hazırlanmasında fəal iştirak edirdi. Onun bir çox yetirmələri indi elmlər doktoru və namizədləridir, Elmlər Akademiyası sistemində, həmçinin respublikanın təhsil müəssisələrində işləyirlər. Elmi və müəllimlik fəaliyyəti ilə yanaşı, professor M.X.Şərifli ölkəni diplomatik xəttlə də təmsil etmişdir. 1945-1949-cu illərdə SSRİ-nin xarici ölkələrlə mədəni əlaqələrinin Ümumittifaq cəmiyyəti xətti ilə xüsusi ezamiyyətdə (*İranda*) olurdu, Təbriz şəhərində Mədəniyyət evinin direktoru işləyirdi.

1955-ci ildə professor M.X.Şərifli Moskva şəhərində şərqşünasların XXV Beynəlxalq konqresinin iştirakçısı olmuş, rus və ingilis dillərində dərc edilən "Səcid dövləti" mövzusunda məruzə ilə çıxış etmişdir [156].

40 illik elmi-tədqiqat fəaliyyətində professor M.X.Şərifli bir neçə monoqrafiya, 100-dən artıq elmi iş: onun elmi maraq

problemlərini əhatə edən məqalələr, dərs vəsaitləri, resenziyalar dərc etdirmiş; orta əsr Azərbaycan tarixinin əsas problemləri üzrə çoxlu sayda yeni müddəalar və orijinal fikirlər irəli sürmüşdür. M.X.Şərifli üç cildli "Azərbaycan tarixi"nin (Bakı, Azərbaycan SSR EA-nın nəşriyyatı, 1958) V, VI fəsillərinin müəllifi, II, III, VII fəsillərinin həmmüəllifi, "Azərbaycanın Atabəylər dövləti (1136-1225 illər)", "Eldənizlər" (*Azərbaycan SSR EA-nın "Xəbərləri", ictimai elmlər seriyası, 1969*) əsərlərinin müəllifidir.

1965-ci ildə M.X.Şərifli 20 illik elmi-tədqiqat fəaliyyətinin nəticəsi olan "*IX-XI ə. ikinci yarısında Azərbaycanda feodal dövlətlər*" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. IX-XI ə. ikinci yarısında Ərəb xilafətinə və Səlcuq İmperiyasına qarşı mübarizə şəraitində Azərbaycanın feodal dövlətlərinin yaranması və inkişafı problemlərinin bu tədqiqatı bütün Azərbaycan, Qafqaz, Orta Asiya, bütövlükdə Orta və Yaxın Şərq ölkələrinin tarixi üçün böyük əhəmiyyət kəsb edir.

M.X.Şəriflinin Azərbaycanın feodal dövlətlərinin yaranması və inkişafı mərhələlərinin sistemli şəkildə göstərilmiş monoqrafiyası fundamental əsər olaraq, Azərbaycan tarixinin elmi cəhətdən ən az tədqiq edilmiş dövrlərinə həsr olunub.

Professor M.X.Şərifli əsərində oxuyucuları Azərbaycanın Rəvvadilər, Sacilər və Naxçıvan şahlığı kimi dövlət quruluşları ilə ətraflı tanış edir, ona qədər onların haqqında sovet tarixşünaslığında heç bir elmi məlumatlar verilməmişdi. IX ə. və X ə. əvvəllərində Ərəb xilafətinin süqutu ilə feodal dövlətlərin yaranması prosesi gedirdi. Onların yaranma tarixini, Azərbaycanın iqtisadi və siyasi həyatını təhlil edərək, müəllif hər bir dövlətin tam xarakteristikasını, onların formalaşmasının daxili və xarici şərtlərini, dövlət quruluşunu, həmçinin siyasi gücünü göstərir...

Azərbaycanın tarixi coğrafiyası üçün tədqiq olunan dövrün xəritələri müəyyən məna daşıyır. M.X.Şərifli ilk dəfə Azərbaycan dövlətlərinin siyasi və etnik sərhədlərini təsvir etmiş, təbii sərvətləri, coğrafi mövqeyi, şəhərləri, ticarət yollarını, iqtisadiyyatı,

etnoqrafiyanı tədqiq edən ərəb və fars müəlliflərinin tədqiqat əsərlərinin əsasında IX-XI ə. mürəkkəb və qarışıq bir dövrünün siyasi tarixini canlandırmışdır.

Şirvanşahlar Məzyədilər dövlətinin tarixini tədqiq edərkən, müəllif onun coğrafi mövqeyi, təbii şəraiti, resursları və Şirvan əhalisi, "*Şirvan*" sözünün etimologiyası haqqında məlumatları gətirir. Monoqrafiyada bu günə qədər mübahisəli və tamamilə naməlum olan ayrı-ayrı şəhərlərin və qalaların yaranma dövrü və yeri aydınlaşdırılır və müəyyən edilir.

Azərbaycanın dövlətlərində sosial-iqtisadi münasibətlər qonşu dövlətlərlə birbaşa əlaqələrlə inkişaf edirdi. Azərbaycanın şəhərləri İran, Bizans, Gürcüstan, xəzərlər, Rusiya ilə təcarət aparırdı.

Ölkəmizin tarixinin öyrənilməsi, işlənib hazırlanması və tədqiqi üçün professor M.X.Şərifli böyük enerji və əmək sərf etmişdir, bu haqda akademiklər Z.M.Bünyadovun, A.A.Əli-zadənin, Ə.M.Quliyevin, Z.İ.İbrahimovun, D.İ.İbrahimovun, H.B.Abdullayevin, M.A.İsmayılovun və digərlərinin çoxsaylı müsbət rəy və resenziyalarında qırmızı xəttlə göstərilmişdir. Onun müasirləri etiraf edir və əsaslandırırdılar ki, "*M.X.Şərifli orta əsr Azərbaycan tarixinin öyrənilməsində qabaqcıllardan biridir*"[156].

Professor M.X.Şərifli ömrünün axırınadək tarixçi-şərqşünas, orta əsr Azərbaycan tarixinin tədqiqatçısı olaraq qaldı. O fars, ərəb, türk, rus dillərinə sərbəst yiyələnmişdi. Kembric universitetinin professoru V.F.Minorskiy ilə elmi yazışma aparırdı.

M.X.Şəriflinin tədqiqatları dərin təhlillə heyrətləndirir, konseptuallığı, analitikliyi, çoxsaylı ilk mənbələrin kritik təhlili bacarığı ilə fərqlənir, onun bütün əsərləri mütərəqqi ideyalarla doludur. Onun əsərləri tarixçi mütəxəssislərin elmi formalaşmasında əsas rol oynayıb və hal-hazırda tədqiqatçılar, pedaqoqlar, tələbələr üçün əvəzolunmaz vəsaitlərdir.

Azərbaycan tarixinin həqiqi və ümumbəşəri ölçülərlə yeni konsepsiyasının idrakı, dərk edilməsi və formalaşmasının aktiv və çox mürəkkəb prosesi başlanarkən, M.X.Şərifli tərəfindən tədqiq

olunan bugünkü problemlər əsasən aktualdır. Bununla əlaqədar olaraq, müstəqillik dövründə M.X.Şəriflinin əsərlərinin əhəmiyyəti Azərbaycan xalqının tarixi yaddaşının inkişafı üçün böyük maraq kəsb edir.

Professor M.X.Şərifli bütün həyatı boyu seçdiyi işə – ictimai elmlərin inkişafına, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına, Azərbaycanda tarixi düşüncənin zənginləşdirilməsinə dərindən sadiq idi.

Professor M.X.Şəriflinin adı vətən tarixi elmində və Azərbaycan Milli Elmlər Akademiyasının tarixində həmişə şərəfli yer tutub və bundan da sonra tutacaq. Elm və pedaqoji ictimaiyyət görkəmli alim, tarixçi-şərqşünas, tarix elmləri doktoru, prof. M.X.Şəriflinin əziz xatirəsini daim anacaq.

İlk dəfə onun fundamental tədqiqatı – “Azərbaycanın feodal dövlətləri IX-XI ə. ikinci yarısında” (Bakı, “Elm”, 36 t.h. vərəqdə, 344 s.) azərbaycan dilində monoqrafiyası müəllifin vəfatından 9 il sonra – 1978-ci ildə işıq üzü görüb. Təəssüf ki, müəllif bu günə qədər yaşamadı və bütün elmi həyatının əsas işinin nəşrini görmədi. Kitab bütün tarixi ictimaiyyət tərəfindən tanındı. Bu gün kitab Qafqazın strateji araşdırmalar institutu tərəfindən nəşrə hazırlanaraq, rus dilinə tərcümədə işıq üzü görür.

Prof. M.X.Şərifli yüksək və hərtərəfli mədəni, ziyalı, prinsipli və özünə, şagirdlərinə tələbkar adam idi. Gözəl ailə başçısı, qayğıkeş və diqqətli ata idi.

Zahirən gözəl, hündür və cazibədar, ilk görünüşdə sərt, amma əslində çox mehriban, həmişə məğrur, müstəqil və açıq, qətiyyətli olub, yaltaqlığa və riyakarlığa dözmürdü. Professor M.X.Şərifli 5 sentyabr 1969-cu ildə vəfat edib, vəsiyyətinə görə vətənində – Göyçayda dəfn edilib. Onun adı Bakı şəhərinin küçələrinin birinə verilərək, əbədiləşdirilib. Onun Bakıda yaşadığı evinin qarşısında barelyefli xatirə lövhəsi asılıb”.
http://www.anl.az/down/meqale/zerkalo/zerkalo_mart2009/72892.

*"Kim keçmişi haqqında həqiqəti bilmirsə,*
*o gələcəyə layiq deyil"*
Şərq hikməti

## 7.8. Bığır və Şərifli sülaləsi – Şirvanın bir hissəsidir

Azərbaycanda hamı istisnasız bilir ki, ölkədə ən yaxşı nar Göyçay rayonunun Bığır kəndində bitir. Bığır narının reklama ehtiyacı yoxdur, buna güc və vaxt sərf etmək də lazım deyil, ana təbiət özü bu torpağın qayğısına qalıb, həqiqətən nadirdir.

Bir dəfə 1960-cı ilin payızında babam Sədi Hacı Qəhrəman oğlu Şərifli anamla məni Bığırdan Göyçaya yola salarkən (*o vaxtlar hələ marşrut avtobusları müntəzəm işləmirdi*), bizi Bığırdan üç kilometr aralıda yerləşən Bakı-Göyçay-Gəncə magistral yolunadək (*oranı Bığır başı adlandırırdıq*) ötürməli oldu.

Ailə (*ana və iki uşağı*) piyada, mən isə babamın atında yavaş-yavaş Şərifli sülaləsinin (*İbrahim-Xəlil, İsmayıl, Eyyub və b. əmilərimin*) evlərinin yanında yerləşən Şukadan (*quruducu-suşilka sözündəndir*) təpə ilə yüz metr yuxarı qalxırdıq.

Babam atı saxladı ki, anamı və uşaqları gözləsin, mən isə atın üstündə indiki Yuxarı-Şirvan kanalına qədər sonsuz uzanan Bığır kəndinin gözəl mənzərəsi qarşısında qaldım.

Soruşdum ki: - Baba, bu bütün Bığırdır? O, qürurla başını qaldırıb, cavab verdi: - Bu sadəcə Bığır deyil, Şərifli sülaləsinin iftixarı və böyük Şirvan şahın torpaqlarının bir hissəsidir.

Bilmirəm niyə, ancaq babamdan soruşdum: - Baba, niyə kəndimiz Bığır adlanır? O tərəddüd etmədən:

- Biz oğuz türkləriyik və min il yaşadığımız Şirvan dağlarındakı qalanın adı müxtəlif cür səslənirdi: "*Bığır, Buğur, Bağır, Biğurt, Buxur, Boğurt, Buqurd, Bokur, Berkut*" və s.

Yadımdadır, necə bizim Seyid Əzim Şirvani burada Bığırda ilk türk məktəbini açarkən, əmim Hacı İbrahim-Xəlilin yanında demişdi:

- *Bığır Şirvanşahlar ocağının davamçısıdır, siz Şamaxıdakı Bığırlı və Kürdəmirdəki Sığırlı kəndi kimi, Şirvanın paytaxtı*

*Şamaxının dağlarında yerləşən böyük Buğurt qalasının keçmiş qışlaqlarısınız.*

Biz, Şərifli sülaləsi burada 1537-ci ilin əvvəlində təkrar məskən salmışıq, amma elə ona qədər də bu yerlər min il, bəlkə də çox, bizim qışlaqlar olub. Ancaq sənə bir sirr açım, əlbəttə əgər onu yadda saxlasan. Bax, görürsən, bizim Bığır Bakı-Göyçay əsas yolundan necə aşağıda dərində yerləşib. Gör, bu necə dağın oyulmuş parçasına oxşayır, ona görə nə külək, nə boran bizə gəlmir. Ona görə də nar kimi bu cür həssas kol meyvə ağacı hər cür təbii kataklizmlərdən, küləklərdən qorunur və problemsiz yetişə bilir. Bığır, daha doqrusu- Buğur sözü isə ən çox qala deməkdir, yəni biz Şirvanşahların iqamətgahı olan "*Qaleyi-Buqurd*"-danıq. Mənim babalarım orada min illərlə Şirvanşahların bütün sərvətini qoruyub, bu əlçatmaz qalada, daş-qaş qeyri-adi 12 otaqlı qalada yerləşirdi.

Sonra o mənə baxıb, davam etdi:

- Ay yazıq, sən nə biləsən ki, Şirvan və "*Qaleyi-Buqurd*" nə deməkdir, Şirvanşah kimdir, bizi, türkləri elə alçaldıblar ki...

Mən isə Sədi babaya, onun ağ saqqalına baxırdım, başımı silkələyib, sakit dayanan qara ata baxdım.

Sonra babam əlavə etdi:

- Axı biz, Buğırın sakinləri hələ 1886-cı ildə Bakı (*Şirvan*) quberniyasında yeni sistemlə türk savadını öyrədən ibtidai məktəbi ilk açanlardan biri olduq. Sən fəxr edə bilərsən ki, onu Göyçay qəzasının Bığır kəndinin sakini Hacı İbrahim Əfəndi Hacı İbrahim oğlu Şərifli təsis edib və məktəbi heç kimin nəzarəti olmadan, özü idarə edib. Bu məktəbin açılışında Seyid Əzim Şirvani – Azərbaycan şairi və maarifçisi şəxsən özü iştirak edib.

Yalnız sonra, 1986-cı ildə Əfqanıstandan qayıdarkən, İçərişəhərdə "*Qız Qalasının*" yanındakı kitab mağazasından Sara xanım Aşurbəylinin məşhur "*Şirvanşahlar dövləti (VI-XVI ə.)*" kitabını əldə etdikdə mənim üçün Şirvanşahlar haqqında həqiqət pərdəsi açıldı.

Sara xanım Aşurbəyli Zəkəriyyə əl-Qəzvinə istinad edərək, Şirvanda möhkəm Biqurt qalası haqqında söhbət açırdı: "*Bu qalada*

*qədimiliyinə görə mənası çox da aydın olmayan təsvirlər və daş heykəlləri vardır. Qalada hökumət evi [dar al-imara] var, onun qapısında yazılıb: "Bu evdə on bir otaq var (Sədi baba on ikisindən danışırdı), amma daxil olan, əgər cəhd göstərərsə, ancaq onunu görə [bilər], on birinci isə elə gizlənib ki, heç kim bilməz haradadır, orada da sahibinin xəzinəsi yerləşir". Göründüyü kimi, Şirvanşahlar həmin dövrdə xəzinəsini zəif qorunan Şamaxıdan uzaqda, əlçatmaz Biqurd qalasında saxlayırdılar*" [1].

Başqa bir yerdə Sara xanım Aşurbəyli qeyd edir: "*Biqurd qalası hələ XIII əsrdə Şirvanşahların pulları, qızılları və hər cür daş-qaşları saxlanılan xəzinəsi olub*" və s. [1].

Biqurd ("*Qaleyi-Buqurd*") qalasının əhəmiyyəti Sara xanım Aşurbəylinin öz monoqrafiyasında bu qalaya iyirmi dəfədən artıq istinad etməsində və onun ətrafında baş verən tarixi hadisələrdən aydın görünür.

Bəli, əgər mən onda bir neçə yaş böyük olsaydım, həmin vaxt 114 yaşı olan və beş barmağı kimi, Şirvanı və nəinki rayon mərkəzlərini, həm də bütün kəndləri tanıyan Sədi babadan çox şey soruşardım.

Mən vaxtında Bığır orta kənd məktəbinin keçmiş direktoru, atam Həmidullanın əmisi oğlu, rəhmətlik Şərif müəllim Şəriflinin bildiklərindən də istifadə etmədim.

Bu gün mənim mənbələrim daralır, sülaləmiz Şərifli ilə baş verənlər haqqında daha az əlavə informasiya almaq mümkün olur.

Lakin, Allahın köməyilə, bu kitabı öz sülaləmi oyrənməkdə müəyyən addım atmağa cəhd göstərərək, eyni zamanda, görünür, unutmaq istədikləri Şirvanşahların minillik tarixinə kiçik addım atmaqla, tamamlamaq istəyirəm.

Axı Şirvan bütün Şimali Azərbaycan ərazisinin demək olar ki, üçdə birini əhatə edir. İndiki müstəqil və tolerant Azərbaycanın dayanıqlı təməli – eramızdan əvvəl I minilliyin sonuncu üçüncü hissəsinin əvvəlində alban dövlətinin yaranması tarixidir. Bunu təsdiq edir: Albaniyada ilk sikkələr – e.ə. II əsr; Azərbaycanda feodal münasibətlərin yaranması; Şərqin inkişaf

etmiş şəhərlərinin meydana gəlməsi: Bərdə, Şəmkir, Gəncə, Şamaxı, Beyləqan, Şabran, Biləsuvar, Dərbənd, Ərdəbil, Şəki, Təbriz və s. – e.ə. IV-V ə., alban əlifbasının tərtibi.

Albaniyada ilk məktəblərin yaranması, VII-IX ə. ərəb tayfalarının köçməsi, Azərbaycanın islamlaşdırılması, XI-XII ə. türk etnoslarının əsas rol oynadığı etnik proseslər xüsusi əhəmiyyət kəsb edirdi [152].

Bu gün xoşbəxtlikdən ölkənin qədim paytaxtı (*e.ə. IV əsr*) Bərdə var, Qız Qalası dayanır, Xəzər dənizi sahillərində böyük İpək yolunun (*Çindən Avropaya qədər*) keşikçisi olan möhtəşəm qala divarları yüksəlir.

Fəxr edirik ki, nəinki Azərbaycanın, həm də bütün dünyanın dahi şairi Nizami Gəncəvinin vətəni (*Gəncə ş.*) yaşayır, burada XI-XII ə. bəşəriyyətin ən yaxşı kitabxanası vardı və s.

Şair və filosofların ölkəsi Şirvan daim yaşayır, burada eramızın 531-ci ilindən 1537-ci ilinə qədər Şirvanşahların tarixi yaranırdı. Bəli, bu minilliklərin üçdə ikisindən çoxunu Şirvanın paytaxtı Şamaxı olub, Qəbələ, Dərbənd və Bakı da paytaxt olublar.

Güman edirəm, Şirvanın adını 60 min əhalisi olan keçmiş Əli-Bayramlı ilə məhdudlaşdırmamalıyıq. Azərbaycanın üçdə birindən çoxunu Şirvan təşkil edir və onun ərazisi Xəzər dənizinin sahillərindən Alazan çayına və Dərbəndin qapılarından Arazla Kürün qovuşduğu yerədək uzanmışdır [152].

Heyf ki, bu illər ərzində Şirvan elə unudulub ki, muğam ifaçısı Mirələm Mirələmov bunu MUĞAM-2011 müsabiqəsində "*Şirvan Şikəstəsi*" ilə bizə xatırladır (http://www.youtube.com/watch?v=1rcO-zt5sM4&feature=related).

Əlbəttə, şübhəsiz, minillik tarixi olan Şirvanşah dövlətinin belə geniş ərazisində öz idarəetmə sistemi vardı, lakin bunun yazılı sübutları, görünür, ancaq Vatikandadır.

Bəli, bu cənnət guşəsində olan hər imperiya əvvəlcə ölkənin milli elitasını vəhşicəsinə yox edir, çox inkişaf etmiş şəhərlərimizi talan edir, mədəniyyət və incəsənətin bütün atributlarını zalımcasına məhv edir, sonra isə bizi minillik tariximizi unutmağa məcbur

edərək, özlərini xeyirxah, gəlmə, bizi oxuyub, yazmağa öyrədən kimi göstərməyə cəhd edirdilər.

Amma Azərbaycanın tarixində, çox təəssüf, özümüzdən başqa heç kim daha çox zərər vura bilməyib.

Burada da XX əsrin böyük azərbaycanlısını, yazıçımız, ssenaristimiz, ədib, filologiya elmləri doktoru, Azərbaycan SSR Ali Sovetinin deputatı, Mirzə Fətəli Axundov adına mükafat laureatımız İsmayıl Şıxlını (*İsmayıl Qəhrəman oğlu Şıxlı*) xatırlamaq istərdim.

O "*Ayrılan yollar*", "*Dəli Kür*" romanlarının, çoxsaylı kino ssenarilərinin müəllifidir, "*Dəli Kür*" romanı isə ədiblər tərəfindən Azərbaycan nəsrində dönüş və yeni istiqamətin, neo-realizmin başlanğıcı kimi tanınır.

Görünür qoç bürcü (*22 mart 1919-cu ildə anadan olub*) ona ədalətsizlikdən yan keçməyə imkan vermirdi. Azərbaycan SSR Ali Sovetinin deputatı olarkən, Azərbaycanın əbədi yaddaşında qalan bir nitq söyləmişdi. O, parlamentimizin ağsaqqalı olaraq, milləti oyatmaq istəyirdi. Deputatlara və bütün Azərbaycan əhalisinə müraciət edərək, söylədi: "*Bizim bəlamız – özümüzdəndir*" və "*balta və meşə*" haqqında məsəli danışdı.

İsmayıl Şıxlı haqlıdır – məhz özümüzkülər bəlanı gətirirdilər! Şirvanı Səfəvilər dövlətinə birləşdirməyi çoxdan düşünən Şah Təhmasib bir bəhanə tapıb, Şamaxını zəbt etdi, lakin digər istilaçılardan fərqli olaraq, Şirvanşahların maliyyə qalası, Buğurd qalasını tamamilə məhv edib, qalanı axırıncı daşına qədər dağıtmağı əmr etdi [1].

Mahiyyətcə, bu, yad ölkələrin zorakılığının bütün əzablarına və zülmünə dözüb, özününkülərə tab gətirməyən, Şirvanşahların minillik tarixinin sonu idi.

Şah İsmayıl Xətai 1500-ci ildə babasının qədim torpaqlarında Şirvan və şirvanlılar üçün fəlakətlə nəticələnən qanlı savaşa başladı. Qızılbaşlar öldürülmüş qardaşlarının, ancaq sünnilərin, mal və mülkünü ələ keçirib, zəfərlərini göstərən bir qüllə ucaltdılar.

Lakin Şah İsmayıl Xətainin böyük oğlu Şah Təhmasib daha da irəli gedib, atasının başladığı işi axıra çatdırdı və 1538-ci ilin

yazında minillik Şirvanşahlar dövlətini yer üzündən sildi. Axırıncı Şirvanşah, Şəhruhun vəkili Hüseyn bəy Lələ və şirvanlı əyanları ilə birgə gizləndiyi qalanın müdafiəçilərinin müqavimətinə və Buğurd Qalasında ("*Qaleyi-Bequrd*") gedən döyüşün nəticəsinə baxmayaraq, Qızılbaşlar şirvanlıları darmadağın edib, Qurcı qalasını da tutdular.

S.Aşurbəylinin monoqrafiyasında deyilir: "*Qızılbaşlıların amansız qılıncı ilə qalada mühasirədə olan 600 nəfərə yaxın insan öldürülmüşdür. Hətta Şah Təhmasib babası Sultan Xeydərin qanının intiqamını alaraq, [bəzi] Şirvan əyanlarını özü öldürdü*" [1]. Əfsus!

Axı Şirvandan gediş-gəlişli ticarət yolu (*İpək yolu*) keçirdi, bölgə isə minilliklər ərzində çoxsaylı yadelli basqınlara məruz qalıb, müxtəlif dövlətlərin tərkibinə daxil olurdu, bu da Qafqaz, İran və türk elementləri daxil olan əhalinin olduqca qarışıq etnik tərkibini müəyyən etdi.

E.ə. II ə. axırından Şirvanın ərazisi Qafqaz Albaniyasının tərkibinə daxil oldu, onun əsas şəhəri e. VI ə.-ə qədər Qəbələ idi. Qafqaz Albaniyasının əhalisi əvvəlcə müxtəlif dillərdə, o cümlədən türk dilində danışan 26 tayfadan ibarət ittifaq olmuşdur. E. IV ə. Qafqaz Albaniyası Sasanid İranın təsiri altına düşür, V ə. ikinci yarısında isə müstəqilliyini itirir. Görünür məhz Sasanidlər dövründə ilk dəfə "*Şirvan*" adı meydana çıxıb.

Səlcuq istilası ilə Şirvanın bütünlüklə türkləşməsi prosesi başlanır və məhz bundan sonra Şirvanın rifah dövrü başlayır (**http://ru.wikipedia.org/wiki/%D0%A8%D0%B8%D1%80%D0%B2%D0%B0%D0%BD**).

VI ə.-dən XVI ə.-ə qədər Şirvanda Şirvanşahların bir neçə sülaləsi hökmranlıq edirdi. Şirvan əkinçilik, ipək və parça istehsalının mərkəzi olub, beynəlxalq ticarətdə əsas rol oynayırdı (*netf, pambıq və s. ixracatı*).

Şirvanşahların hökmranlığı altında ədəbiyyat inkişaf edirdi, məşhur şairlər yazıb yaradırdı, fars dilində yazan Xaqani Şirvani, türk dilində yazan Nəsimi və digərləri.

Görünür o vaxtlar, uzaq XVI əsrdə Buğurd qalasının (*Qaleyi-Buğurd*) qalan sakinləri dağdan enib, bir hissəsi Azərbaycanın Göyçay rayonunun indiki Bığır kəndinə yerləşib.

Arzu edirəm ki, nə vaxtsa Azərbaycanın yeni nəsli bizim Bığırın, eyni zamanda Şirvanşahların istehkamlarının, Buğurd qalasının, həmçinin Şirvanın paytaxtları: Şamaxı, Qəbələ, Şəki, Dərbənd və Bakının tarixi ilə maraqlansın.

Və əgər mənim bu kitabım gələcək nəsil gənclərə göstərilmiş məsələlərin tədqiqatına ilkin təkan verərsə, missiyamı yerinə yetirmiş sayaram. Qoy gənclər bilsinlər ki, Azərbaycanın böyük neft bumu altında 2012-ci ildə Azərbaycanın Şirvanının Göyçay rayonunun Bığır kəndinin Şərifli sülaləsindən olan hansısa rabitəçi pensiya puluna Şirvanın tarixindən nəsə nəşr etdirə bilib.

Mən dahi Nizami Gəncəvi ilə razıyam – dövlət yalnız onda inkişaf edir ki, ədalət prinsiplərinə əsaslanır. Gələcək nəslin Şirvan və Şirvanşahlar haqqında bu günündən daha çox bilməsi qanunauyğundur.

Şirvan – Xaqani, Nəsimi, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir (*Tahirzadə*), Hacı Zeynalabdin Şirvani, Məhəmməd Şirvani, Əzim Əzimzadə, Abbas Səhhət, Həsən Zərdabi, Həmədi Şirvani, Fələki Şirvani, Sultan Məcid Qənizadə, Məhəmməd Hadi kimi bir çox görkəmli Azərbaycan şairlərinin, filosoflarının, memar və alimlərinin vətəni kimi şöhrət tapıb.

Bir sıra azərbaycanlı tədqiqatçıların məlumatına görə, Şirvandan olan şairlərin, filosofların, memar və alimlərin sayı yuxarıda göstərilən siyahıdan on dəfə çoxdur [152].

Təəssüf ki, ancaq indi Vatikandan Şirvanın (*Azərbaycanın*) tarixinin işıqlandıran bir sıra sənəd nüsxələrini almağa başlamışıq.

Yalnız 2011-ci ildə AMEA-nın mütəxəssislərinin Vatikanın kitabxanalarının gizli arxivlərində saxlanılan Azərbaycan tarixinə aid olan sənədlərin nüsxələri ilə tanış olmaq imkanı oldu.

2011-ci ilin iyul və dekabr aylarında Bakıya dövlətlərin (*Atabəylər, Elxanilər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər və Qacarlar*) hökmdarlarının Vatikanın ruhanilərinə olan məktublarının nüsxələri və cavab məktubları, göstərilən xronoloji dövrdə

Azərbaycanda sosial-konfessional cərəyanlarla bağlı missionerlərin gizli hesabatları gətirildi.

AMEA-dan olan mütəxəssislərin qeyd etdiyi kimi, Vatikandan gətirilən sənədlər müxtəlif dillərdə yazılmışdır və onların tədqiqinə müəyyən vaxt lazımdır.

Həqiqət isə ondadır ki, türk xalqı kimi, azərbaycanlıların kökündə həqiqətən qədim 5-6 minillik tariximizin müxtəlif dövrlərində Sibirdən, Şərq və Şimaldan bizə gələn bir sıra türk heyvandarlıq tayfaları vardır.

Əsas mənşəyinə görə azərbaycanlılar bu torpaqda genetik əlamətləri ilə bir neçə minillik yaşayan qədim tayfa və xalqların nəslidir.

Bəli, "*Xalqların böyük miqrasiyası*" anlayışı var və min il bundan əvvəl demək olar ki, dünyanın heç bir xalqı (*yəqin çinlilər istisna olmaqla*) indi yaşadıqları ərazidə yaşamayıb, amma türklər həmişə bir-biri ilə qarşılıqlı əlaqədə olub.

Heyvandarlıq isə nəinki türk Oğuzlara, həm də yüzlərlə dünya xalqına məxsusdur, camaat yayda sürü ilə dağlara, yaylaqlara, mal-qara üçün təzə otlar olan yerlərə keçir, qışda isə soyuqların gəlişi ilə geri, düzəngaha, qışlaqlara qayıdırdı. Həmçinin, bir qayda olaraq, bu yay və qış dayanacaqları minillər boyunca eyni yerdə idi.

Camaat isə dəqiq bilirdi ki, bax bu dağ bu qəbilənin yay otlağıdır, digər dağ isə başqasınındır. Göstərmək lazımdır ki, bu otlaqlara sahiblik bizim minillik türk Şirvanşahlar dövlətinin tarixində olduğu kimi, əsrlərlə atadan oğula, nəsildən-nəslə keçirdi.

Məhz bunu Ərəb coğrafiyaçısı və səyyahı Übeyd ibn Şəriyyə əl-Cürhumi e. VII ə. xəlifə I Muaviyəyə öz məlumatında təsdiq edir (*bu haqda orta əsr Ərəb alimi Əhməd İbn-ul-Əsəm əl-Kufi özünün "Kitab ul-Fütuh" əsərində göstərir*). Xəlifə I Muaviyə uzun səfərdən qayıdan Übeyd ibn Şəriyyədən soruşanda: "*Allahın adı ilə, bizə xəbər ver, Azərbaycan haqqında nə öyrəndin?*" Übeyd deyir: "*Azərbaycan – türk torpağıdır. Onlar ta qədimdən orada cəmləşib, bir-biri ilə qarışaraq, artıb və gücləniblər*".

*"Heç bir qalib təsadüfə inanmır"*
Fridrix Nicşe (1844- 1900)

## 7.9. Bakı – Şirvanın və bütün Azərbaycanın paytaxtıdır.

İlk dəfə Bakı bulvarına 1965-ci ilin sentyabr ayının əvvəlində Yasamal bazarının yaxınlığında yerləşən "*Sevil*" kinoteatrının arxasında kirənişin qalarkən getməyə başladım, bulvarda Göyçayın 3 nömrəli orta rus məktəbində bir sinifdə oxuduğum Vanya Kalujnikovla görüşürdüm.

Demək olar ki, yarım il bazar günləri, səhər saat on radələrində görüşüb, Sergey Mironoviç Kirov adına dağüstü parkda (*indi Şəhidlər Xiyabanı*) və bulvarda gəzirdik.

Lakin tezliklə hər şey dəyişdi, axşam şöbəsində oxumağa və işləməyə başladım və görüş üçün ümumiyyətlə vaxt qalmırdı.

Həyat isə çox maraqlıdır. 1993-cü ildə Pakistandan qayıdandan sonra həyat yoldaşım məni onunla uşaq və qonaq otaqlarına uyğun mebel tapmaq üçün mebel mağazalarını gəzməyə məcbur edirdi.

Və budur, 28 may küçəsi ilə Alman Kirxasının yanındakı mebel mağazasına girəndə gördüm ki, Vanya özüdür ki var. Çox isti görüşüb, qucaqlaşdıq və onu həyat yoldaşım Subi xanıma təqdim etdim. Məlum oldu ki, o kompüter işləri ilə məşğul olur və ümumiyyətlə, proqramçıdır və hardasa işləyir.

Söylədim ki, Azərbaycan Texniki Universitetinin (*AzTU*) rabitə kafedrasında işləyirəm və tövsiyə etdim ki, bizim Həmidlə həmyaşıd olan böyük oğlu məktəbi bitirəndən sonra bizə, AzTU-ya qəbul olsun.

Və təsəvvür edə bilərsiniz, Vanya ilə hardasa daha altı ildən sonra, 2000-ci ildə onun oğlu Kostya və mənim oğlum Həmidin AzTU-ya qəbul olmaq üçün test imtahanlarını verdikləri məktəbin qarşısında görüşdük və hər ikisi müvəffəqiyyətlə eyni gündüz qrupuna daxil oldular.

Bunu "*yuxarıdan*" bir işarə kimi qəbul etdim və dörd ildə Kostyanı kəsiri olarkən onu nəzarətdə saxladım. AzTU-da məəttəl

qalmışdılar ki, mən gedib kimin üçünsə xahiş edirəm, halbuki, iyirmi ildə bunu etməmişdim.

Lakin o məktəb yoldaşım Vanyanın oğlu idi və ikinci kursda oxuyarkən yazıq Vanya qəflətən rəhmətə getdi və indi özümü bütün təlim prosesində ona kömək və himayə etməyə borclu sayırdım.

Allaha şükür, müvəffəqiyyətlə bitirib, bakalavr dərəcəsini aldı və atasının dostunun köməyilə AzEvroTel-ə billinq şöbəsinə işə düzəldi.

Və Allaha şükür ki, yaxşı oqlandır, 2011-ci ildə ailə qurdu (*Həmid onun toyunda olub*) və güman edirəm, onunla, Allahın köməyilə, hər şey yaxşı olacaq.

Təəssüf, Vanya vaxtsız həyatdan getdi, Allah rəhmət etsin.

Məhz oğullarımızın AzTU-ya daxil olduğu ildən, daha doğrusu, 2000-ci ilin mayından Azərbaycan pr. 24 (*indiki Zərifə Əliyeva küç.*) ünvanında yaşayan qonşum, "*Yol nəqliyyatı*" kafedrasının keçmiş müdiri Verdiyev Arif müəllimin təkidinə görə, hər gün səhər saat yeddidə bizdən yolu keçdikdən sonra yerləşən Dənizkənarı bulvara çıxmağa başladım, burada bir saat gəzib, müxtəlif fiziki məşqlər edirdik.

Məhz Arif müəllim Verdiyevə görə, mən Məlikov İlyasla "*gizli müşavirimiz*"; Əlizadə Telmanla; Kamran İmanovla; Fərid Xanlarovla (*Elmlər Akademiyasının Rəyasət Heyətindən*); Yuriy Hüseynoviç Məmmədovla (*keçmiş idman naziri*); Firudin Məmmədovla (*keçmiş prokuror*) tanış oldum. Mexanik, professor Rasim Əlizadə ilə (*12 il Türkiyədə, İzmirdə işləyib*); Azərbaycanın Qaz sənayesinin keçmiş naziri Kamil Akimovla, professor Kamil Şahbazovla və s. dostlaşdım.

Məni 1 may 2000-ci ildən bu səhər proseduruna, 1,5 saatlıq bulvarda gəzintiyə və çox gözəl insanlarla ünsiyyətə cəlb edən Arif müəllim Verdiyevi tez-tez xoş sözlərlə xatırlayıram.

Bu gün o uzaq 1965-ci ildə bizim Vanya ilə Xəzərimizin sahillərində gəzintimizi xatırlayıb, Bakı buxtasının o vaxtkı mənzərəsini indiki ilə müqayisə edəndə burada edilən hər şeyə heyrətlənirsən və xüsusən də Azərbaycan Respublikası Nazirlər

Kabineti yanında Bulvar İdarəsi yaradıldıqdan sonra. Belə ki, xalqın xidmətçiləri çalışırlar!

Beləliklə, "Avroviziya - 2012" mahnı müsabiqəsinin açılış gününə istifadəyə verilmişdi: "*Baku Crystal Hall*", Azərbaycanın Dövlət Bayrağı Meydanı, Bayıldan Bulvar sahili boyunca nəqliyyat yolu, "*Hilton*" və "*Absheron*" otelləri. Bakı bulvarı tanınmayacaq dərəcədə gözəl oldu.

Və budur, 2015-ci ilin bu gözəl iyun günlərində Bakımız qeyri-adi gözəldir, bütün küçələr təmizlənib (*Londonda artıq 300 il edildiyi kimi*), evlərin bir çox fasadları qədim dövrlərdəkinə bənzədilib və biz Nar rəmzli Avropa oyunları-2015-in ev sahibiyik...

Bir zamanlar A.N.Mandelştam yazmışdı: "*Pantürküzmün ideoloji banilərini Rusiyadan çıxan tatar Əhməd Ağayevi (Ağaoğlu – A.B.), Yusif Akçuru, Əli Hüseynzadəni, İsmayıl Qasprinskini hesab etmək lazımdır*".

Türkçülüyün tarixi kökləri türk xalqlarının etnik və dil yaddaşındadı və türk birliyi ideyasını təkrarolunmaz türk folklorunun çox qədim minillik qatında izləmək olar.

Və bir də – nə qədər ki valideynlər, nə qədər ki böyüklər var, sənin həyatının səhifələri yazılır, bilirsən ki, onları kimsə düzəldəcək, kömək edəcək.

Əlli, altmış və hətta yetmiş yaşında da yetim qalmaq olar, valideynlərini nə vaxt itirməyindən asılıdır.

Amma Vətənsiz yaşamağa ixtiyarımız yoxdur, gənclərimizi müstəqilliyə, yaradıcılığa və bütün dünya proseslərinə alternativliyə öyrətmək lazımdır.

İnkişafımız Demokratik Azərbaycanın üç rəngli bayrağı altında getməli və türkçülüyə, tərəqqiyə və türk islamının müqəddəsliyinə əsaslanmalıdır.

Hər şeyi bilməliyik, amma bunu özümüzdə tətbiq etmək vacib deyil. Məsələn, nə üçün kömpüter texnologiyaları və informasiyalaşdırma dövründə artıq "*can verən*" Azərbaycan Milli Elmlər Akademiyasını canlandırmayaq?

Elm alimlərin, aspirantların, magistrlərin və tələbələrin cəmləşdiyi Universitetlərdə olmalıdır.

Azərbaycanın milli ideyasının yaradılması, onun gələcəyi və yetişən nəsli üzərində işləmək vaxtıdır.

Axı sosial bərabərsizlik və ədalətsizlikdən narazı olan bütün xalq, Allah eləməmiş, küçələrə çıxıb, hər şeyi dağıtmağa başlayar. Bunu nə polis, nə ordu dayandıra bilməz. Görünür heç kim.

Bu vəziyyətdən istifadə edib (*artıq bir neçə dəfə olub*), bəzi vicdansızlar (*tarixin göstərdiyi kimi, demək olar həmişə bundan praqmatik və namərdlər istifadə ediblər*) kütləni ələ alıb, özlərinə sərfəli yerə yönəltməyə cəhd edəcəklər.

Və nəticə etibarilə xalq uduzur.

Məmurların böyük əksəriyyətinin (*iri, orta və hətta kiçik*) yalnız öz ciblərinin qayğısına qaldığını başa düşmək üçün xüsusi analitik və proqnozçu olmaq lazım deyil.

Sadə xalqın qayğısına qalmaq, görünür, ondan yalnız faydalanmaqdır – qopartmaq, ilişdirmək, ayağına yazmaq və s. Axı məmurlar – hökumət nümayəndələridir.

Heç kim şübhə etmir ki, məmurların davranışı həmişə, hər yerdə və istənilən dövlətdə ölkənin ali hakimiyyətinin, bizim halda prezidentin mövqeyi ilə assosiasiya edilir.

Axı məhz onlar, məmurlar prezidenti təhlükə altına qoyurlar.

Ölkə rəhbərliyinə həqiqəti bilavasitə çatdıranlar, dövlətin, ölkənin həyat fəaliyyətinin ayrı-ayrı sahələrinə cavabdeh olanlar dövlət başçısına təqdim edilən informasiyanı həqiqətən təhrif edirlər.

Görünür Rüstəm İbrahimbəyov elə bunu nəzərdə alaraq iddia edirdi: "*Peşəkar elitanın hər nümayəndəsi xalqın etirafının növbəti və axırıncı pilləsinə – milli elita adlanan səviyyəsinə qalxa bilməz. Bunun üçün o yüksək vətəndaş və mənəvi keyfiyyətlərə yiyələnməlidir*".

Həmçinin "*Elektron Hökumət*" layihəsinə cavabdehi rabitə və informasiya texnologiyaları sahəsi səviyyəsində deyil, hökumət səviyyəsində müəyyən etmək lazımdır ki, ölkə əhalisini instansiyalar üzrə saysız-hesabsız arayışlar, çıxarışlar və sənədlər yığmaq alçaldıcı zəruriyyətindən qurtarıb, eyni zamanda ölkədəki korrupsiya və bürokratiyaya real zərbə vursun.

Nə vaxt ölkənin idarə və təşkilatlarından sənədlər və arayışlar məmurun iştirakı olmadan, "*Elektron Hökumət*" vasitəsilə istifadəçilərə təqdim ediləcək?

Axı istifadə edilən texnologiyaların "*yüksəklik*" əlaməti məhz bu texnoloji prosesdə insanların iştirak dərəcəsi ilə təyin olunur və insanların iştirakı nə qədər azdırsa, texnologiya o qədər "*yüksəkdir*", biz isə "ASAN" dövlət idarəsi ilə fərəhlənirik, lakin burada da xidmətlərin yerinə yetirilməsi görünür "*məmurların çiyninə*" düşür.

Elektron hökumət adi vətəndaşlara lazımdır. O şəxsiyyət vəsiqəsinin, sosial kartların, sürücülük vəsiqələrinin alınması, qeydiyyatın, avtomobilin texniki baxışı haqqında qeydiyyatın aparılması, müxtəlif tibbi arayış və sığortaların alınması, vergilərin ödənişi və xidmətin onlarla digər növləri üçün lazımdır və "*dövlət məmurunun mənfəətpərəst maraqları*" olmadan aparılır.

Axı hamımız Azərbaycanda yaşayırıq və yəqin çoxları bilir ki, adi insanlar dəyərli vaxtını, əsəb və gücünü məmurların otaqlarında bürokratik alçaltmalara sərf edir, hansılara ki, tələb olunan arayışı vermək yaxud digər instansiyalara əlavə sənədlərin toplanması üçün göndərməklə, formal yanaşma ilə imtina etmək haqqı verilib...

Bakının Azərbaycanın paytaxtı kimi formalaşmasının tarixi hələ 1918-ci ildə onun bolşevizmdən azad olunması uğrunda mübarizə başlayarkən yaranmışdır.

Məlumdur ki, F.X.Xoyskinin kabineti 23 iyun 1918-ci ildə vəziyyətin bütün ciddiyyətini nəzərə alaraq, ölkə ərazisində hərbi vəziyyət elan etdi.

Milli ordunun yaradılması dövlət üçün çox əhəmiyyətli oldu. Azərbaycan hissələrinin sərəncamına lazımi qədər atıcı silahdan başqa, 6 artilleriya topu, 21 pulemyot və 1 zirehli qatar verilmişdi.

İlk şiddətli vuruşmalar 28 iyun 1918-ci ildə Göyçay yaxınlığında üstün düşmən qüvvələri ilə başlandı. Lakin artıq iyunun 30-da düşmən yardım alaraq, sol cinahdan Göyçay şəhərinə lap yaxınlaşdı.

Onda Nuri paşa döyüşə mayor Əhməd Həmdi bəyin başçılığı altında Ağdaş və Qaraməryəm mövqeyindən təcili köməkçi dəstə, həmçinin Gəncədən 25-ci batalyonu daxil etdi, onlar düşməni dayandırıb, sonra da darmadağın edə bildi. Düşmən döyüş meydanında çoxlu sayda silah və sursat buraxıb, geri çəkilməyə başladı. Sonra bolşeviklərin Qaraməryəm tərəfə qovulması başlandı.

Lakin Qaraməryəmdə bolşeviklər möhkəmlənməyə çalışdılar, amma bacarmadılar və orada çoxlu sayda silah və sursat buraxıb, bütün cəbhə boyu geri çəkilməyə başladılar.

Geri çəkilən bolşeviklər Kürdəmir-Ağsu müdafiə xəttini tutdular. Nuri paşa şəxsən cəbhə xəttinə getdi.

İyulun 5-də 10-cu və 13-cü silahlı qüvvələrlə hücuma keçərək, artıq növbəti gün Nuri paşa cəbhəni yara bildi.

Bolşeviklər Ağsunu yandırıb, Şamaxıya geri çəkildilər.

Ermənilərin və bolşeviklərin birləşmiş qüvvələri Kürdəmiri əldə saxlamaq üçün hər cür cəhd göstərdilər. Onların sərəncamında zirehli qatar və çoxlu sayda zirehli avtomobil vardı.

Nuri paşa bir yüksək artilleriya hissəsini və 46-cı batalyonu 13-cü alayın sərəncamına verdi və düşmənin texniki üstünlüyünə baxmayaraq, iyulun 10-da axşam bizimkilər düşməni Kürdəmirdən vurub çıxardaraq, çöldə onları təqib etdilər.

Nuri paşa ali siyasi hakimiyyətin ona verdiyi səlahiyyətlərdən istifadə edərək, 11 iyul 1918-ci ildə 1894-1899-cu il təvəllüdlü azəriləri orduya çağırılması haqqında əmr verdi.

Belə ki, xalqın döyüş ruhunu yüksəltmək məqsədilə, Nuri paşa və onun müavini Əli ağa Şıxlınskiy əhalini Vətən düşmənlərinə qarşı mübarizəyə qalxmağa çağıraraq, özləri qərbi qəzaları gəzib dolaşırdılar. Dünənki kəndlilər hərbi elmi tez mənimsəyib, peşəkar hərbiçilərdən pis döyüşmürdülər.

Nuri paşanın hərbi bioqrafiyasında Bakının azad olunması xüsusi yer tutur. Tezliklə, iyulun 23-də Nuri paşanın qüvvələri Bakının 70 km qərbində yerləşmişdi.

Cənub istiqamətində Qarasu, Hacıqabul və Cəngi postu alınmışdı. Nuri paşa düşmənə ara vermədən iyulun 30-da səhər tezdən Qobu kəndinə girdi. İyulun 31-də döyüşdən sonra Navahı və

Atbulaq stansiyaları türk-azərbaycan qüvvələrinin nəzarətinə keçdilər. Düşmən Heybət-Biləcəri dəmir yolu xəttindən şərqə geri çəkildi.

Lakin avqustun 4-dən 7-ə qədər general Denstervillin başçılığı altında 1500 əsgər və zabitdən ibarət ingilis briqadası Bakıya gəldi. Təyyarə hücumları və Xəzər donanmasının gəmilərindən artilleriya dəstəyi irəliləməni çətinləşdirdi. Döyüşlər uzun sürən xarakter aldı.

Nuri paşanın avqustun 5-də hücumu təqribən 2000 nəfər erməni-bolşevik qüvvələrinin itkisinə baxmayaraq, uğursuz oldu, top gülləsi tükəndi. Türk-azəri qoşunları təxminən 600 nəfər itirdi.

İkinci hücumuna Nuri paşa daha diqqətlə hazırlaşdı və Gümrüdən Süleyman İzzət bəyin başçılığı altında 106-cı alay və 15-ci diviziya gəldi.

Sonra piyada diviziyaya Mürsəl paşa, cənub qoşunları qrupuna polkovnik Cəmil Cahid bəy, tərkibində azərbaycanlı qüvvələrdən ibarət cənub qrupu olan 4-cü alaya polkovnik-leytenant Halim Pertev bəy başçılıq edirdilər.

İndi Nuri paşanın qüvvələri 14000-ə yaxın süngüdən ibarət idi ki, onlardan 8000-i türk, 6000-i isə azərbaycanlı idi.

Hücum sentyabrın 14-də gecə savaşı ilə, düşmənə qəfil hücumla başladı. Döyüş meydanında minlərlə ölü buraxıb, düşmən geri çəkilməyə məcbur oldu.

Birinci müdafiə xətti gündüz saat 15.00-da, ikinci – 18.00-da alındı. Hücumun qəhrəmanı – 56-cı alay Qurd qapısı strateji yüksəkliyini və Bayılı aldı. 15-ci piyada diviziyası Biləcərini aldı; azərbaycanlı qüvvələrdən ibarət Maştağa qarnizonu şiddətli hücumla Sabunçu mövqelərini tutdu. Türk artilleriyası şəhərin özündə hərbi məntəqələri top atəşinə tutdu.

Günortadan sonra müsəlman qırğınının günahkarları olan erməni quldur dəstələrinin başçıları öz döyüşçülərini ataraq, reyddə dayanan gəmilərə oturub, şəhərdən getdilər, kimisə Ənzələ, kimisə Petrovska (*indiki Maxaçkala*).

Sonra, sentyabrın 14-də axşama yaxın general Denstervillin 39-cu ingilis briqadası gəmilərə doluşub, dənizə çıxdı.

Qaçanlar arasında 1918-ci ilin mart qırğınında minlərlə dinc müsəlmanın, Bakının 12000 əhalisinin ölümündə günahkar olan 26 Bakı komissarları da vardı.

Və beləliklə, sentyabrın 15-də Nuri paşa şərtləri irəli sürdü: sözsüz təslim: şəhəri müdafiə edən əsgərlər təslim olmalıdır. Silah, sursat, mülk təslim edilməlidir. Nargin adasında saxlanılan bütün türk, alman və avstriyalı hərbi əsirlər verilməlidir və s.



Cəbhə xəttində yerləşən Nuri paşa sentyabrın 16-da Xəlil paşa ilə birlikdə qoşunların paradını (*20 nömrəli məktəbin qabağında, burada M.Əzizbəyovun heykəli uzun zaman dayandı*) qəbul edib, şəhərə girdi.

Ancaq təəssüf ki, bu günə qədər Bakıda onun 15 sentyabr 1918-ci ilin xilaskar döyüşçülərinə (*Nuri paşa*) heykəl qoyulmayıb.

Yadımdadır, Azərbaycan ziyalıları Bakının mərkəzində (*keçmiş 26 Bakı komissarları bağı*) həlak olmuş xilaskarların xatirə memorialı və Nuri paşaya, Əli ağa Şıxlınskiyə, Mürsəl paşaya və digərlərinə abidələrin ucaldılması məsələsini dəfələrlə qaldırmışdır.

Soruşulur, nə vaxt xalqa onun yaddaşını qaytaracaqlar?!

Biz yəqin, susmamalıyıq, heç olmasa özümüzə hörmətdən ötrü, əgər, Allah eləməmiş, müstəqilliyimizə xəyanət etsələr, gələcək nəslimiz bizi qorxaqlıqda ittiham etməsin.

Bu gün, qeyri-ixtiyari Azərbaycanın mesenatı, rəhmətlik Hacı Zeynalabdin Tağıyev yada düşür.

Deyirlər ki, bolşeviklər onu öz evindən çıxardanda o, ailə üzvlərinə sakitcə söyləmişdi ki, "*Yalnız şəxsi əşyalarınızı götürün, o birilər xalqa qalacaq*".

Və, bu kitabı bitirərək, bir fikrə gəlirəm ki, yəqin bu əsər Göyçay rayonunun Bığır kəndində yaşayıb, dəfn edilmiş Şərifli sülaləsinin üzvlərinin yaşadığı yüzilliklərin, keçdiyi yolların xatirələridir. Bəli, bu nostaljidir! Amma o şübhəsiz, xoş hissləri də doğurur, görünür, bu, kədərlə sevincin birgə dəstəsidir.

Bəli biz Şərifli sülaləsinin üç nəslinin ömrü boyunca keçmiş haqqında düşünür, danışır və kədərlənirik və bu da, yəqin, pis deyildir!

*Əslimi, nəslimi tanıyıram mən,*
*Qarışıq deyiləm özümdən ürkəm.*
*Sən kimsən, sən nəsən, özün bilərsən,*
*Mən ilk qaynağımdan türk oğlu türkəm!*

Bəxtiyar Vahabzadə (1925-2009)

# NƏTİCƏ

Dahi Mirzə Fətəli Axundovun biz azərbaycanlılara ünvanladığı sualı var: "*Əgər uca Allah bizdən soruşsa: bu dünyada sizə 70-80 il ömür vermişəm. Bu müddət ərzində insanlar üçün hansı yaxşılığı etmisiniz? – hansı cavabı ona verə bilərik?... Gəlin, islam xalqlarını əmin-amanlığa, tərəqqiyə və firavanlığa aparan yolların axtarılmasında həkfikir, müttəfiq olaq*".

Görünür, anlamalıyıq biz kimik, haradanıq, köklərimiz hardandır, türkçülüyümüz nəyə əsaslanır, yolumuz haradır və bizim başladıqlarımızı davam etdirməli olan gənclərimiz üçün bunu necə sivil, ağrısız izah edək, ölkənin perspektivi üçün bazamız varmı.

Bu gün Rusiya (*V.Jirinovskinin sözləri ilə*) deyir ki, azərbaycan türkləri deyilən– millət yoxdur. Bəlkə heç bir qırğız, qazax, türkmən, özbək, uyğur, tatar, başqır, altay, şimal-qafqaz, sibir və digər türk qrupları da yoxdur?

Hələ bir bəyan etsinlər ki, türklər ümumiyyətlə yoxdur?

Burada bizə Azərbaycan türkləri haqqında çox şeyi açan bir məqalə üzərində ətraflı danışmaq istəyirəm. Məqalə "*Ərəb iki sözlə Azərbaycan türkləri haqqında böyük bir yalanı necə dağıtdı*" adlanır və bu məqalə 4 dekabr 2010-cu il tarixində Trend Life-da çıxmışdı (http://www.trend.az/life/culture/1792507.html).

Ərəb coğrafiyaçısı və səyyahı Übeyd ibn Şəriyyə əl-Cürhumi e. VII ə. Xəlifə I Muaviyəyə məlumat verir (*bu haqda orta əsr Ərəb alimi Əhməd İbn-ul-Əsəm əl-Kufi özünün "Kitab ul-Fütuh" əsərində göstərir*). Əsərdə deyilir ki, Xəlifə I Muaviyə uzun səfərdən qayıdan Übeyd ibn Şəriyyədən soruşanda: "*Allahın adı ilə, bizə xəbər ver, Azərbaycan haqqında nə öyrəndin?*" Übeyd cavab verir: "***Azərbaycan – türk torpağıdır. Onlar ta qədimdən orada cəmləşib, bir-biri ilə qarışaraq, artıb və gücləniblər***".

VII əsrin Ərəb səyyahı Übeyd ibn Şəriyyə əl-Cürhumi iki cümlə ilə dünyaya Azərbaycan türkləri haqqında müasir alimləri (*doktorların, professorların və akademiklərin*) dissertasiyalarında tapacaqlarımızdan daha çox məlumat verdi.

Übeyd ibn Şəriyyə xəbər verir ki, VII əsrin Azərbaycan ölkəsi yerli türklərin hakimiyyəti altında idi ("*Azərbaycan – türk torpağıdır...*"). Bu, Qafqaz Albaniyasında hökmranlıq edən sülalələrin əslən "*qafqaz dilli*" xalqlardan olduğu, Atropatenanı (*Adurbaqadan*) guya ümumiyyətlə farslar idarə etdiyi kimi köhnəlmiş mifi dağıdır.

Əgər "*qədimlik*" sözünü müasir alim işlədirsə, onda biz antik və yaxud erkən orta əsri anlayırıq. Onda təsəvvür edin, "*qədimlik*" anlayışı VII əsir aliminin dilində hansı mənanı verir!

Belə çıxır ki, uzaq keçmişin müəllifi iddia edir ki, türklər Azərbaycan torpaqlarında daha qədim dövrlərdən yaşayırdı.

Əlbəttə, opponentlər deyəcəklər: "*Yox, nə danışırsınız! Rəsmi tarixçilər söyləyir və yazır ki, türklər Qafqazda, o cümlədən Azərbaycanda yalnız VII-XI ə. məskunlaşıb!*".

Übeyd ibn Şəriyyə demişdir: "*...Onlar ta qədimdən orada cəmləşib, bir-biri ilə qarışaraq, artıb və güclənibl ər*". "*Bir-biri ilə qarışaraq*" o deməkdir ki, Azərbaycan torpaqlarına gələn türklərin yeni tayfaları burada artıq məskunlaşmış yerli türkləri taparaq, onlarla qarışırdılar.

Beləliklə, Ərəb coğrafiyaçısı və səyyahı Übeyd ibn Şəriyyə əl-Cürhumi hind-avropa elmini çıxılmaz vəziyyətə qoydu. Hind-avropa elmi hər zaman iddia edib ki, türklər – Azərbaycana gəlmələrdir. Hesab olunur ki, Azərbaycanda hind-avropalılar – farslar, ermənilər və digərləri yaşayırdılar. Sonradan, guya türklər gəlib, onların hamısını assimilyasiya edib.

Görünür, hind-avropa elminə görə, Übeyd ibn Şəriyyənin məlumatı ilə hesablaşmamaq olar. Lakin VII əsr Ərəb səyyahının bu sözləri nə qədər inkar olunsa da onlar buna görə yoxa çıxıb, əsl elm üçün mənasını itirməyəcək.

Mən, Abdul Qəhrəmanzadə, oğuz türk, bizim əcdadlarımız haqqında belə həqiqəti çatdırdıqlarına görə, bu müəlliflərə minnətdaram (**http://www.trend.az/life/culture/1792507.html**).

Bəli, minilliklər boyunca çox şey dağıdılıb və talan edilib!

Hesab olunur ki, XV əsin əvvələrində Şirvanın hökmdarı dövlətin minillik paytaxtını Şamaxıdan tezböyüyən Bakıya köçürdüb, burada da Şirvanşahlar Sarayının memarlıq ansamblı yadılmağa başlayıb. Onun tac qübbəli binası mükəmməl portal və minarələri ilə "*İçərişəhər*"in həm dənizdən, həm də bugünkü paytaxtımız Bakımızın amfiteatrından yaxşı görünən ən yüksək nöqtəsində yerləşirdi.

Şirvanşahlar Sarayı ansamblına isə ikimərtəbəli bina, həmçinin lakonik və ifadəli ornamentlərlə 50-ə qədər müxtəlif otaqlar, divanxana, Şirvanşahların türbəsi, minarəli saray məscidi, hamam və məqbərə daxildir.

Şirvanşahların irsi türbəsi memar Məhəmməd Əli tərəfindən yaradılıb və o öz adını portalın ornamentli medalyonuna ustalıqla şifrələyərək, çatdıra bilmişdir (**http://news.day.az/unusual/243523.html**).

Kompleksin cənub hissəsində Şirvanın saray alimi Seyid Yəhya Bakuvinin səkkiz guşəli məqbərəsi yerləşib.

Ümumiyyətlə Şirvanşahlar Sarayı zaman-zaman alınmışdır. Axı Səfəvilərin qoşunları 1501-ci ildə Bakını alarkən, saray talan edilmiş (*yenə də özümüzkülər*) və indi Şirvanşahların minillik xəzinəsi Türkiyənin, İranın, İngiltərənin, Fransanın, İtaliyanın (*Vatikan*), Rusiyanın və s. muzeylərindədir.

Lakin daha güclü dağıntılar 1723-cü ildə rus eskadrasının, sonra isə 1806-cı ildə Rusiya qoşunlarının dənizdən top atəşinə tutarkən olmuşdu. Azərbaycan Rusiya imperiyasının tərkibinə daxil olunarkən, saray hərbi təsisata verilmişdi. Nəticədə sarayın divarlarında hələ də güllələrin dəlikləri qalıb (*yəqin əsgərlərin güllə atma məşqlərinin nəticəsidir*).

Nə yaxşı ki, hələ 1964-cü ildə kompleks qoruq muzeyi elan edildi və hal-hazırda memarlıq ansamblı YUNESKO-nun Dünya İrsi siyahısına daxil edilib.

Burada sonda yerlim, nəinki anadan olduğu Göyçayın, bütün Şirvan və Azərbaycanın fəxri Məmməd Sadıq bəy Ağabəyov haqqında məlumat vermək istəyirəm. Sadıq bəy Ağabəyov (*Sadıq bəy Ağabəyzadə*) 15 mart 1865-ci ildən 9 oktyabr 1944-cü ilə qədər ömür sürmüşdür. O Rusiyanın sərkərdəsi və Azərbaycanın dövlət

xadimidir, ADR dövründə Azərbaycan polisinin yaradıcısıdır, Daxili İşlər nazirinin müavini, general-mayor, şərqşünas alimdir...

1883-cü ildə Bakı real məktəbini bitirib, Sankt-Peterburqda Konstantinovski məktəbinə daxil olmuşdur. İllər sonra (*1896-cı ildə*) müvəffəqiyyətlə imtahanlarını verib, Baş qərargahdakı Sankt-Peterburq Şərq dilləri institutuna qəbul edilib. İnstitutu bitirəndən sonra 1899-cu ildə onu Türkistana sonrakı hərbi xidməti keçmək üçün göndərdilər.

1913-cü ildə Sadıq bəy Ağabəyov (*Ağabəyzadə*) xəstəliyinə görə general-mayor rütbəsində təqaüdə çıxır.

Təqaüdə çıxaraq, Sadıq bəy (*bu kitabın müəllifi kimi*) əmin idi ki, onun karyerası sona çatdı və ömrünün qalan hissəsini doğma Göyçayında keçirməli olacaq. Lakin Birinci dünya müharibəsi onun həyatına öz düzəlişlərini etdi və Sadıq bəy andına sadiq qalaraq, könüllü müharibəyə gedir. O Qafqazda, sonra da Ukrayna cəbhəsindəki döyüşlərdə iştirak edib.

1916-cı ildə Sadıq bəy Azərbaycana, vətəninə qayıdır və Göyçayda valideynlərinin evində qalır.

Ancaq 23 oktyabr 1918-ci ildə Azərbaycan Demokratik Respublikası (*ADR*) hökumətinin qərarı ilə S.Ağabəyzadə Azərbaycanın Daxili İşlər nazirinin yoldaşı (*müavini*) vəzifəsinə təyin edilir, o 1919-ci ilin dekabr ayına qədər bu vəzifəsində qalır.

Həmin illər ərzində o polis rütbələrinin yüksəklik dərəcəsi sistemini işləyib hazırlayır. 1919-ci ildə Azərbaycanda polislərin ümumi sayı 9661-ə çatmışdı, onlardan 498-i 1-ci sinif qorodovoyu, 5089-u 2-ci sinif qorodovoyu, 242-i 1-ci sinif postovoyu və 243-ü 2-ci sinif postovoyu idi.

1919-ci ilin oktyabrında ADR hökumətinin tapşırığı ilə Sadıq bəy Ağabəyzadə Batumi şəhərində ABŞ prezidentinin şəxsi nümayəndəsi Ceyms Harbortu qarşılayır.

Oktyabrın 4-dən 10-a qədər Sadıq bəy ABŞ nümayəndəsini müşayiət edərək, onun mühafizəsini təmin edirdi. Bakıya gəldikdə general C.Harbort Hacı Zeynalabdin Tağıyevin evində qalmışdı.

C.Harbort qeyd edirdi ki, Sadıq bəy böyük intellektual imkanlara malik insan idi və o burada hələ bu cür çox bilikli adamla qarşılaşmamışdı.



ADR-in süqutundan sonra Sadıq bəy Ağabəyzadə ailəsi ilə Türkiyəyə mühacirət edir, sonra isə Parisə köçərək, orada iki il şərqşünas alim kimi, Sorbonnada fars və türk dillərini tədris edir. Parisdə o taleyinin böyük zərbəsini yaşayır – sevimli həyat yoldaşı Gulyanın ölümünü, Fransanın paytaxtındakı müsəlman qəbiristanlığında basdırılmışdır.

Arvadının ölümündən sonra Sadıq bəy Ziqmund Smoqojevskinin dəvəti ilə Lvov şəhərinə köçüb, Lvov Universitetinin fəlsəfə fakültəsində çalışmağa başlayır, burada türk, fars və ərəb dillərini tədris edir, özü isə eyni zamanda Polşa və Ukrayna dillərini öyrənir.

1931-ci ildə S.Ağabəyzadə Polşa dilində özünün türk dilindən dərsliyini, 1932-ci ildə isə Oqyust Peryenin 1928-ci ildə Parisdə dərc edimiş "*Ərəb dilinin yeni qrammatikası*" adlı ikinci nəşrinin əsasında yazılmış ərəb dilinin elementar qrammatikasını (*fonetika və morfologiya*) nəşr etdirir.

Alman faşistinin Lvovu işğalı zamanı hitlerçilər artıq yaşlı alimi mənzilindən çıxararaq, zəif qızdırılan bir otağa yerləşdirdilər. Buna görə 1943-cü ildə S.Ağabəyzadə ağır xəstələnərək, 9 oktyabr 1944-cü ildə, artıq Lvov azad olunduqdan sonra, vəfat etdi.

Axırıncı günlərinə qədər alimə şagirdi Olqa Bak və onun həyat yoldaşı baxırdılar. Sadıq bəy Ağabəyzadə Lvovda (*Ukrayna*) Lıçakovsk qəbiristanlığının 84-cü xəttində dəfn edilib.

Gördüyümüz kimi, Azərbaycan Şirvanın (*Göyçayın*) bu cür görkəmli nümayəndəsini itirib, həyat onu Avropaya atdı və o qardaş Ukrayna torpağında dəfn olundu.

İndi Göyçayın mərkəzində, N.Nərimanov-62 küçəsində, Sadıq bəy Ağabəyzadənin anadan olub, böyüdüyü evdə Şirvanın böyük oğluna xatirə barelyefi qoyulub.

Sadıq bəy Ağabəyzadədən və itkilərdən danışarkən, qeyri-ixtiyari ***prof. Rövşən Novruz oğlunun*** sevimli "*Zerkalo*" qəzetindəki 07 sentyabr 2012-ci il tarixli Azərbaycandan beyin axını haqqında (**http://www.zerkalo.az/2012/utechka-mozgov/**) məqaləsini də xatırlayıram.

O əcdadları Hələbdən – Aleppo (*Suriya*) olan və 1920-ci ildən Astraxanbazarda (*indiki Cəlilabad*) Lekin kəndində yaşayan Mədəd Əlihüseyn Qulu oğlu haqqında yazırdı. O, 92 yaşı olanda vəfat etmişdi. O, Tehranın "*Behişti Zəhra*" qəbiristanlığında dəfn edilmişdi. Bu insan kim olub, onu gözlərinə görə "*alim*" adlandırıblar?

Görünür o taun, vərəm və xora kimi yoluxucu xəstəliklərə qarşı inkubasiya yolu ilə virus və vaksin alan yeganə adam idi...

Sonra, keçən əsrin 30-cu illərinin ortalarında Səlyan rayonundan olan o dövrün ruhanilərinin içərisində məşhur *ayətullah* ***Seyid Əli Nəcəfi*** Azərbaycanı tərk etdi.

1936-cı ildə onu Mircəfər Bağırovun yanına çağıranda kağızda nəsə çəkib, "*birinciyə*" göstərdi. Şəkili görüb, M.Bağırov təəccüblə soruşdu: "*Bu nədir?*". "*Bu yüksəksəsli uçuş aparatıdır – mənim ixtiramdır. Biz daha çoxuna qadirik, ancaq siz bizi öldürməyi üstün tutursunuz. Bu böyük bir səhvdir və dövlət bu səhvə görə varlığını ödəyəcək...*".

Ayətullah Seyid Əli Nəcəfi ömrünün axırına qədər Ərdəbildə yaşayıb və orada da basdırılıb. ***Rövşən Novruz oğlunun*** məlumatına görə, ümumiyyətlə İranda (*Təbriz, Şiraz, Urmiyə, İsfahan...*) təxminən 290 nəfər – Azərbaycandan gedən alim, ixtiraçı basdırılıb. Deyilənlərə görə, ABŞ-da onların sayı – 75, Rusiyada – 183, İngiltərədə – 34, Fransada – 26, Şərqi Avropa ölkələrində isə – 88-dir...

*Professor Rövşən Novruz* acı ilə qeyd edir ki, bu alimlərin ruhları hələ də Azərbaycanda, auditoriyalarda, kafedralarda və elmi müəssisələrin otaqlarında dolaşır...

Rövşən Novruz oğlu hiddətlənərək, qeyd edir: "*Hələ də anlaya bilmirəm, niyə Rusiyadan vətəninə onun elminə kömək etmək üçün gəlmiş şirvanlı Polad Siracovun (əslən Ucar rayonundan, Şirvandandır) üzünə bütün qapılar bağlı idi. Nəticədə o Türkiyəyə, oradan isə Əfqanıstana getmək məcburiyyətində qaldı. Deyirlər, müəyyən vaxtdan sonra o "Əl-Qaidə"nin bazasında görünüb. Osama bin Ladinin məsləhətçisi və şəxsi tərcüməçisi olub*".

Professor Rövşən Novruz oğlu Gəncə sakini Səfərov Yaqub Əmrah oğlunun 25 may 1994-cü ildə keçmiş Müdafiə naziri general Məmmədrəfi Rəfiyevə göndərdiyi məktubdakı sözlərə istinad edir: "*Cənab general!... Xahiş edirəm, mənə bir parça çörək verin, mən uşaqlarımı yedizdirə bilim. Mən dilənə bilmirəm, kimdənsə nəsə istəyə bilmirəm. Gəldim ki, bu çətin günlərdə Vətənimə xidmət edim. Amma mənə Rusiyanın, Moskvanın "casusu" damğasını vurub, özlərindən uzaqlaşdırdılar. Qarşımdakı bütün qapılar bağlandı...*".

Görünür, xalq şairimiz **Famil Mehdi** "*Dilən professor utanma dilən*" şerini əbəs yerə yazmayıb. Görünür, o alimlərə olan münasibəti belə görürdü.

Rövşən Novruzdan başqa bir misal – **Yaqub Səfərov**. O 14 avqust 1952-ci ildə Gəncə şəhərində hərbiçi ailəsində anadan olmuşdur. Raket texnologiyası üzrə mütəxəssis olub. Kvant fizikasını çox yaxşı bilirdi. Y.Səfərov 3 dekabr 1982-ci ildə Arxangelsk vilayətində aspiranturanı bitirib. 1993-cü ilin yanvarında Moskva şəhərində "*Polyus*" elmi-tədqiqat institutunda namizədlik dissertasiyasını müdafiə edib. Bundan sonra raket texnologiyaları sahəsində öz tədqiqat və axtarışlarını davam etdirib...

Professor müəyyən edib ki, alim Yaqub Səfərov bütün ixtiralarını müstəqil Azərbaycanın hərbi sənaye kompleksinə bağışlamaq istəyirdi. O yazır: "*Gəldim ki, Vətənim uğrunda həlak olum, şəhid olum,... Lakin məni anlamadılar, qəbul etmədilər...*".

Məmurlar onu anlamadılar. Digər tərəfdən isə "*izah etdilər*" ki, burada onun üçün "*uyğun iş*" yoxdur. Ən yaxşısı Moskvaya, öz "*sevimli iş yerinə*" qayıtmasıdır.

Lakin 21 iyun 1994-cü ildə Yaqub Səfərov Moskvadan teleqramına cavab alır ki: "*... Rusiyanın "casuslara" ehtiyacı yoxdur*" (1994, VI.28. O.A.Alekseyev).

Alim Yaqub Səfərov 8 iyul 1994-cü ildə qızını itirir. 13 yaşlı qızı Rəhilə ehtiyacdan, dərman çatışmamazlığından ölür. Alim çox böyük çətinliklə, yaxınlarının köməyilə onu "*Qurd qapısı*" qəbiristanlığında basdırır.

Sonra, 4 fevral 1996-cı ildə Yaqub Səfərov İsrail səfirliyinin Moskvada hərbi attaşesinə zəng vurur. Özü haqqında qısa məlumat verir... Ona yerli diplomatik korpusa müraciət etməsini məsləhət görürlər. O isə gözləyə bilməzdi. Doqquz yaşlı oğlu Rüfətlə birlikdə Moskvaya yollanır.

1998-ci ildə Yaqub Səfərov "*Haarets*" İsrail qəzetinə aşağıdakı məzmunda müsahibə verir: "*...Mən həyatımın ən dolğun və dəyərli hissəsini yaşayıram. Biliklərim dəyərləndirilib, əməyim layiq olduğunu tapdı. İxtiralarıma hüquqları onlara ürəkdən verirəm, onlar buna layiqdilər...*".

Professorun məlumatına əsasən, İsraildə həm raket texnologiyalarına, həm də bu sahənin mütəxəssislərinə xüsusi münasibət vardır və ona görə də ölkənin müdafiəsinin əsasını yeni, güclü uzun məsafəli ballistik raketlər təşkil edir...

Sonralar, 3 oktyabr 1998-ci ildə Yaqub Səfərov "*Elta*" firmasına işə düzəlir. Burada o RLS üçün məşhur "*W-3*" qurğusunu ixtira edir. O həmçinin 500 km məsafədə raketlərin buraxılmasını təyin edən raketdən müdafiə stansiyasının ("*Yaşıl şam*") işlənib hazırlanmasında iştirak edir.

Allahdan gəlmə alim Yaqub Səfərov 19 fevral 1999-cu ildə avtomobil qəzasında həlak olur (?). Onu RF-nın diplomatik korpusuna (*A.S.Laptevin avtomobili*) məxsus olan R-0014-22 nişanlı avtomobil vurur.

***Rövşən Novruz oğlunun*** məlumatına görə, 1999-cu ildə bilavasitə nüvə texnologiyası sahəsində 93 mütəxəssis Azərbaycandan İsrailə iş axtarmaq üçün getmişdir. 1999-cu ildə 16 mikrobioloq ölkəni tərk etmiş, 2010-cu ildə – 47, 2011-ci ildə 58 mütəxəssis İsrailə yollanaraq, bu ölkənin müxtəlif ETİ-da işə düzəlmişdir. Tel-Əvivdən cənuba "***yadlar***" qəbiristanlığı var, burada

365 azərbaycanlı basdırılıb, onlardan 48-nin ünvanı yoxdur (**http://www.zerkalo.az/2012/utechka-mozgov/**).

Deyirlər, Tel-Əvivdə azərbaycanlı, özbək, türkmən mühacir-alimlərin Avropaya "*ixracı*" ilə məşğul olan mərkəz fəaliyyət göstərir. Rəsmi mənbələrdə bu mərkəz "*Düşünən beynlər, strateji ideyalar*" adlanır.

Görünür, bu cür mərkəzlər Ankarada, Tehranda, Vaşinqtonda, Londonda, Misirdə, Dehlidə, Pekində, Parisdə və s. fəaliyyət göstərir. Professorun qeyd etdiyi kimi, "*Bütün bunlar müxtəlif məsələlər olsa da mənbələri eynidir – laqeydlik*".

Professor acı ilə yazır ki, ona elə gəlir, bu insanları qismən başa düşmək olar. Amma o kəsləri başa düşmür ki, onlar vəziyyətdən yeganə çıxış yolunu intiharda görürlər, yəni özlərini asıb, qatarın altına atıb, boğulub, güllə ilə öldürürlər...

Onun tədqiqatlarına əsasən, 1999-cu ildə Azərbaycanda 22 elm xadimi özünü öldürüb, 2010-cu ildə ondan da çox.

İngilis alimi Lorens Uels bu bəlanın kökünü psixoloji kataklizmlərdə deyil, cəmiyyət və hakimiyyətdə görür...

"*... Bu həyata nifrət edirəm. Bu şəraitə, bu cəmiyyətə nifrət edirəm. Mən yaşaya bilmədim. Çünki əməyimin, əzab və əziyyətimin nəticələrini görmədim. Mənim ölümümdə heç kimi günahlandırmayın*". Bu sətirlər rəhmətlik akademik ***Əsgər Abdullayevin*** ölümqabağı yazdığı məktubundandır.

Müəllif hesab edir ki, akademik şəhərətrafı bağında özünü öldürüb. Tüfəngin lüləsini sinəsinə dayayıb, çaxmağı çəkib. Son gününə qədər Sumqayıt Kimya və avtomatlaşdırma institutunun direktoru işləyib. Yüzlərlə tədqiqat, kitab, dərs vəsaitlərinin müəllifi olub. Amma onu "*ruhi xəstə*" hesab edərək, intiharının səbəblərini aydınlaşdırmadılar...

Bu həm səbəb, həm də nəticə oldu. Akademik yazırdı: "*... Qoy məni tələbələrim, dostlarım, doğmalarım bağışlasın. Heç kəsə çətinlik vermək istəmirəm. Bu acizliyin əlaməti deyil. Sadəcə belə yaşamaq istəmirəm. Bu nankor və səmimi olmayan cəmiyyətdə öz yerimi tapa bilmədim...*".

Professorun iddia etdiyi kimi: "*Azərbaycanda ümüdsüzlüyə, ölümə məhkum edilənlərin sayı çoxdur. Məsələn, Rusiyada məşhur olan, səhiyyə sahəsində istedadlı alim, kardioloq* ***Aydın Zərgərlinin***

*ölümünü xatırlayaq. İnanmıram ki, Tanrı nə vaxtsa Azərbaycana ikinci belə adam verəcək. Moskvadan Vətəninə işləyib, fayda vermək üçün gələn alim burada özünə yer tapmayıb, Rusiyaya qayıtmağı qərara aldı. Amma olmadı. Artıq onu orada qəbul etmirdilər, burada da heç kimə lazım deyildi. İnsanların ürəyi ilə işləyən professor ürəyinə görə bir şey edə bilmir. Onun ürək xəstəliklərinə həsr etdiyi məqalələri, çıxışları, kitabları məhv edilir...*

*Böyük alim, yüksək mənəviyyatlı insan, Azərbaycan dövlətçiliyinə qiymətli xidmətlər göstərən hüquq elmləri doktoru, professor Ağababa Rzayevin ölümünü, məşhur fizik alim, kvant texnologiyası üzrə dünya şöhrətli mütəxəssis Əlişir Xəlilovun ölümünü, məşhur kardioloq, professor Heybət Abdullayevin həbsxana divarlarında ölümünü, professor Sultan Qarayevin ölümünü xatırlayaq...*".

Ancaq professor Rövşən Novruz oğlunun verdiyi nəticə mənim daha çox xoşuma gəldi: "*Yaltaqlığı, əlbirliyi, hakimiyyəti, müxalifəti bir yana qoyub, bir dəqiqəlik ətrafımızda nə baş verdiyini dərk etməliyik. Kimi öldürürlər, kim öldürür...*".

Sonra o yazır: "*Bu siyahını əsrin son dörddə bir hissəsində baş verən hadisələrlə azdan-çoxdan tanış olan hörmətli oxucu özü də davam etdirə bilər. Bütün bu insanlar – Azərbaycan dövlətinin mənəvi xəzinəsinin böyük itkisidir...*" (**http://www.zerkalo.az/2012/utechka-mozgov/**).

Bəlkə ona görə torpağımız haqqında informasiyanı dənə-dənə toplayıb, çoxlu sayda çap etdirməliyik.

Yaxşı olar, bütün bunları vəsait kimi nəşr etdirib, Azərbaycan universitetlərinin gənc tələbələri, həmçinin tarix, coğrafiya, arxeologiya, etnoqrafiya və elmin digər sahələri ilə maraqlananlar arasında yaymaq lazımdır ki, keçmiş tarix böyüyən nəslin mülkiyyətinə çevrilsin, gənclər bilsinlər ki, onların torpaqları olan Azərbaycanda bir neçə yüz il əvvəl nələr baş verib...

Və əgər biz türk-Oğuzlarının üç min ildən artıq tarixini, Şirvanşahların minillik tarixini qiymətləndirə bilməsək, onda XX əsrin tarixini heç qiymətləndirə bilmərik.

Cənab Uinston Çörçilin dediyi kimi, "*Keçmişini unudan xalq, gələcəyini də itirmişdir*".

Ölkənin tarixi isə şəxsiyyətlərin, sülalələrin, bəyliklərin, xanlıqların və şahların tarixindən, bu torpaqda Azərbaycanın min illərlə tarixindən ibarətdir. Dövlət quruluşumuzun bütün əlaqə və addımlarını bilmək Azərbaycan tarixi deməkdir.

Onda gəlin ölkəmizin, şəhərlərimizin, rayonlarımızın, kənd və sülalərimizin tarixini dərindən öyrənək ki, öz köklərimizi tanıyaq, bəlkə elə bu milli inkişafın əsas bazasıdır.

Gəlin Şirvanın mənasını kiçiltməyək, məsələn, onun adını Əli-Bayramlı kimi balaca şəhərciyə verməklə. Axı Şirvan ölkə içərisində ölkədir!

Görünür, "*bizi idarə edənlərin hamısı bizdən deyil*", yoxsa baş verəni nə ilə izah etmək olar, axı bunu nə farslar, nə ərəblər, nə ruslar və hətta ermənilər də edə bilməyib. Min il yaşı olan Şirvanın dəyərini necə bu cür xırdalamaq olar. Məgər Əli-Bayramlıda "*Şirvan şikəstəsi*" muğamı, min il yaşı olan Şirvan xalçaları, yoxsa yüzlərlə şairimiz, yazıçı və filosoflarımız yaranıb... Otuz ildən sonra bütün bunları nəvələrimizə necə izah edəcəyik... (**http://www.youtube.com/watch?v=1rcO-zt5sM4&feature=related**)

Mənə elə gəlir ki, istənilən ölkə üçün ən böyük təhlükə onun anti milli elitasıdır. Görünür, bu gün Azərbaycanın hələ öz inkişafında güclü sıçrayış etmək şansı vardır, lakin bunun əvəzinə Allahın ölkəyə verdiyi sərvəti FİƏ olmayan kağız layihələrə sərf edirik...

Mən hansısa partiyanın üzvü deyiləm, hansısa cərəyanın tərəfdarı deyiləm, ən əsası siyasət pərəstişkarı deyiləm. Amma bütövlükdə hakimiyyətə olduğu kimi, müxalifətə də tənqidi yanaşıram. Əsas əqidəm vətənpərvərlik və vətənə sevgidir.

Rabitə sahəsində "*rəqəmsal bərabərsizlikdən*" tez-tez danışırıq, amma ən əsasını, ölkədə insanların bərabərsizliyini unuduruq.

Yəqin buna görə inkişaf etmiş qərb ölkələrində şəffaf elektron hökumətə (*EH*) keçid cəmiyyətin ciddi nəzarəti altında həyata keçirilir.

Nəzərə almaq lazımdır ki, İKT özü-özlüyündə demokratiyanın inkişafının təminatı deyil və avtoritar cəmiyyət şəraitində hər bir insan haqqında mərkəzləşdirilmiş verilənlər bazasının yaradılması özündə dünyanın istənilən ölkəsində şəxsi

həyatın toxunulmazlığına və vətəndaş azadlıqlarına çox açıq bir təhlükə daşıyır.

Bu bərabərsizliyi aradan qaldırmaq üçün ayda 2-3 min manat əmək haqqı ilə layiqli iş yerlərini yaratmaq kifayətdir ki, bu da hətta qərb standartlarına görə, yaxşı göstərici olardı (*lakin ölkənin qorunan strukturlarının mövcud ordusunu deyil*).

Yəqin biz hələ ölkəmizin suverenliyinə və bütövlüyünə ciddi zərər vura bilən real təhlükələr qarşısındayıq və bunun günahı azlıqların (*hansılardan ki çox danışılır*) hüququnun olmaması deyil, ölkədə əksəriyyətinin – Azərbaycan türklərinin hüquqlarının olmamasıdır.

Ona görə də "*milli müstəqillik*" anlayışı vacibdir.

Bizim bərpa olunmuş müstəqilliyimiz – atalarımızın və babalarımızın hələ 1918-1920-ci illərdə uğrunda mübarizə apardığı ən qiymətli xəzinəmizdir və suveren Azərbaycanımızı qorumaq üçün əlimizdən gələn və gəlməyən hər şeyi etməliyik.

Ona görə də ölkənin bütün ictimaiyyətinin: siyasi, demokratik, vətəndaş, o cümlədən müxalifətin də şüurlu milli-vətənpərvər mövqeyi lazımdır.

Ölkənin hakimiyyəti "*cibgir*" olmamalıdır, axı biz hələ XX əsrin əvvəlində, Qərbdən pis olmayan, artıq demokratik hakimiyyətin sivil quruluşunu (*ADR-in təmsilində*) yaratmışdıq.

Şəxsən mənim Azərbaycanı tənqid edəndə xoşuma gəlmir və istəmirəm ki, mənim vətənimə Qərb iqtisadi sanksiyaları tətbiq edilsin. Çox əminəm ki, sanksiyalardan bizim müxtəlif sahələri və bütünlüklə ölkəni idarə edən günahkar məmurlar deyil, yalnız adi vətəndaşlar – sadə xalq əziyyət çəkəcək.

Görünür, doğma Azərbaycanımızın müxtəlif sahələrindəki mütəxəssislərin alternativ fikirlərinin tolerantlığında dayanmaq və təkrar etmək lazımdır.

Beləliklə, sahənin alternativ həqiqətini (*təhlil*) KİV vasitəsilə çatdırmağa cəhd göstərən ekspertə (*o cümlədən beynəlxalq səviyyədə*) laqeyd münasibət göstərmək və daha pisi, onu saymayıb, yuxarı struktura (*yuxarıya*) anti vətənpərvər yaxud "*ümidsiz müxalifətçi*" kimi təqdim etmək lazım deyil.

Hətta adi, lakin savadlı mühəndis və iqtisadçıya da aydındır ki, sahənin təhlili heç də siyasət deyil, alternativ düşünən mütəxəssislərin fikridir (*adətən bütün elm onun üzərində dayanır*).

Axı müxalifətçi olmaq, Sovet hakimiyyəti dövründə hesab olunduğu kimi, "*xalqın düşməni*" olmaq demək deyildir!

Alternativlər hər zaman lazımdır və məhz alternativ, şəffaflıq və müxalifətçi yanaşmalar üzərində Qərb öz demokratiyasını şübhə, nifrət və fikirlərin plüralizminə dözülməzlik şəraiti olmadan qurur.

Görünür, "*kresloda oturan məmurun*" fikrini bəzən tez-tez vəzifələrə qeyri-müəyyən uzun müddətlərə göndərən dövlətçiliklə qarışdırmaq olmaz.

Yəqin hüquq müdafiəçilərinə təzyiq, onların həbsi ona gətirəcək ki, bir çox proseslər, o cümlədən sahə gəlirlərinin xərclənməsi vətəndaş nəzarətindən kənarda qalacaq.

Vətəndaş cəmiyyətini qırmaqla, hakimiyyət çox şey itirir!

Bəli, bu, cəmiyyətin çatışmazlıqlarını etiraf edənlərlə, onları ölkəsinin yuxarı eşelonundan və xalqından gizlətməyə cəhd göstərənlər arasındakı mübarizəyə bənzəyir (*saxtakar vətənpərvərlər*).

Və kitabımın sonunda oxucularıma şəxsi xahişim var, - "*Əgər Siz bu kitabı oxuyub, heç olmasa bir az fayda qazandınızsa, onda minnətdarlıq əlaməti olaraq, mənim üçün dua oxuyun. Bu mənim üçün ən yaxşı mükafatdır. Allahu Əkbər!*".

## ӘDӘBİYYAT

1. Ашурбейли Сара. Государство Ширваншахов (VI-XVI вв), Баку: Элм., 1983. 344 с.
2. Зираддин Тагиев. Коран для детей и не только… Баку, «Шарг-Гарб» 2005, 808 с.
3. История Азербайджана. Академия наук Азербайджанской ССР. Институт истории. Изд-во "Элм", Баку, 1979, 303 с.
4. Каграманзаде А.Г. Опыт работы службы НТИ Минсвязи Азербайджана. Азербайджанский научно-исследовательский институт научно-технической информации (АзНИИНТИ), отделение- "Связь" №1, Баку, 1974, с.1-6.
5. Каграманзаде А.Г. Актуальные задачи и спецособенности структурного построения ГТС в Баку. АзНИИНТИ-"Связь" №2, Баку, 1974, с.1-4.
6. Каграманзаде А.Г. Гасанов А.Н. О распределении потоков сообщений в городских телефонных сетях. АзНИИНТИ, "Связь" №4, Баку, 1974, с.1-5.
7. Каграманзаде А.Г. Гасанов А.Н. Отчет (НО), Азербайджанский Политехнический Институт (АзПИ), Госрегистрация (ГР.) № 75031561, Баку, 1974. 63с
8. Каграманзаде А.Г. Методика проведения измерения длительности чистого разговора на Бакинской ГТС. АзНИИНТИ - "Связь" № 2, Баку, 1975,с.1-4.
9. Каграманзаде А.Г., Быков Ю.П. Закономерности распределения межстанционных нагрузок на ГТС. "За технический прогресс" № 5, Баку. 1975. с.56-59.
10. Каграманзаде А.Г. О влиянии повторных вызовов на основные параметры телефонных сообщений. АзНИИНТИ, «Связь" №8, Баку, 1975. с.1-3.
11. Каграманзаде А.Г. О параметрах телефонного сообщения на ГТС (*Тезисы доклада*). ВСИС-3, М. "Наука", 1975. с.129-131.
12. Каграманзаде А.Г. Мамонтова Н.П. Проектирование межстанционного потоков на ГТС (*Отчет*). Ленинградский

Электротехнический Институт Связи (*ЛЭИС*). Инвентарный № Б 493256. Л, 1975, 183с.
13. Каграманзаде А.Г. Организация работ по учету телефонной нагрузки на Бакинской ГТС. АзНИИНТИ, «Связь” №1, Баку, 1976. с.1-4.
14. Каграманзаде А.Г. О методах измерения длительности разговора на ГТС. Труды Учебных Институтов Связи (ТУИС), № 77, Л.,1976, с. 114 -117.
15. Каграманзаде А.Г. Методика определения межстанционной нагрузки на ГТС Закавказья. За технический прогресс (ЗТП) № 7, Баку. 1976, с. 63-66.
16. Каграманзаде А.Г. Об определении потока повторных вызовов на действующих ГТС (*Тезисы доклада*). Сборник ЦНИИС, М. 1976, с. 47.
17. Каграманзаде А.Г. Мамонтова Н.П. и др. Проектирование межстанционных потоков на ГТС (*Отчет*). ЛЭИС, Инв. № Б 576617, Л.1976. 307с.
18. Каграманзаде А.Г. Влияние специфических особенностей разговора на его длительность. “*Электросвязь*”, № 5, М, 1977. с. 62-64.
19. Каграманзаде А.Г. Гасанов А.Н. Анализ удельных абонентских нагрузок на ГТС Закавказья. “*Ученые записки АзПИ*” № 1, Баку, 1977. с. 67-69.
20. Каграманзаде А.Г. Гасанов А.Н. и др. Статистические измерения и анализ параметров телефонного сообщения и межстанционной нагрузки на ГТС Закавказья (*Отчет*). АзПИ. Гос. Рег. № 78004624, Баку, 1978. с. 178.
21. Каграманзаде А.Г. Актуальные задачи проектирования и эксплуатации ГТС. “*За технический прогресс*”, № 3, Баку, 1979. с. 67-69.
22. Каграманзаде А.Г. К вопросу об оценке колебания нагрузки и ее прогноз при проектировании ГТС. “*За технический прогресс*”, № 5, Баку, 1979. с. 52-55.
23. Каграманзаде А.Г. Методы прогнозирования парам. телефонной плотности и структурного состава абонентов на ГТС. “*За технический прогресс*”, № 9, Баку, 1979. с.58-61.

24. Каграманзаде А.Г. Гасанов А.Н. Статистические измерения и анализ параметров телефонного сообщения и межстанционной нагрузки на ГТС Закавказья (*Отчет*). АзПИ, Часть-3, Гос. Рег № 78004624, Баку. 1980. 99с.
25. Каграманзаде А.Г. Исследование и разработка методов определения параметров телефонной нагрузки для проектирования городских телефонных сетей. Автореферат диссертация на соискание ученой степени к.т.н. Л., ЛЭИС,1980, с.15
26. Каграманзаде А.Г. Характеристики телефонной нагрузки. “*За технический прогресс*”, № 8, Баку, 1980. с.51-54.
27. Каграманзаде А.Г. Гасанов А.Н. и др. Статистические измерения и анализ параметров телефонного сообщения и межстанционной нагрузки на ГТС Закавказья (*Отчет*). АзПИ, Часть- 4, Гос. Рег № 78004624, Инв. № Б 9056888, Баку. 1980. 99с.
28. Каграманзаде А.Г., Гуан Т.И., Сафонов В.Д. Расчет надежности сетей связи при помощи ЭВМ (*Методическое указание*). Изд-во, ЛЭИС, Л. 1981. 24с.
29. Каграманзаде А.Г. Мамонтова Н.П. О результате исследования длительности без отбойного состояния абонентских линии и времени занятия ИШК и ВШК в АТСК и АТСКУ. Сборник трудов АзПИ, Баку, 1981., с.
30. Каграманзаде А.Г. Гасанов А.Н. и др. Исследование и разработка способов централизации техническая эксплуатация ГТС средней и малой емкости на примере ГТС Закавказья (Отчет). АзПИ. Гос. Рег № 01820074750, Инв. № 0061153, Баку, 1981.157 с.
31. Каграманзаде А.Г. Исследование современных методов проектирования телефонной сетей на основе прогностических параметров телефонной нагрузки и его распределения. (*Отчет о загранкомандировке*). АзПИ. Баку, 1981. 31с.
32. Каграманзаде А.Г. Гасанов А.Н. и др. Исследование и разработка способов централизации тех. экспл. ГТС сред-

ней и малой емкости ГТС Закавказья (*Отчет*) АзПИ им. Ч.Ильдрыма, Гос. Рег № 0182007450, Баку, 1982. 123с.

33. Каграманзаде А.Г. Каграманзаде С.Д. О прогнозировании плотности телефонных аппаратов на ГТС. "*Народное хозяйство Азербайджана*", № 5, Баку, 1983. с. 47-49.
34. Каграманзаде А.Г. К вопросу о методике расчет тел. нагрузки на АТС с учетом направленности вызовов. "*Народное хозяйство Азербайджана*" №11,Баку,1983.с.47-49.
35. Каграманзаде А.Г. Гасанов А.Н. и др. Исследование и разработка способов централизации ГТС средней и малой емкости на примере ГТС Закавказья (*Отчет*). АзПИ. Гос. Рег. № 01820074750, Инв .№ 02840025883, Баку., 1983. 104 с.
36. Каграманзаде А.Г. Гасанов А.Н. Метод. Указание по курсу и дипломного проектирования станционных сооружений АТСК (*на азербайдж. языке*). Изд-во АзПИ, Баку., 1984. 80с.
37. Каграманзаде А.Г. Об оценке эффективности центров технической эксплуатации ГТС. "Народное хозяйство Азербайджана" № 4, Баку, 1984. с. 57-59
38. Каграманзаде А.Г. Гасанов А.Н. Методическое указание для студентов 3-4 курса по производственной практике (*на азерб. языке*). Изд-во АзПИ, Баку, 1984. 20 с.
39. Каграманзаде А.Г. Гасанов А.Н. и др. Исследование и разработка способов централизации технической эксплуатации ГТС средней емкости на примере ГТС Закавказья (*Отчет*). АзПИ, Гос Рег №01820074750, Инв. №02850058090, Баку, 1984. 85с.
40. Каграманзаде А.Г. Прогнозирование роста телефонной плотности на ГТС. "*Народное хозяйство Азербайджана*", №3, Баку,1985.с. 52-55
41. Каграманзаде А.Г. Атаев Э.Б. Методическое указание по курсу "*Теория сетей связи*" (*на азерб. языке*). Изд-во АзПИ, Баку, 1985. 25с.

42. Каграманзаде А.Г. Telecommunication Planning and Maintenance. ITU, UNDP, Project AFG-83/001, Kabul, Afganistan. 1986. 38p.
43. Каграманзаде А.Г. Гасанов А.А. Квазиэлектронные и электронные АТС и АМТС. Учебные пособия, (Азерб. язык). Из - во АзПИ., Баку, 1986, 116с.
44. Каграманзаде А.Г. Прогностический метод планирования телефонных сетей. «*Народное хозяйство Азербайджана*» №3, Баку , 1987. с.49-55
45. Каграманзаде А.Г. Векилова Т.М. и др. Методические указания по курсу АМТС (*на азерб. языке*). Из-во. АзПИ, Баку.1987. 60с.
46. Каграманзаде А.Г. Некоторые результаты анализа методов распределения информации на ГТС. Сборник Трудов АзПИ, Баку, 1987. с.69-74.
47. Каграманзаде А.Г. Исмаилова Э.М. «*Ярмарка идей*». Радиотехника, № 7, М.,1988, с.14
48. Каграманзаде А.Г. Пронин А.И. Принцип управления систем коммутации. Региональная конференция "*Достижение науки*", Баку, 1988. с.16
49. Каграманзаде А.Г. Использование методов двойных коэффициентов для расчета телефонной нагрузки по направлениям с применением ЭВМ. Сборник научных трудов АзПИ, Баку, 1989. с.79-83.
50. Каграманзаде А.Г. Электронная система коммутации "System-X". ЦНТИ, "*Информсвязь*" № 9., М., 1989. с.1-12.
51. Каграманзаде А.Г. Методическое указание для курсового и дипломного проектирования ЕССАЦ "*Исток*". Изд-во АзПИ, Баку, 1989. 60с.
52. Каграманзаде А.Г. Методика определения межстанционной нагрузки на ГТС с ЭВМ. "*Народное хозяйство Азербайджана*" № 11, Баку, 1989. с. 61-64.
53. Каграманзаде А.Г. Состояние и перспектива разв. ЦСК (*Тезисы*) Республиканская конференция НТО А. Попова, Баку,1989, с.6-8
54. Каграманзаде А.Г. Учебное пособие. Электронно-цифровая система коммутации. "*System-X*". Изд-во АзПИ, Баку, 1989. 50с.

55. Каграманзаде А.Г. Электронно-цифровая система коммутации DMS-100 (Тезисы). Респ. Конф. НТО, Баку, 1990г. с. 48-49
56. Каграманзаде А.Г. Нестерова А.В. Методические указание по прогнозированию межстанционных потоков нагрузки на ГТС с помощью двойных коэффициентов. Изд-во МИС, М., 1991. 16с.
57. Каграманзаде А.Г. Гасанов А.А. Методические указания для курсового и дипломного проектирования Исток. (Азерб.яз.). Изд-во АзИТУ. Баку, 1991. 75с.
58. Каграманзаде А.Г. Каграманзаде С.Д. Прогнозирование трафика - основа проектирования современных сетей связи. ЦНТИ. М., Информсвязь. № 1, 1991, 44с.
59. Каграманзаде А.Г. Основы проектирования цифровой системы коммутации типа АТСЭ-200. Методические указания. АзТУ, Баку, 1991, с.81
60. Каграманзаде А.Г. Цифровая система коммутации DMS-100/200. ЦНТИ, "Информсвязь", № 5, М., 1991. 21с.
61. Каграманзаде А.Г. Попова А.Г. и др. Зарубежные системы автоматической коммутации. Учебное пособие. Изд-во МИС, М., 1991. 83с.
62. Каграманзаде А.Г. Master Plan for Telecommunication Networks. ITU, Project Lib 88/007, Tripoli., Libya, 1993. 271p.
63. Каграманзаде А.Г. Principles of Teletraffic Engineering. ITU, Project PAK-88/002, TSC, Haripur, Pakistan, 1993. 246p.
64. Каграманзаде А.Г. Цифровая система коммутации. Учебное пособие. Баку, «*Маариф*», 1995. 208 с.
65. Каграманзаде А.Г. Методика перехода к цифровым телефонным сетям. Баку «*Ученые записки АзТУ*»,1996 с.265.
66. Каграманзаде А.Г. Прогнозирование телекоммуникационных сетей. Баку. Изд-во «*Ученые записки АзТУ*», Том VI, № 1, 1997, с.74-75.
67. Каграманзаде А.Г. Прогнозирование и проектирование телекоммуникационных сетей. Монография. Баку, Изд-во «Бакинский Университет», 1998. 242с.
68. Каграманзаде А.Г. Баннаева Л.Р. Учреждение Телекоммуникационного Центра. Баку, Ученые записки АзТУ, T-VII, №2,1998,с.76-79.

69. Каграманзаде А.Г. Техническая эксплуатация телекоммуникационных сетей. Монография. Баку. 1998, Изд-во “Чашыоглу ”, 100с.
70. Каграманзаде А.Г. Развитие услуг телекоммуникации в Азербайджане. «*Ученые записки АзТУ*», Том-VII, № 4, Баку,1998. с.80-90.
71. Каграманзаде А.Г. Основы цифровой коммутации.(*Азерб. языке*), Баку., «Чашыоглу», 1999. 132с.
72. Каграманзаде А.Г. Каграманзаде С.Д. Баннаева Л.Р. Прогнозирование трафика на телекоммуникационных сетях. Баку, «Ученые записки АзТУ», том VIII, №1, II часть, 1999г., с. 5-9.
73. Каграманзаде А.Г. Джумшудов С.Г. Вопросы приватизации в отрасли связи. «İqtisadiyyat və həyan», Баку, № 7- 9, 1999, с.92-97
74. Каграманзаде А.Г. Human Aspects of Teletraffic Engineering. Бакы, «Bilği» dərğisi, «Texnika» seriyası, №1.1999. с.62-66.
75. Каграманзаде А.Г. Баннаева Л.Р. Азербайджанский Телекоммуникационный Учебный Центр. TECHNO NEWS, Баку, 1999, с.32
76. Каграманзаде А.Г. Цифровая система коммутации «System-12». Методическое указание. Баку. Изд-во АзТУ, 1999, 107с.
77. Каграманзаде А.Г. Баннаева Л.Р. Тактика и стратегия ITU. Баку, «Bilği» dərğisi, «Texnika» seriyası № 1-2(5), 2000, с.3-10
78. Каграманзаде А.Г. К вопросу приватизации в телекоммуникации с учетом опыта Великобритании. “Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, “Sosial Bilğilər” seriyası, Баку № 2, 2000, с.30-36
79. Каграманзаде А.Г. Мурадов Е.С. Цифровая система коммутации DMS. “*Елм*”, Баку, 2000, 160с.
80. Каграманзаде А.Г. Особенности цифровых систем коммутации. Монография. Изд-во “Элм”, Баку, 2000, 120с.
81. Каграманзаде А.Г. Баннаева Л.Р., Исмаилов Н.Н. Вопросы приватизации в телекоммуникации с учетом опыта развивающихся стран. Изд-во АзТУ, «Ученые записки”, Баку, Т-IX, №1, 2000, с.79-84.

82. Каграманзаде А.Г. Баннаева Л.Р., Исмаилов Н.Н. Анализ закономерностей развития телекоммуникации. Из-в АзТУ, "Ученые записки", Баку, Т- IX, № 2, 2000, стр.72.
83. Каграманзаде А.Г. Учебные центры как современных формы подготовки специалистов для телекоммуникации Баку. "Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, "Sosial Bilğilər" seriyası, Баку, № 3, 2000. с. 54-57.
84. Каграманзаде А.Г. Баннаева Л.Р., Исмаилов Н.Н. Социальные аспекты и перспективные проблемы телекоммуникационных систем. "Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, "Sosial Bilğilər" seriyası, Баку, № 4, 2000. с. 27-30.
85. Каграманзаде А.Г. Исмаилов Н.Н. Абдулрагимов К.Ф. Основные направления телекоммуникационной технологии. "Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, "Texnika" seriyası, Баку, № 4, 2000. с.85-90.
86. Каграманзаде А.Г. Исмаилов Н.Н. Абдулрагимов К.Ф. Технология АТМ– возможности и перспективы. Баку, Ученые записки АзТУ. Т- 10, № 2 , 2001. с.82-86
87. Каграманзаде А.Г. Основы цифровых систем коммутации. Монография. Баку, Из-во "Элм", 2001. 259с.
88. Каграманзаде А.Г. Исмаилов Н.Н. The main regularities of development of Telecommunication in Azerbaijan. Baku, "Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, № 2, 2001. с. 39-42.
89. Каграманзаде А.Г. Шелковый путь и концепция развития телекоммуникации в Азербайджане. Материалы II Респуб-ой научно-практической конференции "*Шелковый путь*". Təhsil" Cəmiyyəti, Баку, 2001. с.90-93.
90. Каграманзаде А.Г. О состояния телекоммуникации в Азербайджане. Материалы II Респуб. научно-практической конференции "*Шелковый путь*", Тахсил Джамийати, Баку, 2001. с.132-136.
91. Каграманзаде А.Г. Учебные Центры - как современные формы подготовки специалистов. 48-я юбилейная Конференция АзТУ. Изд-во АзТУ, Баку. 2001,Ч.3, с.116-117.
92. Каграманзаде А.Г.Техническая эксплуатация и проектирование коммутационных систем (*Учебное пособие*). Изд-во, АзТУ, Баку, 2002г, 255с. http://www.anl.az/el_Z_ru.php
93. Каграманзаде А.Г.Основы менеджмента в телекоммуникации. Монография. Изд-во "Sabah", Баку, 2002, 243с.

94. Каграманзаде А.Г. Центр Дистанционного (On-Line-вого) образования. "Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, № 4. Баку, 2002. с.54-58.
95. Каграманзаде А.Г. О регулировании в инфокоммуникации. АНАН. Институт Кибернетики Республиканская Конференция Том № 1. Баку. 2003, стр.50-53.
96. Каграманзаде А.Г.О взаиморасчетах в инфокоммуникации. АНАН. Инист. Кибернетики Республиканская Конференция, Том № 1. Баку. 2003, с.54-57.
97. Каграманзаде Г.А. О проблемах трафика в телекоммуникации. "Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, № 1. Баку, 2003. с.65-71
98. Каграманзаде А.Г. Монография. Основы развития инфокоммуникации Азербайджана. Баку, "Элм", 2003, 191с.
99. Каграманзаде А.Г. Проектирование современных сетей связи. "*Вестник связи*", М, № 9. 2003, с.66-69.
100. Каграманзаде А.Г. О принципах управления инфокоммуникационной отраслью. Известия НАНА. Физика - технических и математических наук. Баку. Том 23, № 3, 2003 с.12-16
101. Каграманзаде А.Г. Задачи инфокоммуникации при рыночной экономике. АНАН. Республиканская Конференция Института Экономики. Баку. 2003. с.109
102. Каграманзаде А.Г. Начальный этап проектирования телекоммуникации. "*ВКСС connect*", М, №4, 2003, с.121-122.
103. Каграманзаде А.Г. Telecommunication management principles for CIS countries. "Təhsil Cəmiyyəti, «Bilği» dərğisi, "Texnika" seriyası, №3, 2003, с.75-79
104. Каграманзаде А.Г. Основы централизованного управления в инфокоммуникационной отрасли. "ВКСС connect", М., №6, 2003 с.124-127
105. Каграманзаде А.Г. Об управлении инфокоммуникационной отраслью. IT magazine, Баку, №01, 2004, с.30-31.
106. Каграманзаде А.Г. О прогнозировании спроса в телекоммуникации. Журнал "Телекоммуникации", М., № 1. 2004 с.11-14.
107. Каграманзаде А.Г. Монография. Rəqəmli rommutasiya sistemləri və şəbəkələri. Баку, «Елм» 2004, 475 с.

108. Каграманзаде А.Г. О прогнозировании трафика телекоммуникациионных сетей. “Телекоммуникации”, М., № 3. 2004 с.10-15.
109. Каграманзаде А.Г. О мониторинге инфокоммуникации. ITmagazine, Баку. № 04(07). 2004, с.34-35
110. Каграманзаде А.Г. О новой технической политике в инфокоммуникациях. IT magazine, Баку. №08. 2004, с.36-38
111. Каграманзаде А.Г. Анализ методов прогнозировании в телекоммуникации.Известия НАНА. Физико-технических и математиих наук. Баку. Том 24 № 2, 2004 с.191-199.
112. Каграманзаде А.Г. Some aspects of on-line education. Proceedings of the fourth International Conference Internet-Education-Science IES-2004. Universum -Vinnitsa, 2004., Vol.1, p.172-175
113. Каграманзаде А.Г. Некоторые основы обучения в on- line. IT magazine, Bakı, № 1 (14), 2004., с.28-29
114. Каграманзаде А.Г. О регулировании отрасли связи в странах СНГ. IX Международной научно-практической конференции “Актуальные вопросы развития инновационной деятельности”. Симферополь. 2004. стр. 75-80
115. Каграманзаде А.Г. Некоторые основы дистанционного обучения. IX Международной научно-практической конференции “Актуальные вопросы развития инновационной деятельности”. Симферополь. 2004. стр. 101-104
116. Каграманзаде А.Г. О регуляторах телекоммуникационной отрасли. “Tahsil” Society, “Bilgi”, TECHNICS, Baku, № 4. 2004, с. 46-49.
117. Каграманзаде А.Г. О вопросах лицензирования в телекоммуникации. IT magazine, Bakı, № 01(16), 2005, с.28-29
118. Каграманзаде А.Г. Training of students in on-line. IT magazine, Bakı, № 02 (17), 2005., с.38-39
119. Каграманзаде А.Г. Prospects of Telecommunication in Azerbaijan. Journal “Knowledge”, “Education” Society of Azerbaijan Republic, BUSINESS #2, 2005, pp.16-20
120. Каграманзаде А.Г. Кому нужно информационное сообщество? ITmagazine, Bakı, № 04 (19), 2005, с.35-36.
121. Каграманзаде А.Г. Взаиморасчеты в инфокоммуникации. ITmagazine, Bakı, № 06 (21), 2005, с. 30-31.

122. Каграманзаде А.Г. Деятельность AzRENA по развитию ДО в Азербайджане. Дистанционное обучение: проблемы и перспективы развития. Международной конференции - Алматы, КазРЕНА, Алматинская Академия Экономики и Статистики, 2005г. с. 29-34
123. Каграманзаде А.Г. О перспективах отрасли телекоммуникации. IT magazine, Bakı, № 10 (25), 2005, с. 26-28.
124. Каграманзаде А.Г. Фундаментальный технический проект телекоммуникационных сетей. ИЗВЕСТИЯ НАНА. Физико-технических и математических наук. Баку. Том 25, Информатика и Проблемы Управления №3, 2005, с.161.
125. Каграманзаде А.Г. Функции регуляторов в телекоммуникации. IT magazine, Bakı, № 01(28), 2006., с.24-25
126. Каграманзаде А.Г. Основы нового менеджмента в телекоммуникации. IT magazine, Bakı, № 03(30), 2006., с.38-39
127. Каграманзаде А.Г. Телекоммуникация: задачи и перспективы "Tahsil" Society, "Bilgii", Technics, Baku, №1-2 (25). 2006, с. 13-17
128. Каграманзаде А.Г. Либерализация в телекоммуникации. ITmagazine, Bakı, № 07 (34), 2006., с.30-31
129. Каграманзаде А.Г. О перспективах отрасли телекоммуникации. X Международной научно-практической конференции по инновационной деятельности "Проблемы и перспективы инновационного развития экономики". Национальная академия наук Украины. Киев. 2006. стр. 307
130. Каграманзаде А.Г. Инновационный менеджмент в телекоммуникации. I-ой Международный инновационный форм Содружества независимых государств. XI международная научно-практическая конференция Проблемы и перспективы инновационного развития экономики Национальная академия наук Украины. Киев. 2006. стр. 430-434. **http://iee.org.ua/files/alushta/76-kagramanzode-inn_men_v_telek.pdf**
131. Каграманзаде А.Г. Монография. Менеджмент и Регулирование в Инфокоммуникациях. Баку, Изд-во "Элм", 2006, 436с http://www.anl.az/el_Z_ru.php

132. Каграманзаде А.Г. Развитие телекоммуникационной отрасли. “Tahsil” Cəmiyyəti, “Bilgiи” dərgisi, Texnika Baku, № 3-4(26). 2006, с. 23-26
133. Каграманзаде А.Г. Будущее телекоммуникационной отрасли. ITmagazine, Bakı, № 01(40), 2007., с.10-11
134. Каграманзаде А.Г. ON-Line образование в Азербайджане. ITmagazine, Bakı, № 02 (42), 2007., с.26-27
135. Каграманзаде А.Г. Новые процессы взаимосвязи в отрасли связи. Ученые записки АзТУ, № 3, Баку, 2007, с.97-98.
136. Каграманзаде А.Г.Техническая политика в телекоммуникации. ITmagazine, Bakı, № 06 (45), 2007., с.8-9
137. Каграманзаде А.Г. Об электронном правительстве. ITmagazine, Bakı, № 08 (47), 2007., с.6-8
138. Каграманзаде А.Г. О терминологиях в телекоммуникации. ITmagazine, Bakı, № 01(52), 2008., с.4-5
139. Каграманзаде А.Г. Евросоюз займется регулированием в телекоммуникации. ITmagazine, Bakı, № 03(54),2008.,с.4-5
140. Каграманзаде А.Г. Телеком в Азербайджане: выход из кризиса есть? Cnews–Казахстан, **http://www.cnews.kz/reviews/index.shtml?2008/04/17/106340**
141. Каграманзаде А.Г. Приватизация в телекоммуникации Азербайджана. ITMagazine, Bakı, № 05 (56), 2008, с.14-15
142. Каграманзаде А.Г. Электронный менеджмент Азербайджана. ITmagazine, Bakı, № 06(57), 2008., с.4-6
143. Каграманзаде А.Г. Влияние состояния связи на экономику Азербайджана. Ученые записки АзТУ, № 3, Баку, 2008, стр.64-66.
144. Каграманзаде А.Г. Монография. Прикладные аспекты регулирования телекоммуникации. Баку, Изд-во “Элм”, 2009, 353с http://www.anl.az/el_Z_ru.php
145. Каграманзаде А.Г. О стратегии развития отрасли связи в Азербайджане. Elmi Əsərlər, AzTU, №3, Баку, 2009, стр.78-83.
146. Каграманзаде А.Г. Вопросы в преемственность - основа развития отрасли связи. Elmi Əsərlər, AzTU, № 3, Баку, 2009, стр.83-88.
147. Каграманзаде А.Г. Неотложные задачи телекоммуникации Азербайджана. Elmi Əsərlər, AzTU, № 3,Баку, 2010,с.70-73

148. Каграманзаде А.Г.Монография. Этапы развития телекоммуникации Азербайджана. Баку. “Элм”. 2011. 726с. http://www.anl.az/el_Z_ru.php
149. Каграманзаде А.Г.Перспективы отрасли связи Азербайджана. Elmi Əsərlər, AzTU, №3, Баку, 2011, стр.101-104
150. Каграманзаде А.Г. Философия Телекоммуникации. Elmi Əsərlər, AzTU, №3, Баку, 2012, стр.64-68
151. Каграманзаде А.Г. Этапы развития отрасли связи Азербайджана. Elmi Əsərlər, AzTU, №3, Баку, 2012, стр.131-34
152. Мехралиев Е.Г., Ахундов А.Н. Ширванилер. Баку: Елм, 1996. 61 с.
153. Мудрость воспитания: Книга для родителей. Сост. Б.М. Бим-Бад, Э.Д.Днепров, Г.Б. Корнетов. М.: Педагогика, 1987.-288с.
154. Нормы технологического проектирования. ГТС и СТС. НТП 112-2000. М., ЦНТИ “Информсвязь“, 2000, 168с.
155. Статистический Сборник Регионального Содружества в области связи (РСС), М.1991-2014 гг.
156. Шарифли М.Х. Феодальные государства Азербайджана во второй половине IX - XI в. Баку, Элм, 344 с.
157. CCITT. GAS-3 General Network Planning, 1983, ITU.
158. Flood J.E. Telecommunications Switching, Traffic and Networks. Prentice Hall. International (UK) Lim. 1995, p.310.
159. İltifat Əliyarlı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə rabitənin inkişafı. –Bakı, “Mütərcim”, 2009. -124 səh.
160. Vəlişov N.T. (*Nazim Tapdıqoğlu*). Göyçay rayonu və onun toponimiyası. Bakı, “Təhsil” NPM, 2004, 246 səh.

## Публикации в средствах массовых информации (СМИ)

161. Каграманзаде А.Г. “Respublikanin informasiyasi nazarat altindadir” , AZADLIG-30.05.92
162. Каграманзаде А.Г. "Вопросы приватизации в отросли связи, газета "Бакинский Рабочий" от 29 января 1999г.
163. Каграманзаде А.Г. "Что обещает ближайшее будущее в связи", газета " Азадлыг", от 24 и 25 августа 1999г. (азерб. яз).
164. Каграманзаде А.Г. "Телефоны нужны всем. А специалисты - не очень", "Ежедневные новости", № 37 от 17.09.1999г.
165. Каграманзаде А.Г. "Телефонная война", газета "Неделя" от 8 октября 1999г.

166. Каграманзаде А.Г."В АзТУЦ-е новые слушатели", Информационное Агентство Туран ", выпуск № 24 от 10.11.1999г.
167. Каграманзаде А.Г. в Информационное Агентство "Туран" за № 24 от 10 ноября 1999г.
168. Каграманзаде А.Г. "Требуется правовое регулирование в отрасли связи", ИА "Туран " за № 34 от 08 декабря 1999г.
169. Каграманзаде А.Г. "Взгляд на процесс приватизации в телекоммуникации страны", "Туран " за № 39 от 20 декабря 1999г.
170. Каграманзаде А.Г. "По ком звонит колокол Минсвязи ", "Неделя" от 07 января 2000г.
171. Каграманзаде А.Г. "Вопросы приватизации в телекоммуникации с учетом опыта развивающихся стран (часть-1) ,ИА "Туран" за №13(55) от 04 февраля 2000г.
172. Каграманзаде А.Г. "Вопросы приватизации в телекоммуникации с учетом опыта развивающихся стран (часть-2), ИА "Туран" за №15(57) от 09 февраля 2000г.
173. Каграманзаде А.Г. "АзТУЦ консолидирует информационно-учебную базу по телекоммуникации в республике", ИА "Туран" за № 35 (77) от 31 марта 2000г.
174. Каграманзаде А.Г. "Отрасль связи нуждается в шоковой терапии", газета "Зеркало" № 94 (851) от 20 мая 2000г.
175. Каграманзаде А.Г. "Телекоммуникация - один из действенных рычагов повышения уровня жизни ", газета "Новое время", № 48(58) от 16-22 декабря 2000г.
176. Каграманзаде А.Г. “Эпитафия учителю“, газета “Зеркало”, № 223 от 24 ноября 2001г.
177. Каграманзаде А.Г.“О вопросе регулирования в телекоммуникации”, “Internet News” № 56 от 27 марта- 3 апреля 2002 г. http://www.internet.news.az/archives.php?day=27&month=3&year=2002&id=8
178. Каграманзаде А.Г. “Стагнация телекоммуникаций в Азербайджане”, газета “Зеркало”, №58, от 30 марта 2002 г.
179. Каграманзаде А.Г. "О вопросах регулировании в телекоммуникации" газета “Internet News” за № 56 от 3 апреля 2002.
180. Каграманзаде А.Г. "О регулировании радиочастотного спектра" газета “Internet News” за № 65 от 30 мая - 5 июня 2002 г. http://www.internet.news.az/print.php?id=811
181. Каграманзаде А.Г. “Об инфокоммуникационном Союзе” газета “Internet News” за № 67 от 13-19 июня 2002 г. http://www.internet.news.az/print.php?id=837

182. Каграманзаде А.Г. “О стратегии развития Интернета Азербайджане” газета “Internet News” за № 68 от 20-26 июня 2002 г.http://www.internet.news.az/archives.php?day=20&month=6&year=2002&id=2
183. Каграманзаде А.Г. “О дистанционном образовании” газета “Internet News” за № 69 от 27 июня – 3 июля 2002 года. http://www.internet.news.az/print.php?id=861
184. Каграманзаде А.Г. “О принципах перехода к информационному обществу” газета “Internet News”, № 74 от 1-7августа 2002г.
185. Каграманзаде А.Г. “ О терминалогиях для дистанционного образования” газета “Internet News” № 75 от 8-15 августа 2002 г.
186. Каграманзаде А.Г. “О преодолении “цифрового разрыва” в Азербайджане” газета “Internet News” № 76,15-21 августа 2002 г. http://www.internet.news.az/print.php?id=947
187. Каграманзаде А.Г. “О преимуществах членства в International Telecommunication Union” “Internet News”, № 77 от 29 августа- 4 сентября 2002 года. http://www.internet.news.az/print.php?id=960
188. Каграманзаде А.Г. “Об электронном правительстве”, “Internet News” за № 81 от 26 сентября-2 октября 2002 года. http://www.internet.news.az/archives.php?day=26&month=9&year=2002&id=2
189. Каграманзаде А.Г. “Мнение эксперта о приватизации”, “Internet News” BAKUTEL- 02 от 9-11октября 2002 года, ст р. 6
190. Каграманзаде А.Г. “Мнение эксперта о приватизации”, “Internet News” BAKUTEL- 02 от 9-11октября 2002 года, ст р. 6
191. Каграманзаде А.Г. “О проблемах пиратства трафика в телекоммуникации”, “Internet News”, № 85 от 31октября- 6 ноября 2002 г. http://www.internet.news.az/print.php?id=1065
192. Каграманзаде А.Г. “О принципах регулирования телекоммуникации”, “Internet News” № 86 от 7-13 ноября 2002 г/. http://www.internet.news.az/archives.php?day=7&month=11&year=2002&id=2
193. Каграманзаде А.Г. “О лицензировании в телекоммуникации”, “Internet News” № 87 от 14-20 ноября 2002 года. http://www.internet.news.az/archives.php?day=14&month=11&year=2002&id=2

194. Каграманзаде А.Г. “Кому нужна инфокоммуникация”, “Internet News” за № 93 от 9-15 января 2003 года. http://www.internet.news.az/print.php?id=1167
195. Каграманзаде А.Г. “О тарифной политике в телекоммуникации”, “Internet News” № 95 от 23-29 января 2003 года. http://www.internet.news.az/print.php?id=1192
196. Каграманзаде А.Г. “О проблемах телекоммуникации Азербайджана”, “Internet News” № 97 от 6-12 февраля 2003 года.
197. Каграманзаде А.Г. “О взаиморасчетах в ИТ”, “Internet News” за № 100 от 27 февраля 2003 года. с 3.
198. Каграманзаде А.Г. “О взаиморасчетах в ИТ”, “Internet News” за № 103 от 27 марта 2003 года. с 6.
199. Каграманзаде А.Г. “О взаимоподключении в ИТ”, “Internet News” за № 104 от 3 апреля 2003 года.
200. Каграманзаде А.Г. “Почему мы отстаем в информационно-компьютерной сфере?”, “Зеркало”, № 80, 1 мая 2003 года.
201. Каграманзаде А.Г. “Об альтернативности взаимосвязей в IT”, “Internet News” за № 112 от 5 июня 2003 года.
202. Каграманзаде А.Г. “Почему у нас так мало телефонов, а телефонная связь так дорога?”,“БИРЖА”, № 24, 13 июня 2003
203. Каграманзаде А.Г. “О регулировании телекоммуникационной отрасли”, “Internet News” за № 116 от 3 июля 2003 г.
204. Каграманзаде А.Г. “Перепутье без начало и конца” газета “БИРЖА Plus”, 12 сентября 2003 года.
205. Каграманзаде А.Г. “Məlumat-komputer texnoloğiyasının Azərbaycanda vəziyyəti necədir” Qərbi Azərbaycanın səsi qəzeti, № 06, 12-18 oktiyabr 2003 il.
206. Каграманзаде А.Г. “О проблемах построения электронного правительства”, “Internet News” № 123 от 6 ноября 2003 года.
207. Каграманзаде А.Г. “О некоторых вопросах в телекоммуникации”, “Internet News” № 126 от 27 ноября 2003 года.
208. Каграманзаде А.Г. “О мониторинге ИКТ в Азербайджане”, “Internet News” № 133 от 22 января 2004 года.
209. Каграманзаде А.Г. “Минсвязи: “Сам себе режиссер”, газета “Зеркало”, №24, от 7 февраля 2004 г.
210. Каграманзаде А.Г. “Telekommunikasiyada texniki siyasət haqqında”, “Internet News” № 134 от 12 февраля 2004 года.
211. Каграманзаде А.Г. “Azərbaycanda İKT-nin vəziyyəti”, “Internet News” за № 161, 26 avqust 2004-cü il.

212. Каграманзаде А.Г. “Дистанционное образование для Азербайджана” “Internet News” за № 162, 2 сентября 2004 года.
213. Каграманзаде А.Г. “О перспективах регулирования инфокоммуникации”, BAKUTEL-04, 29.09.04 года. № 1 стр12-13.
214. Каграманзаде А.Г. “О создании национальных регуляторов связи”, “Internet News” за № 173 от 25 ноября 2004 года.
215. Каграманзаде А.Г. “Проблемы обучения студентов online”, “Internet News” за № 179 от 13 января 2005 года
216. Каграманзаде А.Г. “О многоотраслевых регулирующих органах связи”,“Internet News” за № 185 от 24 .02.2005 г.
217. Каграманзаде А.Г. “Первый конкурс по веб - проектам”,“Internet News” за № 191 от 7 апреля 2005 года.
218. Каграманзаде А.Г. “Перспективы наших телекоммуникаций”,“Internet News” за № 192 от 14 апреля 2005 года.
219. Каграманзаде А.Г. “КАДРЫ РЕШАЮТ ВСЁ и в телекоммуникации тоже”. БИРЖА *PLUS* от 13 мая 2005г. стр.5
220. Каграманзаде А.Г. “Kadrlar telekommunikasiya sahəsində də hər şeyi həll edir”,“Internet News” № 197 от 19.05.05 il. səh.8.
221. Каграманзаде А.Г. “Этапы дистанционного образования”, “Internet News” за № 200 от 9 июня 2005г. стр. 10
222. Каграманзаде А.Г. “Стратегия развития телекоммуникационной области”, “Internet News” № 208 от 01.09.2005г. с. 4
223. Каграманзаде А.Г. “Деятельность AzRENA по развитию дистанционного образования в Азербайджане”, “Internet News” за № 210 от 15 сентября 2005г. с.12
224. Каграманзаде А.Г. “Почему нам нужен независимый регулятор”, “Internet News”, № 212 от 29 сентября 2005г. с.12
225. Каграманзаде А.Г. “Почему не завершается приватизация в отрасли”, “Internet News”, № 214 от 13 октября 2005г. с.4
226. Каграманзаде А.Г. “О конференциях по вопросам информатизации”, Telecommunication and Information Technologies. Bakutel-05, Baku, Daily News 3(6) от 28 октября 2005г. стр14-15.
227. Каграманзаде А.Г. “Телекоммуникации: задачи и перспективы” “Internet News”, № 221 от 1 декабря 2005г. с.4
228. Каграманзаде А.Г. “Либерализация телекоммуникаций” “Internet News”, № 224 от 22 декабря 2005г. с.10
229. Каграманзаде А.Г. “Во втором эшелоне” “ЭХО”, № 7 (1247) 17 января 2006 с.2
230. Каграманзаде А.Г. “Новый менеджмент в телекоммуникаций” “Internet News”, № 228 от 2 февраля 2006г. с.10

231. Каграманзаде А.Г. “О функциях независимых регуляторов сети” “Internet News”, № 230 от 16 февраля 2006г. с.10
232. Каграманзаде А.Г. “Эксперту в области телекоммуникации Абдулу Каграманзаде 60 лет” “Internet News”, № 237 от 6 апреля 2006г. с.10-11 http://www.internetnews.az/showart.php?id=4595&lang=
233. Каграманзаде А.Г. “Внедрение завезенных нововведений требует высокой компетенции в отрасли” www.newsazerbaijan.ru/analytics/20070504/41732784.html
234. Каграманзаде А.Г. “Кому достанутся телекоммуникационные сети в Азербайджане?”, “СТРАНА”, № 13 от 1-7 июня 2007г.8с.
www.newsazerbaijan.ru/analytics/20070530/41766431.html
235. Каграманзаде А.Г. “Кому нужно электронное правительство”, http://www.newsazerbaijan.ru/analytics/20070605/41776763.html
236. Каграманзаде А.Г. “Пиратство трафика в телекоммуникации” http://www.newsazerbaijan.ru/analytics/20070612/41787382.html
237. Каграманзаде А.Г. “Тарифы в секторе телекоммуникации” http://e-azerbaijan.info/site/main/1376
238. Каграманзаде А.Г. “О перспективах дистанционного образования в Азербайджане” http://e-azerbaijan.info/site/main/1476
239. Каграманзаде А.Г. “Телеком в Азербайджане: выход из кризиса есть?” Cnews–Казахстан, 17.04.08 http://www.cnews.kz/reviews/index.shtml?2008/04/17/106340
240. Каграманзаде А.Г. ”Смелость» молодежи на азербайджанском телевидении вызывает недоумение”. News-Azerbaijan.ru
http://www.newsazerbaijan.ru/exclusive/20080507/42285093.html
241. Каграманзаде А.Г. Оценка инновационных проектов в инфокоммуникациях Азербайджана. E-Azerbaijan. http://e-azerbaijan.info/site/main/1805
242. Каграманзаде А.Г. О технико-экономической политике в телекоммуникации Азербайджана. E-Azerbaijan http://www.e-azerbaijan.info/site/main/1882
243. Каграманзаде А.Г. Перспективы телекоммуникации в Азербайджане. E-Azerbaijan. http://www.e-azerbaijan.info/site/main/1995

244. Каграманзаде А.Г. Кадровые ресурсы Азербайджана являются основой активного развития ИКТ. http://www.e-azerbaijan.info/site/main/2367
245. Каграманзаде А.Г. Любой бизнес принимает услуги ИТ необходимым условием для своей эффективности деятельности. http://www.e-azerbaijan.info/site/main/2445
246. Каграманзаде А.Г. В Азербайджане необходимо создание Национального Независимого Регулирующего органа в сфере Связи и ИТ. http://www.e-azerbaijan.info/site/main/2507
247. Каграманзаде А.Г. Многоотраслевые регуляторы телекоммуникации. (http://www.e-azerbaijan.info/site/main/2595)
248. Каграманзаде А.Г. В Азербайджане так и не начата крупномасштабная приватизация государственных операторов связи. http://www.e-azerbaijan.info/site/main/2659
249. Каграманзаде А.Г. Об алгоритме приватизации в телекоммуникации Азербайджана. http://www.e-azerbaijan.info/site/main/2749
250. Каграманзаде А.Г. Тарифная политика в секторе телекоммуникации Азербайджана. http://www.e-azerbaijan.info/site/main/2822
251. Каграманзаде А.Г. Эволюция взаимоотношений государственных и независимых телекоммуникационных операторов. http://www.e-azerbaijan.info/site/main/2887
252. Каграманзаде А.Г. Взаиморасчеты в сфере телекоммуникации. http://www.e-azerbaijan.info/site/main/2932?force=1
253. Каграманзаде А.Г. Отсутствие преемственности. Зеркало № 14, суббота, 24 января 2009, стр. 41-42. http://www.zerkalo.az/rubric.php?id=39168
254. Каграманзаде А.Г. О независимости регулятора отрасли связи Азербайджана. Зеркало № 225, суббота, 11 декабря 2010, стр. 16. http://azeri.ru/papers/zerkalo_az/82409/
255. Азербайджану необходимы отраслевые институты связи для создания собственных технологий. Баку, 11/03/2013 – Новости Азербайджан. http://www.novosti.az/economic/20130311/298606436.html
256. Как создать электронное правительство в условиях цифрового неравенства? Баку,14/03/2013. -Новости-Азербайджан. http://www.novosti.az/obsh/20130314/298626752.html

257. Философия телекоммуникационной отрасли. Баку, 19/03/2013-Новости–Азербайджан.
**http://newsazerbaijan.ru/tech/20130319/298649019.html**
258. Успех в ИКТ купить нельзя – эксперт. Баку, 06/11/2013-Новости–Азербайджан.
**http://novosti.az/obsh/20131106/299612894.html**
259. О концепции развития телекоммуникации Азербайджана. Баку,14/11/2013-Новости–Азербайджан.
**http://novosti.az/tech/20131114/299645903.html**
260. Проблема кадров в азербайджанской телекоммуникации. Баку,21/11/2013-Новости–Азербайджан.
**http://novosti.az/tech/20131121/299683119.html**

# MÜNDƏRİCAT


Təşəkkür və minnətdarlıqlar… 3
Ön söz… 5
Müəllif haqqında… 6
Giriş… 11

I. UŞAQLIQ ƏYLƏNCƏDİR XATIRLADIQDA… 18
1.1. Biz hamımız Yaradanın qarşısında bərabərik… 18
1.2. Biz böyüyən zaman uşaqlıq keçir… 26
1.3. Məktəb – həyatımızın ən parlaq hissəsidir… 33
1.4. Biz isə Şərifli sülaləsindənik… 42
1.5. Mənim axırıncı üç məktəb illərim… 56
1.6. Bizim buraxılış on birinci sinfimiz… 65

II. TƏLƏBƏLİK İLLƏRİM… 78
2.1. Tibb kimə lazımdır?… 78
2.2. Politexnik institutuna necə qəbul oldum… 85
2.3. Rəsmi iş fəaliyyətim… 93
2.4. Öyrədən varsa, gənclik kamilləşir… 102
2.5. Moskvaya Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə səfər... 109
2.6. Böyümək və həyatda dəyişikliklər vaxtıdır… 113
2.7. Öz xahişim ilə keçirmə… 119
2.8. Ali təhsil – yalnız yolun başlanğıcıdır… 128
2.9. Telekommunikasiyanı niyə sevdim… 143

III. MƏNİM ASPİRANT İLLƏRİM… 157
3.1. Elmə doğru ilk addımlar… 157
3.2. Əyani məqsədli aspiranturam… 167
3.3. Piter (*Leninqrad*) – dünyanın ən yaxşı şəhəridir… 178
3.4. Başqalarına kömək et ki, sənə də kömək etsinlər… 183
3.5. Dissertasiya müdafiəsi və Tatyana Quanın fala baxması..... 194
3.6. Toy və Rabitə Nazirliyindən mənzilin alınması… 207
3.7. Dissertasiyamın ikinci dəfə müdafiəsi… 216

221

IV. XARİCDƏ ELMİ TƏCRÜBƏ ……………………..... 221
4.1. Xarici ezamiyyətə ilk hazırlıq ……………………….. 232
4.2. Əvvəlcə ingilis dili kursları ……………………….... 239
4.3. Wivenhoe-də baş tutmayan iməcliyim …………………. 246
4.4. Birmingemin Aston Universiteti ……………………… 256
4.5. Birmingemdən Londona həftəlik səfərlər.......................... 265
4.6. Folklend adaları üçün elan olunmamış müharibə………… 273
4.7. Böyük Britaniyadan qayıdış ………………………..... 282
4.8. Telefon rabitəsi kimə lazımdır?...…………………………… 292
V. BMT-nin TELEKOMMUNİKASİYA ÜZRƏ EKSPERTİ... 292
5.1. BMT-nin eksperti olmaq üçün sənədlərin verilməsi........... 303
5.2. İnstitutun həmkarlar komitəsində əmək fəaliyyətim……... 319
5.3. BMT-nin eksperti qismində ilk sahə sınağı........................ 332
5.4. Kabildə bəzi qəribə əhvalatlar………………………………. 343
5.5. Atəşli Əfqanıstandan dönüş...................………………… 356
VI. MÜSTƏQİL AZƏRBAYCAN............…………………... 356
6.1. 1990-cı ilin Qara yanvarı ……………………………… 368
6.2. Xalq üçün inqilabın ssenarisi...........……………………… 378
6.3. Azərbaycanda inqilab kimə lazımdır?.................……… 389
6.4. Bəs Azərbaycanı necə idarə edirdilər...…………………….. 401
6.5. Mən onların ssenarisi ilə, Rabitə Nazirliyində yox idim...... 415
6.6. Rabitə nazirliyində davamlı stress ayı ............…………… 429
6.7. "Öz vətənində peyğəmbər olmaz"......…………………….. 437
VII. ŞƏRİFLİ SÜLALƏSİNDƏN BİRİ ……………………...... 437
7.1. BMT-nin eksperti qismində ikinci missiyam...……….......... 448
7.2. BMT-nin eksperti qismində üçüncü missiyam ...... ……… 457
7.3. Salam ölkəm, Salam reallıq................................................. 465
7.4. Zəkatların ən yaxşısı kitab dərc edib, hədiyyə etməkdir...... 472
7.5. Telekommunikasiya Mərkəzi üzrə TASİS layihəsi............. 487
7.6. İnsanların xoşbəxtliyi, onların şüurundadır........................ 491
7.7. Şərifli sülaləsinin məşhur nümayəndələri .......................... 498
7.8. Bığır və Şərifli sülaləsi – Şirvanın bir hissəsidir.......…...... 506
7.9.Bakı – Şirvanın və bütün Azərbaycanın paytaxtıdır............. 515
Nənicə...........................………........…............................... 528
Ədəbiyyat............................................................................

Azf-305659